**Azərbaycan Milli Elmlər Akademiyası**
**Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu**

**ŞAHZADƏ NADİR MİRZƏ QACAR**

# TƏBRİZ DARÜSSƏLTƏNƏSİNİN TARİXİ, COĞRAFİYASI VƏ GÖRKƏMLİ ŞƏXSLƏRİ

**Bakı – 2019**

*Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu elmi şurasının 22 oktyabr 2018-ci il tarixli 5 №-li iclasının qərarı ilə nəşr olunur.*

Mətni fars və ərəb dillərindən tərcümə edən, izahların, şərhlərin və ön sözün müəllifi:
**Hacı Rauf ŞEYXZAMANLI**

Baş elmi məsləhətçi:
akademik **Teymur KƏRİMLİ**

Tərcümənin redaktoru:
fil.ü.e.d. **Nəsib GÖYÜŞOV**

Rəyçi:
**Mohəmməd Əmin SULTAN OL-QURRAİ**
*(Ustad. Təbriz)*

**Şahzadə Nadir Mirzə Qacar**. Təbriz darüssəltənəsinin tarixi, coğrafiyası və görkəmli şəxsləri. “Elm”, Bakı, 2019. 566 səh.

*Bu kitabda Qacarlar sülaləsinin nümayəndəsi, bir neçə dəyərli əsərin müəllifi olan şahzadə Nadir Mirzə Təbriz şəhərində baş vermiş ən mühüm tarixi hadisələr və təbii fəlakətlər, sakinlərin keçirdiyi dini mərasimlər və milli bayramlar, əhalinin gündəlik yaşayışı və əyləncələri, burada bişirilən xörəklər, şəhərin ab-havası, coğrafi məkanları, məhəllələri, qədim tikililəri, kəhrizləri, qəbiristanlıqları, bağlarında yetişdirilən meyvələr, buranın siyasət və din xadimləri, alimləri, şairləri, sərkərdələri və digər məşhur adamları haqqında tarixi sənədlərə və şəxsi müşahidələrə əsaslanan geniş və dəqiq məlumat vermişdir.*

ISBN 978-9952-514-86-5

© “Elm” nəşriyyatı, 2019

# NADİR MİRZƏNİN NADİR ƏSƏRİ

Qacarlar sülaləsinin ən parlaq elm, mərifət və fəzilət sahiblərindən olmuş şahzadə Nadir Mirzə (1827-1885) Astrabad (indiki Gürgan) şəhərində dünyaya göz açsa da, ömrünün böyük hissəsini Təbrizdə keçirmişdi. Müəllifi olduğu əsərlərdən onun mükəmməl təhsil aldığı, doğma türk və dövlət fars dillərindən başqa ərəb və fransız dillərini də yüksək səviyyədə bilməsi məlum olur. Nadir Mirzənin istedadlı bir qələm sahibi olduğu onun yazdığı bir neçə kitabdan, o cümlədən: aşpazlıq mövzuda fars dilində "Karnamə"[1], ərəb atalar sözləri və zərbi-məsəlləri haqqında ərəb dilində "Nəvadirül-əmsal", anatomiya elmi üzrə yenə ərəb dilində "Təşrihül-insan" risalələrindən bilinir. Hal-hazırda təqdim olunan "Tarixü coğrafiyi-darüssəltəneyi-Təbriz be-zəmimeyi-şərhi-hali-büzürgan", və ya sadəcə "Tarixi-Təbriz" kitabı isə, sözsüz ki, onun ən məşhur və mühüm əsəridir. Nadir Mirzənin qırxillik müşahidələrinin bəhrəsi olan bu kitab qədim zamanlardan tutmuş XIX əsrə qədər böyük dövrü əhatə edir. Yazılması 1884-cü ildə tamamlanmış əsər Təbriz şəhərinə həsr olunsa da, ümumilikdə Azərbaycana dair maraqlı bilgilərlə zəngindir. Burada yüzə yaxın tarixi sənəddən, o cümlədən məktublardan və fərmanlardan istifadə olunmuş və həmin sənədlər kitabın səhifələrində təqdim edilmişdir. Əsərin adından bilindiyi kimi, müəllif təkcə tarixi hadisələri şərh etməklə kifayətlənməyib, Təbrizin imarətləri, məscidləri, qəbiristanlıqları, bağları, çeşmələri, çayları, dağları, kəhrizləri və məhəllələri, burada bitən meyvələr, habelə yerli əhalinin adət-ənənələri, mərasimləri və bişirdikləri xörəkləri haqqında dolğun məlumat verir və eyni zamanda görkəmli hökumət və din xadimlərini, alimləri, şairləri və Təbrizin tarixində iz qoymuş sadə sakinləri xatırlayır.

Oxucu Nadir Mirzənin tərcümeyi-halı ilə kitabın "Günahları bağışlanmış mərhum və məbrur müəllifin özü Nadir Mirzə haq-

---

[1]Bax: Nadir Mirzə Qacar. "Karnamə" (Qacarlar dövrünün xörəklərinə dair risalə). Tərcümə edən: Hacı Rauf Şeyxzamanlı. Bakı. "Elm və Təhsil", 2013.

qında bir neçə söz" fəslində tanış olur. Lakin "Nəvadirül-əmsal" kitabının səhifələrində onun yazdığı "Müəllifin soy-kökü haqqında" adlı bölümdə daha geniş və dəqiq məlumatın verildiyini nəzərə alaraq biz onu da hazırkı nəşrə əlavə etməyi lazım bildik. Aşağıda həmin yazı dəyişikliksiz təqdim olunur:

"Nadir bin Sahibixtiyar ləqəbli Bədiüzzəman bin Məlikara ləqəbli Məhəmmədqulu bin Fəthəli şah Qacar. Anası: Cahan Sultan, adıçəkilən sultanın[1] oğlu Hüsamüssəltənə ləqəbli Məhəmməd Təqinin qızıdır. Atasının anası: Şahzənan, Şahrux bin Rzaqulu bin Nadir şah Əfşarın qızıdır. Anasının anası: Ümmkülsum, Köhnəlu tayfasından Səfərəli xan Qacarın qızıdır. Atasının anasının anası: Nişaburun xanımlarındandır. Şahruxun anası: Fatimə Sultan, Sultanülə'zəm şəhid Sultan Hüseyn Səfəvinin qızıdır. Məlikaranın anası: Asya, Əmirülüməra Məhəmməd xan Qacar Qoyunlunun (Qovanlu) qızıdır. Hüsamüssəltənənin anası: Zeynəb, Bəxtiyari[2] tayfasından Əli Tuşmalın qızıdır. Babam Hüsamüssəltənədən eşitmişəm ki, o qadın, Allahın izni ilə, şərafət sahibi olmuşdur. Səfəvilər nəsli, şübhəsiz ki, Musa bin Cə'fərə (ə) yetişir. Beləliklə, fəxrlə deyirəm ki, mən Seyyidünnasın[3] oğluyam və seyyidliklə şərafət mənə çatır.

Bizim dövrdə Cürcan[4] vilayətinin mərkəzi sayılan Astrabad şəhərində, cümə günü, mübarək ramazan ayının son günündə, Günəşin doğduğu vaxt, hicrətin 1242-ci ilində[5] bu dünyaya gəlmişəm".

"Tarixi-Təbriz" elə yazıldığı gündən oxucularda xüsusi maraq oyatmışdır və bu əsərin dəfələrlə İranda çap olunması (sonuncu dəfə 2014-cü ildə) buna dəlalət edir. Kitab ədəbi tənqidçilər tərəfindən də çox yüksək dəyərləndirilmişdir və demək olar ki, hamı onun yeni üslubda yazılmasını qeyd etmişdir. Məlumdur ki, XVIII əsrin sonundan başlayaraq İran ədəbiyyatında ifrat

---

[1] Yəni, Fəthəli şah Qacarın

[2] Bəxtiyari – əfqan tayfası.

[3] Seyyidünnas – Mühəmməd Peyğəmbər (s).

[4] Cürcan – Gürgan.

[5] Miladi təqvimi ilə 27 aprel 1827

dərəcəsində ağır və mürəkkəb yazı dilinin buxovlarından qurtulub Səfəviyyə dövründən əvvəl olduğu kimi daha sadə və anlaşılan dildə yazmağa meyillər artmağa başlamışdı. Lakin bu qayıdış cəhdləri özünü əsasən nəzmdə büruzə verməkdə idi. Nadir Mirzə Qacarın "Tarixi-Təbriz"i isə məhz nəsrdə də bu "qədim-yeni" üslubda yazılan ilk tarixi əsərlərdən biri, bəlkə də ən birincisi olmuşdu. Bununla belə, ayrı-ayrı alimlərin onun dili haqqında tamamilə fərqli, bəzən hətta bir-birinə zidd fikirlər söyləmələri maraq doğurur. Məsələn, məşhur ədəbiyyatşünas və türkoloq Məhəmməd Əli Qövsi Fərzanə "Tarixi-Təbriz"in ustadanə, xalis fars və qədim tarixçilərin üslubuna bənzər dillə yazıldığını qeyd etdiyi halda, həmkarı Abbas İqbal Aştiyani təəssüf hissilə onun mətninin çox süni, qarışıq və bəzən anlaşılmaz olduğunu buyurmuşdur. Ədalət xatirinə hər iki tərəfin sözündə həqiqətin olduğunu qeyd etməliyik. Belə ki, biz özümüz də tərcümə zamanı kitabda gətirilən sənədlərin rəsmi münşiyanə və çox vaxt başa düşülməsi üçün çətinlik yaradan üslubda qələmə alındığını təbii saysaq da, mətnin qalan hissəsinin bəzən çox sadə və səlis, bəzən isə tamamilə anlaşılmayan şəkildə yazıldığını müşahidə etmişik. Bu halda biz əsə-rin üslub özəlliklərini dəqiqliklə oxucuya çatdırmaq yolunu seçərək tərcümə mətnini əsl mətnə mümkün qədər yaxın vəziyyətə gətirməyə çalışdıq.

Yuxarıda qeyd etdiyimiz kimi, "Təbriz darüssəltənəsinin tarixi, coğrafiyası və görkəmli şəxsləri" əsəri dəfələrlə köçürülmüş və çap olunmuşdur. Hazırkı nəşrin hazırlanmasında əsasən iki nüsxədən istifadə edilmişdir.

Birincisi: AMEA Füzuli adına Əlyazmalar İnstitutunun xəzinəsində XIII – 178 şifri altında saxlanılan daşbasma nüsxəsi. Bu kitab Ağamirzə Hidayətüllah Lisanülmülk Məlikülmüvərrix tərəfindən çapa hazırlanmış və 1905-ci ildə Tehranda işıq üzü görmüşdür. Tərcümə zamanı məhz bu nüsxənin mətni əsas götürülmüş və onun içindəki bölümlərin sıralaması və tərtibatı olduğu kimi saxlanılmışdı. Bununla belə, biz kitabdakı biri Nil çayı mənbəyinin axtarışına, digəri isə Süveyş kanalının qazıl-

masına həsr olunmuş iki fəslin Təbrizə, Azərbaycana və, başqa sözlə desək, əsərin adına və mövzusuna heç bir aidiyyəti olmadığını və onların içində təqdim edilmiş məlumatın müasir oxucu üçün böyük əhəmiyyət daşımadığını nəzərə alaraq bu fəsilləri mətndən tamamilə çıxarmaq qərarına gəldik.

İkincisi: 2014-cü ildə Təbrizdə "Aydın" nəşriyyatında çıxmış nüsxə. Bu kitabı çapa hazırlayan görkəmli ədəbiyyatşünas Qulamrza Təbatəbai Məcd, özünün yazdığı kimi, əsər üzərində işləyərkən üç nüsxədən istifadə etmişdir. Nəhəng iş görmüş müsəhhih kitaba 1000-ə yaxın izahlarla şərhlər yazmışdır. Biz hörmətli doktor Təbatəbai Məcdə həmin şərhlərin bəzilərini hazırkı tərcümə kitabının səhifələrinə gətirmək üçün, necə deyərlər, halallıq verdiyinə görə dərin təşəkkürümüzü bildiririk.

***R.Şeyxzamanlı***

## Bismillahir-rəhmanir-rəhim

## [Müqəddimə]

Çox kitab oxudum, çox zəhmət çəkdim
Həm ərəb, həm pəhləvi[1] dilində.
Bu hünərlə altmış iki yaşa çatdım ki,
Açıqdan və gizlidən azuqə toplayım.
Həsrətdən və günah işlər ağırlığından başqa
İndi cavanlıqdan heç bir əlamət qalmayıb.
İndi ağlaya-ağlaya cavanlığı yada salıb
Bu Tahir Xosrovaninin[2] o beytini oxuyuram:
Cavanlıq uşaqlığı xatırladır,
Heyf cavanlıqdan, heyf cavanlıqdan!

Ey dost, indi söz söyləməyin və iş buyurmağın o məqamındayam ki, qocalıq mənə üstün gəldiyindən əlimdə güc və gözümdə işıq azalıb, bu dünyada saçlarım ağardığından ümidsizliyə qapanmışam, içdiyim şərabın hər qurtumu ürəyimi bulandırır və əsdəqül-məvaidin[3] qapısına gəlib çatmışam. Bununla belə, ağamızın, özü də Əbdü Mənafın[4] nəslindən olan bir şəxsin fərmanını yerinə yetirmək bizim vəzifəmizdir, yoxsa nə qələm işi mənim əcdadlarımın peşəsi olub, nə də bizim ailədə kimsə yazı-pozu işinə baxıb və ağızdan çıxan sözümüz çöllərdə və səhralarda hind qılıncını və yəmən xəncərini oynatmaqdan savayı bir şey olmayıb. Sən mənə bu işi tapşırdın və Ulu Tanrı mənə cavanlıqda elm ilə cism bağışlayıb və bu yerdə bizim həqiqi mövlanamız əmirülmöminin Əli əleyhissəlam qoymaz ki, oğlu arzusuna çatmasın. Onun mədədi sayəsində və Allah-təalanın köməyi ilə mən bu yazını sən istədiyin kimi başa vurmalıyam.

---

[1] Burada müəllif fars dilini nəzərdə tutur.
[2] Bu Tahir Xosrovani – Rudəkinin müasiri olmuş xorasanlı şair.
[3] Əsdəqül-məvaid – vəd edənlərin ən sədaqətlisi, ölüm.
[4] Əbdü Mənaf – Məhəmməd peyğəmbərin (s) babası Əbdülmüttəlibin babası.

Mən səndən aldığım əmrin ilə bu sözləri yazmaqda əziyyət çəkmirəm və min iki yüz doxsan doqquzuncu ildə[1] buyurduğun işin heç onda bir hissəsini də yolum çətin yerə düşdüyünə görə icra etməmişəm[2]. İndi isə sən Allahın lütfü ilə məni bağışlayandan sonra mən kəmərimi möhkəm bağlayıb və Yaradana şükr deyib yalvardım ki, dilimdəki o bənd ilə düyünü açsın və mən bu dünyada gördüyüm əzabı unudum. Həmin vaxt yadıma düşən İbn Əlvəsidən[3] ərəb dilində olan üç beyti burada gətirirəm:

Ağırlığından dərin ah çəkdi,
Ölüm qorxusundan darıxıb iflic oldu.
Gücünü toplayıb bütün səylərini
O yükü daşımağa yönəltdi.
Doğum gecəsi rahatlanmaq üçün
Döllərin ən yaxşısına hamilə oldu.

Həqiqətən belə oldu ki, böyük xacəmizin buyuruğu yetişən kimi mən özümdə ayrı bir qüvvə gördüm, əcdadlarımın göylərə qalxan himməti yadıma düşdü, damarlarımda dövr edən qan qaynamağa başladı, ürəyimi sıxıb bu işə əl atdım və söz söyləməyə başladım. Mən bu qoca yaşımda Rudəkinin yazdığı vəzni təqlid etdim, ancaq məqsədim ustadların mənə afərin demələri olmayıb, mən burada şahənşah və onun şöhrətli oğlu haqqında söz açıb o böyük şəxsiyyəti ürəkdən gələn gözəl kəlmələrlə öydüm. Bu kitabın başında mübarək bir qəsidə var: burada şahənşahla vəliəhdə oxunan səna bir fərizədir və peyğəmbər nəslindən olana deyilən mədh bir qaydadır. Həmin şeiri yazandan sonra sözümü sənin buyurduğun istiqamətə yönəltdim.

---

[1] Miladi təqvimilə təqribən 1882-ci ilə müvafiqdir.
[2] Həmin ildə Nadir Mirzə Mirzə Məhəmməd Rza Nəsəqçibaşının əmri ilə həbs olunmuşdu.
[3] İbn Əlvəsi – Seyyid Məhəmməd Şükri, Bağdad şairlərindən olub. “Büluğül-ərəb fi mərifəti əhvalil-ərəb” əsərinin müəllifidir.

## Bu belədir

Cavanlıq günlərimdə dodaqlarım gülər olub,
Ağzımdakı dilim iti xəncər kimi olub.
Məclisdə söz deyən zaman
Ağzım min dastana qapı olub.
Danışdığım zaman dilə gətirdiyim xitablar
Sanki Qəss ilə Səhbanın[1] nitqlərindən bir parça olub.
Söz söyləyən olmuşam o sərməst bülbül kimi ki,
Gülüstanda qızıl gülün havasına züy tutan olub.
Ərəb şeirində elə xirədmənd olmuşam ki,
Sən deyərdin: – Kə'b, Cərir və Ğəssan[2] kimi olub.
İki dodağım incəliyə və rəngə görə qızılgülün ləçəyi kimi idi,
Söylədiyim söz sanki şəkər diyarı olub.
Mən pəhləvi və dəri dillərində şeirlər söyləyəndə
Sən deyərdin ki, bu şirin sözlü tuti olub.
Göz ilə qaşım üzümün suyu idi,
Qövsvari kaman deyil, kəbadə[3] olub.
Hər iki üzümün altında və üstündə
Zənci saçı və kipriklər dəstəsi olub.
İki cərgə dişlərim olub, ağ və bərqvuran,
İki sapa keçirilmiş parlaq incilərim olub.
Xəsisin pul kisəsinə bənzər iki bazum olub,
O iki bazuda pəhləvan gücü olub.
Döyüş günü və ova çıxan gün hərəkətlərim
Keyxosrov[4] ilə Nərimana[5] bənzər olub.
Ziyafət günü çöhrəm nursaçan huriyə,
Hərb günü nərəçəkən şirə oxşar olub.
Açıq səhrada atın belinə minəndə
Deyərdin ki, Söhrab[1] səməndə[2] minmiş olub.

---

[1] Qəss və Səhban – məşhur ərəb xətibləri.
[2] Kə'b, Cərir və Ğəssan – məşhur ərəb şairləri.
[3] Kəbadə – ox atmağı yeni öyrənənlər üçün kiçik yay.
[4] Keyxosrov – İranın əfsanəvi Kəyanlar sülaləsinin 3-cü padşahı, guya Şəyavuşun oğludur.
[5] Nəriman – əfsanəvi bahadır, "Şahnamə" əsərinin qəhrəmanı.

Qəddim sərvi-xuraman kimi, bədənim nəhəng fil kimi,
Könlüm dağ kimi, ovucum parlaq inci kimi olub.
Mən fikrimi söyləyəndə Ərəstu[3] yada düşərdi,
Mən nəsihət verəndə Büzürcmehr[4] mənim yanımda bir əkinçi olub.
Qoşunu düşmənin üstünə aparanda
Əzmim gəncin əzmi, tədbirim qocanın tədbiri olub.
Ov günü yer üzü ilə yürüyəndə
Deyərdin ki, Rüstəm[5] Turan çölünə çıxmış olub.
Mən yaşıllıqda oturan zaman
Deyərdin ki, Nuşirəvan[6] eyvana çıxmış olub.
Mən gecə dincəlməyə evə tərəf gedəndə
Deyərdin ki, Cəmşid[7] yataq otağına yollanmış olub.
Mən mərəkə günü əynimə döyüş paltarı geyəndə
Deyərdin ki, şir arxalıq geymiş olub.
O qüdrətdən şir heyrətə gəlmiş olub,
O səsdən erkək fil qaçmış olub.
Oxum eynilə əfi ilan kimi olub,
Nizəmin tiyəsi əjdahanın dili kimi olub.
Xəncərimin qını çobanın çörəyi kimi qara olub,
Çəkəndə deyərdin ki, dan zamanı göy qızarmış olub.
Huş, beyin, fikir və hünərlə dolu yekə başıma
Deyərdin ki, ağıl ilə dəlil xəzinəsi kimi olub.
İndi ondan addan başqa heç nə qalmayıb,
Əfsanə olub, yuxu məkri olub, dastan olub.
Tanrının mənə verdiyi o güc

---

[1] Söhrab – əfsanəvi pəhləvan, "Söhrab və Tahir" dastanının qəhrəmanı.
[2] Səmənd – qırmızı-kəhər at.
[3] Ərəstu – Aristotel (m.ə. 384 – 322), qədim yunan filosofu.
[4] Büzürcmehr (və ya Büzürgmehr) – rəvayətə görə, hökmdar Ənuşirvanın vəziri olub.
[5] Rüstəm – əfsanəvi pəhləvan, "Şahnamə" əsərinin qəhrəmanı.
[6] Nuşirəvan – I Xosrov Ənuşirvan (Ənuşirəvan, Nuşirəvan). İranın Sasanilər sülaləsinin 21-ci padşahı (531-579). Tarixə ədalətli hökmdar kimi düşmüşdür.
[7] Cəmşid (Cəm) – İranın əfsanəvi hökmdarı, Pişdadilər sülaləsinin 4-cü şahı, dastanlarda Günəşın oğlu, atəşpərəstliyin banisi və şərabı icad edən kimi göstərilir.

Bir nişan olub və fərman olub.
Verdiyi və sonra aldığının yerinə
Ağıl artırıb ki, aləmin dayağı olub.
Cahilliyi alıb, huş ilə mərifət və bilik verib ki,
Yaradanın tək və pak olmasının əlaməti olub.
Verdiyi aldığından yaxşı olub,
Deyərdin ki,verdiyi aldığından üstün olub.
Mənim şəhərdə elə könülalan və fərasətli gözəlim olub ki,
Yüz min ürək zülfündən pərişan olub.
Qəddə sərvi-xuraman, üzdə cənnət hurisi,
Qəzəlxan kimi şeir oxumaq qabiliyyəti olub.
Ağzı əttarın mal ilə dolu sandıqçası,
Sözü cadugərlər məskəni olub.
Mələk xasiyyətli, ənbər qoxulu, müşk saçlı,
Ahu gözlü, yüngül ruhlu, nar sinəli olub.
Onun bədənini görən ah çəkib,
Boynu bükülmüş, ürəyi darıxmış, üzü solmuş olub.
O gələndə qəm-qüssə hara gedib?
Həmişə şad, xürrəm və gülər olub.
Sən ki, Bəni-Əhmədin[1] fəxrisən, Xudanın barı
Daim sevinib və xoşbəxt olub.
Uca nəsilli vəkil, pak əsilli şərif ki,
Bütün yaxınları Ədnanın[2] ailəsindən olub.
Əgər rəyi düz və fikri qızıl olmayıbsa,
Bəs necə bütün Azərbaycana vəkil olub?
Öyüdü bir həkimin və başbilənin öyüdü,
Sədd qoyduğu yer möhkəm və keçilməz olub.
Sən məni divin qalasındakı həbsdən azad etdin,
O da İran şahı vəliəhdinin kəməndi olub.
Cahan sahibi, möhtərəm Nasirəddin şah[3] ki,
Burdan Adəmə qədər şəhriyarlar nəslindən olub.

---

[1] Bəni-Əhməd – Mühəmməd Peyğəmbərin (s) nəsli.
[2] Ədnan – Mühəmməd Peyğəmbərin (s) əcdadlarından biri.
[3] Nasirəddin şah – Məhəmməd şahın oğlu, Qacarlar sülaləsindən olan hökmdar (1831-1896).

O Fəridunun[1] namaz qıldığı yer
Sarayda padşahların busəgahı[2] olub.
Zəmin ilə zamanın şərəfli və fərəhli şahənşahı ki,
Bütün dünyada Qacar xanın fəxri olub.
Meşələrin pələngi olub və dənizlərin nəhəngi olub,
Çöllərin aslanı olub və eyvanın yaraşığı olub.
Məclis yerində parlaq bir günəş,
Döyüş çağı bədəni bükülmüş bir əjdaha olub.
Böyük şəhriyarın oğlu Müzəffərəddin[3]ki,
İran şahının canişini və vəliəhdi olub.
Bütün aləmin şahənşahları onun adını çəkərlər ki,
Şəhriyarlara zəfərin nə olduğunu göstərmiş olub.
Əzmdə Siyavuş  şahın[4]cavanoğlu olub,
At çapmaqda Samın[5] övladı olub.
Döyüşdə dəmir qollu aslan və hirslənmiş fil olub,
Xəncər caynaqlı və bıcaq dişli pələng olub.
Sən padşahsan və sənin əcdadın
Şahlar şahı şahının atası olub.

Hökmdarlara layiq bu diba[6] dinin nuru oldu, ay böyük dost! İndi onun dəstəyi ilə sənin tacındakı pak zümrüdlə kəmərimi möhkəm bağlayıram və rəngsiz kağıza yazının qarasını vururam. Səhərlər sənin pak əcdadlarına üzümü tutub bildiklərimi təsvir etmək bacarığını diləyirəm ki, sənin kimi həzrətin bəyəndiyi və sənə layiq olan bir əsəri ortaya gətirə bilim. *Və la hövl və la qüvvə illa billahir-rəhmanir-rəhim.*

---

[1] Fəridun – İranın əfsanəvi padşahı, Pişdadilər sülaləsinin 6-cı hökmdarı, Cəmşidin nəvəsi.
[2] Busəgah – öpülən yer.
[3] Müzəffərəddin şah – Nasirəddin şahın oğlu, Qacarlar sülaləsindən olan hökmdar (1853-1907).
[4] Siyavuş (Səyavuş, Səyavuxş) – “Şahnamə” əsərinin qəhrəmanlarından biri, Key-Kavus şahın oğlu.
[5] Sam – İranın əfsanəvi qəhrəmanı, guya Keyqubadın nəslindən olmuşdur.
[6] Diba – naxışlı ipək parça.

# Təbriz

Bu gün Təbriz İranın böyük şəhərlərindəndir, Azərbaycanın dayağıdırvə bu iqlimin elm ilə bilik mərkəzidir. Bu şəhər Peyğəmbərin (s) bəsətindən sonra bina olunmuşdur və biz onun bünövrəsini qoyanın kim olduğunu, buraların hansı dövrdə abadlaşdırıldığını dəqiq bilmirik. İndi tarixçilərin dediklərindən qısa sözləri gətirməyin yeridir ki, xələflərimiz bizim bu qeydləri görməməyimiz və onlardan xəbərsiz olmağımız fikrinə düşməsinlər.

## Təbrizin tikilməsi və onu inşa edənləri məsələsində tarixçilər arasında olan ixtilaflar haqqında

Əbu Səid "Təbriz" sözünü kəsrəli "tə" hərfi ilə yazıb, qaziyül-qüzat[1] Əhməd bin Xəllikan[2] da özünün "Tarix" kitabında Əbi Mansur Məhəmməd bin Əhmədin tərcüməsində "Təbriz" sözünü kəsrəli və iki nöqtəli "tə" ilə göstərmişdir və o, çox fazil və dəqiqliyi sevən bir tarixçi olmuşdur. Bu adın hansı dildə qoyulduğu aydın olmadığına görə biz bu barədə bir söz söyləmirik. Mühasibat məmuru olmuş Həmdüllah[3] deyir ki, bu islam şəhəridir və onun bünövrəsi Cəfər Abbasinin qızı, Harun ər-Rəşidin zövcəsi və Məhəmməd Məxlunun anası Zübeydənin göstərişi ilə hicrətin yüz yetmiş beşinci ilində[4] qoyulmuşdur. Bu yenicə tikilmiş şəhər altmış doqquz il qaldı, sonra Əlmütəvəkkiləlallahın[5] dövründə yer titrədi və Təbriz viran oldu. İki

---

[1] Qaziyül-qüzat – baş hakim.

[2] Əhməd bin Xəllikan – Dəməşqdə yaşamış tarixçi, hakim və ədib (1211-1282), "Tarixü İbn Xəllikan" və "Vəfiyatül-əyan" əsərlərinin müəllifi.

[3] Həmdüllah Müstövfi Qəzvini (1281-1349) – məşhur tarixçi, "Tarixi-güzidə", "Nehzətül-qülub" və "Zəfərnamə" əsərlərinin müəllifi.

[4] Miladi təqvimilə 791/792

[5] Əbülfəzl Əlmütəvəkkiləlallah – 847-861-ci illərdə xilafətin başında olmuş şəxs.

yüz qırx dördüncü ildə[1] Mütəvəkkil[2] onun tikilməsinə fərman verdi və əvvəlkindən də yaxşısını inşa etdilər. Yüz doxsan il təməli üstündə qaldı, sonra növbəti dəfə zəlzələ nəticəsində dağıldı. Bu fəlakət dörd yüz otuz dördüncü ildə[3] baş verdi. Belə yazırlar ki, Şiraz münəccimi Bu Tahir o hadisədən xəbər vermişdi və həmin gecə demişdi ki, yer silkələnəcək. Adamlar çölə qaçdılar və bu hökm doğru çıxdı. Lakin qaçılmaz əcəl qırx min cismi qara torpaq altına apardı. Azərbaycana başçı təyin olunmuş bir deyləmli əmir xilafət divanının qərarı ilə şəhəri yenidən inşa etdi. Taleyini Əqrəb bürcü əsasında öyrənməyi Bu Tahirin ixtiyarına buraxdılar. Adıçəkilən ulduz bilicisi dedi ki, bundan sonra bu şəhərin zəlzələdən qorxusu olmaz, ancaq su və yerin çökməsi ona ziyan vura bilər. Öz zəmanənin böyük həkimi və məşhur şeir yazanı olmuş Qətran[4] öz qəsidəsində həmin zəlzələləri xatırlayaraq o günlərdə bu şəhərin necə viran olduğunu təsvir etmişdi. Gözəl və fəsahətli dillə yazılmış qəsidəni burada gətirirəm:

Sən olduğun yerdə mühal[5] ümidin var
Qurulmuş aləmə ki, həmişə eyni haldadır.
Bu dünya yaranandan bəri
Dünya fırlanır, lakin onun halı dəyişmir.
Sən ayrı olursan, ancaq gecə ilə gündüz həmən,
Sən ayrı olursan, ancaq ay ilə il həmən.
Fal mühal olur və rəmz mühal olur.
Qoyma ki, qəlbin fal ilə rəmzə məşğul olsun.
Filan əyanın qurtulmağına təəccüblənmə,
Filan abdalın tutulmağına təəccüblənmə.
Sən sözün bəndəsisən, bəndələrinə deməlisən ki,

---

[1] Miladi təqvimilə 858 /859
[2] Yəni Əlmütəvəkkiləlallah
[3] Miladi təqvimilə 1042/1043
[4] Qətran Təbrizi – Əbu Mənsur Qətran Əzüdi Təbrizi, XI əsrin böyük Azərbaycan şairi və dilçi alimi.
[5] Mühal – mümkün olmayan, puç.

Heç kəs Allah-mütəalın hökmünü öncədən bilməz.
Həmişə bu oyaqdır, xalq isə yuxuya gedib.
Həmişə fələk dolanır, xalq isə malın axtarışındadır.
Qəlbini tədbirə bağlayıb təqdirə ağlayırsan.
Qəlbin əməllərə məşğul və haldan xəbərsizdir.
Kef zamanı narazılıq yada düşməz,
Görüş zamanı ayrılıq yada düşməz.
Dünyada Təbrizdən xoş şəhər olmaz
İmanda, dostluqda, xeyirxahlıqda və gözəllikdə.
Naz-qəmzədən bütün xalq içhaiç olur,
Xalq ilə maldan bütün şəhər dopdolu olur.
Orada hamı könlünün arzusuna çatır:
Əmiri də, bəndəsi də, sərkərdəsi də, fazili də, əxlaqsızı da.
Biri Yaradanın xidmətində, biri xalqın xidmətində.
Biri mal axtarar, biri mal yığar.
Biri səma məclisində cam istəyər,
Biri maralın üstünə tazını göndərər.
Gündüzlər şirin sözlü mütriblərlə,
Gecələr müşkin xallı gözəllərlə.
Hər kəs öz işindən ötrü tədbir görər,
Hər kəs öz malından ötrü səy göstərər.
Allah Təbriz xalqının başına fəna göndərdi,
Bu şəhərin nemətini zavala uğratdı.
Eniş yoxuşa döndü və yoxuş enişə.
Kül quma döndü və qum külə.
Torpaq çöküldü və binalar əyildi.
Dənizlər genişləndi və dağlar tərpəndi.
Nə çox sarayın üstü damsız qaldı.
Nə çox ağacın budağı hilal kimi oldu.
O ağacdan indi heç əsər də qalmadı.
O saraydan indi heç xarabalıq da qalmadı.
Ağlamaqdan qurtulanın saçı ağardı.
Nalə çəkməkdən qaçan nal kimi əyildi.
Hamını qiyamət günündə olduğu kimi gördüm ki,
Öncə Mehdinin qayıdışı və Dəccalın fitnəsi günüdür.

Tanrı dünyanın gözəlliyindən kamalı uzaqlaşdırdı.
Gözəllik hara düşdü və kamal hara apardı.
Gecə-gündüzü belə keçirməlisən:
Naz ilə, badə ilə, rud ilə, nəğmə ilə, işvə ilə, qəmzə ilə.
Neçə gözəl sevgi ilə könlümü almışdı,
Neçə arvada fəzilətlə ürəyimi açmışdım.
O arvad mənə fəzilətli cavab verdi,
O gözəl mənə busəli sual verdi.

## Araşdırma

Bu qəsidəni çox gözəl və təmtəraqlı olduğuna görə burada gətirdim. Məni təəccübləndirən odur ki, Nasir bin Xosrov Qubadyani Mərvəzi[1] özünün gündəlik səyahət qeydlərində belə yazır: "Təbrizə yetişdim. Burada Qətran adlı bir şair var idi, parsini[2] bilmirdi. Fərrüxinin və Rudəkinin divanlarını mənim yanıma gətirdi. Həmin divanlarda ən çətin nələr var idisə, ona öyrətdim"[3]. Ancaq Qətranın özünün bundan başqa da bu cür şeirləri var ki, orada heç bir eyb ya qüsur gözə dəymir[4]. Həmin alimin Təbrizə səfəri dörd yüz otuz yeddinci ilə[5] təsadüf edir.

Bəzilər bu şəhərin adının "Təvriz" ("vav"la" yazılır) olduğunu deyirlər və ya deyirlər ki, adı dillər əzbəri olmuş qədim Həmədan elə bu şəhər idi və ya Tövratda adı çəkilən yanmış şəhərdir və ya Təbriz ərəb dilindədir. Həmkarlarım bilirlər ki, bunların heç birinin mənbəyi yoxdur.

---

[1] Əbu Müin Nasir bin Xosrov Qubadyani Mərvəzi – məşhur İran şairi, "Səfərnamə" əsərinin müəllifi (1004-1088).
[2] Yəni fars dilini
[3] Həmin hadisə digər mənbələrdə fərqli surətdə təsvir edilir.
[4] Ehtimal var ki, o dövrdə fars dili ilə dəri dilini tamamilə müstəqil dillər kimi qəbul edirdilər və Qətran öz əsərlərini dəri dilində yazırdı.
[5] Miladi təqvimilə 1045/1046

## Təbrizin inşa edilməsi haqqında sözün sonu

Yazdım ki, bu şəhərin salınması islamdan və bizim peyğəmbərimizin bəsətindən sonrakı illərə, Abbasilərin dövrünə təsadüf edir. Bunu təsdiqləyən  tutarlı dəlillər var. Həm keçmişin kitablarında şəhərin tikilməsi haqqında söz açıblar, həm də dastanlar qoşublar. Şimal və şərq alimləri öz yazılarında bir-birinə müxalif mövqedədirlər. Yunanlar Böyük Xosrovu[1] şəhərin banisi kimi tanıyırlar. İslam tarixyazanları Zübeydənin adını çəkirlər. Mən göstərmişdim ki, onların şərh etdikləri şəkildə Zübeydənin Təbrizin tikilməsi ilə əlaqələndirilməsinin heç bir əsası yoxdur. Yunanların rəvayətləri düzdürsə, mənim dediklərimlə təzad yaratmaz. Ola bilər ki, Xosrov burada bir bina tikdirmişdi, sonra dağıldı, və ya burada bu adda bir kənd olub. İslamçılar Azərbaycanı ələ keçirəndə buranın hər yanında mülkllər saldılar və imarətlər tikdilər. Bizim əlimizdəki nə Ömər ilə Osmanın fəth yürüşləri dövründən, nə də Azərbaycanın Babül-əbvab Dərbəndə qədər hərb meydanına çevrildiyi Əməvilər ilə Abbasilər dövründən bəhs edən qədim kitablarda bu şəhərin adı yoxdur. Osmanın və Əbu Bəkrin xəlifə olduqları günlərində mürtəd Əşəs bin Qeys[2] bu hüdudlarda hökmranlıq edirdi. Bin Qeysin etdiyi bu mürtədliyin hekayəsi məşhurdur. Mənim sözümə daha da güclü dəlil o olar ki, xürrəmilər uzun illər bu bölgədə fitnələr törədirlərmiş və Abbasilərin xilafət mərkəzi olmuş Darüssəlamdan[3] adlı-sanlı sərkərdələrin başçılıq etdikləri qoşunlar buraya gələrək Azərabadəganın çöllərini və dağlarını atların ayaqları altına salmışdılar. Lakin dastanlarda

---

[1] Xosrov – I Xosrov Ənuşirvan (Ənuşirəvan, Nuşirəvan). İranın  Sasanilər sülaləsinin 21-ci padşahı (m.531-579). Tarixə ədalətli hökmdar kimi düşmüşdür.

[2] Əşəs bin Qeys – hicrətin 40-cı ilində dünyasını dəyişdirmiş bu şəxsin müxtəlif mənbələrdə İmam Əlinin (ə) qətlini təşkil edənlərdən tutmuş ta İmamın ən vəfalı dostlarından biri olduğuna qədər məlumata rast gəlmək mümkündür.

[3] Darüssəlam – (burada) Bağdad şəhəri.

heç vaxt Təbrizin adı çəkilməmişdi ki, bu yerdə belə bir şəhər olub.Ancaq buralarda qalalar olmuşdu ki, onlardan biri də Təbriz idi. Beləliklə, Təbrizin hələ islamın zühurundan öncə də abad bir yer olduğu və qala divarları ilə əhatə olunduğu aydınlaşır. Abbasilər bu diyarı ələ alandan sonra Təbriz qalasını Kiçik Ərməniyyənin hakimiyyət mərkəzinə çevirdilər. Abadlaşdırma tədbirləri görüldü və şəhər böyüdü. Mən xürrəmi Babəkin tutulmasına qədər baş vermiş bu möhtəşəm işlər haqqında kamil tarixi rəvayətdən tərcümə edib[1] qısa şəkildə burada gətirirəm, çünki o hadisələr fars tarixində şərh olunmamışdır və bu yazının da ən böyük faydası bu məmləkətin yalnız adı qaldığı və addan artıq bir şeyin qalmadığı tikililər məsələsinə işıq salmaqdır.

[1] Ərəb tarixçisi İzzəddin İbn əl-Əsirin XIII əsrdə yazdığı “Əl-kamil fit-tarix” kitabı nəzərdə tutulur.

# Babəkin Afşin tərəfindən tutulması ilə nəticələnmiş xürrəmi fitnəsi haqqında dastan

## *201-ci ildə[1] başlayır*

Fəzlüllah bin Əsir Cəzəri Mosuli[2] "Əl-kamil fit-tarix" əsərinin hicrətin iki yüz birinci ildə baş vermiş hadisələrinə həsr etdiyi hissəsində deyir ki, həmin ildə Babək itaətdən çıxıb Cavidan bin Səhlin tərəfdarları ilə Cavidaniyyəyə hökmranlıq edirdi. Onun sözü bu oldu ki, "mənə Cavidanın ruhu üfürülüb" və bu kəlmə tənasüxə*[3] etiqad edən, haram nikahı caiz sayan və öz dinlərini fərəh adlandıran məcusların məzhəblərinə müvafiqdir.

İki yüz beşinci ildə[4] Məmun Əli bin Məhəmməd bin Əbi Xalidi Ərməniyyə və Azərabadəganın sərdarı qoyub Babəklə döyüşməyə göndərdi və Babək onu iki yüz altıncı ildə[5] darmadağın etdi. Bundan sonra Məmun Züreyq adı ilə məşhur Əli bin Sədəqəni Ərməniyyəyə və Azərabadəgana vali təyin etdi və ona Babəklə müharibə aparmağı tapşırdı. İki yüz doqquzuncu ildə[6] Azərbaycana gəlib Babəklə savaşa girdi. Babək onu da biabırcasına məğlub etdi, Züreyqin özünü əsir götürüb dustaqxanaya saldı. Ondan sonra İbrahim bin Leys bin Fəzl xilafətin mərkəzindən Azərabadəganı idarə etdi. O da gəlib xürrəmilərlə müharibə aparmaqda acizliyini göstərdi və təhqir olundu. İki min on ikinci ildə[7] Məmun məşhur sərkərdələrindən olmuş Məhəmməd bin Hümeyd Tusini Babəkin üstünə göndərdi. İbn Hümeyd döyüşkən qoşunu ilə ilk dəfə yolunu Mosul

---

[1] Miladi təqvimilə 816/817

[2] İbn əl-Əsir əl-Cəzəri adı ilə məşhur tarixçi (1160-1233). Dörd tarixi kitabın, o cümlədən 12 cildlik "Əl-kamil fit-tarix" əsərinin müəllifidir.

[3] Ulduzla (*) işarələnmiş sözlərə aid məlumat kitabın "İzahlar" bölməsində verilmişdir.

[4] Miladi təqvimilə 820

[5] Miladi təqvimilə 821

[6] Miladi təqvimilə 824

[7] Miladi təqvimilə 827

tərəfə saldı. Lakin burada bir çətinlik yaşandı. Çünki bu işə Əli bin Züreyq deyil, xəlifə Məmun əmr vermişdi. Bundan sonra o, Məmunun istəyi ilə Züreyqi Darüssəlama yollayır, özü isə yaraqlı-yasaqlı və təmtəraqlı surətdə Azərabadəgana tərəf irəliləyərək üzünü Babəklə döyüşməyə qoyur. Qoşunu dərin dərələrdən və sərt dağ keçidlərindən aparır və dar yerlərdə çətinliyə düşəndə igid döyüşçülərini qabağa göndərib keşik çəkməyi tapşırır. Bu minvalla Həştadsər deyilən yerə gəlib çıxır və orada ordugah salır.

*Mən deyirəm.* Şübhəsiz ki, Məhəmməd bin Hümeydin bu dəstələrinin keçdiyi yollar hal-hazırda abad bir məmləkətdir. Qaracadağ dediyimiz yer qalın dağ meşələri ilə örtülmüşdü, indi isə meşələrin çoxu kəsilib və ağaclar da kökündən çıxarılıb, hər yandan yollar açılıb. Ancaq bununla belə, yenə də saysız-hesabsız dərələr, enişli-yoxuşlu yollar və keçilməz cəngəlliklər çoxdur. Həmin Həştadsər isə Yaft bölgəsində yerləşən çox sərt dağdır və bu məmləkətin yerli əhalisi ona səhv olaraq "Həştəsər" deyərlər və mən bu diyarı başdan-başa gəzmişəm.

*Qayıdıram.* Məhəmməd bin Hümeyd Babəkin iqamətgahına yaxın yerləşən Həştadsərə çatıb məliklərin başbilənlərindən o şəhərə necə hücum etmək üçün məsləhət istədi. Onlar Məhəmmədi bir yola yönəltdilər. Bundan sonra o, hazırlıq görüb, Əbi Səid adı ilə məşhur Məhəmməd bin Yusif bin Əbdürrəhman Taini ordunun mərkəzində, Sə'd bin Əhzəmi sağ cinahda, Abbas bin Əbdülcabbar Yəqtinini sol cinahda başçı təyin etdi, özü isə ən tanınmış döyüşçülərlə ehtiyatda dayandı. Bu hadisə iki yüz on dördüncü ildə[1] baş vermişdi.

## Məhəmməd bin Hümeydin Babəklə döyüşməsi və Məhəmmədin öldürülməsi

Məhəmməd çatışmazlıqları aradan qaldırmaqdan və ordunun hərəkətlərini yönləndirməkdən ötrü əllərində sivri qılınc bir dəs-

[1] Miladi təqvimilə 829

tə atlı ilə qoşunun başında hazır durmuşdu. O biri yanda isə Babək dağın başından ətrafa nəzarət edirdi. Dağın hər daşının başında bir pusqu qurulmuşdu. Bundan sonra Məhəmməd öz ordusunu irəli sürdü və əsgərlər dağa qalxmağa başladılar. Onlar üç fərsəng* irəliləyəndən sonra Babək pusquları açdı və özü də dərhal hücuma keçdi. Məhəmmədin ordusu onun qarşısında möhkəm dayana bilməyib darmadağın edildi. Əbu Səidlə Məhəmməd bin Hümeyd ordunu səbrli olmağa nə qədər çağırsalar da, kimsə kimsəni tanımırdı və əsgərlər heç kəsin əmrini eşitmirdilər. Hamı qaçırdı, xürrəmilər isə onları təqib edib öldürürdülər. Onda Məhəmməd bin Hümeyd özü döyüşə girişdi, lakin onun silahdaşlarının hamısı məhv oldular, bir nəfərdən başqa yanında kimsə qalmamışdı. Qurtulmaq üçün həmin bir nəfərlə yol axtararkən bir dəstə adamın vuruşduğunu görür. Onlara çatanda öz ordusunun qalıqlarının Babəkin dalğa kimi nəhəng qoşunu ilə döyüşə atıldığını məlum edir. Xürrəmilər Məhəmmədin nizəsini görüb onun ordu başçılarından birisi olduğunu anlayıb onun üstünə hücum çəkirlər. Məhəmməd özü mübariz bir insan olmuşdu və onlara sərt müqavimət göstərir. Nəhayət, onun atını nizə ilə vurub yerə salaraq özünü də qətlə yetirirlər. O, mərd adam olduğundan şairlər, xüsusilə Əbu Təmam Tai, onun şərəfinə gözəl məziyyətlərini tərənnüm edən əsərlər qoşmuşdular. Ancaq mən bu kitabımda çox şeir yazmamağı şərt qoyduğuma görə onları burada gətirmirəm, yoxsa həqiqətən yaddaqalan şeirlərdir.

Ordunun məğlub və Hümeydin oğlunun həlak olması xəbəri Darüssəlama çatanda Məmun bu səfər Abdullah bin Tahiri Azərbaycana sərdar təyin edir. Abdullah gəlib Deynurda əyləşdi və əsgərləri hazırlamaqla məşğul oldu. O biri yandan Darüssəlama Xorasan valisi Təlhə bin Tahirin ölümü xəbəri gəldi. Bundan qabaq qardaşı Əli bin Tahir Təlhənin yerində Xorasana xəlifə təyin olunmuşdu, Abdullah isə Deynurda oturmuşdu. Məmuna Xorasandakı qarğaşıqlıq haqqında yazmışdılar ki, “Əli bin Tahirdən xorasanlı çıxmaz”. Onda Məmun Abdullahın Xorasana getməyinə fərman verdi, çünki oranın sərhəddi və ərazisi

daha böyükdür və oranı nizam-intizama salmaq Azərbaycandan daha mühümdür. Abdullah Tahir Xorasana getdi, Babəkin və Azərbaycanın işi qaldı. Sonra Məmunun Rumla davası düşdü və o, öz ordusunu o tərəflərə çəkib yaddaqalan uğurlar qazandı. Həmin müharibədə ölüm onu haqladı və yanında olan qardaşı Mötəsim xilafətin başına keçdi və həmin hadisə iki yüz on səkkizinci ildə[1] üz vermişdi.

## Afşin adı ilə məşhur Heydər[Xeyzər?] bin Kavusun Mötəsimbillahın fərmanı ilə Xürrəmi Babəkin üstünə getməsi, zəfər çalması və Babəki iki yüz iyirminci ildə[2] ələ keçirməsi

Hicrətin iki yüz iyirminci ili gələndə Mötəsim Afşini Babəklə müharibəyə və Azərabadəgana sərdar təyin etdi. Onun[3] meydana çıxması hicrətin iki yüz birinci ilinə təsadüf edir və qərargah yeri Bəzz şəhəri olub.

*Mən deyirəm.* İndi bu şəhərin heç əsər-əlaməti qalmayıb və biz onun həqiqi yerini bilmirik. Qaracadağda, Araz çayının sahilində, Muğan çölündə, Talış meşələrində və eləcə də Ərdəbil, Mişkin, Ərşəq və Bərzənd şəhərlərinin ətrafında keçən əsrlərdə bu yerlərdə şəhərlərin və qalaların olmasından bizə hekayət edən çoxlu izlər qalmaqdadır.

*Qayıdıram.* Bu uzun illər boyu Babəkin Sultanın ordusu ilə çoxlu döyüşləri və hadisələri olmuşdur ki, onlar haqqında yazmağımız uzunçluğa səbəb olar. Mötəsim xəlifəlik etməyə başlayan kimi adlı-sanlı adamlardan olmuş Əbu Səid Məhəmməd bin Yusifi Ərdəbilə göndərdi və ona Babəkin Ərdəbillə Zəngan arasındakı ərazidə dağıtdığı möhkəm qalaları təmir etməyi tapşırdı. O, karvanların əmin-amanlıq içində gedib-gəlmələri üçün həmin möhkəmləndirilmiş məntəqələrdə döyüşkən mərdləri

---

[1] Miladi təqvimilə 833
[2] Miladi təqvimilə 836
[3] Yəni Babəkin

yerləşdirdi və yolları qorumaqdan ötrü seçilmiş süvariləri qoydurdu ki, xürrəmilərin ərzaq cəhətdən yetirdiyi ziyan aradan qalxsın, mücahidlər üçün Ərdəbilə silah gətirsinlər və aclıq olmasın. Bu Səid gəlib həmin qalaları bərpa etdi. Babək gecə oraya adamlarını göndərdi və onlar həmin məntəqəni qarət etdilər. Əbu Səid bunu eşidən kimi dərhal özünü böyük bir izdihamla həmin yerə yetirdi. Səhərin gözü açılmamış qanlı döyüş başlandı. Əbu Səid qalib gəldi, bir çox xürrəmini qırdı və əsir götürdü və qarət etdiklərini də geri aldı. Xürrəmilərin başçılarını və əsirlərini Darüssəlama göndərdi. Bu isə həmin mənfur qövmün məğlub olmasının başlanğıcı idi.

## Məhəmməd bin Büeysin əhdini pozması və o sərkərdənin babəkiləri Şahi qalasında qətlə yetirməsi haqqında

İbn Büeys Şahi qalasını İbn Züvaddan almışdı. Onun Təbriz adlı başqa bir qalası da var idi. Məhəmməd Babəklə sülh bağlamışdı. Babəkin döyüşçüləri mülkləri talamağa çıxanda bəzən İbn Büeysə və onun qalasına baş çəkərdilər. Məhəmməd də onlara ziyafət verib mehribanlıq göstərərdi. Beləliklə həmin tayfa onunla dost olub qorxusuz onun mülkünə gələrdilər. Bu il Babək öz sərkərdələrindən olan İsmət adlı bir əmiri gecə oraya göndərir. O da öz qoşunu ilə İbn Büeysin yanına gəlir. Məhəmməd qonaqpərvərlik göstərib onlar üçün qalanın xaricində bol süfrə açır, sonra isə onu qalaya qalxmağa dəvət edir ki, orada da bir ziyafət versin. İsmət öz cangüdənləri ilə qalaya daxil olur. Məhəmməd süfrə açıb onlara şərab içirdir ki, sərxoş olsunlar. Bundan sonra İsmətin əl-qolunu bağlayır, yoldaşlarını isə öldürür. O, İsməti öz köməkçilərini içəri çağırmağa məcbur edir. Gələn kimi onları da öldürür. Qalanlar bunu bilib qaçırlar. Məhəmməd İsməti buxovlayıb Darüssəlama göndərir. Mötəsim ondan Babək haqqında soruşur, İsmət də Babəkin gedib-gəldiyi yolları və döyüş üslublarını açıqlayır. Verdiyi məlumat təsdiqlənənə qədər onu əli-qolu bağlı saxlayırlar.

## Afşinin gördüyü iş

Mötəsim İsmətin dediyi sözləri Afşinə yazır. Afşin öz ordusunu Babəkin torpağına çəkir və Bərzənd[1] adlı yerdə dayanır. Bundan sonra o, Bərzəndlə Ərdəbil arasındakı yolları tama-milə bağlayır və Məhəmməd bin Yusifə Xüşdə oturmağı və ordugahının ətrafı boyunca bir xəndək qazmağı tapşırır. Afşin Heysəm Qənəvini Ərşəq kəndinə göndərir ki, oradakı qalanı, eləcə də torpaqdan hazırlanmış xəndəyi bərpa etsin.O, öz qohum sərdarlarından olmuş Ələviyyə Ə'vəri Ərdəbilə yaxın yerləşən Nəhr qalasına qalabəyi təyin etdi ki, o yollarda əmin-amanlıq yaratsınlar. Onlar həmçinin Ərdəbildən çıxan qafilələrə və karvanlara bələdçilik və himayədarlıq etmək və Nəhr qalasına yetirmək üçün süvariləri yerləşdirdilər. Bu qaladan karvanı sağ-salamat Heysəm Qənəviyə çatdırmağı Ələviyyəyə əmr etdilər. Heysəmi belə bir yerə saldılar ki, oradan heç haraya gedib-gələ bilməsin. Nəhr qalasının sahibi oraya çatan kimi adamları əllərində olan bütün malları ilə Heysəmə tapşırdı, özü isə tezliklə geri qayıtdı. Heysəm həmin camaatı Bu Səidin yanına apardı. Onun adamları yarı yolda müəyyən bir yerdə hazır durmuşdular. Heysəm karvanları onlara təslim etdi və heç kəs yolun ortasından o yana bir addım da ata bilmədi. Bundan sonra Bu Səid o kişini Afşinin ordugahına apardı. Düşərgənin yaxınlığında Afşinin qulluqçusu ona çatıb və karvanlarla malları qəbul edib ordugaha gətirdi. Bu, Afşinin qoyduğu qanun idi. Xürrəmilərdən bir casus ələ keçəndə, Afşin onu tutub dindirərdi və öyrənərdi ki, "Babəkdən aldığın muzd-məvacibin nə qədərdir?" Bilən kimi, onu iki qat artırardı və deyərdi: "İndi mənin casusum ol" və bu yolla istədiyini əldə edərdi.

## Afşinlə Babəkin ilk döyüşü

Bu məşhur döyüşün səbəbi o idi ki, Mötəsim ordunu ləvazimatla təmin etmək məqsədilə özünün adlı-sanlı sərkərdələrindən

[1] Bərzənd – Ərdəbil şəhristanında dehistandır.

olan Buğanı çoxlu malla Afşinin yanına göndərdi. Buğa Ərdəbilə çatdı. Babək bunu eşitdi və qərarı o oldu ki, yolları kəsib malları ələ keçirsinlər. Bundan sonra o, həmin işə hazırlaşmağa başladı. Casuslar bu xəbəri Afşinə çatdırdılar. Onların sözləri təsdiqlənəndən sonra Afşin Buğaya bir məktub yazır ki: "Ərdəbildən çıxmağını elan et və qızılı heyvanlara yükləyib mənim ordugahıma tərəf yola düş. Nəhr qalasına çatan kimi yoldaşlarını malla birlikdə orada saxla. Sonra Ərdəbildən gəlmiş karvanla yola sal. Onlar bir az yol gedəndən sonra dayan və bütün mallarını-yüklərini Ərdəbilə çatdır".

Buğa bunları yerinə yetirdi. Babəkin eynləri[1] Buğanın malları yükləyib Nəhrin həndəvərinə çatdığını ona bildirdilər. O tərəfdən də Afşin Buğa ilə sözləşdiyi gün atlara minib döyüşmək əzmi ilə axşam çağı Bərzənddən yola düşür. Gün batanda Əbu Səidin qazdığı xəndəyin qabağına gəlib dayanır. Səhər açılanda gizlicə atlara minib əmr edir ki, təbilləri çalmasınlar, bayraqları qaldırmasınlar və aralarında söhbət etməsinlər. Onlar çox tez getməyə başlayırlar, o biri istiqamətdən də Nəhrdən yola düşmüş karvan Heysəmə tərəf gəlir. Babək də yüklənmiş malla dolu karvana çatacağına arxayın olub öz əlaltıları ilə atlarını Nəhr yönünə sürdürür. Xürrəmi süvarilər karvana çatırlar. Buna hazır olan Nəhrin sahibi Ələviyyə döyüşə çıxır və əsgərlərilə birlikdə öldürülür. Karvanda olanların hamısı qarət ediləndən sonra malın əldən çıxdığı məlum olur. Onlar məyus halda Ələviyyənin bayraqlarını qaldırıb öldürülənlərin və əsir alınanların paltarını öz əyinlərinə geyirlər ki, bəlkə Heysəm Qənəvini də ələ keçirə bilsinlər. Lakin Afşinin sərkərdəsinin yerləşməli mövqedən xəbərləri olmamışdı. Onlar bilmirdilər ki, Nəhrin sahibi burada dayanmalıdır ki, bayraqları da həmin yerdə qaldırsınlar. Bu səbəbdən onlar başqa yerdə sıraya düzülüb sancaqları ucaltdılar. Qənəvi gəlib öz mövqeyini tutdu, ancaq Nəhr sahibini sözləşdikləri yerdə görməyib çox bədgüman oldu. O, əmioğlunu yanına çağırıb dedi: – Tez elə, get o Ələviyyənin dəstəsinə de ki,

---

[1] Yəni, gözləri, kəşfiyyatçıları

orada niyə dayanmısan ki, heç sənin yerin deyil. O da gedib öyrənir ki, bunlar Nəhrin ordusu deyil. Qayıdıb Qənəviyə xəbər verir. Bu isə başqa bir dəstə göndərir. Bu səfər onlar da gedib, həmin adamların Ələviyyənin ordusunun olmadığını aşkar edirlər. Bundan sonra onlar geri dönərək babəkilərin Ələviyyənin özünü öldürüb, onun bayraqlarını qaldırıb paltarlarını da geyindikləri haqqında məlumatı Heysəmə çatdırırlar. O isə qayıdan karvanı irəli göndərib özü də onun himayəsinə qalxdı ki, Ərşəq qalasına yetişib dincəlsinlər.

İki süvari Afşinlə Əbu Səidi Babəkin əməllərindən xəbərdar etməyə getdilər. Heysəmqalada yerləşib müdafiəni təşkil etdi. Babək qalanın həndəvərində kürsüdə əyləşib Heysəmə bir payam göndərdi ki, "Ərşəqi qoy, özün də sağ-salamat çıx get". Heysəm bu tələbi qəbul etmədi. Babək davaya başladı və köhnə adət üzrə şərabdan içdi. Döyüşçülər hərbə girişdilər. O iki süvari elə toz qaldırdı ki, Afşinə gəlib çatdı. Afşin ön dəstəsinin başçısına əmr verdi ki, iki ən sürətli süvari dərhal yola düşsün, döyüş nağaraları çalınsın, bayraqlar qalxıb açılsın, nərələr çəkilsin.

Elə də etdilər. Ordu bir dəmir dağ kimi atlarının cilovunu buraxıb və həmləyə atılıb Babəkə çatdı. O oturmuşdu və heç ata minməyə də fürsət tapa bilmədi. Aləm qarışdı, hər iki tərəf mərdliklə döyüşürdü. Xürrəmi Babəkin piyadalarından heç birisi canını qurtara bilmədi. O özü bir neçə atlısı ilə qaçıb Muğana[1] qədər cilovu çəkmədilər. Onun ordusu tamamilə dağılıb səpələndi. Afşin qayıdıb Bərzəndə gəldi. Babək isə Muğanda qalıb Bəzzə adam göndərdi. Xürrəmilərdən daha bir qoşun gələn kimi Muğandan köçüb Bəzzə getdilər. Afşin Bərzənddə idi və orada düşərgə salmışdı. Bir gün yenə malla dolu karvan gəlirdi. Babəkin əmirlərindən bir sərkərdə pusquda oturub onun yolunu kəsib qarət etdi və bütün adamlarını öldürdü. Afşinin ordugahına gedən həmin qafilənin yükü bütövlükdə yeyəcəklərdən ibarət olduğuna görə orada ərzaq sarıdan qəhətlik yarandı. Onda Afşin Marağanın sahibinə məktub yazıb təcili olaraq yeyinti mallarının

---

[1] Muğan – Ərdəbil şəhristanında dehistandır.

göndərilməsini tələb edir. Marağa sahibi bir xeyli ərzaq yükləyib, yanlarına da min baş diri mal-qara və çoxlu qoyun əlavə edib yola salır. Bu böyük karvanı bir neçə atlı qoruyurdu. Babəkilər bunu eşidib pusqu qururlar və o dəstəyə həmlə edib olan-qalan malları alıb aparırlar. Afşinin işi çətinləşdi və qəhətlik daha da artdı. Bundan sonra o, Şirvan sahibinə yazdı. Oradan çoxlu ərzaq göndərirlər və ordugahda vəziyyət düzəlir. Buğa da öz qoşunu ilə Afşinə qoşulur.

*Qeyd.* Bu gün Bəzzdən adından başqa heç nə qalmayıb. Bərzənd bir kənddir.

İki yüz iyirmi birinci il[1] gələndə Babəklə Buğanın böyük döyüşləri baş verdi və Buğa yenildi. Sonra Afşin Babəklə vuruşub onu məğlub etdi. Mən həmin iki hadisəni Afşinin cəsarətli olduğunu göstərmək üçün burada gətirdim.

## Buğanın xürrəmdin Babəklə döyüşü, Buğanın yenilməsi və Afşinin qələbə çalması

Böyük Buğa darülxilafətdən* mal ilə gəlib Afşinə qoşulan kimi ordunun ruzisini payladılar. Novruz keçəndən sonra əsgərlərin təchizatını hazırladılar və fərman verildi ki, Buğa Həştadsərə yürüyüb oranı dəyərləndirsin, Məhəmməd ibn Hümeydin xəndəyinə ensin və həmin xəndəyi qazıb onun istehkamlarını qurmağa məşğul olsun. Buğa oraya getdi, Afşin ordusunu Bərzənddən qaldırdı, Əbu Səid də Xüşdən Babəkin üstünə yürüdü. Onlar Dəruz adlı məkana çatan kimi Afşin bir xəndək qazıb dairəvi divar tikdirdi. Oradan Bəzzədək altı mil olardı. O biri yandan Buğa Afşindən fərman almadan öz ləşgərini düzüb və azuqəni aparıb özbaşına Həştadsərə getdi və Bəzz kəndinə enib orada qaldı. Bir gün o, ordunun dördayaqlılarını min nəfər süvari ilə otlamağa göndərdi. Babəkin döyüşçülərindən bəziləri həmin adamlara basqın etdilər, heyvanları apardılar, süvarilərin çoxunu öldürdülər və əsir aldılar. Qalanları isə pərən-pərən düş-

[1] Miladi təqvimilə 837

dülər. Buğa Afşini bu hadisədən xəbərdar etmək üçün onun yanına iki nəfəri göndərdi, özü isə yenilmiş halda Məhəmməd bin Hümeydin xəndəyinə qayıtdı və oradan Afşinə məktub yazıb yardım istədi. Afşin öz qardaşı Fəzli, Əhməd bin Cəlil bin Hişamı, İbn Cövşəni, ön dəstə başçısı Ə'vəri və Həsən bin Səhli göndərib Buğaya məktub yazdı ki, "filan gündə Babəklə münaqişəyə giriş, mən də həmin gün davaya qalxacağam və beləliklə, döyüş ikitərəfli olar". Bundan sonra Afşin göstərilən gündə ləşgərini Dəruzdan sürdürdü, Buğa da oturduğu səngərdən qalxıb Həştadsər istiqamətinə yollandı. O gün hava çox soyuq idi, güclü külək əsirdi. Ordu belə şiddətli soyuğa dözə bilmədi. Buna görə geri qayıdıb dayandı. O biri gün də sərt külək əsirdi, leysan yağırdı və hava olduqca soyuq idi. Buğa çar-naçar yenidən öz ordugahına qayıtmalı oldu. Digər yandan növbəti gün Afşin Babəkin ordusuna hücuma keçib onları pərən-pərən saldı və qərargahına çatıb orada nə var idisə, hamısını qənimət aldı və həmin yerdə oturdu. Sonrakı gün Buğa öz ləşgəri ilə gəlib yavaş-yavaş Həştadsər dağına qalxdı və Babəkin əzilmiş qoşunu ilə üzləşib onların olan-qalan malını əllərindən aldı. Bundan sonra o, Bəzz qalasına hücuma keçmək üçün dağdan endi. Onun ön dəstəsinin başında Qara Davud durmuşdu. Buğa ona gələn gecə Bəzz istiqamətində irəliləyib orada özləri üçün daha yüksək bir dağ tapmağı əmr etdi ki, gecəni həmin yerdə keçirsinlər. Davud Afşinin düşərgə saldığı yerdən daha hündür bir dağa çıxdı. Belə danışdılar ki, gecəni burada qalaq və səhər açılan kimi kafirlərə hücum çəkək.

Həmin gecə bol-bol qar yağmışdı və heç kim aşağı enmək və sudan alıb atları su ilə doydurmaq üçün özündə güc tapa bilmədi. Üç gün beləcə qar yağdı. Ləşgər əmirləri Buğaya dedilər ki, düşərgədə yeməyə bir şey qalmayıb və istər-istəməz aşağı düşüb ya səngərimizə qayıtmalı ya da kafirlərlə döyüşmək üçün hazırlıq görməliyik. Əlqərəz, həmin qar yağan gecələrin birində Babək Afşinin üzərinə adı yadlarda qalan bir gecə basqını keçirərək onları süpürüb sildi. Buğa isə nağaraları çalıb Bəzzə hücuma keçməyi əmr etdi. Bu zaman onun Afşinin başına gə-

lənlərdən heç xəbəri olmamışdı və o, Afşinin öz ordugahında oturduğunu güman edirdi. O, dağın ətəyinə çatanda səhərin gözü açılmışdı və göydə günəş işıldayırdı. Hava tər-təmiz idi və yalnız endiyi dağın üstündə bir-iki bulud görünürdü. Buğa lazımi hazırlığını görüb Bəzzə tərəf yönəldi. Bəzz ilə yanaşı olan dağa o qədər yaxınlaşdılar ki, həmin dağa çıxmaq istəsəydilər, Bəzzin evlərinin üstündə mövqe tutacaqdılar. Ön dəstədə bir neçə nəfər gedirdi, o cümlədən onların arasında İbn Büeysin yaxın adamlarından bir cavan oğlan olmuşdu ki, qohumları bu saat Bəzzdə idilər. Babəkin gözətçi dəstəsi görünəndə həmin gənc onların sıralarında öz əmisini tanıdı. O, yaxınlaşıb sual verdi. Ona dedilər ki, necə gəlmisənsə, elə də geri dön və öz dostlarına de ki, biz Afşini basıb əzmişik və o indi öz xəndəyində oturub. Onun qoşununu məğlub etmək üçün iki güruh gəlir və sən mümkün qədər tez başını götürüb buradan get və canını bu bəladan qurtar. Oğlan qayıdıb həmin sözləri İbn Büeysə çatdırdı. O, bu xəbəri Buğaya açıqladı. Buğa isə qoşun başçılarını çağırıb məşvərət etdi. Bəziləri bunun məkr olduğunu söylədilər. Başqaları Afşinin üzərindəki dağa çıxıb Afşinin öz yerində olub-olmadığını görməyi lazım bildilər. Buğa bir neçə nəfərlə dağın üstünə qalxıb Afşinin düşərgəsindən heç bir əsər-əlamət görmədi. Onda o, babəkilərin oğlana doğru nəsihət verdiklərini anladı. Bundan sonra onlar öz səngərlərinə qayıtmaq qərarına gəldilər. Onlar suya çatmayıb elə də etdilər və sürətlə dərə-təpə yolları ilə irəliləməyə başladılar. Həmin yol Həştadsərin yanından keçirdi və orada dar bir dərə var idi. Piyadalar özlərini yüngülləşdirmək üçün silahlarını yerə atdılar. Qorxu onları yaman basmışdı. Buğa ləşgər əmirləri ilə sağa dönüb Babəkin sayı on atlıdan artıq olmayan keşikçi dəstəsini gördülər. Onlar dayanıb öz aralarında zarafat etməkdə idilər. Buğa öz silahdaşlarına dedi: – Ola bilər ki, bu on süvari yoldaşları gələnədək bizə tez bu dərədən keçməyə mane olsunlar. Fəzl dedi: – Babəkilərin adəti gecə basqını düzəltməkdir. Onlar gecə vaxtı ürəklənirlər. Biz tələsib bu dərədən keçməliyik. Əmirlərdən bir başqası dedi: – Bütün ordu yorulub və gücdən düşüb. Onlar silahlarını atıblar. Mal ilə

silah dəvələrin belinə bağlanılıb və bu yük heç kəsin vecinə deyil. Qorxuram ki, onlar dəvələri əllərinə keçirib İbn Cavidanı azad edərlər. İbn Cavidan xürrəmilərin məşhur sərkərdələrindən olmuşdur. Buğa onu əvəzinə çoxlu mal almaqdan ötrü tutub saxlamışdı.

Bundan sonra onlar bircə gizli yolu olan bir dağa çıxdılar, çox yoruldular və ac-susuz bütün gecəni həmin yolun keşiyində durdular. Babək başqa yerdən gəldi və dava qızışdı. Buğa piyada çadırdan çıxıb minməyə bir heyvan tapa bilmədi. O döyüşdə Fəzl bin Kalusu ağır yaraladılar, Cinah Səkkərini və İbn Cövşəni öldürdülər, Fəzl bin Səhlin qohumlarından olan o iki nəfəri isə əsir tutdular. Buğa qaçıb canını qurtardı. Xürrəmilər onun arxasınca düşmədilər, malla silahını qarət etdilər. İbn Cavidan azad edildi. Buğa öz əsgərləri ilə ayrı-ayrı yollarla pərakəndə halda ordugahlarına çatdılar. Orada on beş gün qaldılar. Buğa Afşinə məktub yazdı ki: "Mən Marağaya qayıdıram, mənə yardım göndər". Bundan sonra o, Marağaya getdi. Afşinin ordusu beləcə yaz fəslinə qədər dağınıq vəziyyətdə qalmışdı.

Həmin qış Babəkin ən böyük sərkərdərlərindən olmuş Tərxan öldürülmüşdü. Səbəbi də bu idi ki, Tərxan bu qışı öz kəndində keçirmək üçün Babəkdən icazə istəmişdi. Sözügedən kənd Marağanın yaxınlığında yerləşirdi. Afşin kəşfiyyat apardı və Tərxan oraya gələndə Türk Bəndə İshaq ibn İbrahimdən gecə basqın edib Tərxanı diri ya ölü ələ keçirməyi istədi. Türk bir gecə o kəndə hücum edib Tərxanı öldürdü və başını kəsib Afşinə göndərdi.

Hicrətin iki yüz iyirmi ikinci ili[1] gələndə Mötəsim Cəfər Xəyyatı qoşunu ilə Afşinin köməyinə yolladı və həmçinin ordunun xərclərini ödəmək üçün Təbbaxı otuz min min dirhəmlə göndərdi. Təbbax gəlib qızılı Afşinə çatdırdı və geri döndü. Hava mülayimləşdi, qış keçdi və Afşin Kəlanruda çıxıb orada xəndək qazdı. Sonra o, Bu Səidə bir məktub yazdı ki, Bərzənddən qalxıb Afşinin ordugahından üç mil aralı olan Kə-

[1] Miladi təqvimilə 838

lanruda gəlsin. Afşin Kəlanrudda beş gün qaldı. Casuslar Azin adlı xürrəmi sərkərdənin onun müqabilində dayandığını və qadınlarını da özü ilə ordugaha gətirdiyini xəbər verdilər.

Babək Azinə demişdi ki, üzüörtülüləri[1] qalada saxlamaq lazımdır. Azin isə cavabında dedi: “Mən yəhudilərin qorxusundan hasarın arxasında gizlənən deyiləm”. Müsəlmanlara “yəhudi” deyərdilər.

Afşin Zəfər bin Əla Sə’dini atlılarla və piyadalarla onun üstünə göndərdi. Zəfər gecə sürüb dar bir dərəyə çatdı. Süvarilər oradan keçə bilmədiklərinə görə yerə düşüb atları arxalarınca çəkərək dağa qalxdılar. Sonra onlar Azinin arvadlarını və uşaqlardan bir neçəsini əsir aldılar. Afşin əvvəl babəkilərin yolları kəsəcəklərindən qorxurdu. O, dağların başına adamlarını göndərdi. Hər dəstənin qara bayrağı var idi. Əgər onlar təhlükəli bir şey görsəydilər, bayraqları dalğalandırmalıydılar. Döyüşçülər Azinin arvadlarını əsarətə alıb həmin yolla geri qayıdırdılar. Bu vaxt Azin yetişdi və döyüş başlandı. İslam ordusunun bir çoxu qətlə yetirildilər və Azinin üzüörtülülərinin bəziləri azad oldular. Dağa çıxanlar bu hadisəni gördülər. Ordunun bir hissəsini Müzəffər bin Keydərin rəhbərliyi altında oraya yolladılar. O, sürətlə yeridi. Afşin onun izləri ilə Əbu Səidi və Buxara Xudanı[2] da oraya göndərdi. Bunu görən Azinin piyadaları dərəyə enib öz adamlarına qoşuldular. Zəfər nicat tapdı və Azinin ailə üzvlərinin bəzilərini əsir aldı.

Afşin bu silahlı toqquşmadan çıxıb Bəzzi almaq əzmi ilə Kəlanruddan öz məşhur ləşgəri ilə hərəkətə keçərək asta-asta gedirdi. Mötəsim ona yazırdı ki, gecə düşən kimi öz süvarilərini sıralara düzüb hazır vəziyyətə gətirsin. Əgər xürrəmilər gecə hücuma keçsələr, onlara müqavimət göstərə bilsinlər. Bu söz döyüşçülərə çatanda onlar utandıqlarından fəryad etdilər və Afşinə dedilər: – Bizimlə düşmən arasında dörd fərsənglik* yol

---

[1] Yəni qadınları

[2] Deyilənə görə, Buxaranın əmiri olduğuna görə Məhəmməd bin Xalid onu belə çağırırdı.

var. Bizə tapşırdığın iş bizə yaraşmaz. Biz düşmənlə üz-üzə durmuşuq və öz xalqımız yanında bu qədər xəcalət çəkməli deyilik. Döyüş əmrini ver. Ya bizimki olar, ya Babəkin. Afşin dedi: – Sizin sözünüzdə həqiqət var, ancaq mən nə edim ki, əmirülmöminin mənə bunu əmr ediblər.

Bir o qədər də keçmədi ki, Mötəsimdən başqa peyğam gəldi. Bu da birinci əmrin bənzəri idi. Bundan sonra Afşin ləşgərini yavaş-yavaş Rudəlrud [Rudərrud?] çayına sürdürdü. Bu yer keçən il döyüşün baş verdiyi meydanın üstündə idi. Orada xürrəmilərin bir dəstəsini gördülər. Afşin günortayadək yerində dayandı və döyüş əmrini vermədi. Ondan sonra düşərgəsinə qayıdıb iki gün orada qaldı, sonra qalanları ilə yenidən əvvəlki yerə döndü və Rudəlrudda düşərgə saldı. Bu günlər ərzində vuruşma olmadı. O, dağlıların içində olan casuslarına dağların başına çıxıb ərlər üçün münasib yer tapmağı əmr etdi. İstehkamları olan üç dağı aşkarladılar. Afşin hamısını dağıtmağı əmr etdi və özü həmin dağlarda oturdu. Yeməyə quru çörəklə səviqdən[1] başqa heç nəyi özü ilə aparmadı. Afşin həmçinin öz adamlarına böyük daşları daşıyıb bütün yolları bağlamağı tapşırdı. Elə də etdilər və bu dağ zirvələrini qalalara çevirdilər. Sonra həmin daş çəpərlərinin arxasında günbəzlər düzəltməyi buyurdu. Bunu da yerinə yetirdilər və nəticədə o qalalara gedən bir yol belə qalmadı. Bütün bu işləri on günə başa çatdırdılar. Həmin vaxt Afşin öz əsgərləri ilə gecə-gündüz qalaların keşiyində durmuşdu. Hazırlıq işi qurtaran kimi piyadaları həmin yerlərə yolladı.

Bir gün Babək onun yanına elçi göndərdi. Həmin adam özü ilə xiyarla qovun gətirmişdi. O, Afşinə dedi ki, siz azuqə cəhətdən dar gündəsiniz, biz isəbolluq içindəyik və tam sərbəstik. Afşin bu hədiyyəni qəbul edib elçiyə dedi: – Mən qardaşım Babəkin məqsədini anladım. Bundan sonra o, həmin adamı dağa aparıb qazdığı xəndəkləri və yollarda tikdirdiyi sədləri ona göstərməyi tapşırdı və əlavə etdi: – Öz gözünlə gördüyün bütün bu

[1] Səviq – buğdadan, arpadan, balqabaqdan, almadan və digər ərzaqdan hazırlanan sıyıq növü.

işlərdən Babəki agah et. Həmin günlərdə xürrəmilərin bir dəstəsi xəndəyə yaxınlaşıb çığırdılar. Afşin heç kimi istehkamları tərk edib vuruşmağa qaldırmadı. Xürrəmilər beləcə üç gün gəldilər, ancaq Afşin təmkinliyini pozmadı. Bundan sonra Afşin bir yerdə marığa durdu. Xürrəmilər gələndə bu marığa düşüb əzildilər və bir daha oraya ayaq basmadılar. Afşin hazırlıq görüb fərman verdi ki, ordu başçıları heç bir halda mövqelərini boş qoymasınlar və özü də yerində oturmuşdu. Hər səhər sübh namazından sonra təbilləri çalardılar və ləşgər öz yerindən qalxardı. Afşinın katibi onun yanında gedərdi. Hər mövqeyin nişanı həmin nağaraların səsi idi. Babək öz casuslarını hər yana göndərmişdi. Ləşgərin yolu dağlardan və vadilərdən keçirdi. Onlar bir-birini görməyib təbillərin döyülməsinə görə irəliləyirdilər.

Afşin ahəstə-ahəstə yürüyürdü və dağlılar ona Babəkin hərəkətlərindən daim xəbər gətirirdilər və keçən ilki döyüşün baş verdiyi meydana getmək istədiyi hər gün Buxara Xudanı min nəfər nizəli süvari və altı yüz adlı-sanlı piyada ilə dağ cığırlarından keçib keşikdə durmağa qoyardı ki, xürrəmilər bu yola üz tutmasınlar və yuxarı çıxa bilməsinlər. O biri yandan Babək də Afşinin bu gediş-gəlişlərini öyrənəndən sonra Buxara Xudanın dayandığı yerin aşağısındakı dərədə pusqu qurdu. Afşin cidd-cəhdlə həmin pusqunu axtardı, amma tapa bilmədi. Bundan sonra o, Əbu Səidə bir dəstə ilə, Cəfər Xəyyata başqa bir güruhla və Əhməd bin Cəlilə üçüncüsü ilə vadidən keçməyi tapşırdı. O biri tərəfdən Babək öz ləşgəri ilə meydana çıxıb həmin üç sərkərdənin qarşısında sıraya düzüldü ki, heç kəs Bəzz qalasının qapısına hücuma keçə bilməsin. O, qoşununu pusquda qoyub özü bir neçə nəfərlə qaldı. Afşin də bu yandan Babəkin qəsrindən yuxarı yerləşən təpəyə qalxıb dayandı və onun yanındakı piyadalar atların cilovunu əllərində tutdular. Vadidən keçənlər isə üç cərgəyə düzüldülər. Babəkilər şərab içib zurna çalırdılar. Günorta namazını qılandan sonra Afşin Rudəlruddakı ordugahına döndü və bu qayıdışı da belə tərzdə hayata keçirildi ki, əvvəl ordugaha ən yaxın olan yürüdü və sonda mövqeyi düşməndən ən uzaq olan Buxara Xuda döndü. Afşinin ordusu qa-

yıdandan sonra Babəkin adamları çığırıb-bağırmağa başladılar. Xürrəmilər işin bu cür uzanmasından çox acıqlanmışdılar.

Bir gün Afşin öz adəti üzrə qayıtdı və orada Cəfər Xəyyatdan və onun güruhundan başqa kimsə qalmadı. Xürrəmilər Bəzzin darvazasını açdılar və bir dəstə qaladan çölə çıxdı. Onlar Cəfər Xəyyatla vuruşmağa başladılar. Mərəkə qalxdı. Cəfər irəli atılıb xürrəmiləri Bəzzin darvazasınadək qovladı. Bu hay-huyu eşidən Afşin geri dönüb xürrəmilərin ordusu ilə çarpışan Cəfəri görür. Afşin öz mövqeyində durur və Cəfərə bərk acıqlanıb deyir ki, sən mənim tədbirimi pozdun. İki tərəfdən çıxan bağırtıya Bu Dələfin yanında olan bir neçə könüllü xəndəkdən qalxıb Afşinin əmri olmadan Cəfərə qoşulurlar və Bəzzin barısına tərəf qaçırlar. Onlar deşiklər açıb divara dırmaşmaq üçün ayaq yerləri düzəldirlər ki, yuxarı qalxıb qalanı ələ keçirə bilsinlər. Cəfər Afşinə müraciət edib deyir ki, mənə kömək etmək üçün beş yüz nəfər oxatan göndər, bu saat Bəzzi fəth etməyə ümidvaram. Afşin ona peyğam göndərir ki, sən qanmazın birisi bütün mənim tədbirimi alt-üst etdin. Odur ki, yavaş-yavaş geri dön və öz canını da, əsgərlərini də qurtar. Cəfər qayıdır. Könüllülər isə nərə çəkib Bəzzin divarına dırmaşırlar. Dava qızışır, döyüş vaxtı gəlir. Bu zaman Babəkin qurduğu pusqular, biri Buxara Xudanın əlinin altında, digəri isə o biri tərəfdən açılır. Afşinin qoşunu yuxarıda idi və bir nəfər də yerindən qımıldana bilmədi. Afşin o yolunu azmışlanın qoyduqları pusquların üzə çıxdığına görə Allaha həmd edir. Cəfər könüllülərlə qayıdır və Afşinə kobudcasına müraciət edir, Bəzzi ələ keçirməyə qoymadığına görə şikayətlənir, ağır sözlər deyir. Könüllülərdən biri özünlə gətirdiyi daşı Afşinə göstərir ki, bizə geri dönməyi əmr etdin, amma mən bu daşı Bəzzin hasarından qopartmışam. Afşin dedi: – Daha sakit ol. Madam ki, geri qayıda bilmişik, sənin cavabın hazırdır. Buxara Xudanın düşdüyü pusqunu görəndən sonra Afşin Cəfərə dedi: – Əgər həmin yerə basqın etsəydin, indi sənin və könüllülərin halı necə olardı? Bundan sonra hamı hər gün bir qayda ilə geri dönərdi. Buxara Xudanın yanındakı pusqunu görüb bildilər ki, əgər Buxara Xuda yerindən tərpənsəydi, bütün

ləşgəri o pusquya düşəcəkdi, onun tutduğu mövqe əldən gedəcəkdi və müsəlmanlardan birisi də canını qurtara bilməzdi. Afşin bir neçə gün səngərdə qaldı. Bir gün azuqənin siyahısını tutdular və yeyəcəyin az olmasından ona şikayət etdilər. Afşin dedi: – Əgər taqətiniz çatırsa, mənimlə qalın, əks halda yol açıqdır, mənim sizə ehtiyacım yoxdur. Xəlifənin döyüşçüləri mənə kifayət edər. Könüllülər qayıdıb deyinməyə başladılar ki, Afşin uzunçuluq edir, indi vuruşmaq məqamıdır. Əgər bizi Cəfərlə buraxsaydı, biz Bəzz qalasını fəth edərdik. Sonra belə bir söz ortaya saldılar ki, Peyğəmbər birinə yuxuda buyurdu: – Afşinə de ki, əgər döyüşə getməsə və bu işi başa vurmağa cəhd etməsə, onda mənim əmrimlə dağlar sənin üstünə daş yağdırar. Bu söz camaatın dilinə düşdü və sonda Afşinin qulağına çatdı. O, həmin adamı yanına çağırıb yuxu haqqında soruşdu. O kişi də həmin dastanı söylədi. Onda Afşin dedi: – Allah mənim niyyətimi bilir. Mənim o bədbəxtin əl-qolunu bağlamaq üçün bir tədbirim var. Əgər Allahın adəti dağlardan daş yağdırmaq olsaydı, onda Onun qəzəbinə elə Babəkin özü tuş gələrdi və bizim də canımız ondan qurtarardı. Könüllü dedi: – Ay əmir! Bizim şəhadətimizi heçə sayma. Bizim məqsədimiz məlumdur və bizə vuruşmaq imkanını bəxş et. Bəlkə Tanrı bizə yar oldu və qalanı ələ keçirdik. Afşin dedi: – Mən indi sizin niyyətinizin saf olduğunu gördüm və belə şərəfli işi sizə tapşıra bilərəm. Bu işin çox qorxulu olduğuna görə mənim rəyim o qədər də cəsarətli olmamışdı. Ancaq xalqın belə sevinc içində olduğunu görəndən sonra əməliyyatın şübhəsiz fəth ilə nəticələnəciyini bildim. Himmət kəmərini belinizə bağlayın, mən də istədiyiniz gün sizə o əmri verərəm. Hazır olun ki, sizi döyüşə göndərim. Camaat sevinə-sevinə bayıra çıxdılar. Onda Afşin fikirləşib müəyyən bir gün təyin etdi və ordunun davaya hazır vəziyyətdə olmağa və yemək, su və qızıl tədarükünü görməyə göstəriş verdi. O, həmçinin heyvanların belinə kəcavələri yerləşdirməyi də tapşırdı ki, yaralıları daşımağa ehtiyac yarana bilər.

Həmin gün ordu yerindən hərəkətə keçdi. Afşin Buxara Xudaya ön dəstənin mərkəzində durmağa əmr verdi, özü isə

sözləşdirilmiş yerdə mövqe tutdu. O, Əbi Dələfə deyir: – Könüllülərə söylə ki, onlar üçün ən asan istiqamətdən həmlə etsinlər. Cəfərə deyir: – İndi bütün ordunu sənə həvalə etdim. Nəftatanların[1] və oxatanların hamısı sənindir. Neçəsini istəsən – elə bu gün götür və döyüş əzmində olan o cavanları bildiyin yerlərdən topla.

Bundan sonra o, keçəndəfəki mövqeyə getdi və Əbu Səidə bunu buyurdu: – Sən öz döyüşçülərinlə mənim yanımda yer alıb hazır və amadə vəziyyətdə dayanmalısan ki, Cəfərə kömək lazım olsa, onun dadına yetişə bilim. Bundan sonra Cəfər yaraqlı könüllülərlə irəliləməyə başladı. Xürrəmilər bir an içində gəldilər, döyüş qızışdı, onları qovlayaraq Bəzzin divarına çatdılar. Cəfər darvazaya yetişən kimi döyüşə dayandı. Afşin Muradla və könüllülərlə qızılı və ənamları göndərdi ki, döyüşə birinci atılana versinlər və bir dəstə oxatanı da su, quru çörək və səviqlə göndərdi. Hər yanda və xüsusilə darvazanın ağzında amansız dava davam edirdi. Xürrəmilər qapını açıb Cəfərin üstünə düşdülər, onu darvazadan geri qovdular, könüllüləri bərk əzdilər və qalanın barısından başlarına ağır daşlar yağdırdılar. Könüllülərdə döyüşməyə güc qalmamışdı və onlar meydanı düşmənə təslim etdilər. Cəfər yüz nəfər mərd əsgərləri ilə başları üzərinə qalxanları qaldırmağa məcbur oldular. Hər iki tərəf döyüşdən çəkildi. Günorta çağı aləm yenidən qarışdı. Afşin Cəfərə dəstək vermək üçün bir piyada dəstəsi yolladı. Cəfər xəbər göndərdi ki, bizim əlavə qüvvəyə ehtiyacımız yoxdur, ancaq hücuma keçib döyüşmək üçün meydan dardır. Onda Afşin onlara qayıtmağı əmr etdi və yaralılarla daşlardan zərər çəkənləri yük heyvanlarına yerləşdirib geri dönmələrini istədi.

Adamlar o il Bəzz qalasını fəth etməkdən ümidlərini kəsdilər. Könüllülərin bir qismi getdi. Afşin iki həftə ordusunun təchizatı ilə məşğul oldu. Gecə yarısı min nəfər oxatanı çağırıb

---

[1] Nəftatanlar – yanan nefti və digər alışqan maddələri qabların içində düşmənin üstünə və mühasirəyə alınmış qalalara atmaqla məşğul olan xüsusi döyüşçülər.

hərəsinə su və çörəklə dolu kiçik tuluqlar verdi və hər birisinə ağacsız bayraq bağışladı. Sonra ən zirək bələdçilərə həmin min nəfəri gizli dağ cığırlarla Azinin hündür bir dağda dayandığı yerə çatdırmağı tapşırdı. Bundan sonra belə buyurdu: – Ayıq-sayıq olun, xəlvətcə yeriyin, səs salmayın. Sübh fərizəsini yerinə yetirəndən sonra ətrafa baxın, əgər mənim bayraqlarımı görsəniz və müharibə əlamətləri gözünüzə çarpsa, siz də öz bayraqlarınızı nizələrə bağlayıb təbilləri döyün. Qabağına düşən hər şeyi aparan sel kimi dağdan enib düşmənin üstünə ölüm leysanını yağdırın. Əks təqdirdə isə yerinizdə durub mənim əmrimi gözləyin və heç bir halda yerinizdən tərpənməyin.

Onlar getdilər və səhər çağı həmin dağa çıxdılar. Afşin gecənin sonuna yaxın öz ordusuna hərbə hazır olmağı tapşırdı və Bəşir Türkə onun əli altında olan fərğanəlilərin[1] başçısı ilə bir dəstə adam götürüb tez həmin təpənin aşağısına getməyə göstəriş verdi. Azin orada idi və Babəkin sözügedən dağın altında pusqu qurduğunu bilirdi. Bəşir getdi və orduda çoxunun bundan xəbəri yox idi. Sübh çağı dayandı və fərizəni yerinə yetirəndən sonra təbilləri döydülər. Sonra o, bundan əvvəl mövqe tutduğu yerə çatıb həmin yerə qalxdı və yenə dayandı. O, Buxara Xudaya tapşırdı ki, Cəfər Xəyyat, Əbu Səid və Əhməd bin Cəlil bin Hişam bu yerdə qalsınlar, özü isə aşağı endi. Adamlar işdən xəbərdar olmadıqlarına görə onun bu hərəkətlərini bəyənmədilər. Lakin o, Azinin pusqu qurduğu təpəyə yaxınlaşmağa və təpənin ətəyini hər tərəfdən əhatə etməyə göstəriş verdi. Bu dörd nəfər Afşinin tədbirinə uyğun hərəkətə keçdilər. Cəfər Bəzzin darvazası tərəfində, Əbu Səid ona yaxın yerdə, Buxara Xuda onun yanında və Əhməd onun yanında yer aldılar və beləliklə təpəni əhatəyə aldılar. Bundan sonra Babək vadinin o başında hay-huy qaldırıb Bəşir Türkə tərəf üz tutdu. Babəkə kin bağlayan Bəşir öz fərğanəliləri ilə ilə döyüşə düzüldü. Nərələr göyə qalxdı və ləşgər irəli atıldı. Afşin onlara dayanmağı əmr etdi.

[1] Fərğanəlilər – Mötəsimin Mərkəzi Asiyadan orduda xidmət etmək üçün gətirdiyi döyüşçülər.

Döyüşçülər pusquya çatıb durdular. Bu məqamda yuxarıda adları çəkilən min nəfər oxatan səs-küyü eşidir və Afşinin bayraqlarını görür. Onda onlar da öz bayraqlarını nizələrə bağlayıb qaldırırlar. Adamlar dağın yamacındakı o bayraqları görüb Azinin süvarilərinə tərəf sürətlə irəliləməyə başlayırlar. Onda Azin bir dəstə adamı arxaya göndərir. Cəfər öz qoşunu ilə Azinin üstünə hücuma keçib yuxarı qalxır və dava qızışır. Azin geriyə çəkilib vadiyə enir. Bu zaman Əbu Səidin dəstəsi ona həmlə edir. Xürrəmilər bu yerdə quyular qazmışdılar. Süvarilər həmin quyulara düşür və atları qırılır. Afşin o xəndəkləri doldurmaq üçün bir neçə fəhlə göndərir. Ordu yenidən hücuma keçir. Azin dağın başında bir iri daş hazırlayıb qoymuşdu. Onu aşağı yuvarladılar. Döyüşçülər dərhal aralanıb o daşa yol açdılar ki, heç kəsə ziyan vurmayıb keçsin. Bundan sonra qoşunlar hər yandan döyüşə hazır vəziyyətdə durdular. Babək islam ordusunun xürrəmiləri hər tərəfdən qomarladığını görəndə Bəzzdən çıxıb Afşinin dayandığı yerə yönəldi. Afşinə dedilər ki, bu Babəkdir, səni istəyir. Belə yerə gəl ki, onun sözünü eşidə biləsən. Azinin olduğu yerdə sərt döyüş davam edirdi. Babək dedi: – Əmirülmömininindən aman diləyirəm. Afşin dedi: – İstədiyin vaxt sənə aman verərəm. Babək dedi: – Elə bu saat, ancaq o şərtlə ki, mənə ailəmi təchiz edib yola salmaq üçün möhlət verəsən. Afşin dedi: – Mən sənə məsləhət verirəm. Bugünkü çıxmağın sabahkından yaxşı olar. Babək dedi: – Qəbul edirəm. Afşin dedi: – Girovları göndər. Babək dedi: – Bu saat edərəm. Girov qalmaq üçün layiq olan filan və filan. Bir kəsi göndər ki, döyüşçülərin davadan çəkilsinlər. Mən də sənin buyuruğunu yerinə yetirim. Afşin bir elçi göndərdi ki, qoşun döyüş meydanından geri qayıtsın. Ona dedilər ki, fərğanəlilərin bayraqları Bəzzin divarı üzərində görünür. Onlar qəsrə qədər qalxıblar. Afşin ata minib qoşuna səsləndi. Onlar birdən Bəzz qalasına daxil oldular. Döyüşçülər bayraqlarını Babəkin dörd qəsri üzərinə sancdılar. Babəkin pusquda dayanan altı yüz nəfəri çıxıb döyüşə düzüldülər. Babək fürsət tapıb Həştadsər təpəsi yolundakı vadiyə keçdi. Afşin döyüşürdü. Qəsrlərin darvazaları önünə nəftatnları

çağırdı. Onlar qəsrləri yandırıb taladılar. Xürrəmilərin hamısı öldürülmüşdü. Babəkin arvad-uşaqlarını əsir götürdülər. Afşin orada qaldı. Gecə gələndə qoşuna yenidən Rudəlruddakı səngərə qayıtmağı əmr etdi.

Babək dərədə gizlənmişdi. Afşin çıxıb qayıdan kimi öz silahdaşları ilə Bəzzə gəlib ərzaqdan və əşyalardan əlinə keçənləri yığıb getdi. O biri gün Afşin oturub Bəzzə gəldi və qəsrlərin hamısını dağıdıb yandırmağı və bütün tikililəri xaraba qoymağı əmr etdi. O, Ərməniyyə məliklərinə və batriklərə[1] yazdığı məktublarda Babəkin bir dəstə adamla qaçdığından və o tərəflərə gələcəyindən xəbər verib ordu rəhbərlərinə ayıq-sayıq olaraq Babək tutulanadək oradan keçən hər kəsi yaxalamağı məsləhət görürdü. Afşinin casusları gəlib Babəkin keçilməz meşəyə pənah apardığını bildirdilər. Onların dediklərinə görə, bu meşələrdən atlı keçə bilməzdi və ağacların sıx bitdiyindən orada gizlənənləri aşkar etmək mümkün deyildi. O vadinin bir ucu Azərabadəgana, o biri ucu isə Ərməniyyəyə qədər uzanırdı və adına Ğizə deyərdilər. Afşin orduya həmin meşədə kəşfiyyat aparmağı və oranı əhatəyə almağı əmr etdi. Oradan çıxmaq üçün on beş mövqe var idi və o, həmin yolları kəsməyi tapşırdı. Darüssəlamdan məktub gəldi. Mötəsim Babəkə və babəkilərə aman vermişdi. Afşin həmin aman fərmanını oxudu və xəlifənin məktubunu onlara verdi ki, Babəkə aparsınlar. Heç kim bu işi yerinə yetirmək üçün özündə cəsarət tapa bilmədi. Babəkin oğlu da həmin adamların arasında idi. Afşin dedi ki, Babək bu məktubdan şad olar. Dedilər: – Biz onu daha yaxşı tanıyırıq. İki nəfəri ayağına gətirdilər. Dedilər: – Əgər əmir bizim ailələrimizə zamin dursa, biz canımızdan keçməyə hazırıq. O iki nəfər gedib məktubu Babəkə verdilər. O, birini öldürdü, digərini isə məktubla geri qaytardı. Babəkin oğlu da atasına bir öyüd-nəsihət məktubunu yazmışdı. Dedi: – O vələdiznaya çatdırın ki, o, mə-

[1] Batrik – Rum (Bizans) dövlətində ordu başçısı.

nim oğlum deyil. Əgər o mənim övladım olsaydı, məni atmazdı. Bir gün əmir[1] olmaq qırx il məmur[2] olmaqdan yaxşıdır.

Bundan sonra Babək bir müddət o meşədə qaldı. Ərzağı qurtaranda o, çıxmaq üçün yola düşdü. Oranı bir dəstə qorumaqda idi və onlar dörd nəfəri bir xəlvət yerdə keşikdə qoymuşdular. Babək o dörd adamı görmədi və elə bildi ki, yolu mühafizə edən yoxdur. Bundan sonra Babək, qardaşı Abdullah, nökər, Babəkin arvadı və anası Ğizədən çıxdılar. O dörd nəfər bunları görüb öz sərdarları Əbussaca xəbər verdilər ki, bir neçə adam gəlir və biz onları tanımırıq. O, yubanmadan Babəkin bulaq başına düşüb nahar etdiyi yerə gəldi. Babək onları görən kimi durub qaçdı, amma o arvadla Müaviyə ələ keçdilər. Əbussac tutulanları Afşinin yanına göndərdi.

Babək Ərməniyyə dağlarına pənah gətirdi. Bir gün çox acmışdı. O yerdə məlikin xidmətçiləri tanımadıqları adamları yaxalamaqdan ötrü keşikçilər qoymuşdular. O [Babək], torpaq şumlayan bir kəndlini gördü və öz qulamına qızıl verib onun yanına göndərdi ki, həmin əkinçidən çörək istəsin. Qulam əkinçiyə yaxınlaşır və bu kişinin də bir yoldaşı var imiş. Həmin yoldaş bu vaxt çaparaq gəlirdi və əlisilahlı nökəri uzaqdan görüb onun çörəyi kəndlidən zorla almaq istədiyini güman edir. O, tez kənd camaatına xəbər verir ki, bir nəfər silahlı mənim yoldaşımı soyur. Sunbat dağında yerləşən bu kəndin sahibi o saat Səhl bin Sunbata xəbər göndərir. O isə bir dəstə adamla atlara minib həmin kəndlinin əkin yerinə gəlir. Bu zaman nökər hələ də əkinçinin yanında idi. O, nökərin dediyini dinləyib Babəki soruşur. Nökər Babəki ona göstərir. Səhl Babəki görən kimi atdan düşüb onun əlini öpür və soruşur: – Yolun haradır? Babək deyir: – Ruma gedirəm. İbn Sunbat deyir: – Sən mənə çox yaxşılıq eləmisən və mənim xəlifə ilə işim yoxdur. Batriklərin nələri varsa, ala bilərsən. O, bu sözlə eyham vurdu. Babək batriklərdən birinin gözəl qızı olduğunu eşidəndə onu istədi. Əgər öz razılığı

---

[1] Əmir – əmr verən.

[2] Məmur – əmr alan.

ilə verib göndərsə – lap yaxşı. Yox, verməsə – onda onun mülkünə hücum edib zorla alaram. İbn Sunbat Babəkə bu cür kələk gəlib onu öz qalasına apardı. Babək oradan qardaşı Abdullahı İstefanus qalasına göndərdi. İbn Sunbat Afşinə gizlicə xəbər verdi ki, Babək buradadır. Afşin yazdığı məktubda ona iltifat göstərdi və Bu Dəbarə ilə Bu Səidi o yana göndərib İbn Sunbatın sözü ilə hərəkət etməyi tapşırdı. Onlar gələn kimi İbn Sunbat onlara pusqu qurmaq üçün mövqe göstərib həmin yeri onun əmri olmadan heç bir halda boş qoymamağı tapşırdı. Bundan sonra o, Babəkə dedi: – Qalanın bu darısqallığında ürəyin darıxır. Yaxşı olardı ki, ova gedəsən. Babək atına mindi və çölə çıxdılar. İbn Sunbat bir nəfəri Bu Səidlə Bu Dəbarənin yanına göndərdi ki, soldan-sağdan tez oraya gəlsinlər. Onlar birdən peyda oldular. Babək əyninə ağ dürraə[1] geymişdi. Onlar Babəkə dedilər: – Atdan düş, çünki mən Əbu Səidəm, bu isə Bu Dəbarə. Babək yerə enib İbn Sunbata bu sözləri ünvanladı: – Məni bu yəhudilərə ucuz qiymətə satdın. Əgər sən məndən mal istəsəydin, mən ondan artıq verərdim. Bundan sonra Əbu Səid onu ata mindirdi və Afşinə Babəkin tutulmasını bildirdi. Afşin qoşun çağırdı. Onlar iki sıraya düzüldülər. Babəki piyada halda iki sıranın arasından keçirdilər, evə saldılar və əl-qolunu bağladılar. Bu, xürrəmilərin əhvalatının sonu idi və mən həmin fəsli ondan ötrü gətirdim ki, fars tarixnamələrində belə şərh olmayıb.

---

[1] Dürraə – dəmir geyim.

# [Təbrizin coğrafiyası]

## İmarətlərin yerləri və məkanları haqqında

Mən qədim dövrlərdən gələn sözləri deyil, indi öz gözümlə gördüklərimi söyləyirəm. Əgər Təbrizə baxsaq və həqiqəti yazsaq, bu şəhər Səhənd deyilən böyük dağın ətəyində yerləşir. Təbrizə çox yaxın olan bu dağın qarla örtülmüş təpələri böyük cah-calalla və azacıq təkəbbürlə şəhərin cənub hissəsinə qədər çatır. Bu valehedici mənzərə şəhər evlərinin əksəriyyətindən müşahidə olunur. Onun görünüşü ilin hər fəslində gözəldir. Şəhərin şimal hissəsi isə Sürxab adı ilə tanınan dağa bitişikdir və evlər həmin dağın ətəyinədək gedib çatır. Bu dağ qurudur və onun mədənlərindəki maddələr xeyirsiz və faydasızdır. Sürxab dağ silsiləsi Qaradağ dağları ilə qarışıb Araz çayının sahilinə qədər uzanır.Bu şəhərin şərq tərəfi Sürxab dağının[1] bəzi silsilələri və eləcə də Şibli adlı yüksək və çoxcığırlı dağlarla əhatə olunur. Təbrizin qərbi genişdir və baxımlı yeri adı indi Şəha kimi yazılan Xocənt [Xəncəst?] gölüdür. Bu yolda yerləşən kiçik kəndin adına isə Şahi deyərlər. Düz qərb istiqamətindəki nəhəng dağ silsiləsi və şimaq-qərbdə yer alan başqa bir silsilə bizim şəhərimizi sanki bahalı daşlarla zinətləndirməkdədir. Bu dağ silsilələrinin ikisi də çox faydalıdır və Ərvənəq ilə Ənzab kəndlərinə, eləcə də həmin gölə kölgə salır. Bu göl şəhərin özündən görünmür, çünki onun sahilində yerləşən dağın bir hissəsi qabağını tutur və mahalın ayrı-ayrı kəndləri həmin dağın ətəyində yer almaqdadır.

## Havanın keyfiyyəti haqqında

Bu şəhərin havası öz mülayimliyi ilə bütün İranda məşhurdur. Soyuğa meyilli, olduqca səfalı və xoşdur. Bu böyük mübarək şəhərdə bizə natəmizlikdən xəbər verən bəzi xəstəliklərin

---

[1] Təbrizin şimal-şərqində yerləşən Sürxab dağına Eynəli dağı da deyirlər.

əsər-əlaməti yoxdur. Belə xəstəliklərdən biri titrəməli qızdırmadır və əgər təsadüfən bu mərəzə mübtəla olmuş bir kəsi görsək, elmə yaxın əsaslarla onun başqa bölgədən gəldiyini zənn edərik. Bu bir misal idi və *bilmək lazımdır ki*, digər xəstəliklər də havanın pisliyindən əmələ gəlir. Təbrizin havası qanartırandır və quruluğa meyillidir. Qan və sinə xəstəlikləri bu məmləkətə məxsusdur. Qarın yatalağına bu şəhərdə ən çox yayılmış xəstəlik demək mümkün olduğuna baxmayaraq belə böyük şəhərdə bilikli həkim yoxdur. Bu xəstəliyə səbəb kimi məhəllələrdəki zibilliyi və natəmizliyə gətirib çıxaran baxımsızlığı göstərmək olar. Amma ümumilikdə mərəzlər bu məmləkətdə çox dərin kök salmayıb, çünki mən özüm görmüşəm ki, neçə il öncə şərq tərəfdən buraya vəba havası sirayət etsə də, yerli əhali İranın digər bölgələrdəki sayda və tərzdə məhv olmadı.

## Suları haqqında

Bu şəhərin suyu iki yolla gəlir. Biri Mehranrud adlanan və Səhənddən qayaların altından bulanıq halda axmaqdadır. Mən min iki yüz əlli dördüncü ildə[1] Təbrizə gələndə bu çay ilin bütün günlərində bir dəniz kimi şəhərə axırdı. İndi təbrizlilər iki səbəbdən həmin nemətdən bəhrələnə bilmirlər. Birincisi odur ki, keçmiş zamanlarda padşahlar ziyan vurmamaq üçün təbrizlilərə şəhərin içində ağac əkməməyi əmr etmişdilər.

## Hekayət

Bir gün İran padşahı Qazan xan[2] gəzintiyə çıxıb yaşıllıq olan bir yeriə qalxır və oradan şəhərə tamaşa edir. Birdən gözü şam ağacına sataşır. Səhər əmr edir ki, mənim fərmanımı yazın: – O evi dağıtsınlar və o ağacı əkənin başını kəssinlər. Xidmətçilər

---

[1] Miladi təqvimilə 1838/39

[2] Sultan Mahmud Qazan xan (1271-1304) – Elxani hökmdarı (1295-1304).

diz çöküb İlxana yalvarırlar ki, bu fidan bir mürdəşir kişinin evində əkilib. Şəhər çox böyükdür və xalqın o adama böyük ehtiyacı var. Bu ağacı da ondan ötrü əkiblər ki, onun evinin yolunu tapmaq asan olsun, yoxsa heç kəsin qayda-qanun pozmağa cəsarəti çatmazdı. İlxan buyurdu: – Yaxşı, qoy belə olsun, amma şam ağacının yerinə torpağa daha hündür bir taxta basdırsınlar və başına rəngli parça bağlasınlar. Ağacı isə çıxartsınlar.

Bəli, hökm belə oldu və heç kimin həmin çayın dağa qədərki məcrasında torpağa bir ting də basdırmağa qücü çatmazdı, bəlkə kənddə müsəlman kişilərin nizə düzəltmək üçün budaqlarından kəsdikləri bir-iki şam ağacından başqa. Kəndli çaydan yalnız taxıl əkinlərini suvarmaq məqsədilə istifadə edərdi. Bəzən də söyüd ya başqa ağacdan əkərdilər. Sözügedən qanun Məhəmməd şahın (Allah onun dəlillərini işıqlandırsın!) padşahlıq dövrünün əvvəlinə qədər qüvvədə qaldı. İndi həmin hökmün üstündən batillik xəttini çəkiblər. Bu çayın sahilləri mənbəyinə və dağın ətəyinədək, demək olar ki, bir ağac bağına çevrilmişdir və ağacların sayı o qədər ki, orada günəşin şüaları heç vaxt yerə çatmaz.

## Hekayət

Təmmuz* ayı idi. Günəş on iki bürclük ilin Xərçəng bürcündə olmuşdu. Bundan əvvəlki ayın bir günündəmən şəhərdən birbaşa yolla altı şəri fərsənglik* məsafədə yerləşən Bayraq kəndində idim. Şahənşahın vəliəhdinin həmin kənddə bir bağ evi var idi. Düz yoldan bir az kənara çıxdım, çünki hava çox isti idi. Mehranrud çayının sonuna qədər bütün sahil boyu söyüd və şam ağacları hər yerə kölgə salırdı və mən heç boş yer görmədim. Onun ikinci səbəbi isə odur ki, şəhərin maldarları miqdarı haqqında ətraflı məlumat verəcəyim kəhrizləri qazmışdılar və hər bir neçə zər'dən* sonra kəhriz qolu çay məcrasının altından o tərəfə uzanıb sonra yenidən bu yana qayıdırdı və indi bütün məcra belə qollar şəbəkəsi üstündə idi. Şəhərə gedən yolu

qısaltmaq məqsədilə çaydan kəhrizə bir keçid açdılar və adını Gəngab qoydular. İndi Buğanın başlanğıcından Tərəzinin sonunadək bu məşhur çayda bircə damcı su belə görünmür. Yalnız yaz vaxtı sellər axanda Buğaya qədər və payızda Oxatan ayında qış fəslində Acırud adlı çay coşduğu zaman su o dərəcədə artır ki, ondan at üstündə keçmək üçün çox əziyyət çəkməli olursan və bu yol olduqca xatalıdır.

## Acırudun [Rudaci?] xüsusiyyətləri haqqında

Bu çay Təbrizin cənubundan keçir və Xətaniyan tarlaları, Şurəkat məhəllələri və şəhərin güney əraziləri üçün olduqca faydalıdır. O çaydan balaca çaylar ayırıb kəndlərə çəkiblər və onun üstündən körpülər tikilib. Onlardan biri Təbrizin yaşayış yerlərinin lap sonunda kərpic və daşdan çox möhkəm salınmışdır.

Onun inşa edilməsinin başlanğıc tarixi məchuldur, lakin son tikinti işləri əmiri-kəbir* Məhəmməd xan Zəngənə əmiri-nizamın* hökmü və məşhur tacir Hacı Seyyid Hüseyn Təbrizinin dəstəyi ilə hicrətin min iki yüz əlli ikinci ilində[1] yerinə yetirilmişdir.Adıçəkilən adam bu işi öz hesabına həyata keçirtmişdi. O zamanlar belə iş çox ucuz başa gəlirdi və körpünün dayaqlarının inşa edilməsi, körpünün nöqsansız tikilməsi, zəhmərhaqqı və digər xərclərin hamısına cəmi beş min misqal* qızıl sərf olunmuşdu ki, bu günün məzənnəsi ilə on min Təbriz tümənindən artıqdır. Həmin çayın suyu şor və içmək üçün yararsızdır. Yalnız yaz mövsümündə sel suları ona qarışanda suyu şirin olur. Onun mənbəyi Sərabdadır, Bozguş dağlarından və Səbəlan dağından axan sulardır. Bir mil şərqdən qərbə yönəlib duz mədəni olan Əndərab kəndinə yetişir. Sonra daha iki mil həmin istiqamətdə axmaqdadır. Burada da bir körpü var. Yaz çağında karvanlar onun üstündən yollarını salarlar. Onun altından çıxıb və hər tərəfi duz mədənləri olan ərazidən keçib Sürxab dağının arxasından axır və onun yamacından şimala meyil edib

---

[1] Miladi təqvimilə 1836/37

səhraya düşür və şəhərin şərqindən yüksək sürətlə düz Şəha (və ya Xəncəst)[1] gölünə tökülür. Buranın qumu yumşaq olduğundan onun axınının səsi çıxmaz.

Bu çayın üstündə Qaracadağ yolunda başqa bir körpü də vardır. Həmin körpü çox yaxşı və möhkəm tikilib. Odunu yük heyvanları ilə meşələrdən Təbrizə daşıyanların yolu bu körpünün üstündən keçir. İndi oradan iki çeşmə çıxır və həmin yerə Həzarçeşmə[2] deyərlər. Yerli camaat bu çaydan qara və xırda balıqları ovlayıb, elə sahildəcə yağın içində qızardıb yeyərlər. Bu da onlar üçün bir əyləncədir. Payızda və yazda ördəkləri, qazları və digər su quşlarını ovlayıb Təbriz bazarında satarlar. Bu quşları əsasən dərin çaylarda tutarlar, çünki belə yerlərdə quş ovçunu uzaqdan görə bilmir və insan ona rahatlıqla yaxınlaşa bilər.

İndi isə Təbriz şəhərinin təmiz suyundan istifadə etdikləri kəhrizlərdən söz açım.

---

[1] Müasir dövrdə ona İslami və ya Şərəfxanə gölü deyirlər.

[2] Həzarçeşmə – min çeşmə, min bulaq.

# Təbrizin kəhrizlər şəbəkəsi haqqında

Bu əzəmətli şəhərin kəhrizlərini iki dəstəyə bölək: birincisi, qədim olanlar və uzaq keçmişdə qazılanlardır; ikincisi isə son əsrdə şəhərin böyükləri və tacirləri tərəfindən çəkilmiş xətlərdir. İndi də biz O Pak Tanrının köməyi ilə mənim ağamın mənə buyurduğu qaydada qısa sözlə bunları bir-bir yad edək.

## Kəhrizlər arasında əvvəl qazılanlar

Bizə belə söyləyiblər ki, şəhərin əhalisi və başçılarının tikdirdikləri ilk su lağımı Zübeydə kəhrizidir. Adı Eyni-Zübeydədir.[1] Deyirlər ki¸ şəhər salınanda bu kəhrizi Zübeydənin əmri ilə çəkmişdilər.

*Mən deyirəm.* Xəbərsiz adamlar səhv yolla gedib bu şəhərin banisinin Zübeydə bint Cəfərin olduğunu güman edirlər. Ana yola yaxın xiyabanda bir qəbiristan var. İndi ora bu yaşayış məntəqəsinin mərkəzidir, bağlı yerdir. Orada bir qəbrin üstündə uzunluğu bir gəz* yarım, eni bir Təbriz gəzi* olan xalis mərmər daşı vardır və o daşın üstündə poladla Zübeydə adlı birisini anan mətn həkk olunmuşdur. Orada çox gözəl xətlə həmin qadının yaşadığı ömrünün tarixi və Qur'ani-kərimdən ayələr yazılmışdır. Mən onu görməmişəm, əmioğlum bir neçə dəfə görüb və daşın, xəttin və döymə naxışın gözəlliyindən danışıb. Ancaq o da yazını yadda saxlamayıb ki, mən burada göstərə bilim.

Min iki yüz doxsan səkkizinci[2] ildə Sahibi-şürt[3], Qacarlar nəslindən olmuş bir əmir, öz sarayının yanında hamam tikdirirmiş. Gecə vaxtı o, araba ilə çoxlu sayda bənna və dülgər göndərir ki, həmin daşı qəbirdən çıxarıb gətirsinlər. O biri gecə isə naxışçıya daşın üzərindəki yazını və kitabəni məhv etməyi tapşırır. Bir daş ustası mənə danışmışdı ki, biz üç nəfər idik. Bu işdən boyun qaçırmağa çalışdıq, çünki Qur'ani-əzimi yox etməli

---

[1] Eyni-Zübeydə – Zübeydənin çeşməsi.
[2] Miladi təqvimilə 1881.
[3] Sahibi-şürt – padşahın mühafizə və qarovul xidmətinin rəisi.

idik. Lakin Sahibi-şürtün əmri ilə xidmətçilər bizi döydülər. Biz də çarəsiz qalaraq o işi gördük. Bir neçə gün keçdi və camaatın pıçhapıçı ilə söz-söhbəti onun qulağına çatdı. Daşın yerindən götürülməsini ört-basdır edib onu yenidən oraya aparmaq istədi, amma olmadı, çünki daş xarab olmuşdu. Onda çarəsizlikdəən sarayın həyətində daşın üstünə torpaq tökməyi əmr etdi. İndi ora bir təpəcikdir, daş da həmin yerdədir. Adamlar cənab vəliəhdin əzəmətinə hörmət edərək dillərini qısa etdilər, çünki onun ailəsi Qacarlar nəslindəndir və o kişinin ata-babaları ehtiram sahibi olublar və bu bizə kifayət edər, əlbəttə, əgər paxıl, tamahkar və simic olmasalar.

Mən Təbrizə gəldiyim ilk illərimdə Zübeydə bulağından məşhur yer eşitməmişdim. Suyu həmişə bol və ləzzətli idi. Padşahın qəsrlərinə axırdı və şəhərin böyük hissəsi o sudan içərdi. Ard-arda ondan hər tərəfə quyularla kəhrizlər salındı və nəticədə bu cür böyük kəhriz parçalandı və suyu qonşu kəhrizlərə yol tapıb axdı. İndi bəzən onun adını Ali Divandan eşidirik. Mühəndislər onun suyunu yenidən məcrasına yönəltmək niyyətindədirlər. Heyhat! Hansı çayın suyu öz yoluna qayıtdı?

## Həsən padşah kəhrizi

Həsən padşah Qara Osman Türkmanın oğludur. Ona Uzun Həsən deyərdilər. Bu səxavətli və cəsur kişinin tarixindən bir fəsli şəhərin bərəkətli işlərindən yazdığım yerdə gətirəcəyəm. Onun dəstəyi ilə bu əbədi kəhriz çox məşhurlaşdı, çünki padşahın gördüyü əməllərdən idi. Bu su lağımı şərqdən qərbə Sürxab və Şütürban[1] məhəllələrinə, padşahın məscidinə və mədrəsəsinə qədər axmaqdadır. Onun suyu Təbrizin ən şirin suyudur və belə olmayıb (?), çünki Həsən padşahın dövründə şəhərdə Mehran çayı var idi və Təbrizin ətrafında kəhriz xətlərini çəkməyə ehtiyac olmamışdı. Nəzər yetirsək görərik ki, padşah məscid ilə mədrəsənin bol sularından bir çay düzəltdi və böyük

---

[1] Bu məhəllə həmçinin türkcə həmin məna verən Dəvəçi adı ilə məşhurdur.

əziyyətlə o gur axını həmin çayın sahilinə istiqamətləndirdi. Sonradan o çeşmənin suyu olmadı və yalnız Mehran çayı və onun qolları dünyada məşhurdur. İndi Mehran çayının yolu şəhərdən ayrılıb və bu çeşmənin də suyu quruyub, məcrası boş qalıb. Çayların suyu bol olan hal-hazırkı dövrdə və ilin yad etdiyimiz bu fəslində padşahın məscid ilə mədrəsəsinə və o iki məhəlləyə çeşmənin suyu gəlir. Bu gün Püli-səngin və Şeşgəlan məhəllələrinin də yolları genişlənib və o sudan haqsız olaraq bağlara və evlərə də çəkiblər. Buna misal olaraq deyim ki, Sürxab və Şütürban məhəllələrindəki bir evi satışa qoyanda kəhrizin bir qolunun oraya də ayrıldığını yazarlar və qeyd edərlər ki, Həsən padşah kəhrizindən filan binaya bir neçə boru çəkilmişdir. Hər yerdə bu çeşmənin adı çəkilir. Mənim evimdən də iki xətt keçir. Biri Şütürbana və o birisi məscidlə mədrəsəyə tərəf çəkilmişdir. Bu çeşmənin məcrası olduqca enli və genişdir. Hər iki məhəllənin sakinləri vəqf olunduğuna görə ona qiymət[1] vermirlər. Hər il onun arınması bir fərizədir və hər xəttə görə bizim zəmanədə bir tümən nağd pul verərlər. Suyun bolluğuna məhəllələrin muzdla işləyən və məvacib alan fəhlələr baxar. Qızıldan artıq qalanda isə bir adama tapşırarlar ki, su azalanda başqa çeşmələrdən pulla alıb bu məcraya töksünlər və beləliklə məhəllənin suyu bol olsun.

## Şah Çələbi

Qədim bulaqdır, banisinin kim olduğunu və hansı əsrdə yarandığını bilmirik. Bu çeşmə uzun illər boş və yararsız halda idi. Məğfur padşah Fəthəli şahın oğlu vəliəhd Nəvvab Abbas Mirzə onun abadlaşdırmasına göstəriş vermişdi. Onun gözəl suyu axmağa başladı və bu kəhrizin xətti Təbrizdən iki fərsəng* yarım uzaqlıqda yerləşən Kəndrud kəndinədək uzanmışdı. Onun suyu o həddə çatır ki, həmin tacdar şahzadənin əmri ilə Sürxab dağının üstündə dəyirmanlar quraşdırdılar və su oraya da yetişir. İndi

---

[1] Yəni pul

o dəyirmanlar xarab olub. Şahzadə bu çeşməni Sürxabın ətəyində yaşayışı rahat etməkdən ötrü qazdırmışdı. Bu yana başqa suyun gəlmədiyinə görə sözügedən kəhrizin qazılmasına və tikilməsinə göstəriş verdi ki, o yerləri də suvarlaya bilsinlər. Həmin bağ haqqında söhbət, Allah qoysa, qabaqda gələcəkdir.

O kəhriz abad və suyu axar olandan sonra özünün[1] üçüncü oğlu Cahangir Mirzənin ixtiyarına verdi. İndi də onun vərasəti Tuysərkanda mənzili və mülkü olan Əmirzadə Hacı Hüseyn Mirzənin övladlarına çatıbdır. Həsən padşahın suyundan almaq şərəfinə olmamış Sürxabın əksər evləri, bağçaları və meşəcikləri bu kəhrizdən yararlanırlar və yerli sakinlərin "lülə" adlandırdıqları hər borucuğa görə üç tümən alırlar və növbə ilə yerləri su ilə təmin edirlər. Bu kəhrizin hesabına gələn pul ümumilikdə yeddi yüz tümən təşkil edir.

## Cahangir Mirzə

Vəliəhd Abbas Mirzənin üçüncü oğludur. Onun anası Azərbaycanın türkmanları tayfasından olan Məhəmmədyar bəyin qızıdır. O əmirzadənin bir neçə qardaşı olub. Birincisi ömrünü həmin əmirzadənin xidmətində başa vurdu. Digəri Azərbaycan divanında münşilərdən biri olmuş Hacı Mirzə Sadiqdir. Tanınmış və xeyirxah kişidir. Bir başqası darülxilafətin dəftərxanasında baş katiblərdən olmuşdu və Tehranda da tanınırdı. Hacı Mirzə Sadiqin hal-hazırda Təbrizdə yaşayan övladları vardır. Böyük oğlu Hacı Mirzə Yusifdir. Təbriz divanının mühasibidir. Dindar bir ağsaqqaldır və Təbrizin əz əziz sakinlərindəndir. Başqası Mirzə Səiddir, Xalxalda mülkiyyət vergisini yığandır. Onların hamısının evləri şəhərin eyni bölümündə Xiyaban məhəlləsində yerləşir. Əmirzadənin xalası uşaqları çoxdur və hamısı da xoşxasiyyət adamlardır. Bu pak insanın[2] başqa bir neçə oğlu olub və onlardan birincisi

---

[1] Yəni Abbas Mirzənin
[2] Yəni Abbas Mirzənin

**Xosrov Mirzə**dir

ki, adıçəkilənin yeddinci oğludur. Bu əmirzadə öz zirəkliyi və fərasəti ilə ad qazanmışdır. Rus böyük elçisi Giribayedofu[1] Tehranda öldürəndən sonra şahənşah onu təmtəraqla Rusiyaya səfir göndərdi. O məmləkətin imperatoru böyük Nikolay onu musiqi sədaları müşayiətilə qarşıladı və üzrxahlığını qəbul etdi. Giribayedofun işinə görə bu gedib-gəlməyi ilə tanınmış adam oldu. Bu əhvalatdan sonra sanki təkəbbür onun könlünə yol tapdı. Onun barəsində bizə çatanları bu dəftərə yazmışıq. Bir gün o, nalları qopmuş atla Nişaburda olmuşdu və onu qoruyan bir dəstə adlı-sanlı xorasanlı süvarilərdən uzaqlaşıb bir başa Bistama yetişdi və heç kəs ona çata bilmədi. Bu çox cəsarətli bir hərəkət idi. Başqa bir qəribə işə də əl atmışdı. Bu da belə olmuşdu ki, ona Tuysərkanda töhmət vermişdilər. Bir dəstə onun yaşadığı imarətin ətrafında toplaşır. O, gözə görünmür. Bu zaman qalanın içindəki bağın bir guşəsində divar uçur. O, bunu bilib payi-piyada çölə çıxır və qışın soyuq vaxtında kənddən bir yorğa at alıb Həmədana yola düşür. Mən özüm min iki yüz altmış beşinci ildə[2] İraqi-Ərəbdə imamların (əleyhiməssəlam) ziyarətinə gedəndə Həmədana yetişdim. Qohumum sağ idi. Bir gün həmin əmirzadənin evində oldum. Məni çox lətif bir bağçaya apardı. Həmin yeri özü üçün vətən[3] etmişdi. O zəmanənin adətinə görə yaşıllıqlı xiyabanda qarağac kölgəsi altında çay dəstgahı düzəltmişdilər. Əmirzadə qəflətən bu yana gəldi. O yerə çatanda ayağı xalçanın qırağına ilişdi, yıxılmamaq üçün hoppanıb düz samavarın üstünə çıxdı. Samavar yerə düşdü, amma ona heç bir ziyan dəymədi. Bu əmirzadə atasının vaxtında daim ordu əmiri olmuşdu, Xorasanda müharibədə iştirak etmiş və həmin döyüşlərdə ad-san qazanmışdı. Mərifət sahibi Əmirzadə Ziyaüddövlə Məhəmməd Rəhim Mirzə[4] (Allah onu bağışlasın, çünki

---

[1] Yəni məşhur rus şairi Aleksandr Qriboyedovu
[2] Miladi təqvimilə 1849/50
[3] Vətən (burada) – daimi yaşayış yeri.
[4] Abbas Mirzənin on doqquzuncu oğlu.

Peyğəmbər ailəsinin sədaqətli dostu və nemət paylayan olmuşdu) mənə demişdi ki: – Qardaşım Xosrov Mirzənin iki çox böyük eybi var imiş. Birincisi, zarafatcıl idi və camaatı məsxərəyə salmağı xoşlayardı. İkincisi isə o idi ki, ürəyinə mərhəmətin yolunu kəsmişdi.

## Hekayət

Bilən adamlardan eşitmişəm ki, o, qoşunu Xorasana aparmışdı. Dayandıqları kənddə bir bostan var idi. Əsgərlərdən birisi oradan meyvə oğurlamışdı. Bağban gəlib şikayət edir. Əsgəri çağırır. Gətirirlər. Urmiya əfşarlarından lap cavan, novxətt[1] və qəşəng oğlan idi. Qovun də hələ yerində idi, onu yeməmişdi. Dedi: – Sən bağbana hansı gözünlə baxmısan? Bilirəm ki, hər ikisi ilə. Cəllada əmr etdi ki, "dünyagörən"in[2] ikisini də çıxart. Cavan dedi: – Əlimi kəsə bilərsən, bu qanunla düz gələr. Atam məni təzəlikcə nişanlayıb. Qoyma ki, gözlərim mənim bu üzümdən yox olsun. Eşitmədi. Cavan oğlanın qardaşı çığırdı: – Əgər çar-naçar bu işi görmək istəyirsənsə, onda onu burax və mən iki gözümü cəllada tapşırıram. Dedi: – Rəva deyil, sənin günahın yoxdur. Dedi: – Birini çıxart, o birisini bağışla. Bağışlamadı. Dedi: – Gözlərin biri qardaşımdan, biri də məndən ki, qardaşım lap qara günə düşməsin. Rəhmdillik göstərmədi. Cavan başını göyə qaldırıb Allaha yalvardı. Onun gözlərini çıxartdılar və qanunun tələbi tam yerinə yetirilmiş oldu. Həmin arvadın başqa oğlu

## Mustafaqulu Mirzə

Naibüssəltənənin on ikinci oğludur. Bu şahənşahın dövründə Mazandaranın və Urmiyanın hakimiyyət başçısı olmuşdur. O dünyaya köçüb. Digəri

---

[1] Novxətt – saqqalı yenicə çıxmış.
[2] Yəni gözünün

## Əhməd Mirzə

Ləqəbi Müinüddövlədir. Düşüb qalxandan sonra indi də yerindədir. Hal-hazırda Məşhədür-Rza (ə) astanasında naibdir. Allah (ə. və c.) ona hər iki dünyanı bağışlasın. Bu arvadın bir qızı Həmədanda çox hörmətli Qaragözlü tayfasından olan evdə yaşayır. Arvadın başqa oğlunun adı Məhəmməd Kərim Mirzə idi, cavanlıqda bu dünyadan getdi.

İndi isə Cahangir Mirzənin əhvalatı dinlənilməlidir. Bu fəsildə əcayib vardır.

## Fəsil

Cahangir Mirzə atasının vaxtında ad-san sahibi olmuşdu. Boylu-buxunlu bir cavan idi. Azərbaycanda rəhbər və əmir vəzifələrini layiqincə yerinə yetirərdi. İllərcə Xoyda və Səlmasda hakimiyyət başçısı olmuşdu. Həmin məntəqədə kürdlərlə və Rum tayfaları ilə mübarizə aparırdı və hər yerdə zəfər onun tərəfində idi. Bir vaxt o, Urmiyanın başçısı yerinə təyin olunmuşdu və orada da öz hünərini nümayiş etdirmişdi. İran-rus müharibələrində də iştirak etmişdi. Ərdəbilin həndəvərləri, qalabəylik və Talış ilə Xəzər dənizi sahilinin qorunması onun öhdəsinə düşmüşdü. Bəxt onun üzünə gülərdi və səadət ulduzu başının üzərində idi. Atasının gözü həmişə onun üstündə olardı və tayı-bərabəri bilinməyən vəzir Mirzə Əbülqasım Hüseyni Fərahani ilə dost idilər.

Bu əmirzadənin xasiyyətində kiçik qardaşların adətincə bir balaca tündlük var idi və işini bilik sahiblərinə xas olmayan tərzdə görərdi. Belə ki, bir vaxt təkbaşına Ərdəbildən Ənzəliyə getmişdi. Dəniz limanı olan Gilanda bir ərdəbilliyə rast gəlir. Onlar yalan sözləri bir-birinin üstünə düzərək dedilər ki, Naibüssəltənə hiylə və bəhanə ilə Xəmsə ilə Həmədanı ələ keçirdiyi kimi Rəşti də Azərbaycana qatmaq istəyir. Cahangir Mirzə də üzünü Ənzəliyə və Rəşt bölgəsinə tutdu ki, oradakı xalqın hərəkətlərinə xəlvətcə baxıb təhrik etsin. Bir başqaları da var idi ki, taxt ilə

tacın varisi olmuş və maması[1] Naibüssəltənənin sarayında hörmətli xatun olduğu böyük qardaşın fərmanına boyun əymək istəmirdilər və bu həzrətə ehtiramla yanaşmırdılar. Bu belə idi və Naibüssəltənə min iki yüz qırx doqquzuncu[2] ildə Məşhədi-Rəzəvidə (ə) fani dünya ilə vidalaşdı. Aləmin padşahı Məhəmməd şahın böyük oğullarını Heridən* öz dərgahına çağırıb atalarının yerinə İranın vəliəhdliyinə seçdi və Azərbaycana göndərdi. Cahangir Mirzə bir neçə dəmir zirehli süvari ilə Miyanəyə gəldi. Bu zaman qaimməqam Hüseyni onun arxasınca düşdü, onun ürəyi əmirzadənin bu yerlərə yol salmasından sıxıldı. Onun könlündən keçmişdi ki, Cahangir Mirzə heç vaxt Xoydan qardaşı həzrətlərinə gedib baş çəkməz və bu da əslində onun üçün çox sərfəli idi. Onlar aralarında əhd-peyman bağladılar. Sonra onunla gizlicə görüşdü və onun fikrinin özünkünə müvafiq olmadığını gördü. Köhnə sözlərini kənara atıb əməllərində düzəliş etməyin yerinə bəd ağzını açdı. Sonra itaəti qaba libasa geyindirib həzrətin yanına apardı. Padşah çox ləyaqətli və ağır hərəkət edən adam idi. Vəzir də geri çəkilmədi. Padşah Bağmeşə kəndinə gəldi. Həmin yerdə Xosrov Mirzə ilə Cahangir Mirzənin səlahiyyətlərinə son qoyuldu. Onlar qeyd-şərtsiz əvəzləndilər və Ərdəbilə göndərildilər. Bu hadisə min iki yüz əllinci[3] ildə baş verdi. Rəbiül-əvvəlin on səkkizində indilərdə rus dövləti himayəsi altındakı Şuşidə[4] yaşayan Bəhmən Mirzə əmirzadələri Ərdəbilin möhkəm qalasına[5] aparıb yanlarına mühafizə qoydu. Bu xəbər həzrət xilafətə çatdı. İran şahənşahı qəzəblənib Asəfüddövləni yaxşıca danladı. Asəf elçi göndərdi və işi məşvərəyə saldılar. Padşahdan üç aylıq möhlət istədilər ki, əmirzadələr məsləhətləşib götür-qoy etsinlər və həmin müddət başa çatan kimi mülkü ya təslim ya da atalarının yolu ilə idarə  etsinlər. Şahənşah çarəsizlikdən razılaşdı, ancaq

[1] Yəni anası
[2] Miladi təqvimilə 1833/34
[3] Miladi təqvimilə 1834/35
[4] Yəni Şuşada
[5] Bu qalanın adı Narınqaladır.

bu iş heç onun ürəyindən olmadı. O, bütün günü o məsələdən soraqlaşırdı. Sonra İspəhana[1] getdi. Bu xəbər min iki yüz əllinci ilin cümadiül-axirin on doqquzunda[2] Azərabadəgana çatdı. Padşah saraya getmək istədi. Həzrət padşahın vəziri olmuş Mirzə Əbülqasım padşahın ürəyi ilə onun ürəyinin eyni tərzdə döyülmədiyini bilirdi. Hökmdar onun vəzir və sədarət vəzifəsinə uyğun olduğuna tam əmin deyildi. Naibüssəltənin dönəmində də həmişə onun könlünü sancıb yaralayardı. O həzrətin ürəyi irfandan dəm vuran Hacı Mirzə Ağasının və Mirzə Nəsrüllah Ərdəbilinin yanında idi. Padşah başağrısız yaşamaq istəyirdi. Bunu görən qaimməqam ona Cahangir Mirzədən də artıq gözəl şeylər söyləyib onu tərifləyərdi və bu sözləri padşaha çatdırardılar. Həzrət padşah səbrli və xasiyyəti mülayim adam olmuşdu, bunları qulaqardına vurdu. Onda o, çarəsiz qalıb hiyləyə və yaramaz işə əl atmalı oldu. Padşaha cəsarətlə dedi ki, o iki qardaş qaçsa, çətin ağlım kəsir ki, İraqa gedərlər. Məncə Azərabadəgan məmləkətinə gedərlər, çünki oranın xalqı onların bəndlərini açıb sərbəst buraxar və onda ovcumuzun içində yeldən başqa bir şey qalmaz. Padşah o iki qardaşa ziyan yetirmək istəmədi. Onda o yaramaz və dünyapərəst həmin sirri padşahın anası Məhd Ülyanın qarşısına qoyub arvadı bərk qorxuya saldı. Ana balasına dil açdı və padşah qəzəblənərək xain vəzirə buyurdu: – Vəzir sənsən, mülkiyyət işləri üçün vacib olan nə varsa, qoy ortaya. Qaimməqam həmin bu bir sözlə fərraşbaşı İsmayıl Qaracadağını Ərdəbilə göndərdi və hər birisi bütün dünyanı nizama salmağa qabil olan o iki cavanın gözlərini çıxartdılar. Bundan sonra padşah sözündən döndü və bu işə birdəfəlik son qoydular.

Bir il altı aydan sonra o iki qardaşı başqa qardaşları ilə birlikdə qaldıqları yerdən sərbəst buraxıb hər cür hörmət göstərməklə Tuysərkanda yerləşdirmək əmrini verdi. Onlar həmin yerdə rifah içində yaşadılar. Orada və Qum şəhərində Cahangir

---

[1] Yəni İsfahana

[2] Miladi təqvimilə 3 noyabr 1833

Mirzə ərəb dilindən təhsil aldı. Padşahın ömrünün sonuna yaxın onlara ağır böhtan atdılar, bir neçə ay buna görə avara olub çaşqın vəziyyətdə qaldılar. Padşah qardaşların günahsız olduğunu biləndən sonra onlara çox mehribanlıq göstərdi, düşmənlərini isə yaxşıca cəzalandırdı. Onlar beləcə rahat ömür sürdülər. Padşah onun adına Təcriş Şəmiran kəndinin yaxınlığında bina edilmiş Qəsri-Məhəmmədiyyədə öz əcdadlarına qovuşandan sonra günəş kimi gözəl padşah başına hökmdarlıq tacını qoyub bu iki əmisinə yaxşılıqların yaxşısını etdi, başqa iki qardaşı isə taxtının ayağına çağırıb lütfkarlıq göstərərək rəhbər vəzifələrə əyləşdirdi. Bu hadisə min iki yüz altmış altıncı ilin şəvval ayında[1] baş vermişdi.

Ara sakitləşəndən sonra dövlət vəzirlərindən olmuş Həsən xan Qacarın itaətsizliyindən yaranan "Xorasan fitnəsi" iti qılıncla yatızdırıldı. Bundan sonra Cahangir Mirzə höccətülislam adını almaq əzmi ilə xilafətin dərgahından Təbrizə yola düşüb təmtəraqla dayısı Hacı Mirzə Sadiqin sarayına gəldi. Atam sipəhbüdlə* (Allah ona cənnəti bağışlasın!) çoxdandan bəri, əmioğlu olmaqdan savayı da qohum idilər, çünki sipəhbüdün bacısı onun evinin banusu olmuşdu və ondan bir neçə uşağı var idi. Mən də atamın məiyyətlərinin arasında olmuşdum və əmirzadəni kefi kök halda gördüm. O, bir-iki gündən sonra Kə'bəyə tərəf yola düşdü. Xoya çatan kimi ah-vay çəkməyə başladı və onu yenidən Təbrizə gətirdilər. Həkimlər bir neçə gün yanında qaldılar, ancaq artıq əcəli çatmışdı və baqi dünyaya köçdü. Sümüklərini torpağa basdırmaq üçün cənazəni özünün Qum şəhərində düzəltdiyi mübarək məqbərəyə apardılar. *Fəsübhanəlləzi la yəmut!*[2]

Bu əmirzadə görmək qabiliyyətindən məhrum olandan sonra tarixdən imla edərdi. Sözü gedən əsərdəmin iki yüz qırxıncı[3] ildən, yəni Böyük Xaqan Fəthəli şahın şahənşahlıq dövründən

---

[1] Miladi təqvimilə 1850-ci il
[2] O Ölməzə həmd olsun!
[3] Miladi təqvimilə 1825/26

otuz il keçən tarixdən ilbəil hicrətin min iki yüz altmış yeddinci[1]ilədək vaqe olmuş hadisələr gözəl ifadələrlə, şeirlərlə, mübaliğəsiz, fəsahətli və səlis dillə yazılmış və Əbdürrəzzaq bəy Dünbülinin türk xaqanlarının həyatından bir əsri əhatə edən tarixi kitabına[2] əlavə olunmuşdu. Həmin yazıbu gün də qalır, adını isə "Tarixi-cahangiri"[3] qoymuşdu. *Son.*

## Xacə Əli bəy kəhrizi

Mən Xacə Əli bəyin kim olduğunu və hansı çağlarda yaşadığını bilmirəm. Suyu çox dadlı və faydalı olan bu kəhriz də vəqf edilmişdi. Mütəvəlli*suyu Bağmeşə, Sürxab və Şütürban camaatına satır. Bir Allah bilir ki, bu su vəqf edənin vəsiyyətinə müvafiq sərf edilir, ya başqa yerə gedir. Bu çeşmə də şərqdən qərbə axır.

## Xacə Qasım

Xacə Qasım kəhrizi orta böyüklüyündədir, ondan istifadə edən mülk sahiblərinin sayı çoxdur. Onun mənsəbi Xiyabanın əvvəlindədir və həmin məhəllənin bəzi bağ-bostanları Sirab xiyabanının başına qədər çatır.

## Qorçubaşı

Suyu bol və məşhur çeşmədir. Onun yolu şərqə tərəf qazılmışdır. Çaydan da bəhrələnirlər. Bu kəhriz şəhərə cənub-şərqdən təşrif gətirir, bir neçə dəyirmanı hərəkətə gətirəndən sonra çay ilə üz-üzə gəlir, imarətlərə və dövlət barıt karxanasına axır, həmin karxananın dəzgahını hərəkətə salır, sonra iki-üç addım atıb dəzgahdan çıxır və digər üç dəyirmana üz tutur. Dəyir-

---

[1] Miladi təqvimilə 1851/52
[2] Bu kitabın adı "Məasiri-sultani"dir.
[3] Bu əsərin başqa adı "Tarixi-nou"dur.

manların ardınca Maralan məhəlləsini və o taydakı bağ-bostanları suvarıb bölünür. Böyük Novbər məhəlləsi də bu çeşmədən su alır. Borulardan və novlardan keçir. İllik haqqı var. Onun ətrafında da torpaq sahibləri çoxdur. Bu kəhriz vaxtilə Təbrizin ən yaxşı və böyük çeşmələrindən olub, indi onun dəyəri bir qədər aşağı düşüb.

### Topçubaşı kəhrizi

Topçubaşı kiçik kəhrizdir. Onun mənbəyi şəhərin cənubundadır. Yanığın bəzi ərazilərini suvarır. Suyu boldur. Bir qolu o torpaqdan Təbrizin bəylərbəyliyinə və eyni zamanda Novbər məhəlləsindəki Qəsrə və bağlara ayrılır. Başqa istifadəçiləri də vardır. Dövriyyəsi on altı gündür.

### Hökmabad kəhrizi

Bu su mənbəyi çox faydalıdır. Şərqdən qərbə cərəyan edir. Onun əyilib dolanan qolları mənsəbə qədər bir fərsənglik* məsafəni qət edir. Onun cərəyanının Abrudla əlaqəsi yoxdur və bütün suyu hökmabadlıların böyük xərclər hesabına uzun illər öz tarlaları üçün qazdıqları suyun əslidir. İl boyu bacarıqlı yerqazanlarla kankanlar qol gücləri ilə torpağın içində bu kəhrizin suyunun islahı və çoxalması ilə məşğuldurlar. Təbrizdəki bağ-bostan göyərtisinin hamısı həmin suyun məhsuludur. Onun qiyməti qızıl kimi yüksəkdir və müştərisiz bircə dəqiqəsi belə olmur. Hökmabadda bircə zər’* torpağı olan hər kəs çarəsizlikdən bu çeşmədən bir paya sahib olmaq istər.

### Əzizüllah kəhrizi

Əzizüllah da məşhur əkin yeridir və Hökmabada bağlıdır. Bu bulağa tarlanın sahibinin adını qoyublar. Həmin kəhriz adı kimi əziz və bahadır. Əzizüllah tarlaları əkin işləri üçün bu su ilə

suvarılır. Bu bulağın müştərilərinin böyük hissəsi Hökmabad əkinçiləridir. Onun da cərəyanı şərqdən qərbə yönəlib.

## Gaziran kəhrizi

Təbrizin ən məşhur su qaynaqlarındandır. Suyu saf və ləzzətlidir. Onun mənbəyi şəhərin cənub tərəfinə bağlıdır. Suyu əsasən Yanığın təpələrindən çıxır. Dövriyyəsi on altı gündür. Uzaq keçmişdən gələn adətə görə papağın dərisini və başqa dərini bu kəhrizin mənbəyində yuyarlar, çünki onun suyu bu iş üçün olduqca yararlıdır. Kəhrizin ətrafı yekə daşlarla doludur, hər tərəf açıq və qumsallıqdır. Çərəndab məhəlləsi və onun bağ-bostanları həmin suyun hesabına abadlaşıb.

## Əkbərabad

Təbrizin cənub səmtində salınıb. Məcrası Yanığın təpələri və yüksəkliklərindədir. Novbərin bir neçə məhəlləsi suyunu ondan alır. Boruların içi ilə dövr edir.

## Mirzə Əli kəhrizi

Mirzə Əlinin ismi ilə tanınan, adına Dizə də deyilən və Hökmabada bağlı olan kiçik bir məhəllədir. Bu çeşmənin suyu oraya axır. Şəhərin kef əhli orada ürəkoxşayan bağlar salıb. Bu bulaqdan yararlanan torpaq sahibləri çoxdur. Dövriyyəsi bir gündür.

## Xacə Mir Can [Mərcan? Mir xan?]

Onun suyu olduqca xoşməzədir. Quyuları təmizləyən fəhlələr onun yerin altındakı qayanın çatından çıxdığını söyləyirlər. Bu kiçik kəhrizin qiyməti böyükdür. Küçəbağ məhəlləsinin bir tərə-

fini və onun bağ-bostanları su ilə təmin edir. Şəhərin cənub-qərbindədir.

## Allahverdi xan kəhrizi

Tanınmış kəhriz olub. Əmirxiz kimi böyük məhəllə bağ-bostanları ilə birlikdə bu qaynaqdan su alırdı. Uzun illər quruyub qalmışdı. İki-üç ildir ki, onun istifadəçiləri bu su qaynağının təmizlənməsi ilə məşğuldurlar və su əkin torpaqlarına gəlməyə başlayıb. Ola bilər ki, onların səyi nəticəsində buralar yenidən abadlaşsın.

## Şütürbanın[1] Yeni Çeşməsi

Bu məhəllə əhalisinin pulla aldığı mülküdür. Bu dadlı su şərqdən gəlir, novlar və borular vasitəsilə paylanır və hər binaya müəyyən boru ilə axır. Nov da belə olur ki, ağac taxtasının içində çeçələ barmağı qalınlığında dəlik açırlar və su həmin dəlikdən təzyiqlə axır və hər küçənin başında "ənqəc" deyilən yer var. Bu söz pəhləvi dilindən gələn və təhrif olunmuş "ənqoşt"[2] kəlməsidir. Əgər bina bir borudan istifadə edirsə, elə bir dəliklə də kifayətlənər. Yox, əgər iki və ondan artıq olsa, dəliklərin də sayı artar və su müvafiq boruya tərəf rəvan axar.

## Şeşgəlanın Yeni Çeşməsi

Şeşgəlan məhəlləsinin üst hissəsi Həsən padşah çeşməsindən, çayın sahilindəki qismi isə bu su mənbəyindən faydalanır. Bu çeşmə yüksək mənsəbli və varlı adamların mülküdür. Dövriyyəsi on altı gündür. Suyu ortababdır.

---

[1] Şütürban – dəvəçi.
[2] Ənqoşt – barmaq.

## Sancaq kəhrizi

Qədim və məşhur bulaqdır. Üzü şərqə tərəf qazılmışdır. Suyu ləzzətlidir. Vicuyə və Əmir Zeynəddin məhəlləri, eləcə də onların yan-yörəsi ondan geniş surətdə bəhrələnirlər.

## Hacı Həsən bəy

Böyük kəhrizdir. Şərqdən gəlir. Bu çeşmə də Əmir Zeynəddini və Vicuyəni suvarır.

## Əhməd paşa

Orta həcmli kəhrizdir. Şərqdən axır. Çustduzan məhəlləsini və Acı çayının sahillərindəki əkin yerlərini su ilə təmin edir. Suyu dadsızdır.

## Əmiri-nizam

Bu kəhriz də Acının körpüsünədək olan bağ-bostanları və tarlaları su ilə təmin edir. Bu kəhrizi böyük Əmir Məhəmməd xan Zəngənə qazdırmışdır. Sonradan dolmuş qədim məcrası olub. Onun təmizlənməsi üçün çox çalışdılar. İndi təmiz və ləziz çeşmədir. O böyükdən sonra Təbrizin dövlətli adamları satın aldılar.

## Adlı-sanlı əmir Məhəmməd xan əmiri-nizam* haqqında xatirələr

Mən bu kitabımda əsassız sözlər yazmamışam və yaza da bilməzdim. Yaxşılar haqqında yaxşı, pislər haqqında pis demişəm. Nəsəb barədə də heç vaxt yalan danışmamışam ki, filankəsin dədə-babaları böyük adamlar olublar, çünki bütün nəsildə ta Əbülbəşərə[1] qədər heç kəsin böyük adam olmamağı hələ eyib deyil. Şəxsin böyüklüyü nəsəbinə görə olmur. Allah insanı qana-

---

[1] Əbülbəşər – bəşər atsı, Adəm peyğəmbər (ə).

caq və ağılla yaradıb və nurunu üzərinə yağdırıb. Adam atasının adına görə böyüklük qazanmaz.

İndi isə o səxavətli kişi haqqında söz deyirəm. Şeyxəli xan Zəngənə Şah Süleyman Səfəvinin vaxtında İranın baş vəziri olmuşdu. O həmin məmurdur ki, qafilələrin Hüseynin (ə) şəhadət yerinə getdikləri yolun hər mənzilgahında hündür karvansaralar tikdirmiş və bu xeyir qapılarında kəndlər yerləşdirmişdi ki, həmin uca karvansaralardan ətrafa baxanda hər yer abad görünsün və xarabalıq halına düşməsin. O şərafətli şəhadət yerinin yolunda yüksələn Bisütun dağının bulaq başında cilalanmış çox iri daş lövhəsini vurdurub üstünü yazdırmışdı. Mən o lövhəni min iki yüz altmışıncı[1] ildə görmüşdüm, lakin üstündəkiləri oxumaq imkanım olmadığına görə orada nələrin yazıldığını deyə bilmərəm. Belə deyirlər ki, bu alimənsəb məmurun atası mehtər olub. Bir gün padşahın yanına tazı cinsindən olan dayçalar gətirdilər. Şah tövləyə getdi və o atları qoşun başçılarına bağışladı. Bir dayça da var idi, zahirdən çox eybəcər və cansız. Onu da birisinə həvalə etdi. Həmin atın cilovunu saxlayan kişi yeri öpdü ki, ay şəhriyar, bu at sənin bağışladığın atların hamısından yaxşıdır. Padşah buyurdu: – Bunu sənə bağışladım. Həmin at belə məşhurlaşdı ki, dünyada onun kimisi az tapılar. Bunu görən padşah o kişini mehtərbaşı yerinə təyin etdi. Onun oğlu vəzifədə yüksələrək vəzir oldu. Mən bu sözü adamların dilindən eşitmişəm.

## Bəzi tarixi qaynaqlarda
## Şeyxəli xan haqqında deyilənlər

Belə yazırlar ki, Şah Səfi[2] İrəvanı mühasirəyə alanda onun zahirən qoçaqlığı ilə seçilməyən bir qulamı bütün günü düşmən ordusunun sirrlərini öyrənməklə məşğul olardı və padşahdan xoş

---

[1] Miladi təqvimilə 1844

[2] Şah Səfi – I Şah Səfi Səfəvi (1629-1642), səfəvilər sülaləsinin altıncı hökmdarı.

sözlər eşidib mərhəmətini görərdi. Lakin padşah həmin qulamı bu işin adamı saymırdı, ondan şübhələnərdi və onu hədələyərək tapşırığı yerinə yetirmək üçün möhlət qoymuşdu. Onda qulam dedi: – Mənim Əli adlı bir yoldaşım var, nə minməyə bir heyvanı var, nə də silahı. Qoy o mənim atımı və döyüş alətlərimi götürüb bu işı görsün. Padşah onu tələb etdi və ona xoş sözlər dedi. Əli bəy də cavabında gözəl nitq söylədi və qorçu oldu.

Bir gün ilxıdan dayçaları gətirmişdilər və padşah onları öz döyüşçülərinə bağışlayırdı. Bu zaman Əli bəy arıq və zəif bit at balasını göstərib ərz etdi ki, bu dayça məşhur bir at olacaq və elə də oldu. Bundan sonra o, axurbaşı oldu. Ondan bir neçə rəşadətli oğlu qaldı. Onlardan biri atasının yerinə gələn Şeyxəli xan idi. O, Süleyman şahın zamanında böyük məmur oldu. Bu hörmətli əmir incik halda vətəni Kirmanşahandan Naibüssəltənə Qacarın dərgahına gəldi. Şahzadəsi ona öz mərhəmətini göstərdi və bir-iki gün keçmədi ki o, xansalar[1] oldu, sonra da yaxşı nəsildən olduğuna görə hörmət qazandı. O, Azərbaycan ordusunun əmiri kimi imtiyazlı və uca vəzifəyə qədər yüksələ bildi. Xeyirxah, bilikli, Allahsevən və insanlarla rəftar etməyi bacaran kişi idi. Öz işlərini həmişə doğru-dürüst tərzdə görərdi. Naibüssəltənənin yanında hörmət sahibinə çevrilib onun sirdaşı olmuşdu. Vəzifəsi elə böyümüşdü ki, sarayda ondan yüksək duran yox idi. İran-rus müharibələrində öz xidmətləri ilə seçilmiş və ali padşah Fəthəli şah ona böyük etimad göstərmişdi.

Paytaxtda avamların üsyanı nəticəsində rus səfiri öldürüləndən sonra bu kişini Xosrov Mirzə adlı əmirzadənin işlər müdiri vəzifəsinə qoydular və imperatorun sarayına yolladılar. Üzrxahlıq etmək tapşırığını çox yüksək və gözəl surətdə yerinə yetirdi. O, padşahın könlünü almağı elə mahircəsinə bacardı ki, səfirin işindən hamı razı qaldı və o, orada hörmətlə qarşılanıb yola salındı və başucalığı ilə geri qayıtdı.

Naibüssəltənə üsyançıların dərsini verməkdən ötrü şərqə varanda həmin kişiyə şahənşahın fərmanı ilə Azərbaycanda bütün

---

[1] Xansalar – süfrəbaşı.

işləri aparmaq hüququ verildi. Bu əmirin səlahiyyəti o qədər geniş idi ki, onun rəyini öyrənməyib heç su da yerindən tərpənməzdi. Bu kişi Xorasanda döyüşmək üçün göndərilən əsgərlərin təchizatında çox zəhmət çəkərdi və məmləkəti də yaxşı yola verərdi. Naibüssəltənə bu dünyadan köçəndə keçmiş padşah Məhəmməd şah[1] vəliəhdliyə yetişdi və Azərbadəgana gəldi. Bu əmir öz vəzifəsini yerinə yetirməkdə idi ki, Osmanlı sərhədçilərindən bəziləri dostluq adətlərinə uyğun gəlməyən yaramazlıqlar etdilər. Həzrət vəliəhdin əmri ilə əmiri-nizam* bir dəstə yaraqlı qoçaqla o tərəfə keçdi. Boğazlıgöl adı ilə məşhur bir yerdə özü üçün ordugah saldı. Osmanlı Məhəmməd Əs'əd paşa da qarət olunmuş ticarət malı və cəlali fərarilər məsələsini ortaya qoymaq məqsədilə yolunu oradan saldı. İki ordu başçısı bir-birilə görüşdü. İş başa çatmaq üzrə idi ki, şahənşahın vəfatı xəbəri çatdı. Əmiri-nizam* dərhal müzakirələri bitirib ordusunu Təbrizə tərəf apardı.

Bu dəfə keçmiş padşah paytaxta gələndə əmiri-nizam* həmin şahzadə ilə bu məmləkətdə qaldı ki¸ padşaha ordusu ilə kömək etsin. Padşah məmləkətin taxtına malik oldu və heç bir itaətsizlıik təhlükəsi qalmayandan sonra əmiri-nizam* təbrik etmək üçün paytaxta vardı. Sarayın böyükləri elə bilirdilər ki, padşah İranın baş vəziri vəzifəsini ona verəcək. Padşahın niyyətinin nə olduğunu bilmirəm, amma əmir təmtəraqla Tehrana gələndə padşah ona hər cür lütfkarlıq nümayiş etdirərək bir gün buyurdu ki, sən Azərbaycana getməlisən, çünki biz Qəzə*, Herata və Əfqanıstana yola düşürük. Oraların sərhədləri çox böyük olduğuna görə bizim əlavə orduya ehtiyacımız var. Sən o bölgədə əsgərləırin təchizatı ilə məşğul ol. Əmiri-nizam* hələ sarayda olarkən padşah vəzirliyi Mirzə Abbas adlı Hacı Mirzə Ağası İrəvaniyə verdi. Əmiri-nizam* üzünü Təbrizə tutdu, padşah isə qoşununu Herata tərəf apardı. Bu arada böyük rus şahənşahı imperator Nikola Gürcüstan məmləkətinə və İrandan təzəlikcə

---

[1] Məhəmməd şah – Ağa Məhəmməd şah Qacar (1742-1797). Qacarlar sülaləsinin birinci hökmdarı.

aldığı bölgələrə gəldi. Padşah Heridən* əmr verdi ki, əmiri-nizam* Məhəmməd xan İranın vəliəhdini imperatorun yanına aparsın. Əmir Araz çayının o tayına keçib İrəvan şəhərində vəliəhdlə görüşdü və o həzrəti böyük dəbdəbə ilə apardı və orada onlara padşaha layiq hörmət etdilər. İmperator kiçikyaşlı vəliəhdi qucağına alıb oturduğu yerə apardı. Əmiri-nizam* bizim qanunumuza müvafiq olaraq ayaq üstdə qalmışdı. Buyurdu ki, kürsüyə əyləşsin və onunla çox mehriban davrandı və böyük nişan bağışladı.

Etibarlı adamlardan eşitmişəm ki, imperator əmiri-nizama* dedi: – Bu bir ovuc türkmənlərin arxasında hansı qüvvə dayanır ki, İran padşahı onları tənbeh etmək üçün qoşun yeridib? Əmir o saat dedi: – Onlar Dağıstan xalqları kimidir, itaətsizlik göstərərlər, özbaşınalıq edərlər. İmperator bir təbəssümlə söhbəti başqa səmtə yönəldib müəmmalı tərzdə dedi: – Rus dövləti ləzgilərlə uzun illər çəkişdi və onlar heç nəyi əldə edə bilmədilər. Sonra vəliəhd Təbrizə gəldi. Bu vəliəhd indi məmləkətimizin başında duran həmin bizim dinpənah padşahımızdır. Sözügedən hadisə hicrətin min iki yüz əlli üçüncü ildə[1] baş vermişdi. Ondan sonra əmiri-nizam* Təbrizdə ordu quruculuğu və digər dövlət işləri yolunda nüfuzlu və qoçaq addımlar atmaqla məşğul oldu.

Bu zaman Qəzdə* və Heridə* Urmiya əfşarlarının qoşunları əmrə tabe olmaqdan boyun qaçırmağa başladılar. Əmiri-nizam* o bölgəyə varıb böyük siyasət etdi və təntənə ilə Təbrizə qayıtdı. Mən həmin gün Təbrizin sabiq vəziri Mirzə İshaqın sarayında idim. Biz atam sipəhbüdün* xidmətində üzərinə uca ağacların budaqları sallandığı məhəlləyə hazır olduq. Əmiri-nizam* yarı-padşah kimi yasavullarla fərraşların əhatəsində gəlib dərgahına daxil oldu. Ondan bir neçə gün sonra naxoşlandı, bu xəstəlik uzun çəkdi və min iki yüz əlli doqquzuncu[2] ildə fani dünyanı tərk etdi. Təbriz əhlindən fəğan ilə fəryad göylərə qalxdı, kiçikdən böyüyədək hamı ah ilə nalə çəkməkdə idi. Dükan-bazar bağlanmışdı və Azərbaycanda hökmsüzlük sürürdü. Bütün

---

[1] Miladi təqvimilə 1837-38
[2] Miladi təqvimilə 1843-44

məhəllələrdən ağlaşma səsi gəlirdi. Tabur gətirdilər və o böyük adamın cənazəsini Səffə müsəllasına apardılar. Mən də özümün on doqquz yaşımda orada idim. İzdiham elə böyük idi ki, heç bir yanda boş yer görünmürdü. Deyilənlərə görə, yüz min nəfər onun cənazə namazına durmuşdu. Burada əhvalatı bitirib sözümün üstünə qayıdıram.

## Hekayət

Bir gün Urmiyadan Təbrizə tələsik halda gəlirdi. Acırud çayına çatanda bir neçə qadın hay-haray qaldırdılar ki, şəhərdə çörək azdır, qiyməti də bahalaşıb. Əmir cilovunu çəkib nəzakətlə dedi: – Mənə bir-iki gün möhlət versinlər ki, sarayıma gedib çıxım. Evinə gələn kimi bazarda və məhəllələrdə böyük qovğa qaldırdı. Fərraşlarla qanun keşikçiləri çörəkbişirənləri tutub yığdılar. Onlardan yüz nəfərə yaxın adama qulaqburması verdilər və hər birindən bir dinar əlavəcərimə aldılar. Onlara dedi: – Əgər sabah bazarda çörək az olsa, hamınız bu təndirdə bişəcəksiniz. Hələ gecə olmamış çörəkçilərin minbərləri[1] əla növ çörəklərlə dolmuşdu, qiyməti də aşağı düşmüşdü. Həmin kişi o dünyaya köçəndə vəsiyyət qoymuşdu. Açdılar. Orada yazılmışdı ki, "Mən mülkün qazancından gələn bu nağd pulu sahiblərinə verilməsini istəyirəm". Pul kisələri idi, hamısının üstündə xəzinənin möhürü var idi və qızılın sahibinin adı və sıra sayı yazılmışdı. Bir-bir çağırdılar, verdilər. O adlı-sanlı əmirin əlindən heç kəs əziyyət çəkməmişdi. Allah onun günahlarını bağışlasın ki, səxavəti və xeyirxahlığı ilə həmişə seçilərdi.

## Hacı Cəfər kəhrizi

Bu kəhrizi qazan şəxsin adınadır. O da şərqidir. Acırud çayının sahillərini və o tərəfdə olan bir neçə bağ sahəsini su ilə təmin edir.

---

[1] Minbər – çörək bişirilən yerlərdə daş piştaxta.

## İlanlu

Qədim kəhrizdir və Hökmabad məhəlləsinə şərqdən gəlir.

## Məntəş kəhrizi

Güclü və qədim kəhrizdir. Şərqdən qərbə Hökmabad məhəlləsinin əkin yerlərindən olan Əzizüllah tarlasına axır.

## Mir Cəlil

Kiçik kəhrizdir. Əmirxiz ilə Hökmabad arasındakı bağlarla binalar bu çeşmənin hesabına yaşıl və təravətlidir.

## Sərdar kəhrizi

ki, köhnə adı Hümmət Əlidir. Böyük qaynaqdır, suyu da şirindir. Ondan bir neçə il qabaq şəhərin ortasında, Təbrizin köhnə bazarının arxasında çox möhkəm və möhtəşəm su anbarı olub. Dibinədək qırx pillə var idi. Onun suyu Kövsər kimi axardı. Geniş bir çay düzəltmişdilər, hər iki tərəfinə yonulmuş daşdan üz çəkmişdilər. Yaxınlıqda yaşayanlar naz-nemət içində idilər, çünki yayda sərin suları var idi. Bəzi qadınlar orada paltarlarını yuyanda daşlara sürtərdilər. O binanın tağı bir balaca çökmüşdü. Heç kim onu təmir etmədi və nəticədə çat genişləndi. O tərəflərin səliqəsiz camaatı oraları zibilliyə döndərdilər, murdar oldu. Mən o yeri dəfələrlə görmüşəm. Bu kəhrizin suyu Vicuyə məhəlləsinə və qonşu məhəllələrə şərqdən axır.

## Şə’rbafan[1] kəhrizi

Xırda kəhrizdir və Vicuyə məhəlləsinə şərqdən axır.

[1] Şə’rbafan – şə’rbaflar, toxucular.

## Keşiş kəhrizi

Bu bulaq Xiyabani-nəxüst[1] məhəlləsinin başlanğıcındakı həmin adla məşhur olan bağa axır, onun ardınca ətrafda salınmış başqa bostanları da su ilə təmin edir. Belə deyirlər ki, o bağda bir imarətin nişanəsi qalmaqdadır, indi ora bir təpəcikdir.

## Köşk kəhrizi

Şərqdən Hökmabadın əkin yerlərindən olan Qəsr sahəsinə axır. Ortabab və çox köhnə kəhrizdir. Bu səliqə-sahmanlı sahəni dəftərə "Qəsr"yazırlar. Yerli camaat ona Köşk deyər.

## Vəzir kəhrizi

Bu bulaq yenicə qazılıb. Əhvalatı öz vaxtında gələcək vəziri-nizam* Mirzə Həsən xanın şərəfinə Vəzir bağı adlanan onun mənbəyi səliqə-sahmanlı bağın əvvəlindədir. Həmin bağla kəhrizin əsasını Mirzə Əhməd Həsən qoymuşdur. Onunla da öz yerində tanış olacaqsan. Ondan sonra varisi tapmaqda çətinlik çəkdilər və vəziri-nizama* satdılar. O da buna öz adını qoydu, belə də qaldı. İndi isə mənim müəllimim Şəmsülüləmanın Hacı Sadıq adlı bir ağsaqqalla şərikinə qızıl pulla aldığı mülkdür. Bu bağ-bostanı həmin saf çeşmənin suyu ilə bol-bol suvarandan sonra qonşu bağlara satırlar.

## Əli Xəvatun kəhrizi

Köhnə və kiçik kəhrizdir. Şərqdən Əmir Zeynəddin məhəlləsinə axır.

## Mir Qasım

Saf və kiçik bulaqdır. Gavmişiyan[2] adlanan məhəlləyə axır.

---

[1] Xiyabani-nəxüst – birinci xiyaban.
[2] Gavmişiyan – camış saxlayanlar, camışçılar.

## Qazı kəhrizi

Bu kəhriz də Gavmişiyan məhəlləsinə axır.

## İmami-cümə kəhrizi

Bu bulağı imami-cümənin Hacı Mirzə Əli adlı oğlu qazdırmışdır. Bu səbəbdən ona Mirzə Əli imami-cümə kəhrizi deyərlər.

## Küçəbağ kəhrizi

Suyu bol və saf olan qaynaqdır. Küçəbağ və Əmir Zeynəddinin bağ-bostanlarını təmin edir. Düz şərqdən gəlir.

## Axuni kəhrizi

Axuni məşhur bir məhəllədir. Bu çeşmə həmin yerə axır və o məhəllənin evlərini, tarlalarını və bağlarını suvarır.

## Əmir Aslan kəhrizi

Ortabab çeşmədir. Şərqdən qərbə axır və Lalə kəndinə, eləcə də indi Təbrizin məhəllələrindən olan Dizəcə gəlir. Bu məhəllənin kədxudası Hacı Mirzə Nəsir xan Təbatəbaidir.

## Xanməhəmməd xan kəhrizi

Onun mənbəyi Bağmeşədir. Küçəbağda istifadə olunur və çox fayda gətirir.

## Ağa Əli Əkbər

Təbrizin cənubundan qazılıb. Kiçik bulaqdır və Küçəbağa cərəyan edir.

## Hacı Möhsün

Cənubdan və Yanıqdan gəlir. Leylabad məhəlləsinə və Yanığın o tərəfdəki ərazisinə su verir.

## Tumas

Xaçpərəst bir nəfər idi və tacirlərdən olub. Bu çeşməni canub tərəfdən qazdırmışdı. Suyu azdır və içməli deyil.

## Pəhləvan kəhrizi

Cənubdan Yanığın ərazisinə və otaydakı məhəllələrə cərəyan edir.

## Heybət

Bu çeşmə də cənubdan gəlir və suyu azdır. Yanığın ərazisinə və o tərəfin bağ-bostanlarına axır.

## Sultani-büzürg[1]

Bu qaynaq da cənubdan gəlir və elə şəhərin cənubundadır.

## Sultani-kuçik[2]

Bu çeşmə də Sultani-büzürg kimidir.

## Molla

Yanıqdan şəhərə tərəf axır. O ərazini və bağları su ilə təmin edir.

---

[1] Büzürg – böyük.
[2] Kuçik – kiçik.

## Zəfəranlu

İndilərdə Həkim Sahibin adı ilə məşhurdur. O, ingilis əhlindən bir təbib olmuşdu. Atası fəsahətli, tanınmış həkim və təbiblərin təbibi idi. Həzrət Naibüssəltənənin vaxtında Bistamda öldü. Bu oğlan o zaman Londonda tibb elmini öyrənirdi. Min iki yüz əlli dördüncü[1] ildə mən Təbrizdə olanda gəldi. Divanda atasının məvacibini ona verdilər. Əvvəl xəstəliklərin müalicəsi ilə məşğul olurdu. Bizim dilimizi bilmədiyinə görə Bürcis adlı bir tərcüməçisi var idi. Sonra öyrəndi və xeyli varlandı. Atasından qalan malı çox idi, özü də onu artırdı. Xoşxasiyyət, başıaşağı, yumşaq səsli və ürəyi sadə bir həkim olmuşdu və bu şəhərin camaatı ilə arası çox yaxşı idi. Bu kəhrizin köhnə bir qolu var idi. Onu aldı. Maya qoydu və onun suyu guruldadı. Suyun torpağa töküldüyü yerdə böyük bağ saldı, tinglər əkdi və uca bir köşk tikdirdi. Bahar fəsillərində arvad-uşaqla oraya gələrdi. Axırda uşaqlarını Londona aparmaq istədi. Oranı Hacı Cəfər adlı varlı bir dəllala satdı. İndi də onundur.

## Hüseyniyyə kəhrizi

Yanıqdan gəlir. Vəqf olunub və həmin ərazini suvarır.

## Ağa Əli kəhrizi

Miyarbəyan məhəlləsində[2] yerləşən sarayındakı bir ürəkaçan bağ üçün qalabəyinin əmisi Ağa Əlinin qazdırdığı bulaqdır. Bu kişi eyşpərəst və avaranın birisi idi. Yüz ilə yaxın ömür sürdü. Sona yaxın ayaqları zəyifləmişdi, ancaq başqa gücü yerində idi. Kəcavədə əyləşərdi və onu çiyinlərdə gəzdirərdilər. Mən o adamı uzun illər görürdüm.

---

[1] Miladi təqvimilə 1838/39

[2] Həmin məhəlləyə Miyarmiyar və Məhadmehin də deyirlər.

## Hacı Məhəmməd Baqir kəhrizi

Həmin adda bir tacir qazdırmışdır. Suyu azdır, cənubdan şimala cərəyan edir.

## Hacı Mirzə Baqir kəhrizi

Bu şəxs Təbatəba nəslindən olan çox əziz və möhtərəm seyyid idi. Ona kürəkən də deyərdilər, çünki tayı-bərabəri olmayan alim Mirzə Əhmədin qızı onun evində yaşayırdı. Mən o kişini tez-tez görərdim. Biz qonşu idik və mən onun sarayında çox olmuşam. Mirzə Təqi adlı elə özü kimi namuslu bir oğlu var idi. Bu cavan ərəb şeiriyyatı üzrə mütəxəssis idi, lüğəti və nəhvi[1] də yaxşı bilirdi. Mən orada çox söhbət və müzakirələr aparmışam. Dədə-babası bu fani dünyadan köçəndən sonra bu gözəltədbirli cavan din elmini öyrənmək üçün İmam Hüseynin (ə) şəhadət yerinə vardı və oradan Kə’bəyə gedib islam qaydası ilə həcci yerinə yetirdi. Qayıdandan sonra Tanrıya şükr edərdi. Eşitdim ki, böyük fəqih oldu, izzəti və biliyi ilə məşhurlaşdı. İndi Hacı Mirzə Yusif adlı digər oğlu qalır. Bu kişi ad-sanına görə qardaşını ötüb. Mülahizələrində ağıl və məntiqə istinad edər və sultanla xalqın yanında hörməti vardır. Suyu saf olan bu kəhriz cənub tərəfdən o tərəfin ərazisinə və məhəllələrinə axır.

## Korcan kəhrizi

Bu su qaynağının qolları şəhərin cənubunda yerləşən qədim Kəcucan kəndinə tərəf qazıldığına görə yerli əhali həmin çeşməyə səhvən Korcan deyir. Suyu ortabab həcmdədir və dadlı deyil.

## Vəzirabad kəhrizi

Bu böyük və tanınmış kəhriz şəhərin cənub-qərbindədir və o hissədə gözəl binalar, bağlar və hamam vardır. Həmin su mən-

---

[1] Lüğət və nəhv – leksika və sintaksis.

bəyi bütün bu binalara yetişir. Ondan başqa orada Şəhabad deyilən bir kənd də var. Adıçəkilən kənddə yaşayanların çoxu bağbanlar, mülk sahibləri və həmin binalarla kəhrizin təmizlik işlərinə baxanlardır. O tikilini Mirzə Təqi xan Fərahani qoymuşdu. Hal-hazırda oranın yiyəsi onun oğludur. O böyük adamın adı yada düşdüsə, sözümüzü ona yönəldək, çünki burada əcaib və ibrət vardır.

## Mərhum Mirzə Təqi xan Fərahaninin tarixindən bir parça

Bu kişi Kərbəlayı Məhəmməd Qurban Fərahaninin oğlunun mehtəri olmuşdu. O kişi isə baş vəzir qaimməqam Mirzə Əbülqasım Fərahaninin işlər müdiri idi. Sadə adam idi, ona xitab edəndə kərbəlayı deyərdilər. Bu oğlan da həmin vəzirin evindəki tövləsində işlədiyi zaman böyük həvəslə yazı-pozu elminin sirlərini öyrəndi. Bığ-saqqalı uzanandan sonra bilikli və bəsirətli bir cavana çevrildi. Qaimməqamın hər yerdə yüksək rütbəli əmirlərin və tanınmış adamların yanında öz casuslarını qoymaq adəti var idi. Belə işlər vəzirlər üçün rəva sayılardı.

Xosrov Mirzə əmiri-nizam* Məhəmməd xanın dayəliyi ilə Peterburqa gedəndə bu cavanı da katib adı ilə əmirə sifariş etmişdi. Cavan oğlan özünün təqdirəlayiq xidmətləri ilə əmirin könlünü almışdı. Təbrizə çatanda cavan vəzirin sarayına getmədi, həyatını həmin əmirə bağladı və orada ad qazandı. Əmiri-nizam* ordu işini ona tapşırdı. Həm o əmirin ev işlərinə baxardı, həm də ordunun yarırəisi idi. O böyük məmur sabiq padşah Məhəmməd şahın dövründə o biri dünyaya köçəndən sonra cavanı irəli çəkib vəziri-nizam* adını verdilər. Vəziri-nizam* artıq dünyagörmüş adam olmuşdu və vaxtilə Məhəmməd xanın şagirdi olması bu işdə ona çox kömək etmişdi. Bütün Azərabadəgan ordusu ondan başqa heç kimi tanımırdı və onun əmrlərini yerinə yetirərdi. Belə cəsarət heç də İran vəziri Hacı Mirzə Ağasının ürəyindən deyildi və o, vəziri-nizamı* cəzalandırıb kənara atmaq üçün fürsət axtarırdı. Lakin belə fürsət əlinə keçmirdi,

çünki o, ciddi adam idi və tamahkar deyildi. Ancaq bir azdan Osmanlı dövləti İranla çəkişməyə başlayıb işi döyüşməyə tərəf sürükləməyə çalışdı. Böyük nümayəndə heyətini Ərzuruma göndərməyi qərara aldılar ki, hadisələr baş verdiyi yerə yaxın məkanda Osmanlı dövlət məmurları ilə görüşüb danışıq aparsınlar və onların qan qoxusu gələn sözlərini qısa etsinlər. Hacının arzu etdiyi vaxt gəldi çıxdı və o, həmin kişinin adını getməyə namizəd olanların sırasına saldı, çünki məsələ xırda məsələlərdən deyil və o, işləri zay edər. Onun da qəbul etməkdən başqa bir çarəsi olmadı. Vəzir Təbrizdən durub Ərzuruma vardı. Burada öz nümayəndəsi yerinə kiçik qardaşı Mirzə Həsən xanı qoydu, halbuki o, bu cür işlər görmək iqtidarında deyildi və avaranın biri idi. Bu məmləkətin hökmdarı Bəhmən Mirzənin baş vəzirlə arası pis olmadığına görə ona dəstək verirdi, çünki düşmənin düşməni dost olar.

Vəziri-nizam* Ərzuruma gedəndə Osmanlı məmurları onu yaxşı qarşılayaraq o şəhərin sarayında gözəl yer ayırdılar. Sonra iki islam padşahı arasında sərhədlərin təyin edilməsi üçün müşavirələr təşkil olundu. Vəziri-nizam möhtəşəm və odlu-alovlu nitq söylədi, ancaq İranın vəziri onunla yekdil deyildi. Vəziri-nizam bu görüşlərdə deyilənləri dərgaha ərz etdi. Hacı qəbul ya da rədd cavabını göndərmədi. Bu kişi heyran qalıb çarəsizlikdən vaxtı uzatmağa əl atdı. İş o yerə çatdı ki, Osmanlı məmurları əldən düşdülər və vəzirə dişlərini ağartdılar ki, özünü daha yumşaq və mülayim aparsın. Bir kişiyə pul verdilər. Həmin kişi oğlunu qolundan tutub şəhərin bazarına yollandı və orada vayşivən qopartdı ki, İranın böyük səfirinin xidmətçiləri mənim oğlumu zorlayıblar, özü də bu nalayıq işi dəfələrlə görüblər. Avam camaat ayağa qalxdılar, bazarlar bağlandı və müftilər cinayətkarın qanının axıdılmasına fətva verdilər. Belə üsyanın əsas səbəbi Hacının əmiri-nizama* bu sözləri yazmağı idi: “Osmanlı dövlətinin dərgahından icazə al ki, iranlılar Darüssəlamda məscid tiksinlər və o məbəddə cəfəri məzhəbinin təqlidçiləri sərbəst və təqiyyəsiz öz beş fərzini yerinə yetirə bilsinlər”. Vəziri-nizam bu işin istənilməz olduğunu, başqa məsələlərə də

xələl gətirəcəyini və etirazlarla nəticələnəcəyini dəfələrlə yazsa da, qəbul etmədi. Onda vəzir bu sözü ortaya qoydu və onun üstündə möhkəm durdu. Osmanlı məmurlar ayağa qalxıb dedilər ki, “Ay kişi, bu məsələni kənara qoy”. Bu qovğanı salanlar səfirin sarayını əhatəyə aldılar. Onda əmiri-nizam* özünün qırx nəfər adamı ilə müdafiəyə durdu. Neçə nəfər iranlı topçu ac şirlər kimi əllərində siyirmə qılınc düşmənin üstünə hücuma keçdilər. Amansız döyüş günortayadək davam etdi. Onları divara dirədilər və az qalmışdı ki, bütün iranlıları qətlə yetirsinlər. Bu zaman ağıllı və yüksək rütbəli qoşun başçılarından biri şeypurların və təbillərin səsini göylərə qaldırıb öz ordugahından iki Osmanlı dəstəsi ilə o yerə yetişərək adamları nizə və tüfəngin gücü ilə pərakəndə saldı və əmiri-nizamı* öz ordugahına apardı. Bu üzücü xəbər o tərəfdəki sultana çatan kimi onun acıqlanmasına səbəb oldu. Vəziri-nizama* qarət olunmuş malın əvəzini verdilər və həmin malı Ərzurumun bazarı yolundan keçirib vəzirin olduğu saraya gətirdilər. Ondan sonra razılaşdılar[1] ki, bizim dövlətimiz düz iş görməyib və münşinin bundan xəbəri olmayıb.

Bundan sonra Təbrizə gəlib dərgaha getdi. Hacı onun işlərinə irad tutdu və min iki yüz altmış üçüncü[2] ildə yenidən Təbrizə qaytardı. Doqquz aydan sonra işləri düzəlməyə başladı. Bu da belə oldu ki, qazi padşah min iki yüz altmış dördüncü ilin şəvvalın altısında[3] bu dünyadan köçdü. Azərabadəgana hökmranlıq edən vəliəhd şahənşah oldu. Vəziri-nizam* məmləkətin əsgərlərini xüsusi zövqlə bəzəyib həzrətin yanında paytaxta yollandı. Gərmrudun Sövməə kəndində əmiri-nizam* ordunun başına keçdi. Dünya padşahı öz ata-babalarının taxtına əyləşən kimi o kişiyə Böyük Atabəy adını verdi və İranın baş vəziri vəzifəsini ona tapşırdı. Bir neçə günə şan-şöhrət sahibi oldu. Kişinin qüdrəti elə artdı ki, böyük dövlətlərin səfirləri də onunla hesablaşmalı oldular.

---

[1] Söhbət 1846-cı ildə bağlanmış Ərzurum müqaviləsindən gedir.
[2] Miladi təqvimilə 1847
[3] Miladi təqvimilə4 sentyabr 1848

Heç bir məxluqun malik olmadığı bu cür əzəmət və cəlalət ilə dörd il yaşadı. Sonra başına Allahın cəzası gəldi. Belə ki, adamlar dinc oturmaq istəmədilər və onu dünya padşahının gözündən saldılar və onun canla-başla etdiyi bütün xidmətlərini heç etdilər. O yüksək mərtəbədən yerə düşürtdülər və hərəmi olan şahzadə ilə birlikdə Kaşandakı Finə göndərdilər. Orada əli-qolu bağlanmamış bir məhbus kimi qalmışdı, ancaq orada da yaşamağa qoymadılar, sözlər qurdular, padşaha çatdırdılar və ayağının altını qazdılar. Deyirlər ki, o kişi yarımdəli olmuşdu və başına hava gəlmişdi. Hər çənd bunun üçün əlimdə sübut olmasa da, özüm görüb eşitmişdim ki, artıq qürurla danışırdı və başından böyük şeylər söyləyirdi. Hər nə oldusa, Allahın hökmü idi. Keçindi və ondan bir oğlu qaldı. Padşahı onu irəli çəkdi, gənc yaşında ad-san qazandı, orduda süvarilərin başçısı oldu. Ancaq cavan vaxtında getdi və bu nəsildə kişi cinsindən bir kəs qalmadı. Atabəyin oğlunun adı Mirzə Əhməd xan idi. Atasından sonra bir neçə il evdə oturdu. Ondan sonra əvvəl Azərbaycanın topxanasında alay əmiri oldu, sonra rütbəsi daha da yüksəldi. Ləqəbini Saidülmülk[1] qoydular. Tez zamanda yükək məqamlara yetişdi. Dünya padşanının ona xüsusi rəğbəti var imiş. Paytaxta gəldi, orduda rəis oldu. Amma bədxah çərxi-fələk fırlandı və o, cavan yaşında bu dünyadan köçdü. O kişinin üç qızı qaldı.

Burada bir incə məsələ var. Xorasan fəth olarkən əmir Həsən xanı, onun oğullarını və qardaşlarını öldürdülər. Hər halda onlar bağışlanmaz günah işlətmişdilər, İranda qarma-qarışıqlıq salmışdılar, günahsız qan axıtmışdılar və padşah nəslinin düşməni olmuşdular. Bu fitnə-fəsadın baiskarı olmuş əmiri öldürüb oğlu ilə qardaşlarını dustaqxanaya salmaqla kifayətlənə bilərdi, ancaq olmadı və nəticədə dünyanın əzabını çəkdi. Bilən adamlardan eşitmişdim ki, şahənşah onun bu siyasətini bəyənmədi.

Şahənşahın əmisi Hüsamüssəltənə Sultan Murad Mirzənin başçılığı altında Xorasan fəthinin, şərq bölgənin üsyançılardan təmizlənməsinin və Əli bin Musa ər-Rizanın (əleyhimassəlam)

---

[1] Saidülmülk – məmləkətdə yüksələn, məmləkətin başına çıxan.

şəhadət yeri olan şəhərin ələ keçirilməsinin tarixi: hicri min iki yüz altmış altıncı ilin cümadiül-əvvəl ayının səkkizi[1], şənbə günü.

### Hacı Abbas kəhrizi

Bu çeşmə Yanıqdan, cənub tərəfdən gəlir, sonra qərb istiqamətinə dönür və hal-hazırda Təbrizin məhəllələrindən olan Xətib kəndinə axır.

### Xətib kəhrizi

Həmin kəndin adına görə çağırırlar, Xətibə məxsusdur və cənubdan Yanıq tərəfə qazılmışdır.

### Molla Əli kəhrizi

Bu kəhriz də cənubdan gəlir və Xətibin əkin yerlərinə gedir.

### Heydər bəy kəhrizi

Bu çeşmə Xan bağı deyilən bağ-bostana yetişir, Xətibin yaxınlığındadır, cənubidir və Yanıq məhəlləsində qazılmışdır.

### Hərəm kəhrizi

Bu qaynaq da Xətibin yan-yörəsini sulayır.

### İmami-cümə kəhrizi

Bu böyük kəhriz şərqdən rəvan axan bir çaydır. Hörmət sahibi və fəzilət yiyəsi imami-cümə Hacı Mirzə Lütfəli qazdırmışdır. Belə eşitmişəm ki, işin əvvəlindən axırınadək iyirmi min xalis qızıl dinarı xərclənmişdir. Mən bəndə Təbrizdə olarkən öz

---

[1] Miladi təqvimilə 22 mart 1850

dövrünün seçilmiş adamlarından və şəhərin ən məşhur sakinlərindən olmuş həmin kişi bu kəhrizi saldı. Hal-hazırda Təbrizin böyük hissəsi bu kəhrizin əhatə dairəsindədir. Şəhərin evləri, bazarları və hamamları bu çeşmədən bəhrələnir. Hər borunun qiyməti üç tümən və beş min dinardır. Təmizləmə işinin xərclərini çıxandan sonra suyun pulu və bu kəhrizin gücü hesabına fırlanan dəyirmanların haqqı adı ilə min iki yüz tümən nağd pul o böyük adamın oğlu imami-cümə Hacı Mirzə İsmayıla çatır. Bu kəhrizin suyu yaz, payız və qış fəsillərində kifayət qədər dadlı olur. Yayda isə lillə palçıq suya qarışdığından yaxşı olmur.

## Hacı Mirzə Lütfəli imami-cümə

Mirzə Əhməd Müctəhidin böyük oğludur. O çağlarda Təbrizdə onun kimi fəzilət, hünər və hörmət sahibi yox idi. Tayıbərabəri olmayan fəqih və bəsirətli bir ədib olmuşdu. O vaxtlar əgər ədəbiyyat elmindən və ərəb dili fənnindən başı çıxanı var idisə, elə o özü idi. Onun sarayında daim ədiblər və ziyalılar məclisləri keçirilərdi. Onun Təbrizdə nüfuzu böyük olduğuna görə, həmişə xalqın işlərinə əncam çəkərdi. Asudə vaxtında isə ədəbiyyat əhli ilə əyləşərdi və həmçinin ərəb dilində şeir söyləyərdi. Xilafət dərgahının yüksək mənsəbli və vəzifəli şəxsləri ona ehtiramla yanaşardılar və onun məclislərində iştirak edərdilər. Səhərlər özünə məxsus məsciddə əvvəl üsuli-dindən, ardınca da fiqhdən dərs deyərdi. Deyirlər ki, onun dərsləri tələbələri üçün çox faydalı olurdu. O, həmişə məni elm öyrənməyə sövq edərdi. Mən hələ o hörmətli adamın qurduğu məclislərdə iştirak etmək səviyyəsində olmasam da, o mənə buyurardı ki, “gəl, ola bilsin ki, bir-iki söz öyrənərsən”.

Bir gün ispəhbüdün* ordu rəhbərinin qəbuluna getdim. O, mənimlə söhbət edib bəzi incə məsələləri mənə öyrətdi. Boylu-buxunlu, cüssəli bir kişi idi, kəramət və hörmət sahibi olmuşdu. Hicrətin min iki yüz altmış ikinci ilində[1] Təbrizdə vəba xəstəliyi

[1] Miladi təqvimilə 1846

çox geniş yayılanda əhali pərəm-pərəm olmuşdu. Mirzə Əhməd Müctəhid uşaqları ilə soyuq çöl bölgəsində yerləşən Əlqaləndis kəndinə düşdülər və orada kiçik qardaşı Hacı Mirzə Cəfəri bu dünyadan yola saldılar. Mən ispəhbüdün* xidmətində səngərdə idim. Rəvasan kəndinə gəldik, Mirzə Əhmədlə çadırda görüşdü və təziyə oxudu. İndi onların hamısı gediblər, Allah onlara rəhmət eləsin! Mən qalmışam. Ağır günlərdə Tanrıdan tövbəmin qəbul etdiyini və günahlarımın bağışladığını diləyirəm.

## Hacı Mirzə Cəfər

Fəzilətli və düz adam olub. Uzun müddət Əmirülmömininin (ə) dərgahında fiqh öyrənirdi. Təbrizə gələndən sonra bir-iki ildən artıq qalmadı, bu dünyadan köçdü. İndi onun uşaqları sağdırlar. Onlardan biri Hacı Mirzə Musa adlı elm, zöhd və təqva sahibidir. Əgər mən bu görkəmli adamların adlarını yazıram və demirəm ki, filankəs müctəhid ya dilçi ya lüğətşünas ya mühəddis olub, bu da ondan irəli gəlir ki, bilmirəm, elədir ya elə deyil. Hər halda elə olduğunu söyləyirlər. Və bir başqası: əgər o görkəmli adamların bütün övladlarının adlarını burada gətirmirəmsə, bunun da səbəbi odur ki, onlar böyük zadəganlardır, ancaq belə möhtəşəm şəhər haqqında kitabda ad çəkməklə məşğul olmağın fayda gətirməyəcəyini sanıram və yaza bilmirəm.

## Hacı Mirzə Haşım Ağa kəhrizi

Bu kəhriz suyun bolluğuna, xoşməzəliyinə və faydalılığına görə Təbrizdə ikincidir. Şəhərin böyük səmtini su ilə təmin edir və xeyir gətirən dəyirmanları fırladır. Onun qiyməti İmami-cümə kəhrizinin qiyməti ilə eynidir. Bu kəhrizi Mirzə Mehdi Qazının oğlu Hacı Mirzə Haşım Ağa qazdırmışdı. Hal-hazırda vərasət hökmü ilə o böyük şəxsin üç qızının ixtiyarına keçib. Onun oğlu Hacı Mirzə Mehdi Qazının bu qaynaqla heç əlaqəsi yoxdur. Ona çatan miras torpaq sahələridir. Hər il min iki yüz

tümən gəlir gətirir. O görkəmli şəxsiyyət haqqında qazılar bölməsində deyilir.

## Fəthabad kəhrizi

Bu kəhrizə mənbəyi yerləşdiyi kəndin adını qoyublar. Təbrizin cənub-şərqindədir. Kəhrizin əsasını haqqında sonrakı fəsillərdə danışacağımız tacir Mirzə Hacı Seyyid Hüseyn qoymuşdur. O, bu dünyadan köçəndən sonra həmin kəhrizi və torpaq sahəsini Mirzə Əhməd xan Saidülmülk satın alıb qolların sayını artırmış, çoxlu vəsait sərf etmiş, məcra boyu yaxşı dəyirmanlar tikdirmiş və öz sarayına gətirmək üçün şəhərə tərəf istiqamət vermişdi. O, cavan yaşında öldü və kəhriz mülkədarın əlinə keçdi. İndi Xiyabanın başından şəhərə axır və çoxlu bağ-bostan ondan bəhrələnir.

## Şahzadə kəhrizi

Bu kəhriz Azərbaycana hökmranlıq etmiş Nəvvab Nüsrətüddövlə tərəfindən hicrətin min iki yüz yetmişinci ilində[1] qazdırılıb inşa edilmişdi. Suyu boldur. Hal-hazırda bir neçə tacirə malikdir. Onlar suyu borular vasitəsilə növbə ilə satırlar. Şeşgəlanın məhəllələrinin əksəriyyətini və Sürxab məhəlləsinin böyük hissəsini su ilə təmin edir. Suyu içməli deyil, çünki anbarlardan keçir və bir neçə gündən sonra qoxumağa başlayır.

## Şahzadə kəhrizi

Bu şahzadə Naibüssəltənədir. Mən Təbrizə gələndə yerimiz Mirzə Əbülqasımın evində idi. Yadıma gəlir ki, gecələr suyun məcrasını bağlamağı və ehtiyatı əldən verməməyi tapşırardılar, çünki gecə vaxtı suyun təzyiqi artanda dayaqları yıxa bilərdi.

[1] Miladi təqvimilə 1853/54

Suyun məhəllədən axmadığı bir an belə olmazdı. Çeşmənin üstündə şahzadənin tikdirdiyi on daş dəyirmanı var idi. Bu kəhriz pulsuz işlətmək üçün şəhər sakinlərinə vəqf edilmişdi. Hər həftə bir gecə-gündüz Baği-şimalın ixtiyarında olurdu. Adına gecəsi Günəş batandan sonra şənbə gecəsinədək. Mən uzun illər görürdüm ki, su Baği-şimalın hovuzundan çıxıb şırhaşırla hər tərəfə axardı və Təbrizin qalasına qədər cərəyan edərdi, sonra qalanın o tərəfindəki boğazdan xaric olub Acırud çayına tökülərdi. İndi onun heç adı da qalmayıb. Adamın islam dininə görə ağlamağı gəlir. Böyük padşahzadə xeyir qapısını açmışdı, indi isə açıq-açığına pis niyyətli birisi onu bağlayıb. Heç kəs şahənşaha demədi ki, bu işi sənin əcdadın görüb, sənin oğlunu uşaqlıqda aldadıblar. İndi də belə çıxır ki, başqa çeşmələr kimi bu kəhrizi də satıblar. Allah-təalanın belə yaramazları irəli çəkməkdə hikmətin nə olduğunu mən bilmərəm.

## Hacı Mirzə Baqir kəhrizi

Yanıqda qazılıb. Kiçik bir kəhrizdir.

## Nazimüttüccar

Hacı Mir Məhəmməd Hüseyn Sipahani Yanıqda qazdırıb. Ortabab kəhrizdir. O tanınmış tacirin adı, Allah qoysa, öz məqamında gələcəkdir.

## Hacı Saleh kəhrizi

Şəhərin cənubunda Yanıq məhəlləsində kiçik bir kərizdir. Tacir Hacı Saleh qazdırmışdır.

## Sərrac kəhrizi

Qədim çeşmədir, şəhərin cənubunda, Yanıqdadır.

## Baba Əmin kəhrizi

Kiçik su mənbəyidir. Yanıqdan şəhərin cənubuna axır.

## Xətib kəhrizi

Bu da Xətiblə qonşu olan ərazidə axan bir başqasıdır.

## Məhəmmədiyyə

Yanıqdan axır və Baği-şimalın yuxarı hissəsini su ilə təmin etməkdədir.

## Qarasu

Qədim kəhrizdir, şəhərin cənubunda cərəyan edir.

## Kərəşxuni

Məşhur və qədim kəhrizdir. Cənub tərəfdən qazılıb. Küçəbağı və onun ətrafını suvarır. Suyu içməlidir.

## Hacı Seyyid Hüseyn kəhrizi

Bu kəhriz tanınmış Təbriz bazirganı Hacı Seyyid Hüseyndən sonra onun vəsiyyətinin hökmü ilə qazılmışdır. Onun məcrası şəhərin cənubundan baş alır və ermənilər məhəlləsi üçün nəzərdə tutulmuşdur. Suyu olduqca xoşagəlməz və yararsızdır. Bu suda paltar yuyanda çirki getməz, şoran ot və sabun köpüklənməz, ət bişirsələr, ömründə bişməz, düyü bərkiyər və rəngi çay rənginə dönər. Bu su ilə suvarılan ot yaxşı bitməz. Saf olsa da, ehtiyat üçün hovuzda saxlasalar, bircə gündən də tez suyun üstü və hovuzun divarları kiflənər. Əcəbdir ki, o məhəllənin və bu çeşmədən bəhrələnən hər bir yerin əhalisi ondan içsələr, heç əziyyət çəkməzlər, ancaq əgər başqa məhəllənin adamları içsələr, o saat mədələri xarab olar. Bununla belə, bu gün onun bir borusunun qiyməti dörd tüməndir.

## Sakinlərin sayı haqqında

Bu böyük şəhərin əhalisinin sayı məsələsində buradan keçənlərin və səyyahların qeydləri arasında böyük ixtilaflar vardır. Mən onların hamısının dediklərini qısaca burada gətirirəm. Bu tarixyazan alimlərin çoxusu şəhər əhalisinin beş yüz min olduğunu yazıblar. Fəqət İbn Bəttutə Məğribi və Şarden adlı bir fransız dəqiqliklə birisi altı yüz min, o birisi isə beş yüz əlli min göstərirlər. Bir xaçpərəst alim İran səfəri zamanı Təbrizdən keçərək özünün qeydlərində bu şəhər əhlinin üç yüz mindən artıq olduğunu göstərmişdi. Kinner adlı ingilis səyyahı Fəthəli şahın hökmranlığı dövründə hicrətin min iki yüz on altıncı ilində[1] bu şəhərə gələrək buranın camaatının sayını otuz min olduğunu fərz etmişdi. Bu düzdür. Mən min iki yüzdən sonra əlli altıncı və ya altmışıncı ildə bir neçə ağsaqqaldan son zəlzələ haqqındakı dastanda bu rəqəmdən də əskik deyildiyini eşitmişdim.

Bir qoca dərzi var idi, çox fəal və söhbətcil. O, sipəhbüd* atamın və biz uşaqların paltarını tikərdi. Etibarlı və dindar adam idi. O danışardı ki, bu faciə baş verən il Təbriz abad və gözəl bir şəhər imiş. Mən yeniyetmə bir oğlan idim. Atam, anam, qardaşım və bacım var idi. Atam da dərziliklə məşğul olardı. Gecə təzə girəndə evin zirzəmisinə düşdük. Payızın axırları idi  Gündüz qar ağacların üstünü örtmüşdü. Hələ gecə paltarını geyinməmişdik ki, birdən yer tərpəndi və üstümüzdəki yay evimiz çöküb çıxış yolumuzu tutdu. Qışqırdıq, ancaq heç bir cavab qulağımıza gəlmədi. Yalnız yer titrəyirdi və bəzən divarların uçmasının səsini eşidirdik. Atam dedi: “Bağırmağın xeyri yoxdur, yol açmalıyıq”. Beldən-lingdən heç nəyimiz yox idi, təkcə çörəyi təndirdən çıxartmaq üçün işlətdiyimiz uzun şiş tapa bildik. Uşaqlar balaca idi və heç nədən xəbərləri olmayıb yatdılar. Anam qızı təzəlikcə dünyaya gətirmişdi, çox arıqlamış və əldən düşmüşdü. Mən qorxu içində əsirdim. Atam həmin dəmir şişlə qapının ətrafını qazmağa başladı. O, cidd-cəhdlə çalışarkən

---

[1] Miladi təqvimilə 1801/02

anamla mən torpağı əllərimizlə o yan-bu yana atırdıq. Tab gətirə bilmədik. Onda anam atama dedi: – Bihəmdillah, bu yeraltı evimizi Allah (ə. və c.) özü saxladı. Daha gecədir. Sabahadək yataq, səhər qonşular gəlib qapını açarlar. Bişmiş çörəyimiz, bardaqda suyumuz var, çıraq da yağla doludur. Biz burada bir neçə gün yaşaya bilərik. Atam bərk hirslənib özündən çıxdı: – Sən nə danışırsan, ay axmağın biri axmaq! Heç bir-iki saat keçməz ki, ciyərimiz dolar, qızdırmamız qalxar və bizim hamımızın canı elə burada çıxar. Nəfəs ala bilmək üçün Allaha pənah aparıb var-gücümüzlə bir dəlik açmalıyıq. Anam dedi: – Qapı açmaq çox əziyyətli işdir. Bəlkə tez açıldı, amma ola bilər ki, heç aça bilmədik. Biz nə bilək ki, onun arxasındakı torpaq kütləsi qalındır ya nazik. Atam yerə yıxılıb hönkürdü. Onda mən çıraqdakı işığı artırdım. Birdən atamın üzü güldü və o, yenidən şişi ələ alıb kürsünü çevirdi ki, daha hündür yerə qalxa bilsin və şişlə tavanı deşməyə başladı. Çiy kərpic idi, tezliklə deşik açıldı və yuxarıdan torpaq töküldü. Təəssüf ki, o kütlənin üstündə torpaq var idi. Atam xeyli məyus olub sanki huşunu itirmişdi. Sonra atam anama dedi: – Güman ki, səhərə yaxındır. Allahın nə istədiyini bilmirəm, amma ola bilər ki, biz yer üzünü görərik. Sevinirəm ki, hələ nəfəs ala bilirik və çırağımız sönməyib. Yəqin ki, ya qapıda, ya da dəldiyim tavanda bir deşik var və hava oradan cərəyan edir. Arvad dedi: – Bu zirzəmi böyükdür və nəfəs almaq üçün yerimiz var. Atam əllərini göyə qaldırıb Yaradana yalvardı və fəryad etdi. Mən də fəğan etdim, anam da ah-nalə çəkdi. Bu zaman uşaqlar bizim səsimizə oyandılar. Səs-küy qalxdı, ara qarışdı. Mən otağın soba olan küncünə çəkildim. Atam bu sobanı ondan ötrü qoydurmuşdu ki, qışın soyuğunda orada xörək bişirə bilək. Mən başımı o dəliyə salanda ulduz gördüm. Tavan alçaq idi, üç gəzdən* çox olmazdı. Sevincimdən qışqırdım. Atama o yerdə ulduzu gördüyümü müjdə verdim. Gəlib gördü, Allaha səna oxudu və arvada dedi: – Biz bu dəliklərə görə sağ qalmışıq. Onlar olmasaydı, çoxdan ölmüşdük. Hava bunların vasitəsilə girib-çıxır. Biz həmin deşiyə yaxınlaşanda qulağımıza səs gəldi, ancaq nə dediklərini anlamadıq. Heyran və ümidsiz qalmışdıq və

hər dəqiqəmiz sanki bir ilə bərabər oldu. Xeyli keçəndən sonra bayırdan yenə bir səs gəldi. Biz hamımız qışqırdıq. Sobanın dəliyində bir baş görsəndi. O, bizi səslədi və atam ondan kömək istədi. Tezliklə tavanı qazıb deşiyi böyütdülər. Kürsünü ayağımızın altına qoyduq və çöldəkilər bizi bir-bir yuxarı çəkdilər. Hamımız sağ-salamat bayıra çıxdıq.

[Qoca dərzi] Bundan sonra həyəcanla bizə şəhərin düşdüyü haldan və yerin altından çıxarılan adamlardan danışdı. Onu da dedi ki, bir böyük məhəllədən keçərkən bir-iki nəfərdən başqa heç kimi görmədi. Bu sözdən belə qənaətə gəlmək olur ki, ingilis tarixçisi Kinnerin yazdıqları doğruya yaxın imiş.

O dərzinin adı Molla Nəqi oğlu idi. Onun Mehdi adlı kiçik oğlu mənimlə məktəbdə həmdərs və yaşda da bərabər olub. İndi o ərəb dili müəllimidir və mənim uşaqlarımdan ikisinə dərs deyir.

Lakin Təbrizə gəlmiş Lama Anirsit adlı tacir öz səfərnaməsində yazıb ki, min yeddiyüz iyirmi birinci ildə atəşfəşanlığa bənzər tufan Təbriz şəhərini alt-üst etmişdi.

Biz Təbrizin tarixini yazarkən etimad doğurmayan məlumatın hesabına sözü uzatmağı qarşımıza məqsəd qoymamışdıq və bu risalənin həcmini artırmaq xatirinə buraya əfsanəvari şeylər yazmaq da fikrimiz olmayıb. Bununla belə, bu şəhərin həmişə özünün əzəməti və cəlaləti ilə məşhur olduğunu bilməliyik. Qətiyyətlə deyə bilərik ki, abad olduğu dövrdə şəhər əhalisinin sayı beş yüz min nəfərdən artıq idi. Bu şəhər dəfələrlə zəlzələlərəməruz qaldığına və böyük döyüşlərə meydan olduğuna, müxtəlif düşmənlərin buraya əl uzadıb yerli camaatı qılıncla əsarətə alıb mallarını qarət etdikələrinə görəburadakı vəziyyət sabit olmayıb, bir əsr abad olub, o biri əsr xarab. Hal-hazırda üstündən doxsan doqquz il keçmiş o son zəlzələdən sonra (həmin yer titrəməsi min iki yüz birinci ildə[1] baş verib, indi isə min üç yüz birinci ilin birinci günüdür[2]) Təbriz şahənşahın

---

[1] Miladi təqvimilə 1786/87

[2] Miladi təqvimilə 1 noyabr 1883

vəliəhdi Abbas Mirzənin səyi sayəsində üzünü abadlaşmağa doğru tutmuşdur. Başqa zəlzələ min iki yüz doxsan dörddə[1] olmuş və şəhərdə daşı daş üstündə qoymamışdı. Ondan öncə isə hicrətin min yüz qırxıncı ilində[2] çox qorxunc zəlzələ baş vermişdi.

Bu bir-birinə yaxın zamanda vaqe olmuş üç dəhşətli hadisənin şəhərə nə cür təsir etdiyi hamıya aydındır. Allaha min şükür və hakim sülaləyə, yerli sakinlərə və dövlətin yüksək rütbəli şəxslərinə min afərin ki, onlar  göstəriş vermiş, bunlar isə həmin göstərişi yerinə yetirmişlər və nəticədə bu mübarək şəhər belə abadlaşmışdır. Həri, onlar biganəliyi bir kənara qoyub hər yandan gələn malsatan karvanları üçün təhlükəsiz yollar buradan saldılar. Yerli adamlar bu işdə canlarını qoydular və bu gün ki, min üç yüz birinci ilin məhərrəmül-haram ayının on üçü və çərşənbə günüdür[3], bu şəhərdə üç yüz min nəfər nəfəs almaqdadır. Bu boş söz deyil, çünki tarixyazan üçün əsassız sözlər söyləmək ən böyük eyibdir və mən başqa yazanlar kimi rəvayətləri (əgər bunu deyən etibarlı və qərəzsiz adam deyilsə) nağıl etməklə məşğul olmuram və ağla sığışmayan şeyləri də yazıma gətirmirəm. Mən ya öz gözümlə gördüklərimdən ya da etimad göstərdiyim adamlardan eşitdiklərimdənsöz aça bilərəm.

Mən bir sənəd görmüşəm və həmin sənəd indi də mənim əlimdədir ki, Şəhid Xaqanın[4] məmur Mirzə Əhməd Ərdəlaninin möhürü ilə təsdiqlənmiş fərmanına əsasən Təbrizə və onun ətrafına baxış keçirilmiş və xərac qoyulmuşdu. Əhalini siyahıya alan şəhərə gəlib xərac qoymuşdu. O çağda şəhər sakinlərindən cəmi dörd min otuz baş hesaba alınmışdı. Onlardan iki min otuzu seyyidlər, alimlər, fəqirlər, əyanlar və kimsəsizlər adı ilə qeydiyyata düşmüş, qalan iki min nəfərdən isə vergi tutulmuşdu. Məncə bu düzdür, çünki məmur Şəhid Xaqan kimi nüfuz sahibindən heç nə gizlədə bilməzdi.

---

[1] Miladi təqvimilə 1877
[2] Miladi təqvimilə 1727/28
[3] Miladi təqvimilə 12 noyabr 1883
[4] Yəni Ağa Məhəmməd şah Qacarın

# Məhəllə adları və məhəllələr haqqında

Təbriz şəhərinin yaşayış yerləri şərq tərəfdə Barinc kəndindən başlayır. O kəndlə Xələtpuşan[1] qəsri arasında fasilə yoxdur. O yer Kərgəc kəndinə, oradan Nemətabada və Kündruda gəlir, ardınca Dizəci-Leyli Xaniyə, Beyrəq[2] kəndinə, oradan Hərəviyə və oradan Liqvana yapışır və oradan da şəhərin qapısına qədər düz yolla altıfərsənglik* məsafə var. Bu şəhər özünün bağ-bostanları və kollu-ağaclı məhəllələri ilə məşhurdur, geniş bir çölün sonunda və iki dağın arasında qərbə doğru uzanmış bir məkanda yerləşir. Bu abadlığın eni şimaldan cənuba bir fərsəngdir*, şərqdən qərbə isə Təbrizin ölçüsü iki cürdür. Biri Barinc bağlarının axırından Acırudun körpüsünədək iki fərsəngdir*, digəri də Xiyabanın əvvəlindən Qara Məlik adlı abad kəndin əvvəlinə qədər iki fərsəng* yarımdır.Şəhər Mehranrud çayının hər iki sahili arasındakı ərazisində yer alır və ağaclıqları, bağları və imarətləri o qədərdir ki, bu yaşayış məntəqəsinə baxanda yam-yaşıl bütöv bir bağ təəssüratını yaradır.

Həmin şəhərin çoxlu məhəllələri var və mən onları bir-bir sayacağam.

## Xiyaban

Şəhərin şərqindədir. Böyük və məşhur məhəllədir. İraqdan və Xorasandan gələn hər kəs öncə uzunluğu üçdə dörd fərsəngə* və eni altmış zər'ə* bərabər olan bu uzun və geniş xiyabana daxil olur. Mən Təbrizə gəldiyim il bu xiyabanın hər iki tərəfi rəvan axan çayla əhatə olunmuşdu. Çayın kənarlarında nar ağacları və budaqları hər tərəfə sallanan söyüd ağacları bir cərgədə düzülmüşdü və bu yolun üstündə məvacibi xilafətin divanından alan mühafizəçilər durmuşdular. Ağaclar köhnə idi. Onları bir-bir kəsib yerinə cavan ağaclardan əkdilər. Bu səbəbdən oralar birdən

[1] Xələtpuşan – xələtgeyinənlər.
[2] Yəni Bayraq

boşaldı və şəhərin zahiri görünüşünə ziyan dəydi. Ancaq min iki yüz doxsanıncı ildə şahənşahımız Firəngistana səfərə gedərkən bu şəhərdən keçmişdi və ondan öncə İranın vəliəhdi əmrinə əsasən böyük xacəmiz, məclis başçısı Mirzə Fəthəli xan Şirazinin təşəbbüsü və səyi ilə yenidən arxlar çəkib kənarlarında cavan nar, söyüd və şam ağaclarından əkdilər və gözətçilər qoydular. İndi buralar bir az gözəlləşib, amma əvvəlki hala gəlməyib və heç gəlməz də, çünki divanımız bu məsələyə qayğı göstərmir. Həmin çöldə çoxlu məhəllələr var, lakin onların hamısının adları bu kitaba sığmaz. Hal-hazırda bu kəndin kədxudası Kərimxan adlı bir şəxsdir. Ağlı başında olan cavan adamdır və bu vəzifə ona babasından qalıb. Babasının da adı Kərimxan olub və o, Naibüssəltənə Abbas Mirzənin vaxtında məşhur adam idi və işini yaxşı bilirdi. Onun evi heç vaxt qonaqlardan əskilməzdi ta o vaxtacan ki, ona qarşı ürəyində kin saxlayan Hacı Mirzə Ağasi İrəvani (Məhəmməd şahın padşahlığı dövründə baş vəzir olmuşdu) süfrə arxasında oturub ona böhtan atdı və o kişinin evini yıxdı. O yazıq dünyasını dəyişənə qədər avara oldu və əli hər şeydən üzüldü. Və O Ölməzə şükr olsun!

## Maralan

Bu məhəllə şəhərin cənubunda yerləşir, amma şərqə meyillidir. Havası səfalı, suyu bol və bağ-bostanları gözəldir. Xiyabanın bir hissəsi hesab olunur.

## Bağmeşə

Böyük və təmiz məhəllədir. Şərqdə çayın sahili boyu dərədə uzanmışdır. Əntiqə suyu və havası var. Başdan başa meyvə ağacları və digər ağacların altında gizlənib. Bu yaşayış yerində Bilankuh adı ilə məşhur bir kənd var və həmin kəndin adını hal-hazırda Azərabadəgan hökumətinin sənədlərində yerli ləhcəyə və qədim kitablara müvafiq olaraq “Vilankuh” şəklində yazırlar. Orada xiyar əkərlər və məhsulu bol olur. Tamı, dadı, nazikliyi,

ətri və bərkliyi baxımından belə xiyardan dünyanın heç bir yerində yoxdur. Bu xiyar Təbrizin başqa yerlərindən gətirilən xiyarların azaldığı vaxtda əmələ gəlir, çünki oranın havası nisbətən soyuq olur. Heyvası da çox dadlıdır. Başqa meyvələr də yaxşıdır, ancaq üzümü o qədər də şirin olmur.

Bu yerin kədxudası böyük bir nəslin nümayəndəsidir. İndi həmin nəslin başçısı Hacı Mirzə Mehdi adı ilə tanınan Hacı Kələntərdir. O kişi bu yerin kədxudalığını vərəsəlik yolu ilə almış Hacı Mirzə Əliqulunun oğludur. Bu ailə bizim günlərə qədər həmişə şərəf və nüfuz sahibi olmuşdur. Onlar padşahlar və ordu əmirləri üçün süfrə açardılar və indi də açırlar. Hacı Kələntər öz əcdadlarını da ötüb ağıllı və bilikli ağsaqqaldır və xəlifə həzrətlərinin də tanıdığı bir şəxsdir. O xeyirxah insanın sarayı kimsəsiz və əlacsız adamların qaldığı yer olub. Onun həmin kənddə çox hündür və gözəl binaları vardır və bütün nəsil öz evlərini o tərəflərdə tikdirmişdir, hamısı bir məhəllədə yerləşir. Həmin binalar xüsusi kəhrizdən suyunu alır. Kənardakı evin həyətində böyük və yaraşıqlı hovuz vardır. Su onun içinə tökülür və oradan həmin evin bağlarına axır. Bu məkan cənnətin bir hissəsidir. Böyük adamlara məxsus hər şey bu gözəl insanın sarayında mövcuddur, özü isə çox xoş və sadə ömür sürməkdədir. Çöl sarayın ərazisində inəklər və qoyunlar üçün tövlə tikdirib və bütün il boyu xalis süd, pendir və qatıq onun süfrəsindən əskilməz. O xoş təbiətli ağsaqqalın paltarı olduqca sadə və bəzəksizdir. Çox vaxt piyada gəzər və bunu adətkərdə etmişdir.

Həmin nəslin Qacarlarla qohumluğu var. Belə ki, Naibüssəltənə onun bibisini öz evinə gətirmişdi və onun burada hörməti böyük olub. Üç oğulları və bir qızları çox yaşamadılar. Başqa bir oğullarının adı Cəfərqulu idi. Ürəyi açıq və qonaqpərvər bir əmirzadə olmuşdu. O, artıq qocalıb və indi oğlu onun yerini tutur. Bu mədəni əmirzadənin adı Firuz Mirzədir. Həmin oğlan cavanlıqda öz istedadı, zirəkliyi və işini yaxşı bilməyi ilə şöhrət qazanmışdı. Keçmiş padşahın taxta çıxdığı ilk ilində Farsın hakimiyyət başçısı oldu. Vəziri Mənuçöhr Mötəmədüddövlə, or-

du rəhbəri isə ingilis koloneli[1] Linzi olmuşdu. Onun düşməni Şücaüssəltənə Həsən Əli Mirzə Farsın yolunu bağlamış, lakin döyüşdə darmadağın edilmişdi. Əmirzadə Farsda ad qazanmışdı. Bizim padşahımızın şahənşahlığı dövründə Nüsrətüddövlə ləqəbini almış, Farsa, Kirmana və İranın digər yerlərinə hökmranlıq etmişdi. İraqın hakimiyyət başçısı olan kimi Fərmanfərma ləqəbini aldı. Onun hökuməti bütün İraqın mərkəzində mövqe tutmuşdu. Min iki yüz doxsan yeddidə[2] Kirmanın və Bəlucistanın da hakimiyyətini ələ keçirdi, doxsan doqquzda[3] isə istefaya göndərildi. Öz igid oğlu Sultan Həmidi həmin məmləkətə göndərdi. Vaxtilə bu əmirzadənin ləqəbi Nizamüddövlə olmuşdu, indi Nasirüddövlədir. Hal-hazırda həmin şahzadə xilafətin paytaxtında hörmət ilə ehtiram içində yaşamaqdadır.

Şahzadənin bacısı imam Hüseynin (ə) ali ziyarətgahında böyük hörmət sahibidir. Kələntərin başqa bibisi İranın birinci şəxsinin vəziri düztədbirli Mirzə Yusifin anasıdır. Mirzə Yusifin nəslində hamı nəcabətli insanlar və bu məmləkətin vəzirləri olmuşlardır. O, hörmətli atasından sonra müstövfiyülməmalik* oldu. Xidmətlərinə görə dünya padşahı bu ləyaqət sahibinə Ağa Xəttab ləqəbini verdi və İran xalqı onu razılıqla bu adla çağırır. Bir oğlu var və həmin oğlana öz atasının adını qoydu. Həmin ad Müctəbanın (ə) adıdır. Hal-hazırda müstövfiyülməmalik* odur. Bu böyük şəxsiyyət həmişə ölkənin və millətin xeyrini düşünür. İndi dövlət işlərinin çoxu Rəzin Ağanın rəyi ilə icra edilir. Bu gün, yəni ərəb tarixi ilə min iki yüz ikinci ilin mübarək ramazan ayının yeddisi[4], həmin xacə bütün İran dövlətinin sədri-ə'zəmidir*. Bu gün Bağmeşənin kədxudası vəzifəsini isə böyük bacarıqla Kələntərin Kərimxan adlı oğlu yerinə yetirir. Səbirli bir cavan oğlandır. Onun ətrafında hamı xoş xasiyyətli, ürəyi təmiz və padşah dərgahına fayda gətirən insanlardır.

---

[1] Kolonel – polkovnik.
[2] Miladi təqvimilə 1880
[3] Miladi təqvimilə 1882
[4] Miladi tarixi ilə 20 iyun 1885

Bağmeşənin məşhur kiçik məhəllələri və küçələri var. Bu böyük məhəllənin adı qədim deyil, yaxın zamanlarda qoyulub. Ola bilər ki, köhnə adı Dərbi-Rey[1] olub.

## Püli-səngin[2]

Kiçik kənddir. Çoxlu ağacları, bağ-bostanları və hündür binaları var. Bağmeşənin hesabındadır.

## Şeşgəlan

Kiçik məhəllədir. Əhalinin çoxu əyanlar və yüksək vəzifəli şəxslərdir. Bağmeşənin kiçik məhəllələrindəndir. Püli-səngini Dərbi-əlanın,[3] Şeşgəlanı isə Dərbi-Reyin dəftərində yazırlar.

## Sürxab

Böyük və qədim məhəllədir. Ətəyində yerləşdiyi dağın adını qoyublar. Bu məhəllə bütün şəhərin ən hündür və şərəfli yerində vaqedir. Havası xoş və mülayimdir. Yayda gündüz günəş dağı bərk qızdırdığına görə buranın havası isti olur, lakin gecə daşların istiliyi gedəndən sonra hava da sərinləşir. Bu məhəllənin torpağı bərk və çınqıl daşı ilə qarışıqdır. Divar qoyarkən onu möhkəm tikərlər və torpaqda rütubət olmaz. Bağ-bostanları çox deyil. Tumsuz tutu, badamı, fındığı və armudu ləzzətlidir. Bu gün həmin məhəllənin kədxudası olan Mirzə Cavadxan divanxana vəkili Hacı Mirzə Əlinin oğludur. Haqqında bu kitabda söyləniləcək böyük bir nəsildəndir. Bütün şəhər sakinlərinin ziyarətgahı olan Seyyid Həmzənin mübarək qəbri bu məhəllədədir. Qəbir məhəllənin ortasındadır.

---

[1] Dərbi-Rey – Rey qapısı.
[2] Püli-səngin – möhkəm körpü.
[3] Dərbi-əla – uca qapı, hökmdarın iqamətgahı.

## Seyyid Həmzə

“Tarixi-Həşri”[1]nin sahibi onun nəsabəti haqqında geniş şərh vermişdir. Mən bu kitabı əvvəldən axıradək oxumuşam, ancaq bəyənməmişəm. Çoxusunu əfsanə bildim və etimad etmədim. Bilmirəm ki, bu sözləri harada toplayıb. Mən həmin seyyid haqqında camaat arasında deyilənləri qələmə almışam. Seyyid Həmzə (Allah ondan razı olsun!) Mahmud Qazanın[2] vaxtında yüksək vəzifə sahibi olub. Hökmdarın yaxın adamlarından idi. Həzrət İlxanın yanında moğolların başçılarına sataşardı. Heç vaxt padşaha o sərdarlar haqqında yaxşı sözlər söyləməzdi. Bir gecənin qaranlığında padşahın sarayından atın üstündə gəlirdi. Ordugahın olduğu yerə çatanda ərəb oxu onu tapdı və elə yerindəcə o dünyalıq oldu. Həmin yerdə dəfn etdilər.

Azərbaycanın vəziri Mirzə Əbu Talıb onun məzarının üstünü götürdü. Onun adı qəbrin yanındakı məscidin sağ tərəfində mərmər kitabədə həkk olunmuşdu. Görənlər onun gözəl xəttlə yazıldığını qeyd edirlər. Mən o yazını oxumuşam. Tarixi hicrətin ... [yazılmayıb] ilidir. Məqbərənin günbəzi var. Hücrələri əhatə edən divarın cənubunda bir mədrəsə olub. İndi oraya cəsədləri əmanətə qoyurlar. Bu bina hal-hazırda üzü dağılmağa doğru gedir. Divarları çatlayıb və sökülür. Bu məzarlıq canilərin sığınacağı olmuşdur və orada gizlənənlərdən bir kəsi öldürsəydilər belə, heç kimin o işə qarışmağa cürəti çatmazdı. İndi oranı yada salan da yoxdur, yalnız əgər kimsə şikayət etsə, onda mütəvəlli* onun iddia ərizəsini saraya ötürür. Deyirlər ki, bu Seyyid Musəvidir.

## Şütürban[3] məhəlləsi

Təbrizin ən böyük məhəlləsidir. Onun ərazisinin özündə nə bağ, nə bostan olmayıb. Bu məhəllənin sakinləri çoxdur və əsa-

---

[1] Molla Həşrinin “Rövzeyi-əthar”əsəri nəzərdə tutulur.
[2] Sultan Mahmud Qazan xan (1271-1304) – Elxani hökmdarı (1295-1304).
[3] Şütürban – dəvəçi.

sən dövlətli adamlardır. Ərazisinin böyük hissəsi Sürxab dağının ətəyində yerləşir və oradan Acırud çayına qədər uzanır. O yerdəki bir neçə bağ sahəsi və qiymətli əkin torpaqları bu məhəlləyə daxildir. Həmin yerin qarpızları və qovunları çox dadlı olur. Abnəhəndin və başqa kəhrizlərin suyu bu əraziyə çəkilib. Buranın buğdası da yaxşıdır.

## Abnəhənd

Bu məhəllənin adını buraya gələn suyun mənbəyi yerləşən kəndin adına görə qoyublar. Ötən günlərdə suyu Nəhənddən kəhrizin vasitəsilə gətirərdilər. Acırud çayına çatan məqamda yeraltı yol qazıb yekə daşlarla, əhənglə və bişmiş kərpiclə o yolu elə möhkəm düzəltdilər ki, Acırudun suyu heç vaxt onun üstündən aşmaz. Hər iki tərəfi dəvənin boğazı kimidir və su axıb çayın bu hissəsinə yetişir. Yaxın keçmişdə su Sürxabın ətəyinədək cərəyan edərdi, lakin indi həmin yeraltı yolda çatın əmələ gəldiyinə görə suyun axını zəifləyib. Bu yerin mülkədarları onu təmir etmirlər. Eşitdiyimə görə, əlləri aşağıdır. Vaxt olub ki, bu kənd və onun suyu keçmiş padşahın mühafizəçisi İsmayıl xana məxsus idi. O zamanlar axın çox güclü, sanki bir çay idi. O kişidən sonra oğlu bu suyu satdı. Yerdə qalan sahənin yiyəsi isə Məhəmməd Əli xandır. Bu böyük məhəllənin kədxudası Hacı Mirzə Musa adlı şəxsdir. Həmin vəzifə ona vərəsəlik yolu ilə çatmışdır. Sakit və mülayim xasiyyətli bir kişidir. Onun babası Ağa Rza bəyin ləqəbi Kədxudabaşı olub. Adlı-sanlı bir adam idi. Mən onu cavanlıqda görmüşəm.

## Novbər məhəlləsi

Kifayət qədər böyük və camaatı çox olan məhəllədir. Şəhərin cənub hissəsində yerləşir. Buranın sakinləri varlı adamlardır və ticarətlə məşğuldurlar. Hər yanda hündür imarətlər və dəbdəbəli binalar tikiblər. Bu binaların həyətləri meyvə və şam ağacları ilə doludur. O məhəllənin meyvələri olduqca ləzzətlidir. Qədim

tikililərdən burada bir şey qalmayıb. Bu məhəllənin də keçmişdə adı olmayıb. Kədxudası Mirzə Lütfəli xan adında ağıllı bir cavandır. Bu kədxudalıq ona atasından çatmışdır. Bu cavan adam atasının ləqəbini ləyaqətlə daşıyır, ona da Kədxudabaşı deyərlər. Həmin kədxuda böyük nəsildəndir və divanxananın vəkili onun əmisidir. Bu gün şəhərin içində və ətrafında divanın hökmü ilə vergi və bac məsələlərinə o baxır.

## Məhadmehin

Bu məhəlləyə bizdən əvvəlkilər Məhadmehin, lap qədimdə yaşayanlar Miyarmiyar, elə Təbrizin çağdaş sakinləri də Miyarmiyar deyərlər və həmin Məhadmehinin dəftərinə yazarlar. Abad və tanınmış yerdir. Böyük olsa da, bağ-bostanları azdır. Bu məhəllənin içində kiçik yarımməhəllələr vardır. Onlardan biri Ərmənistandır. Orada Təbrizin xaçpərəst rəiyyətləri sakin olublar. Çoxusu var-dövlət sahibidir. Zərgərlik, daş-qaş düzəltmə və dərziliklə məşğul olarlar. İsəvilərin topdan və pərakəndə ticarəti olduqca gəlirlidir. Firəng və Osmanlı dövlətlərinin səfirləri bu məhəllədə qalırlar. Bizim və öz bayramlarında, eləcə də başqa əlamətdar günlərdə (məsələn, bizim və öz padşahlarının ad günündə) hər səfirliyin üstündə bayraqlarını ucaldarlar. Osmanlı dövləti hər adına günü bayrağını açar ki, müsəlmanların bayramıdır. Hal-hazırda bu şəhərdə dörd səfirlik[1] var. Onlardan biri qüdrətli Osmanlı dövlətinindir. Onun müdirinə öz dillərində baş şəhbəndər deyərlər. Bu gün onun adı Əli Behcətdir. Vüqarlı və xeyirxah insandır. Üzü xoş, qarnı isə yekədir. Bizim dövlətimizin dostudur və Təbrizdə böyük hörməti var, hamı onun xətrini istəyir, çünki düz və saf niyyətli adamdır və mənim də səmimi dostumdur. O, özünü belə təqdim edib və mən onun tərifini elə özünün söylədiyi sözlərlə qələmə aldım: “Adım Əli, təxəllüsüm Behcət və nəslimiz Mustafa Behcət əfəndinin törəmələrindəndir”.

---

[1] Əslində burada “səfirlik” sözü konsulluq mənasında işlənmişdir.

## Behcət Əfəndinin tərcümeyi-halı

Həzrət hökmdarın sarayında baş vəzir və həkimbaşı vəzifələrini yerinə yetirənlər nəslindən olmuş atamım adı Əhməd əfəndidir. Doğulduğum yer İslambulun[1] Davud paşa məhəlləsidir. Hicri tarixiilə 27 ramazan 1250, miladi ilə 1834-dür. Millətim türk, məzhəbim hənəfi və dinim məhəmmədidir. Allahın fəzli ilə əhali arasında etibarlı zatlardan sayılıram. Rəşidiyyə məktəblərinin təşkil olunmasının əvvəllərində qısa müddət Davud paşanın Rəşidiyyə mədrəsəsində təhsil almışam və ərəb dilinin əsaslarını mərhum ağşəhirli Xacə Əhməd əfəndidən, farsini isə Xacə Niyazi əfəndidən öyrənmişəm. Farsca yazıb danışıram. Yeddi-səkkiz il müddətində dövlətin rəsmi salnaməsinin tərtib edilməsi üzərində çalışıb nəşrə hazırlamışam. Müəllifi olduğum başqa əsərim yoxdur. 1265-ci ildə (miladi tarixi ilə 1848) on beş yaşımda ikən ordu rəhbəri cənablarının idarəsində çox cüzi bir məvaciblə hərbi işlər üzrə mühasibat məmuru olmuşam. 68-ci ildə, yəni miladi ilə 1851-də, şahın əmri ilə xarici işlər katibliyinə, 69-cu ildə isə (miladinin 1851-ə müvafiqdir) katibliyin məmurluq işini yerinə yetirməklə yanaşı daha yüksək mərtəbəyə çıxmağa nail olaraq üç yüz quruş məvaciblə ümumi maarif məclisində ikinci münşi vəzifəsinə təyin olundum. Çərşənbə axşamı və cümə axşamı günləri adıçəkilən məclisdə, qalan günlər isə xarici işlər katibliyində çalışmışam. On üç il həmin münşilik işinə məşğul oldum və acizanə rütbəm əvvəl üçüncü, sonra isə ikinci dərəcəyə çatdı, məvacibim də min quruşa qədər artdı. Adı yuxarıda keçmiş katiblikdə də yüz quruş məvacib alırdım. Qırım[2] davasında xüsusi tapşırıqla humayun ordu ilə Qırıma gedib qısa müddət ordunun katiblik işlərinə baxdım və fəxri Qırım medalı ilə təltif olundum. Miladi 1865-ci ilinə müvafiq olan 82-də öhdəmdə ümumi maarif məclisində katiblik işini saxlamaq şərtilə Tehrandakı səfirlikdə birinci

---

[1] Yəni İstanbul

[2] Yəni Krım

münşi vəzifəsinə təyin edildim. Həmin tarixdə dördüncü dərəcəli humayun Məcidiyyə nişanı ilə təltif olundum. Miladi 1866-cı ilə müvafiq 83-də beş min quruş məvaciblə Təbrizdəki səfir olmaq şərəfinə nail oldum və ümumi maarif məclisində katiblik işindən ayrıldım. İndi Təbrizdə səfir vəzifəsində qalmışam. Yeni qərara müvafiq olaraq hazırkı məvacibim üç min quruşdur və üstəlik min yeddi yüz əlli quruş alıram. Miladi 1874-cü ilə müvafiq 91-də vəkillər məclisinin xüsusi müqaviləsi və həzrət padşahın əmri əsasında İran tərəfinin Şeyx Übeydüllah haqqında qaldırdığı iddianı nizama salmaqdan ötrü müvəqqəti olaraq müxtəlif qomissiyonlarla yanaşı daha beş min quruş alırdım və həmin tapşırığı bir il müddətində yerinə yetirməkdə oldum. Miladi 1876-cı ilə müvafiq 93-də dördüncü dərəcəli Məcidiyyə nişanı üçüncü dərəcəliyə dəyişdi. 1879-a müvafiq 96-da birinci rütbənin ikinci sırası ilə mükafatlandırıldım. 89-cu ildə, yəni 1874-də İran dövlətindən ikinci dərəcəli "Şirü xurşid"[1] nişanını aldım. Yuxarıda yazdığım Qırım medalı kimi bir Qırım medalını da ingilis dövlətindən aldım.

İkinci səfirlik rus dövlətinindir. Onun başçısı Petrov adlı ceneral-konsuldur. "Ceneral" o mənada ki, İrandakı digər konsullardan yaşca böyükdür.

Üçüncüsü ingilis səfirliyidir. O da jeneraldır və onun adı ... [oxunmur].

Dördüncü Fransa səfirliyidir. Bu dövlət bizim dövlətimizin köhnə dostudur. O da jeneral-qonsuldur və adı Bernedir. Fars dilini yaxşı bilir.

Bu şəhərdə digər firəng[2] dövlətlərinə məxsus səfirlik yoxdur. Onlar öz işlərini bu səfirliklərdən birinin boynuna qoyub müvəkkil ediblər. Bu məmləkətdə xaçpərəstlərin böyük kilsə və məbədləri var və onun xəlifəsi nəsrani sülaləsinin böyük xəlifəsinin icazəsi və təyinatı ilə İrəvanın Üçkilsəsindən gəlir və bilavasitə ona tabedir. Azərabadəganın bütün xaçpərəstləri onun

---

[1] Şirü xurşid – şir və günəş.

[2] Yəni Avropa

əmrini yerinə yetirər, Səlmasın bir neçə kəndindən başqa. Fransız keşişlər illər öncə oralara yol tapıb Xosrovabad kəndində daşdan bəzəkli və möhkəm məbəd tikdiriblər. Oranın sakinləri papasın və katolik dinin yolunu tutublar. Urmiyanın isəviləri üçün isə Amerika xalqı kilsə və məbəd inşa edib və o iki yerə saysız-hesabsız xərclər tökür. Amerikanların məzhəblə işləri yoxdur, məramları xaçpərəstlikdir. Üç il bundan qabaq bir neçə protestant din xadimi bu şəhərə gəlib İncili təbliğ edib xaçpərəstləri dəvət etdilər və bu məqsədlə xeyli maya qoydular. Onlar öz mənafelərini güdərək ildə on min tümən xərcləyirlər. Təbrizin xaçpərəstləri onları düşmən bilib adlarını kafir qoyublar. Hər bazar günü o tayfanın keşişləri öz evlərində minbərə çıxıb moizə oxuyarlar. Bütün firəng tacirlərinin Məhadmehin məhəlləsində evləri var və hamısı ticarətə bol maya qoyub xeyrini görür. Bu məhəllənin kədxudalığı vərəsəlik yolu ilə keçir. İki kədxudaları var. Biri

**Həbibüllah xan**dır

ki, qalabəyi Hacı Ağaxanın qardaşı və əhli-islam kədxudasıdır. Bu çağda gözəl, cavan, bilikli və ayağı yüngül bir insandır. Digəri isə Hacı Əmir xan adı ilə məşhur

**Hacı Məhəmməd Təqi xan**dır

Qalabəyinin oğlu və xaçpərəstlərin kədxudasıdr. O da vüqarlı və bilikli bir cavandır. Maması[1] Əbülfəth xan Cavanşirin oğlu Məhəmməd Təqi xanın qızıdır. Ona babasının adını qoyublar. Qalabəyinin yeganə oğludur.

## Hacı Ağaxan qalabəyi

Babası Hacı xan Məhəmmədin adını qoyublar. Atası Mehdixan şəhərin ən görkəmli və tanınmış adamlarından olub.

---

[1] Yəni anası

Onun sarayının qapısı vaxtlarını xoş keçirmək istəyən böyük adamların üzünə həmişə açıq idi. Bu ev bir an belə gəlib-gedənlərdən boş olmazdı və içində hər şey hörmətli qonaqlar üçün hazır idi. Bu kişi şəhriyarımızın hökmranlığının ilk çağında saraya getmişdi. Böyük Atabəy Mirzə Məhəmməd xan qədim dostluğun əlaməti olaraq padşahın cibxərci xəzinəsini ona tapşırmışdı və Qacarlar dövlətində padşahın öz ehtiyaclarını "kişi-fəda"[1]dan ödədiyi vaxtda bu böyük pul idi. Bu adam adsan sahibi oldu. Sarayın kədxudalığını da icra edərdi. Sonra fərman verib Təbriz qalasını ona həvalə etdilər. O zaman şəhərin möhkəm divarı var idi və ona "qalabəyi" deyə xitab edərdilər. Beləliklə oğul atasının yolu ilə getdi.

Keçən zamanlarda belə bir qanun qoymuşdular ki, aşura günü yas tutanlar məhəllələrdə dəstələrə birləşib bəzədilmiş atlarla, irəlidə əllərində təbillər, sinclər gedə-gedə, ağlaya-ağlaya və ah-nalə çəkə-çəkə həmin kişinin sarayına gəlib təziyələr söyləyərdilər. Ümumi sayları on mindən də artıq ola bilərdi. Şirin şərbətdən içərdilər, başsağlığı verərdilər və dindarlıqlarını nümayiş etdirərdilər. Çoxları seçilmiş ləziz yeməklərlə dolu süfrə açardılar. Həmin gün orada böyük həyəcan olardı. Bu sarayın damı, içərisi və həyəti adamlarla dolardı. Seyyidüşşühədanın (ə) ən yaxşı yas mərasimini burada keçirərdilər.

## Qeyd

Burada "kişi-fəda" haqqında söz söyləməyi və onun nə olduğunu göstərməyi lazım bildim. Qədim çağlarda padşahın atın zinətli yəhər qaşına oxluq kimi bağladığı kisəsi olardı və həmin kisəni qiymətli ləl-cavahirlə və qızıl sikkələrlə doldurardılar. Şahın xəzinəyə və xəzinədara əli çatmadığı ağır günlərdə, yəni tamam söküldüyü və əli puldan-paradan üzüldüyü bir vaxtda, qızıla ehtiyacı olardı. O zaman padşah bu maldan sərf edərdi. Belə də olardı ki, düşmən döyüş meydanında məğlubiyyətə uğradığı padşahı izlədiyi məqamda şah həmin qızıldan və daş-

[1] Bu sözün tərifi aşağıda verilib

qaşdan yerə səpələyərdi ki, düşmənın atlıları bunları yığmağa məşğul olsunlar, padşah isə təqibdən yaxasını qurtara bilsin. Övhədəddin Ənvəri öz şeirində aşağıdakıları yazanda məhz bu mənanı nəzərdə tutmuşdu:

Kişi-fədasını açıb sirrini söylədi,
O döyüş meydanında zinətini dağıtdı.

## Çərəndab

Təbrizin qədim məhəllələrindəndir. Adı kitablarda keçir, xüsusilə Sahibdivan Şəmsəddinin uyuduğu qəbiristandan danışanda. Bu məhəllənin kədxudası da Həbibüllah xandır.

## Leylabad

Bu məhəllədə də xaçpərəstlərin bir neçə evi var, məbəd də tikiblər. Müsəlmanlar da çoxdurlar. Xaçpərəstlərin kədxudalığını Hacı Əmir xan, müsəlmanlarınkını isə Həbibüllah xan edər. Hər iki məhəllənin təmiz bağ-bostanları vardır və ikisi də cənub tərəfdədir.

## Əhərab

Çərəndabın yarımməhəlləsidir.

## Əmirxiz

Şəhərin şimal-qərbində böyük məhəllədir. Suyu azdır, bu üzdən bağları da azdır. “Şalçı” adı ilə məşhur tacirlər tayfasının evləri bu məhəllədədir. Hal-hazırda bu məhəllənin kədxudası

## Məhəmməd xan

Ağa Fəthəli xanın oğludur. Həmin məhəllə ata-babadan onlarındır. Özü yaraşıqlı, səliqəli və mədəni bir cavandır. Məhəllənin sakinləri onun xətrini istəyirlər.

**Vicuyə**

Şəhərin qərbində böyük məhəllədir. Burada da bağ-bostan çox deyil. Oranın sakinlərinin çoxusu elm və ticarətlə məşğul olurlar. Bu məhəllənin kədxudası

**Mirzə Abdullah xan**dır

Sifəti qəşəng bir cavandır. Xasiyyəti xoş və nöqsansızdır. Gözəl dəst-xətti var və fars dilini yaxşı bilir. Bu cavan oğlan Kərim xan Xiyabaninin kiçik qardaşı Ağasadıqın oğludur. Mən o kişini[1] görmüşəm. İşini bilən və tanınmış adam olub.

**Çaharmənar**

Şəhərin içində, bazara yaxın kiçik bir məhəllədir. Buranın əhalisinin hamısı böyük adamlar, alimlər və tanınmış tacirlərdir. Orta təbəqədən olanlar burada azdır. Oranın kədxudası

**Mirzə Abbas**

sakit və azdanışan adamdır. Bu iş ona vərəsəlik yolu ilə keçib.

**Qaraağac**

Şəhərin qərbində bir məhəllədir.  Buranın sakinləri ustalar və sənətkarlardır. Burada da bağ azdır. Bu məhəllənin kədxudası

**Ağasadıq**

işini bilən adamdır. Kədxudalıq yeri ona vərəsəlik yoli ilə dayısından keçib. Bu kiçinin xasiyyətində tündlük və qəddarlıq hiss olunur. Danışdığının çoxusu davadan və silahdandır.

---

[1] Yəni Kərim xan Xiyabanini

## Çustduzan[1]

Bu məhəllə Təbrizin qərbindədir. Səfalı yerdir, bağ-bostanla doludur. Təbrizin məşhur ulduzşünası Ağa Cəfər Məhəmmədin ailəsi bu məhəllədə yaşayır və hamısının evləri bir-birinə yaxındır. Olduqca səliqəli və təmiz yerdir. Hal-hazırda o münəccimin oğlu cənab Mirzə Əli Münəccimbaşı sağdır. Fəzilət sahibidir və ulduzlar üzrə əsl ustaddır. Ərəb və fars dillərində gözəl şeirlər söyləyir. Həmin ailədən bir başqası Mirzə Yəhyadır. Ağa Məhəmməd Cəfərin nəvəsi xilafətin divanından atasından sonra vərəsəlik yolu ilə "nəcmülmülk"[2] ləqəbini almışdır. Digəri Mirzə Əlinin oğlu Mirzə Əbdüləlidir. O da ulduzlar elminin ustadıdır.

## Səncəran

Qədim və abad bir məhəllədir. Burada heç bir bağ olmayıb. Çaharmənar məhəlləsinə bağlıdır. Bu iki məhəllənin kədxudası da həmin Ağasadıqdır. Bu üç məhəlləyə baxanda görürsən ki, çox böyük, geniş və uzun yerdir. Uzunluğu yarım fərsəngdən* də artıq olar.

## Hökmabad

Bu məhəllə böyük, məşhur və hər yerdə tanınandır. Oranın hər guşəsi behiştin bir nümunəsidir. Yaz vaxtı adamlar şəhərin hər yerindən istirahət və bayram etmək üçün buraya yığışırlar. Xüsusilə badam gül açanda buna bənzər yer bütün dünyada tapılmaz. Bu zaman məhəllə başdan-başa sanki toy-bayram için-

---

[1] Çustduzan – çusttikənlər. Yerli sakinlər ona türk dilində "Çustduzlar" deyərlər. Məhəllənin adı burada yaşayanların peşəsi ilə bağlıdır. Buranın əhalisi əsasən Rusiyanın Azərbaycanın şimal hissəsini işğal edəndən və Türkmənçay müqaviləsi bağlanandan sonra Təbrizə pənah gətirmiş Qarabağ qaçqınlarından ibarətdir.

[2] Nəcmülmülk – məmləkətin ulduzu.

dədir. Bağlarda hansı bitkilər varsa, bu torpaqda bitib havaya təravət gətirər. Bütün badam ağacları bir qayda ilə başlarını göyə ucaldıb yaşıl bitkilərin üzərində gümüş dirhəmlərə bənzəyən güllər açarlar. Hər qol-budaqdan quşlar avaz edərlər. Səlsəbil[1] kimi saf su ilə dolu çaylar cingildəyər və adamlar hər guşədə şahanə məclislər qurub rahat və asudə halda eyş ilə nuş içində, şadlıq və sevinc təranələri altında vaxtlarını keçirərlər. Bu məhəllənin adamları güclüdürlər və hamısı əkin-biçimlə məşğul olurlar. Onların işi bağ-bostan bitkilərini becərməkdir. Bu məhəllə bütün Təbriz şəhərini öz məhsulu ilə təmin edir. Oranın kədxudası

**Hacı Mirzə Nəsir xan**

boylu-buxunlu bir kişidir. Özü bizim ağamız Peyğəmbərin (ə) nəslindəndir. Bu azadlıqsevər kişi Azərabadəganın vəkilürrüayası Hacı Mirzə Kazımın doğmaca qardaşıdır.

**Hacı Mirzə Kazım**

Hörmətli Təbatəbalar nəslindən alicənab və düztədbir kişidir. Bu adamın həqiqətən dünyada tayı-bərabəri yoxdur. Aləmlərin Rəbbi ona hər cür mənəvi hüsn ilə gözəlliklər verib. Fəzilət və insanlıq baxımından bir nümunədir. Ədəb fənlərində və ərəb dilində onun öz həmkarları üzərindəki üstünlüyü aşkar görünür. İslam elmlərinin əksəriyyətinə yiyələnibdir. Səxavətdə birinci adamdır. Xoşxasiyyət və təvazökardır. Xudavənd onda qəribə və əcəb heç bir şey yaratmasa da, cah-calalı və məmləkətdə nüfuzu böyükdür.

Bu adam Rəsulun nəsli haqqında bir kitabın müəllifidir və bu şərafətli elmə aid indiyə qədər əsər yazmamışdılar. Təəssüf ki, o yazını kitab halına salan olmayıb. Bu kişinin ailəsi şəhərdə özünün alicənablığı və nəcabəti ilə seçilir. Mən indi bu əzizin

---

[1] Səlsəbil – cənnətdəki əfsanəvi çeşmə.

şəcərəsini Əbdü Mənafadək gətirirəm ki, dünyada onun nə qədər hörmətli adam olduğunu biləsiniz.

## Vəkilürrüaya* Hacı Mirzə Kazım

İbn Mirzə Əbdülvəhhab (vəkilürrüaya* Mirzə Paşa adı ilə məşhur olubdur) ibn vəkilürrüaya* Hacı Mirzə Cəfər ibn vergilər vəkili Mirzə Əbdülvəhhab ibn vergilər vəkili Hacı Mirzə Məhəmməd Əli (bu günahsız kişini Təbrizin başçısı Nəcəfqulu xan Dünbüli öz evinə dəvət edib gözlərini çıxartdırmışdı) ibn vergilər vəkili Mirzə Sədrəddin Məhəmməd ibn Qazı Mirzə Məhəmməd Əli (Urmiyanın işğalı zamanı şəhid olmuşdu) ibn Qazı Mirzə Sədra ibn Mirzə Yusif Nəqibüləşraf ibn Mirzə Sədrəddin ibn Mirzə Məcdəddin ibn Seyyid İsmayıl ibn Mir Əli Əkbər ibn Mir Əbdülvəhhab ibn Mir Əbdülqəffar ibn Seyyid İmadəddin əmiri-hacc[1] ibn Seyyid Fəxrəddin Həsən ibn Seyyid Kəmaləddin Məhəmməd ibn Seyyid Hüseyn ibn Şihabəddin Əli ibn Məhəmməd bin Seyyid Əhməd bin Məhəmməd əl-Əsğəri ibn Seyyid Əhməd bin Seyyid İbrahim Təbatəba ibn Seyyid İsmayıl Dibac ibn Seyyid İbrahim Ömər ibn əl-Həsən əl-Müsənna ibn əl-Həsən əl-Müctəba (əleyhiməssəlam).

Adlarını çəkdiyim bu əcdadlar çox hörmətli və böyük adamlar və mənsəb sahibi olublar. Bu onların fəxri ləqəblərindən də bilinir. O zamanlar vəkilürrüaya* vəzifəsini tutan şəxs məmləkətin və rəiyyətlərin mənafeyi uğrunda çıxış edərdi. Rəiyyətlər onun sözünü, rəyini və nəsihətini öz işində dəlil gətirərdilər. Vergilər vəkili isə padşahın xeyrinə xərac təyin ediləndə öz rəyini verərdi və bu vəkilbaşı bir qayda qoyardı ki, adamların, evlərin, qaramalın və qoyun-keçinin hesablanması və eləcə də ərazinin və əkin sahələrinin ölçülməsi, xəracın paylanması, üşr almaq üçün dənin çəkilməsi zamanı xalqa zülm etməsinlər. Onun əmri ilə işlərə xitam verilərdi və ya icra olunardı.

---

[1] Əmiri-hacc – həccə gedən zəvvarlar karvanının başçısı.

Qələm buraya çatanda yerində durdu. Mən bundan sonra onu tərifləmək istərdim. Bilmirəm ona hansı mədhlər oxuyum, çünki o, bunlardan üstündür. Bu sülalədən olan görkəmli adamlardan bizə çatan məlumatı qısa şəkildə yad edək, hərənin yolunu və yaşayış tərzini göstərək ki, onlar da təriflənsinlər. Bu böyük adamların hamısı onun əcdadlarıdır. İndi bu sözü hələlik başa vuraq, sonra həmin məsələyə qayıdarıq.

## Dərbi-sərd

Şəhərin qərbində kiçik və abad bir məhəllədir. Bu məhəllənin əhalisi varlı adamlardan, tacirlərdən və əyanlardan ibarətdir. Burada heç bir bağ yoxdur.

## Küçəbağ

Şəhərin cənub-şərqində böyük və uzun məhəllədir. Uzunluğu bir fərsəngə* yaxındır. İçində kiçik məhəllələri vardır, hamısı abadlaşdırılmışdır. Bu məhəllə başdan-başa üzüm meynələri və başqa meyvə ağacları ilə bol olan bağ-bostanlarla doludur. Həmin iki məhəllənin kədxudası da Hacı Mirzə Nəsir xandır.

## Rəsulullahın (s) əcdadları haqqında

Sözüm bu yerə çatanda dostum səhifəyə baxıb dedi:
– Bu gözəl şəcərəni yazıb sona çatdırsan, nə yaxşı olar. Böyük peyğəmbərimizin ata-babalarını bu yazıya gətirərsən və nə çox adam bu pak nəsil haqqında xəbər alar. Özü də hər bilən təkrar deyər və adları səhv çəkməz. Minnətdar olub Allahın adı ilə sözümə başladım.

### Mühəmməd (s)

ibn **Abdullah** ki, iki zəbihdən[1] biri olmuşdu. Onun anası Əmru bin Aid Məxzuminin qızı Fatimədir. İbn

### Əbdülmüttəlib

ki, adı Amir və ləqəbi Şeybətülhəmd idi, çünki saçı anadangəlmə ağ olmuşdu. Bu cür saç ağarması nə qocalıqdan olub, nə də xəstəlikdən. Onun anası Yəsribdəki[2] Bəni-Nəccar tayfasından olan Əmrunun qızı Səlmidir. İbn

### Haşim

Adı Əmrudur. Buğdanı Şamdan Məkkəyə gətirdiyinə, çörək bişirmək qaydasını göstərdiyinə və onu xalqa ət və su ilə yedirtdiyinə görə Haşim adını almışdı. "Çünki Məkkədə ilk çörək doğrayan olub"[3]. Maması Atikə Mürrə Süləminin qızıdır. İbn

### Əbdü Mənaf

Adı Əl-Müğeyrədir. Maması[4] Atikə bint Hilal ibn Falicdir. İbn

[1] Zəbih – qurban kəsilən. Burada müəllif doğruluğu təsdiq olunmamış bir əhvalata işarə edir. Guya Abdullahın atası Əbdülmüttəlib öz oğlunu qurban verməyi nəzir etmişdi.
[2] Yəsrib – Mədinə (və ya Mədinətünnəbi) şəhərinin əvvəlki adıdır.
[3] Haşim sözünün mənası "doğrayan"dır.
[4] Yəni anası

## Qüseyy (və ya Qəseyy)

Adı Zeyddir. Balaca olanda Əzdşənuə ölkəsinə gətirilmişdi və buna görə də ləqəbini almışdı.[1] Cavanlıqda Məkkəyə gəldi və Qüreyşi dağlardan və mağaralardan gətirdi. Məkkəni abadlaşdırdı və hamının ağası oldu. Maması Fatimə bint Sə’d Xəs’əmiyyədir. İbn

## Kilab

Anası Süveyd bin Sə’ləbə Hindin qızı idi.İbn

## Mürrə

Onun anası Bəni-Malikdən olan Şeybanın qızı Məxşiyyədir. İbn

## Kə’b

Anası Kə’b bin Qeysin qızı Maviyədir. İbn

## Lüeyy

Əgər “həmzə” ilə yazılırsa və “lay” sözünün kiçiltmə şəklidirsə, onda “öküz” anlamına gəlir, yoxsa “luy”un kiçiltməsidir “luyürrəməl” mənbəyindən (?). Maması Yəxlüdün qızı Atikədir ... [oxunmur] ki, onun bənzəri çox dildə var. İbn

## Qalib

Anası nəsli İlyasa çatan əl-Haris bin Təmimin qızı Leyla olub. İbn

---

[1] Qüseyy ərəbcə uzaq deməkdir.

## Fihr

Maması Haris Cürhümiyyənin qızı Cəndələdir. İbn

## Malik

Maması Sə’d bin Qeys Eylanın qızı Övlədir. İbn

## Ən-Nəzr

Qüreyş həmin Nəzrin atasıdır. Adı Nəzr sözünün kiçiltmə şəkli olan Nüzeyr onun qardaşıdır. Anası Mürrə bin Üdd bin Tanicə bin İlaysın qızı Bərrədir. İbn

## Kinanə

Deyirlər ki, anası Sə‘din qızı Əvanədir və ya Mürrənin qızı Bərrədir. Onun nəsabətini bilən yoxdur. Bəlkə də Nəzrin mamasının adı Reyhanə, Kinanənin anası isə Bərrə olub. İbn

## Xüzeymə

Maması Səlma ya Əsləm Qüzainin, ya da Əsəd bin Rəbiənin qızı olub.İbn

## Müdrikə

Onun adı Əmrudur. Anası Həlvan Qüzainin qızı Leyladır. Cəvahir kimi bir qadın olub və onun bağı məşhurdur(?). İbn

## İlyas

Deyilənə görə bu ad əcəm adıdır. “Əlyas” da ola bilər (?). Deyirlər ki, İlyasın qardaşı olub və bu ad Kitabi-kərimdə zikr olunur. Əslində isə o əziz kitabda ərəb sözlərindən başqa söz

yoxdur. Anası Ceydə bin Məədd bin Ədnanın qızı Rübabdır və yaxud Əyad bin Məədd bin Ədnanın qızı Hüneyfadır. İbn

## Müzərr

Ləqəbi əl-Həmra[1] idi. O, bu ləqəbi ona miras şəklində çatmış qırmızı rəngli qızılgülə görə almışdı. O zaman Rəbiəyə atlar, digər qardaşı Ənmara isə qoyunlar yetişmişdi. Rəbiə əl-Fərəs[2], Ənmar da əş-Şat[3] ləqəblərini aldılar. Anası Ədd bin Ədsanın qızı Sövdədir. İbn

## Nizar

Adı Xaliddir. Farsın şahənşahı Şapur onu görüb dedi: – Ay nizar[4], necəsən? Xalid çox arıq olub və ona bu adı qoydular, amma Nizar da deyib çağırardılar. Belə söyləyirlər ki, həmin şahənşah Şapur deyil, Güştasp idi. Anası cürhümlü Hövşəmin qızı Məğanə və ya Naimə olub.İbn

## Müədd

Anası İmamə bint Hud Səlmiyyə və ya Qəhtandan Yətimə və ya əl-Ləhmim bin Həlcəb ibn Cədisin qızı Mühəddərdir. İbn

## Ədnan

Anasının adını bilmirik və o qadın Yə’rəb bin Qəhtandan olub. Bu Ədnan Rəsuli-əkrəmin həmin cəddidir ki, öz ata-babalarını Ədnana çatandan sonra Əbülbəşərə[5] (ə) qədər saymağa

---

[1] Həmra – qırmızı.
[2] Fərəs – at.
[3] Şat – qoyun.
[4] Nizar sözünün mənası zəif, gücsüzdür.
[5] Əbülbəşər – Adəm (ə).

icazə vermədi. İndi bu böyük nəslin gözəl xüsusiyyətlərini nəzərdən keçirək.

Bir alacəhrə ilə şahini doydurmaq olmaz,
Bunun çarəsikələk qurub bu yemi ona sırımaqdır.

Hər şeydən əvvəl bilməliyik ki, bu hörmətli nəslin ən yüksək (əvvəlinci) cəddi Mir Əbdülqəffardır (?). O, Əmir Teymur Gürganinin vaxtında İsfahan məmləkətindəki Mədinətüssadatdan (bunun adı Zəvarədir) Təbrizə gəlmişdi. Bu cəlalətli seyyid on səkkiz atanın vasitəsilə Həzrət Müctəbaya (ə) bağlıdır. Bir gözəl qız həmin seyyidə sidqi-ürəklə bənd olmuşdu və onun əcdadları ilə bir yerdə Sürxab qülləsinin altında Əmir Teymurun övladlarının məqbərəsində dəfn edilmişdi. Təbrizin Təbatəbai seyyidlərinin cəddi Mir Əbdülqəffarın oğlu Mir Əbdülvəhhab və Yusif şah bin Həsən padşahın cəddi Mir Əbdülvəhhabın oğlu Mir Əbdülbaqidir. Seyyid Həsən bəy həmin qızın oğludur.

*Mən deyirəm.* İndi Teymurilərin məqbərəsindən və Sürxab qalasından heç bir əsər-əlamət qalmayıb. Türkman padşahı Həsənin oğlan uşaqlarından Azərbaycanda heç kəsin qalmadığına görə Vəhhabiyyə seyyidləri Həsən padşahın vəqf edilmiş mülkünə varis olmaq iddiasında idilər. Mir Əbdülvəhhab hicrətin min iyirmi yeddinci ilində[1] Qəstəntinə şəhərində bu dünya ilə vidalaşmışdı. Xacə Məhəmməd ibn Həsən xan Sipahani[2] yazdığı "Tacüt-təvarix"də göstərir ki, Çaldıran döyüşündən sonra İran padşahı Sultan Səlim xanla sülh bağlamaq üçün addım ataraq səfirlərin dili ilə üzr istəmişdi. Təbrizin ən şərəfli seyyidlərindən və alimlərindən olan Mir Əbdülvəhhab, sahibi-havinin nəslindən olan İshaq adlı Qazı paşa, Mövlana Şükrüllah Muğani və Həmzə xəlifə böyük dəstə ilə gəldilər. Sultan Səlim o padşahın üzrxahlığını qəbul etməyib əzəmətli seyyidi və kəramətli qazını İstanbuldakı

[1] Miladi təqvimilə 1618
[2] Yəni İsfahani

Yeni Hisarda, onların yoldaşlarını isə Dimtuqə (?) qalasında dustaqxanaya atmışdı. İran şahının tələblərindən biri dava meydanında ələ keçmiş Taclı xanımın geri qaytarılması idi.

## Araşdırma

"Tarixi-cəhanara və aləmara"da[1] bu dastan barədə heç nəyin yazılmadığı məlumdur. O da belə olub ki, Çaldıran döyüşündə qüdrətli şahənşah Şah İsmayıl Bahadır xanı Sultan Səlimin üstünə göndərir və İran ordusu məğlubiyyətə uğrayır. Başıbağlılardan[2] bir neçə nəfər Osmanlı şahının əsiri olur. Onlardan biri Taclı xanım xilafət hərəmxanasının xidmətçilərindən idi. Şah onları xilas etmək üçün bu əzəmətli əmiri İstanbula göndərir. Həmin kişi orada tutulub ömrün sonunadək həbsdə qalır. Mən dəqiq araşdırma apardım və yəqinliklə yaza bilərəm ki, bu söz başdan-başa əfsanədən başqa bir şey deyil. Osmanlılar bunu İranın şirovlayan şahənşahının əleyhinə düşməncəsinə demişdilər və indi də həmin yalandan əl çəkmirlər. Məsələ ondadır ki, bu yaxınlarda İstanbulda bir müəllif osmanlı türkcəsində firəng tamaşaxanalarında səhnələşdirilən əsərlərə bənzər bir əfsanə yazmışdı. Əfsanənin sonu həmin dastanla bitir və bu başdan-ayağa uydurmadır. Ağlı başında olan adam üçün aydındır ki, Şah İsmayıl kimi hökmdar ömründə arvadı döyüş meydanına aparmazdı. İyirmi mindən az adamla iki yüz minlikdən də böyük orduya hücum edən bir kişi bu cür qınanılası işə yol verməzdi. Heç kimdən gizli deyil ki, Çaldıran döyüşündə İran ordusunun məğlub olmasından sonra kiçik bir dəstənin başında qalmış Şah İsmayıl öz atının cilovundan tutub mərəkədən çıxarılanadək meydandan ayrılmaq istəmirdi. Ağıllı adamlar nahaq yerə deməyiblər ki, "düşmənin ağzını yumdurmaq xəlbirlə su daşımaqdan da çətin işdir". Mən osmanlıların həmin dastan barədə kitablarda və əfsanələrdə dediklərini burada göstərirəm.

---

[1] Burada "Tarixi-aləmarayi-Şah İsmayıl" kitabının nəzərdə tutulması güman edilir.

[2] Yəni qadınlardan

## Tarixi-Sǝlaniki[1]

Mustafa Əfǝndi Sǝlaniki müxtǝsǝr tarix kitabını yazmışdır. Onun başlanğıcı Sultan Süleymanın dövründǝ hicrǝtin doqquz yüz yetmiş birinci ilin mǝhǝrrǝmül-haramın axırıncı gününǝ[2], sonu isǝ Sultan Murad xanın vaxtında min birinci ilin rǝbiül-axirin sǝkkizinǝ[3] tǝsadüf edir. Doqquz yüz yetmiş beşinci[4] ildǝ baş vermiş hadisǝlǝrdǝn o yazır, mǝn dǝ türkcǝdǝn farscaya çevirirǝm.

Sǝlaniki deyir ki, sultan köhnǝ adǝt üzrǝ Ədirnǝ darüssǝltǝnǝsinǝ* baş çǝkmişdir. Bu zaman xǝbǝr gǝtirirlǝr ki, İrǝvan vǝ Naxçıvan hakimi Şahqulu xan şǝrq hökmdarı Şah Tǝhmasib tǝrǝfindǝn sǝfirlik tapşırığını alıb gǝlir. Padşah onların Ədirnǝyǝ gǝlmǝlǝrini istǝyir. Sǝfir min nǝfǝr atlı qızılbaşla Ədirnǝyǝ yetişir. Cǝsur vǝ şücaǝtli kişi olan Rumelinin bǝylǝrbǝyi Şǝmsi Əhmǝd paşa padşahın hökmü ilǝ onları qarşılamağa çıxır. Osmanlı ǝsgǝrlǝri ǝli silahlı vǝ tam hazır durumda yolun hǝr iki tǝrǝfindǝ sıralara düzülürlǝr. Sǝfir ordunu bǝyǝnib Əhmǝd paşaya tǝriflǝyici sözlǝr söylǝyir. Əhmǝd paşa birdǝn deyir: “Bu hǝmin ordudur ki, Çaldıran döyüşündǝ Taclı xanımı ǝsir almışdı”. Sǝlaniki bu yerdǝ uzunçuluq edib açıq-açığına iranlıları dinsizlǝrǝ qatır vǝ adlarını “mülhidlǝr”[5] qoyur, sonra da Osmanlı sultanın hǝşǝmǝtindǝn vǝ ordusunun ǝzǝmǝtindǝn, elǝcǝ dǝ Qǝstǝntiniyyǝnin gözǝlliyindǝn yazır. Onun iranlıların ünvanına belǝ kobud vǝ ǝdǝbsiz sözlǝri tǝkcǝ bu fǝsildǝ deyil, bütün kitab boyu gözǝ çarpmaqdadır. Əlbǝttǝ, bu cür üzdǝniraq işlǝr bir tarixçiyǝ yaraşmaz.

## Xacǝnin tarixi haqqında

“Tacüt-tǝvarix” kitabının müǝllifi Şeyxülislam Xacǝ Mǝhǝmmǝd Sǝid bin Hafiz Hǝsǝncan İsfahani hicrǝtin ... [yazılmayıb] ilinǝ aid

---

[1] Sǝlaniki (Saloniki) – vaxtilǝ Osmanlı dövlǝtinin tǝrkibindǝ olmuş, lakin hal-hazırda Yunanıstana mǝxsus şǝhǝrdir.
[2] Miladi tǝqvimilǝ 11 yanvar 1593
[3] Miladi tǝqvimilǝ 18 sentyabr 1563
[4] Miladi tǝqvimilǝ 1567/68
[5] Mülhid – Allahsız, dinsiz.

hadisələrdə Çaldıran davası haqqında yazır və mən onun tərcüməsini burada gətirirəm. Xacə deyir: – Bu döyüşdə Şah İsmayılın yanında şərəfli yer tutmuş və bütün olayları öz gözü ilə müşahidə etmiş babam Hafiz Məhəmməd İsfahani atama söyləmişdi ki, "Mən şahın hərb əhlindən olmayan bir dəstə yaxın adamları ilə döyüş meydanından bir qədər yuxarıda yerləşən təpəcikdə dayanıb hadisələri izləyirdik. İşin sonunda İran ordusu yenildi və biz şahın əsir düşdüyünü güman etdik. Günəşin batmasına yaxın biz fürsət tapıb Təbrizə tərəf qaçdıq. Gecənin qaranlığında qızılbaşlar qoşunundan bir dəstə adamla rastlaşdıq. Şahı soruşduq. Dedilər ki, onlarladır, yaralanıbdır. Sonra onlar soruşdular: – Taclı xanımdan xəbəriniz varmı? Dedim: – Yox. Halvaçı oğlu adı ilə məşhur Hüseyn bəy gəldi. Ona padşah haqqında sual verdik. Dedi: – Yaralıdır və Taclı xanımın itməsindən bərk həyəcanlıdır. Bizə onu tapmağı əmr etdi. Biz gedib Təbrizə pənah apardıq. Orada eşitdik ki, o itən döyüş zamanı Məsih paşanın oğlu tərəfindən əsir alınmış, yalvar-yaxa və bahalı daş-qaşla onun başını aldadıb qurtulmuş və sonda Xoya gəlmişdir. [Xacə] Yenə deyir: – Taclı xanım şahın zövcəsi olmasa da, onun sevgililərindən idi və şahın sülh təklifi ilə elçi göndərərkən səfirin dili ilə onu da tələb etməsi buna bir işarədir. [Xacə] Yenə deyir: – Sultan bu qadının məsələsinə görə alimlərə müraciət etdi. Qazı Əsgər Tacizadə Cəfər Çələbi istədi. Sultan verdi və [Qazı] o arvadı evlənmək şərti ilə öz sarayına apardı.

Yenə atası Həsəncan Hafiz İsfahanidən rəvayət edir ki: – Sultan Süleymanın dövründə sədri-ə'zəm* İbrahim paşa sultanın hüzurunda üzünü mənə çevirib dedi: – Sultan Qazı bəzi məsələlərə görə öz böyük atasına etiraz etmişdi. Sən ki onun sirdaşı idin, bəlkə həmin bizə yaxşı bəlli olmayan məsələləri sən bilirsən? Sultan buyurdu: – Mənə öz atama qarşı çıxmaq yaraşmaz. Sənin etiraz etdiyin nəyin varsa, soruş. İbrahim paşa dedi: –

**Birinci**

Heç hökmranlıq və sultanlıq qanunlarına görə xəbər gətirəni düşməncəsinə sıxışdırıb məzəmmət etməyə icazə verilirmi?

Mərhum sultan hansı dəlillə İran padşahının elçisinin əllərini bağlayıb indiyə qədər dustaq qaldığı Həftqülləyə göndərmişdi? Özü də seyyid və zadəgan nəsildən olan Mir Əbdülvəhhab kimi birisini. Mən cavabında dedim: – Sultan Səlim üçün İranı fəth etmək vacib idi. O, həmin Çaldıran döyüşündə məğlub olmağın acısının İran şahının yaddaşında qalacağını bilirdi. Əgər bir də bu ölkəyə qoşun yeritsəydi, o padşah daha üz-üzə döyüşə çıxmazdı, vaxtı uzadıb qarətçiliyə əl atardı. O, Çaldıran davasından sonra demişdi: – Mən Şah İsmayılın qəm-qüssədən ölmədiyinə heyrətlənirəm. Onun Həsən bəy Türkman kimi qeyrəti çatmadı ki, məğlubiyyətdən sonra çox [bu dünyada] qalmasın. Bu İran padşahının darmadağın olandan sonra başı eyş-işrətdən açılmır. Səfiri ona görə dustaq etdilər ki, bəlkə Şah İsmayılın namus və böyüklük damarı tərpənər və o, cərgələrə düzülüb davaya çıxar. Digər tərəfdən isə, bu seyyid əsilli səfir qızılbaş mülhidlərinin şüarı ilə Osmanlı sarayına gəldi. Padşahın acığı tutdu, çünki Rəsulullahın ailəsindən olana belə hərəkət yaraşmaz.

## İkinci

Baş vəzir dedi: – Heç padşahın hərəminin izzətinə və paklığına təcavüz etmək sultanların namusuna yaraşarmı? O günahları bağışlanmış padşah döyüşdə ələ keçən və özünün İran padşahı hərəmxanasının yaxın adamlarından olduğunu iddia edən qadını birisinə ərə verdi. Mən dedim: – Bu iş qanuna uyğundur. Qazı Əsgər dedi ki, iranlıların qadınları halaldır və özü həmin itən arvadı öz sarayına aparıb onunla evləndi. Bu işdə padşanın nə günahı var?

## Üçüncü

Dedi: – Tacirlərin nə günahı var idi ki, onların mallarını müsadirə etməyə fərman vermişdi? Dedim: – Tacirlər hərbi sursatı, gümüşü və dəmiri Əcəm ölkəsinə aparırdılar. Belə ticarətin yolunu kəsmək vacib idi, çünki İranın özündə gümüş və dəmir

mədənləri yoxdur və rəiyyətlərdən yığılan xəracdan başqa dövlətin xəzinəsinə heç nə daxil edilmir. O, bu işi onların qüvvəsini zəiflətmək üçün görmüdü. O mala xəzinənin möhürü vurulmuşdu ki, istədikləri vaxtda sahiblərinə qaytarılsın.

## Qeyd

Tarixin ayına və ilinə gəldikdə, mən bu nəslin ulu babasının İsfahanın Zəvarəsinə hansı gündə gəldiyini göstərə bilmərəm. Sözsüz ki, ancaq rəvayətlərə, təxminlərə və elmi mülahizələrə əsaslanıb deyirəm ki, Bu Talib ailəsinin (ə) can düşməni olmuş Mütəvəkkilin[1] xilafəti dövründə bu ailə çarəsiz qalmışdı və həmin Təbatəbai seyyidlərinin babaları Zəvarəyə pənah gətirdilər. Bu kəndin sakinlərinin hamısı yəhudilər imiş. İndi fikir ver ki, o məzlum müsəlmanlara hörmət etsəydi, ömründə yəhudilərə qonşu olmazdı. Onlar orada qalıb çoxaldılar. Tayı-bərabəri olmayan vəzir Rəşidəddinin ələvilərin israililərlə bir kənddə yaşadıqlarından xoşu gəlmədiyinə görə o, oranı yəhudilərdən satın aldı və yaxud bu işi əvəzolunmaz böyük həkim Xacə Nəsirəddin Tusi gördü. Növbə Xacə Rəşidə çatanda isə o, qızıl verib həmin kəndi yəhudilərdən aldı və bu seyyidlərə vəqf etdi. Bu sözü mən ayrı-ayrı dillərdən eşitmişəm, söyləyənlərin çox olduğuna görə yazdım. İndi Zəvariq kəndi Təbatəbailər nəslinə məxsus bir mülkdür. Hər neçə ildən bir o kənddən bir nəfər Təbrizə gələr və həmin mülkün icarə haqqını ödəyər ki, oranın istifadəsi halal olsun.

---

[1] Mütəvəkkil – 847-861-ci illərdə xilafətin başında olmuş şəxs.

## Təbrizin uzunluq və en dairələri haqqında

Əbu Səidin fikrincə Təbrizin uzunluq dairəsi yetmiş üç dərəcə və dərəcənin altıda biri, en dairəsi isə otuz yeddi dərəcə yarımdır. Nəvvab Mötəmədüddövlə Fərhad Mirzə "Cami-cəm"də Təbrizin uzunlu dairəsini qırx altı dərəcə və iyirmi beş dəqiqəyə, en dairəsini isə otuz səkkiz dərəcə və iki dəqiqəyə bərabər olduğunu bildirir. London rəsədxanası uzunluq dairəsini şərqə, en dairəsini isə şimala aid edir. "Miratül-büldan"ın müəllifi Nasiri bu şəhərin uzunluq dairəsini şərq uzunluq dairəsinin qırx dörd dərəcə və on iki dəqiqəsində, en dairəsini isə şimal en dairəsinin otuz səkkiz dərəcə və beş dəqiqəsində olduğunu göstərir.

### Hacı Fərhad Mirzə Mötəmədüddövlə

Naibüssəltənənin on beşinci oğlu, qılınc və qələm sahibidir. Müxtəlif elmlərdə öz sözünü demişdir. Sabiq padşahın hökmranlığının əvvəllərində daim böyük və əvəzsiz xidmətlər göstərmiş, Qəz* və Herat hadisələri zamanında paytaxtda naibüssəltənə, ardınca Fars əyalətinin canişini olmuş, ondan sonra isə qələt edib ingilis dövlətinə pənah aparmışdı. Uzun illər saraydan uzaq düşmüş, padşahın hökmü ilə Qəzvinin Taliqanında sakin olmuşdur. Orada onda dəlilik əlamətləri müşahidə olunmağa başlamışdı. O enişdən sonra ayağa qalxmağı bacardı, xarici dövlətlə əlaqələrini kəsdi və Ərdəlanın başçısı vəzifəsini tutdu. Bu yerdə yaddaqalan işlər görmüş, keçilməz dağlıq məkanı olan Uramanı fəth etmiş və oranın xalqını qovub pərakəndə halına salmışdı. O zaman padşah Firəngistana səfərə getmişdi və şahzadə İranda hakimiyyət başında onu əvəz edirdi. Padşah taxta çıxan kimi onu Farsın başçısı təyin etmişdi. O, həmin məmləkətə gedib bir hissəsini dağ təşkil edən Təbərrük qalasını ələ keçirtdi. O qalanın Fəzləli adlı kutvalı[1] bədbəxt

---

[1] Kutval – qalabəyi.

oldu, döyüşdə hücum vaxtı öldürüldü. İndi o kişi vəzifədən çıxıb sərvət və sevinc içində asudə günlərini keçirir.

O şahzadənin əsərlərinin içində “Cami-cəm” və həccə getdiyi zaman qələmə aldığı “Səfərnameyi-Kə‘bə”[1] var. Mən onu görmüşəm, faydalı kitabdır. Eşitmişəm ki, məhkəmə işindən qaçmışdı. Bəlkə də bizim çağda həmin işə görə cəza düşmür. Necə ki, mən iyirmi beş yaşımda dövlət qulluğuna can atırdım və istər böyük, istər kiçik yerdə xidmət etməyə hazır idim. Böyük Yaradanın (ə. və c.) istəyi ilə heç əliəyriliyə yol verməzdim. Xəracı elə yığardım ki, həm məmləkət abadlaşsın, həm rəiyyət razı qalsın. Bunların hamısı min iki yüz doxsan doqquzuncu ildə[2] alt-üst oldu. Məni bir başkəsən kimi dustaqxanaya atdılar. Heç kim soruşmadı ki, bu ağsaqqalın günahı nədir. Ancaq bu başqa bir dastanın mövzusudur və bu barədə  ayrı fəsildə ətraflı deyilməlidir.

Kaş ki, fəzilət və elm sahibi olmuş o şahzadəmiz özünün minnəfərlik nəsli ilə burada olaydı. Onun ailəsi həqiqətən böyük zinət idi, dinimizin və ayinimizin gücü idi. Əfsuslar olsun ki, indi din əldən gedib, heç adı da qalmayıb. Şəriətin ağıldan kəm düşmənləri bizi lağa qoydular ki, bu ərəb dilinin qaydaları nəyə gərəkdir, indi dünyada bu dilə daha ehtiyac qalmayıb, ona görə də öz dəyərli ömrünü ərəb dilini öyrənmək üçün sərf etməyə dəyməz. O zaman həmin cahillər bizi ovsunlayıb aldatdılar ki, guya Qur’anın özü Mühəmmədin (s) Şama gedəndə rahiblərin və bilicilərin dilindən eşitdiyi Tövratdan və İncildən yığdığı bir divandır.

Sonra dedilər ki, şərab haradan haram və nəcis oldu? O, ruhun fərəhləndiricisidir. Behişt haradadır, cəhənnəm nədir? Ağlı başında olan adam əlindəki nağd neməti nisyə vədə satmaz.

Onlar xalqı yoldan çıxardan həmin şeytanlar idi. Bizim məmləkətdəki kitablar indi Firəngistanın şəhərlərindədir. Bizim

---

[1] Bax: Fərhad Mirzə Qacar. “Səfərnamə”. Fars dilindən tərcümə edən Tahirə Həsənzadə. Bakı. “Elm və Təhsil”, 2017.

[2] Miladi təqvimilə 1882

nadanlarımıza nəsihət verən, dinimizin düzlüyünü göstərən və rəqibə deyən olmadı ki: "Biz bu sözləri və çəkişmələri bir yana qoyub tam əminliklə sənə deyirik ki, bu, Mühəmməd (s) ibn Abdullahın qoyduğu qanundur. Heç bundan yaxşı qanun ola bilərmi? İffət ilə dəyanət ilə sədaqəti buyurdu, səxavət ilə şücaət ilə qənaət ilə həsənatı təriflədi, rəhmli, mərhəmətli, həyalı və səbirli olmağı əmr etdi".

Bu sifətlə dörd minillik Əcəm səltənətinə qalib gəldilər və Afrika ilə İspaniya Fransa torpağına qədər atlı islam qoşunlarının ayaqları altında titrədi. Bizim millətimiz heç vaxt ayıla bilməyəcək yuxuya qərq olub, çünki düşmənlər şəriəti xarab etmək üçün elə bir tədbir görüblər ki, iş əldən gedib. Bu da belə oldu ki, Əhmədi ayinləri birdəfəlik yaddan çıxdı, dini ələviyə və öməriyə böldülər və bu böyük milləti çaşdırdılar. Hanı bunlara islam qüdrəti ilə xatırladan ki, sizin Əli və Ömərlə işiniz olmasın, onların hər birisi həqiqi xəlifədir, biz də bu şəriətin sahibinə qulaq asmalı, onun bayrağını başımızın üstündə yüksəltməli, islam kəlməsini uca tutmalı və, nəhayət, bu söz-söhbətə son qoyub Allaha pənah aparmalıyıq.

Bu məlikzadənin təvəllüdü hicrətin min iki yüz otuz üçüncü ilinə[1] təsadüf edir və [o, min] üç yüz beşinci ildə[2] bu dünyadan köçmüşdür.

## Qeyd

Bu gün məhərrəmül-haramın yeddisi, çərşənbə axşamıdır. Rəsulun hicrətindən şəmsi ilə min iki yüz altmış ikinci, qəməri ilə mindən sonra üç yüz ikinci, miladi təqvimilə min səkkiz yüz səksən dördüncü ildir. Mən təkrar bu fəslə nəzər saldım. Bizim əsrdə özlərini müsəlman adlandıran tayfa isəvilərin[3] uydurduqları bu cəfəngiyyatı öz xalqına deyirlər, əsərlərində yazırlar

[1] Miladi təqvimilə 1818/19
[2] Miladi təqvimilə 1887/88
[3] İsəvi – xaçpərəst, İsa peyğəmbərin davamçısı.

və o sözlərin adını əhli-beytin (ə) fəzilətləri qoyurlar. Allahın bəndələri bu söhbətlərdən beziblər. Onlar hələ öz əsassız sözlərini tanınmış alimin və hörmətli zahidin adından deməklə o gözəl insanın ruhunu narahat edirlər, çünki həmişə düz yolla getmiş o ağsaqqalın bu etiqaddan əsla xəbəri yox imiş. Qoy indi o alimin əsərlərinə baxsınlar. Günah bu başbilənlərimizdədir ki, uzun illər islam imamlarının mərtəbələri gizli qalmış və Allahın seçdiyi həmin insanların fəzilətləri tərk edilmişdir. Bizim alimlərimizin izzətli şəriət qanunlarını öyrənməklə işləri olmamışdı. O gözəl insan bu barədə əzəldən demiş və müsəlman millətinə minnət qoymuşdu. O, açıq-aydın demişdi ki, əvvəl şəriətin sahibini tanımaq lazımdır. Ardınca onun tələblərini bilməliyik ki, buyuruqlarını yerinə yetirək.

Mən burada həmin fikrmi bitirib itaətsiz nəfsin vəsvəsələrindən Allaha sığınıram ki, düşmənlərimiz dillərini bizə uzatmasınlar və bizim sözümüzü kəsməsinlər. Etiqadı pak olan bu şahzadə ahıl çağında onun dindarlığına dəlalət edən bir yadigar qoymuşdur. Kazimeynin (ə) qübbələri əsrlər keçdikcə öz parlaqlıqlarını itirmiş və sütunlarında xələllər üzə çıxmışdır. O, öz qızılından bunların təmirinə buyurmuşdur. İndi həmin pak məzarlıq başdan-başa abad və yaraşıqlıdır. Belə eşitmişəm ki, bu işə yüz min tümənə yaxın sərf olunub. Şübhəsiz ki, bu əməlin əcri hər iki çahanda hazırdır.

# Qədim və yeni binalar haqqında

Təbrizdə uzaq əsrləri xatırladan könnə binalardan qalmamışdır, çünki dəhşətli zəlzələlər bu nəhəng şəhəri dəfələrlə alt-üst etmişdir. Fəzilət sahibi Mirzə Abdullah Təsuci məşhur əmir Hüseynqulu xan Dünbüliyə həsr edilmiş "Riyazül-cənnə" adı altında topladığı məcmuəsinin bu mövzuya aid yerində yazır ki, min yüz doxsan dördüncü ildə[1] baş vermiş son dağıntı zamanı yarım zər'* hündürlüyündə divardan da bir şey qalmamışdı. O, üç söz yadigar qoymuşdu və hər üçün tarixi əhəmiyyəti vardır.

### Birinci

Bu zəlzələ birincidən güclü olub.

### İkinci

Bəli, zəlzələ güclü olub.

### Üçüncü

Zəlzələnin nəticəsində [şəhər] dağıldı.

O, həmçinin yazmışdı ki, uzun müddət hər gün qırx dəfə yer titrəyirdi və on iki il onun davamı duyulurdu. Burada mən bir nəsihətamiz hekayət gətirirəm.

### Hekayət

Bilən adamlar belə söyləyirlər ki, Nəcəfqulu xan Fəzləli Ağa adlı bəylərbəyin oğlu olub. Üzü günəş kimi, saçları kəmənd kimi. Danışanda dilindən şəkər yağardı, bir baxışla zahidlərin könüllərini alardı. Xətti çox gözəl idi, çünki onun ustadı şi-

---

[1] Miladi təqvimilə 1780

kəstənin[1] birinci müəllimi Əbdülməcid Dərviş onu bu xəttə bənd etmişdi. Yer hərəkətə gələndə o, öz sarayında idi və bir qulluqçusu qapının ağzında xidmətində durmuşdu. Binalar dağılan zaman buralar da uçmuşdu. Sağ qalan fərraşlarla Həşəm xan o cavan oğlanın yataq otağında xarabalıqları təmizlədilər, ancaq ondan bir əsər-əlamət üzə çıxmadı. Sarayın qulluqçusu diri idi. Ondan soruşdular: –Ağa necə oldu? Dedi: – Yer tərpəndi və mən bircə onu gördüm ki, ağa sarayın həyətinə keçdi. Nə qədər axtarsalar və uçuqları təmizləsələr də, bir fayda vermədi. Birdən həyətdəki ovdanın yanında torpaq qalağını gördülər. O torpağı kənara atandan sonra altından o cavanın cəsədi göründü. O, qaçarkən zəlzələnin yerdən oynatdığı torpaq kütləsi arxadan ona çatıb həmişəlik ağuşuna aldı. Allah ona rəhmət eləsin!

İndi isə söhbətin başına qayıdıram. Yerdə əlamətləri qalan uca şahanə binalrdan biri Qara Yusifin oğlu Cahanşahın İraq yolunda tikdirdiyi möhtəşəm sənət əsəridir. Yerli camaat ona tərcüməsi "məscede-kəbud" olan Göy məscid adını qoyublar və Cahanşah məscidi də deyərlər. Onun hüdudlarını göstərərək divarlarındakı daşları vəsf etməklə bu məbədin dəyərini anlatmaq üçün böyük zəhmət tələb olunur. Mənim Mürtəza Mirzə adlı bir əmioğlum vardır. Bu mülayim xasiyyətli, zirək və zəhmətkeş gənc oğlan həmin yer barədə olduqca gözəl şeylər yazmışdı. Mən onun sözlərini burada gətirirəm ki, adını çəkdiyim bilik sahibindən yadigar qalsın.

## Cahanşah məscidinin təsviri

Cahanşah Göy məscid binasının təsvirini edən şəxs özünə müftə zəhmət vermiş olur, çünki onun hətta bir zər'ini belə lazım olan kimi göstərmək öhdəsindən gələ bilməz. Lakin burada o binanın tam təsviri verilməsə də, min üç yüz birinci il[2]

---

[1] Şikəstə – İranda geniş yayılmış xətt növü. Əbdülməcid Dərviş onun ən mahir ustası sayılır.

[2] Miladi təqvimilə 1884\85

tarixindəki müxtəsər təsviri diqqətə çatdırılır. Birincisi, min heyf və əfsuslar olsun ki, sözün əsl mənasında İranda tayı-bərabəri olmayan belə bina bu cür xarab və viran olmuşdur, yerdə qalan kiçik hissə də qısa vaxt ərzində tamamən dağılacaq və ondan bir əsər-əlamət də qalmayacaqdır. Zaman keçəcək və zamanın gözü onu görməyəcək.

Bu binadakı ön tağın hündürlüyü on beş Təbriz zər'inə* bərabərdir. Tağın eni yeddi zər'dən bir çarək[1] əskikdir. Tağın ön kölgəliyi beş pillədir və hər pillənin hündürlüyü bir zər'dən bir çarək əskikdir. Kölgəliyin məscidin qapısına qədərki uzunluğu dörd zər' yarımdır. Məscidin tağındakı qapının eni üç zər' yarımdır. Bu məscidin mərmərdən olan döşəməsinin məscid qapısının ağzından məscid tağınadək uzunluğu iyirmi dörd zər'dir. Məscidin eni iyirmi bir zər' yarımdır. Məscidin üstünü əhatə edən və kaşı ilə örtülmüş günbəzin dairəsi əlli beş zər'dir. Məscidin divarları yerdən bir zər'* yarım yuxarıdır. Divarlar firuzə rəngli kaşı ilə örtülmüş və bu kaşının arası həsir şəklində qara və sarı kaşı ilə işlənmişdir. Bu kaşının üstündə yarım zər'lik* haşiyə vardır. Haşiyənin dörd barmaq qalınlığında zolağı göy kaşı ilə işlənmişdir. Bu kaşının arası budaq, yarpaq, gül və buta şəklində ağ, sarı, firuzeyi, qara və boz kaşı ilə bəzədilmişdir. Bu kaşıların bir-birinə bitişən yerləri xüsusi tərzdə işlənmişdir. Həmin haşıyənin üstündə eni zər'in* dörddə birinə bərabər başqa haşiyə yer alır. Bu haşıyənin mətni də göy kaşı ilə işlənmişdir. Həmin kaşının ortasında ağ kaşı ilə bir barmaq qalınlığında çox gözəl süls xətti ilə Qur'anın mübarək surələri yazılmışdır. Məscidin bütün yanları həmin tərzdə və eyni ölçüdə kaşı ilə örtülmüşdür. Yazılar kaşının üzərində o cürdür ki, məscidin hər yerində ölçüləri və işləmə üslubu eynilik təşkil etməkdədir. Hətta pərgarı qoyub yoxlasalar belə, sözlər bir tük qədər də bir-birindən artıq ya əskik olmaz. Divarlardan birinin haşiyəsində həmin kaşı üzərində mübarək Həmd surəsi və fasiləsiz ***Bismillahir-rəhmanir-rəhim*** gözəl süls xətti ilə yazıl-

[1] Çarək – dörddə bir hissə.

mışdır. Həmd surəsi bitəndən sonra haşiyənin qalan hissəsində bu kəramətli ayə kaşı üzərində işlənmişdir: ***Əlhəmdülillahil-ləzi xələqəs-səməvati vəl-ərdə və cə'ələz-zülümati vən-nurə vəl-ləzinə kəfəru***[1] ... ta axıra kimi. Haşiyənin və mətnin üstündə divar iki zər'* yarım hündürlüyündə öz rəngində olan hamarlanmış kərpiclə işlənmiş və kərpicin özündən türənclərlə Rum bəndləri[2] çox gözəl tərzdə yerləşdirilmişdir. Kərpicləri bir-birinə bitişdirərkən hələ kərpicqoyma işinin ibtidai çağında işlənmiş gəclə kifayətlənmişdilər, yəni kərpicarası tikişlər ikinci dəfə örtülməmişdi, lakin kərpiclər bir-birinə o qədər düz, dəqiq və kip yerləşdirilmişdi ki, tikişləri müayinə edərkən orada əridilmiş qurquşunun və dəmirin çəkildiyi təsəvvürü yaranır. Bir kərpic digərindən bir qıl qədər aşağı ya yuxarı qoyulmamış və tikişlər aralanmamışdır. Divarla kərpiclərin arası hər tərəfi yarım zər'ə* bərabər olan altıtərəfli türənc şəklində dördrəngli kaşı ilə işlənmişdir. Bu türənclər bütün məsciddə ikinci dəfə bir barmaq qalınlığında firuzə rəngli kaşı ilə işlənmişdir. Türəncdəki mətn göy kaşıdan, budaq, yarpaq, gül və buta isə qara, sarı, ağ və yaşıl kaşıdan düzəldilmişdir. Həmin rəngbərəng kaşılar o cür ustalıqla gül şəklində işlənmişdir ki, ilk baxışda bir qayda olaraq Firəngistanın müxtəlif rəngli gülün, yarpağın və budağın bir-birinə qovuşdurulduğu nəfis nəqqaşlığını xatırladır. Gül yarpaqlarının surəti hər yerdə eyni tərzdə və eyni ölçüdə elə çəkilmişdir ki, insan ağlı bu sənətkarlığın qarşısında mat-məəttəl qalır. Tağa yaxın yerləşən türənclərin üstündə və bütün məscid boyu göy kaşıdan yarım zər'* ölçüdə haşiyələr düzəldilmişdir. Bu haşiyələrin ortasında bütövlükdə özünün təbii rəngində olan kərpiclə xətləri iki barmaq enində çox nəfis süls xətti ilə Qur'ani-həmidin surələri yazılmışdır. Adamların daxil olduqları məscidin birinci yarısındakı divarlarda haşiyələrdən yuxarı hər yerdə lövhələrin ortasında göy və ağ kaşılarla əsmaüllah[3] yazılıbdır. Bu mübarək

---

[1] Ən'am. 1
[2] Türənc və Rum bəndi – naxış növləri.
[3] Əsmaüllah – Allahın adları.

adlar tağda və bir çox divarlarda haşiyədən yuxarı göy kaşıdan düzəldilmiş lövhələrin ortasında ağ kaşılarla təkrar-təkrar yazılıblar: ***Ya Vitr***, ***Ya Daim***, ***Ya Fərd***. Məscidin birinci yarısında bir çox əsmaüllah tağlarda kaşılarla yazılıbdır. Bir tağdakı haşiyənin üstündə göy kaşıdan üzərində müxtəlif güllər və butalar çəkilmiş dördbucaq və üçbucaq şəklində lövhələr düzəldilmişdir. Bu mübarək adlar lövhələrin ortasında ağ kaşı ilə işlənmişdir: ***Ya Şəkur, Ya Mərhub, Ya Mədlul, Ya Mərğub.*** Məscidin mərmərlə örtülmüş son hissəsində olan divarların tağlarındakı tərəflərin yarısında haşiyələrdən yuxarı cürbəcür və rəngbərəng kaşılarla işlənmiş qəribə və əcayib lövhələr yerləşir. Lövhələrdəki ümumi mətn göy rəngdədir, əsmaüllah isə sarı kaşı ilə lövhələr üzərində süls xətti ilə yazılıbdır: ***Ya Əhəd, Ya Səməd, Ya Rəhim, Ya Əziz, Ya Xəllaq, Ya Vəhhab, Ya Saqi, Ya Kafi, Ya Baqi, Ya Mücib, Ya Qərib, Ya Bəvvab.*** Məscidin daxilindəki dərgahın önündə, sol tərəfdə, tağın divarında üç zər'* yarım hündürlüyündə qara kaşıdan uzunluğu yarım zər'* olan lövhələr qoyulmuşdur və onların ortasında kərpicin öz rəngində kərpicdən iki barmaqdan enli süls xətti ilə bu misra çəkilmişdir:

Kerdar beyaro gerde-goftar məgərd[1]

Sağ tərəfdə isə həmin hündürlükdə və eyni üslubda ikinci misra yazılmışdır:

Çun kərde şəvəd kar, beguyənd ke kərd.[2]

Bütün divarlarda, eləcə dəindiki çağda "dərəfsar" deyilən haşiyələrin üstündə tirlərlə çərçivələr ud ağacından düzəldilmişdir. Bir-iki yerdə haşiyələrdən iki zər'* yuxarı ki, "dərəfsar" yeridir, dördbucaqlı şəkildə taxtalar qalmışdır və onların hər yanı bir çarək qalınlığında və iki zər'* uzunluğundadır. İndi

---

[1] İşini ortaya qoy və əyri-üyrü danışma
[2] İş görüləndən sonra "bunu etdi" deyərlər.

kimsə qələm bıçağını taxtaya vursa, fil dişi və şirmayı səsi gələr və elə yonulmuşdur ki, onda əsla heç bir eybi ya çürüyü görünməz. Günbəzin iki tərəfində işlənmiş tirlərin üstü görünür və əksəriyyəti uçub. Onların bir zər'* yarımlıq boş qalmış yerləri gəclə kərpiclərin arasında görünür. Məscid tağının əvvəlindəki mehrab kimi tikilmiş giriş tağı on beş zər'* hündürlüyündədir və onun ortasında üç barmaq enində əla süls xətti ilə göy haşiyənin içində ağ kaşı ilə bütün tağ boyu sultanın adı yazılmışdır. Hələ iki il bundan qabaq sultanın Cahanşah olanadı yerində qalırdı, lakin hal-hazırda tökülüb və yalnız Yusif şahın (Allah onun var-dövlətini qorusun!) adı qalmışdır. Həmin tağın üstündə ağ kaşı ilə göy kaşının üzərində kufi xətti ilə bir neçə sətir yazılıb ki, sanki əsmaüllahdır. Onun üstündə göy kaşının üzərində ağ kaşı ilə müxtəlif növ lövhələr, Rum bəndləri və türənclər işlənmiş və əsmaüllah çəkilmişdir. Tağın sonunda həmin qaydada kaşı ilə ***Ya Miftahül-əbvab*** yazılmışdır. Hündürlüyü on beş zər'* olan bu tağın ağzı yerdən yuxarıyadək ilanvari şəkildə göy kaşı ilə işlənmişdir və hər qıvrımtısında ağ kaşı ilə əsmaüllah yazılmışdır. Mənim dediyim və yazdığım bu ustalıq nümunəsinin min mində biridir, çünki bu binanı olduğu kimi təsvir etmək mümkün deyil. Əfsuslar olsun ki, bu şərafətli bina dağılmış və hər şey həlak olmuşdur. "Küllü şey'in halikün illa vəchəhü"[1].

Çahanşah məscidinin son tağı altından keçib məscidin axır hissəsində tikilmiş mərmər məscidə daxil olursan. Bu tağın eni üç zər'* yarım, mərmər məscidindəki döşəmənin uzunluğu mehrabadək on beş Təbriz zər'i, eni isə on dörd zər'dir və məscidin üstündəki günbəzin dairəsi əlli bir zər'dir. Məscid başdan-başa mərmərdən tikilmiş, mərmərin üstü isə firəng minasının üzünü qızardan birrəngli göy kaşı ilə örtülmüşdür. Kaşılar aralarında üç barmaqlıq məsafəsi olan beştərəfli kərpiclər şəklində düzəldilmişdir və kaşının üzərində qızıl su ilə güllər və naxışlar çəkilmişdir. Bu füsunkar binanın ətrafında minlərlə mərmərdən başqa heç nə qalmamışdır, hər şey tamamilə dağılıb məhv olmuşdur.

[1] Onun zatından başqa hər şey həlak olandır. Qəsəs. 88

Yalnız böyük Göy Cahanşah məscidinə daxil olan bir məsciddən tağın bir parçası qalmaqdadır.Bütün məscid boyu qoyulmuş kürsülük qeyd olunduğu kimi mərmərdəndir və mehrabın mərmərindən savayı iyirmi dörd mərmər parçası ilə bəzədilmişdir. Bütün bu mərmərlərin hündürlüyü iki zər’dən bir çarək əskikdir. Mərmərlərin üstündə surəti və ölçüsü eyni olan bir çarək haşiyə və lövhə yer alır və mükəmməl qələmlə əla süls xətti ilə Kitabi-kərimdən surələr təkrarolunmaz tərzdə həkk edilib. Bu yazılarda istər xətt, istərsə də naxış baxımından heç bir eybə və nöqsana rast gəlməzsən və mərmərlərin özləri də elə saf, şəffaf və qüsursuzdurlar ki, üstündən uzun zaman keçsə də, ayna kimi saf və parlaq və dənizin üzü kimi dalğalıdırlar.

Yazdığımız bu tarixdə ki, Nəbiyyi-ərəbi və Rəsuli-mədəni (sələvatüllahi əleyhi və alihit-təyyibinət-tahirin) hicrətinin min üç yüz birinci ilidir[1], dediyimiz iyirmi dörd mərmər parçasından on üçü qalır və özünə mənsub yer almaqdadır, qalanları isə torpağın altındadır. Yerə düşən o sökülmüş mərmərlərin əksəriyyətinin guşə-kənarları torpağın altından görünməkdədir və mehraba aid olan mərmərin sağ tərəfindəki bir mərmər uzunluq və özünəməxsusluğuna görə başqalarından fərqlənərək daş-qaşla bəzədilmiş hind qılıncına bənzəyir. Onun uzunluğu üç Təbriz zər’idir, eni isə yarım zər’ə yaxındır. Bu mərmərin haşiyəsinin lövhəsində aydın oxunan süls xətti ilə mübarək surə həkk olunmuşdur. Qalan mərmərlərin uzunluğu müxtəlifdir: iki zər’*, bir zər‘ yarım və o cümlədən iki zər‘ və bir çarək. Ancaq hamısı pak, saf və eyibsizdir. Mehrabdakı mərmərin düz ortadan, yəni mehrab tağının həqiqi mərkəzindən çatlamışdır. Bu mərmərin ümumi uzunluğu iki zər‘ə bərabərdir. Onun mehrabın altındakı torpağa düşmüş yarısının yonulmuş mərmər üzü üstdə qalmışdır və bütün parçaları göz qabağındadır. Mehrabın ortasındakı hissə yonulmuş, onun hər iki tərəfindəki üç çarək uzunluğunda divar isə yonulmamış qalmışdır. Görünən tərəf mehrabın sol tərəfidir və divarın üstündəki yarım zər’* boyda olan həmin mərmər bir

---

[1] Miladi təqvimilə 1883/84

lövhə kimi yonulmuşdur. Lövhənin ortasında gözəl süls xətti ilə “və ənzəlna minəl-mü‘sirat”[1] həkk olunmuşdur və bu mərmərin digər yarısı ondan iki zər’* yuxarı arxası üzərinə düşmüşdür. Onun bir hissəsini bir qarış torpaq örtmüş, lakin dörd barmaq ölçüdə qıraqları görünür. Bütün qıraqlarda yazı var. Yarısı görünür, qalanı isə yerdə olduğuna görə oxunmur. Onun üstünü təmizləmək asandır və bu yazı oxunmamış qalsa, heyf olar. Lakin mən yavadanışan və tərbiyəsiz adamlardan ehtiyat edirəm ki, deyərlər: filankəsi gördüm, məscidin daşlarını qazıb apardı. Əfsuslar olsun ki, bu pak cövhər məchul halda torpağın içində qalıb[2]. Əslində bir məscid ərazisində yerləşən bu iki məscidin divarının bayır tərəfinin uzunluğu iki yüz əlli addımdır.

Beləliklə burada əmioğlumun sözü sona çatır.

*Mən deyirəm.* Bu məbədin kaşısı müərrəqdirvə bu kitabələri Məhəmməd ibn Bəvvab adlı katib, kitabənin sonunda göstərildiyi kimi, hicrətin səkkiz yüz yetmişinci ilində[3] yazmışdı. Amma o, sülsü icad edən ibn Nəvvab deyil. Bu kitabədə həmçinin ərəb dilində bir yazı vardır və həmin sözlər indi də yerində qalır: *fi şəhri rəbi’ül-əvvəl sənətü səb’inə və səmani mi’ə kətəbəhü əl-əbdül-əqəll Mühəmməd bin Bəvvab*[4]. Bu yazarın məzarı Ənarcan kəndindədir.

Sözüm bu yerə çatanda onu da deyim ki, Cahanşah İraqla Ərəbi fəth edəndən sonra əmirlərindən birinə həccə başçılıq etməyi tapşırdı və fərman yazdı. Mən həmin sənədi həzrət vəkilin xəzinəsində gördüm. Uzunluğu beş yarım Təbriz zər‘i və eni yeddi girehə[5] bərabər olan xanbalıq[6] vərəqində yazılmışdı. Əsli

---

[1] Buludlardan endirdik. Nəba. 14

[2] Məhəmməd Əli Tərbiyət 1930-cu ildə o daşları torpağın altından bir-bir çıxarıb məscidin ətrafına düzmüşdü.

[3] Miladi təqvimilə 1465

[4] Bunu səkkiz yüz yetmişinci ilin rəbiül-əvvəl ayında kiçik bəndə Məhəmməd bin Bəvvab yazmışdır.

[5] Gireh – təqribən 6, 5 sm-ə bərabər olan uzunluq vahidi.

[6] Xanbalıq – Pekin şəhərinin köhnə adıdır və Çin kağızına belə ad qoymuşdular.

ərəb dilində qızıl su ilə, sonra qara qələmlə yazılmışdır. Farsiyə tərcümə olunduğuna görə mən onu yazıb burada göstərirəm ki, o sərkərdə padşahın əzəmətindən xəbəriniz olsun. Türənc şəklində olan tuğrada qızıl su ilə bunlar yazılmışdır:

**Yardım Allahdandır, qələbə yaxındır**
**və möminləri [cənnətlə] müjdələ**[1]

***Ya Mühəmməd   Ya Əli***

*Bismillahir-rəhmanir-rəhim*

*Allah təbarəkə və təala dedi: – "Allahdan ötrü həcc və ümrə əməllərini tam yerinə yetirin"*[2]*. Və söz söyləyənlərin ən izzətlisi həmçinin dedi: – "Onun yoluna gücü çatan hər bir kəsin həccə gedib o evi ziyarət etməsi insanların Allah qarşısında borcudur"*[3]*. Allahın müti qulu Əbülmüzəffər Cahanşah.*

*Müsəlmanların üzünə həcc qapısını açan və həcc ilə ümrə ziyarətinə gedən qafilələri yola salmaqla bizi xoşbəxt edən Allaha həmd olsun! Və elm ilə din şəhəri Mühəmmədə və onun gözəl nəslinə salam olsun!*

*Qibləyə üz tutub həmd ilə səna və namaz ilə dua vəzifələrini yerinə yetirəndən sonra payları nəhy olan ən şərəfli cənablar və caizlik olan imamlarla qazılar və elm olan kəramət ilə alilik sahibləri və bəsarətli rəylər ilə dəqiq fikirlərolan ən uca və şöhrətli insanlar Beytüllahül-haramın ziyarətini tələb edənlərdir. Kə'bə ilə Məkkə (Allah onun sakinlərini şərəfləndirsin və Bəkkənin səddlərini möhkəmləndirsin və ərəblərin ən məşhur şəxsiyyətlərini təbəqələrarası ixtilaflardan qorusun!) hərəmi xadimləri və onun vüsalına yetişməyin aşiqləri insan kütlələrini yüksək dərəcələrə və imana aparanlardır. İraq məmləkətini fəth etməkdən və fəsad ilə nifaq maddələrini aradan götürməkdən ən*

---

[1] Səff.13
[2] Bəqərə. 196
[3] Ali-İmran. 97

*uzaq məqsəd və əla mətləb illər boyu Hicaz əhalisinin üzünə bağlanmış yolu yol sahibinə açıb icazə vermək və fitnəkarların zülmü ilə bəd niyyətləri qarşısında sədd çəkib zalımların uzanmış əllərinin şərinə maneə törətməkdir. Mühəddislər təxirə salınmış bu nemətlərin əldə edilməsi və girov qoyulmuş işlərin təsbit olunması üçün bütün əzmlərini və diqqətlərini ən xalis niyyətlə bu bacarığı və sənəti təhqiq etməyə yönəldən bir vaxtda Xaliqül-bəşər və köçərilər əhlinə rizq verən Həzrət bizə "Həqiqətən Biz sənə açıq-aşkar bir zəfər bəxş etdik. Allah sənin əvvəlki və sonrakı günahlarını bağışlayacaq"*[1] *kəlamını və çöl-biyabanları keçməkdən ötrü Elçisini göndərdi, qulyabanıların şərindən özümüzü qoruyub yolumuzu açmaq məqsədilə qüdrət verdi, İraqi-Ərəbi bütövlükdə bizim üçün fəth etdi və Bağdad məmləkətini əmrimizə tabe etdi. "Bizi buraya gətirib çıxaran Allaha həmd olsun! Əgər Allah bizi doğru yola yönəltməsəydi, biz özümüzə doğru yol tapa bilməzdik"*[2]*. Bunları bizə hədiyyə edən Allaha həmd olsun! Xaqan həzrətlərinə yaxın olan və sultan məclislərində oturan Nizaməddin Əbdülhəqq onun düşmənlərinə xidmətlərinə və səmimiyyətlərinə, eləcə də öz qardaşlarından fərqli olan qulluqları və xasiyyətlərinə görə aman verdi. Allah-təala sonsuz lütf və izzəti ilə onu nəhy olunmuşlardan qorusun! Bu hal inayət ilə şə'nin artmasına səbəb və binanın yer səthindən yüksəlməsi üçün vacib oldu. Allah-təala din əhlinin Qibləsi olan Kə'bəyə yetişmək üçün hacılarla mötəbər şəxsləri dəlil və qayda ilə aparan əmirül-qafilələrin*[3] *yollarını açdı ki, özlərinin ən yaxşı məqsədlərinə çata bilsinlər. O, bütün məramların və mətləblərin dəlilidir. Biz ildən ilə gediş-gəlişi nizama salıb daşıma ilə ixracatı asanlaşdırmaq üçün işlər gördük. Bizdən əvvəlki hökmdarlar kimi, biz də hər il onların öz məqsədlərinə ehtiyacsız və çətinliksiz çatmaları üçün qanun çıxarıb elan etdik. Həmd olsun Allaha ki, öz şə'ni ilə bizi bu savab,*

---

[1] Fəth. 1,2
[2] Ə'raf. 43
[3] Əmirül-qafilə – hacılara ziyarət vaxtı rəhbərlik edən şəxs.

*təhlükəli və uca işə, yəni həccin hökmlərinin yerinə yetirilməsinə müvəffəq etdi. Həyat ərzində özünə və ondan sonra övladlarına və nəvələrinə, qarından qarna və nəsildən nəslə vacib oldu. Eşidəndən sonra dəyişdirmədən və heç bir zərər dəymədən. Və ar olsun dəyişiklik edənlərə. O, eşidən və biləndir. Onlara Allahın, mələklərin və bütün insanların lənəti olsun! O, Hesab günü cəza Sahibidir. Nəbəvi hicrənin səkkiz yüz doqquzuncu ilinin zi-hiccə ayının iyirmi beşində yazılıb*[1]. [2]

Yazının sonunda, tarix göstərilən yerdə, padşahın gülsüz-butasız, üç sətirdən ibarət möhürü vurulmuşdur:

Birinci.*Məmləkəti qurmuş*
İkinci. *Cahanşah*
Üçüncü. *Ölümü qovmuş*

Fərmanın arxa tərəfində dörd möhür vurulub, hamısı dairəvidir:

Birinci.

*Hökmdarların himayədarı Allaha təvəkkül edən,*
*İbadət edənlərin ən kiçiyi Əli*

İkinci.

*Dünya fani olduğundan Allaha şükr etməsən qalmaz.*
*Dillər əzbəri, şir balası sarayının qulu*

Üçüncü.

*Allahın lütfü ilə mükafatlanmış,*
*Şahın ən kiçik bəndəsi*

---

[1] Miladi təqvimilə 2 iyun 1407-ci il tarixinə müvafiqdir.
[2] Əlyazma mətninin bu hissəsi ərəb dilindədir.

Dördüncü. Həmin möhürlərdən bir az aralı bu beyt yazılmışdır:

*Mötəsim Bu Cəlal vəli haqqı ilə*
*Ağıl və kamal sahibi*

**Qara qələmlə yazılmış ikinci sənəd**

Sayagəlməz həmdlər olsun dövlətin vasitəsilə elmi yüksəklərə qaldıran o həkimə və şükrlər olsun elm və din şəhərinə karvanlar yollayan o kəramət sahibinə. İrfan meydanına hələ qədəm basmamış və Dünyanı Yaradanın biliyi ilə tanış olmamış bir zamanda Mühəmməd (s) Uca İlahi qapıdan pərdəni götürüb elmə yol açdı və onun ailəsi, səhabələri və nəslinin səyləri olmasaydı, islam dini quru otun içindən qalxıb həyat qədər əhəmiyyətli bir maddəyə çevrilməzdi. Ən şərəfli cənablara, ən öndə gedən imamlara, qazılara, imamlara, alimlərə, şeyxlərə, mövlanalara, əsilzadələrə, əyanlara, əhaliyə, rəy ilə tədbir sahiblərinə, izzət ilə hörmət yiyələrinə, Beytüllahül-haramın ziyarəti tələbində olanlara, Kə'bəyə və o hərəmin qonşuluğunda yerləşən məqamlara yetişmək eşqi ilə yaşayanlara, Bəkkənin vətəndaşlarına, vadidə çadırlarda qalanda "*"Bizim rəbbimiz Allahdır" deyib düz yolda möhkəm dayanan*"[1] ərəblərə tapşırılmış həmd ilə səna oxumaq, ehtiram göstərmək və namaz ilə dua qılmaq vəzifəsini yetirəndən sonra bildiririk ki, İraqi-Ərəbin fəth etməkdən və fitnəkarlıq ilə hay-küyçülüyə son qoymaqdan əsas məqsəd və ümumi nəticə uzun müddət şövq ilə istək əhli üçün Hicaz yolunda maneələr törətmək və zülmət ilə şər dövrünü uzatmaq olmamışdır. Dəfələrlə kəsən qılıncın və parlaq ulduzun hökmü ilə o vaxtkı işlərin zəruriyyəti fəth yolunda əngəl olmuşdu. Xalis niyyətlə hərəkətə keçmək qərarına gələn kimi Həzrət Allahdan "*Qəti qərara gəldikdə Allaha təvəkkül et*"[2] nidası canın qulağına çatdı. Üz o diyara çevriləndən sonra Yaradanın köməyi ilə o

---

[1] Füssilət.30.
[2] Ali-İmran. 159

möhkəm hasarı fəth etmək və o yaramaz tayfanı qırmaq müyəssər oldu. *Hüznü bizdən uzaqlaşdıran Allaha həmd olsun!* Bu vaxt xaqanlıq ağasının sirdaşı və sultanlıq məclisinin yaxın adamı, xidməti yolunda ən seçilmişlərdən və yaxşı qulluq etməklə canını qurban verməkdə ən yüksəkdə duranlardan olan, neçə müddətdir ki, səfeh işləri tərkitmiş və günah əməllərdən uzaqlaşmış Nizaməddin Əbdülhəqqə iltifat göstərilmişdi, onun şəni ən yuxarı dərəcəyə və ən hündür mərtəbəyə ucaldılmışdı və o, həcc karvanının məhməl əmiri, rəhbər və əmiri-həcc vəzifəsinə təyin olunmuşdu. Keçən illərdə olduğu kimi Hillədə[1] malları və zəruri əşyaları heyvanlara yükləyib və Beytüllah ziyarəti arzusunda olaraq canları ilə başlarını Haqq yolunda qoyanları toplayıb ən rahat yolla və ən yaxşı tərzdə məqsədlərinə çatdırsın və o böyük səadəti öz taleyi üçün bir şərəf bilsin, öz vəzifəsini yerinə yetirmək xətrinə əlindən gələni əsirgəməsin və Həzrət İzzətdən (ə. və c.) əcrinin verilməsini arzulasın. Karvan əhlinin və hacıların yolunu adıçəkilən müəyyənləşdirsin, keçmiş zamanlarda öhdəliyə alınmış qaydalara və bəyənilmiş adətlərə riayət etsin. Ərəblərin başçıları və böyükləri bütün qapılarda müavinət ilə yardım göstərməyi qərara alıb karvanı müşayiət edərək sağ və salamat yerinə çatdırsınlar.
*Yoxlanılıb. Əsli ilə düzdür*

Sonda uca və şərəfli fərman qara qələmlə küncdə təsdiq olunmuşdur. *Sarayın bəndəsi Qasım Pərvançı.*[2]

## Mülahizə

Mən bu yerə çatanda həmin iki sənəddən nəticə çıxarıb öz mülahizələrimi burada yazdım. Alimlər bunu bəyənsələr, sevinməyimə səbəb olar. Əks halda savadsız olduğumu bilərəm. Belə ki, sənədin tuğrasına baxanda "Ya Mühəmməd", "Ya Əli" ya-

---

[1] Hillə – keçmişdə Bağdad ilə Kufə arasında şəhər olub.
[2] Pərvançı – katib.

zıldığını görürük. Bütün Qaraqoyunlu hökmdarları əhli-sünnət-dən olmuşdu və bu dinin qorunmasında möhkəm dayanmış-dılar[1]. Necə olur ki, Cahanşah burada o üç xəlifənin adlarını bu-raxmış və digər yandan Rəsula və onun ailəsinə salam göndə-rərkən "Əli" sözünü də yazmamışdır, halbuki sünni alimlər bu sözün işlədilməsini vacib sayarlar və ondan vaz keçməyi rəva bilməzlər. Bu məqamda xatirimə gəldi ki, bu sənəd Məkkədə yaşayan şəriflər üçün nəzərdə tutulmuşdu, o şərəfli canablar isə həsəni və zeydi məzhəbindəndirlər. Ola bilər ki,bu fərman elə yazılmışdı ki, onu orada da icra etsinlər. Əgər belədirsə, çox yaxşı iş görüb. Qalanı Allah bilər.

## Məscid haqqında sözün sonunda

Avropa müsafirlərindən birisi yazır: İsfahan yolunda gözəl məscid tikiblər. Təbrizin sakinləri onun şərafət sahiblərinin bi-nası olduğu fikrindədirlər. İndi yararsız hala düşərək xarabalığa dönmüşdür. Minarəsi rəngarəng kaşıdan, bayır tərəfi də həmin kaşıdandır. İçərisi naxışlıdır, laciverdi və qızıl rənglə yazılmış kitabələri vardır. Məscidin qapısı bir parça ağ daşdandır. On iki addım onun eni, iyirmi dörd addım da hündürlüyüdür. Günbəzin dairəsi otuz iki addımdır və o, on iki sütunun və içəridə daha on altı sütunun üstündə qoyulmuşdur. Həmin sütunların qütrü[2] altı mürəbbe'[3] addımdır. Çox hündürdürlər. Tağa tikinti mərməri döşənibdir. Daşları Urmiyadan gətiriblər və Təbrizdən o mədə-nədək on beşfərsənglik* məsafə var.

Bu sözü tənbeh etmək üçün gətirdim. Heç olarmı ki, belə mənasız sözləri məşhur kitabda gətirsinlər və desinlər ki, onu filankəs yazıb və bu səhvdir. Bu zəmanə dünya sakinlərinin bi-

---

[1] Çox güman ki, Cahanşah və digər Qaraqoyunlu hökmdarları sünniməzhəb olmamışdılar. Göy məscidin divarlarında dörd xəlifənin adlarının çəkil-məməsi, lakin ayrıca "Əliyyün vəliyyülah" və "Həsəneyn" yazılarının həkk olunması buna dəlalət edir.

[2] Qütr – diametr.

[3] Mürəbbe' – kvadrat.

liksiz olduqları zəmanə deyil. İndi də bütün aləmdə bunun kimi bir başqasının olmadığını deyə biləcəyimiz mədən haqqında bir fəsil yazım ki, oxuyanlar ondan özləri üçün fayda əldə etsinlər.

### Mərmər mədəni haqqında

Mərmər mədəni Təbrizin cənubunda, Dehxarqan bölgəsinin Xəncəstgölü sahilindəki ərazisində, fars dilinə tərcüməsi "Səngtəraş" olan Daşkəsən[1] adlı kənddə yerləşir. Bu torpaqda faydalı bitki yetişməz və əkinçiliklə məşğul olmazlar. Marağaya gedən əsas yolda olduğuna görə mən o yerləri dəfələrlə görmüşəm. Oradan heyvanları aparanda bütün yer elə səs çıxarar ki, orta boşalar.

Burada daşların çıxarılması üsulu haqqında mən vəkilürrüayanın* dilindən eşidib öyrənmişəm. Usta əvvəl daşın olub-olmadığını müəyyənləşdirər. Sonra orada bir meydan qazıb torpağı çıxardarlar. Qazdıqları yerin dərinliyi üç-dörd zər'* olar, mədənşünasların dilində ... [yazılmayıb] adlanan o məsaməli daşa çatanadək. Sonra torpağı o daşın altından yaxşıca silib baxarlar. Əgər onda sınıq, çat və daşkəsənlərin bildikləri digər bunun kimi eyiblər aşkar olsa, onu tərk edərlər, çünki o, mərmərin də belə halda olmasına bir işarədir. Əgər bir eybi olmasa, daşı polad bıçaqla istədikləri ölçüdə hər yandan kəsərlər. Sonra o daşı polad linglər vasitəsilə həmin çuxurdan qaldırarlar və dəvələrə yükləyib Təbrizə daşıyarlar və zər'lə satarlar.

Bu gün o mərmərdən minlərlə parça istəsələr də, asan əldə etmək olar. Əgər alan çox olsa zər'-zər' satanda qiyməti yeddi Təbriz tümənidir. O böyük və enli daşlar isə başqa məsələdir. O daşları çıxartdıqları yerdə çəkisi onlardan az olan xam gümüşə daha yüksək qiymət verərlər. Bu mədəndə İranın böyük şahənşahı Nadir şahın fərmanı ilə daşları nadir olduqlarına görə çıxardardılar. O, mərmərin Rizanın (ə) şəhadət yerinə[2] aparıl-

---

[1] Daşkəsən Dehxarqanın yaxınlığında yerləşən bir kənddir.
[2] Yəni Məşhədə

masını istəmişdi və haqqtanımayanların qılıncı ilə öldürülmüşdü. Mərmərlər isə işıq altında qalaraq xarab oldular. O mədəndən bu gün yaxşı mərmər çıxartmırlar, çünki heç kim binaların tikilməsində parlaq və qızan daşları işlətməz. Kitabların çap edilməsində istifadə olunur. Təbriz daşyonanları və oymaçıları kimi də ustalar olmaz. Mən bütün dünyada parlaqlığına, bərkliyinə, çoxluğuna, tərkibinəvə cilalamaq üçün münasib olduğuna görə bunun kimi mərmər mədəni haqqında eşitməmişəm. Daşı mədəndən çıxaran kimi, altı su və lillə dolar və yenidən mərmər peyda olmaz. Avam adamlar isə deyərlər ki, mərmər həmin altdakı sudan əmələ gələr. Həşri[1] öz təzkirəsində bu mədəndən söz deyən yerdə belə söyləyir ki, bu mərmərdən iki parçanı Təbrizə gətirdilər. Birinin uzunluğu iyirmi, eni beş zər'*, digərinin isə uzunluğu yeddi, eni beş zər' idi. Birindən Cahanşahın imarətindəki Fənə Qiyyə[Fındıqiyyə?] imarətinin tikilməsi zamanı istifadə etdilər. İndi o Fənə Qiyyənin heç adı da qalmayıb. O, həmçinin deyir ki, mərmər Təbrizin binalarında çox işlənibdir: Qazani imarətinin məscidində və mədrəsələrində, habelə Rəşidiyyə, Əlaniyyə, Dəməşqiyyə, Lövlöviyyə, Mərcaniyyə, Haruniyyə, Bürhaniyyə, Məqsudiyyə, Müzəffəriyyə, Nəsriyyə, Əlişah, Şeyx Üveys imarəti, Qasiyyə, Süleymaniyyə, Mir Məftul təkyəsi, Cəlaliyyə və İsgəndəriyyə kimi binalarda. İndi adları çəkilən o imarətlərin heç izi-tozu da qalmayıb. Yalnız bir məhəlləyə Məqsudiyyə deyərlər, Qazan imarətlərinin yeri həmin Şənbi-Qazandır və bir bağ Dəməşqiyyə adı ilə məşhurdur, mən onu görmüşəm. Təpə ilə imarətin qalıqları görünür. Süleymaniyyə imarətinin qalıqları var, həmin "Ustad-Şagird"dir.

Mərmər[2] mədəni türk dilində Daşkəsən adlanan və farsca mənası "səngtəraş" olan kənddə¸ Təbrizin cənub-qərbindəki Dehxarqanda, Xəncəst gölünün sahilində yerləşir. Şəhərin

---

[1] Həşri Təbrizi – Məhəmməd Əmin Ənsari Təbrizi, məşhur tarixçi, 1603-cü ildə yazılmış "Rövzətül-əbrar", eləcə də "Rövzətül-əthar" və digər əsərlərinin müəllifi.

[2] Kitabda bu yerdən başlayan mətn bundan əvvəlki hissəni cüzi dəyişikliklərlə təkrarlayır.

özündən həmin kəndədək altı şər'i fərsəng* məsafə var. Bura faydasız və yararsız bir ərazidir, nə maldarlığa yarayar, nə də o torpaqda bir bitki yetişər. O kənd və mədən Marağanın ana yolunun sağ tərəfindədir. Bir süvari oradan keçəndə heyvanın ayaqları altından bir səs çıxar və bilinər ki, alt boşdur. Mən o yerdən dəfələrlə keçmişəm. Vəkilin sözünə görə mərməri bu üsulla çıxararlar: əvvəl usta daşın harada olduğunu öyrənər. Sonra onun göstərdiyi yerdə enli çuxurlar qazaraq torpağı çıxardarlar. Qazdıqları yerin dərinliyi üç-dörd zər'dən çox olmaz. Bu məmləkətdəki qazmaçıların dilində "kəpər" [kəpək? kəbir?] deyilən yumşaq məsaməli daş növünə çatarlar. Usta bu daşı nəzərdən keçirər. Əgər sınıqları və ya çatları varsa, bu yeri tərk edərlər. Əgər bir eybi yoxdursa, fəhlə onun ətrafını polad bıçaqla tələb olunan ölçüdə kəsər. Ardınca hər yandan böyük polad linglər vurarlar. Sonra linglərlə hər tərəfdən basarlar və həmin ölçüdə mərmər yuxarı qalxar. Bundan sonra daşı çuxurdan çıxardıb daşkəsən mişarla o adıçəkilən məsaməli daşdan ayırarlar və istədikləri yerə daşıyarlar. Orada, daşyonanların dili ilə desək, xam parçaları istənilən biçimdə və ölçüdə işarələyib kəsərlər, üzərini bərk daşla sürtüb cilalayarlar və zər'lə satarlar. Bu gün Təbrizdə hazırlanmış saf və pardaxlanmış mərmərin bir zər'inə yeddi tümən alarlar. Dəvələrlə aparılan yerlərdə isə daşyonanlar düzəltdikləri böyük daşlara və sütunlara başqa nırx qoyarlar. Mənim adaşım Nadir şah çox yekə mərmərlərin mədəndən götürüb Xorasana aparılmasına fərman vermişdi ki, Rza (ə)-ın şəhadət yerində, özünün tikdirdiyi məqbərədə və istehkamlarda işlənsinlər. Onlardan bəzilərini apardılar, çoxu yolda idi, bir qismi isə mədəndə qaldığı vaxtda şahənşahı şəhid etdilər. Daşlar elə olduqları yerdə qaldı. Saray kənizlərinin uca səslə oxuduqları uşaqlıqdan mənim yadımdadır. Onların fəryadları mərməri öküz arabaları ilə daşıyanların dilindən eşitdikləri sözlər idi:

Mən mərmər daşını çəkirəm,
Nadirin əlindən əziyyət çəkirəm.

Həqiqətən də İranın bu əyri-üyrü yolları ilə, Azərabadəganın böyük dağ cığırları və dərin dərələri ilə, yararsız avadanlıqla belə enli və uzun daşları üç yüz fərsənglik* məsafəyə daşımaq həm öküzlərlə camışlar üçün, həm də adamlar üçün çox əziyyətli iş idi. Aydındır ki, o zalım padşahın dövründə bu heyvanları rəiyyətlərdən zorla alırdılar və həmin daşları çətin yollardan və uca dağlardan keçirmək üçün hər arabaya çox adam qulluq etməli idi. İndi o mədəndə bir xeyli mərmər parçaları qalıb günəşin şüaları altında zay olur. Bu mərmərləri görən hər kəs bunların Xorasana daşınmasının nəyin bahasına gəldiyini anlayır.

Hal-hazırda o mədəndən böyük daşları və sütunları aparan olmur, çünki bizim camaatın onlardan tikintidə istifadə etmək üçün o qədər sərvəti yoxdur. Yalnız kiçik parçalar hamamların işıqlandırılmasında və çap müəssisələrində işə yarayır. Paytaxta da aparmazlar, çünki bizim şahənşahımız öz işində ədalətə əsaslanır. Əgər o da Nadir kimi hərəkət etsəydi, böyük zülmə yol vermiş olardı, ya da padşahın hesabına daşıtdırmalı idi. Onda demək olar ki, bir parça mərmərin qiyməti xam gümüşün qiymətinə başa gələrdi. Bu halda da məsrəf mədaxili üstələyərdi. Hərçənd rənginə, saflığına və cilalamaq üçün münasib olduğuna görə bunun kimi mərmər mədəni dünyanın heç bir yerində yoxdur və o daşlar müxtəlif hökmdar binalarını zinətləndirməkdədir.

## Fayda

*Bilmək lazımdır ki*, daşın altına su ilə lil dolar və mərmərın həmin altdakı sudan əmələ gəldiyinə inanan yerli sakinlərin fikrinə xilaf olaraq daşı çıxarandan sonra yerində təzəsi əmələ gəlməz. Həşri deyir ki, bu mərmərdən iki parçanı Təbrizə gətirdilər. Birinin uzunluğu iyirmi, eni beş zər'*, digərinin isə uzunluğu yeddi, eni beş zər' idi. Birindən Fındıqiyyə imarətinin, digərindən isə Cahanşahın binasının tikilməsi zamanı istifadə etdilər. İndi o Fındıqiyyənin heç adı da qalmayıb. O, həmçinin deyir ki, bu mərmər Təbrizin binalarında çox işlənibdir: Qazani imarətinin məscidində və mədrəsələrində, habelə Rəşidiyyə, Əlaniyyə,

Dəməşqiyyə, Nəhibbə, Lövlöviyyə, Mərcaniyyə, Həruniyyə, Bürhaniyyə, Məqsudiyyə, Müzəffəriyyə, Nəsriyyə, Əlişah, Şeyx Üveys imarətləri, Qaziyyə, Süleymaniyyə, Mir Məftul Bənd təkyəsi, Cəlaliyyə və İsgəndəriyyə kimi binalarda. İndi adları çəkilən o imarətlərin heç izi-tozu da qalmayıb. Yalnız Novbər məhəlləsində bir yarımməhəlləyə Məqsudiyyə deyərlər, Əlişah məscidinin divarının bir hissəsi qalmaqdadır, Şənbi-Qazanın adı qalır və bir bağ Dəməşqiyyə adı ilə məşhurdur, Rəşidiyyənin bir qismi görünür və Süleymaniyyə həmin Ustad-Şagird məscididir.

## Şənbi-Qazan haqqında

Keçmişin adamları bu imarətin adı barədə cürbəcür sözlər söyləyərlər, hamısı boş və mənasız. Məni heyrətə gətirən Fəzlüllah Vəssafın[1] dediklərididir: altı yüz doxsan yeddinci ildə[2] Qazan Şami-Təbriz binasının təməlini qoydu və hicrətin yeddi yüz ikinin sonunda[3] iş başa çatdı. Bundan sonra həmin binanın Şənbi-Qazan adı nəzmlə və nəsrlə hər yana yayıldı. Həmdüllah deyir: Qazan Şami-Təbriz yerində bir bina tikdirdi. Bəziləri yazıblar: İlxan Şamdan qayıdan kimi Təbrizin Dəməşqə bənzər layihəsini cızdı, Şam malından çox bədxərclik etdi və adını Şam qoydu. Mən buralara Şam deyildiyini çox da eşitməmişəm. İlxan bir şəhər saldı və adını Şami-Qazan qoydu. İndi Mişkin çayının düyü və digər taxıl becərilən sahilinə Şam deyərlər. Burada sözümüzü qısa etməyin vaxtıdır, çünki bizim məqsədimiz başqa idi.

Yazırlar ki, bu imarətin tikilməsində çoxlu dəmirlə misdən istifadə olunmuşdu. O, yerlə yeksan olandan sonra bilindi ki, onun divarı otuz üç ədəd bir-birinə yapışdırılmış kərpic qalınlığında idi. Bu isə on beş zər'ə bərabərdir. Hər kərpicin çəkisi on Təbriz məni[4] idi. Hər dairədə on dörd min dörd yüz kərpicdən

[1] Fəzlüllah Şirazi Vəssaf – şair və tarixçi (1265-1328).
[2] Miladi təqvimilə 1298
[3] Miladi təqvimilə 1303
[4] Təbriz məni – təqribən 3 kq-a bərabər olan çəki vahidi.

istifadə olunmuşdu. Məbəd qübbəsinin üstü yüz otuz zər'*, divarın uzunluğu səksən zər'*, on gəz* günbəzin və qırx gəz* qübbənin sahəsi, yəni onun dairəsində fərz olunan xətt idi. Günbəzin bütöv dairəsinin sahəsi isə beş yüz otuz gəzə* bərabər olmuşdu. Bu məscidin xanəgahları və mədrəsələri olmuşdu. Kəndlərdən və əyalətdən gələn müsafirlər xanəgahda və mədrəsədə qonaq qalardılar. Sultan burada öz günbəzi üçün uca bina tikdirmişdi. Bağ-bostanları və meyvə ağacları çox idi. Bu ev hicrətin ... [yazılmayıb] ilinə qədər qalırdı. Əmin-amanlığın himayədarı Şah [Abbas] Səfəvi Şənbi-Qazan divarlarının davamlılığını şübhə altına salmışdı. Ola bilər ki, Osmanlı ordusu oranı özləri üçün sığınacaq edib möhkəmləndirəndən sonra [şah] dağıtmaq əmrini verdi. Hasarın ətrafı İran qoşunu tərəfindən bölündü və dörd günə həm bina, həm də həmin möhkəm hasar söküldü və təkcə məscidlə mədrəsə yerində qalmışdı. Onlar da zəlzələ vaxtı xarabaya döndü.

Mən min iki yüz əlli səkkizinci ildə[1] həmin xarabazara baxmağa getdim. Bəzi divarlar və hücrələr qalmışdı. Təbrizin bənnaları kərpicləri və daşları yerdən çıxardıb istifadə etmişdilər. Kərpicləri, yarımlıq və dörddəbirlik daşları uzunqulaqlarla aparmışdılar. Kərpiclər cürbəcür olub. Ən kiçiyi zər'in üçdə biri uzunluqda və qalınlığı beş barmaq boyda, bir-birinə daş kimi bərk sıxılmışdılar. Mən o həqiqəti üzə çıxartdım ki, o torpaq indi Təbrizdə kərpic hazırlanmasında işlənən torpaqdır. Bundan belə nəticəyə gəldilər ki, buğda ununu ələklə bişirsinlər, onda orada onun gilinin mən gördüyüm kimi üyüdülməsi aydın oldu. Əla çini qabqacağın hamısı məhv olmuşdu. Büllur da sınmışdı və mən onun qırıqları arasında quş dimdiyi boyda belə olanı görmədim. Mən iki kərpicin birləşməsində işlənən gəci də nəzərdən keçirtdim. Bir binanın qapısında elə möhkəm bərkidilmişdi ki, kərpici ondan böyük çətinliklə qoparmaq mümkün oldu. Sınanda da sınan qabqacaq səsini verər.

[1] Miladi təqvimilə 1843

İndi o binadan kərpiclə kaşıdan ibarət bir təpəcik qalıb. Bu gün Şənbi-Qazanın ərazisi bahalı yerlərdir. Şəhər böyüklərinin və müştərilərinin gözəl bağları və ürəkaçan əkin yerləri oradadır. O ərazinin qiyməti çox bahadır. Hər bir mənin qiyməti iki yüz dinarlıq iplə bir tüməndir. İllik məhsulu bir mən buğda və bir mən saman min misqal* çəkidə[1]. *Son.*

## Fayda

Burada çox qiymətli və başqa kitabda olmayan fayda var. Biz onu götür-qoy edib Şami-Qazan söhbətini yekunlaşdıraq. Rəşidi məscidinə belə bir xəbər çatmışdı ki, İlxani misirlilərlə döyüşmək üçün qoşununu Şama yeridərkən nəzir etmişdi ki, əgər qalib gəlsə, bir məscid, xanəgah və mədrəsə tikdirəcək. Şükrlər edib yola düşdü, Misir və Şam ordusu üzərindəböyük qələbə çaldı və geri qayıtdı. Padşah sarayı olan Şamda məscid, xanəgah və mədrəsə inşa etdi.

Mən həmişə ürəyimdə fikirləşirdim ki, niyə moğollar özlərinin qaniçən və bütün dünyanı əmrinə tabe edən ordusu ilə çox vaxt misirlilərə məğlub olurdular? Nəhayət hicrətin min üç yüzüncü ilində[2] Nasir Xosrov Ələvinin[3] Paris şəhərində çap olunmuş "Səfərhamə"si əlimə keçdi. Baxıb gördüm ki, bu Nasir Xosrov Qubadyani Mərvəzinin səfəri haqqındadır. Həmin elm sahibi Kə'bəyə getmişdi. Əvvəldə adını, yerini, vəzifəsini və peşəsini göstərib. Bu kitabda misirlilərin əzəmətindən bir fəsil yazır və Misir ordusunun həmişə hazır vəziyyətdə olduğu haqqında öz

---

[1] Mətnin bu hissəsinin mənası aydın deyil.

[2] Miladi təqvimilə 1883

[3] Nasir Xosrov Ələvi (1004-1088 və ya 1099) – tarixçi alim, dinşünas və şair. 30000 beytin, o cümlədən "Səfərnamə" və "Zadül-müsafirin" kitablarının müəllifidir. "Səfərnamə" əsərində özünün Xorasandan Məkkəyə səyahətini vəsf etmişdir. Bu şəxsin adı, künyəsi və ləqəbi müxtəlif mənbələrdə fərqli şəkildə göstərilir: Nasir bin Xosrov Ələvi Sipahani, Həkim Əbu Müin, Əbu Müinəddin, Nasir Xosrov Qubadyani Mərvəzi, Nasir bin Xosrov Qubadyani Bəlxi və s.

gözləri ilə gördüklərini söyləyir. Mən bu fəsli oxuyub onlara Şam, Hələb, Yəmən, Hicaz və Qırmızı dəniz sahillərini də əlavə edəndən sonra onların sayını heç təxmin də edə bilmədim. Odur ki, onlar moğollara məğlub olmadılar. Qazan bir qələbə çalmaqla xoşhal oldu. O, Şamın qapısından çıxan kimi misirlilər yenidən o məmləkəti ələ keçirdilər... [1]

... Bu səyyah Nasir Qubadyani Mərvəzi hicrətin dörd yüz otuzuncu ilində[2] Misrə gəlmişdi. Künyəsi Əbu Müinəddindir və sənəti katiblikdir. O Nasir bin Xosrov Ələvi Sipahani[3] alim və şair olub. Mən o kişinin əsərlərindən öz incəliyi, bəlağəti və fəsahəti ilə seçilən şeir divanından başqa heç nə görməmişəm.

İndi isə yenidən Şami-Qazana qayıdaq. Əmioğlum Mürtəza Mirzə (Allah onun işini avand etsin!) zəhmət çəkib o yerlərə baxıb və gördükləri haqqında bir fəsil yazıb. Mən həmin sözü olduğu kimi burada göstərirəm ki, Allahın köməyi ilə ondan bir əbədi yadigar qalsın:

Tarixi qaynaqlarda Şənbi-Qazan haqqında təfsilatı ilə yazılmışdır. “Həbibüs-siyər”in müəllifi[4] vəqflərə aid fəsildə yazır ki, vəqf yerinin icarə haqqı hesabına hər ilin payız mövsümündə hər adama iki mən vermək şərtilə yoxsullara cəmisi on min mən pambıq mahlıcı paylanardı ki, onu əyirməklə özlərinə çörəkpulu qazana bilsinlər. Vəqfin digər icarə haqqından isə min ədəd dərini qış vaxtı tələbələrə verərdilər ki, onlar qışın şaxtasından özlərini qoruya bilsinlər. Ondan əlavə Qazanın məqbərəsi üçün ümumi çəkisi on iki min mən olan qızıl və gümüş çıraq bağışlanardı. Amma həqirin[5] məqsədi keçmişə qayıtmaq deyil, indiki vəziyyəti təfsilatı ilə izah etməkdir.

---

[1] Nil çayı mənbəyinin axtarışına həsr edilmiş sonrakı fəsil Təbriz şəhəri ilə heç bir əlaqəsi olmadığına görə hazırkı kitabda ixtisara salınmışdır.

[2] Miladi təqvimilə 1038/1039

[3] Yəni İsfahani

[4] Qiyasəddin bin Hümaməddin Xandəmir (təqr. 1475-1535).

[5] Həqir – kiçik, qədr-qiymətsiz. Burada müəllif təvazökarlıq göstərərək özünü belə adlandırır.

Hal-hazırda ki, hicrətin min üç yüz birinci ilidir, bu binanın təsviri aşağıda ərz olunan kimidir. Qazan xanın məzarı və məqbərəsindən ibarət olan Şənbi-Qazan şəhərin qərb tərəfində yerləşir və Seyyid Həmzənin qəbrindən Şənbi-Qazanadək doqquz min addımlıq yol var. Bu binanın dairəsi doqquz yüz altmış beş qədəmdir. Qazanın məzarı binanın ortasındadır, ətrafda hamısı isə üzü kərpicdən və ya taxtadan olan tikililər yer alır. Burada işlənimş kərpic çəkidə bir-birindən fərqlənən iki biçimdədir. Həmin kərpiclərdən birinin çəkisi iki mən* min misqal*, digərinin isə iki mən və mənin dörddə biridir. Məzarlığın günbəzi kaşı ilə örtülmüşdür. Günbəzin ətrafındakı tikililər isə altdan yuxarıyadək kaşılıdır. Bu kaşılar firuzə rəngində, ortası isə qara kaşıdandır. Bünövrədən yuxarı bütün binalarda işlənmiş həmin kaşılar indi də qalaraq torpağın altından görünür. Bina ərz olunmuş şəkildə tikilimişdi, lakin Qazan məqbərəsində olan tikilinin ortasında nadir hallarda tapılan bu kaşıların tikilinin ətrafındakı başqa kaşılarla heç bir əlaqəsi yoxdur. Tikilinin ortasında tapdığım həqirin bir qarışı boyda kaşını dostuma göstərməyə apardım. Dedi ki, məqbərənin kaşısı da həmin növdəndir. Çox gözəl nil rəngində olan bu kaşı Firəngistanın boyakarlıq və zərgərlik üslubunu xatırladan əla mina ilə örtülmüşdür. Həmin yerdə əlimə keçən kaşının bəzəməsindəüçrənli gülkarlıq[1] üslubundan istifadə olunmuşdu. Gül qönçəsinin və budağının ətrafı şəncərf[2] boyası ilə, budağın özü və yarpaq qızıl su ilə, onların arası isə ağ boya ilə çox gözəl rənglənmişdi.

On beş il bundan qabaq bu binaya yolumu salanda burada minlərlə kərpic mövcud idi. İndi isə bircə salamat kərpic gözə dəymir. Yadımdadır, o vaxt orada rast gəldiyim adamlardan bu kərpiclərin aparıb başqa tikintidə istifadə olunmadığının səbəbini soruşmuşdum. Dedilər ki, bura vəqf olduğuna görə alimlər onu haram sayırlar. Bugünki səyahətim səfərül-müzəffər ayının

---

[1] Gülkarlıq – əsas hissəsini gül-çiçək şəklinin təşkil etdiyi naxış çəkmə üslubu.

[2] Şəncərf – civə ilə kükürdün qarışığından hazırlanan boya.

altısı, cümə gününə, şahənşahın mövlud bayramı və bütün millət üçün bir mübarək günə təsadüf edir. Şəhərdən kənara çıxıb gəzə-gəzə bu yerlərə yetişdim. Həmin binanın indiki halı ilə on beş il bundan əvvəlki halı arasında çox böyük fərq görüb ərz edirəm ki, əksər yerlərdə qazıntı işləri aparılmış, əcayib mağaralar və uzun qəribə yeraltı yollar qazılmışdır. Bütün kərpicləri aparmışdılar və binalardan sözün həqiqi mənasında əsər-əlamət də qalmamışdı. Heyrətə gəldim. Təəssüf hissi ilə ətrafı gəzdim. İki yerdə bünövrədəki daşları qazıb çıxartmaqla məşğul olan bir neçə adam gördüm. Onlardan birinə buraları on beş il əvvəl gördüyümü mülayimcə bildirdim və ondan sonra baş verənlər haqqında sual verdim. Dedi ki, bəli, on beş il öncə buralar sən söylədiyin kimi olmuşdu. Səbəbi də alimlərin qoyduqları qadağa imiş. Lakin alimlərdən bir neçəsi (o, həmin adamların adlarını da çəkdi, lakin mən ədəb qaydalarına riayət etməkdən ötrü onları burada yazmıram) bu yaxınlarda bir çeşmə ilə kəhriz düzəldiblər və bu daşların halal olduğu və onların alqı-satqısının da ayıb olmadığı haqqında fətva veriblər. Buranın camaatı yazda və yayda əkinçiliklə məşğul olduqlarına görə qışda bekardılar. Onlar bu daşları çıxardıb,öz heyvanları ilə ağaların düzəltdikləri kəhrizə aparıb satırlar və bu minvalla qış üçün çörəkpulu qazanırlar. Bu gün cümə, yəni bekarçılıq və istirahət günü olduğuna görə işçilərin sayı azdır. Ayrı günlərdə isə onlar bu tikililərin çoxunda qazmağa məşğul olurlar. Sonra o, həqiri şənbə və bazar günlərində gəlib baxmağa dəvət etdi və həmçinin hər kəsin hüququnu və hədd-hüdunu mənə başa saldı. O dedi: "Bizim hal-hazırda işlədiyimiz yer bizimdir, yuxarıdakı isə Kərbəlayi Zeynalabdinin övladlarına məxsusdur. Başqa günlərdə burada hərəmizin çox fəhləsi olur. Bu gün cümədir və onlar azaddırlar".
Bir saat oraları gəzdim. Fəhlələrin başçısı xoş həmsöhbət və onun sahəsi Qazanın məqbərəsinə və binanın ortasına yaxın olduğuna görə mən o kişidən bu qazıntılarda ağ-qara sikkələrin və dəmir əşyaların tapılıb-tapılmadığını soruşdum. Dedi: "Bu qəbildən olan şeylərdən tapmamışıq, amma hər dəstədə on-iyirmi dənə yarıçürümüş oxlara tez-tez rast gəlirik". Bir tərəfə

işarə edib dedi ki, üç-dörd il bundan qabaq orada qazıntı işləri apararkən yerin altından barıtla dolu tağa oxşar bir şey çıxdı. Fəhlələrdən biri bizdən icazə almadan gecə o barıtı yandırdı. Barıtın gücü həmin tağı qaldırıb o yerdən on addım uzağa atdı.

On beş il əvvəl həqir buraya gələndə iki ədəd qara daş sütunu görmüşdüm. Hər birinin qalınlığı təqribən bir Təbriz zər'inə, uzunluğu isə iki zər'ə bərabər idi. Ondan başqa sütuna bənzər çoxlu şəffaf, parlaq və cürbəcür naxışlarla bəzədilimiş daşlar, habelə Qazan xan məqbərəsinin olduğu ortadakı qazıntıda hər iki tərəfdə möhkəm qapı var idi. Bu iki sütunun ortasından bir neçə zər'lik yeraltı yol çəkilmişdi. Hal-hazırda nə o sütunlardan bir əsər, nə də o yoldan bir əlamət qalmayıb və bütün bu tikililərin altını üç zər'* dərinliyində qazıb daşlarla əhəngi çıxardıblar, payaların üstünə yonulmuş daş qoyub bünövrənin üzərində işləyirlər. İndi binanın heç bir yerində üstündə yazısı olan daş ya kaşı gözə dəymir, bütün olan-qalanı aparıblar. Bir şey qalsa da, torpağın altında olar. Üç-dörd ildən sonra burada bir neçə daş qalağından və torpaq təpəsindən başqa heç nə qalmaz. *Hökm Allahındır və hər şey ölümə məhkumdur. Son.*

Şəhərin cənuba meyilli şərqində başqa səmtlərlə müqayisədə daha rəngarəng və çiçəkli yerdə qızıl gül ətrini saçan, Mişa dağından və Müşkənbər dağından hündür olan təpədə dairəvi bir hovuz vardır. Həmin hovuzun dibinə daşlarla əhəng töküblər, divarları da altdan yuxarıyadək yonulmuş daş və əhənglə işlənmişdir. Həşəmətüddövlə Həmzə Mirzə Yanıq məhəlləsində bağın layihəsini hazırlayarkən o hovuzun torpaqdan təmizlənməsini və qazılmasını əmr etdi. Dərinliyi altı zər'* olub. İndi kəhriz torpaq və lillə doludur. Böyüklərdən biri onun bir təpəciyiə döndüyünü söyləyib deyir ki, o hovuzun dairəsini ölçmüşdü – üç yüz Təbriz zər'inə bərabər idi. Əfsuslar olsun ki, belə bir seyrəngah yiyəsiz və baxımsız qalıb və onu təmizləyib təmir edən yoxdur. Bizim şəhərimizin xüdpəsənd camaatı öz xeyrini güdməkdən başqa heç nəyə həvəs göstərmirlər və ömürlərində vətənlərinin əzəmətini artırmağa baş qoşmazlar, halbuki hər cümə oranı təmizləyib nar, şam və digər ağacların

tinglərini əkməklə məşğul olsaydılar, bir azdan ora gözəllikdə tayı-bərabəri olmayan bir yerə çevrilərdi. Yazda çaydan oraya bir qol çəkib içini su ilə doldurmaq və o təpəciyin altındakı torpağı da əkinçilik üçün yararlı vəziyyətə gətirmək olardı.

Bunun qaynağı adamlar arasında söylənilən dedi-qodudur, dədiq məlumat heç kəsdə yoxdur. Bu alçaq və sahəsi kiçik olan məqbərə Sürxab dağının zirvəsində yerləşir və oradan şəhəri, Xəncəst gölünü, habelə cənubu, qərbi və şərqi müşahidə etmək olar. Bahar fəslində hər tərəf çiçəklənən çağda buradakı gözəlliyi dünyanın heç bir yerində görməzsən. Zirvədəki su və yaşıllıq olmasaydı dağ lap quru və yanmış kimi görünərdi. Bu məqbərədən şimal istiqamətdə beş yüz addımlıqda dərin bir vadi var. Burada çox kiçik bulaq mövcuddur və ondan balaca hovuz düzəldiblər. Su ondan yavaş-yavaş həmin çuxura sızmaqdadır. Buradan suyu camaatın ehtiyacını görməkdən ötrü çətinliklə məqbərəyə daşıyırlar. Bu məkana başqa yerdən su gətirmək mümkün deyil, çünki adıçəkilən dağın ətəyi qupqurudur. Bu çeşməyə adamlar Pərilər hovuzu adını qoyublar, ancaq səhvən Pirlər hovuzu deyirlər.

Həşri öz təzkirəsində o məqbərədən söz açıb və onun içindəki qəbrin şəklini göstərib. O deyir ki, bura əmirülmöminin Əlinin (ə) Övn və Zeyd adlı övladlarının məzarıdır[1]. Nasabət elminə yaxın olan hər kəsə aydındır ki, bu söz Həşrinin uydurmasıdır, nə qədər kobud səslənsə də. Tarixçi doğrunun yerinə dünyaya yalan yaymağa başlayanda, ziyanı çox olar. Bir xaçpərəst alim deyir ki, bura ya bütxana, ya da başqa bir qeyri-müsəlman məbədi olub. Təbrizin hökmdarı Pir Budaq xan böyük Şah Abbasın əmri ilə bu məzarlıqda çox uca bina tikdirdi. Zəlzələdən sonra dağıldı. Son illərdə bu məmləkətin başçısı Mirzə Qəhrəman Əmini-ləşgər oranı təmir etdi. Eyvanlar, hücrələr, tövlə və oturacaqlar tikdirdi ki, zəvvarlar burada rahat qala bil-

---

[1] Belə bir ehtimal var ki, məhz Övn bin Əlinin məzarının Sürxab dağının başında olduğuna görə həmin dağa yerli camaat "Eynəli" və ya "Eynal-Zeynal" deyir.

sinlər. Orada qazıntı işini aparanda böyük tikilinin əlamətləri üzə çıxdı. Qırmızı daşdan iki sütun aşkar etdilər. Onları indi eyvanın altına quraşdırıblar. Həmçinin çoxlu yonulmuş daşlar da tapıldı. Burada böyük imarətin olduğunu güman etmək olar. İndi isə mən üzərimdə haqqı olan bir adam haqqında fəsil təqdim edirəm.

## Mirzə Qəhrəman Əmini-ləşgər[1]

Mirzə Yusif Sipahaninin oğludur. Bu kişi sabiq padşah Məhəmməd şahın hakimiyyəti dönəmində eşikağası, Məhəmməd Qulu xan Qacarın yanında süfrəçibaşı olub. Qardaşı Xorasanda üsyan edəndən sonra o, eşikağası vəzifəsindən uzaqlaşıb İraqi-Ərəbə getdi. Bundan sonra Mirzə Yusif vəfat etdi. Oğlu çox zirək oğlan idi, katiblik sənətinə yiyələnmişdi və ordu başçısı Əziz xanın yanında xidmət edirdi, ancaq əli aşağı idi. Ondan sonra Əziz xan da işsiz qalıb öz vətəninə qayıtdı. Bu cavanın ehtiyacını ödəmək üçün başqa çarəsi olmadığına görə çətin vəziyyətə düşdü. Amma zəmanə dəyişdi, bəxt yenə Əziz xana yar oldu və o, Azərbaycanın başında əyləşdi. Cavan oğlan yenidən ona xidmət etməyə başladı. Heç bir-iki il ötmədi ki, xüsusi bacarığı və biliyi hesabına sərdarın bütün işlərini əlinə keçirtdi. Yavaş-yavaş dövlət işlərinə də əlini uzadıb, dəyərli məsləhətlər və təkliflər verməyə başladı. Nəticədə sərdarın evində bütün işlərə və işçilərə başçılıq ona tapşırıldı. Bunun ardınca o,və Azərbaycanın maliyyə vəziri Mirzə Fəthəli xan Sahibdivanın ayağının altını qazmağa başladı. Onun dövlətin malını mənimsədiyini hökmdara dedi. Nəticədə Sahibdivan getdi və Əziz xan onu maliyyə vəziri yerinə qoydu. İşi yaxşı gedirdi. Saray adamı oldu. Sonra orduya getdi və çox keçmədi ki, əmini-ləşgər oldu. Bütün işlər onun əlinə keçdi və adı hər yerdə tanındı, çünki əli açıq və ürəyi dəniz kimi geniş idi. Hər gün ya öz evində, ya da sarayda süfrə açardı və iki yüz nəfər o süfrənin ətrafında oturardı. Dinarla dirhəm onun üçün səhrada qum dənəsi kimi dəyərsiz idi.

[1] Əmini-ləşgər – ordu başçısı.

Xoşbəxt və firavan həyat sürürdü. Əlinə keçəni ya özü yeyərdi, ya da başqalara bağışlayardı, hörmət sahiblərinə verərdi və dünya vecinə deyildi. Sərdar vəfat edəndən sonra onu xilafət rəhbərinin yanına çağırdılar və gömrükhaqqı yığmağı tapşırdılar. Dörd il orada qaldı, ancaq həzrət vəliəhd Azərbaycanın vəziri olandan sonra kitabı bağlandı. Əliəyriliyi və gömrük pulunu mənimsəməyi üzə çıxdı. Dedilər, əlli min tümən idi. Xilafət rəhbərinin yanına getməli oldu. Orada ondan malı tələb etdilər. Bütün var-yoxu əlindən getdi. Vaxtilə ondan faydalananlar indi pıçhapıçla kənara çəkildilər. Məhkəmə keçirildi və o, müflis oldu.

Amma belə ağır zərbədən sonra da xasiyyəti dəyişmədi. Pul tapan kimi yemək-içməyə xərcləyərdi. Min üç yüzüncü ildə[1] maliyyə vəzirinə müraciət etdi və şahənşahın məiyyəti qismində Məşhədi-Rzaya (ə) gedib gəldi. İndi xilafətin sarayında xidmət edir və əli aşağıdır, qayğısız qalıb. Bu da onun öz eybinin nəticəsidir, çünki  səxavət və nəcabət göstərəndə dost və xidmətçi haqqını bilməmiş, yəni dostu düşməndən ayırmağı bacarmamışdır. Belə ki, yüksək mənsəb sahibi olarkən vəzifə verdiyi və irəli çəkdiyi kəslər onun evinin yıxılmasına və əliboş qalmasına bais oldular. Xülasə, eyibsiz tək Tanrıdır.

## Əlişah məscidinin təsviri

İndi ona ərk deyirlər. Dövlətin silah-sursatı və hökumətin taxılı saxlanan anbardır. Bu məscidi Cilan ləqəbli vəzir Əlişah inşa etmişdir. Həşri yazır ki o, bir hamamın baş dəlləyi olmuşdu. Bir gün kübar şeyxlərdən olan Dədə Əli adlı birisi o hamama gəlir. Əlişah onun başını qırxır, ancaq muzdunu almır. Deyir ki, Allah yolunda bu işi gördüm. Şeyx buyurur: – Allah səni böyük adam etsin! Onun duası ilə Əlişah yüksək rütbəli məmur, Qazanın vəziri oldu. O, şahənşahın fərmanı ilə Xacə Rəşidlə bir yerdə bu binanı ucaltdı. Lakin tikintini tez başa vurmaqdan ötrü

---

[1] Miladi təqvimilə 1883

çox tələsdi. Məscidin günbəzi qoyulandan sonra bu təzə bina hələ bərkiməmiş yatdı və tağı çatladı. Mən bu binanın təsvirini həmin alim əmioğlumun öhdəsinə buraxıram. O, öz gözü ilə gördüyünü qələmə almışdı. Mən də bu etibarlı və dəqiq məlumatı aşağıda göstərirəm.

## Əmioğlum Mürtəza Mirzənin sözü ilə Əlişah məscidinin təsviri

Bu bina guya mehrab olub və məscidin özünün üstü örtülü olmayıb. Dörd divardan ibarət olub və bu binanı məscidin sonunda tikiblər. Bu məscidin uzunluğu birinci qapıdan tağına qədər yüz səksən beş addımdır. Tağın özünü dördbucaq şəklində kərpic və gəclə ucaldıblar. Həmin dördbucaqdakı hər yanın uzunluğu doxsan addımdır. Bu mehrab tağının ağzının eni otuz səkkiz addımdır. Tağın hündürlüyü mehrab səthindən tağın qülləsinədək iyirmi dörd Təbriz zər'idir. Tağın başına hərəsinin hündürlüyü təqribən yarım zər'* olan altmış doqquz pillə aparır. Tağın başında bir növ dəhliz düzəldiblər. Onun uzunluğu doxsan yeddi addımdır və sonunda uzunluğu altı zər'dən bir az əskik olan bir balaxana[1] da tikilmişdir. Bunu mərhum Müəyyidüddövlə təftiş və təmir etmişdir. Məscidin əsl divarı tamamilə dağılıb yox olmuşdu. Kərpiclə gəcdən tikilmiş hazırkı divar isə təzədir və qədim divarın sağında, on-on beş addım aralı, məscidin sağ qalmış əvvəl hissəsində qoyulmuşdur. O divarın arxasında bir ev tikiblər və bu evin bir tərəfində həmin dağılmış divarın qalıqları yer alır. Hündürlüyü təqribən səkkiz-doqquz zər'ə, eni isə dörd zər'ə bərabərdir. Bu divarın üzərini çox cəlbedici şəkildə cilalanmış kərpiclə və rəngbərəng kaşılarla örtüblər və binanın bütün divarlarının üstü əslində həmin qaydada kaşı ilə işlənmişdir. Həmin qalan divar yüksək səviyyəli sənətkarlıqdan xəbər verir. Divarın əksər kərpicləri noxud unu rəngindədir. Divarı elə möhkəm tikmişdilər ki, əgər kimsə gillə gəcdən hazırlanmış bu di-

[1] Balaxana – evin üst mərtəbəsi; balkon, eyvan.

vardan bir şey qopartmaq istəsə, çox əziyyət çəkməlidir. Ancaq tağın özü o qədər də möhkəm deyil və onu tikəndə kaşıdan istifadə olunmayıb. Bu tağın divarının bəzi hissələrini mehrab şəklində tikiblər və bu zaman ağ gəc işlənmişdir. Həmin gəc indi də qalır. Bu neçə il küləyə, yağışa və başqa şeylərə mühafizəsiz məruz qalmış gəcin tökülməməsi həqiri o fikrə gətirir ki, ya binanın tikilməsində işlənmiş gəcin alındığı mədənin yeri indi unudulub, ya da gəcin tərkibinə əlavə maddələr qatılmışdı və məhz bu səbəbdən gəc elə möhkəm və davamlı olmuşdu ki, rütubət, yağış və sairə amillər ona təsir etməmişdi. *Hər şeyi bilən Allahdır.*

Burada əmioğlumun tədqiqatı başa çatır. Mən də bildiklərimi və eşitdiklərimi yazım. Birinci onu deyim ki, vəzir bu məscidin tikilməsində çox tələsdi və nəticədə günbəz kimi ucaldılmış o əzəmətli tavan uçdu, məscid isə natamam qaldı. Yazırlar ki, bu binada mərmər daşından geniş istifadə olunmuşdu. Zahirdə onun heç əsər-əlaməti yoxdur və mən bilmirəm ki, burada mərmər doğrudan işlənmişdi, ya yox. Görünür ki, min iki yüz doxsan səkkizinci ildə[1] binanın bir tərəfində hökumətin taxılını yığmaq üçün anbar tikilmişdi. Divarın arxasında yer qazanda dörd zər'* dərinliyində torpağın altından mərmər sütun çıxdı. Mən və həzrət vəkilürrüaya* ona baxmağa getmişdik. Heç qüsuru olmayan mərmər sütun idı, altda qalınlığı gözəyarı bir Təbriz zər'i və yarım zər'*, üstdə isə üç zər'* yarım olardı. Olduqca gözəl, mütənasib və hind qanunlarına uyğun düzəldilmişdi, lakin iş bitməmiş və daş cilalanmamışdı. Bundan bilinir ki, bütün mərmər daşları torpağın altında qalmışdır. Mən iki-üç dəfə bu mehrabın üstünə çıxdım. Mehrab boyu dairəvi keçiddə və aşağı gedən yolda sürahi düzəldilmişdi. Orada bir təbrizli mühəndis var idi. Ona mühəndisbaşı deyirdilər. O dedi ki, bu binanın içi boşdur. Üstü üç-dörd lay gəcdən və kərpicdən tavanlarla örtülmüşdü. Divarlar ucaldılmış, hər yerdə yan-yana taxtalar qoyulmuş və dəmir mıxlarla bərkidilmişdi. Belə olmasaydı, bu dağ parçasının ortası

[1] Miladi təqvimilə 1881

dağıla bilərdi. O həmçinin dedi ki, bu imarətin arxasını hər yandan yüz zər'dən də artıq kərpic və əhənglə işləmişdilər. Dərinliyi isə on zər'dən əskik olmazdı. Torpağı qazıb içini doldurmuşdular. O, bunu da əlavə etmişdi ki, bu binaya aid bütün şeyləri öyrənmək çətin deyil, ancaq bu kərpiclərin torpağının və gəclə əhəngin haradan gətirildiyini bəlli etmək mümkün olmadı. "Kərpiclərin arasına bax, gəcin qalınlığı kağız vərəqi kimidir!"

Mən bu binadan min addım aralı yerləşən qonaq evində olmuşam. Orada yerin altından çıxan kiçik bir günbəz görmüşəm. Onun ortasında dairə çəkilmiş, mərkəzdə gözəl bir xalı qoyulmuş və üstünə daşlar düzülmüşdü. Dedilər ki, burada dərviş alimlər yığılıb çalışırlar. Onun binası kərpiclə gəcdən idi. Dedilər ki, bu tərəflərdə belə tikililər çoxdur.

## Hekayət

Xalq arasında məşhur bir dastan var ki, Naibüssəltənənin dövründə özünü həddinən artıq binamuscasına aparan bir arvad olub. Buyurur ki, o qadını həmin tağın başından aşağı atsınlar. Cəllad onu götürüb atır, ancaq külək arvadın paltarını hava ilə doldurur və o, sağ-salamat yerə enir və heç bir yerinə ziyan dəymir. Onda arvadın libasını ayaqlarına bağlayıb təzədən atırlar. Bu dəfə onun sümükləri əzilir və ölür.

## Ustad-Şagird məscidinin təsviri

Bu məbəd Miyarmiyar məhəlləsində yerləşir. İndi şəhərin mərkəzindədir. Təbriz camaatı deyir ki, bir ustad və bir şagird adıçəkilən məscidi tikmişdilər. Bu imarətin əsasını Əmir Şeyx Həsən Çobani qoymuşdur. Həşri yazır ki, bu binanı Kiçik Şeyx Həsən adı ilə məşhur Əlaəddin tikdirmişdi. Məscidin adı Əlaiyyədir, kitabədə yazılmış padşahın adı isə Süleymandır və o, Şeymət bin Hulakunun nəvəsi olub. Şeyx Həsən bu binanın tikintisini yeddi yüz qırx ikidə[1] bir il ərzində tamamlamışdı. Bu

---

[1] Miladi təqvimilə 1341/42

məsciddəki yazılar Xacə Abdullah Seyrəfinin yazılarıdır. Məscidin şərq tərəfindəki bəzi yazılar Seyrəfinin şagirdi tərəfindən çəkildiyinə görə bu məscidə Ustad-Şagird adını qoyublar.

İndi genişsahəli həyəti, dörd kərpic divarı və həyətin sonunda mehrabı var. Məscidin günbəzi həyətdəki mehraba baxır. Bu günbəz böyükdür, hündürlüyü on zər'dir. Həyət dördbucaq şəklindədir və onun hər tərəfi on beş zər'dir. Bu məbəd zəlzələ vaxtı dağıldı. Naibüssəltənə Abbas Mirzə bu imarəti bərpa etdi. Miyarmiyar məhəlləsinin sakinləri də o işdə iştirak etdilər. Ailəsi haqqında yazdığım Hacı Mirzə Yusif Təbatəbai bu məscidin imamı olub. Ondan sonra yenidən dağıldı və həmin günbəzlə uçmuş divarlardan başqa heç nə qalmadı.

Uzun illər baxımsız qalmışdı və min iki yüz doxsan beşinci ildə[1] Hacı Mirzə Məhəmməd Əli Avansəri Qaracadaği öyüd-nəsihət və təşviq-təbliğ yolu ilə Təbrizin əmirlərini, əyanlarını və tacirlərini toplayıb bu binanı bərpa etdi və həqiqətən də yaxşı iş gördü. Mənim o fəqihlə dostluğum olmasa da, yaxşılığı danmaq bizə yaraşmaz. Həyətdə hələ böyük hovuz da tikilmişdi. Həmin hovuz indi də yararlı vəziyyətdədir. Bu işdə çox səy göstərdiklərinə görə Yaradan da onlara mədəd qıldı. İndi ora abad bir məsciddir və o özü həmin məbəddə imamlıq edir. Orada mübarək ramazan ayında moizələr oxunur və həmçinin həzrət Hüseynin (ə) adına təziyələr deyilir. Bu məscid sadədir və onun günbəzli həyətində qadınlar üçün ayrılmış hücrələrin və arakəsmələrin heç bir yerində mərmərdən və kaşıdan istifadə olunmamışdır. Bilmirəm, Əmir Şeyx Həsənmi belə sadə tikdirmişdi, ya illərin axını zinətləri bada verdi.

## Təbrizin Came [Cümə] məscidi haqqında

Təbrizin bizim vaxtımızda cümə namazı qılınan Camesi bazarın arxasında və Talibiyyə mədrəsəsinin ortasında yerləşir. Həmin məkanda üç məscid var. Biri çox qədimdir. Onun banisi

[1] Miladi təqvimilə 1877-78

və tarixi məlum deyil. Tağları hündür deyil və bu səbəbdən təbrizlilər ona “Alçaq məscid”, yəni “məscede-pəst” deyərlər. Bu məbədə camaat günorta vaxtı yığışar. Digər qədim məscid Camenin böyründə olub. Dağılandan sonra mərhum Molla Məhəmməd Məməqani yerli müxlislərin və müridlərin xahişi ilə onu tam təmir etdi. Qırx ədəd mavi daş sütunun üstündə dayanır. Mühəndislər o binanın yerini yaxşı seçiblər. Başqa məscid kiçikdir və Molla Məhəmməd Həsən Pişnamaz məscidi adı ilə məşhurdur. O da təzə binadır.

Came məscidinin bünövrəsini qoyanın adı naməlum qalıb. Zəlzələdən dağılandan sonra məşhur əmir Hüseynqulu xan Dünbüli köhnə bünövrənin üzərində yenidən tikdirmişdi. Bu məscid hündür, uzun və enlidir. Uzunluğu … zər’* və eni … [əlyazmada bu yer boşdur] zər‘dir. Gəclə kərpicdən inşa edilmiş tağların və hücrələrin tayı-bərabəri yoxdur. Başıörtülülərin qalmağı üçün iki tərəfdən son illərdə hücrələr tikilmişdi. Bu camedə mərmər daşından və kaşıdan istifadə olunmayıb. Belə deyirlər ki, bu məbədin birinci binasını osmanlılar tikdirmişdilər.

## Fayda

Bu camedə iki xalis mərmər parçası vardır. Onlardan biri məscidin ortasında, tağda, üzü şimala qoyulmuşdu. Onun uzunluğu bir zər’* yarımdır, eni bir Təbriz zər’idir. Bu daşın üzərində süls xətti ilə on iki sətir həkk olunmuşdur. Bir gün həzrət vəkil zəhmət çəkib oraya buyurmuşdu. Mənimlə bir çevikyazan da ondan ötrü məscidə gəlib daşın üstündəkini oxuduq və o məmur yazdı. Daşın üzərində nəqş edilənlər aşağıdakılardır.

## Fərmanın surəti

Sayı ulduzlar qədər olan ordunun əmiri, Xeyrülbəşər astanası torpağının şahı, on iki imam məzhəbinin himayədarı, əmirülmöminin Heydər Əli bin Əbi Talibin qulamı, əs-Sultan bin

əs-Sultan Əbülmüzəffər Şah Təhmasib Bahadır xanın (Allah onun var-dövlətini qorusun!) fərmanı elan olmaq şərəfinə yetişdi.

Od il[1], doqquz yüz yetmiş ikinci ilin şaban ayının on ikisi[2], şənbə gecəsi həqiqətən yuxuda həzrət Höccəti-qaim, Sahibül-əmr vəz-zəmanı (salavatür-rəhmani əleyhi) yuxuda gördüm. Şərəfli qaməti hündür, qaşları düz, mübarək alnı açıq, baş və bığ saçları xurma rəngində, gözləri və qaşları qara, müqəddəs üzü zahidlik həyatını sürən adamlarda olduğu kimi zəif görünürdü. Əmmaməsiz şərəfli başında qırmızı səqirlatdan[3] tac var idi. Sırıqlı nazik paltarı noxud rəngində, üstdən geyinmiş sırıqlı nazik balapuş isə ağ rəngdə idi. Mübarək ayaqlarında sarı tumac şalvar geyinmişdi. Heç kəs o həzrəti görmürdü və uca səslə söz buyurduğuna baxmayaraq məndən başqa heç kim onun mübarək səsini eşitmirdi. Həzrətin zühurundan dərhal sonra mən qışqırdım və kimsə eşitmədi. O həzrət tağın divarından (divarın uzunluğu təxminən on zər'* olub) peyda olandan sonra, nursaçan üzü Qibləyə, arxası isə qərbə tərəf vəziyyətdə əyilərək əyləşdilər və dabanları bir-birinə yaxın, amma daban dabana toxunmamış halda qoydular. Qabağa gedib o həzrətin mübarək sağ ayağının şalvarını öpdüm. Bundan sonra o həzrət qalxıb xoş münasibətini ifadə edərək buyurdu: – O vergiləri bağışlamaqla yaxşı iş gördün. Qalanları da bağışla. Yenə buyurdu: – Biz səndən razıyıq (və ya səndən razı qaldıq). Bu iki ifadədən hansını buyurduğu indi yadımda deyil. Ondan sonra buyurdu: – Günü-gündən ömrün uzanır və dövlətin artır. Mən ərz etdim: – Madam ki, bu işimi qəbul etmisiniz, qalanları da yerinə yetirərəm. Bundan sonra o həzrət mənim anlaya bilmədiyim tərzdə qeyb oldu. O qeyb olandan sonra mən, təbii ki, həmin cümə axşamı günü[4] o həzrətin (salavatüllahi əleyhi) əmrini yerinə yetirmək naminə Azərbay-

---

[1] "Od il" sözləri mətndə türkcə yazılmışdır.
[2] Miladi təqvimilə 15 mart 1565
[3] Səqirlat – parça növü.
[4] Burada uyğunsuzluq müşahidə olunur, çünki rəvayətin əvvəlində bu hadisənin şənbə günü baş verdiyindən deyilmişdi. Əslində isə 972-ci ilin şaban ayının on ikisi məhz cümə axşamı gününə təsadüf edir.

can, İraq, Fars, Xorasan, Şiraz və Gilan məmləkətlərinin vergilərini və xüsusilə zərbxanalarda indiyə qədər bağışlanmamış qızıl və gümüş rüsumunu da bağışladım və onun savabını on dörd məsum həzrətə (salavatüllahi və səlamühü əleyhim əcməin) bağışladım və bu hədiyyənin savabını həzrət Sahibüləmrə (salavatüllahi əleyhi) bağışladım. Buna görə paytaxt Təbrizin və Ərzurumla İraqın bölgələrində toplanmış üç min səkkiz yüz səksən beş tümən və səkkiz yüz dinara bərabər məbləğ göstərilən tarixdən dayandırılmış sayılsın. Heç bir məxluqdan heç nə tələb etməsinlər və bu pis bidəti bütün məmləkətlərdə olduğu kimi kənara qoysunlar. Bundan sonra Ali divanın hörmətli məmurları illik dəftərlərində o məbləği yazmasınlar və həmin qeydləri dəftərlərin səhifələrindən silsinlər... [1] Od il doqquz yüz yetmişinci ilin şəvval ayının on üçündə[2] Əlaəddin yazdı.

## Həsən padşah[3] məscidi

Həsən padşah əvvəl Sahibabad meydanında mərmər daşından və kaşıdan məscid, mədrəsə və xanəgahlar tikdirmişdi və oraya məşhur kəhriz də qazdırmışdır. O məscid Cahanşah məscidindən bir neçə dəfə böyük idi. İndi o yerdə damı taxtadan olan məscid və dağılmış, bir ovuc boyda kiçik mədrəsə vardır. Nə daşı, nə kərpici, nə də kaşısı var. Mənim daha bu məscid haqqında deməyə bir sözüm qalmayıb. Binanın girişi üstündə şəbəkə ilə bəzədilmiş bir mərmər daşı qoyulub və həmin daşın üzərində yazı nəqş edilib.

## Sahibüləmrin (əccələllahü fərəcəhü) məqamı

Burada iki məscid var. Biri o yerin Qiblə tərəfindədir. Deyirlər ki, vaxtilə bu yerdə həzrət Höccəti (ə) görüblər. Bu məs-

---

[1] Bundan sonra əlyazmada oxunmayan və anlaşılmayan bir neçə sətir gəlir.
[2] Miladi təqvimilə 4 iyun 1563
[3] Ağqoyunlu dövlətinin banisi Uzun Həsən (1423-1478).

cidin möhkəm və hündür günbəzi var. Onun hündürlüyü ... [yazılmayıb] Təbriz gəzinə* bərabərdir. Dördbucaqlı həyəti var və hər yanın uzunluğu ... [yazılmayıb] gəzdir*. Məqam və ziyarət olunan yerin bayırdan dəmir şəbəkəsi var. İçəridə də şəbəkə var, ancaq oraya heç kim getməz, həm hörmət edərlər, həm də qorxarlar. Həmin günbəzin altında içəri tərəfdə bütün divar boyu həyətə açılan hücrələr tikilib. Bu binanı Cəfərqulu xan Dünbüli hicrətin min iki yüzüncü ilində[1] bərpa etmişdi. Belə yazılıb: “Xanın hökmü ilə bu məscid abad oldu”. Höccətin məqamı olan yeri son illərdə rus səfirliyində mütərcimbaşı vəzifəsini tutmuş və dövlət sahibi olmuş Mirzə Əli Əkbər ayna ilə zinətləndirmişdi. İndi isə hekayət dinləməyin vaxtı çatıb və təcrübə toplamağın özü də gözəl adətdir. Yazan öz kitabında budaqdan budağa uçub sözü sözə qatar ki, oxuyanın marağı artsın və təbiəti mülayimləşsin.

## Hekayət

Hicrətin min iki yüz altmış beşinci ilində[2] Təbrizdə idim. Nəvvab şahzadə Məhəmməd Rəhim Mirzə ilə gəzintiyə çıxdıq və bərənin vasitəsilə Acırud çayının o biri sahilinə keçdik. Dedilər ki, orada ceyran, quzu, qoyun, quş çoxdur. Belə oldu ki, biz ovçulardan uzaqlaşdıq. Biz Sərdrud çayına çatanda gecədən hələ çox keçməmişdi. Körpünün üstündə olarkən birdən şəhər tərəfdə çoxlu işıqların yanmasını müşahidə etdik və hay-küy səslərini eşitdik. Dedik, bəlkə bir evi od tutub və bu işıq oradan gəlir və bu səs-küyü də yanğını söndürməyə yığışanlar salırlar. Cilovu buraxdıq. Bu vaxt şahzadənin bir neçə nökəri gəlib gözaydınlığı verdilər ki, Sahibüləmr (ə) möcüzə yaratdı. Şəhərdə və bazarda çıraqlar yandırıblar. Nə baş verdiyini soruşduq. Dedilər ki, bir qəssab inəyi kəsməyə aparırdı. Birdən inək güc eləyib kəndiri qırdı və Məqam məscidinə qaçdı. Qəssab bir ip gətirib

---

[1] Miladi təqvimilə 1785-86

[2] Miladi təqvimilə 1849

onun boynuna saldı və çölə dartdı. Birdən inək onu yerə atdı. O da yıxılıb can verdi.

Daha tez çapmağa başladıq. Sahibabad meydanına yaxınlaşanda təbillərin səsini eşitdik. Bazara çatdıq. Bütün dükanlarda çıraqlar yanmaqda idi və hər yandan salavat səsləri gəlirdi. Hamı bir-birinə gözaydınlığı verirdi ki, Təbriz Sahibüləmrin şəhərinə çevrildi və vergilərdən, hakimlərin hökmlərindən azad oldu. Bundan sonra Məqamın rəhbəri hökm sahibi olacaq. Bu yana gəldik. Məscidlə Məqam başdan-başa çıraqlarla işıqlanırdı. Mütriblər damların üstünə çıxıb təbil çalırdılar. Orada səcdə edib saraya getdik. Hökmdar Həşəmətüddövlə əyləşib söhbət edirdi.

Sabahısı da axşamadək növbə kəsilmirdi. Hər yandan o qədər adam yığışmışdı ki, iynə atsaydın, yerə düşməzdi. Ağa Mir Fəttah o inəyi gətirmişdi. Üstünü Kəşmir baftasından çulla örtmüşdülər. Adamlar dəstə-dəstə gəlib onu öpürdülər və bunu özləri üçün bir uğur əlaməti sayırdılar. Böyüklər oraya çıraqdanlar və pərdələr nəzir edirdilər. İngilis səfiri büllur çilçıraq göndərmişdi. Onu da asmışdılar. Oraya xadimlər və fərraşlar təyin olunmuşdu. Ətraf yerlərdən başda çavuş olmaqla ziyarətçi dəstələri gəlirdi. Bütün günü başqa möcüzələrdən də danışırdılar ki, bəs filan korun gözləri açıldı, filan lalın dili açıldı və filan axsaq sağaldı.

Böyüklərdən bəziləri bu işdə daha artıq canfəşanlıq göstərirdi. Qovğaçılar istədiklərini edir və ağızlarına gələni danışırdılar. O inəyin bədənində bircə tük belə qalmamışdı, hamısını dartıb çıxartmışdılar. Təbrizin əsilzadələrindən birini gördüm ki, gözlərində zəiflik var idi. Bir ay məscidin hücrələrindən birində əyləşdi ki, şəfa tapsın. Sonra Allahın hökmü ilə inək öldü və hökumət bir az təbərra etdi. Qovğa salanlar da bir balaca hirslənmişdilər, sonra özlərinə gəldilər. Xudavənd bu yerin camaatına fağır olduqlarına görə çoxlu ruzi bağışladı. Həmin hadisə hicrətin min iki yüz altmış beşinci ilində[1] baş vermişdi.

---

[1] Miladi təqvimilə 1849

## Məscidin qapısındakı mərmər daşı haqqında

Məscidin qapısına yazı ilə bəzədilmiş mərmər daşı bərkidilmişdir. Bina tağının üstündə iki gəz* ölçüdə bir parça daş var və onun üzərində süls xətti ilə aşağıdakı iki sətr yazılmışdır:

## Allah təbarəkə və təala dedi:

*Şübhəsiz ki, məscidlər Allaha məxsusdur. Allahdan başqa heç kəsə ibadət etməyin! Allahın bəndəsi Ona ibadət etmək üçün qalxdıqda az qalmışdı ki, onun ətrafında keçə kimi bir-birinə keçsinlər*[1]*. Əlaəddin yazdı.*

Burada qeyd edək ki, həmin Əlaəddin Şah Təhmasibin dövründə məşhur bir xəttat olub. Ola bilər ki, bu məscidi və Məqamı adıçəkilən padşah inşa etmişdi. Zəlzələ vaxtı dağılandan sonra Cəfərqulu xan onu bərpa etmişdi. Ancaq o da ola bilər ki, bu daş başqa yerdə olub, sonradan buraya gətiriblər.

## Başqa məscid

ki, bu məscidə qapısı var. Bir neçə il öncə şəhərin mötəbər şəxsləri onu təmir ediblər. Kiçik məbəddir. Burada Məhəmməd Rəhim Mirzə haqqında qısaca söhbət açıram, çünki bu şahzadənin mənim üstümdə böyük haqqı vardır.

## Məhəmməd Rəhim Mirzə Ziyaüddövlə

Bu şahzadə Naibüssəltənə Abbas Mirzənin on doqquzuncu övladıdır. Fəzilət sahibi və Əhli-beyt aşiqi olub. Həzrət Seyyidüşşühədanın (ə) adına məsnəvi vəznində gözəl mərsiyə yazmışdı. Əxbarı şərh etməkdə çox bacarıqlı idi, ədəb elminin bilicisi olub və danışığında ərəb kəlamlarından geniş istifadə edərdi. Savadına söz ola bilməzdi. Cavanlıq çağından rəhbər vəzifələri tutardı və ömrünün sonunadək Azərbaycanın bəzi məmləkətlərində hakimiyyət başçısı olmuşdu. Sipəhbüd* atamın qardaşı ol-

[1] Cinn. 18, 19

duğuna görə mən də onun yaxın adamları sırasında olmuşam. Mən bir iş görəndə, o cümlədən xərac yığmaq, rəhbər vəzifəlilərin və böyük kədxudaların işi, heç vaxt soruşmazdı ki, filan malı neynədin və o məsələni necə həll elədin. Təbiətcə səxavətli və cəsur adam olub. Xoy, Səlmas, Urmiya, Ərdəbil, Mişkin, Qaracadağ, Şəqaqi və Marağa kimi yerlərə hökmdarlıq edib. Vaxt var idi, Təbrizə naiblik edərdi, Azərbaycan ləşgərinin başçısı olmuşdu və bir arada xilafətin dərgahında hərb nazirinin naibi idi. İdarə etmə və siyasət qaydalarını yaxşı bilirdi. Hicrətin min iki yüz ... [yazılmayıb] ilində Səlmasda dünyasını dəyişdi. Altmış qəməri ili ömür sürdü.

Bu əzəmətli əmirzadə hicrətin min iki yüz ... [yazılmayıb] ilində xilafətin divanından Ziyaüddövlə ləqəbini aldı. Hicrətin min iki yüz yetmiş altıncı ilində şahənşah Azərbaycana səfər etmişdi. Bu şahzadə Xoyun başçısı idi. Təbrizə gəldi. Ordunun baş əmiri ona kin bağlamışdı. Dəftərdə onun ayağına əsassız olaraq böyük məbləğ yazdılar. Bundan sonra vəzifəni ondan alıb İmaməli Sultan Sipahaninin oğlu, Hüseynqulu xan Dünbülinin dövründə Xoyun qalabəyi olmuş Hacı Həsən Əli xana tapşırdılar. Bu Həsən Əli xan qazıpadşahın dövründə irəli getdi. Hacı Mirzə Ağasi onu İran əsgərlərinin acudanbaşısı[1] etdi. Şahzadə qorxudan bir neçə nəfərlə bir gecə-gündüz ərzində Xoya çatdı və oradan əyri yolla Osmanlı torpağına daxil olub o dövlətdən sığınacaq istədi. Dövlət tərəfindən böyük ehtiramla qarşılandı və İslambula[2] getdi.

Bu yandan da ordunun Baş əmiri həmin xəbəri eşidir. Mən o zaman Sərabda idim. O, məktub yazıb mənim gəlməyimi istəyir. Müizzüddövlə və Müinülmülk də məktub yazırlar və qasid onu mənə gətirir. Mən Təbrizə gedirəm və oradan yola düşmək üçün hazırlıq görürəm. Bu vaxt darülxilafətdən sərdara yazırlar ki, heç kəsi göndərmə, biz özümüz bu məsələni və Məhəmməd Rəhim Mirzənin qaytarılmasını Osmanlı sarayındakı səfirimiz Mirzə Hüseynxana tapşırmışıq.

---

[1] Acudanbaşı – baş yavər, baş adyutant.
[2] Yəni İstanbula

## Azərbaycan hökmdarı Müizzüddövlənin yazdığı məktubun surəti

Gözümün nuru Nadir Mirzə!

Bilməyə müvəffəq olmalısınız ki, əziz qardaş Məhəmməd Rəhim Mirzə qaydaları pozaraq Rum sərhəddinə getmiş və bu hərəkətilə mənim kədərlənməyimə bais olmuşdur. Bu işin həlli ondan ibarətdir ki, onu hər vəchlə yola gətirib tezliklə geri qaytarsınlar. Mən burada ordu sərdarı[1] ilə onun işini bir yolla qaydaya salmağa çalışıram ki, ona zərrə qədər ziyan dəyməsin. Gözümün nuru onun dilinə və xasiyyətinə yaxşı bələddir. Cənab sərdar Dehxarqandakı mənzilindən mənə xüsusi məktub yazmışdır ki, Siz onun şəhərə gəlməyinə hazır olasınız. Sizə bu işin çözülməsi üçün zəhmət veriləcək ki, gedib onu gətirəsiniz. Onun işini nə qədər tez bitirsəm, bir o qədər yaxşıdır, çünki bu saat paytaxtda ondan başqa bir şey haqqında danışan yoxdur. İnşallah, iş öz həllini tapar. Bu yazı çatan kimi, tez-tez, üzrsüz-zadsız ki, ay taxıl məsələsi qaldı, ya filan rəiyyət işi qatma-qarışıqdır, və ya filan tapşırıq təxirə salınıb, bir söz də ağızdan qaçırmayıb şəhərə yola düşün ki, şənbə gününə qədər, inşallah, hazır olasınız.

1267-ci ilin rəbiül-əvvəl ayının 14-ü[2].

## Ordunun Baş əmirinin yazdığı məktubun surəti

Mehriban oğlum!

Sizin mənim hüzurumda olmağınız çox lazımdır. Sizi göndərmək istəyirəm ki, gedib şahzadə Məhəmməd Rəhim Mirzəni qaytarasınız. Əlbəttə, məktub çatan kimi ləngimədən gəlin ki, göstəriş verib Sizi yola salım. Təxirsiz-tərəddüdsüz gəlməlisiniz. Daha nə yazım.

1267-ci ilin rəbiül-əvvəl ayı[3].

---

[1] Yəni, ordunun Baş əmiri, Baş komandanı ilə

[2] Miladi təqvimilə 17 yanvar 1851

[3] Miladi təqvimilə  təqribən 1851-ci ilin yanvar ayı

## Məqamın həyətindəki mədrəsə haqqında

Bu mədrəsəni rus səfirliyinin katibi Mirzə Əli Əkbər tikdirib. Çox möhkəm və geniş yerdir. Sahibdivan Mirzə Fətheli xan burada su anbarı inşa edib ki, ətraf məhəllələrin adamları yayda həmin dadlı sudan apara bilsinlər. Olduqca savab işdir, çünki orada su olmayıb.

## Şahzadə Naibüssəltənə məscidi haqqında

Sarayın yaxınlığında imarət tikdirmişdi. Məbədin və mədrəsənin inşa edilməsini istəmişdi. Bünövrəsini qoydular, ancaq Rum və Rus müharibələri işi tamamlamağa əngəl oldu və tikilənlər də dağıdıldı. Hicrətin min iki yüz ... [yazılmayıb] ilində cavanlıqda ayüzlü və qarasaç oğlan olmuş onun yetim qalan Mehdiqulu Mirzə adlı oğlu bu məscidi tikdirdi və mədrəsənin də inşası üçün tədbir gördü. Bizim sarayımızın oraya yaxın olduğundan mən o əmirzadənin hər gün gəlib işlərə rəhbərlik etdiyini görürdüm. Məscidin inşası tamamlandı, mədrəsə də tikildi və adıçəkilən əmirzadə Sərabın Eyvəq adlı kəndindən əldə etdiyi gəlirin yarısını buna vəqf edti. Bu məbləğdən otuz töməni ona qoydu ki, hər ramazan ayında o məscidə vaiz gətirsinlər və o qızılı ona versinlər. İyirmi töməni məbədin mühafizəsinə baxan xidmətçiyə verirdilər. On tömən də həsir pulu idi. İndi uzun illərdir ki, onun oğulları heç nə vermirlər. Hal-hazırda onun böyük oğlu oranın başında durub.

## Dalüzal[1] məscidi haqqında

Məhadmehin məhəlləsində köhnəlmiş bir məsciddir. Deyirlər ki, orada edilən dualar qəbul olunar. Həşri burada da bir əfsanə söyləyib, amma onu haradan tapdığını bilmirəm.

[1] "Dal" və "Zal" ərəb əlifbasında hərf adlarıdır.

## Hacı Molla Əli məscidi

Yüz ilə yaxın ömür sürmüş və hal-hazırda da sağ olan Süleyman xan Əfşar tikdirib. Geniş və hündür məsciddir. İndi günbəzi çatlayıb və onu təmir edəni də yoxdur. Süleyman xanın da əli aşağıdır. Bundan öncə yad etdiyim məscidlərdən başqa məhəllələrdəki taxta ilə örtülüləri nəzərə almasaq belə böyük şəhərdə məbəd yoxdur. Belə məscidlərdə imam, qari və müəzzin də olmur. Təbriz camaatı buraya yalnız günorta fərizəsindən ötrü gələr. O da iki-üç yerdə olar və bəzən daxili istəkdən, çox vaxt isə riyakarlıq üzündən baş verər. O həmin adamlardır ki, canavar kimi xalqın malını əlindən alır və yaxud almaq istəyir. Əfsuslar olsun ki, bu boyda şəhərdə bircə məscid yoxdur ki, deyəsən: “Bəli, bu əzəmətli bina müsəlmanların ibadətgahıdır”. Heç kəs deməz ki, bura islam dünyasının iri şəhərlərindən biridir və burada əzəmətli məscid olmalıdır. Təbrizin böyükləri məclisdə oturanda yalnız bağda ağac əkməkdən, kəhriz qazmaqdan, kənddə məhsul yığmaqdan, taxılın qiymətindən, kişmiş ilə badam ləpəsi ticarətindən söhbət edərlər və heç vaxt heç kim Allahdan və Onun rəsulundan bir söz deməz. Bu xalqın dünyagörüşü belədir. Şəhərdə bir neçə yeni tikilmiş məscid var. Allahın evi olduqlarına görə onlardan da danışaq.

## İmami-cümə məscidi

ki, Məscidi-səbz[1] adı ilə məşhurdur, çünki o məscidin sütunları yaşıl rəngdədir. Bu məbədi Hacı Əli adlı dindar tacir hicrətin min iki yüz əlli beşinci ildə[2] inşa etmişdi. O kişi Xoy şəhərinin sakinidir. Bu məbəd Came məscidinə yaxın yerləşir. Bura görkəmli imami-cümə Hacı Mirzə Lütfəlinin yeridir. Səhərlər burada dərs deyərdi, şam və xiftən namazlarını da bu yerdə iqamət edərdi. Onun atası Camedə zöhr namazlarını iqamət

[1] Məscidi-səbz – yaşıl məscid.
[2] Miladi təqvimilə 1839/40

edərdi və adıçəkilən oğlunun özü də mömin adamlardan olub. İndi fəzilət sahibi, dindar və zahid Hacı Mirzə Cəfərin oğlu Hacı Mirzə Musa burada imamlıq edir.

## Məscidi-zimistani[1]

Bu məscidi Hacı Mirzə Baqir Müctəhid (r.ə.) inşa etdirmişdir, xərclərini isə Təbrizin böyükləri çəkmişdilər. İndi fəzilət sahibi, alim və dindar oğlu Hacı Mirzə Həsən zöhr namazlarında orada imamlıq edir.

## Mirzə Mehdi məscidi

Bu məscidi qari və hafiz Molla Məhəmmədin oğlu Mirzə Mehdi Müctəhidin adına bina ediblər. O kişi kamil fəzilət sahibi olmuşdu. Mübarək ayda təlim tədbirləri keçirib orada Molla Möhsün Feyzin təfsirini camaatın nəzərinə təqdim edərdi. Fəqih, üsulüddin və atasından öyrəndiyi təcvid elminin bilicisi idi.

## Xəzinə məscidi[2]

Bu məscidi hicrətin min iki yüz ... [yazılmayıb] ilində Hacı Mirzə Yusif Təbatəbai bina etmişdi və bir dəstə tacirlə xeyirxah adam həmin işi yerinə yetirmək üçün qızıl vermişdi. Bünövrəsini qazanda torpağın altından qızıl və gümüş sikkələrlə dolu iki böyük kuzə üzə çıxmışdı. Fəhlələr qaçıb o qızıl-gümüşü qarət etdilər. Bu zaman dövlət xidmətçiləri gəlib yerdə qalan gümüşü yığdılar və vəliəhd həzrətlərinin sarayına apardılar. Vəliəhd o sikkələri məscidin inşasına sərf etmək üçün Hacı Mirzə Yusifə verdi. Mirzə dedi ki, yeddi mən* min misqal* qalıb. O gümüş sikkələr müxtəlif olub. Çoxusu Rumda oturan, Keykavus və

---

[1] Məscidi-zimistani – qış məscidi.

[2] Bu məscidə həm də "Hacı Mirzə Yusif Ağa məscidi" və "Qızıllar məscidi" deyirlər. İslam inqilabı əsnasında Təbriz camaatının qiyamı məhz həmin məscidin önündən başlamışdı.

Keyqubad kimi qüdrətli Səlcuqi padşahlarının adına kəsilmişdi. Bu sikkələri firənglər ağlasığmaz qiymətə aldılar. Həmin günün sabahısı xalis qızılla dolu kiçik kuzə tapıldı. Adamlar və həmin gözətçilər qaçdılar. Səksən beş sikkədən artıq ələ keçmədi, amma dedilər ki, kuzənin olduğu yerdə beş yüz ədəd var idi. Qızıl pulların hamısı Nasir və Mütəzz Abbasinin adına idi. Gümüşlərin çəkisi aşağı-yuxarı iyirmi noxud[1], qızılların isə iki və üç misqal* olub. Həmin sikkələr indi də bazarda sərrafların əlinə düşür.

## Talibiyyə mədrəsəsi haqqında

Came məscidinin nəzdində məşhur və abad mədrəsə olub. Üç tərəfi altda və üstdə hücrələrdir. Tələbələri də çox idi və ərəb dilinin tədrisində seçilirdi. İndi onun nüfuzundan bir şey qalmayıb. Belə deyirlər ki, banisi Azərbaycanın vəziri Mirzə Əbu Talib olub. Mən onun kim olduğunu və hansı tarixdə yaşadığını bilmirəm.

## Sadiqiyyə mədrəsəsi

Bu mədrəsə bazarın ortasındadır. Gözəl məscidi var. Bina edəni Mirzə Sadiq dağlılardandır. Tehranın on fərsəngində* yerləşən İştihard adlı kəndindəndir. İndi onun varisləri orada yaşayırlar. Bu məscidlə mədrəsənin vəqf olunmuş kəndi, hamamı və bazarı da var idi. Sadiqiyyə bazarı abad yerdir. Vaxtilə həmin bazar xarabazarlığa dönmüşdü, ancaq Naibüssəltənə onu yiyəsindən illik üç yüz tümənə otuz ilə icarəyə alıb təmir etmişdi. Hər il icarə haqqı tələbələrə çatırdı. İcarə müddəti başa çatanda tamah onun rəhbərlərinə qalib gəldi və onlar divana gəlib dedilər ki, bazar artıq onların ixtiyarına keçir. Xeyirxah adamlar onlara məsləhət gördülər ki, yaxşısı budur, o üç yüz töməni alsınlar[2],

---

[1] Noxud – təqribən 0,2 qrama bərabər olan çəki vahidi.

[2] Yəni almağa davam etsinlər

sözə baxmadılar. Hökumət məmurları ona böyük vergi qoydular və varisə verdilər. İndi böyük xərcə düşdüklərinə görə tələbələrə bir şey qalmır. Bu səbəbdən mədrəsə daha işləmir, müəllimlərlə tələbələri də yoxdur. Mədrəsənin mövqufatından[1] çox yaxşı hamamı olub, amma indi dağılaraq zibilliyə dönüb.

## Hacı Səfərəli mədrəsəsi

Bazarın ortasında tikilmişdi. Bura İmami-cümə məscidinin banisi olan hacının xalasının mülküdür. Yaxşı mədrəsəsi və gözəl məscidi vardır. İndi də abaddır.

## Hacı Ağa mədrəsəsi

Bu mədrəsə ilə məscidi Xacə Mazandarani [adı ilə məşhur olan] Hacı Əli Əsğər şəhər əmirinin sarayı ilə yan-yana yerləşən öz sarayının yaxınlığında tikdirmişdi. Mədrəsə balaca, məscid isə çox zərif tərzdə inşa edilmişdir. Bu yaxınlarda məscid çatlayıb dağılmışdı. Naibüssəltənənin qızı İqlimiyyə xanım onu bünövrədən yenidən bərpa etdirdi. Bu şəhərdə başqa məscid yoxdur.

## Seyyid İbrahim

Şütürban məhəlləsində günbəzi və sanduqəsi olan bir məzar vardır və mən Əbülfərəc İsfahaninin[2] "Məqatilüt-talibin" əsərində və "Ümdətüt-talib"[3] kitabında onun barəsində heç bir məlumata rast gəlmədim. Çarəsiz qalıb bir şey yazmıram, amma bu şəhərdə belə məzar və bir-iki başqası mövcuddur. Ola bilər ki, bu yerdə hörmətli seyyid və Allah adamı, məşhur mühəddis Molla Məhəmməd Məməqani (r.ə.) dəfn edilib.

---

[1] Mövquf və ya mövqufat – vəqf üçün ayrılmış mülk, mal və s.

[2] Əbülfərəc İsfahani təqribən 970-ci ildə vəfat etmişdir.

[3] "Ümdətüt-talib fi ənsabi-ali-Əbi Talib" əsərinin müəllifi XIII-XIV əsrlərdə yaşamış Cəlalədin Əhməddir.

# Təbriz üləmalarının iki qismi haqqında

Bu şəhərdə islam alimləri iki qismdir. Biri fəqihlərlə üsulilərdir, digəri isə şeyxilərdir, Şeyx Əhməd bin Zeynəddin Əhsainin (r.ə.) davamçıları kimi. Həmin adam böyük alim və müstəcabüd-də’və[1] olub. Hicrətin min iki yüz ... [yazılmayıb] ilində Mədineyi-münəvvərədə Haqqın rəhmətinə qovuşub. Bəqi’i-Ğərqəddə dəfn olunub. Bu iki firqə arasındakı ixtilaf ondadır ki, Şeyx və onun davamçıları deyirlər ki, Allahın mərifəti və peyğəmbərlə on iki imamın (ə.s) mərtəbəsi fərizədir və onları öyrənmək vacibdir. Fəqihlər isə deyirlər ki, vacib deyil, amma öyrənsələr, yaxşı iş görərlər[2]. Ondan başqa fəzilətlərdə və məsələlərdə də ixtilafları çoxdur, ancaq onları qeyd etməklə sözümüzü uzatmış olarıq. Həmin fəzilət sahibi

**Molla Məhəmməd Məməqani**

uzun müddət Şeyxiyyənin başçısı olub. Hədis söyləyən, moizə oxuyan və fiqhi bilən adam idi və çox faydalı öyüd-nəsihət verərdi. Ona höccətülislam deyərdilər. Hicrətin min iki yüz altmış doqquzuncu ilində[3] bu dünyadan köçdü. Üç oğlu qaldı. Birincisi

**Mirzə Hüseyn**

fəzilət sahibi və hədis söyləyən olub. Bilən adamlardan eşitmişəm ki, gecələr yatmayıb ibadətə məşğul olardı. Atası kimi ona da höccətülislam deyərdilər. Hicrətin min iki yüz [yazıl-

---

[1] Müstəcabüd-də’və – duası qəbul olunan.

[2] Ayətüllah Mərəşi Nəcəfi Nadir Mirzənin bu fikri ilə əlaqədar əlyazmanın haşiyəsində yazmışdı ki, “Şiə alimlərindən heç biri deməmişdi ki, Həzrətlərin (ə) mərifəti lazım deyil. İxtilaf miad ilə meracın ünsüri vəya hüvərqılyayı cismində olmağında və digər məsələlərdədir və Şeyx Əhməd də bu sözlərin ilk söyləyəni olmayıb...”

[3] Miladi təqvimilə 1853/54

mayıb] ilində başqa dünyaya köçdü. Cənazəsini Hüseyn bin Əlinin (əleyhimassəlam) şəhadət yerinə apardılar. İkincisi

**Mirzə Təqi**

fəzilət sahibi, hədis söyləyən və fiqhi biləndir. O da atasının ləqəbinə malikdir. Üçüncüsü

**Mirzə İsmayıl**

fəzilət sahibi, fiqh bilicisi, peyğəmbər hədisi söyləyən və zahiddir. Təbriz əhlinin böyük hissəsi bu ailənin müridləridir. İndi alimlərin bu qisminin başında adıçəkliən ailə ilə Hacı Mirzə Şəfinin ailəsi durub. Bu ailə haqqında isə başqa fəsildə danışacağam. Təbriz üləmalarının

**Başqa qismi**

Mirzə Əhmədin adlı-sanlı, hörmətli və dövlətli nəslidir. Onlar öz izzəti, mənliyi, biliyi və əməlləri ilə seçilirlər. Şər'i fətva verənlərlə mühakimə edənlərin əksəriyyəti bu ailədəndir. Həmin evin ən böyük hörmət sahibi isə

**Mirzə Əhməd Müctəhid**

olub. Öz alicənablığı ilə seçilirdi, dərin biliyi və fəziləti ilə şöhrət qazanmışdı. Onun vaxtında abad mədrəsələr və savadlı tələbələr çox olmuşdu. Mən də orada, oğlunun sinifində təhsil almışam. Bu görkəmli şəxsiyyət ömrünün ilk çağından ahıllıq məqamınadək təhsil sahəsində çalışaraq böyük müvəffəqiyyət əldə etmişdi. Dövlət xidmətindən kənarda qalıb din elmlərinin öyrənilməsinə məşğul olaraq ictihadın əsaslarına qədər irəliləmiş və Əllamə Hüllinin (Allah ondan razı olsun!) "Ərşad"ına gözəl şərh yazmışdı. Bu alim ərəb şeirini söyləyər və lüğət, məna, bəyan və ədəbiyyat elminin digər sahələrinin əsl ustadı olmuşdu.

Min iki yüz qırx üçüncü ildə[1] ruslar Təbrizi işğal edəndə Ağa Mir Fəttah Eristovu[2] şəhərə gətirdiyi gün bu hörmət sahibi öz övladları ilə İraqa getmək üçün Sərab yoluna çıxdı. Əsfüruşan kəndinə çatanda Şəqaqi kürdləri tayfasının başçılarından ibarət bir dəstə onları qarət edib olan-qalanı əllərindən almışdı. Adıçəkilən kişi min bir əziyyətlə Qəzvinə gəldi. Bu əhvalatı eşidən Böyük Xaqan iki min tümənlik qızıl, habelə çoxlu üst-baş göndərərək onun ürəyini sakitləşdirmişdi. Rus ordusu Təbrizdən gedəndən sonra isə ehtiramla evinə qayıtdı və din başçısı vəzifəsinə keçərək uzun ömür yaşadı və onun möhürünün səhv hökmə vurulduğunu da görən olmadı, çünki şəriət hökmlərində çox ehtiyatlı olmuşdu. İndi də onun yazdığı və möhürlədiyi sənədlərə söz ola bilməz. Hicrətin min iki yüz altmış beşinci ilində[3] əbədi behiştə köçdü. O gün Təbrizin küçə və meydanlarında böyük izdiham müşahidə olunurdu. Adamlar adət üzrə təziyələr verirdilər və bu təziyələr iki aydan artıq davam etdi. Şəhərin məhəllələrində və məscidlərində yeməklər verilirdi, qarilər ard-arda mübarək ər-Rəhman surəsini və Nur ayəsini oxuyurdular. Novhəxanlar əllərində ələm gəlib başsağlığı və təsəlli verirdilər.

Bu alimin dörd nəfər adlı-sanlı oğlu olub. Onlardan ikisi atalarının sağlığında əbədi dünyaya köçmüşdülər. Onlar haqqında müvafiq yerdə sözümüzü deyəcəyik. Həmin iki nəfərdən sonra Hacı Mirzə Baqir gəlir.

## Hacı Mirzə Baqir

Onun təvəllüdü hicrətin min iki yüz iyirmi birinci ilinin səfərülmüzəffərin on altısına[4] təsadüf edir. Yaşda o iki qardaşdan kiçik, sözünün keçərliliyində isə üstün olmuşdu. Atası və qardaşları sağ ikən bir çətinlik düşəndə o dürüst adamın rəyini əsas götürərdilər. O zaman evin maliyyə işlərini həmin kişi idarə

---

[1] Miladi təqvimilə 1827/28
[2] Eristov – gürcü əsilli rus generalı.
[3] Miladi təqvimilə 1839/40
[4] Miladi təqvimilə 5 may 1806

edərdi. Atası gedəndən sonra birinci cümə Təbrizin Camesində cümə namazında imamlıq etdi. Müctəhid yeri atasından ona keçmişdi və şər'i işlərdə onun möhürü olduqca etibarlı sayılardı. Onun hökmləri hamı tərəfindən hörmətlə qarşılanardı. Böyük Atabəy Mirzə Təqi xanın Xorasanda və İranın digər məmləkətlərində yaranmış gərginlikdən başı açılandan sonra baxıb gördülər ki, bu görkəmli şəxsin səyi nəticəsində hökumətin Təbrizdə nüfuzu heçə enib. Öz əzəmətinin əldən getməyindən narahat olaraq Süleyman xan Əfşarı bu şəhərə göndərdi və Hacı Mirzə Baqir Müctəhidin, eləcə də şeyxülislam Mirzə Əli Əsğərin və oğlu Mirzə Əbülqasımın sarayına gəlmələrini tələb etdi. Şeyxülislamla oğlunu gətirdilər və mən o barədə öz yerində yazmışam, ancaq adıçəkilən kişi fərmana tabe olmadı və hamı onun bu hərəkətini dəstəklədi. Xatirəmdədir ki, o günlərdə hər gecə mindən artıq silahlı Təbriz sakini onun sarayı ətrafında dolaşıb keşik çəkərdi. Bu fitnə getdikcə böyüyürdü və nəhayət xilafət dərgahından bu işin həllini şəhər kədxudalarının boynuna qoydular. Onlar müctəhidlə görüşüb dedilər ki, bu hərc-mərcliyin aqibəti yaxşı olmaz, şəhəri üsyan qaldırmaqda ittiham edərlər. Kişi çarnaçar yığışıb xilafətin paytaxtı Tehrana getməli oldu. Orada əzizlənib qarşılandı. İsfahanda vəziyyət gərginləşmişdi. Padşah o şəhərə yola düşdü və müctəhidi də özü ilə apardı. Tehrana qayıtmağından çox keçmədi ki, Mirzə Təqi xanın vəziyyəti çətinə düşdü. Mirzə Ağaxan Nuri sədri-ə'zəm* oldu və kişini sərbəst buraxdı. O da Təbrizə gəldi. Təbrizlilər onu böyük təmtəraqla qarşıladılar və onun hökmlərinə yenə də əvvəlki kimi hörmətlə yanaşardılar. Lakin hicrətin min iki yüz ... [yazılmayıb] ilində alimlərin yuxarıda adıçəkilən iki qismi arasında nifaq düşdü və üç nəfər qətlə yetirildi. Şahənşah o kişini çağırdı. Paytaxta getdi. Onun şəhərdən çıxdığı gün bazarlar bağlanmışdı. Bağmeşənin darvazasından tutmuş Vilankuhadək hər yer adamlarla dolu idi. Mən də orada idim, çünki o kişinin mənim üzərimdə haqqı böyük olmuşdu. Bağmeşənin qülləsinə çatanda o, camaatın günorta namazını yerinə yetirməkdə idi. Hamı onun arxasında durmuşdu. Bundan sonra adamlarla son dəfə vidalaşıb

paytaxta yola düşdü. Orada onu ehtiramla qəbul etdilər. Azərabadəganlı dövlət məmurları və tacirləri arasında hörməti böyük olmuşdu. Min iki yüz səksən beşinci ilin rəcəbül-mürəccəbin son günü[1] əbədi dünyaya qovuşdu. Allah ona rəhmət eləsin! Onun ölüm tarixinin sözü "ğürfə"dir[2]. Bir neçə oğlu var idi. İkisi fəzilət sahibi, zahid və dindar olub, o dünyaya köçüblər. Dördü sağdır.

## İmamı-cümə Hacı Mirzə Əbdürrəhim

Bilik və zəka sahibi, ad-san və nüfuz sahibidir. Geniş dünyagörüşünə görə adamlar arasında hörmət qazanıb. Babası və atası kimi onun da möhürü etibarlıdır. Min iki yüz əlli beşinci ilin səfərül-müzəffərin on yeddisində[3] bu dünyaya gəlib.

## Hacı Mirzə Həsən

Fəqih, fəzilət və hörmət sahibidir. Onun elmi dairəsində şəhərin tələbələri fiqh elminə yiyələnirlər.

## Cənab Hüseynağa

Fəzilət sahibidir. Hal-hazırda fiqh elmini öyrənmək məqsədilə müqəddəs yerlərə gedib.

## Mirzə Əhmədağa

Müdrik və xoşsifət bir cavandır, elmin müxtəlif sahələrini öyrənməklə məşğuldur.

## Hacı Mirzə Cavad Müctəhid

Mirzə Əhmədin dördüncü oğludur. Fiqh üsulu elmində tayıbərabəri olmayan və sözü keçən kişidir. Səxavət və kəramət

---

[1] Miladi təqvimilə 15 noyabr 1868

[2] Ğürfə sözündəki hərflərin əbcəd hesabı ilə dəyəri belədir: "Ğəyn" – 1000, "Rə" – 200, "Fə" – 80, "Hə" – 5. Toplamda 1285-ə bərabərdir.

[3] Miladi təqvimilə 1 may 1839

sahibidir. Müctəhid olmağı mütləq şəkildə tanınır. Var-dövləti çoxdur. Əmlakın dəyəri on altı min tümənə yaxındır. Yaşamaq üçün xərclədiyi pul təqribən ... [yazılmayıb] Öz malından dilənçilərə, yoxsullara və hər şeydən məhrum olanlara pay verər, ürəyi geniş və əli açıq adamdır. Bu gün Təbrizdə ondan səxavətlisi yoxdur. Hər cür hörmətə layiqdir. Cümə namazlarına bu alim rəhbərlik edir. Hicrətin min iki yüz ... [yazılmayıb] ilində dünyaya gəlib. Din elmlərindən Məşhəddə təhsil alıb, fiqh üsulunu isə bu sahədə tək və yeganə olmuş həzrət Şeyx Cəlil Mürtəza əl-Ənsaridən (r.ə.) öyrənib. Adıçəkilən Şeyx kimi bu elmi bilən dünyaya gəlməyib. Bu alimin tələbələrin kütləvi şəkildə təhsil aldığı elmi dairəsi olub. Mən də həyatımda dəfələrlə həmin dairədə iştirak etməkdən çox bəhrələnmişəm.

Sözü gedən nəsil haqqında qeydlərim başa çatdı. İndi isə Təbrizdə bineyi-qədimdən yaşamış və ya bu yaxınlarda həmin şəhəri özlərinə vətən seçmiş, elm ilə biliyə fayda gətirmiş və məmləkətin yaraşığı olmuş gözəl və kəramətli ailələr barədə.

## Şəmsülüləma Mirzə Yusif Dehxarqani

Böyük ustadımız, öz zəmanənin yeganəsi və əsrinin nadir tapıntısı, tayı-bərabəri olmayan alim, yüksək dərəcəli fəqih, üsul elminin sərmayəsi, şair və dilçi, uzaqgörənliyi və məntiqi ilə seçilən kişi. Bu gün Təbrizdə fəzilətinə görə ondan üstün olan birisi tapılmaz. Mən onun şagirdi olmağımla fəxr edirəm. Uzun illər İraqi-Ərəbdə Həzrət Seyyidüşşühəda Hüseynin (ə) astanasında və Əmirülmömininin Əlinin (ə) dərgahında qalıb. Bir neçə ildir ki, Azərabadəgana gələrək Təbrizdə məskunlaşıb. Bu görkəmli şəxs sanki çirkab quyusuna atılmış bir cövhərdir. Dehxarqanda böyük hörməti var. Bu məşhur alim Mirzə Cavadın oğlu, o isə Molla Yusif Dehxarqaninin oğludur. “Riyazül-cənnət”in[1] müəllifi onun haqqında belə yazır:

---

[1] “Riyazül-cənnət” əsərini Seyyid Məhəmməd Həsən bin Hacı Mir Əbdürrəsul Hüseyni Zənuzi Xoyi 1786-cı ildə tamamlamışdır.

“Mövlana Molla Yusif Dehxarqani elmdə, əməldə, zöhddə, imanda, itaətdə, kəramətləri, mükaşifələri və mücahidəni izah etməkdə, şəriəti tətbiq etməkdə öz əsrinin ən öndə gələnlərdən idi, təqlid elmində yüksək məharət göstərmiş və o fənnə dair çoxlu əsərlərin, o cümlədən fiqhə və hədislərə həsr edilmiş “Lövhətül-əhzan” kitabının və “Kəşfül-ğümuz və bəyanür-rümuz” şərhinin müəllifi olmuşdur. O, həmçinin ibadətdən, fiqhdən, cəlalətli faydalardan və müxtəlif mətləblərdən yazdığı “Nurül-hüda və bədrüd-düca” adlı mənzum əsəri və “Çihil sual” kitabı ilə məşhurlaşmışdır. Xülasə, adıçəkilən cənab əsl iman və təqva sahibi olmuş, kəramətləri və duaların qəbul edilməsi ilə camaat arasında şöhrət qazanmışdır. Hicrətin min doxsan beşinci ilində[1] Urmiya qələbəsi zamanı Allahın rəhmətinə qovuşdu. Onun əbcəd hesabı ilə göstərilmiş ölüm tarixini “daxili-cənnətbad”[2]dan tapdılar və onun Təbrizin tabeliyində olan Dehxarqan qəsəbəsindəki məqbərəsi aşkar edilərək o diyar əhlinin ziyarətgahına çevrilmişdir”.

Burada “Riyazül-cənnət”in müəllifi Mirzə Həsənin sözü sona çatır. Mən cənab vəkilin sarayında böyük ustad həzrətlərinə məzarın görünüşü haqqında sual verdim. Buyurdu ki, məzar indi də Dehxarqandadır, üstündəki daşmərmərdəndir və üzərində aşağıdakılar nəqş olunub:

*“Heyf olsun Yusifdən!”*[3]

*O dünyaya heç nəsiz köçdüm.*
*Yol azuqəm həsənatlar və sağlam ürək olmadı.*
*Çünki ən pis iş olar*
*Kəramət Sahibinə özü ilə nəsə aparmaq*[4].

---

[1] Miladi təqvimilə 1684
[2] “Cənnətə daxil oldu”. Hicri-qəməri ilə 1095, miladi təqvimilə 1684.
[3]Yusif. 84
[4] Mətndə ərəb dilində yazılmış bu iki beyt həzrət Əliyə (ə) mənsubdur.

Yusif şəriət dünyasını etmiş abad.
Qəmin ağrısından cahan oldu azad.
Əbədi məkanda izzət taxtına əyləşdi,
Vaxt gəldi, cənnətə daxil oldu.

İndi bu böyük alim Təbrizdə yaşayır və bütün ariflərin mərceyi-təqlididir. Onun çox səbirli və savadlı oğlu var, elm öyrənməklə məşğuldur.

# Təbrizin qədim və yeni məqbərələri və qəbiristanlıqları haqqında

*Bilmək lazımdır ki,* kitablarda və təzkirələrdə adları çəkilən məqbərələrlə məzarları indi tanıyan yoxdur və onları yəqinliklə göstərə də bilmərik. Yalnız bir yönü və tərəfi göstərərək təxmin edib deyərik ki, bəlkə də bu yer (məsələn) Çərəndab qəbiristanlığıdır[1].

## Çərəndab məqbərələri

Şəhərin cənub-qərbində yerləşən məşhur məzarlıqdır və bir çox görkəmli adamların dəfn olunduğu məkandır. Həzrət vəkil o qəbiristanlıqda yatan bir neçə böyük şəxsiyyətin tərcümeyi-halını kitablardan öz əli köçürüb mənə göndərdi. Mən də bu dövrün inşa qaydalarına xas tərzdə yazılmış həmin qeydləri heç bir müdaxilə etmədən burada gətirirəm.

## Vəkilürrüayanın* yazısının surəti

Təbrizin Çərəndab qəbiristanlığında üləmaların, əyanların və övliyaların saysız-hesabsız məqbərələri vardır. O cümlədən Əllamə adı ilə məşhur

---

[1] Çərəndab məhəlləsində yerləşən bu geniş ərazi Çərəndab qəbiristanlığı adı ilə məşhur olub. Rza şah Pəhləvinin hakimiyyəti dövründə, 1935-ci ildə Təbrizin maliyyə idarəsi həmin ərazini şəhər bələdiyyə idarəsindən satın alıb orada spirtli içkilər istehsal edən böyük müəssisə tikdirmişdi. Tikinti hələ başa çatmamış Makar adlı erməni meysatan, ardınca Xaçik adında başqa bir erməni və digər meysatanlar oraya köçüb işə başladılar. Lakin təqribən bir ildən sonra məşhur alim Hacı Mirzə Abbasqulu Çərəndabinin səyi ilə yerli əhali bu meyxananın qapısını bağlamağa müvəffəq oldu. Nəticədə müəssisə iflasa uğradı və onun binasını yerləşdiyi sahə ilə birlikdə Təbrizin mədəniyyət idarəsinə təhvil verdilər. Bundan sonra orada yeni xiyaban salındı və bir neçə məktəb tikilib şagirdlərin ixtiyarına verildi.

**Qütbəddin Mahmud bin Məsud əş-Şirazi**nin

məzarı təfsir müəllifi

**Qazı Beyzavi**nin

məzarının yanında, Qiblə tərəfində yerləşir. Bu görkəmli alim həqiqi ustadların ustadı Xacə Məhəmməd Nəsirəddin ət-Tusinin (Allah ona rəhmət eləsin!) ömrünün sonunda onun xidmətçisi olmaq şərəfinə layiq görülmüş və Xacə Nəsirə xidmət etməyin böyük bərəkətindən faydalanmışdır. Deyilənə görə, adıçəkilən əllamə bir çox böyük şəxslərə xidmət etmək şərəfinə nail olmuşdur. Onlardan biri

**Şeyx Sədrəddin Məhəmməd**

Qəzvinidir. Hədislər toplusu kitabını yazmışdır. O, Şeyxə xidmət etməyi istəmiş və icazəsini almışdı. O həmçinin Mövlana Rumi adı ilə məşhur Mövlana Cəlaləddin Məhəmməd əl-Bəlxinin də xidmətçisi olmuşdu. Təbrizin ab-havası əllamənin çox ürəyinə yatmışdı və o, özünün bəzi əsərlərində Təbrizi kəramətli “altından çaylar axan bağlar”[1] ayəsi ilə tərənnüm etmişdi. O, ömrünün sonunadək Təbrizin sakini olmuş və onun ölüm tarixi aşağıdakı qitədə öz əksini tapmışdı:

Yenə əyri çarx dayandı,
Birgünlük ay o oyundan ah çəkdi.
Hicrətdən “Zal” ilə “Yə” keçdi[2],
Qütb Şirazi pərdə arxasına çəkildi.

---

[1] Bu ifadə Qur’ani-Kərimin müxtəlif ayələrində, məsələn: Bəqərə. 25, Ali-İmran. 14 və s. buyurulmuşdur.

[2] “Zal” və “Yə” hərflərinin əbcəd hesabında dəyəri müvafiq olaraq 700 və 10-dur. Yəni onun ölüm tarixi hicrətin 710-cu (miladi təqvimilə təqribən 1310/11) ilinə təsadüf edib.

**Mövlana Şəmsəddin Müzəffər**in

məzarı Mövlana Qütbəddin Şirazinin qəbrinin yanındadır. O da böyük hikmət alimlərindən olub və Mir Seyyid Şərif "Hikmətül-yəqin"in haşiyəsində böyük hörmət və təzimlə onun adını çəkmişdir.

Qazı Beyzavi adı ilə məşhur

**Nasirəddin Abdullah**ın

məzarı Çərəndabda, Xacə Ziyaəddin Yəhya bin Xacə Əbdüləziz Təbrizinin qəbrinin şərq tərəfindədir. Onun qəbrinin üstündəki günbəz sökülmüş haldadır. Həyatının ilk çağında Şiraz qazılarının çağırışı ilə Ərğunun xidmətinə gəlir. Hərçənd tərəddüd etməsə də, görüşləri baş tutmur. Əlacsızlıqdan Xacə Məhəmməd Kəcəcinin yanına gedir və Xacədən yalvarır ki, ona tələb olunanı padşahdan xahiş etsin. Xacə onun istəyini qəbul edib deyir ki, padşah bəzi cümə gecələri bizimlə söhbət etməyə gəlir. İnşallah-təala, xahişimizi ona ərz edərik. Cümə gecəsi padşah oraya buyuranda Qazı da özünü həmin yerə çatdırır. Xacə Qazının iztirab içində olduğunu görüb padşaha deyir ki, Sizdən bir nəfər üçün cəhənnəmdə bir xalça istəyirəm. Padşah heyrətə gəlir. Xacə deyir: – Yəni, Şirazın qazılığını istəyirəm. Padşah deyir: – Madam ki, Sizə lazımdır, verdim. Qazı bu sözü Xacənin dilindən eşidəndə dərd onu aparır və elə hala düşür ki, Şiraz tam yaddan çıxır. O, iradəsini bir yerə toplayıb Xacəyə xidmət etmək yolunu seçir və böyük fəthlər hasil edərək yüksək mərtəbələrə yetişir.

Xalq yolunun torpağı, nəzər sahibi.
Gözünə sürmə çək ki, bəhrəsini görəsən.
Səfa əhlinin söhbətindən
Könül dünyanı göstərən aynaya dönür.
Onların söhbətləri sənin ruhunu artırır,
Sənin aynandakı ləkəni silir.

Deyirlər ki, Qazı Kaşana gələndən sonrayazdığı təfsirin başında padşahın və ya Xacə Rəşid Əfzəl Kaşinin adını göstərir.[1] Söhbət əsnasında təfsir yazdığını Xacənin nəzərinə çatdırır. Xacə buyurur: – "İyyakə nə'büdü və iyyakə nəstə'in"[2]i necə təfsir etmisən? Qazı bəyan edir: – "Təkcə Sənə ibadət edirəm və təkcə Səndən yardım diləyirəm". Xacə dedi: – İkinci məsələdə Allaha yalan söylədin. Qazı dedi: – Yalan hansıdır? Xacə buyurdu: – Sən təfsirində o şəxsin adını yardım təvəqqə etməkdən ötrü yazmısan və əgər ondan yardım istəməsəydin, heç vaxt təfsiri onun adına yazmazdın. Bu söz Qazını xəcalətə salır və yardım istəməyin yalnız Bari-təalanın zatına istiqamətləndirilməli olduğuna görə o şəxsin adını təfsirin dibaçəsindən silir.

Məlumdur ki, bir gün Xacə Nəsirəddin Tusi (ə.r.) Qazıya çox böyük hörmət və sözlə ifadə edilə bilməyən xoş münasibət göstərir. Bunu görənlər təəccüblənib heyrətə gəlirlər. Onda Xacə buyurur: "Mən uzun müddət yadımda saxlamışdım ki, nə vaxtsa bu cür münasibəti bir kəsə göstərəcəyəm. Nə qədər mülahizə etsəm də, ondan fəzilətlisini və belə münasibətə daha layiq olanı tapa bilmədim". Qazı Ərğunun dövründə, altı yüz səksən beşinci ildə[3], Xacə Nəsir isə Abaqa xanın vaxtında Bağdadda, altı yüz yetmiş ikinci ildə[4] vəfat etmişdir.

"Məcalisül-möminin"də[5] yazılıb ki, şair Mövlana Lisani əslən Şirazdandır, ancaq ömrünün böyük hissəsini Bağdadda və Təbrizdə keçirmişdir. O, sözündən dönməyən şair və mədhiyyə sözünün mahir ustası olmuşdur. Bəzi məlumatlı adamlardan eşitmişik ki, Mövlana Lisani yüz min beytdən artıq şeir yazmışdır, amma onları toplamaqda göstərdiyi etinasızlığı ucbatından həmin şeirlərin çoxusu zay olmuşdu. Onu ələ salmaq məqsədilə Şərif adlı şagirdinin saxtalaşdırdığı və "Səhvül-lisan" adı altında

---

[1] Bu təfsir "Təfsiri-Beyzavi" və ya "Ənvarüt-tənzil və əsrarüt-tənavil" adı ilə məşhurdur.
[2] Fatihə. 5
[3] Miladi təqvimilə 1286/87
[4] Miladi təqvimilə 1274
[5] Bu əsərin müəllifi Qazı Nurullah Şüştəridir.

yaydığı şeirlərin əksəriyyətindən onun özünün heç xəbəri olmayıb[1]. O, fəqir və dərviş yaşayış tərzinə üstünlük verərdi və on iki imam həzrətlərinə (ə.s.) öz sədaqətini nümayiş etdirməkdən ötrü on iki ləçəkli şahlıq tacını nə yatanda, nə də oyaq olanda başından çıxarmazdı. Sultan Süleyman Rumi[2] Təbrizi işğal edəndə onun yaxınlaşması xəbəri Mövlanaya çatır. Həmin vaxt Mövlana Təbrizin Məscidi-camesində namaz qılmağa məşğul idi. Bu xəbəri eşidən kimi əllərini qaldırıb dua edir ki, Ya Allah, bu fırıldaqçı Təbrizə gəlir və mən tacı başımdan çıxarda bilmərəm və onun bu istilasına da dözə bilməyəcəm. Məni öldür və öz rəhmətinin dərgahına daxil et. O, bu sözləri deyib başını səcdəyə qoyur və həmin səcdədə çanını tapşırır. Mövlana Lisani doqquz yüz qırxıncı ildə[3] vəfat etmiş və Təbrizin Sürxabında dəfn olunmuşdur. Allah ona rəhmət eləsin! Onun mədhiyyə üslubunda yazdığı qəsidələrin içində ən yaxşısı Nəcəfi-əşrəf yolunda söylədiyi qəsidədir:

Rəqs edənlərin ayaqları altında toz qaldıran meh kimiyəm.
Başları havalandıran, aşiqlərin beynində gəzən dəlilik yeli.
Başıma əzab-əziyyət daşları tökülüb,
Üzümə bəlanın toz-torpağı qonub.
Dünyaya ayaq basıldı, baş qarışdı.
Fəna yolunun cəfalı ehtiyatları çiynə yükləndi.
Səmanın sədəfində dəyərsiz cövhərəm,
Dəyirmanın ağzında gücsüz dənəyəm.
Gözə korluq sürməsi, qulağa qəflət pambığı.
Başa peşmanlıq əli, ayağa məzəmmət tikanı.
Günahdan başqa könlümə girib-çıxanı yoxdur,
Qələt qələtin üstünə yığıldı, xəta xətanın üstündən deyildi.

---

[1] Şərif Təbrizi yararsız şeirləri toplayaraq guya onların müəllifi Mövlana Lisaninin olduğunu iddia etmişdi. Bu hadisədən sonra Heydər Təbrizi adlı şair həmin divana cavab olaraq “Lisanül-qeyb” risaləsini yazmışdı.
[2] Yəni Birinci Şah Təhmasibin dövründə Səfəvi dövlətinə dörd dəfə soxulmuş Osmanlı hökmdarı Sultan Süleyman Qanuni.
[3] Miladi təqvimilə 1534/35

Dünən fikir Ənqası[1] tərki-dünyalıq guşəsinə çatanda
Dövlət sarayına səfər etmək həvəsinə düşdüm.
Bir yarım var idi, zirək və hazırcavab.
Onun xəmiri oddan, küləkdən və havadan yoğrulmuşdu.
Fələk kimi sürətlə gedən, ay kimi tez qaçan,
Xəta kimi müşk saçan, sübh yeli kimi ətirli.
Hərəkətdə qərarsız, hilalvari çarx kimi.
Təbiətcə könül aldadan, üzdən cazibədar.
Ayağımı tələb üzəngisinə qoyub çölə çıxdım.
Önümdə behişt kimi bir səhra uzandı.
Onun sünbülü xalis müşkdür, laləsi əqiq.
Suyu şəkərməzac, torpağı zəbərcəd[2].
Onun biyabanlığının qumu hurilərin sürməsidir.
Onun müğilanının[3] tikanı cənnət gülüstanıdır.
Gül utandığından qaba tər axıtdı,
Qumru ilə həmsöhbətdir dastanoxuyan bülbül.
Qəflətən hasar çəkdi, birdən ata mindi.
Gəncin yeni çıxmış saqqalı kimi üzə yaraşıq gətirdi.
O su ilə torpaqdan düzəldilmiş günbəzə pak nur düşdü.
Parlaq sifətli şölə, səfa sifətli şam.
Onun mehrab guşəsi sədaqət sahiblərinin Qibləsidir.
Onun qapısının halqası fəna əhlinin gözüdür.
Mən heyrətə gəldim ki: – Bu nə behiştdir, nə qəsr.
Ev Kə’bə kimidir. Mən hara, Kə’bə hara?
Hatifdən səs gəldi: – Ay pak nəslin xələfi,
Bu dövlətin evi səfa əhlinin Kə’bəsidir.
Qapıya səcdə qılan oldum, hamıdan üstün oldum.
Heydərin zəvvarı oldum, Xeybərin qəhrəmanı Heydərin.
Din sirlərinin vaqifi[4], elmül-yəqinin kaşifi[5].
Onun dini pak, onun imanı xalis.

---

[1] Ənqa – əsatirə görə, Qaf dağında yaşayan bir quş, əlçatmazlıq rəmzidir.
[2] Zəbərcəd – qiymətli daş.
[3] Müğilan – akasiyanın bir növü.
[4] Vaqif – bir işdən xəbəri olan.
[5] Kaşif – kəşf edən.

Aləm ondan əmələ gəlib, Adəm ondan yaranıb.
Hər kəsdən artıq, hər kəsin önündə.
Onun almasvari qılıncı düşmənə od yağdırar,
Onun nəfəsinin sərsəri[1] düşməni cəzb edər.
Onun qolunun halqası Yerin kəməridir,
Onun "Yahu!" nərəsi fələklərdə səs salan zəngdir.
Onun ağlındakı fikir həmişə haqqa yönəlib,
Onun hədiyyəsi təmənnasız, onun itaəti riyasızdır.
Həm qəlbin küfrünə məhəkkin "mim"[2] halqasını vurar,
Həm simicliyin təpəsinə səxavətin "sin"[3] baltasını vurar.
Əcəlin əlini kəsən, hiyləgərləri qətl edən.
Onun söhbəti əvəzolunmaz, onun incisinin dəyəri bilinməzdir.
Onun yazısının bir işarəsi iç ilə çölün sirridir.
Onun qələminin bir cizgisi aşkar ilə gizlinin naxışıdır.
Sən bütün yolunu azmışlara nur saçarsan,
Sən bütün daşürəkliləri ahənrüba kimi özünə çəkərsən.
Sənin lütfün abi-həyat, sənin sevgin nicat yoludur.
Sənin üzün könlün davası, sənin məskənin şəfa evidir.
Sənin qəlbindəki incilər sahilsiz bir dənizdir,
Sənin lütfünün əvvəli, sənin səxavətinin sonu yoxdur.
Ya Əsədüllah, şükr etməklə
Yenidən sənin pak rövzəni tapdım.
Evimi abad etdi, ürəyimdən günahları sildi.
Yanğından qorxmuram, xəstəlikdən qorunmuşam.
Mən bu bir-iki gündə həmin rövzənin sakini olmamışam.
Mənim can ilə qəlbim əzəldən bu yerin sakinidir.
Dünyanın gözü kor oldu, üzündən pərdəni çək.
Bəsdir batinin xəlvətində qalmağın, zahir qapısından çölə çıx!
Kəhkəşan yolu kimi qəzəbini əlinlə səpələ,
Ayağını bas və yırt asimanın dəlqini[4].
Şəriət buludunu axıt, təriqət toxumunu səp.

---

[1] Sərsər – güclü külək.
[2] Mim – ərəb əlifbasında hərfdir və "məhəkk" sözü bu hərfdən başlayır.
[3] Sin – ərəb əlifbasında hərfdir və "səxavət" sözü bu hərfdən başlayır.
[4] Dəlq – dərvişlərin geydikləri köhnə paltar.

Birdəfəlik bada ver mənim yersiz suallarımı.
Darüssəlamın qapısınadək rəhmətinlə vasitəçilik et,
Dövlər sarayının qapısınadək himmətinlə bələdçilik et.

**və ona bir rübai**

Əgər bəndənin dilini bənd etsələr,
Onun ehtiyacı olan bədəni yerə girər.
Billah ki, onun könlünün şərqində
Əliyə və Əlinin on bir övladına sevgidən başqa heç nə yoxdur.

Şeir fənnində yaşadığı əsrin yeganəsi olmuş Xacə Salman Savəci yeddi yüz yetmiş səkkizinci ildə[1] vəfat etmiş və Təbrizin Çərəndab qəbiristanlığında Şari'i-Kəcəcan tərəfdə dəfn olunmuşdur. Dövlətşah Səmərqəndinin təzkirəsində yazılır ki, o, Savə şəhərinin əyanlarından və ən böyük şairlərindən idi və onun nəsli həmişə hökmdarlara böyük hörmət edərdi. Ləqəbi Cəmaləddin olub, atası Xacə Əlaəddin Məhəmməd Savəci vəzirlərdən olub. Xacə Salmanın fəziləti hamıya məlum idi və o, şeirlə şairlikdə öz dövrünün irəlidə gələnlərindən olmuşdu. Şeyx Rüknəddin Əlaüddövlə Simnani demişdi ki, Salmanın şeiri Simnanın narı kimi dünyada təkdir. Onun böyük şöhrət qazanmış şeirlərinin tərifə və vəsf edilməyə ehtiyacı yoxdur. Xacə Hafiz Şirazinin və Xacəvi Kirmaninin həməsri olmuşdu.

## Xacə Abdullah Seyrəfinin məzarı

O, bu naxışlı tağın altından keçənə qədər kitab yazmaqda ona rəqib tapılmadı və həmin bu sözü bütün məxluqlar deyib söyləyirlər. Yeri Çərəndabın sol tərəfində, qəbiristanlığa çatmamış bir məkandadır. Xacə Abdullah Seyrəfi Seyyid Heydərin şagirdidir, Seyyid Heydər isə Xacə Yaqubun şagirdiir. O, Pir Yəhya Sufinin şagirdidir, Yəhya Sufi Xacə Mübarəkşah Zərrinqələmin şa-

[1] Miladi təqvimilə 1372/73

girdidir, Mübarəkşah Xacə Yaqutun şagirdidir. İraq ilə Xorasan ustadlarının sənədlərində Xacə Abdullah Seyrəfiyə istinad olunur və Təbrizin hündür binalarının əksəriyyəti, məsələn: Ustad-Şagird məscidi, Xacə Rəşidin imarəti[1] və s. Xacə Abdullah Seyrəfinin xətti ilə bəzədilmişdi. Mövlana Mübarək Xəttat Deyləmi belə buyurur:

Xətt cəvahiratını düzən Seyrəfi
İncilərini Təbrizin başına dağıtdı.
Onun xəttinin gözəlliyinə şahiddir
Təbriz şəhərinin qapı-divarı.

## Sahibdivan ləqəbli əs-Sahibül-əzəm Şəmsəddin Məhəmməd bin Sahib Bəhaəddin Məhəmməd əl-Cüveyni

Ucalıq və hökmranlıq səmasının günəşi, əzəmət divanındakı qəsidənin beyti idi. Qazıyül-qüzat Nizaməddin İsfahani onu belə mədh etmişdi:

*Onun kimi şeir yazan adam yoxdur.*
*Qəsidə evi, divan sahibi.*
*Məmləkətlərin üzərində ucalan günəş.*
*Mülklərin və eyvanların cah-calalı.*[2]

Cənab Sahibi Şafeiyyə tayfasının imamı olmuş Əbülməali Cüveyninin övladlarından idi. Haqq sübhanəhü və təala adıçəkilən Xacəni imamlıq yolu ilə hidayət etmişdi və onun Əbülməaliyə qədər gedib çatan ata-babalarının hamısı ali mərtəbələrin və dəyərli mənsəblərin təqlidçiləri olublar. Onun məşhur babası Xacə Şəmsəddin Məhəmməd Sultan Məhəmməd Xarəzmşahın hökumətində vergi yığmaqla məşğul olub. Yaxşı

---

[1] Yəni Rəb'i-Rəşidi
[2] Bu şeir mətndə ərəb dilində yazılıb.

ad qazanmışdı və hörmətli atası izzət ilə calal ölkəsinin Cəmşidi, fəzilət ilə ləyaqət səmasının günəşi Xacə Bəhaəddin Məhəmməd İranın ən görkəmli şəxsləri siayhısının başında durar və Moğol hökmdarlarının xidmətində həmin vəzifə sahibi olmuşdu.

Hulaku xan[1] Ceyhunun[2] üstündən gəlib İran məmləkətini Misrin sərhəddinə qədər ələ keçirəndən sonra tərəddüd etmədən vəzir vəzifəsini kəramət ilə fəzilət asimaının günəşi Xacə Şəmsəddin Məhəmmədə tapşırmışdı. Həqiqətən də o şəxsin xasiyyəti gözəl, əməlləri düzgün, kəramətləri bol, əxlaqı pak, səxavəti geniş olmuşdu. O, fəsahət ilə bəlağətdə, düz tədbir görməkdə, könülləri almaqda şöhrət qazanmış və sultan sarayında vəzirlik işlərini yerinə yetirərkən öz bacarığını nümayiş etdirə bilmişdi. O, həmçinin Hulaku xanın İranı işğal etdiyi dönəmdə aydın dinin mühafizəsi və Seyyidülmürsəlinin[3] şəriətinin möhkəmlətməsi yolunda əvəzolunmaz mücahidə aparmışdı.

Hulaku xanın səltənətinin mərkəzi Təbriz olmuşdu. O, altı yüz altmış üçüncü ildə[4] vəfat edəndən sonra xanlıq taxtı Abaqa xana keçdi. Adıçəkilən bacarıqlı və inci kimi dəyərli vəzirə əvvəlkindən də artıq hörmət göstərildi və bəxt ilə səadət günəşi onun üzünə güldü. Dövlətin mühüm işləri onun nəzarəti altına keçdi. O cənab fəzilət ilə zəka sahiblərini əzizləyərək onlara həddi-hüdudu bilinməyən qayğı göstərərdi. O, həmçinin bütün məmləkətlərdəki naiblərin diqqətini bu məsələyə yönəldərək onlara səlat ilə sədaqət qapısını bütün layiqli adamların üzünə açmaq əmrini vermişdi. Onun aləmpənah dərgahı Xorasanın, İraqeynin[5], Azərbaycanın, Şamın və Rumun əmirləri, həkimləri və əyanları üçün sığınacaq yerinə çevrilmişdi.

---

[1] Hulaku xan – Elxanilər dövlətinin banisi, Çingiz xanın nəvəsi. 1217-1265-ci illərdə yaşamışdır.
[2] Ceyhun – Amudərya çayı.
[3] Seyyidülmürsəlin – elçilərin ağası, Mühəmməd peyğəmbərin (s) ləqəbidir.
[4] Miladi təqvimilə 1265
[5] İraqeyn – iki İraq, yəni İraqi-Ərəb və İraqi-Fars.

Vəzir kürsüsü cənab Sahibdivanın vücudu ilə zinətlənəndən sonra yarlıqda[1] göstərilən hökmü ilə Bağdad məmləkətini və darülxilafətin işlərini öz əziz qardaşı Sahib Əlaəddin Əta Məlik bin Sahib Bəhaəddin Məhəmməd əl-Cüveyniyə tapşırdı. Onun səyi sayəsində Müstəsim hadisəsindən[2] sonra xarabazara dönmüş Bağdad abad hala gətirildi, Nəcəfi-əşrəf torpağında çay qazıldı və Fərat suyunun şəhadət yeri Nəcəfin civarına çəkilməsi üçün yüz min qızıl dinardan artıq sərf edildi.

Deyilənə görə, nə qədər ki Xacə Bəhaəddin Məhəmməd sağ idi, cənab Sahibdivan da gün görürdü. Elə ki Xacə Bəhaəddin vəfat etdi, Sahibin işləri tərs getməyə başladı və dərd küləyi o cənabın və qardaşı Sahib Əlaəddin Əta Məlikin üzünə pərişanlıq qapısını açdı. Buna misal olaraq həmişə xoşbəxtlik fürsətini güdən Məcdülmülk Yəzdinin əhvalatı yada düşür. Xacə Əta Məlikin naibi olmuş Məcdəddin Əsir Misir padşahının əzəmətinin bir hissəsini və onun ordusunun sayını təqribən açıqladı. Onda Məcdülmülk öz gizli niyyətini böhtan ipinə bağlayıb nüfuzlu adamlardan birinin vasitəsilə Abaqa xanın nəzərinə çatdırdı ki, Sahibdivanın qardaşının yaxın adamlarından olan Məcdəddin Əşir Misir sultanına mədhiyyələr oxumaq və camaatı onun tərəfinə çəkməklə məşğuldur. Bu əhvalatı eşidən Sultan bərk hirslənib qəzəblənərək Məcdəddin Əsiri tutmağı əmr edir. Lakin ona işgəncələlər versələr də, Məcdülmülkün iddiası öz təsdiqini tapmır. Nəhayət onu Sahibdivana təslim edirlər. Cənab Sahibi Məcdülmülkün bu dərəcədə inadkar olduğunu görüb Sivasın maliyyə işlərinə nəzarəti ona tapşırır və bir məbləğ də ona ənam edir. Ancaq Məcdülmülk bu cür murdar əməli ilə Sahibin etimadını qazana bilməzdi. O, yenə də fürsət axtarışında idi. Abaqa xan Xorasana yola düşüb Qəzvinə çatanda şahzadəƏrğun xan atasının hüzuruna gəlir. Bu zaman Məcdülmülk onun məclisinə yol tapıb ərz edir ki, “Hər il dövlət xəzinəsinə daxil olan miq-

---

[1] Yarlıq – fərman.

[2] 1258-ci ildə Hulaku xanın Bağdada hücumu zamanı sonuncu Abbasi xəlifəsi Müstəsimbillahın öldürülməsi nəzərdə tutulur.

dara bərabər vəsait xəyanət yolu ilə padşahın malından alınıb Sahibdivana məxsus əmlakın üstünə artırılır. Bundan başqa o, Misir və Şam sultanları ilə nankorcasına məhəbbət və sədaqət əlaqəsini yaradıb, qardaşı Əta Məlik isə Bağdadı və İraqi-Ərəbi öz mülkü sayır və iqtidar əlaməti olaraq hökmdarlara məxsus qayda ilə özü üçün qiymətli daş-qaşla bəzədilmiş tac da düzəltdirib. Mənim həmin eyib əməllərindən məlumatlı olduğumu bilib öz fərmanı ilə Sivasın hakimiyyətini mənə həvalə edib və rüşvət yerinə mənə bir məbləğ də göndərib".

Ərğun xan bu sözləri böyük atasına çatdırır. Onun dedikləri padşahın ürəyində iz buraxır. Tezliklə bütün dünyaya əmr verilir ki, Məcdülmülk padşahın tabeliyində olan mülklərin cəmini, xərcini və mühasibatını bir kəs belə müdaxilə etmədənyoxlasın. Sahibdivanın Təbrizdə oturan naibləri ilə vəkillərini dəvət etmək üçün bir nəfər yollandı və Sahibdivan Abaqa xanın hüzuruna yetişən kimi ona namünasib sözlərlə xitab etdi. Cənab Sahibi cavabında bəlağət ilə fəsahət qaydalarına uyğun ifadələrlə ürək sıxıntısını və şəkk-şübhəni şahın xatirəsindən sildi və xosrovanə lütf yenidən Sahibdivana şamil edilərək vəzir vəzifəsi rəsmi qaydada onlara həvalə olundu. Şükr səcdələri yerinə yetiriləndən sonra Abaqa xanın inayətinin yenə də öz yerini tutması xəbərinielan etmək üçün elçilər bütün ətraf məmləkətlərə göndərildi. O cümlədən kiçik qardaşı Xacə Əta Məlikə ünvanlanmış məktubda aşağıdakı kəramətli ayə yazılmışdı: "Kaş qövmüm biləydi ki, Rəbbim məni niyə bağışladı və nəyə görə hörmət sahiblərindən etdi".[1] Məcdülmülk görəndə ki, onun fitnəsi Sahibinin şanına xələl gətirə bilmədi, qardaşı Əlaəddin Əta Məlikin üstünə böhtan atmağa başladı və onun naibi Məcdəddin Əsirin başını aldadaraq özünə həmfikir etdi. Nəticədə Abaqa xan Əta Məlikin həbs edilməsi və mülkünün müsadirə olunması haqqında fərman verdi. Bundan xəbər alan Xacə Şəmsəddin Məhəmməd peyğam göndərir ki, nə desələr, hamısını qəbul et və onların sözlərini inkar etmə. Xacə Əlaəddin

[1] Yasin. 26-27

üç yüz tümən qəbul etdi. İnadkar düşmənlərin ürəyi bundan rahat olmadı. İş o yerə çatdı ki, vergi yığanlar onun əl-qolunu bağlayıb Bağdada apardılar və cürbəcür işgəncələrə məruz qoydular. Həmin vaxt Abaqa xan Həmədana çatmağa tələsirdi. Bədniyyət Məcdülmülk Əlaəddinin əlini buxovlayıb ordugaha gətirmək üçün bir adam göndərir. Bu zaman, yəni altı yüzüncü ilin zihiccə ayının iyirmisində[1] Abaqa xan bin Hulaku xan vəfat edir və altı yüz səksən birinci ilin rəbiül-əvvəl ayında[2] Sultan Əhməd ləqəbli Təkudar bin Hulaku xan xanlıq taxtına əyləşir və ədalət nurunu islam əhlinə saçır. Onun buyurduğu ilk hökmü o oldu ki, elçiləri Həmədana göndərdi. Xacə Əlaədin Əta Məliki həbsdən azad edib ordugaha gətirdilər. Mülk ilə malın cilovu bilavasitə xoşbəxt Sahib Xacə Şəmsəddin Məhəmmədin etibarlı əlinə ötürüldü və ona əvvəlkindən də artıq xosrovanə qayğılarla mərhəmətlər göstərildi. Həsəd ilə paxıllıq atəşi Məcdülmülkün içində növbəti dəfə alovlandı. O, Ərğun xanın xidmətinə ərizə yazdı ki, Sahibdivan sənin böyük atanı zəhərləyib öldürmüşdü və mənim bu sirrə bələd olmağımı bilib indi mənə də qəsd etmək niyyətindədir. Məcdülmülkün qəm yeməkdən təngə gəlmiş qardaşı oğlu Sə'dəddin həmin məktubun surətini Cənab Sahibiyə göstərir. Məsələ Sultan Əhmədə çatanda o, Məcdülmülkü həbs edib əl-ayağını buxovlamaq qərarına gəlir. Böyük əmirlər Məcdülmülkü dindirməklə məşğul olandan sonra onun günahı təsdiq və təsbit edilir. Onun qətlinə göstəriş verilir və onu Xacə Əlaəddin Əta Məlikin xidmətçilərinə ötürürlər. Xacə Əlaəddin nəfsin sağlamlığından və təbiətin gözəlliyindən onun cinayətlərini əfv ətəyi ilə örtmək və rəhmdillik xələti ilə bəzəmək istəsə də, cənab Sahibdivanın bütün sirdaşları, tərəfdarları və köməkçiləri buna razı olmadılar.Nəticədə Məcdülmülkü qılınc və xəncərlə parça-parça edib əzalardan hər birini ayrı məmləkətə göndərdilər. Başı bir müddət darvazanın üstündə qaldı, ayaqları

---

[1] Miladi təqvimilə 1 aprel 1282
[2] Miladi təqvimilə 1282

Bağdada getdi, əlləri İraqa çatdı, dilini isə bir nəfər yüz dinara alıb Təbrizə apardı. Oranın sakinlərindən biri belə rübai qoşdu:

**Rübai**

Bir gün iki-üç dəftərin üstünü naxışlarla bəzədin,
Mülk, mal və qazanc arxasınca getdin.
Sənin hər əzan bir vilayəti ələ keçirtdi.
Sonda bir həftəyə bütün dünyaya sahib oldun.

Məcdülmülk varlıq libasını fəna badına verəndən sonra Xacə Əlaəddin Bağdaddakı hökumətin başına keçdi, Xacə Şəmsəddin Məhəmməd Sahibdivan isə yenə də mülk ilə mal işlərinin cilovunu ələ aldı və aydın dini möhkəmlətmək və Seyyidülmürsəlin şəriətinin alimlərinin hörmətini qazanmaq yolunda çox çalışdı. Onun göstərdiyi səyin nəticəsində rəiyyətlər ədalət ilə yaxşılıqdan şad-xürrəm olub əmin-amanlıq içində ömürlərini keçirirdilər.

Bu arada şahzadə Ərğun xan bir nəfəri Sultan Əhmədin sarayına göndərib cənab Sahibinin onun hüzuruna gəlməyi məsələsini qaldırdı. Sultan Əhməd Ərğun xanın Sahibi yanına çağırmağın məqsədi onun canına qəsd etmək olduğunu bilirdi. Cavabında buyurdu ki, məmləkətin ən mühüm işləri Sahibdivanın öhdəsinə buraxılıb və əgər o, aləmpənah saraydan qeyb olsa, mülk ilə mal məsələsi çətinliyə düşəcək. Ərğun xanın adamı əliboş qayıdandan sonra şahzadə pis niyyətini və ədavətini pərdələməkdən vaz keçərək Sahibinin əmlakını zəbt etmə hökmünü ətraf məmləkətlərə göndərdi.

Şahzadə Ərğunun iqamətgahı İraq tərəfdə olduğundan oradakı əmlakı əlinə keçirdib nəfis nəfəslə Bağdad istiqamətində zərif addımlarla yürüş etdi. O, Sahibdivanın işçilərinə bu məsələyə müdaxilə etməyi yasaqlayıb daim səltənət taxtını adlı-sanlı əmisinin iqtidar əlindən hansı tədbirlə almaq haqqında düşünürdü. Bu mənanın parıltısı sultanın nurlu qəlbinə düşəndə o, altı

yüz səksən ikinci ilin sonlarında[1] şahzadə Ərğunun adamlarını həbs etmək üçün Bağdada elçilər göndərdi. Şahzadə Ərğun altı yüzsəksən üçüncü ilin səfər ayının birində[2] Azərbaycana yola düşdü və Ağxacə çölündə ordunun ön dəstələri ilə üz-üzə gəldi. Ərğunun ordusu darmadağın oldu və Ərğun fərarilik cilovunu Kəlat qalasına tərəf yönəltdi. Sultan ordusunun başçısı Əlinaq onu təqib etdi və şahzadə Ərğunu arxayınlaşdırıb onunla bərabər Quçandakı səltənət astanasına qədər gəldi.

Sultan Əhməd qardaşı oğluna hökmdarlara layiq hörmət göstərib onu Xorasan məmləkətinin başına gətirməklə ümidləndirdi. O, şahzadə Ərğun üçün xüsusi xeymə təyin etdi. Sultan Əhməd Buğanın qardaşı Üruqa dörd min nəfər süvari ilə həmin xeymənin mühafizəsini, Əlinaqa isə şahzadə Ərğunun ömür çırağını söndürməyi tapşıraraq özü möhtərəm hərəmi ilə görüşmək bəhanəsini gətirib oradan köçdü. Sultan Əhməd gedəndən sonra Buğa yüksək vəzifəli dövlət məmurlarının ürəklərinə belə bir fikir saldı ki, Sultan Əhməd Şəmsəddin Sahibdivanın təlqini və təkidi ilə Çingiz xanın əruğunu[3] zay edib müsəlmanların izzət bayrağını Keyvana[4] qədər qaldırıb. Məsləhət o oldu ki, səltənət taxtını Sultan Əhməddən boşaltsınlar və Ərğun xanı həbsdən azad edib hökmranlıq eyvanında əyləşdirsinlər. Hamı bu təkliflə razılaşdı. Onda Buğa Ərğun xanın yatdığı yerə girib gizlicə həmin əhvalatı ona ərz etdi. Həmn anda öz tərəfdarlarını yığıb Əlinaqın ordugahına basqın etdilər, onun özünü parça-parça doğrayıb Sultan Əhmədin yaxın adamlarının və xidmətçilərinin əksəriyyətini öldürdülər. O camaatdan birisi tez ata minib Sultan Əhmədin dalınca düşdü və dörd fərsəng* yol gedib Ərğunun azadlığa çıxması və tale küləyinin istiqamətinin dəyişməsi haqqında xəbər verdi. Bu xəbəri eşidən Sultan Əhməd həyəcan içində anası Quti Xatunun Sərabdakı

---

[1] Miladi təqvimilə 1284
[2] Miladi təqvimilə 19 aprel 1284
[3] Yəni nəslini
[4] Keyvan – Saturn planeti.

evinə tərəf yola düşdü və hər dayandığı mənzildə bir dəstə əmirlə sərdar ondan uzaqlaşıb hərəsi bir yana çəkilirdi.

Bu zaman cənab Sahibdivan bir neçə ulaq alıb təcili surətdə özünü İsfahana çatdırdı və orada yeni xəbərlər almağa çalışdı. Dəqiq biləndə ki, Ərğun Quti Xatunun malikanəsində Sultan Əhmədi yaxalayıb belini qırdı və xilafətin taxtına çıxdı, cənab Sahibi İsfahandan Şiraza və Şirazdan Hörmüzə gedib oradan dəniz yolu ilə özünü Hindistana çatdırmaq qərarına gəldi. Amma sonra moğolların qəzəbindən çəkinib fikirləşdi ki, canını bu qorxulu girdabdan qurtarıb öz yaxınlarını, uşaqlarını və xidmətçilərini əzab atəşinə atmaq kişilikdən və insanlıqdan uzaq olar. Bunları nəzərdə tutub özünə deyir ki, Allaha təvəkkül edib Ərğunun hüzuruna gedim və aləmin pənah gətirdiyi yerdə sığınacaq istəyim. Əgər Ərğun şahlara məxsus hüsni-rəğbət göstərib mən günahsızı cəzalandırmaq fikrindən vaz keçsə, bundan yaxşı nə ola bilər? Əks halda isə neçə adamı izrirabdan və işgəncədən xilas etmiş olaram. Bundan sonra kəlmeyi-təyyibəni və "əfəvvidü əmri ilallah"[1]ı dilinə gətirib Ərğun xanın ordugahı istiqamətinə üz tutdu. Yolda Ərğun xanın onu yanına gətirmək üçün göndərdiyi Əmir Xumari, Atabəy Yusifşah və Məlik İmaməddin Qəzvini ilə rastlaşdı. Dedilər: "Cahanın padşahı deyir ki, Ulu Tanrı məni düşmənlərimin üzərində zəfər çalmaqla mükafatlandıraraq bütün dünyaya nəzarət etməyi mənim öhdəmə buraxdı. Mən də bütün məmurların günahlarını bağışlayıb ümumi əfv haqqında fərman imzalamışam. Əgər Sahibdivan xidmətimizə gəlsə, ona necə şahanə lütf göstərəcəyimizi görər". Bundan sonra onlar dedikləri sözlərə misal olaraq humayun fərmanı ortaya qoydular. Bu sözləri eşidən Sahibinin şərafətli ürəyində arxayınlıq yer aldı və o, böyük sürətlə uzaq məsafəni keçib altı yüz səksən üçüncü ilin rəcəb ayının onunda[2], cümə günü ordugaha gəlib Buğa ilə əlaqə qurdu. O biri gün Buğa onu uca taxtın ayağına apardı. Ərğun xan xoşbəxt Sahiblə danışıb onu vəzir

---

[1] İşimi Allaha tapşırıram
[2] Miladi təqvimilə 21 sentyabr 1284

vəzifəsinə təyin etməklə ümidləndirdi. Sahib xidmət torpağını öpüb dövlətin davam etməsi üçün bir dua oxudu və mənzilinə qayıtdı.

Bu hadisədən bir neçə gün keçdi və Xacə Şəmsəddin Məhəmmədin vəzir vəzifəsinə yüksələcəyi hamıya aydın oldu. Paxıllıq və ədavət hisslərinə qərq olmuş Fəxrəddin Müstövfi və Hüsaməddin Sahib Buğaya dedilər ki, Sahibdivan bu işə qarışsa, sənin hökumətin çiçəklənməz. Əgər bir-iki gün istədiyi şəkildə yaltaqlıq edə bilsə, sənin də qüdrətin, başqa əmirlərdə olduğu kimi, heçə dönəcək. Bundan sonra Buğa xəlvət yerdə Ərğun xana məzəmmət dilini uzadıb dedi ki, nankorluq edərək padşahın atasına qarşı pis niyyətli olub onu zəhərləyən kəsdən yaxşı xidmət edəcəyini necə gözləmək olar? Padşah dövlətinin sabitliyi və bədxah vəzirin yamanlığı bir-birinə zidd olan şeylərdir. Onu sağ qoymaq olmaz. Buna görə Ərğun xan Sahibdivanı yərğuya[1] cəlb etməyə və əmirlərə bu məsələni araşdırmağa əmr verdi. O saat verilmiş əmrə müvafiq o cənabın qollarını bağlayıb gətirdilər. Hər yerdə adamlar fəryad və fəğan qopardılar ki, xalqın rizq qapısını niyə bağlayıblar?! Xacə Şəmsəddin Məhəmməd o həsəd ilə paxıllıq əhlinə cavabında dedi ki, bu qərəzli cənabların ərz etdikləri bütün məsələlərə görə təqsirli olduğumu boynuma alıram, amma həzrət vəlinemətə qarşı xəyanət etməyim haqqında ittiham məndə mütləq nifrət hissi oyadıb. Ancaq dilin kamilliyi və bəyanatın gözəlliyi heç bir fayda vermədi və qərara alındı ki, fəzilət ilə alicənablığın təməlini xarab və comərdlik ilə səxavətin qaynağını sərab[2] etsinlər. Altı yüz səksən üçüncü ilin şaban ayının dördündə[3], bazar ertəsi günü Əhər deyilən yerdə şəhadət şərbətini içdi və kəramət səmasında ulduz kimi parlayan Yəhya, Fərəcüllah, Məsud və Atabəy adlı oğullarını da atalarının ardınca göndərdilər. Xacə Şəmsəddinin və övladlarının qəbirləri Təbrizin Çərəndab qəbiristanlığındadır.

---

[1] Yərğu – məhkəmə, istintaq.
[2] Sərab (burada) – puç.
[3] Miladi təqvimilə 15 oktyabr 1284

Belə söyləyirlər ki, fəzilət sahibi, alim, İraq ilə Farsın məliküşşüərası və Şeyx Müslihəddin Sə'di Şirazinin müasiri olmuş Məcdi-Həməgər xoşbəxt şəhid Sahibin adına bir rübai mərsiyə həsr etmişdi və Şeyx Sə'di onu eşidəndə ağlamış və Məcdi tərifləmişdi.

Şəmsin[1] getməyi ilə şəfəqdən qan sızdı,
Sübh yeli qaçdı və Zöhrə saçını kəsdi.
O matəmdə gecə qara paltara büründü,
Səhər soyuq nəfəs alıb yaxasını yırtdı.

Cənab Sahibdivanın qardaşı və "Tarixi-cahangüşayi-Cüveyni"nin müəllifi olmuş Xacə Əlaəddin Əta Məlik də Ərğun xan Sahibi ilə münasibətdə ədalət yoluna üstünlük verdiyi zaman altı yüz səksən birinci ilin ziqədə ayının dördündə[2] fani dünyaya köçdü və cəlalət sahibi Şeyx Kəmaləddin Meysəm Bəhrani özünün "Nəhcül-bəlağə"yə yazdığı şərhini Xacə Əlaəddinə ithaf etmişdi. Burada Vəkilin göndərdiyi dəyərli sənədin surəti başa çatır.

## Qeyd

"Ümdətüt-talib fi ənsabi-ali-Əbi Talib" kitabında bir lətifə oxudum. O hekayənin Xacə Əta Məliklə əlaqəsi olduğuna və faydasız olmadığına görə onu xatimədə gətirirəm. Seyyid Cəlil Nəssabə öz əsərində Bəni-Həsən (ə.s.) nəsəbi haqqında yazarkən buyurur:

*Seyyid Tacəddin Cəfər ömrünün sonuna yetişəndə onun evə ehtiyacı oldu. Bir zaviyə tikdirdi və özü orada oturdu. Adamlar onu ziyarət edərdilər və şair İbn ər-Rüxa onun haqqında belə demişdir:*

---

[1] Şəms sözünün mənası "günəş"dir.
[2] Miladi təqvimilə 12 yanvar 1285

*Zaviyədə dualara meyil olmayıb.*
*Şeir şeirin ardınca, məsəl məsəlin.*

*O, Bağdaddakı divan üçün rüsum yığırdı və hər il ata yükləyib daşıyırdı. İllərin bir ilində Sahibüddivan Əta Məlik əl-Cüveyni ona bir qoca kor at göndərmişdi. Seyyid Tacəddin ona cavab olaraq bunları yazmışdı:*

*Adama ona tay olanı bağışlayarlar.*
*Korun yükünü kor daşıyar.*
*Sən bu işdə bir hiylə işlətməmisən.*
*Bu işləri dəyərləndirənə həmd olsun!*

*Ondan sonra Sahibüddivan ata minib başqa bir atı özü ilə onun yanına gətirdi və ondan üzr istədi.*[1]

İndi mən mövzunu dəyişdirib digər məşhur qəbiristanlıqlar və məzarlıqlar barədə yazıram.

## Məqbərətüş-şüəra

Bu məşhur qəbiristan Sürxab məhəlləsində yerləşir. Hal-hazırda bu məhəllədə kiçik və böyük məqbərələr vardır. Bilmirəm ki, bu qəbiristanlıq hansıdır. Həmin məhəllədə Seyyid Həmzə məzarının yanında şahənşahın vəliəhdi Naibüssəltənə Abbas Mirzənin köməkçisi, İran hökumətinin qaimməqamı Mirzə İsa Hüseyni Fərahaninin məqbərəsi tikilmişdir və o məqbərənin şərqində olduqca köhnə qəbiristanlıq vardır. Bəzilərdən eşitmişəm ki, Məqbərətüş-şüəra oradır. İndi isə Təbriz şairlərini yada salıb o tayfanın içində ən məşhur olanların adlarını çəkirəm ki, Zuşücun hədisində deyildiyi kimi, sözdən söz çıxar.

[1] Mətnin bu hissəsi ərəb dilindədir.

# Təbrizin şairləri və həkimləri[1]

Lütfəli bəy Bigdeli[2] öz təzkirəsində Təbriz sakinlərindən olmuş qırx nəfər şairin və alimin adını aşağıdakı sıra ilə yazmışdır:

Mirzə Əsədüllah, Əmir bəy, Ənvar, Molla Əbdülbaqi, Bədii, Cəfəri, Cövhəri, Həqiri, Heydəri, Xari, Mirzə Nəbi, Rağib, Şərif, Mövla Şəmsəddin, Şövqi, Saib, Səburi, Tuqi, Zühuri, Üczi, Üzri, Əssar,Qəlvan, Fərdi, Füsuni, Fəsihi, Həkim Qətran, Kazima, Şeyx Mahmud Şəbüstəri, Məsihi, Müşki, Məruf, Məlum, Məğribi, Müqimi, Məlhəmi, Nisari, Vüqui, Hümai.

## Mirzə Əsədüllah

Azər onun tərcümeyi-halı haqqında heç nə yazmayıb. Yalnız bunu deyir ki, o, Təbriz seyyidlərindəndir və aşağıdakı şeirini göstərir:

Üzümə baxıb mənə lütfünü əta etdiyin o gözlə
Bir kəsə baxmağını istəməzdim.

## Xacə Əmir bəy

Şeyx Qiyasəddin Təbrizinin soyundandır. O, Birinci Şah Təhmasibin saray əyanlarından olub. Sehrbazlıqda günahlandıraraq Xorasanın qalalarından birində dustaq etmişdilər. Übeydüllah Xan Cucinijad Xorasana hakim olandan sonra Xacəyə bir məktub yazaraq qoşduğu bu şeiri də oraya salmışdı:

Ey Xacə, indən belə əlini bu həyatdan üz,
Çünki xan taxtı oldu bizim məqamımız.

---

[1] Həkim – hikmət sahibi; mütəfəkkir; filosof; alim; təbib.
[2] Lütfəli bəy Şamlu, Azər Bigdeli (1722-1781) – şair və tarixçi, “Atəşkədə” təzkirəsinin müəllifi.

Xacə bu şeirə öz cavabını göndərmişdi. Gözəl olduğuna görə, onu bütövlükdə burada gətirirəm:

Ey başı havalı, əgər Buxara əhlini ziyarət etsən,
Mənim peyğamımı onlara ərz etməyi unutma.
O güruh bilsin ki, vəfa yolunda
Siz bizim camaatımıza kin bağlamısınız.
Sizin təkəbbürlə cahilliyiniz həkk olunub
Bizim adımız yazıldığı kağızda.
Ki, ey Xacə, indən belə əlini bu həyatdan üz,
Çünki xan taxtı oldu bizim məqamımız.
Ey müddəi[1], məgər eşitməmisən ki, çatıb
Bizim möhtəşəm süvari dəstəmiz ulduzlar şahına.
Xanlıq iddiasında olana cavabımız olsun
Bizim şirin sözlü Hafizimizin dediyi beyti.
O işvə ilə əzilib büzülənin düz qaməti əyilir
Bizim sərvi-sənubərimiz naz ilə meydana gələndə.
Biz vilayət şahı həzrətinin bəndələriyik,
Dünya dəftərində adımız çəkilib.

Bu Xacə Nətənzdə anadan olub, Xorasanda ölüb və heç Təbrizi görməyib (?).

## Ənvar

Sərab əhlindən və Şeyx Sədrəddin Ərdəbilinin müridlərindəndir. Bir müddət Heridə* qalmış və ağıl ilə bilik sahibi olmağı ilə xalqın sevimlisinə çevrilmişdi. Həddindən artıq hökumət işlərinə qarışdığına görə Şahrux onu qovmuşdu. O, vətənə qayıdıb elə orada vəfat etmişdi. Bu iki beyti yaxşı demişdi:

Beş barmağı olan şəxsin qismətinə düşüb ki,
Bir kəsin arzusunu yerinə yetirmək istəsə,

---

[1] Müddəi – (burada) haqsız yerə bir şey tələb edən.

İkisini gözün üstünə qoyar, ikisini qulağın,
Birini isə dodağın üstünə qoyub deyər: – Sakit!

## Molla Əbdülbaqi

Süls xətti ilə gözəl yazardı. Sərbəstliyi sevən kişi idi. Bu rübai onundur:

Dünyanın bir guşəsində caynağını itiləmə,
Xudbinlik və lovğalıq etməyə başlama,
Qəlbindəki kam sənə müyəssər olmadısa, qəm yemə,
Ehtiyacını ödəməkdən ötrü gəlmisən, naz etmə.

## Cəfəri

Təbrizin qazılarından və seyyidlərindəndir. Çox fəal adam olub. Çörəkpulunu alnının təri ilə qazanırdı. Yazdığı bu şeirində bir ələviyyə seyyidinə işarə etmişdi:

O, Əlinin nəslindən olana oxşamır,
Sanki Əlinin Qənbərinin[1] nəslindəndir.

## Cövhəri

Bir zərgərin oğlu olub. Kitabı hal-hazırda əlimdədir. Şairliyi özü üçün peşə seçmişdi. Hindistana gedib çoxlu mal aparmışdı. Heridə* Həsən xan Şamlunun rəiyyətlərini görüb. İsfahanda bu dünyadan köçüb. Atın arıq olması haqqında gözəl bir beyt söyləmişdi:

Əgər zəiflik üzündən dağı yerindən tərpədə bilməsəm,
Sap kimi iynənin gözündən keçə bilərəm.

---

[1] Qənbər İmam Əlinin (ə) xidmətçisi olub.

## Cəfəri[1]

Peşəsi şairlik olub. Eşq ilə aşiq haqqında yazılmış bu şeir onundur:

Eşqə giriftar olanda vaxtım xoş keçər,
Çünki giriftarlığın təməlini qoyanın vaxtı xoş keçər.

## Heydəri

Şair olub və Lisani Şirazinin yanında şagirdlik edib. Düşməni olmuş Şərif Təbrizinin nəzmlə yazdığı "Səhvül-lisan"ının cavabında "Lisanül-qeyb"i yaradıb. Dünya səyahətinə çıxmışdı və əsasən Hindistanı gəzib dolaşmışdı. Belə söyləyirlər ki, yazdığı şeirin qələm haqqısının əvəzinəona pambıqla doşabın satışından aldığı gəlir vergisinin bəratını vermişdilər və nəticədə mükafatsız qalmışdı və bu hal dəfələrlə təkrarlanmışdı. Ondan sonra aşağıdakı iki şeiri demişdi:

Doşaba və pambığa yazarsa
Borcunu ödəmək üçün alimlərin başçısı Heydər,
O qədər əziyyət çəkər ki, sonda
Pambıq kəfənə dönər, doşab halvaya.

## Xari

Aşağıdakı beyt onundur:

Bu könnə kənddən aldığın o xəracı
Kimsəsizdən alıb insafsıza vermə.

Böyük adamlara yaxşı nəsihət vermişdi ki, söz dinləməyin faydası var.

---

[1] Zənnimizcə, burada söz Həqiri adlı şairdən gedir.

## Mirzə Nəbi

Şah Təhmasibin vaxtında Təbrizdə qanunlara riayət olunmasına nəzarət edərdi. Azər onun aşağıdakı rübaisini gətirir:

Ta ki, can bədəndən çıxmaz,
Sənin dərdin bədəndən çıxmaz.
Dedin ki, eşqimi könlümdən çıxarım.
O, mənim könlümdən çıxmaz.

## Rağib

Azər onun adının Kəlbhüseyn olduğunu yazmış və bu şeirini göstərmişdir:

Yüz məktub yazdıq və sən cavab yazmadın.
Cavab yazmamağın özü cavabdır.

## Şərif

Azər onun şeir yazmaqda ustadı Lisanidən üstün olduğunu qeyd etmişdir. Təbrizdə Şah Nemətüllah Yəzdiyə mədhiyyə oxumuşdu. Yaxşı ənam vermədi. Aşağıdakı qitəni söyləmişdi:

Nemətüllah səadət bürcünün ulduzu, Yəzdin şahıdır.
Onun çarxının başı itaət halqasından keçmir.
Təbrizə gələn kimi onu söz sahibi etdilər.
Hamı arzusuna çatdı, Şərif çata bilmədi.
Onu hamıdan çox mədh etsəm də,
Üzümün qarşısına hamıdan az ənam tökdü.
Möhtac olsam da, düşündüyüm bundan yüksəkdir,
Çünki qəm yemiş ürəyi kiçik ətalar şad edər.
Kaş ki, heç nə verməyəydi, Hafiz kimi deyərdim:–
Yəzd şahıməni gördü, mədh oxudum, heç nə vermədi.

## Şəmsəddin

Bu şeyx irfan əhli arasında böyük şan-şöhrət qazanmışdı. Rum Mövlası adı ilə məşhur Şeyx Cəlaləddinin mürşidi olub. Şeyx Cəlaləddin Rumi nəzmlə "Məsnəvi" kitabını qələmə almış və onun bir neçə yerində Şəmsəddinə çox gözəl təriflər söyləmişdi. Bir yerdə bunu yazmışdı:

Şəms Təbrizi mütləq nurdur.
O, bir günəşdir və Haqq nurudur.
Şəms[1] zahirdə tək görsənsə də,
Şəmsi ona bənzər təsvir etmək olar.

O özü şair olmayıb. Onun təxəllüsü ilə yazılanların hamısı yuxarıda adı çəkilmiş Mövlanındır. Onun adına olduqca böyük divan var ki, başdan başa irfan məsələlərinə həsr edilmişdir.

## Şövqi

Sam bin Təhmasib padşahın xidmətində olub. Şahın töhmətindən qorxardı. Padşahın humayun məiyyəti tərkibində Hindistana getdi və Kabildə dünyasını dəyişdi. Bu rübai onundur:

Bunlar ağıl ilə dinin bəlasıdırlar hamısı,
Vəfa əhlinə kin saxlayırlar hamısı.
Bizimlə lazım olduğu kimi rəftar etmirlər,
Amma nə etmək olar ki, belədirlər hamısı.

## Saib

Azər deyir: onun adı Mirzə Məhəmməd Əlidir. Onun qohumlarını Şah Abbas Təbrizdən İsfahana köçürtdürüb

---

[1] Şəms sözünün mənası günəşdir.

Abbasabad məhəlləsində yerləşdirmişdi. Saib elə orada dünyaya gəlmiş və bu şəhərdə elmə yiyələnmişdi. Hindistana səfər edib qayıtdı. İki padşahın – Şah Abbsın və Şah Süleymanın – xətrini istədikləri adam olub. Çoxlu şeirlər yazıb. Bu məşhur beyt də onundur:

Onun iki gözü ətrafında bəla gözü oturmuş,
Qəbilə kimi Leylinin ətrafında yerləşmişdir.

**Səburi**

Zərgərin oğlu olub və özü də bir inci idi. Aşağıdakı onundur:

Sənin bir günlük əziyyətin bizim üçün bir ay çəkər.
Ürək səbr edər, dövran keçər.

**Tuqi**

İsfahanda sərrac olub. Kimya elmini öyrənmək arzusu ilə Lahicana getdi və orada öldü. Onun da şeirləri çoxdur. Məsələn:

Sənin vəfalı olmağına çox da ümid bağlamıram,
Çünki sənin vəfasızlığından şikayətçiyəm.

**Zühuri**

Təbriz alimlərindən olub və Azər onun bu şeirini yazmışdır:

Ay könül, qəm yeyib ağlama.
Sən də mətləbə çatarsan, tələsmə.

**Üczi**

Deyilənə görə yaxşı xasiyyətə malik idi. Adı Həsən bəy, özü də Təbrizin hərbçilərindən olub. Aşağıdakı nəzm onundur:

Vəsl hədisini dilə gətirmirəm, qorxuram ki,
Kin üzündən işim taleyin əlinə düşər.

## Üzri

Əsli Təbrizdən olub, Yəzddə yaşayırdı. Ondan sonra İsfahana gəlib. Zərgərlik də edərdi. Bu beyt onundur:

Bahar gəldi, gül açdı, novruz da keçdi.
Başımı çevirdim, bu gün də keçdi.

## Molla Məhəmməd Əssar

Alim və Təbrizin əyanlarından olub. Şeir yazmağın ustadı idi. "Mehr və Müştəri"ni o yazıb. Divarları hündür olmuş bir qala haqqında belə deyib:

Onun mazğalından atılan daşı tapıb görərsən ki,
Keyvanın[1] başındakı buynuzu qırıb.

## Ünvan

Adı Məhəmməd Rzadır. Aşağıdakı nəzm onundur:

Gəl ki, həyatımızın sərmayəsisən.
Sənsiz baxış gözdə qaldı, söz dildə.

## Fərdi

Təbrizlidir və bu beyt onundur:

Qasid onun yanımda adımı "qəmyeyən" qoydu.
Şad oldum ki, qəlbimdəki dərdi eşitdi.

---

[1] Keyvan – Zühəl, Saturn planeti.

## Füsuni

Adı Mahmuddur. Gözəl üslubda yazılmış bu nəzm onundur:

Yuxu ilə rahatlıq getdi o gözdən ki, görməyə başladı.
Asayiş getdi o könüldən ki, döyünməyə başladı.
Əğyarı kuyində görəndə dərd çəkdim ki,
Qısqanclıqdan qəm tikanı ciyərimi deşməyə başladı.

## Fəsihi

Fağır xasiyyətli alim olub. Peşəsi aşıqlıq idi. Onundur:

Mənimlə yar arasında eşq cazibəsi o həddədir ki,
Mən getsəm, o, ağlını itirər.

## Həkim Qətran

İbn Mansur, ən görkəmli şairlərdən olub və onun şeiri gözəl, güclü və təsirlidir. Onundur:

Qaliyərəng[1] zülfə və aynavari yanağa –
Hər ikisinə göz salmaqdan üzüm saraldı, fikrim dağıldı.
Üzünə pis göz baxan zaman gəlməsin,
Qaliyə ovsunlayıcı gəzintiyə çıxsın.
Kef günü Yusif kimi taxta çıxsın,
Hərb günü Rüstəm kimi döyüşə çıxsın.
Onun əlinin səxavətindən torpaq qızılın altında gizlənib,
Onun xoş xasiyyətindən qaliyə məcun oldu.

## Kazima

Təbrizdə doğulub və Kaşanda yaşayıb. Aşağıdakı şeir onundur:

[1] Qaliyə – saça sürtülən qara yağ.

Sinəmdəki qəfəsin içində olan bu könül quşu
Sonda məni ovçunun evinə gətirər.

### Şeyx Mahmud Şəbüstəri

Ən tanınmış mütəfəkkirlərdəndir. Onun Mir Hüseyni Sadatın "On yeddi məsələ"sinə cavab olaraq nəzmlə yazdığı "Gülşəni-raz" adlı məşhur əsəri vardır. Bir çox alim bu risaləyə şərh yazmışdır. O, vəhdəti-vücuddan bəhs etdiyi həmin risalədə belə deyir:

Hər kimin qəlbində şəkk olmasa tamam,
Yəqin bilir: varlıq birdir, vəssalam!

***

Mümkün varlıq imkan tozun silərsə,
Vacibdən savayı qalmaz heç nəsə.[1]

### Tacir Məsihi

Təbriz xaçpərəstlərindəndir. Qəribə şeylər danışardı. Aşağıdakı rübai onundur:

Ey İsanəfəs tərsa[2] dilbər,
Evimə qorxusuz gəlməyini istəyirəm.
Yaş gözümü paltarının pak qolu ilə siləsən,
Quru dodağıma yaş dodağınla toxunasan.

### Müşki

Adı Mahmuddur. Təbriz ələvilərindəndir. Müşksatan olub. Bu şeir onundur:

---

[1] Bu misraların tərcüməsinin müəllifi f.ü.e.d. Nəsib Göyüşovdur.
[2] Tərsa – xaçpərəst.

Onun dərdindən yüz natəvanın qəlbi gecə yarısı yox oldu,
Qəlblər bir-bir ələ keçdi, mənim qəlbim o arada yox oldu.

## Məruf

Təbrizin əsilzadələrindən idi. Rəml atmaqla məşğul olardı. Onundur:

Əcəl vaxtı can verməkdən deyil nalə çəkməyim,
Yardan ayrı düşürəm, ondandır nalə çəkməyim.

## Məlum

Adı Məhəmməd Hüseyn bəydir. Hərbçilərdəndir. Onundur:

Mənim məktubuma cananın cavabı gec gəlir,
Qasid gedəndə cavan olsa da, kuyimə qoca gəlir.

## Məğribi

Molla Məhəmməd Şirin, Şahruxun dövründə yaşamış ariflərdəndir. Onundur:

Səhər dözməyib tələb etdi şamlardan bir neçəsin,
Çölə atmadı addımlardan bir neçəsin,
Xass[1] paltarında gətirdi ammlardan[2] bir neçəsin,
Üzüqara etdi üzüağlardan bir neçəsin.

## Müqimi

Şah Abbasın fərmanı ilə İsfahana köçmüş təbrizlilərdən olan Molla Bahadır Təbrizinin oğludur. Bu beyt onundur:

---

[1] Xass – xüsusi.
[2] Amm – ümumi.

Rəhmət dənizi coşanda
Günah öz sahibini yox edər.

## Məlhəmi

Təbrizin alimlərindən və müəllimlərindən idi. Hakim Ağa-xanın yaxın dostu olub. O, uşaqbazın və şorgözün birisi idi. Xanın saqiləri olmuş gənc nökərlərlə eşqdən açıq-aydın söhbət aparardı. Onu nə qədər xəbərdar edib qorxutsalar da, dinc oturmadı. Onda Təbriz hakiminin hökmü ilə onun üçün dəridən bir girdə külah tikdilər və başı eyş-işrətə qarışdığı vaxtda göyçəküzlülər həmin papağı onun başına keçirtdilər və başına ömründə görmədiyi oyunlar açdılar. Mövlanada taqət qalmadı, durub Şiraza qaçdı və orada Fars hakimi İmamqulu xanın həmsöhbəti oldu. Orada başqa elmlərdən təhsil aldı və həmin yerdə öldü. O, külah onun başına qoyulan zaman aşağıdakı şeiri çox gözəl demişdi:

Rübai: Ay astagəl dilbər, könlümə tərəf gəl,
Ay ləli-cəvahirat, xəzinəyə tərəf gəl.
Nə qədər ki, xalq səni gözü ilə görmür,
Sinədən könlümün xəlvətinə gəl.

## Nisari

Dünya görmüş və nəzakətli ağsaqqal olub. Onundur:

Mənim fəryadım əğyarı incitməz.
Yada salar və biixtiyar vaz keçər.

## Vüqui

Bədbəxt bir adam olub. Onundur:

Onun dodağı sıxması xəstələnməyimə bais oldu,
Gülün dinməməsi bülbülün dərdinə səbəb oldu.

## Hümai

Nəsir əl-Həqq vəd-Din Tusinin şagirdi olub və Müslihəddin Sə’dinin də məclislərində iştirak edib. Bu şeir onundur:

Bir ildən sonra dünən səni yuxuda gördüm,
Məbada ki, səni bir də unudum.
Bu gün də üzün gözümün önündədir,
Bu gün də səsin mənim qulağımdadır.

Azərin “Atəşkədə”də təqdim etdiyi Təbriz şairlərinin siyahısının sonuna çatdıq. Yaxşı baxsaq görərik ki, bu şəhərdə Qətrandan başqa tanınmış şair olmayıb. O da aydındır ki, bu məmləkətin xalqı tündxasiyyət və kobuddur. Bu isə şairin təbiətinə yad olan xüsusiyyətdir, çünki şair təbiətcə yumşaq, zərif və dinc olmalıdır.

# Təbrizin hakimləri[1] və ədibləri

İndi isə bu böyük şəhərin hakimləri və ədibləri haqqında söz açaq.

## Xətib Təbrizi

Xətib adı ilə dünyaca məşhur Əbu Zəkəriyya bin Əli. Təbrizdən Tənuxa piyada gəlmişdi. Ədəbiyyat elmini Əbülüla Məərri Zərirdən öyrənmişdi. O, İbn əs-Səkkitin "İslahül-məntiq"inə düzəliş vermişdi və həmin kitab qarətdən sonra sağ qalmışdı. Çox faydalı kitabdır. Xətib hicrətin beş yüz ikinci ilində[2] o biri dünyaya köçdü.

## Hekayət

Xətib deyir ki, Məərrətün-neman məscidində ustad Məərrinin xidmətində idim. Uzun illər idi ki, Təbrizdən getmişdim. Məərrə kənarda olduğuna görə Şama və Misrə karvanlarla gedən tacirlər oranı görmürdülər. Bu səbəbdən heç təbrizlilərlə görüşmürdüm. Birdən bir kişi mənim səsimə məscidə gəldi. Mən onun yanına getdim. Salamlaşandan sonra onun haralı olduğunu soruşdum. O, mənim dilimdə cavab verdi. Söhbətimiz uzun çəkdi. Sözümüz ustadın qulağına çatdı. Biz danışıb qurtarandan sonra Məərri dedi: "Mən bu dili bilmirəm və sizin dediyinizi anlamadım, ancaq sözləriniz yadımda qaldı". Bundan sonra bizim dediklərimizi təkrarladı. Mən onun hafizəsinin gücünə heyran qaldım.

## Hekayət

İbn Xəllikan başqa şeydən rəvayət edir. Xətib həmişə öz kitablarını heybəyə qoyub çiyninə salardı. Mən İbn Səkkitin

---

[1] Hakim – hikmət sahibi; mütəfəkkir; filosof; alim; təbib.

[2] Miladi təqvimilə 1254

“İslahül-məntiq” kitabını Məərrənin məscidində görəndə sanki sudan çıxmışdı. Dedilər ki, Xətibin bel tərinin təsirindən bu günə düşüb. O, məhəllələri gəzərkən kitabı zay etmişdi.

## Həkim Əbülfəth

Həkim adı ilə məşhur olub. Təbrizin bacarıqlı təbiblərindən idi. Boyu balaca olduğuna görə ona Kiçik Həkim də deyərdilər. Xəstəliyi və onun səbəbini təyin etməkdə tayı olmayıb. Nəbzi yoxlayan kimi deyərdi: “Bunun filan xəstəliyi var. Filan şeyi yeməkdən və filan hərəkəti etməkdən bu bəlaya düşüb”. İkinci Şah İsmayılın yaxın adamlarından olub. Onun vəfatından sonra Azərbaycanın hökmdarı Əmir Xan Türkmanın xidmətinə keçdi. O əmir gedəndən sonra Sultan Həmzə Mirzədən bir iltifat görmədi. Ancaq Şah Abbasın dövrü gələndə Həkimin rütbəsi yüksəldi. Rəisi-ətibba[1] və həzrətin məsləhətçisi oldu. Ancaq dünya öz qəddarlığını göstərdi. Şikəst oldu və ölüm şərbətini içdi.

## Molla Əlaəddin

Əla bəy adı ilə məşhur olub. Süls xəttinin ustadı idi. Üzərində onun həkk etdiyi xətti olan mərmər daşı hal-hazırda Təbrizin Camesində yer alır. Onun bir nüsxəsini bu kitabda gətirmişəm. Abdullah Seyrəfinin şivəsi ilə yazardı, ancaq ondan yaxşı idi. Əli Təbrizi və Həsən bəy bin Mahmud onun şagirdləri olublar və ikisi də gözəl yazıb. Molla Əli süls xəttini tərk edib və nəstəliqlə yazmağa başladı, tezliklə tərəqqiyə nail olub məşhurlaşdı.

---

[1] Rəisi-ətibba – təbiblərin başçısı, baş həkim.

# Rəb'[1]i -Rəşidi haqqında

Xacə Rəşidəddin Fəzlüllah Təbib Həmədani[2] fəzilət ilə bilik sahibi olub. Biz hazırkı kitabda bütün dünyanın məsələlərini həll etməyi qarşımıza məqsəd qoymadığımıza görə bundan artıq bir söz söyləmirik. Onun cığatay türkcəsində Çingiz xanın soyundan bəhs edən "Tarix"i var. Mən o kitabı görmüşəm. Çox qəliz dillə yazılıb. Altı yüz doxsan doqquzuncu ildə[3] Sultan Mahmud Qazanın vəziri vəzifəsi ona tapşırıldı. Bu vəzir ordunun və məiyyətlərin yerləşdirilməsi üçün təkbaşına Rəb'i-Rəşidi adında bir tikili inşa etdi. Həmin möhkəm bina yaxşı qorunurdu.

Mənim Təbrizə gəldiyim il onun qalıqları yerində idi. Sürxab dağında, hamısı kərpicdən. Mən yaşıdlarımla oralara gəzintiyə çıxdıq. Hər şeyi qaydasında olan otaqları, naxışlarla bəzədilmiş tağlar ilə divarları var idi, özülə və divarlara qoyulmuş bütün daşları yaxşı yonulmuşdu. Təbrizin sakinləri buraya "Rəşidiyyə" deyirdilər. Tərbiyəsiz adamlar bu binanın daşlarını və kərpiclərini çıxarıb öz evlərində işlətmək üçün aparmışdılar. İndi onlardan biri də yerində qalmayıb. Qalan ancaq daşlarla kərpicləri lap dibdən çıxartmaq üçün qazılmış xəndəklər və Bağmeşə məhəlləsində təpənin üstündəki əzəmətli bir bürcdür.

Bu bina Təbrizin şimalında yerləşir. Məharət və səliqə ilə daşdan, kərpicdən və ahəngdən tikilmişdir. Olduqca möhkəm və davamlıdır. Təbrizlilərin ona əlləri çatmır, yoxsa heç qoyardılarmı ki, daşı daş üstündə qalsın? Mən mövla və dostum həzrət vəkilin əlində bir köhnə və əzilmiş dəftərçə gördüm. Orada yazılanların hamısı, o cümlədən Rəb' haqqında üç nüsxə, vəzirə aid idi. İlk baxışdan o yazının böyüklüyü mənə qəribə gəldi. Lakin yaxşıca baxanda gördüm ki, təəccüblənməyə səbəb yox-

---

[1] Rəb' – tikili, yaşayış yeri, düşərgə.

[2] Xacə Rəşidəddin Fəzlüllah (1247-1317) – görkəmli tarixçi və dövlət xadimi, "Oğuznamə" və "Cameüt-təvarix" əsərlərinin müəllifidir.

[3] Miladi təqvimilə 1299/1300

dur, çünki həmin sənəd Sultanın Ceyhunun sahilindən Fəratadək yerinə yetirilməsi vacib olan fərmanı imiş. Monqol padşahlığı da həmin padşahlıqların bir hissəsi idi. Padşahın vəziri vəzifəsinin sahibi mütləq nüfuzun sahibi olardı, məmləkətin mallarına nəzarət edərdi və Xacənin də Mahmud Qazanın yanında hörməti böyük idi. Ancaq tale öz işini gördü və o, Tacəddin Əlişah Ceylan Təbrizinin səyi ilə öldürüldü. Bundan sonra Rəb'in təmtərağından əsər-əlamət qalmadı və o xeyrat qapısı bağlandı.

Rəb'i-Rəşidinin qalasının və içəridəki evlərin divarları Səfəviyyə sultanlarının dövrünə qədər yerində qalmışdı və onlara dəyən ziyan çox kiçik idi. Bu binanın əsasını sarsıdan daha çox osmanlıların Təbrizə ordu yeritmələri, onların padşahları və zəlzələlər olmuşdu. Bu barədə heç nə yazılmayıb. Mən bu binanın tarixini bəyan edirəm. Şirazlı katib Fəzlüllah həmin vəzirin işini və Rəb'in tikilməsini altı yüz doxsan doqquzuncu ildə[1] vəsf etmişdi. Mənim bunları yazdım.Tarixi sənədlərdə həzrət Vəssafın dedikləri ilə bir tərəziyə qoyulası belə bir şey olmayıb. Zənnimcə, monqolların hakimiyyətinə son qoyulandan sonra Təbriz əmirzadələrin mərkəzinə çevrildi və əmirlərin qaldıqları imarət həmin Rəb' olmuşdu. Daha bir yazıda görmüşəm ki, filankəs qərargah olan Rəb'dən çıxdı, filankəs gəlmədi və filankəs Rəb'i-Rəşididə özü üçün bir saray tikdirdi, çünki o çağda Təbriz şəhərinin abad hissəsi Çərəndabdan başlayıb Sürxaba və Vilankuha qədər uzanırdı. Şənbi-Qazan ayrı bir qala olub. Qazan xanın bu şəhərin ətrafında inşa etdiyi hasar və xəndək haqqında bir yazı vardır.Orada deyilir ki, həmin dairə Çərəndabı, Sürxabı, Bilankuhu, Bəsatini və Bağatı əhatə edir. Qala divarının eni on zər'*, uzunluğu dörd min qədəmdir. Beş böyük darvazası və səkkiz kiçik qapıarası darvazası vardır. Mən indi bu yerdə Rəb' haqqında sözümü kəsirəm, çünki bu sözlərimi də olduqca böyük ehtiyatla yazmışdım. İndi o tikilinin heç izi-tozu da qalmayıb. O üç nüsxəni isə ondan ötrü yada salıram

[1] Miladi təqvimilə 1299/1300

ki, həmin kişinin böyüklüyündən və alicənablığından, eləcə də binanın əzəmətindən və bahalığından xəbəriniz olsun. *Birinci.*

## Xoşbəxt Vəzir Xacə Rəşidəddinin "Münşəat" kitabında dərc edilmişdir

## Xacə Cəlaləddinə yazdığı və içində bir neçə qulamı tələb etdiyi məktubun surəti

Əziz və hörmətli oğlum Cəlala (Allah-təala onu saxlasın!) məlum olsun ki, Rəb'i-Rəşidinin civarında bir bağ inşa etməyi əmr etdik. Zəka sahiblərinin təxəyyülü və xeyriyyə işlər görənlərin dərk etmə qabiliyyəti bu bağın nə dərəcədə gözəl və qəribə sənət əsəri olduğunu anlamaqda acizdir. Həmin bağ-bostanın təravəti, səfası, rəngarəngliyi və bahalığı o ali cənnətin bir nümunəsidir. Bu bağ öz gözəlliyi və rövnəqliyi ilə padşahların kef məclislərini keçirdikləri məkanı xatırladır. Onun güllərlə ağaclarının hüsnü camalını dəyərləndirmək üçün, hədisdə də deyildiyi kimi, "adamda görməyə göz, eşitməyə qulaq və duymağa könül tapılmaz". Onun divarları və hasarları arasında belə bir yaqutvari surətlər inşa edilmişdi ki, ayədə buyurulduğu kimi, "məmləkətlər arasında onun kimisi yaradılmamışdı"[1]. Lalələrindən toxunmuş şadlıq məclisi və bənövşələrindən tikilmiş sevinc məskəni sanki Ədn cənnətləridir. "Əbədi qalacağınız cənnətə daxil olun"[2].

Nə xoş hava var bu gülüstanda!
Nə xoş yel əsir bu yataq otağında!
Məşşatənin[3] əlləri bəzəndirir
Bu bağ gəlininin üzünü.
Şümşadın çətiri ilə ağacın talvarı
Reyhanın başına kölgə salır.

---

[1] Fəcr. 8
[2] Zümər. 73
[3] Məşşatə – toy ərəfəsində gəlini bəzəndirən qadın.

Onun içərisi geniş və sahəsi böyük olduğuna görə biz burada beş kənd saldıq ki, ağac əkmək, su çəkmək, odun hazırlamaq və meyvə yığmaq kimi işlərə məşğul olsunlar. Hal-hazırda dörd kənd tikilmişdir. Biri zəncilərin kəndidir, qırx nəfər kişi və qadın. İkincisi kürcilərin [gürcülərin?] kəndidir, qırx nəfər kişi və qadın. Üçüncüsü qürdlərin [kürdlərin?] kəndidir, qırx nəfər kişi və qadın. Dördüncüsü həbəşilərin kəndidir, qırx nəfər kişi və qadın. Beşincidə isə nə rəiyyət var, nə imarət. Biz buranın rumların qalası olmasını istərdik. Təvəqqəm budur ki, qırx nəfər rum qulamı ilə kənizi Təbriz darüssəltənəsinə göndərsinlər. Onlar da həmin kəndin sakinləri olaraq tikinti işlərinə başlasınlar. Yəqin ki, peşman olmazlar. *Vəssalam.*

### [*ikinci*] **Xacə Əlaəddin Hinduya Təbrizin xəstəxanası üçün yağların göndərilməsi haqqında yazılmışdır**

Etimad sahibi Xacə Əlaəddin Hinduya məlum olsun ki, fəzilətli və bəsarətli mövlamız, həkimlərin öndə gedəni, təbiblərin qaymağı, zəmanəmizin Calinusu[1] və dövrümüzün Büzürcmehri, əql elmi fənlərində Əflatunu[2] üstələyən və Ərəstunu[3] qabaqlayan Məhəmməd bin ən-Nili bu saat Rəb’i-Rəşididəki xəstəxananın yağların çatışmamazlığı üzündən nöqsansız işləyə bilmədiyini qeyd etmişdir. Özünün xoş ətri ilə valeh edən və gözəl qoxusu ilə seçilən rəngarəng qızılgüllərin əksəriyyətinin və reyhanların çoxusunun paytaxt Təbrizdə qışın sərt keçməsi səbəbindən məhv olması və bunun nəticəsində hava ilə suyun öz təravətini itirməsi zəka sahiblərinə aydın və bilik yiyələrinə məlumdur. İndi isə lazımdır ki, adı yuxarıda çəkilən şəxs cənab Mövləvi ilə birlikdə Təbrizdə çatışmayanları ən yaxşı üsulla və ən asan yolla təqdim etsinlər və ən cəld tərpənən nökərləri təfsilatı ilə qeyd

[1] Calinus (Qalen) – məşhur yunan təbibi (130-200).
[2] Əflatun (Platon) – qədim yunan filosofu (m.ə. 429-347).
[3] Ərəstu (Ərəstun, Aristotel) – qədim yunan alimi və filosofu, Əflatunun şagirdi (m.ə. 384-322).

etdiklərimizin içində ənqa quşu kimi əlçatmaz və kimya daşı kimi tapılmaz olanların dalınca göstərdiyimiz məmləkətlərə yollasınlar və vilayətlərin əyanları ən bəyənilən yağları təyin olunmuş çəkidə hər il gecikdirmədən Təbriz darüssəltənəsinə göndərməyi qulaqlarına sırğa etsinlər:

Bənövşə-badam yağı – yüz mən
Qızılgül-badam yağı – əlli mən
Yasəmən-badam yağı – iyirmi mən
Nərgiz-badam yağı – iyirmi mən
Nəstərən çiçəyi-badam yağı – iyirmi mən
Gülab-əncir(?) yağı – üç mən
... (?) yağı – on mən
... (?) yağı – iyirmi mən
Təmizlənmiş kafur yağı – on mən
Əla növ əzvay yağı – on mən
Şebboy yağı – on mən
Nəsrani yasəmən yağı – on mən
Xına yağı – on mən
Baqqal əfşini (?) yağı – on mən
Məstəki yağı – on mən
... (?) yağı – on mən
Ərikgülü yağı – on mən
Antakiyə süsəni yağı – on mən
Lavanda yağı – on mən
Qırmızı qızılgül yağı – əlli mən
Qəzvin gülü yağı – on mən
Nəstərən çiçəyi yağı – on mən
Bənövşə yağı – iyirmi mən
Nərgiz yağı – iyirmi mən
Pərpərəng yağı – iyirmi mən
Çobanyastığı yağı – iyirmi mən
... (?) yağı – bir mən
Əqrəb yağı – bir mən
Zanbaq yağı – on mən

Misir məlhəmi yağı – bir mən
... (?) yağı – on mən
Mərsin yağı – beş mən
Saman (?) yağı – on mən
Bahar narıncı yağı – on mən.

Bu məmləkətlər bir-birindən uzaq düşdüklərinə görə hər şəhərə xüsusi olaraq ayrı bir nəfər getməlidir. Yəqin ki, səhlənkarlığa və saxtakarlığa yol verilməz və şərtlərə dəqiqliklə əməl edən etimadımızı qazanar. *Vəssalam.*

İndi isə Rum hakimi Xacə Cəlaləddinə yazılmış təfsilatlı və təfərrüatlı, hər fəsli müxtəlif öyüd-nəsihətləri ehtiva edən məktub barədə. Otuz altıncı fəsildə yazır ki, “bizim İran məmləkətində təsis etdiyimiz xəstəxananın bir neçə Rum ədviyyatına ehtiyacı var. Odur ki, həmin məktubda qeyd olunduğu kimi, hər il aşağıdakı ədvaları göstərilən miqdarda öz dəvələrinə yükləyib Təbriz darüssəltənəsinə (Allah onu bəlalardan qorusun!) göndərsinlər:

cirə – yüz mən; arifun (?) – əlli mən;məstəki – yüz mən; lavanda – yüz mən; küskütotu – yüz mən; əfşin (?) – yüz mən. *Vəssalam.*

[üçüncü] **Əvacim hakimi olmuş Xacə Sə’dəddinə yazılmışdır**

Əziz oğlum Sə’dəddinə (Allah onun ömrünü uzun etsin, gözlərindən öpürəm) məlum olsun ki, Bari-təala və təqəddüs özünün nemət süfrəsindən və kəramət dəstərxanından şadlıq payını və bolluq bəhrəsini bizə göndərməklə ürəyimizdə belə bir arxayınlıq yaratdı ki, taleyin yaşayışımızın binasını və güngüzəranımızın əsasını yıxmağı, dəyərli ömrümüzün fənası ümumi fənaya dönməyi, yüksək vəzifəni tutmaq vaxtının və vəzirlik işlərini yerinə yetirmək zamanının sona çatmağı və təqdir xəzinələrinə keşik çəkənlərin öz əmanətlərini istəmələri –

bunların hamısı baş verməzdən öncə haqq öz yerini tapacaq və ədalət günəşi insaf zirvəsindən öz şüalarını saçacaqdır. Madam ki, məmləkətin vəliəhdi və səltənətin dayağı həzrətlərinə qulluq etmək bizim payımıza düşübdür, biz zəkanın möhkəm bağından və ədalətin qırılmaz ipindən ikiəlli yapışmalı və elm ağacları ilə səbr güllərindən bilik meyvələrini yığıb əfv ləçəklərini dərməliyik. Biz ağıl ilə idrak zirvəsindəki günəş kimi məlum və məşhur olduğumuza və yüksək vəzifə ilə böyük dövlətə sahib çıxdığımıza görə sabit qədəm basaraq və təmiz nəfəs alaraq dostluq münasibətlərini əsas götürüb mühakimə edərkən səbirli və pakniyyət olmalıyıq, mülk qəsri ilə məmləkət qalasını möhkəm qurmalıyıq, itaətimizdə və tabeliyimizdə olan rəiyyətlərin rəğbətini yüksək dəyərləndirməliyik, dünyanın bağlarında şən bülbüllərin ürəkaçan avazlarını səsləndirməliyik, fırlanan çarxı iqtidar cilovunun köməyi iləsərt tərzdə ram etməliyik, Ərəb ilə Əcəm hökmdarlarının və Türk ilə Deyləm vəzirlərinin ən gözəl xasiyyətlərinə arxalanmalıyıq, dünya böyüklərinin əxlaqındakı ən kəramətli cəhətləri nümunə götürməliyik, şiddətli qoxuları təravətli əsintilərlə aləmin burnundan qovmalıyıq, Bəni-Adəmin burnuna şad günlərin yüngül nəsimləri və soyuq şimal tufanları vasitəsilə həm sevinc, həm möhnət çatdırmalıyıq, bütün Yer üzünü bəla dalğalarından və əziyyət təlatümündən yerli-dibli və birdəfəlik qurtarmalıyıq və rəiyyətlərə qarşı riayət qaydalarını həmişə gözləməliyik. Uğurun təsirindən və səadətin əsərindən xəbəri olanhər kəs xoşbəxtlik günəşlərinin nurunu və şadyanalıq məclisinin sevincini hamıya çatdırmalıdır, cahan əhlinin məzacını zəiflik xəstəliyindən və kobudluq mərəzindən şəfaverici vasitələrlə xilas etməli və əmin-amanlıq yaratmaq üçün əlac tapmalıdır vəinsanların həyatını taleyin bulanıqlığından saf etməlidir. Həmd olsun Allaha və şükr olsun Onun tovfiqinə ki, sultan həzrətlərinin humayun qayğısı sayəsində bu günlərdə yaşayanların heç biri halal əməllərin orucunu tutanlardan və pak içkinin susuzluq dərdini çəkənlərdən deyil. Biz səltənətin taxtını və məmləkətin dayağını iftixar zirvəsinə yüksəldərək xoşbəxt yaşayış qapısını və rifah yolunu açıq-aydın saxlamışıq ki, heç

bir məxluqun başqasına ehtiyacı olmasın. Bu minvalla bütün aləmə car çəkib hər kəsin qulağına xəbər çatdırdıq ki, biz dünya xalqlarının ehsan süfrəmizdən həzz almaları üçün zəhmət çəkib var-dövlətimizi əta etmişik və əziz oğlumuzun çəkdiyi tərh üzrə o imarəti tikdirmişik. İndi bura elm adamlarının uğurlu qədəmləri və fəzilət sahiblərinin saleh əməlləri üçün tam hazır vəziyyətdədir. Xəvərnəq qəsri[1] kimi hündür iyirmi dörd karvansarayın qübbələri mina ilə örtülmüşdür; möhkəmlikdə Hirman[2] qalasını üstələyən min beş yüz dükan və otuz min rahat ev tikdirmişik; xoş havalı hamamlar, səfalı bağlar, dəyirmanlar, toxuculuq və kağız emalatxanaları, zərbxana, boyaxana və digər müəssisələr inşa edilmişdir; hər şəhərdən və hər yörədən adamları, o cümlədən vəhy ilə tənzil çəməninin bülbüllərinə və təsbih ilə tənzil bağının əndəliblərinə bənzər iki yüz [Qur‘an] hafizi[ni] gətirib Rəb’də yerləşdirmişik; günbəzin sağında və solunda yüz nəfəri onlar üçün salınmış küçədə sakin etmişik və hərəsinə təqaüd ayırıb bir vəzifə – sağ tərəfin əhlinə Şirazın vəqfhaqqını, sol tərəfin əhlinə isə Şamın vəqfhaqqını yığmağı – tapşırmışıq.

Bəziləri siğə kəsən, bəziləri isə tayfaşünas olan kufəliləri, bəsrəliləri, vasitliləri və şamlıları bütün Rəb’də elə tərzdə yerləşdirdik ki, qiraətxanada hər gün günortaya qədər Qur’animəcidin tilavətinə məşğul olsunlar və öz qulamzadələrimizdən[3] qırx nəfərə də tapşırdıq ki, onlardan Qur’an surələrini oxumağı öyrənsinlər. Bizim səsimizi eşidib hər tərəfdən gələn xarəzmlilərə, təbrizlilərə və digər səsi xoş olanlara dedik ki, onlar da günortadan sonra günün batmasınadək Rəbbani kəlamın tilavətinə və İlahi ayənin qiraətinə dursunlar. Biz fiqh alimlərindən və hədis bilicilərindən daha dörd nəfəri “alimlər küçəsi” adlanan küçədə məskunlaşdırıb hamısına təqaüd və il boyu paltar, bahalı sabun və bahalı halva təyin etdik. Biz həmçinin hərəsi bilik meydanında bir qoçaq və fəzilət səmasında bir ulduz olan min

---

[1] Xəvərnəq qəsri – Kufə şəhərinin yanında bir qəsr.
[2] Hirman qalası – Misirdə bir qaladır.
[3] Qulamzadə – qul, qulun övladı.

nəfər elm talibinə “tələbə məhəlləsi” deyilən məhəlləni nişan verib alimlərə təyin etdiklərimizi onlara da buyurduq. Biz islam məmləkətlərindən bizdən tərbiyə almaq ümidilə gəlmiş daha altı min nəfər tələbəni Təbriz darüssəltənəsində yerləşdirib onların rifahı üçün istifadə etdikləri təqaüdün Rumda, böyük Qəstəntiniyyədə və Hind [yarım]adasında yığılan cizyədən verilməsini buyurduq. Biz bundan öncə hansı tələbənin hansı təhsil aldığını müəyyənləşdirdik və hərənin hansı elmin, o cümlədən üsulüddinin, füruüddinin, əql və nəqlin talibi olduğunu görüb, ona həmin elmi öyrənməyi tapşırdıq və dedik ki, Rəb’i-Rəşididə və Təbriz şəhərində yaşayan hər tələbə hər gün bizim mədrəsələrimizə gəlib-getsin. Biz Hindistanın, Misrin, Çinin, Şamın və digər vilayətlərin müxtəlif yerlərindən gəlmiş əlli nəfər mahir təbibi siniflərə və ixtisaslara bölüşdürüb hər gün xəstəxanamıza gəlib-getməyi tapşırdıq və hər həkimə on tələbəni təhkim etdik ki, bu şərəfli fənnə məşğul olsunlar. Xəstəxanamızda olan göz həkimlərinə, cərrahlara və mücərriblərə[1] “müalicə alanların müalicəsi” deyilən Rəşidabad bağının yanında bir ev verdik. Biz ayrı-ayrı məmləkətlərdən gətirdiyimiz peşəkarlarla sənətkarlardan hər birini bir küçənin sakini etdik.

Bu məktubu yazmaqdan məqsədimiz odur ki, Antakiyədən, Susdan və Tusdan (?) əlli nəfər yun parça toxuyanı göndərsinlər. Amma zorla yox, lütf və xoş sözlə başa salsınlar. Ondan başqa daha iyirmi nəfər yun parça toxuyanı Məlik Nofəl bin Səhabildən istəsinlər ki, Qıbrısdan[2] Təbriz darüssəltənəsinə yollasın. *Vəssalam.*

---

[1] Mücərrib – təcrübə aparan, laboratoriya həkimi.

[2] Yəni Kipr adasından

## Təbriz qalası haqqında

Bu şəhərin ətrafında möhkəm divarın tikilməsinə Moğol şahənşahı Sultan Mahmuq Qazan əmr vermişdi. Həmin divarlar çox əzəmətli olub. Bu fərmanın yerinə yetirilib yetirilməməsini bilmirəm, ancaq mən başqa kitablarda Təbrizdə divarın qurulması haqqında heç nə görməmişəm və eşitməmişəm. Yalnız Osmanlı sərkərdələr özləri üçün bir qala tikmişdilər. Hərbçilərdən və şəhər rəiyyətlərindən burada kimsə olmayıb. Böyük padşah Şah Təhmasıb də hasar tikdirmişdi. O da şəhər hakiminin oturduğu binanın, bəzi sərkərdələrin və ordunun mühafizəsindən ötrü idi.

Rəiyyətlərin evlərini, hamamları, binaları və bazarları əhatə edən geniş və möhkəm hasarın əsasını qoyan ilk şəxs Nəcəfqulu bəy bəylərbəyi Dünbüli olub. O, hicrətin min yüz doxsan dördüncü ilində[1] Həsən xanın himayəsi ilə Təbrizin dövrəsində sarsılmaz hasar tikdirib içində səkkiz darvaza qoydurdu. Onların sırasında birincisi İraq və İsfahan yolundakı Xiyaban darvazasıdır. Ondan sonra indilərdə Bağmeşə qapısı deyilən Əla qapıdır. Ondan sonra məhəllənin adı ilə tanınan Sürxab qapısıdır. Ondan sonra Şütürban qapısıdır ki, indi Dəvəçi qapısı deyərlər. Ondan sonra qalanın qərbindəki İslambul qapısıdır. Bir başqası Sərd qapıdır ki, indi ona Gəcil qapı deyərlər. Ondan sonra Məhadmehin qapısı, sonra Novbər qapısı. Hər ikisinə məhəllənin adını qoyublar. Hər darvazada kaşı ilə örtülmüş iki minarə var və darvazanın ətrafı da göy kaşı ilə işlənmişdir. Bürcləri də göy kaşılıdır. Hər qapının üstündə böyük mərmər lövhəsi qoyulmuşdur və bu daşların üzərində son misrada tikilmənin tarixini göstərən beytlər yazılmışdır. Həmin beytlər bunlardır:

Nə gözəl ki, əsası qoyulub, qalsın əbədi,
Zamanın hadisələrindən Allahın amanında.
Qala bürcündən göylər də heyrətə gəlib ki,

---

[1] Miladi təqvimilə 1780

Xanlar xanının inayəti ilə göylərə qalxıb.
Ədalət mülkünün hökmdarı Nəcəfqulu xana
Dünyaya keşik çəkməyi tapşırılıb.
Bu qalanın tarixnaməsində qısa zamanda
O, Süleyman möcüzəsini nümayiş etdirib.
Tarixdən İsgəndər səddi məlumdur.
Alim deyər: "hesare-Sekəndəre-sani"[1].

Qala divarı tikiləndən sonra bəylərbəyi Allahın rəhmətinə qovuşdu. Onun Əhməd xan tərəfindən Təbrizin bəylərbəyi vəzifəsinə təyin edilmiş oğlu Xudadad xan qalanın xəndəyini qazdırdı. Vaxt keçdi və Azərbaycanın maliyyə işləri Naibüssəltənə Abbas Mirzəyə həvalə olundu. Bu padşahzadə divarın möhkəmliyini artırıb ilk torpaq səngərini və adamlar üçün keçid qurdu. O, əmr verdi ki, bütün divarın ətrafında ox atsınlar və bu məsafədə olan tikililəri qızıl pula alıb yerlə yeksan etsinlər. Orada Nəcəfqulu xanın Rey qapısı önündə saldığı "Kələm bağı" (?) adı ilə məşhur bir bağ var idi. İndi onun yerində əsgər qışlağı və hərbçilərin məşqxanası yerləşir.

Rus ordusu Təbrizə hakim olana qədər bu qalada qarovul, qalabəyi və mühafizə də var idi. O vaxtdan həzrət Naibüssəltənə onun abadlaşdırılmasına daha nəzər yetirmədi. Yavaş-yavaş dağılma buralara yol tapdı. Keçmiş padşahın hakimiyyəti dövründə buranın mühafizəsindən bir dəfəlik vaz keçdilər. Qala keşikçilərinin maaşını kəsdilər, hər yerdə dağıntılar peyda oldu və ətrafdakı camaatın əlindən xarabalıqlar əmələ gəldi. O zaman xilafətin dərgahından bu imarətə göndərilən fərmanda həmin dəlmə-deşiklərdən və çatlardan yazılmışdı və sərkərdə Əziz xan Mükri dərgaha ərz etdi ki, "Divarlar dağılıb və xəndəklər dolub. Bu hasarın heç bir faydası qalmayıb. Bu ərazini satsam dövlətin

[1] Hesare-Sekəndəre-sani – İsgəndərin ikinci hasarı. Bu maddeyi-tarixdən həmin qapının qoyulması tarixi – hicri təqvimilə 1194-cü il (miladi təqvimilə 1780-ci il) məlum olur.

xəzinəsinə çoxlu qızıl çatacaq və adamlar abadlaşdırmaqla məşğul olarlar”. Əmr gəldi və hər yerdə elan olundu.

Sözümü burada bitirirəm. Dövlətə heç qara quruş da çatmadı və adamlar o ərazini ələ keçirtdilər. İndi şəhərin şərqində olanların hamısı saraylar, hamamlar və evlərdir. Burada istifadəsiz bir qarış da torpaq yoxdur. Qərbdə, İslambul qapısı və Sərd qapı da belədir. Yalnız Vicuyə məhəlləsinə bir az yaxın yerə su çatmadığına görə indi qazma işi gedir və ora da abadlaşır.

Bu divarın üstündə ağır silahın və paydar topların[1] yerləşdirməsi mümkün olmadığına görə şəhəri düşməndən mühafizə etməkdən ötrü kara gəlməsə də, evləri və bazarları qorumaq üçün yarayır. Bayıra çıxmaq yolların sayı məlum idi. Əgər birinin evini qarət etsəydilər, darvaza açılanadək aydın idi ki, hələ şəhərdədir. Əgər kimsə zinakarlıq edib şəhərdən qaçsaydı, əlbəttə, hansı yana getdiyi bilinərdi. İndi isə Təbrizin hasarı haqqında söhbəti yekunlaşdırıram və uzun illər bu məmləkətin maliyyə işlərinə baxmış Dünbüli tayfası barədə danışmağı lazım sanıram, çünki onların bizim dinimizin və adətlərimizin qorunmasında özlərinəməxsus yerləri vardır.

[1] Paydar top – payaları yerə basdırılan top.

## Dünbüli tayfasının[1] əvvəli və axırı haqqında

### Mahmud xan Dünbülinin katibi tərəfindən yazılmış bu nadir və müfəssəl fəsli burada gətirdim ki, həmin ailənin başçısı öz nəslinin işini yaxşı tanısın

Mən müxtəlif adamlardan və qədim kitablardan öyrəndiyim məlumatı burada yazmasam da, bu ailənin tarixini göstərəcəyəm. Tarixnamədən məlum olur lki, əzəmətli əmir Mahmud xan bu ailənin tarixini şücaətli yazarların adətkərdə etdikləri tərzdə qeydə almışdı. Mən onun surətini köçürüb məzmunu burada yazdım. Tarixçi özü bu nəslin böyüklərindən olduğuna görə onun sözü dedi-qodulardan daha etibarlı olar.

*Mən deyirəm.* Bilməliyik ki, sözügedən kitabı həmin böyük adamın yetirmələrindən və ailə üzvlərindən olmuş münşi Mirzə Məhəmməd Həsən ondan eşidib padşah Məhəmməd şahın (Allah onun dəlilinə nur salsın!) dövründə qələmə almışdı. Dibaçədən sonra kitabın "Təzkirətüd-dənabilə"[2] olan adı qoyulmuş və iki bab öz yerini tapmışdı. Birinci bab Dünbüli əmirlərinin nəsabəti haqqındadır; ikinci bab bu böyük əmirin[3] tərcümeyi-halını, şeirlərini və dediklərini ehtiva edir. Bu ikinci babı faydasız olduğuna görə bir dəfəlik çıxartdım. Yazan deyir: "Heç şübhə yoxdur ki, bu tayfa qaçaq kürdlərə bağlıdır və bu adla tanınan birinci adam Şamın başçılarından olmuş İsa bəydir və o, Əyyubilərin törəmələrindən olub".

Qeyd. *Mən deyirəm.* Bu sözün əsası yoxdur, çünki Əyyubilər nəsli Rəvvadiyyə kürdlərindən və Mərənd əhlindəndir, Dəvin adlı kənddən gəlir. *Son.*

### İsa bəy

Uzun müddət Cəzirə[4] diyarında sufi paltarını əyninə keçirib yaşayırdı. Otuz mindən artıq evə malik Dünbüli tayfası onun

---

[1] Dünbülilər İranın kürd şiə tayfalarındandırlar.
[2] Təzkirətüd-dənabilə – Dünbülilərin təzkirəsi.
[3] Yəni Mahmud xan Dünbülinin
[4] Cəzirə – Dəclə ilə Fərat çaylarının arasındakı bölgəyə deyilir.

əmrlərini yerinə yetirərdi. Bu nəsil böyük nüfuz sahibi idi. Kürdlərin tarixini yazmış Bitlis hakimi Şərəf xan İsa bəyi Şamın əmirləri sırasında göstərib vəbu soyun hicrətin min beşinci ilə qədərki tarixindən söhbət edib. Onun sözünə görə, məlumatlı adamlar deyirlər ki, Şam ərəblərindən olmuş İsa bəy İbn Ömər adasına[1], oradan da Azərabadəgana gəlmişdi. Burada tayfalar onun ətrafına yığışır. Əvvəl bu Dünbülilərin etiqadı yəzidilik[2] olur. Sünnilərdən olmuş İsabəylu adlı kiçik bir qövm yavaş-yavaş hamılıqla bu tayfanın yolunu tutur. Daha düzü o olar ki, Dünbüli nəsli Büxta[3] bölgəsindəndir və kürdlərlə qarışmışdır. Buna görə də həmin tayfaya Dünbülibüxt deyərlər.

İsa bəyin yaxın qohumlarından olmuş Şeyx Əhməd Ağqoyunlu türkmanlarının yüksəlişi dövründə Bay qalasını və Hakkari bölgəsini ələ keçirən əmirlərdən idi. Oranı ona verdilər. Ondan sonra həmin yerə oğulları Şeyx İbrahim və Şeyx Bəhlul başçılıq etdilər. Onun yeddi oğlu olub: Cəmşid, Məhəmməd, Xalıqverdi, Hacı, Əhməd, İsmayıl və Cəfər.

## Hacı bəyin tərcümeyi-halı

Hacı bəy cah-calalla Şah Təhmasibin sarayına gəldi. Xoy məliki Sükmənabada gəlib [Hacı] Sultan ləqəbini verdi. Ömürlərində dörd divar görməmiş vəhşi kürdlər üzlərini Xoy şəhərinə çevirdilər. Xoy xalqı o savadsız tayfanın əlindən çox əziyyət çəkdi. Həmin çöl camaatından çoxlu maraqlı şeylər danışırlar. Mən indi onun bir nümunəsini gətirirəm.

Belə söyləyirlər ki, bir adına günü adamlar məscidə yığışdılar. Xətib adət üzrə minbərə çıxıb islam imamlarına bir-bir

[1] İbn Ömər adası – müasir Türkiyənin Diyarbəkirlə Mardin arasındakı bir yarımadanın olduğu güman edilir.
[2] Yəzidilər Şeyx Üdeyy bin əl-Müsafirin mürədlərindən olublar. "Yəzidi" sözünün kafir "xəlifə" Yəzid bin Müaviyənin adı ilə əlaqəsi yoxdur. Bu söz çox güman ki, mələk mənasını verən Avesta dilində "yəzətə", pəhləvi dilıində "yəzəd" və müasir fars dilində Tanrı mənasında işlənən "izəd" sözündən əmələ gəlmişdir.
[3] Büxta – müasir Türkiyədə Bitlis tərəfdə bir yerdir.

salam oxudu. Kürdlər hay-küy saldılar ki, "bu xətib xaindir, çünki xütbəsində Hacı bəyin adını çəkməyib, amma özünün kiçikyaşlı qardaşı Cəfər bəyin adını ehtiramla oxuyur" və xətibin üstünə qışqırdılar ki, "gələn cümə Hacı Sultanın adını çəkməlisən, yoxsa biz məscidə gəlmərik". *Son.*

Hacı bəyin Mahmudilər nəsli ilə qədimdən ədavətləri olub və həmişə onlara qarşı vuruşarmış. Həsən bəylə Xan Məhəmməd Mahmudinin əhvalatından sonra Van bölgəsinin baş əmiri İsgəndər paşa qəflətən Xoya hücum çəkib Hacı Sultanı və Dünbülilərin bir çoxusunu öldürdü. Ondan sonra adını sağ qalmış körpə oğluna qoydular.

## Əhməd bin Bəhlul

Bundan sonra İran hökmdarının divanından Sükmənabad bölgəsini Əhməd bin Bəhlula verdilər. Ondan sonra Dünbülilər qəbiləsi gah nala, gah mıxa vurmağa başladı. Gah rumlu olurdular, gah iranlı. İran padşahı bu dəstənin dərsini verməyin kəmərini bağladı. Sultan Süleyman xan[1] Naxçıvandan qayıdan vaxt padşah üç qardaşı –Əhməd bəyi, İsmayıl bəyi və Cəfər bəyi – bir neçə qızılbaş zabiti ilə Ərdəhana ordunun ön dəstəsi qismində göndərdi və öz əmirləri ilə gizli şəkildə sözləşdi ki, müəyyən gün o üç nəfəri yoldaşları ilə birlikdə aradan götürsünlər. Sarayın özündə isə Dünbülilərdən olan qorçuları öldürsünlər. Həmin gün o üç qardaşı Dünbülilərin yaxşı silahlanmış süvarilərdən dörd yüz nəfərlə bərabər Ərdəhanda öldürdülər. Şah Təhmasibin sarayında isə iki yüz Dünbüli qorçusu qətlə yetirildi. Maqsud bəy bin Məhəmməd Ərdəhandan qaçdı, Osmanlı şahının sarayına getdi və orada yaxşı qəbul olundu. Qəturdərə və Bargiri bölgələrini ona verdilər. Dünbülilər oraya yığışdılar. O zaman [Əhməd bin Bəhlul] dünyadan getdi. Onun iki oğlu qaldı: Vəli bəy və Qılıc bəy. Vəli bəy atasının yerini tutdu. O, qoçaq və uzaqgörən adam olmuşdu. Qətur və Bargiri

[1] Burada söhbət osmanlı sultanı Süleyman xan Qanunidən gedir.

sancaqları onun, Ocaq və Əbaqiyyə isə qardaşı Qılıc bəyin idi. Bu hadisə hicrətin min beşinci ilində[1] baş vermişdi.

## Hacı bəy

Hacı bəy dördaylıq uşaq olarkən atasını öldürdülər. Atasının adını ona qoydular. Şah Təhmasib ona aylıq məvacib təyin etdi. Bu pulla böyüyüb qorçu oldu. Sultan Bayəzidin dövründə ona Əbaqiyyə bölgəsini verdilər. Pərakəndə düşmüş Dünbülilər oraya toplaşdılar. O, iyirmi il həmin yerdə hökmranlıq etdi. İkinci Şah İsmayıldan sonra Osmanlı sərkərdəsi Mustafa paşa böyük qoşunu Qanıqçayın sahilində yerləşdirdi. Əmir xan Kürd qızılbaşlara gecə basqını etdi. Orada döyüşdülər. Hacı bəy bir neçə qızılbaş əmiri ilə çayda batdılar. Sükmənabad bölgəsini onun oğluna (bunun da adı Hacı bəy idi) bağışladılar.

## Sultanəli bəy

Şah Təhmasib Dünbüliləri öldürən vaxt məşhur qorçulardan olan Sultanəli bəy bin Cəmşid bəy Dünbüli padşahın fərmanı ilə vergi yığmaq üçün İsfahana getmişdi. Öz qövmünün başına gələnləri eşidən kimi yığdığı yüz tüməni [götürüb] qaçdı və Vana getdi. Bir müddət orada gizləndi. Padşah onun tayfasını cəzalandırmağı dayandırandan sonra birdən saraya gəldi və həmin yüz tüməni sevinə-sevinə padşahın qabağına qoydu. Padşah ondan sədaqət qoxusunun gəldiyini duyub yenidən əvvəlki vəzifəyə yüksəltdi.

Hacı bəy öləndən sonra Sultan Məhəmməd Xudabəndə Dünbülilər tayfasının başçısı yerini Sultanəli bəyə tapşırdı və Sultansarayı, eləcə də Əbaqiyyənin yarısını ona əta etdi. O yerlər keçmiş zamanlarda ordunun tapdağı altında xarabalığa dönmüşdü. Bu kişi həmin viran olmuş əraziyə başçılıq etdi. O, uzun müddət qara günlər yaşayan Naxçıvanın Şərurunda qaldı.

[1] Miladi təqvimilə 1596/97

Hökumət Dərə Əlkis (?) və Şərur malından ona bir azca verdi. Eyş-işrət içində bu dünyadan köçdü. Üç oğlu qaldı: Nəzər, Qılıc və Hüseyn. Nəzər bəy Sultan Məhəmmədin əmri ilə atasının yerinə əyləşdi. Osmanlı sərkərdəsi Sinan paşa İrəvanı alan kimi Nəzər bəy Çuxursə'ddə Rumlu, Əlbaut(?), Çeşməkzək(?) və Sə'dlu başçılarından bəziləri ilə osmanlılara qoşuldu. Nəzər bər Ərzuruma getdi. Orada Osmanlı dövlətinin baş vəziri və ordunun baş əmiri olmuş Fərhad paşa Osman paşanın təkidilə Çaldıran, Süleymansəra və Sükmənabad bölgələrini ona verdi. Qardaşı Qılıc da ona şərik oldu. İran padşahı Şah Təhmasib Sükmənabadın, eləcə də Bargirinin Mansur bəy Mahmudiyə verilməsi üçün fərman imzaladı. Osmanlı sultanı isə İran padşahından qaçıb Osmanlı sarayına getmiş Nəzər bəyə yaxşı xidmətinə görə Sükmənabadın verilməsi haqqında fərmanı öz tuğrası ilə təsdiqlədi. Mahmudilər Nəzər bəyi heç veclərinə almadılar və Osmanlı Sultanın fərmanını yerinə yetirmədilər. Onda Nəzər bəy Fərhad paşanın dəstəyindən yararlanaraq o bölgəni qılıncla ələ keçirmək istədi. İki tərəfdən Dünbülilər və Mahmudilər döyüş əzmi ilə Sükmənabadda sıraya düzülüb vuruşdular. Nəzər bəy, qardaşı Əhməd və Dünbülilərdən adlı-sanlı daha səksən nəfər o davada öldürüldülər.

## Qılıc bəyin tərcümeyi-halı

Qılıc bəy Fərhad paşaya pənah apardı. O sərkərdə də Mansur bəyi və başqa Mahmudi başçılarını Ərzuruma dəvət etdi. Kin saxlamayan sərkərdə hər iki tərəfə vilayətlər verdi. Sonda belə bir sülh bağladılar ki, Mansur Sükmənabadı boşaldır, Dünbülilər isə daha qan söhbətini etmirlər. O bölgəni Hacı bəyin nəvəsi Hacı bəyə verdilər. Qılıc bəy Çaldıranın sahibi oldu. "Şərəfnamə"nin müəllifi[1] belə yazır: "Mən bu toplantıda iştirak etmişəm". Həmin tarixçi bu yerdə öz rəvayətini tamamlayır. İndi isə yazıçı İştihardi öz sözünə başlayır.

[1] Yəni Şərəfəddin Bitlisi

## Yazıçı İştihardi Mahmud xanın dilindən söyləyir

Hicrətin min beşinci ilində[1] üçüncü Hacı bəy bu dünyadan köçdü. Onun iki oğlu qaldı: Şahverdi və Cəmşid. Şahverdi əmisi oğlu Qılıc bəylə Sükmənabadı zəbt etdiyinə görə daim savaşardı. Axırda Qılıc bəy o bölgəni tərk edib ona atasından miras qalmış Qaraqoyunluların mülkündən olan Nazik adlı kəndə çəkildi. Allah ona orada bir oğul bəxş etdi. Adını Salman bəy qoydu və bir azdan bu dünyadan köçdü.

## Bu nəslin boyunbağındakı günəş olmuş Salman bəyin tərcümeyi-halı

Salman bəy boya-başa çatandan sonra Əmir xan Zərrinçəngin, öz əmisi Cəmşid bəyin və Qoçu bəylə Qazi bəy kimi Hakkari Bəlilanlarından ən tanınmış adamlardan bir neçəsinin rəhbərliyi ilə Osmanlı dövlətindən ayrılıb İsfahana getdi və Böyük Şah Abbasa pənah apardı. Qorçuların önünə keçdi və tezliklə rikabdarbaşı[2] oldu. O, padşahla bərabər İsfahandan Məşhədi-Rəzəviyə piyada getmiş üç nəfərdən biri oldu. Padşah Osmanlı dövlətilə bağladığı yaraşmaz sülh müqaviləsini pozub iyirmi il işğal etdikləri Azərabadəganı geri qaytarmaq üçün bəhanə axtarırdı. Bu adamların saraya gəlmələri həmin sülhün pozulmasının müqəddiməsi idi. Onları yaxşı qəbul etdi ki, hamısı davaya hazır olsunlar və ləyaqətlə xidmət etsinlər. Onlara etimad göstərdi. Onlar da daim padşahı atalarının mülkü uğrunda döyüşə təhrik edərdilər.

Bu zaman Əmir xan Zərrinçəngin elçiləri gəldilər. O yazmışdı ki, "mən və Şahqulu Bəlilanın oğulları rumlulara qarşı açıq üsyan qaldırmışıq. Biz Urmiyanın Lükər Çələng(?) qalasını və Səlmasın Qarnıyarıq qalasını möhkəmləndirmişik. Gözümüz

---

[1] Miladi təqvimilə 1596/97

[2] Rikabdarbaşı – sərkərdəyə məxsus atın yüyənini tutan piyada əsgərlərin rəisi.

yoldadır ki, nə vaxt İran padşahı üzünü Azərabadəgana çevirəcək, biz də rumluları birdəfəlik qovaq. Əli paşanın bizə qulaqburması vermək əzmilə tezliklə Təbrizdən qoşun göndərməyi məlumdur. Padşah bilir ki, bizimlə onun arasında ədavət yoxdur. Nə qədər tez buraya buyursa, bir o qədər də işimiz asanlaşar”.

Padşah seçilmiş qoşunları ilə İsfahandan qalxdı. Öncə Salman bəyi kəşfiyyat üçün irəli göndərdi. O, üç nəfər yaxşı silahlanmış atlı ilə Səhənd dağının ətəyinə yetişdi. Orada pusquda oturdular. Məlum oldu ki, Əli paşa Əmir xanı və hakkariləri əzmək üçün Osmanlı ordusu ilə Təbrizdən yola düşüb. Hava qaralan kimi Salman bəy o məşhur atlılardan ikisini həmin pusquda qoyub özü bir nəfərlə Təbrizə gəldi. O vaxtlar şəhərin barısı olmamışdı. Bir dağılmış bağ görüb orada gizləndi. Atları yedizdirib buraxdılar. Ondan sonra bir casus kimi bağdan bayıra çıxdı. Bir hamam gördü. Ürəyində dedi: “Şübhəsiz, səhərlər adamlar bu hamama gəlirlər. Buraya gələn birinci adamı tutmalıyam”.

Orada bir guşədə oturdu. Səhərə yaxın hamamın zurnasını çaldılar. Uzaqdan fənərin işığı göründü. Yaxınlaşanda gördü ki, osmanlı qiyafəsində bir kişidir, yanında da əlində fənər tutan nökəri var. Salman bəy dağ pələngi kimi onların üstünə cumdu. Öncə fənərtutanı qılıncla elə vurdu ki, o saat can verdi. Sonra əlini onun ağasının yaxasıma uzadaraq bağa tərəf dartıb apardı və dedi: “Əgər ucadan nəfəs çəksən, bu sənin son nəfəsin olacaq. Bu yumruğu görürsən?” Kişi sakitləşdi.

Yoldaşının yanına çatan kimi dayanıb o rumlunun əl-qolunu yoldaşının kəməri ilə bərk bağladılar. Günəş işığını yaymağa başlamamış dağa yetişdi və oradan padşahın məiyyətləri qarşısına çıxmaq üçün gündüzlər gizlənərək gecələr yol getdilər. Padşah Zəncandakı möhtəşəm sarayına gələndə Salman bəy də özünü oraya çatdırdı. O kişini padşahın hüzuruna gətirdi. O, dəftərağası[1] Cəfərağa imiş. Padşah ona aman verdi. O, özünə

[1] Dəftərağası – dəftərxana rəisi.

gələndən sonra dedi: "Əli paşa bütün ordusunu Urmiyaya və Səlmasa aparıb. Təbriz qalasında üç yüz nəfər keşikçi qalıb". Salman bəyin bu xidmət ilə zəhməti padşahın xoşuna gəldi. O, bunda yaxşı əlamət görüb buyurdu: "Azərbaycanı alan kimi sənə bir sənəd verəcəm. Harada nə istəsən – istə. İndi sənə miras qalacaq bir fərman yazacaqlar ki, mənim sarayıma gəlmək haqqına malik olasan. Bu sənin xidmətinə görə verdiyim mükafatdır".

Salman bəy yeri öpüb dedi: "Tanrının köməyi ilə məmləkətimizi düşməndən alandan sonra hökm qanuni padşahındır". Şahənşah onun bu sözünü bəyənib o saat süvarilərə xəncərlərini çəkib atlara minməyi əmr etdi. Üçüncü gün hər biri Rüstəm və İsfəndiyar kimi igid döyüşçü olan üçyüz atlı ilə şəhərdən[1] iki fərsəng* yarım aralı, Mehranrudun sahilində yerləşən Fəhusəmincə(?)[2] yetişdilər.

Həmin xəbər Təbrizə çatdı. Şəhər əhli bayramlarda olduğu kimi bir-birini təbrik edirdilər. Bu iyirmi il ərzində osmanlılarla ünsiyyətdə olduqlarına baxmayaraq rumluların heç xəbəri olmadı və hər nə qədər soruşsalar da, onlara bir söz deyən tapılmadı. Amma bu pıç-pıçdan qorxuya düşən rumlular bir dəstəni qalada gizlətdilər. Səbirləri tükənmiş təbrizlilər pərdəni işin üstündən çəkib qızılbaş şüarını açdılar, padşahı dəvət etdilər və sevinə-sevinə padşahın sarayına endilər. O biri yandan Əli paşa Xoya tərəf irəliləyərək İrəvan və Naxçıvan qoşunlarına öz yerlərinə getməyi tapşırdı. Onlar yolda idilər. Şahın Təbrizə yetişdiyini eşitdi. Döyüşmək əzmi ilə qürurla Təbrizə qayıtdı. Padşah atını Mərəndə tərəf çapdı. Sufiyan kəndində döyüşə girdilər. Padşah bir həmlə ilə osmanlıları dağıtdı. Azərbaycanın hakimi Əli paşa özü əsir düşdü. Həmin gün Salman bəy Salman Sultan Subaşı ləqəbini aldı və Sükmənabadın, Çaldıranın, Abaqahın və Ovacığın(?) hakimiyyəti onun ixtiyarına keçdi. O, Dünbüli tayfasının başında Qəturdərəyə(?) getdi. Öz əmioğulları Qılıc bəylə

---

[1] Yəni Təbrizdən
[2] Hal-hazırda bu yerə Basminc deyirlər.

Cəmşid bəyi padşahın sarayına göndərdi. Padşah ikisini də yaxşı qarşılayıb əzizlədi və vətənlərinə qayıtmağa icazə verdi.

İki ildən sonra Mahmudilər tayfasının alçaqlığı üzə çıxdı. Padşah o biçarələrə qulaqburması verməyi İrəvan sərdarı Əmir Günəxan Qacara tapşırdı. Sərdar Qacar ordusunu Makuya və Bayəzidə çəkdi. Padşah Çürəs mahalında çadırını qurdu. Mahmudilərin seçilmiş başçılarından olmuş Çürəs hakimi Zeynəl bəy hələ öz sarayında idi. Onun adamları ilə ordubazarlılardan bir neçəsi arasında münaqişə yarandı. O yazığı[1] heç nəyə görə öldürdülər. Padşah qisas almaq üçün öldürəni öldürməyə əmr verdi. Zeynəl bəy Mahmudi Çürəs qalasına sığındı. Padşahın fərmanı gəldi ki, Salman Sultan Subaşı qalanı alıb mahmudiləri qılıncdan keçirsin. Bundan sonra Çürəsin malı və hakimiyyəti onun olsun. Subaşı üç gün əlləşib qalanı aldı, oradakı iki yüz nəfəri öldürdü, mallarını qarət etdi və qadınları ələ keçirtdi.

Hicrətin min on səkkizinci ilində[2] Ərciyəş və Adilcivazın hakimi, şücaətdən dəm vuran və özünü Rüstəmə və İsfəndiyara bərabər tutan Məhəmməd paşa Zal paşa oğlu bu müddəasını isbata gətirmək və Osmanlı sarayında ad-san qazanmaq məqsədilə qonşularına zülm və cəfa etməyə başladı. Onun qonşusu Subaşı bu bədbəxtin hədd-hüdudu aşmağı haqqında Azərbaycanın bəylərbəyi Pir Budaq xanın yanında Təbrizin hakiminə ərz edib yardım istədi. Həmin vaxt İran padşahı Gürcüstanda idi. Pir Budaq xan üç yüz nəfər adlı-sanlı süvarini Subaşının yanına göndərdi. Sultan Subaşı o süvariləri alıb Dünbülilər tayfasına Ərciyəş və Adilcivaz bölgəsini soyub talamağı əmr etdi. O, iki yüz süvariyə Ərciyəş qalasına basqın etməyi tapşırdı, qalan yüz nəfəri isə pusquda qoydu, çünki belə düşünürdü ki, Mahmud paşa hər halda qala divarından aşağı enməlidir. Onda həmin yüz atlı pusqudan çıxıb o iki yüz nəfərə kömək etmək üçün döyüşə girişər.

O məşhurlardan əlli nəfər irəliləyib qalanın həndəvərində görsəndilər. Məhəmməd paşa o kiçik dəstəni qovmaq üçün qala

---

[1] Yəni Əmir Günəxanı

[2] Miladi təqvimilə 1609/1610

divarından aşağı düşdü. İranlı süvarilər əvvəl o yollarını azmış döyüşçüləri pusquya çəkməyə çalışdılar. Sonra orada gizlənənlər irəli çıxdılar. Süvari Türkman nizənin ucu ilə Məhəmməd paşanı atdan yerə saldı. Paşa ölümdən yaxasını qurtarmaq üçün tez öz adını dedi. Onda o məşhur süvari paşanın əl-qolunu bağladı. Rumlular darmadağın oldular. İranlı süvarilər hasara qədər onları qovlayıb çoxlarını öldürdülər. Subaşı gördüyü işlər haqqında saraya yazdı. Məhəmməd paşanı da buxovlayaraq oraya göndərdi. *Hicrətin min iyirmi beşinci ilində*[1].

## Azərbaycana başçılıq etmiş cəlalətli Dünbülilər eli və bu tayfanın görkəmli şəxsiyyətləri

Bu tayfa böyük və məşhur padşah Nadir şah Əfşarın hakimiyyəti dövrünün sonundan Böyük Xaqan Fəthəli şah Qacarın hökmdarlıq çağının başlanğıcınadək yüksək məqamlara çatmış ali rütbəli məmurlar olmuşdular. Onlar padşahlığın bir növ zaminlərinə çevrilmişdilər. Soyları maliyyə vəkili Kərim xana bağlıdır. Əlbəttə, padşah istədiyi halda onların yerinə bir başqasını da asanlıqla qoya bilərdi. Qacar şahənşahı həzrət Məhəmməd şah Şəhid sağlığında o nəsli çox əzizləyərdi və Xoy məmləkətinin hakimliyini də onlara əsirgəmədi. Ancaq o, yoxluq dünyasına qovuşan kimi bir nəfərin bilməməzliyindən o vaxtın su ilə havası dəyişdi[2]. İndi də Allahın köməyi ilə bu günədək o tayfa haqqında bilən adamlardan eşitdiklərimi və kitablarda oxuduqlarımı yazıram və onların görkəmli adamlarını bir-bir sayıram.

## Dünbüli nəsli haqqında

Sözsüz ki, bunlar kürd tayfasıdır. Məhəmməd bin Yaqub öz “Qamus”unda yazır ki, “Dünbül Mosul vilayətindəki qəbiləyə deyərlər. Onların içində şafei fəqihi Əhməd bin Nəsr və mühəd-

---

[1] Miladi təqvimilə 1616/17

[2] Cəfərqulu xan Dünbüli üsyan edib Rusiyaya pənah apardı. Çar dövləti bu hərəkətə görə onu general rütbəsi və Şəki tiyulu ilə mükafatlandırdı.

dis Əli bin Əbi Bəkr bin Süleyman vardır". Mən Hümat hakimi Əbilfədanın "Tarix"inin bir yerində bu tayfa haqqında oxumuşam ki, onlar Sultan Səlahəddin Yusifin döyüşçülərindən olublar.

Çələbi[1] adında bir yazıçı osmanlı türk dilində bir kitab yazmış və adını "Cəhannüma" qoymuşdur. Orada Süklanabad haqqında yazılıb ki, "Süklanabad" Xoy tərəfdə bir yerdir və Dünbüli tayfasının vətənidir. Şərəf xan deyir ki, bu tayfanın kökü Şam əmirlərindən olmuş İsa adlı əmirə çatır. O, keçmiş zamanlarda İran padşahlarına xidmət etməyə gəldi. Padşah Süklanabad bölgəsini ona verdi. Bundan sonra çöl camaatı hər yandan onun ətrafına toplandı. Həmin tayfaya Dünbüli adını qoydular. Bunlar əvvəl yəzidi məzhəbinə qulluq edərdilər. Bir müddət keçdi və Dünbülilərin böyüklərindən bir neçəsi küfrü tərk edərək sünni məzhəbinə keçdilər və camaatı da özləri ilə apardılar. Adamların çoxusu böyüklərin ardınca getsə də, bəziləri elə zəlalət içində qaldılar.

Belə deyirlər ki, bu nəslin kökü Yəhyaya çatır. Onlar Süklanabadda məskunlaşdılar. Bu tayfaya Dünbüli Yəhya deyilməsi də buradan gəlir. Həmin nəslin böyüklərindən bəziləri Xoya da hökmranlıq etmişdilər. Qəturdərəvə Naxçıvan torpaqlarından olmuş Ovacığın Əbəqası onların əlində idi. Bəziləri Əbəqanın yarısına, Süleymansaraya və Naxçıvan mülklərindən Dərə Əlakisə və Şərura hakimlik etməyə nail oldular. Osmanlıların basqınları nəticəsində o diyar xarabazara dönmüşdü. Padşahlar oranı yenidən zəbt etdilər. Bəzən Əbəqay, Süleymansaray, Çaldaran[2] və Süklanabad Osmanlı sultanları tərəfindən köhnə adət üzrə Dünbülilər nəslinə verilərdi. Bir vaxt osmanlılar Çaldaranı Dünbülilərdən bir əmirə vermişdilər.

---

[1] Övliya Çələbi ibn Dərviş Məhəmməd Zilli – məşhur türk səyyahı, yazıçısı və tarixçısi. Bir çox Şərq ölkəsinə, o cümlədən Azərbaycana səyahət etmiş və səfərdə topladığı məlumatı "Səyahətnamə" adlı oncildlik əsərində qələmə almışdı.

[2] Yəni Çaldıran

Yenə Şərəf xan deyir ki, bunlar köçərilər tayfası olublar. Hicrətin min beşinci ilinin rəbiül-əvvəl ayının onunda[1] Dördüncü Sultan Murad İrəvanı fəth etdi və Təbrizi işğal etməkdən ötrü Arazın sahilində ordugah saldı. Dünbüli tayfasından beş yüz ev[2] saraya gəlib özləri üçün yaylaq yeri istədilər. Ərzincan bölgəsini onlara buyurdu. Onların böyükləri oranı abadlaşdırdılar. Xoy tərəfdə torpaq sahələrinə malik olan Dünbülilərin bəzi başçılarına Azərbaycanda bir mahal bağışlandı. Bir başqalarını orada sakin etdilər, ordu yerləşdirdilər və həmin orduda bəzilərinə vəzifə verildi. Adıçəkilən nəsil haqqında yadda qalanlarım bunlardır. Bundan başqa deyilənlərin hamısı əfsanədir.

Bu tayfadan yada düşən birinci adam Sükmənabadın sahibi Salman Subaşıdır. Onun haqqında yazıda deyilir ki, Çürəsin hakimi Salman Subaşı Ərciyəşin və Adilcivazın hakimi Zal paşa oğlu Məhəmməd paşanı əsir almışdı. "Aləmara"da oxumuşam ki, Mərəndin hakimi Cəmşid Sultan Dünbüli üç yüz atlı ilə Kəsr Cəğal oğlunun ön dəstəsinə hücum edib onları məğlubiyyətə uğratmışdı. Gün batanda Mərəndə çatmışdı. Oranın sərkərdəsi qorçubaşı Allahqulu xan onu bu igidliyinə görə mükafatlandırmışdı.

İndi isə bu tayfanın başçılarını sadalayıb onların əməlləri və xasiyyətləri haqqında söz açıram.

## Əhməd xan

ibn Mürtəzaqulu xan [bin] Şahbaz xan bin Mürtəzaqulu xan bin Əyyub xan bin Salman xan. Bu böyük adam Dünbüli tayfasının Günəşində bir boyunbağıdır. Böyük həşəmət sahibi olub. Kürd tayfaları ona itaət edərdilər. Xoy, Səlmas, Mərənd, Təbriz və bəzən Qaracadağ vilayəti də onun hökmünə tabe olmuşdu. Hər il o dövrün pulu ilə on iki min tümənlik məbləği xərac adı ilə Və-

---

[1] Miladi təqvimilə 1 noyabr 1506
[2] Yəni ailə

kil Kərim xanın hökumətinə verərdi. Onun qohumlarından bir neçəsi Şirazda girov qismində qalırdı. Xoy diyarında möhkəm imarət ilə ərk inşa etmişdi və həmişə beş yüz nəfər şamxalçı[1] o ərkin mühafizəsində hazır olurdular. Bəsirət və ləyaqət sahibi idi. İbrahim Xəlil xan Cavanşir[2], Urmiya bəylərbəyi Fəthəli xan Əfşar, Marağa bəylərbəyliyinin qabaqcıl nümayəndələrindən Əhməd xan, adı çəkilən vilayətin hakimi Sadiq xan Şəqqaqi kimi hər biri adlı-sanlı əmir olmuş qonşu əmirlərlə sülh, əmin-amanlıq və dostluq münasibətləri qurmuşdu.

Hacı Mirzə Yusif Müctəhiddən rəvayət olunur ki, bir gün Əhməd xanın nə dərəcədə ədalətli insan olduğundan bəhs edərkən bunları demişdi: "Nəcəfqulu xanın ölümündən sonra Əhməd xanın hökmü ilə Xudadad xan atasının yerinə əyləşdi. Bir az keçəndən sonra üsyana qədəm qoydu. Əhməd xan qisas almağa hazır olan qırx min döyüşçüsü ilə Təbrizə gəldi. Sürxab dağının ətəyində ordugah saldı. Xudadad xan on min nəfər cəzayirçi[3] ilə Təbriz qalasına sığındı. Bir müddət bu ordu orada qaldı. Təbrizin həndəvərində bir zərrə qədər də zülm etmədilər və heç kəsə "gözünün üstündə qaşın var" deyən olmadı. Bu əmir çox qüdrətli olub, çoxsaylı qoşunu var idi. O boyda ordu ilə asinin evini mühasirəyə aldılar, ancaq bircə məxluqu belə incitmədilər. Olmaz belə şey! Ancaq böyük adamlar bunu özlərinə borc bilərlər".

## Hekayət

Bilən adamlardan eşitmişəm ki, Təbriz mühasirəyə alınan zaman Fəthəli xanın elçisi tam yaraqlı vəziyyətdə bir məktub gətirdi. Həmin namədə deyilirdi ki, "Arazın bu tayında mənim qabağıma çıxan qalmadı. Şirvanla Təbərsəranı da fəth etmişəm. Bu məmləkətlərin bütün başçıları mənim padşahlığımı təsdiq

---

[1] Şamxal – qədim tüfəng növü.
[2] İbrahim Xəlil xan Cavanşir (1763-1806) – Pənahəli xanın oğlu, Şuşanın hakimi.
[3] Cəzayir – tüfəng növü.

ediblər. Nə olar ki, cəlalətli xan da mənə "şah" desin". Əhməd xan toplantı təşkil edib elçiyə dedi: "Get sahibinə de ki, hər şeyi döyüş meydanında sübuta yetirə bilər. Belə eşitmişik ki, padşahın sualına cavab verməyəndə, qılıncla alar".

Çox keçmədi ki, Əhməd xan dünyanı Xudadad xanın başına təng etdi. O, ram olub itaət etdi və Təbrizi təhvil verdi. Xan qardaşı oğlunu tutub Xoya apardı. Bu hadisə hicrətin min yüz doxsan üçüncü ilində[1] baş verdi. Elə o arada Şahbaz xanın atalarından sonra Şirazda kef içində yaşayan uşaqları Kərim xan Vəkilin icazəsi ilə Azərbaycana gəldilər və həmin yerə yetişdilər. Bu, Vəkilin tədbiri idi, çünki böyük gücə malik Əhməd xan Vəkilin əmrinə tabe olmurdu. Həmin yazıqlar Əhməd xana dedilər ki, "Səndə olan bu ordu, var-dövlət və hörmətlə sən niyə adını "padşah" qoymursan?" Dedi: "Mənə ata-babadan vəsiyyət qalıb ki, heç vaxt bu adı özümə götürməyim. Mən elə həmin kürd tayfalarının başçısıyam".

Əhməd xan Xudadad xanla məsələni sülh yolu ilə həll edəndən sonra Xoya getdi. Orada Şahbaz xanın oğullarını azad etdi. Onlar da çarəsizlikdən çıxıb getdilər. Onların bəzən pis niyyətli olduqlarını görsə də, həmişə güzəştə gedərdi və onları heçə sayardı. Bir gün onlar sarayın içində ona qəsd etmək üçün onu saraylarına çağırdılar. Vəd edilmiş gün Əhməd xan üç oğlu ilə gəldi. Əvvəl onu mehribancasına qarşıladılar, peşkəş verdilər və süfrəyə dəvət etdilər. Əhməd xan eyvanda əyləşdi. O xainlərdən birinin balaca uşağı gəldi. Onu çağırdı və qucaqladı. Birdən uşaq dedi: "Sizi öldürmək istəyirlər". Bu, Allahdan gələn söz idi. Əhməd xan təşvişə düşdü. Tosqun və ağır kişi olsa da, özünü eyvandan aşağı atıb üzü bayıra qaçdı. Sui-qəsdçilər xəbər tutdular, hay-küy qalxdı. Əhməd xanın böyük oğlu Kəlbəli xanı yerindəcə öldürdülər və xanın arxasınca qaçmağa başladılar. O kişi yüz addım uzaqlaşmışdı. Bu vaxt yaxından keçən cəzayirçilər səsini eşitdilər. O xainlərin qaradərili qulamı dizini yerə qoyub

[1] Miladi təqvimilə 1793

tüfəngin tətiyini çəkdi və Əhməd xanı nişanə aldı. Xan o saat yerə düşüb dünyasını dəyişdi.

Mən Xoyda həmin sarayı və Əhməd xanın yıxıldığı yeri görmüşəm. Mənə göstərmişdilər. Əcəli çatmışdı, yoxsa bir neçə addım da oradan uzaqlaşsaydı, öz adamlarına çatardı.

Əhməd xanın məsələsi bitəndən sonra Hüseynqulu xanı tutdular. Cəfərqulu xanı tapmadılar. Evləri və məhəllələri bir-bir axtardılar. Tapa bilmədilər. O cavan çox zirək imiş. Bu hənga-mədə fürsət tapıb özünü Şorab darvazasına çatdırdı. Orada öz ağasının atı üstündə bir çobanı görür və hər şeydən bixəbər ona deyir: “Düş aşağı, çünki xan məni təqib edir. Bu kəndə getmək istəyirəm. Sən piyada ol və heç kimə bir söz demə”. Çoban yerə düşür. Cəfərqulu xan güclə ata minib Xoydan beş fərsəng* aralı olan Nəbərdəkan[1] kəndinə çatdı.

O nankorlar xanı tapa bilmədiklərinə görə Hüseynqulu xanı da öldürmədilər, ancaq Cəfərqulu xan ələ keçənə qədər dustaq etdilər. Cəfərqulu xan Nəbərdəkandan kürd tayfalarının olduğu məkana getdi və iyirmi günə bir ordu düzəldib atasının və qardaşının qanının qisasını almaq üçün Xoyun qapısına gətirdi. Dünbüli qövmü və şəhər sakinləri Cəfərqulu xanın gücünü görəndə qiyam qaldırdılar. O biçarələr hücum etdilər, ancaq onlarda güc haradandır? Qisas məqamı çatmışdı. Bir günün içində o tayfanın başından tüstü çıxartdılar. Böyüklü-kiçikli hamısını qılıncdan keçirtdilər. Cəfərqulu xan [Hüseynqulu xanı] azad edib səcdə etdi və atasının yerinə otuzdurdu.

İndi hamısı köçüb gedib, biz də getməliyik. Əhməd xandan böyük binalar qalıb. Onlardan ən yaddaqalanları Əskəriyeynin[2] (ə) günbəzi, məşhur sərdabə, eləcə də özünün tikdirməyə başla-dığı və oğlu Hüseyn xanın tamamladığı məsciddir. Oraya böyük vəsait sərf olundu. Əhməd xanın qəbri də oradadır. Mən, Allaha

---

[1] Nəbərdəkan – Yəzidəkan və yaYəzdəkan kəndinin olması ehtimal edilir.

[2] Əskəriyeyn – Samirə şəhərinin digər adıdır. Şiələrin onuncu (Əli ibn Məhəmməd) və on birinci (Həsən ibn Əli) imamlarının (ə) dəfn edildikləri şəhər olduğuna görə belə adlanır.

şükür, o yeri ziyarət etdim, orada olduğum hər günün səhəri və axşamı o xanın məzarına baş çəkdim və salam göndərdim.

Əhməd xanın şəhadəti min iki yüzüncü ilin rəbiül-əvvəl ayının on dördündə, bazar ertəsi günü[1] baş vermişdi. Əskəriyeynin inşası həmin ildə başlanıb hicrətin min iki yüz altıncı ilində bitmişdi. Vəzifəsi məmləkətlərdə vergi yığmaq olmuş Mirzə Məhəmməd Təbrizinin oğlu Mirzə Məhəmməd Rəfi əvvəlcə tikintiyə başlamış, ondan sonra isə Həsən xan bu işi tamamlamaq üçün vəzir Mirzə Cəfəri göndərmişdi. Əhməd xanın qatilləri Şahbaz xanın oğulları Kəlbəli xan və Salman xan, habelə Kəlbəli xanın oğlu Əhməd xan olublar. Adıçəkilən Şahbaz xan Əhməd xanın qardaşı idi.

Xoy şəhərindən bir fərsəng* aralı gözəl bağın əsasını da Əhməd xan qoyub. O yerə qədər bir xiyaban çəkdirmiş və yolun hər iki tərəfində şam ağaclarını əkdirib iki çay axıtdırmışdır. Xiyabanın axırında dağın yamacında ikitərəfli və çoxmərtəbəli çinar ağacları əkilmişdir. İndi binalar dağılıb, ancaq çox möhkəm olan çinarlar yerində qalır. Mən o məkanı dəfələrlə görmüşəm. Yerli sakinlər oraya Dağ bağı deyərlər.

## Nəcəfqulu xan

Mürtəzaqulu xanın oğlu və Əhməd xanın qardaşıdır. Təbrizdə və ətraf bəylərbəylikdə böyük hörməti olub. Onun gördüyü işlərdən biri, qeyd etdiyim kimi, Təbriz hasarının[2] və bir neçə evin tikilməsi olmuşdu. Hal-hazırda padşahın dəftərxanası yerləşdiyi bina həmin tikililərdən biridir. Mən onun hökmranlığı dövründə Kərim xan Vəkilin yazdığı iki fərmanı burada gətirirəm ki, o görkəmli şəxsin hakimiyyətinin haraya qədər uzandığı məlum olsun.

---

[1] Miladi təqvimilə 15 yanvar 1786

[2] Nəcəfqulu xan Təbriz qalasını 1809-cu ildə yenidən tikdirmişdi. Abbas Mirzə Naibüssətənə 1826-cı ildə onun ətrafında xəndək qazdırmışdı.

## Birinci nüsxə

*Ali fərman oxundu*:

Hər bir kəsə hökmün işığını saçan tuğra və tək ilə cəmin bütövünə əmr verən nüfuzlu yarlıq yaradılış ilə icad mülkündə fərmanı hamı üçün vacib olan sultan və aylar ilə illər aləmlərində ölkənin fatehi olan şahənşah, dünya meydanında dövlət qapılarının açarı və yolları hər tərəfə uzanan İran məmləkətlərində hökmranlıq xəzinələrinin anahtarı tərəfindən hökumət divanındakı tədbirli katibin incilər səpələyən qələmindən və *yəf'əlüllahü ma yəşa*[1] münşisinin şah əsərlərini qara mürəkkəblə yazan xaməsindən[2] çıxıb bizim məşhur adımıza və əziz ismimizə təyin olunduğu gündən biz bu ölçüyəgəlməz nemətin qorunmasına görə və bu bərəkətli hədiyyədən ötrü təşəkkür bildirməyin xatirinə nur saçan günəşə bir nümunə və xeyriyyə tələb edən ürəkdəki bir sirr olaraq buyurduq ki, ixlas üzündən bu dərgaha xidmət etmək üçün ayağa durub qədəm qoyan hörmət ilə böyüklüyün yüksək mərtəbəsinə qalxmış nəslin sülaləsindən və kişilik ilə cəlalətin yuxarı mənsəbinə çatmış ailənin xülasəsindən hər birini vəzifə sahibi və izzət ilə etibarın xoşbəxt ağası etdik.

Bu sənəddə münşinin dürrsaçan qələminin tale səhifəsi üzərində yazdığı kimi, o yüksək mənsəbli xoşbəxt alicah, hörmət, cəlalət və həşəmət sahibi, comərdliyin, igidliyin və nüfuzun sığınacağı, xalis və düzgün əqidəli, dövlətin əsl tərəfdarı və səhvsiz fədaisi, böyük əmirlərin əmiri və kəramətli xanların ən öndəgələni, bu dövlətin əbədi qalmasını istəyən, həqiqi hörmət, cəlalət və həşəmət yiyəsi Nəcəfqulu xan Dünbülidir. Məhz buna görə amal ilə iman meydanını işıqlandıran günəş parıltısının bir zərrəsi adı çəkilən ali mənsəb sahibinin üzərinə düşdü və bu "piçi yıl"[3]ilin səkkizinci ayının başlanğıcından Təbriz darüs-

[1] Allah istədiyini edər.
[2] Xamə – qələm.
[3] Piçi yıl – meymun ili, qədim türk təqvimindəon ikiillik dövrün doqquzuncu ili.

səltənəsinin və onun tabeliyində olan müxtəlif mahalların, bölgələrin və bələdiyyələrin bəylərbəyliyi kimi yüksək təqdirə layiq vəzifəni o dəyərli və uca rütbəli şəxsə lütf edib qələbə taleli rikabımızdan mürəxxəs olub həmin darüssəltənəyə yola düşməyini buyurduq. Oraya daxil olandan sonra ona layiq və lazım yolla və işi düzgün icra etməyə və belə mərasimlərə uyğun qayda ilə aşağıdakı məkanların təsərrüfatını və maliyyə işlərini idarə etməyi üzərinə götürməlidir:

Ənzab, Alan Bərağuş, Ərvənəq, Mehranrud, Sərdsəhra, Məvazei-xan, Veydəhr, Xanımrud, Vircrud, Dehxarqan, Rudi-Qat, Bidüvüstan, Ucan, Təvabe, Gərmrud, Sərab, Həştrud, Mərənd, Gərgər, Zünuz.

Kənd təsərrüfatı işinin nizama salınması, vilayətlərin abadlaşdırılması, rəiyyətlərə qayğının göstərilməsi, tabe olmayanların cəzalandırılması, oğruların və yolkəsənlərin aradan götürülməsi, incidilən sakinlərin başına gətirilən zülmə son qoyulması, əmrə tabe olanların öz tərəfə cəlb edilməsi və ürəklərinin alınması, müxtəlif xidmətlər göstərmək məqsədilə onları toplayıb gözəl əməkdaşlığın təşkil edilməsi, Uca Yaradanın (cəllət əzəmətəhü və əzzəmə şə’nəhü) məxluqları olan hər bir rəiyyətlə və bütün camaatla bu məsələdə ən yaxşı tərzdə, ən doğru yolla və ən düz təriqlə işin görülməsi, vilayətlərdəki yaşayış məntəqələrində, kimliyindən asılı olmayaraq, maldarlıqla və sairə işlərlə məşğul olanların hamısının ümidlərinin doğrultması, hər birini ona uyğun yerdə məskunlaşdıraraq rəiyyət işinə və bu əbədi dövlətə xidmət göstərməyə şövqləndirməyi ona tapşırdıq.

Təbriz darüssəltənəsinin və ona tabe olan ayrı-ayrı bölgələrlə mahalların ən yüksək vəzifəli ağaları, əyanları, rəiyyətləri, əkinçiləri və bütün sakinləri və həmvətənləri, adı çəkilən darüssəltənənin ən öndəgələn xanları, sərkərdələri, el və tayfa başçıları, tərəkəmələri və digər təbəələri həmin darüssəltənənin bəylərbəyi vəzifəsinin adı yuxarıda zikr olunmuş yuxarı rütbəli alicaha mənsub olduğunu tanıyaraq onun əmrlərinə və göstərişlərinə itaət etməli və ona müxalif olmamağı öhdələrinə almalıdırlar.

*Min yüz yetmiş yeddinci ilin zihiccət ayında yazıldı*[1]

Bu yerdə sadə və dördbucaq şəklində möhür vurulub. Möhürdə “Ya mən rəcahü kərim” yazılıb. Sənədin haşiyəsində isə aşağıdakı yazı var:

Bu qərara əsasən Təbriz darüssəltənəsindən və onun tabeliyində olan və yuxarıda göstərilmiş digər mahallarla bölgələrdən yığılan malın hesabından illik məvacib şəklində yeddi yüz Təbriz tüməni məbləği o yüksək vəzifəli və dəyərli alicaha mərhəmət buyurduq ki, ildən ilə öz məişət məsələlərinə xərcləyərək öz vəzifə borcunu və xidməti öhdəliklərini layiqincə yerinə yetirməkdə canfəşanlıq göstərsin.

Mətnin tarixi. Burada da həmin möhür qoyulmuşdur.

## Digər fərmanın nüsxəsi

*Ali fərman oxundu:*

Yüksək vəzifəli alicah, həşəmətin, cəlalətin və hörmətin sahibi, comərdliyin, igidliyin və nüfuzun sığınacağı, kəramətli xanların seçilmişi, əzəmətli əmirlərin əmiri, darüssəlttənə Təbrizin bəylərbəyi Nəcəfqulu xan müxtəlif ədalətsaçan baxışların və günəşvari ürəyin geniş rəhmliliyinin diqqət mərkəzinə çevrilərək imtiyaz dərəcəsini və xüsusi rütbəni aldığını bilsin:
Novruzi-feyruz əsnasında uca irəmvari məclis və ali behiştsayağı ziyafət təşkil olunarkən bu yüksək, müqəddəs və geniş vüsət almış büsata toplaşanların hamısının əyninə şüa saçan günəş kimi bəzəkli xələtləri peşkəş edib bu misli görünməmiş böyük xoşbətliklə əzizləyib şərəfləndirsinlər, onların qabiliyyət bədənləri rütbələrinə müvafiq paltarla bəzədilsin və ümid əyinləri əntiqə cib və ətəklə zinətləndirilsin. Hüsni-rəğbətlə dolu nəzərin məqsədi və günəş kimi nur saçan qəlbin sirri o idi ki, təməli əbədi qoyulmuş bu dövlətin səadət xəzinəsi məclisində hazır olmaqdan uzaq və məclis xalısını öpmək səadətindən ayrı düşən bütün

[1] Miladi təqvimilə 1764-cü ilin iyun ayı

xalis fikir və saf əqidə sahibləri də bu əzəmətli ətalar almağın xoşbəxtliyini duyaraq bu möhkəm dostluqdan bəhrələnə bilsinlər və ədalət xatirinə bəxş edilən lütfdən paylarını alsınlar. Məhz buna görə günəş kimi parıldayan aşağıdakı fəxri xələtləri – gümüşlə işlənmiş əla üst paltar, ağ rəngli və qızılla işlənmiş xüsusi geyim, bir ədəd xüsusi tirmə şal, qızılla bəzədilmiş ağ at, qızl naxışla işlənmiş yaraq, qızıl zinət əşyaları – qulamların başçısı, ad-san sahibi, xalisnişan Cəmşid bəyin və hörmətli üzəngitutan Niyaz bəyin vasitəsilə o başı uca və saf baxışlı ali cənaba göndərdik ki, gördüyü xidmətin əvəzinə onları öz iftixarlı əyninin bəzəyi və öz etibarlı bədəninin yaraşığı kimi qəbul etsin. O, göylərə qaldıran bu cür şərəfli ətalardan xoşbəxtlik hissi keçirməli və öz məsələlərinin ali dərgaha ərz etməklə həllini tapacağına ümidvar olmalıdır.

*Min yüz səksəninci ilin səfərül-müzəffər ayında yazıldı*[1]

Buraya da möhür vurublar.

Nəcəfqulu xan şan-şöhrətlə qırx dörd qəməri il Təbrizin və onun tabeliyində olan ərazinin başçısı oldu və hicrətin min yüz doxsan doqquzuncu ilində[2] hamamda bu dünyadan köçdü və başqa məmləkətin yolunu tutdu. Onun cəsədini Nəcəfə aparıb Əmirülmömininin (ə) yanında torpağa tapşırdılar. Onun bir eybi haqqında eşitmişəm ki, günahı məlum olmayan maliyyə vəziri nəcabətli seyyid Hacı Mirzə Məhəmməd Əlinin gözlərini çıxartdırmışdı. Nəcəfqulu xandan sonra oğlu Xudadad xan atasının yerinə Təbriz bəylərbəyi oldu.

## Xudadad xan

Sadiq xan Şəqaqi ona qarşı üsyan qaldırdı. Bəylərbəyi cavan və qürurlu idi. Kürd xanın qulaqburmasını vermək üçün ordusunu Səraba apardı. Sadiq xan Xudadad xana qarşı döyüşməyə

---

[1] Miladi təqvimilə iyul/avqust 1766
[2] Miladi təqvimilə 1784/85

qadir olan adamlardan deyildi. O, evinin bütün şey-şüyünü dağlardakı qüllələrə və gizli yerlərə göndərib özü döyüşçü süvarilərlə Sərab qəsəbəsində qaldı. Fikri də o imiş ki, əgər bəylərbəyi Kürdkəndidən durub qəsəbəyə gəlsə, aradan çıxsın, əks halda isə elə orada qalsın. Onda bəlkə şəfaət edərlər və xan onun günahından keçər. Sübh tezdən dedilər ki, ordu bu saat gəlir. Sadiq bir yana getmək üçün qalxdı. Orada bir ulduz falına baxan olmuşdu, ondan yapışdı ki, "günortayadək burada qalmalısan, o zaman qələbə sənin tərəfində olacaq". Sadiq xan heyrətə gəldi. Falçı öz sözündə israrlı idi. Bir neçə silahlı süvari Saqqızçı kəndinin yanında yığışmışdı. Təbriz ordusu gəldi. Müqəddimədə həmin bir neçə nəfər atlı üsyankarla güclərini sınadılar. O kiçik üsyançı dəstəsi yığışıb öz cavanlıq qeyrətini göstərmək üçün döyüşə girdilər. Hay-huy qopdu. Xudadad xan qalxdı ki, görsün bu nə qovğadır, çünki döyüşün baş verdiyini heç güman da edə bilməzdi. O, mərəkə yerinə yaxınlaşanda bir tüfəng gülləsi ona dəydi və o, yerə yıxıldı. Təbriz ordusu məğlub oldu. Üsyançı atlılar o məntəqəni alə keçirtdilər və bu xəbəri Sadiq xana çatdırmağa tələsdilər. O gündən Sadiq xanın nüfuzu artdı.

Əslində isə döyüş günü Xudadad xan öz nökəri ilə qayaların arasındakı sığınacaqda oturub şəffaf şərab içməyə məşğul idi. Ordu vuruşurdu. Gözlənilmədən Təbriz qoşunu yenilib məğlubiyyətə uğradı. Onda o bədnam öz ağasını öldürüb başını kəsdi və Sadiq xan üçün apardı. Hicrətin min iki yüz beşinci ilində.[1]

## Cəfərqulu xan

Xoyda Hüseyn xan Xudadad xanın öldürülməsini eşidən kimi Xoy ordusu ilə əvvəl Təbrizə, oradan da Səraba gəldi. Sadiq xan qaçdı. Təbrizə gəldi və Cəfərqulu xanı beş yüz nəfər şamxalçı[2] ilə Təbrizdə qoyub Xoya getdi. Cəfərqulu xan böyük şahənşah Qacar Məhəmməd şah Şəhidin işi yoluna düşənədək mütləq hakimiyyət sahibi oldu.

---

[1] Miladi təqvimilə 1790/91

[2] Şamxalçı – tüfəngçi.

## Hekayət

Bilən adamlar rəvayət edirlər ki, Cəfərqulu xan Təbrizdə idi. Sadiq xanın isə canına qorxu düşmüşdü ki, birdən Xudadad xanın qisasını almaqdan ötrü Səraba həmlə edər. Təbrizliləri gizlicə yoldan çıxartdı. Bir gün hamısı hay-küy saldılar, bellərini çiyinlərinə qoydular, ətəklərini kəmərlə bağladılar, üzlərini əmirin imarətgahına sarı tutdular və hamısı bir səslə "İstəmirük, istəmirük!" (yəni "nəmixahim!") çığırdılar. Məqsədləri də xan imiş. Onlar bu cür hayqırtı-bağırtı ilə yaxınlaşanda Cəfərqulu xan cəzayirçilərinə[1] "şənlik"[2] etməyə əmr verdi. Bu avaralardan bir neçəsi gülləyə hədəf oldular. Onda həmin şuluqsalanlar birdən qışqırmağa başladılar ki, "Gəlmişük görüşmagə, öz ağamızdur!" (yəni "bedidən amədeim, ağaye-xodemanəst!") .

Bəylərbəyi gülüb o dəstəni əfv etdi.

Cəfərqulu xan Səraba getdi. Sadiq xan Ərdəbilə qaçdı. Ondan sonra ... (?) Təbriz boş qaldı. Bəzən Sadiq xan Əhməd xan Müqəddəmlə çəkişirdi. Nəhayət hicrətin min yüz yetmiş birinci ilində[3]Qacarların birinci hökmdarı Məhəmməd Həsən xan[4] Azərabadəgana qoşun yeritdi və buranın əmirləri ona itaət göstərdilər. Qayıtmaq istəyəndə böyük oğlu Məhəmməd xanı öz yerinə naib təyin edərək Təbrizdə qoydu. Məhəmməd Həsən xan Şirazın qapısını döyəndə Naibüssəltənə də Təbrizdən atasının yanına getdi.

O hadisədən sonra Urmiya bəylərbəyi Fətəli xan Əfşar Təbriziələ keçirtdi. Hicrətin min yüz yetmiş üçüncü ilində[5] Kərim xan Vəkil Azərbaycana qoşun yeritdi. O il müharibə etmədi, növbəti il gəldi. Olduqca heyrətamiz surətdə qələbə çaldı. Azərbaycanın əmirləri ram oldular. Vəkil Şiraza getdi.

---

[1] Cəzayirçi – tüfəngçi.

[2] Şənlik – (burada) atəşfəşanlıq.

[3] Miladi təqvimilə 1757/58

[4] Məhəmməd Həsən xan Qacar (1715 – 1759) – Fətəli xan Qacar Qoyunlunun (Qovanlu) oğlu və Ağa Məhəmməd xanın atası.

[5] Miladi təqvimilə 1759/60

Hicrətin min iki yüz dördüncü ilində[1] Şəhid Xaqanın[2] bu məmləkətə gəlişinə qədər Təbriz möhnət ilə fitnə məkanına döndü. Xoy bəylərbəyi Hüseynqulu xan əlacsız qalıb onun sarayına gəldi və Şəhid Xaqan Xoyun hakimiyyətinə əlavə olaraq Təbrizi, Ərdəbili və Şəqaqini də ona tapşırdı.

Bəylərbəyi Hüseynqulu xan böyük əmir olmaqla yanaşı bəsirət, şücaət və səxavət sahibi idi. Mirzə Həsən Zünuzi "Riyazül-cənnət" kitabını onun adına yazmışdı. Atasından sonra Əskəriyeynin (ə) abadlaşdırılmasını da o tamamladı. O, vüqarlı və qeyrətli kişi idi. Qəzdə* və Qarabağda Dünbüli ordusu ilə daim Şəhid Xaqanın məiyyətləri arasında olub. O zaman böyük fəthlər etmiş və nəticədə Azərbaycanın sərdarı adına nail olmuşdu. Ondan sonra İbrahim Xəlil xan Cavanşirin qızını istəmişdi. Şahənşah bunu bəyənmədi. Xilafət dərgahına çağırdı. Cəfərqulu xanı qardaşı yerinə Azərbaycana sərdar təyin etdi. Cəfərqulu xan özü ona böhtan atmışdı, yoxsa Hüseyn xan onda olan mədəniyyətlə heç vaxt xilaf çıxmazdı. Cəfərqulu xan hökmranlıq etdi. Hicrətin min iki yüz ... (?) ilində Böyük Xaqan Fəthəli şahın sarayında üstü açıldı(?). Hüseyn xanı Təbrizin, Xoyun və Qaracadağın maliyyə işlərini yoxlamağa göndərdi. Cəfərqulu xanın qardaşı ilə vuruşmağa gücü yox idi. Bayəzid bölgəsinə qaçdı. Hüseyn xan müstəqillik qazandı.

Həmin vaxt Böyük Xaqan Xoya getdi. Bu adlı-sanlı əmir elə bir ziyafət verdi ki, hərbçilərin hamısı onu öydülər. O ildə İraqda vəziyyət bir balaca qarışmışdı və Hüseynqulu xan qardaşı ilə nifaqdan dəm vurmağa başladı. Onda Cəfərqulu xan fürsət tapıb yəzidi kürdlərdən və başqa tayfalardan yığdığı yetmiş minə yaxın adamla qardaşına qarşı vuruşmaq üçün kəmər bağladı. Hüseyn xan Urmiya əfşarlarından yardım istədi. Bəylərbəyi Hüseynqulu xan İsa xanı və Əsgər xan Əfşarı yaraqlı-yasaqlı ordu ilə göndərdi. Cəfərqulu xan o qoşunu bir həmlə ilə Urmiyanın qapısı ağzında darmadağın etdi və o məmləkəti soyub taladı.

---

[1] Miladi təqvimilə 1789/90

[2] Yəni Ağa Məhəmməd şah Qacarın

Cavanşirin və Kəngərlinin ordusu köməyə gəldi. Öz çöllərində döyüşə girdilər və üzlərini döndərib qalada sığınacaq tapdılar. Məhəmməd xan İrəvani böyük ordu ilə Arazın sahilinə yetişdi. Cəfərqulu xan onun üstünə hücum çəkib qalib gəldi. Qayaqlu Məhəmməd xan Qacar Şəqqaqi atlılarla özünü yetirdi. O da yenildi. Həsən xan qardaşının inadkarlığı və istedadı haqqında Böyük Xaqana ərz etdi. Xilafət başçısı İbrahim xan bin Canməhəmməd xanı beş min nəfər seçilmiş süvari ilə köməyə göndərməyi qərara aldı. Bu məlumat Cəfərqulu xana Mərənddə çatdı. İstədi onun yolunu kəssin. Hüseyn xan sərdarı xəbərdar etdi. Sərdar fürsəti əldən verməyib Qazanın[1] arxasından keçərək Hüseyn xanla birləşdi. Öz şücaətindən qürur duyan Cəfərqulu xan döyüşmək əzmi ilə irəli çıxdı və Xoydan üç fərsəng* aralı yerləşən Dizəc Dizin yaxınlığında qızğın vuruşma baş verdi. Sərdar şəxsən özü bu böyük döyüşə girişdi. Hüseyn xanla Qayaqlu Mirzə Məhəmməd xan sol cinahdan hücuma keçdilər. Hüseyn xan özü ordunun lap qəlbində qardaşının qoşununa elə zərbələr endirirdi ki, Qacar sərdarı ona iki dəfə əlindən öpməyə icazə verdi və döyüşdən kənara çəkdi. Razı olmadı, dedi: “Mən Cəfərquludan üzümü döndərmərəm. Mən özüm döyüşə getməsəm Dünbüli süvariləri ona çata bilməzlər”. Nəticədə Cəfərqulu xan məğlubiyyətə uğradı. Bəylərbəyi və sərdar şəhərə daxil oldular. Bir neçə gündən sonra sərdar Təbrizə getdi. Hüseyn xan Mahmud xan Dünbülini Təbrizə hakimlik etməyə göndərdi. Bu Mahmud xan Əmir Məhəmməd bəy bin Şahbaz xan bin Mürtəzaqulunun oğludur. Hüseyn xan həmin il, yəni hicrətin min iki yüz on üçüncü ilində, o biri dünyaya köçdü. O böyük adamın cənazəsini Əskəriyeynə (ə) apardılar.

## Hekayət

Xoyda oturmuşdum. Əmmaməli bir kişi var idi. Adı Ağa Yusif olub. İncə təbiətli adam idi. Həmişə o məmləkətin hökm-

---

[1] Qazan – Urmiya bölgəsində bir kənddir.

darı şahzadə Məhəmməd Rəhim Mirzə ilə həmsöhbət olardı. Mənə rəvayət etdi ki, "O döyüş baş verəndə mənim on yaşım var idi. Atam Hüseyn xanın xidmətçilərindən olmuşdu. Özü kədxuda olub və dilli-ağızlı bir kişi idi. Yadıma gəlir ki, sabahı rəcəbül-mürəccəbin on biri və döyüş baş verəcək günün gecəsi anama demişdi ki, ertəsi gün amansız dava olacaq. Bu gün bəylərbəyi məni qardaşının yanına nəsihətlə göndərdi ki, "Ay qardaş, bu boşbeyinliyi qoy kənara və sağlam yolu tut. Dünbüli nəslinin evini yıxma. Bu gün mənə qalib gəlsən də, sabah Qacarların qoşunları ilə nə edəcəksən? Onlar bu məmləkətdən əl çəkən deyillər. Sən İran padşahını bəyənmirsən. Əgər mənim gücüm olsaydı, heç vaxt kiməsə qulluq etməzdim. Qoy bu bir tikə çörək Dünbülilərə qalsın".

Cəfərqulu xan cavabında dedi: "Sənin mənimlə əlbir olmağın məqsədəuyğun olardı. Sən şah ol, mən də sərkərdə. Qoymaram ki, Qacar şahənşahı Azərbaycanın suyunu içsin. Ona üstün gəlsək, Qarabağ, Şirvan və Arazın o tayı bizimlə olacaq. Kim olursa olsun, əgər mənə qarşı çıxsa, kökünü kəsərəm". Bu xəbəri çatdırdım. Xan dedi: "Bu gün Allahü-əkbərimiz ya mənə yetirəcək, ya da Cəfərqulu xana". Ertəsi gün təbillər çalındı. Xanın hamamının qapısına getdim. Oranı süvarilərlə dolu olduğunu gördüm. Bəylərbəyi gördüm, hamamdan çıxdı. Əynində sadaq, başında dəbilqə. Başdan ayağa qədər yaraqlanmışdı. Ata mindi, getdilər və top-tüfəng səsini eşitdim. Zəfərlə qayıtdı. Gördüm ki, üst-başı tamam qana bulaşmışdı".

## Hekayət

O, yenə nağıl etdi ki, atası belə dedi: "Xan şəhər bağında gözəl bir külafirəngi tikdirmişdi. Şəhid Xaqan Qarabağdan Xoya tərəf gəlirdi. Hüseyn xan Qacar şəhriyarının sarı telini yaxşı bilirdi. Buyurdu ki, o gözəl imarəti yerindən çıxarıb izini-tozunu tamamilə məhv etsinlər. Guya heç olmayıb. Onun əmri ilə yerini qazıb reyhan əkdilər. Şəhid Xaqan gəldi. Bir gün saraya baş çəkdi. Padşah ordan-burdan danışa-danışa gedirdi. Birdən

soruşdu: “Bu gecə hansı sarayda qalmışdın? Əfşar xanımın yanında ya qarabağlı xanımın?” Bəylərbəyi dedi: “Böyük padşahlar öz əlaltıları ilə belə işlərdən danışmazlar. Atdan, silahdan, mülkdən söhbət etmək onlara daha layiq olar. Şahənşahın mənim harada gecələməyimlə nə işi var?!” Bundan sonra tez otaqdan çıxdı. Padşah xəcalət çəkdi. O biri gün onu çağırıb üzr istədi ki: “Sən düz dedin. Mən o sualı nahaq yerə verdim”. Ardınca dedi: “Eşitmişəm ki, hərəm bağında hündür imarətin var idi. Bizim gələcəyimizi eşidən kimi onu dağıtdın. İndi onun yerində reyhan bitir”. Xan dedi: “Həri, o külafirəngini atam tikdirmişdi. Sən hələ şəhriyar olmadığın çağda o özü buranın padşahı idi. İndi padşah sənsən. Padşahanə saraya malik olmaq mənə yaraşmaz”. Padşah bu sözü bəyənib dedi: “Sən böyük və ağıllı adamsan. Heç bilirsənmi, atan bu imarətə nə qədər maya qoymuşdu?” Dedi: “Belə eşitmişəm ki, iyirmi min misqal* qızıl”. Padşah dedi: “Çox olar. Çünki hökumətin gücü ilə tikiblər. Daşları əmrlə uzaqdan gətirib ucuz fəhlələri tutmuşdular”. Xəzinədarı çağırıb buyurdu: “Bu saat qırx min misqallıq* qızıl sikkələri bəylərbəyi kədxuda üçün say ki, o imarəti bizim üçün təzədən tiksin”. Ondan sonra əlavə etdi: “Günü bu gün mühəndislər onun tərhini cızsınlar və fəhlələr işə başlasınlar”.

Hamısı gediblər. Allah onlara rəhmət etsin. Hüseyn xanın bir neçə uşağı olub. Ən tanınmışı İbrahim xan Cavanşirin nəvəsi və Böyük Xaqan həzrətlərinin həmsöhbəti və nədimi Məhəmməd Sadiq xan idi. O, padşahdan sonra xidməti tərk etdi və əcəli çatanda dünyadan köçdü.

## Cəfərqulu xan

İgid və döyüşkən bir sərkərdə olub. Ləqəbi “Batmanqılıc” idi. Bu da cəsurluğuna bir işarə olmuşdu, çünki qılıncı bir mən ağırlığında idi. Bu igidliyi ilə yanaşı tərslik (bu da dəliliyin bir növüdür) ona qalib gəlmişdi. Böyük qardaşı dünyadan köçəndən sonra əmirlərdən şəfaət istəyirdi və üzrxahlıq edirdi ki: “Mən padşahla müharibə etmək iqtidarında deyildim. Qardaşıma kin

bağlamışdım. İndi günahkaram və əfv diləyirəm”. Böyük şahənşah bu dəfə də ona güzəştə getdi. O, oğlu Əhməd xanı girov yerinə göndərdi. Vərəsəlik torpaqlar ona bağışlandı. Bundan sonra böyük padşah öz [on iki] yaşlı oğlu Abbas Mirzəni Etizadüddövlə Süleyman xan Qacarın atabəyliyi və Mirzə İsa Ələvi Fərahaninin vəzirliyi ilə və on iki min yaraqlı süvarinin müşayiəti ilə Azərbaycana hakim göndərdi və əmr etdi ki: “Əgər Cəfərqulu xan saraya gəlsə, o saat Xoyun bəylərbəyi və əcdadlarından qalan mülkün varisi olacaq, yoxsa Etizadüddövlə şahzadənin rikabında o tərəfə qoşun yeridərək ona lazımi qulaqburması verəcək və Mahmud xan Dünbülinin onun yerinə Təbrizə bəylərbəyi qoyacaqdır”. Həmin hadisə min iki yüz on dördüncü ilin məhərrəm ayında[1] baş vermişdi.

Şahzadənin alayı Təbrizə çatanda Cəfərqulu xanın dalınca adam göndərdilər. Burada onun pis niyyətli olduğu üzə çıxdı. Padşahın ordusu o tərəfə yollandı. Cəfərqulu xan Xoy və Həvdər qalalarını gizli xidmətçilərinə tapşırıb özü ordusunu Qarsa və Bayəzidə apardı. Padşahın ordusu bir həmləyə Həvdər qalasını ələ keçirtdi. Cəfərqulu xan öz inadkarlığı ucundan sayı-hesabı olmayan ordu ilə vuruşmaqdan ötrü Səlmasa gəldi. Muğancıq kəndinin yaxınlığında bir-birinin üzərinə keçdilər. Cəfərqulu xan məğub olub Makuya getdi. Mahmud xan Xoyun bəylərbəyliyini və müstəqilliyi qazandı. Mən o döyüş meydanını görmüşəm.

## Hekayət

Bir etibarlı adamdan eşitmişəm ki, Cəfərqulu xan məğlub olandan sonra Pirqulu xan Qacar onu Qaratəpənin ətəyinədək təqib etdi. Orada ona yaxınlaşdı. Cəfərqulu xanın məşhur tüfəngi əlində idi. O, tüfəngin ön hissəsini özünə, arxasını isə Pirqulu xana tərəf uzadaraq dedi: “Bəs deyil?” Pirqulu xan Qacar dərhal tüfəngi alıb dedi: “Sağ-salamat get, Cəfərqulu!” Hərbçilər arasında bu cür söhbət və aman diləmək olurdu.

---

[1] Miladi təqvimilə iyun/iyul 1799

O tüfəng həmin tüfəngdir ki, indi onun qundağı yaqut daşları ilə bəzədilib və padşahın ləvazimatları arasında saxlanılır. Əlamətdar günlərdə birisi onu çiyninə qoyub padşahın hüzuruna gəlir. Onu düzəldən tüfəngsaz Əli Qərmidir[1]. Bu döyüşdən sonra Cəfərqulu xan Rusiyaya pənah apardı, Şirvanda məskən saldı və Şəkidə yaşadı. Min iki yüz iyirmi doqquzuncu ildə[2] vəfat etdi. Bununla Əhməd xan ailəsinin hökmdarlığı başa çatdı.

## Mühibbəli xan

Əhməd xanın oğlu, qardaşı tərəfindən Xoy hakimi təyin olunmuşdu.

## Kəlbəli xan bin Əhməd xan

Qardaşı tərəfindən Təbriz hakimi təyin olunmuşdu.

## Şahbaz xan

Mahmud xanın övladı. Padşahın sarayında eşikağası olmuşdu.

## Dünbüli tayfasından olan və hal-hazırda Azərbaycanda öz igidliyi ilə tanınan başqa bir nəsil

Bəylərbəyi Nəcəfqulu xanın soyundan qalanları Allahın köməyi ilə bir-bir sadalayıram.

*Bilmək lazımdır ki,* Xudadad xanın Fəthəli bəy adlı oğlu olub. Ona “ağa” deyərdilər. O zamanlar “xan” sözü geniş işlənməzdi. Bu sözlə padşah böyük sərkərdələrə və bəylərbəyilərə xi-

[1] Daha doğrusu, Əli Kərimədir.
[2] Miladi təqvimilə 1814

tab edərdi. Bugünümüzdəki kimi deyildi ki, indi kəndçilər, baqqalların və otsatanların uşaqları da fərmansız-haqsız xan olublar.

## Fəthəli bəy Ağa

Bu ad-san sahibi Kə'bəyə getmişdi, vəkalət ləqəbi var idi. Bu xanzadə möhtəşəm, hörmətli və səbirli kişi olub. Dünbüli başçılarının döyüşü baş verdikdən sonra Hüseyn xanla Cəfərqulu xan öldülər və [qalanları] avara oldular. Bu kişi Ərvənəq bölgəsində malik olduğu bir neçə kəndlə kifayətləndi. Qacar sərdarları yanında hörməti var idi. Hicrətin min iki yüz ... [yazılmayıb] ilində dünya ilə vidalaşdı. Ondan iki oğul qaldı: böyüyü Nəcəfqulu xan və kiçiyi Xudadad xan. Birinə Böyükxan, ikincisinə isə Kiçikxan deyərdilər.

## Nəcəfqulu xan

Dikbaş və vüqarlı cavan idi. Fələklərin ona bağışladığı mərhəmətin hesabına asudəliklə Təbrizdə gün-güzəranını keçirərdi. Naibüssəltənə də onu çox əzizləyərdi. O uzun illər davam edən İran-rus müharibəsi dövründə Azərbaycan əhalisinin əksəriyyəti, xüsusilə Qacarların şahənşah sülaləsi ilə əlaqəsi olmayanlar, açıq ya gizli şəkildə o tərəfə rəğbət bəsləyirdi. Ancaq Nəcəfqulu xan ki, qoçaq bir cavan idi, heç vaxt Rusiya ilə yola getməzdi. Rus ordusu qalib gələndən sonra böyük sərkərdə Paskeviç Təbrizə gəldi və Naibüssəltənə pərişan və çaşqın durumda idi. Azərbaycan əhli və ələlxüsus təbrizlilər açıq-aşkar xəyanət etdilər. Ağa Mir Fəttah hökumət naibliyini əlinə aldı və kədxudalar, bir nəfərdən başqa, xidmət kəmərini bağladılar. Bu cavan isə qətiyyən belə rüsvayçılıqla razı olmadı.

## Hekayət

Məhəmməd Sadiq xan bin Hüseynqulu xan Dünbülidən eşitdim ki, Nəcəfqulu xanın Məhəmməd bəy adlı yavəri belə hekayə

edirdi: “Bir gün mən xana dedim: – Bu Paskeviç çox tədbirli adamdır. Sən onunla işləsən, ola bilər ki, onu ələ ala biləsən. Mir Fəttah ki, indi işin içindədir, görünür, bir neçə gündən artıq Təbrizdə qalmaz. İndi avamı aldatmağın vaxtıdır. Başçının düz olması şərtdir. Səndən yaxşısı olmaz. Sənin əcdadların bu şəhərin bəylərbəyi olmuşdular. Aydındır ki, Azərbaycanı daha İran dövlətinə verməzlər. Xan dedi: – Sənin bütün dediklərin düzdür. Heç olarmı ki, mən Naibüssəltənəyə xəyanət edim? Qacar şahənşahları heç vaxt bizim nəslimizə pislik etməmişdilər. Cəfərqulu xanın başına gələni o özü etdi. Şəhid Xaqan bizim hakimiyyətimizi əlimizdən aldı. Bu şahənşah da Hüseynqulu xanı irəli çəkdi. Əgər bəzən paytaxtı və Qəzvini düşünürdülərsə, onu da dövlətin mənafeyi tələb edirdi. Bu Naibüssəltənə mənə çox yaxşılıq edib. Hətta şahənşah mənə öz sarayına gəlməyi əmr edəndə cavab verdi ki, mən onun xilaf çıxmamağına zaminəm.

Onda məni göndərdi. Xəlvətcə bazardan qiymətli parçalar gətirdim. Bir neçə dəst əla libas. Sərəncam verdi. Ruslar bütün yollarda keşik çəkdiklərinə görə heç kim Mir Fəttahın icazəsi və sərdarın[1] imzası ilə möhürü olmadan o yollardan keçməyə cürət etməzdi. Bir məktub yazdı və o paltarları da mənimlə göndərdi. O icazə aldı ki, mən Sis kəndinə[2] gedim. O kağızları çeçənin arasına tikdim, libasları da atın tərkinə bağladım. Yola çıxıb Ərvənəqdən keçdim, gecənin əvvəlində dönüb səhərəcən sürdüm və Səlmasa çatdım. Naibüssəltənə məni tanıdı. Gizlicə saraya daxil oldum. Atımı gizlətməyə əmr verdi. Mənə də qalmağa yer göstərdi. Məktubla libasları verdim. Xoşhal olub o paltarlardan birini əyninə geydi, çünki geyinməyə heç nəyi yox idi.

O biri gün və gecə orada qaldım. İkinci gecə gəlib dedi: “Mən xanın məktubuna cavab yazmayacam. Səni tutsalar o da ələ keçər, onda Nəcəfqulu xan xilasın üzünü görməz. De ki, bu işin əvəzinə səni Allaha tapşırıram. İndi məndə o güc yoxdur.

---

[1] Mətnin bu hissəsində müəllif “sərdar”, “sipəhsalar”, “salar” deyərkən rus generalı Paskeviçi nəzərdə tutur.

[2] Sis – Şəbüstərdən on altı kilometr aralı yerləşən kənddir.

Daha belə işlərə əl atma. Qorxuram ki, üstü açılsa bəla girdabına düşərsən”.

Gecə düşəndə ata mindim. Sübh açılmamış Sisdə idim. Günorta vaxtı iki qazaq atlısı və zabitlərdən bir nəfər gəldilər. Balaca bir məktub yazmışdı ki, “mümkün qədər tez şəhərə gəlməlisən”. O saat ata minib həmin zabit və qazaqlarla sürətlə çapdıq. Zabit dedi ki, sipəhsalar dünən xanı çağırmışdı. Getdi. Dedi: “Eşitmişəm ki, öz yavərin Məhəmməd bəyi həzrət Naibüssəltənənin yanına göndərib məktub yazmısan”. Xan dedi: “Bu yalanı düşmənlər qoşublar. Məhəmməd bəy Sisdədir”. Mir Fəttah da orada idi, dedi: “Bir çapar göndərmək lazımdır. Əgər Məhəmməd bəy orada olsa, çox qəribədir”. Məni bu iki atlının yanına göndərdilər, xanı isə orada saxladılar.

Mən yaxşı vaxtda çatmağıma sevindim. Gəldik. Günəş hələ batmamış yetişdim. Birbaşa sərdarın sarayına getdim. Mir Fəttahı gördüm. Sərdarın yanından çıxanda məni gördü. Tərs-tərs mənə baxıb qayıtdı. Heç bir an da keçmədi ki, o biri yandan gələn xanı gördüm. Qaş-qabağını salladıb keçdi. Məni çağırdılar. Sərdar dedi: “Harada idin?” Dedim: “Sisdə”. Dedi: “Eşitmişəm, Naibüssəltənənin yanına getmisən və ona bir məktubla bir neçə töhfə aparmısan”. Cəsarətlə dedim: “Ağa! Mənim düşmənim çoxdur. Mənim qanadım yoxdur ki, bütün yolları kəsmiş min atlının arasından keçib bir gündə qırx fərsənglik* yolu gedib qayıdım. Qoy bu sözü deyən subut gətirsin”. Sərdar dedi: “Düz deyirsən. Mən bu işdə haqlı deyiləm. Sağ-salamat get öz evinə. Onlar məni lap xəcalətə saldılar”. Sabahısı gün sərdar bir ədəd saat xan üçün və üç zər’* mahut mənim üçün göndərdi. “Bu həmin qazaq süvariləri məsələsinin əvəzidir”.

## Hekayət

Yenə Məhəmməd bəy söylədi. Mən Naibüssəltənənin sözlərini xana ərz etdim. Dedi: “İnşallah, Naibüssəltənin bəxti açılar. Yaxşı ki, sən vaxtında o yerə gedib çatdın, yoxsa mənim

işim fırıq idi. O ağlı başında olmayan cavan oğlan Mir Fəttaha deyiblər ki, Nəcəfqulu xanı yıxmalısan, çünki əgər kimsə sənin yerini ala bilirsə, o olar. Mən susmaqdan və kənara çəkilməkdən savayı bir çarə görmürəm”.

O biri gün sipəhsalara bir ərizə yazıb onunla bir saat təkbətək görüşmək istədi. Günəş batmağa doğru yaxınlaşanda görüşə getdi. Mən onunla idim. Sevinə-sevinə qayıdıb dedi ki, sərdara belə dedim: “Bu əmmaməli cavana filan-filan şeyləri söyləyiblər, o da çaşıb salara onların sözlərini çatdırıb. Ola bilər ki, Sizin xoş niyyətinizi döndərsin. Ən yaxşısı o olar ki, Siz mənə bir yer göstərəsiniz, mən də o yerə gedib heç kəsi yanıma buraxmaram. Qoy iş öz axarı ilə getsin. Sülh olsa və Siz Təbrizi boşaltsanız, əlbəttə, mən öz mal-mülkümü güzəştə gedən deyiləm. Əgər Azərbaycan Rus dövlətinə çatacaqsa, aydındır ki, mən də imperatorun rəiyyəti olub bacımı ödəyəcəyəm”.

Sərdar dedi: “Məgər sən bizim qanunlarımızı bilmirsən? Səndən bizə sənəd gəlməyincə bizim səninlə işimiz yoxdur. Mən bu sözü dünən Mir Fəttaha da demişəm. Öz evində rahat otur və gözdə-qulaqda ol ki¸ sənin haqqında yazılanlar bizim əleyhimizə iş görənlərin əlinə düşməsin. Yoxsa mənim səninlə işim yoxdur. İndi de görüm, sənin İran dövlətindən aldığın ruzi nə qədərdir?” Dedim: “Sisin xəracından yüz tümən. İndi bu qızılı alıblar”. Dedi: “O pulu qaytarmaq xəzinənin borcudur”.

O biri gün xəzinədar gəldi. İki yüz səksən ədəd bacoqlu[1] saydı. Dedi: “Qəbz verməlidir ki, bu pulu mənim tiyulumdan səhvən alıblar. Rus ordusunun sərdarı general-anşef xəzinədən verdi”. Yazdım və xan o qızılı götürdü.Ortaya sülh sözü gəldi və rus ordusunun sərdarı Paskeviç Dehxarqana getdi. Xan bir dəst qış paltarını hazırladı, yüz dənə bacoqlunu pul kisəsinə qoydu və üzünü mənə çevirdi ki, “İndi əgər bu məqamda Naibüssəltənəyə xidmət göstərə bilsək, çox yaxşı olar. Səni hər yerdə tanıyırlar. Mən belə qərara gəlmişəm ki, bir məktub salara göndərim və orada ondan Sis kəndində yerləşdirilmiş süvarilərdən bir neçə-

[1] Bacoqlu (bacaqlu, bacoğlı və s.) – qızıl sikkəli Osmanlı pulu.

sini çıxartmağı təmənna edim, çünki Mir Fəttah onsuz da həmin yerə çox süvari göndəribdir. Sən bu qızılla libası götür və zahirdə mənim kağızımı salara çatdır, xəlvətdə isə bu hədiyyəni Naibüssəltənəyə çatdır”. Heç nə yazmadı. Mən açıq-aşkar bir dəstə Kəngərli süvarisi ilə yola düşdüm. O tayfadan bir süvari mənimlə yoldaş oldu və bir-iki fərsəng* ağladı ki, “Rus bizə üstün gəldi və mən Naibüssəltənənin tüfəngdarı idim. İndi məni süvari yazıblar və mən qorxumdan o nemət sahibinə tərəf baxa bilmirəm”. Mən Allaha təvəkkül edib ona and içdirdim ki, “Mənim bir sirrim var. Qulaq as. Əgər onlarla deyilsənsə, bizimlə ol”. And içdi və mən ona dedim: “Mən Naibüssəltənəyə bir hədiyyə aparıram. Tutulmaqdan qorxuram”. Dedi: “O bağlamanı mənim xurcunuma qoy”. Qırağa çəkildik. Mən bağlamanı xurcuna qoydum. Getdik. Mən birbaşa sərdarın evinə yollandım və xanın məktubunu verdim. Sərdar məni çağırıb dedi: “Nəcəfqulu xanın halı necədir?” Dedim: “Ağlayıb-inildəyir”. Dedi: “Bizim burada bacarıqlı həkimimiz var”. Dedim: “Salar əmr etməlidir ki, o gəlsin”. Ardınca dedim:”Məktubun cavabını yazmağı tapşırın ki, mən səhər yola düşüm”. Dedi: ”Əvvəl Təbrizə yazıb həqiqəti öyrənməliyəm. Sən burada ol. İstəsən Naibüssəltənə ilə görüş, məktubun var. Mən etiraz etmirəm”. Dedim: ”And içirəm ki, məndə heç bir məktub yoxdur və məh yalnız bu işə görə gəlmişəm”. Dedi: “Sabah burada ol. O biri gecəyədək cavab gələr”.

Sevinərək Kəngərli süvarilərinin qaldığı evə gəldim. Mən o kişiyə işarə edib çölə çıxdım. Gecədən bir az keçəndən sonra gəldi və bağlamanı verdi. Naibüssəltənənin sarayına yaxınlaşdım. Saraya gedən Yəhya xanı gördüm. Yaxınlaşıb bağlamanı ona verdim və dedim: “Naibüssəltənəyə çatdır və de ki, ona məlum olan Məhəmməd [gətirib]”. Getdi və mən tam bir saat orada qaldım. Gəlib dedi: “Buyurdu ki, afərin, halal süd içib”. Mən sabahı gün sərdarın evinə getdim. Gün batana yaxın çapar yetişdi. Məni çağırıb dedi: “Xan haqlıdır. Bu hökmü al. Yazmışam ki, daha heç bir qonaq Sisdə olmasın”. *Son.*

İşlər üzü sülhə gedəndən sonra Naibüssəltənə Təbrizə gəldi. Nəcəfqulu xan ona təriflər yağdırdı, öz qızını ona verdi. Dövlət və hörmət içində yaşayırdı. Məhəmməd şahın padşahlığı dövründə Xoyun hakimi oldu, sonralar Xalxala hökmdarlıq etdi və hicrətin min iki yüz ... [yazılmayıb] ilində vəfat edənə qədər rahat ömür sürdürdü. Cənazəsini Hüseynin (ə) şəhadət yerinə apardılar.

O, hörmətli adam və güclü əmir olmuşdu. Novbər məhəlləsində gözəl hovuzları olan bağ, hündür və qəşəng imarət tikdirib kəhrizdən həmin bağa su çəkdirmişdi. Hamam da inşa etmişdi. Olduqca səfalı və xoş yerdir. Bu əmirin bir oğlu var idi, ona atasının adını qoymuşdu. Cavanlıqda anası ilə Kə'bəyə getmişdi. O da işin içində idi.

## Bəylərbəyi Hacı Fəthəli xan

Atasının hörməti və malı ona keçdi. Ayıq-sayıq və özünü ağır aparan bir cavan idi. Evindəki qapı və sinəsindəki ürək həmişə açıq olmuşdu. Böyük adamlarla oturub-durardı və özü hörmət qazanmışdı. Əvvəl xarici işlər nazirliyinin naibi vəzifəsini tutmuş, sonra isə Təbrizin bəylərbəyi olmuşdu. Hicrətin min iki yüz ... [yazılmayıb] ilində onu ittiham etdilər və Allah bilir ki, o yalan imiş.Hökumətə qarşı üsyan qaldırmışdı. Bir il belə qaldı. Sonra Baş Əmir Əziz xan ikinci dəfə Azərbaycana gəldi. Bu cavan öz vəzifəsinə qaytarıldı və ordu başçısı dünyadan köçənədək başını uca tutmuşdu. Sahibdivan gəlib onun xidmətini yüksək qiymətləndirdi və xilafət başçısına müraciət edərək onun üçün Azərbaycanın bəylərbəyi vəzifəsini istədi. Yüksək mənsəb sahibi oldu.

Mən həmin vaxt bikar idim. O cavanın mənə münasibəti yaxşı idi. Çox vaxt onun yanında olurdum və o, həmişə mənim güzəranımla maraqlanardı. Qoymazdı ki, mən çətinlik çəkim. Hicrətin min iki yüz ... [yazılmayıb] ilində onunla şəhərin alimi arasında münaqişə yarandı. İş qəlizləşdi. Alimi xilafətin dərgahına çağırdılar. Sonra bəylərbəyinin də gəlməyini tələb etdilər. Kələntər ilə qalabəyi də onunla getdilər. Orada böyük

iltifat gördü. Şahənşahın təşrifi ilə Təbrizə gəldi. O gün təbrizlilər onu hörmətlə qarşıladılar. Mən də orada idim, sonra Səidabad kəndinə getdim. Təəssüf ki, o cavanı ağır xəstə vəziyyətdə gördüm. O böyük adam məni görüncə çox şad oldu, çünki çoxdandan dost idik. Qızılcameydan kəndində gecələdim. Orada Təbrizin imami-cüməsi Hacı Mirzə Əbdürrəhim mənə qonaqlıq verdi.

Sabahısı günü şəhərə gəldim. İran və Firəng həkimləri ilə təbibləri toplaşıb rəy verdilər. Ölümdən nə çarə? Sonra mədəsində olan xərçəng maddəsi partladı və cavan yaşında vəfat etdi. O böyük adam otuz neçə il ömür sürdü və hicrətin min iki yüz doxsan birinci ilində[1] getdi. Mən qəm odunda yandım və indi də yanıram. Allah onu bağışlasın, çünki əliaçıq və comərd kişi olmuşdu və heç bir eybi yox idi. Bəlkə işdə bir az tələskən və sərt idi ki, bu da cavan olmağından irəli gəlirdi. O hörmətli adamdan üç oğul qaldı. Ən böyükləri

**Bəylərbəyi Hüseynqulu xan**

Vüqarlı və bilikli oğlan idi. Açıqfikirli və uzaqgörən adam olub. Şahənşah atasının yerini ona verdi. İndi də cah-calalla Azərbaycanın bəylərbəyi yerində oturub. Hələ gənc olmağına baxmayaraq ağıl və elm sahibidir. Güman edirəm ki, yaxın zamanlarda nəciblikdə atasını da keçəcəkdir. Bu il bazirganlara başçılıq etməyi və ticarət işini də ona tapşırıblar. Adamları yola verən və zirək adamdır. Atasının və nənəsinin ölümündən sonra bacı-qardaşlarına və başqa varislərə ata malı barədə söz salmağa qoymadı. Dəlillərə əsaslandığına görə dili da uzun idi. Bu cavanın əli ilə ürəyi də həmişə açıq olub. İkinci oğlunun adı

**Lütfəli xan**dır

Doğru-dürüst cavandır. Həzrət vəliəhdin dərgahında xəzinədardır. Üçüncü oğlu

---

[1] Miladi təqvimilə1873/74

hələ yeniyetmə olsa da, şüurlu uşaqdır. İndi məktəbə gedir.

Mən bu nəsil haqqında danışdım və bütün yazdıqlarım düzdür, yalana yol verməmişəm. İndi isə Naibüssəltənənin yazdığı əlyazmanın surətini gətirirəm ki, Nəcəfqulu xanın o həzrətə nə cür hörməti olduğunu biləsən. Bu hələ kürəkən olmağından qabaq idi.

## Naibüssəltənənin əli ilə yazılmış kağız

Xaqanın yaxın adamlarından olan alicah Mirzə Məhəmməd Əli *bilsin ki,* mərhum Hacı Fəthəli bəy Vəkil bizə doğruluq və sədaqətlə qulluq etmiş və təqdirəlayiq xidmət göstərmişdir. Ondan sonra Nəcəfqulu xan tam düz yolla getmişdi. Xalq üçün sınağa çevrilmiş rus işğalı zamanında sədaqətlə rəftar etmişdi. Azərbaycan əhalisindən ondan yaxşı hərəkət edən olmayıb. Mən ona lütf ilə mərhəmət göstərirəm və neçə müddətdir ki, səfərdə məni müşayiət edir. Ərz etdi ki, ondan sonra ona məxsus kəndlər, o cümlədən əsas yolun üstündə yerləşən və digər mülklərin istifadə etdiyi suyu oradan gələn Sis kəndi məsələsində yaranmış ixtilaf nəticəsində oranın araqarışdıranları həmin ərazidə öz mülki mənafeyi olan Rüstəm xanı təhrik edərək onun əməllərini yerə vurdular. O alicah mübarək yazını alandan sonra Rüstəm xanı və həmin fəsad törədənləri oradan xaric edir. Rüstəm xan məhsul yığımı vaxtı öz adamını oraya qoyub bəhrəsini zəbt edir. Sonra yenə ərz etdi ki, Ağa İbrahim o ərazilərin sərmayəsini istəyir.

O alicaha məlumdur ki, Bəhram bəylə mərhum Vəkilin görüşündən sonra ona məxsus Ərvənəqdəki mülklərə heç kəsin müdaxilə etməyəcəyini söz verdik və oranın vergisini də hesablamağı qərara aldıq. Bilindi, keçdi. Nə qədər artıq zəhmət çəkərsə, ona çatacağını buyurduq. Bizim Nəcəfqulu xanın halına xalqdan da artıq nəzər yetirməyimiz və ona arxa olmağımız məlumdur. O alicahın Ərvənəq işçilərinə və onun işinə xələl gətirənlərə bizim qəlbimizdə lütf ilə mərhəmətin olmamağından xəbəri var.

Sis kəndində bəndin qoyulması məsələsinə gəldikcə, vilayətin abadlaşması və mərhum Vəkilin övladları üçün faydalı olduğuna görə, bu işə rəğbətlə yanaşıram. Belə qərara gəldik ki, Nəcəfqulu xana min beş yüz tümən verək ki, qırx ildən sonra iş başında olana versin. Xilafətin paytaxtından qəbz əsasında onun adamına min tümənin verilməsi hökmünü ehtiva edən məktub göndərildi, ancaq indiyədək gəlib çatmadı. O alicah nəzarət altında saxlasın. Maya gələcək ki, işə məşğul ola bilsin və sonda geri qaytarsın.
*Min iki yüz qırx üçüncü ilin zihiccə ayının on ikisində*[1] *yazılıb.*

Burada o nəsil haqqında deyəcəyimiz söz sona yetir. Əgər həmin ailəyə aid xilafətin hökumətindən çıxan sənədləri qələmə almaq istəsəydik, çox böyük dəftər yazmalı olardıq. Odur ki, aşağıdakı qeydlə sözümüzü başa vururuq.

## Xudadad xan

Ağa Hacı Mühibbəli bəy Vəkilin ikinci oğludur. Kiçikxan adı ilə məşhur idi. Comərd və səxavətli bir kişi olmuşdu. Qızılla qara torpaq onun gözündə eyni idi. Böyük var-dövlət sahibi olub. Təbrizdə və onun ətrafında torpağı və mülkləri var idi. Onun sarayı bircə saat belə qonaqsız qalmazdı və görkəmli adamlara gözəl süfrələr açardı. Mən o böyük adamla dostluq edərdim. O, ürəyi sadə adam idi. Onunla bağlı bir məzəli əhvalat yadıma düşür. Hicrətin min iki yüz altmış neçənci ilində mən Əmirülmömininin, Hüseyn Seyyidüşşühədanın və digər imamların (əleyhiməs-salavat vəs-səlam) şəhadət yerlərindən qayıdarkən atam sipəhbüdün* əmri ilə xilafət dərgahına gəldim. O vaxt Mirzə Təqi xan Fərahani İranın vəziri olmuşdu. Həmin alicənab kişi də orada idi. Səkkiz aya yaxın sarayda qaldıq. Günlərin çoxunu divanxanada bəzəkli oturacaqlar üstündə əyləşərdik. Xan dedi: “Bu vəzir məni görəndə halı dəyişir”.

---

[1] Miladi təqvimilə 26 iyun 1828

# Şahgölü[1] haqqında

Şərq tərəfdə və cənuba sarı Şahgölü adlanan bir ərazi vardır. Bir neçə rəiyyət ailəsi orada yaşayır. Həmin yer elm yoluna və qaydasına bələd olan bir təbrizli seyyidlər sülaləsinə məxsusdur. O əkin yerində, böyük təpə səviyyəsində türk dilində "göl" deyilən bir su hövzəsi olub. Qum və çınqılla dolu idi və ona Şahgölü deyərdilər. Daha bilmirik, bu hövzəni hansı padşah salmışdı. Hicrətin min iki yüz ... [yazılmayıb] ilində[2] Naibüssəltənə Abbas Mirzənin səkkizinci oğlu, Azərbaycanın hakimi şahzadə Qəhrəman Mirzə onu düzəltməyi əmr etmişdi. İlk olaraq həmin əkin yeri Mirzə Hüseyn adlı bir mülkədardan o şərtlə alındı ki, hər il min misqal çəkidə otuz beş xarvar Ali Divandan bu malikanənin bəhrəsi əvəzinə ona verilsin. Xilafət sarayının dəftərində də qeyd olundu.

Ondan sonra həmin hövzəni torpaqdan və daşdan təmizlədilər və divarın tökülmüş və çatlamış yerlərini daşla və əhənglə təmir etdilər. Gölün axırında əhəngdən, kərpicdən və daşdan enli divar qurdular, çünki su öz gücünü bu yana vermişdi. Onun ortasında bütün divarlarla döşəməsi saf mərmərdən olan böyük bir tikili inşa etdilər və uca bir imarət tikdilər. Kərpiclə əhəngdən həmin imarətə cənubdan gələn bir yol saldılar. Mehranrud çayının bir qolunu kəsib həmin hövzəyə döndərdilər və yaraşıqlı bir qayıq da bu suya saldılar. Yad etdiyim təpədə mərtəbələr qurdular, içində suyun qaynadığı və bu hövzəyə töküldüyü şəlalələrlə fəvvarələr düzəltdilər və həmin təpədə gözəl bir bağ saldılar. Həmin yerdə həmçinin hündür ağacların arasında bir saray tikdilər. Orada köhnə arx olub. Kankanlar ondan qollar qazıb ayırdılar. Həmin bağa saf və şirin su axdı.

Buralar dünyada az tapılan istirahət yerlərindəndir. Bu işə əlli min tümən sərf olundu. Tikinti hələ tamamlanmamışdı ki, şahzadə dünyadan köçdü. Padşah o yadigara sahiblənmədi. O nəcabət sahibinin iki kiçikyaşlı uşağı var idi. Mən o imarəti də-

---

[1] Hazırkı adı Elgölüdür.

[2] Miladi təqvimilə 1835-40-cı illər ehtimal olunur.

fələrlə görmüşəm. Altı da, üstü də həqiqətən şahanə bir tikilidir. Aşağıdakı böyük eyvan bütövlükdə mərmərdəndir. Bu mərmərin arasından çay yolu vardır və su həmin yolla axıb hövzənin o biri yandan, şüşəli pəncərələri olan bəzəkli hücrələr tərəfindən tökülür. Yuxarıda da çox yaraşıqlı köşk ilə külafirəngi var. Bütün pəncərələrin çərçivəsi də mərmərdəndir.

Çox keçmədi ki, imarətin bünövrəsi sudan bir azca xarab olmağa başladı. Yavaş-yavaş üzü dağılmağa getdi. Adamlar kaşılı kərpicləri və mərmər daşlarını çıxartdılar. Nəticədə başdan-ayağa viran oldu və heç kim bunu vecinə almadı. İndi o hövzə yarıya qədər qum və daşla dolub və Azərbaycan hökuməti oranı icarəyə verir ki, qışda və baharda su ilə doldurub yayda şəhərə və tarlalara satsınlar.

## Fayda

Biz iranlıların əcaib bir etiqadımız var. Müsəlman olmağımıza baxmayaraq, şəriətimizdə pis əlamət sayılmasa da və Peyğəmbər (ə) bunu buyurmasa da, əgər kimsə bir ev ya başqa bir şey tikdirsə və ömrü sona yetsə, işi başa vurub və ya vurmayıb ölsə, deyərlər ki, bu imarət bədbəxtlik gətirib. O binanı elə yarımçıq qoyarlar və əgər tamamlanmış olsa, onda baxımsız qoyarlar ki, xarabazara dönsün. Bu etiqad bizə qədimdən gəlib. Belə ki, hələ Sultan Mahmud Qəznində uca bir imarət tikdirdi, adını Səhlabad qoydu və tezliklə o dünyaya köçdü. Onun övladları da bunda bir bəd əlamət görüb ona baxmadılar və nəticədə bina viran oldu.

Keçmiş şahın dövründə Şimranda Məhəmmədiyyə adlı yay sarayı tikildi. Hündür və geniş imarət idi və hökmdarın bütün məiyyətlərinə orada yer verildi. Əcdadlarına qovuşdu. [Dedilər ki], şahənşah üçün o binanın falı bəd çıxdı, başdan-ayağa dağıldı getdi.

Bu Şahgölü imarətini də pis əlamət saydılar, o da viran oldu. Belə etiqad çox qədim zamanlardan gəlir, yoxsa ölüm vəd olunanların ən sədaqətlisidir. İnsan ömrü sona çatanda çar-naçar bir yerdə ölər və onun bu məsələyə dəxli yoxdur.

# Baği-şimal[1] haqqında

Bura Təbriz şəhərinin cənubunda məşhur bir yerdir. Onunla əlaqədar ilk eşitdiyim ad o oldu ki, Təbrizdəki "Bağı-işrətbadi-şimal"[2] və "Həşt behişt"[3] bağı padşah Həsənin oğlu Sultan Yaqub[4] salıb və Səfəvi nəsildən olan padşahların dövründə də o yer yad edilir. Onun abadlaşdırmasında Naibüssəltənə Abbas Mirzə böyük iş görüb. Bu ərazinin ölçüsü elədir ki, burada qırx xalvar toxum əkmək olar. Dörd hissədən ibarətdir. Bir hissəsi böyük bağdır. Şimala açılan qapıdan buraya daxil olarlar və oradan imarətə doğru hər iki tərəfdən səliqə-sahmanla alma və armud ağacları əkilmiş iki xiyaban salınıb. İmarətə yaxın yerdə üç nərdivan böyük su hövzəsi olan səviyyəyədək qalxır. Burada hündür imarət inşa edilib və qapının önündəki dəhlizdən iki tərəfdən nərdivanlar vasitəsilə oraya qalxarlar. Orada geniş və hündür külafirəngi var və onun bir tərəfi şimala və şəhərə doğrudur. Orada həmçinin yuxarı çıxan yeddi pəncərə qoyulub. O biri üzü Gülüstan bağına, Səhənd dağına və onun qarla örtülmüş zirvələrinə baxır. Onun iki tərəfində iki otaq var. Birinin üzü bağa və şəhərə tərəfdir, digərinin isə şərqə və qərbə, Fərhad və Şirin adı ilə məşhur bağın qapısı yönündədir. Böyük köşk qüdrətli hökmdarların surətləri ilə bəzədilmişdir. Dəhlizdən Gülüstan bağına gedən yolda üzü cənub istiqamətində kərpiclə örtülmüş, bəzilərində naxışlı aynabəndlər də olan hücrələr mövcuddur. Bunlar qadınlar üçün tikilib. Həmin hücrələrin o biri başında hamam vardır.

Mənim ilk dəfə Təbrizə gəldiyim il bağın şərqindəki Fərhad bağında məiyyətlərin və hərəmlərin yaşaması üçün çox gözəl,

---

[1] Təbrizlilər bu bağa Şahzadə bağı (o ərazidə çoxlu binalar tikdirmiş Abbas Mirzə Naibüssəltənənin şərəfinə) və ya Qum bağı (torpağı əsasən qumdan olduğuna görə) deyirlər.
[2] Şimal əyləncə bağı.
[3] Səkkiz behişt.
[4] Sultan Yaqub – Uzun Həsənin oğlu, Ağqoyunlular sülaləsinin yeddinci hökmdarı.

möhkəm və hündür evlər var idi. O binaların hamısı dağıldı. Bu son illərdə dövlətin vəliəhdi Gülüstan imarətinin axır hissəsində, Badam bağı olan yerdə, böyük bir bina tikdirib çox hündür yay hovuzu qoymuşdu. Hovuzun ətrafında içəridən bütün şəhərə tamaşa etmək mümkün olduğu və şəkillərdə gördüyüm Çin binalarına oxşayan böyük hücrələr və köşk inşa edilmişdi. O, burada daha iki ev tikdirib. Belə deyirlər ki, bu yerə indiyə qədər iyirmi min tümən qızıl sərf edibdir.

Bu Gülüstan bağının bir üzü Badam bağına sarıdır və bağın sonunda Yanığa baxan hündür bir köşk var. Bəzən ordu orada vaxt keçirir. İndi bura abad, yaşıl və dinc almaq üçün münasib bir yerdir. Keçmişlərdə Təbriz xalqı həmin məkanda istirahət edərdi və heç bir qadağa qoyulmazdı. Ancaq indi bağ icarəyə veriləndən sonra icarədar hər qapıya yekə bir it bağlayıbdır ki, sakinlərin buraya gəlməyə imkanları olmasın. Onlar anlamırlar, amma Naibüssəltənə bu bağı ümumi istifadə üçün salmışdı ki, adamlar gəlib buranın gözəlliyindən bəhrələnsinlər və onu xoş sözlə yad etsinlər.

## Qacar şahənşahları dövründə hicrətin hazırkı min üç yüz birinci ilinə[1] qədər Təbrizdə olmuş hakimlər və ordu əmirləri haqqında

Qacarlar tərəfindən Təbrizə hökmranlıq edən ilk adam Şəhid Xaqan Məhəmməd şahdır ki, atası Məhəmməd Həsən xanın fərmanı ilə bu məmləkətə sahib oldu. Bu hadisə hicrətin min yüz səksən birinci ilinə[2] təsadüf etmişdir. Böyük Xaqan o vaxt on səkkiz yaşında idi. İran tarixyazanları mənə şikayət edirlər ki, bu padşahın Azərbaycanda yaşadığı və atasının işləri qarışandan sonra necə olduğu və haraya getdiyi barədə heç nə bilmirlər.

Bəzi ağızlardan eşitmişəm ki, xoşbəxt Şəhid Xaqan Şirazdakı döyüşdən sonra atasına qoşuldu. Məhəmməd Həsən xan onu qorxaq sayıb ürəksizlikdə günahlandırdı. Bu padşah əzəmətli xanın böyük oğlu idi və səkkiz qardaşından on beş yaş böyük olub. Onların adlarını burada sıra ilə sadalayıram:

**ikinci oğlu Hüseynqulu xan**
**Məhəmməd şahla bir mamadandır[3]**

3 – Mürtəzaqulu xan, 4 – Mustafa xan, 5 – Cəfərqulu xan,
6 – Mehdiqulu xan, 7 – Abbasqulu xan, 8 – Rzaqulu xan,
9 – Əliqulu xan.

Burada şəhid şahənşaha bir fəsli həsr etmək yerinə düşərdi. Mən yalnız öz bildiklərimi deyirəm, başqa bir şey yazmıram.

### Müqəddimə

Böyük Xaqan əmisinin yerinə əyləşəndən sonra Marağaya məktub göndərib Marağanın bəylərbəyi və Müqəddəm tay-

[1] Miladi təqvimilə 1883/84
[2] Miladi təqvimilə 1767/68
[3] Yəni bir anadandır

fasının başçısı Əhməd xan Müqəddəm Otuzikini[1] həmin ləqəblə Təbrizə hakim təyin etdi. Bu hadisə hicrətin min iki yüz on dördüncü ilində[2] baş vermişdir. Həmin Əhməd xan hünərli və əsəbi adam olub, xasiyyəti müvazinətli deyildi. Atasının çoxlu uzunqulağı var idi və onların vasitəsilə yük daşımaqla məşğul olardı. Əhməd xan öz fərasəti hesabına tayfa başçısı oldu, malı-dövləti çox idi. Onun adını sərvət sahibi kimi misal çəkərdilər. Uşaqları igid və şücaətli, hamısı adlı-sanlı olmuşdular.

## Naibüssəltənə Abbas Mirzə

Böyük Xaqan Fəthəli şah əmisinin yerinə Əcəmə sahib olandan sonra hicrətin min iki yüz on üçüncü ilində[3] Qacar Süleyman xan Etizadüddövləni sərdar yerinə qoydu və bu şahzadəni Azərbaycana hakimlik etməyə göndərdi. O zaman padşahzadənin on yaşı var idi. Vəzir vəzifəsini isə Mirzə İsa Fərahani Hüseyniyə verdi. Şəhid Xaqanın vəsiyyətinin hökmü ilə Naibüssəltənə ləqəbini aldı. Bu şahzadə şahənşahın üçüncü oğlu idi.

Burada da İran tarixyazanları sərt şikayət edirlər ki, dünyanın şəhriyarına yaltaqlanmaq üçün şahzadəni birinci oğul kimi göstərirlər. Məgər nəcibliklə böyüklüyü yaşla ölçərlər? Və yaxud deyirlər ki, niyə şahənşah iki böyük oğlunu qoyub üçüncü oğlunu öz canişini etdi? Onların heç biri ondan əskik deyildi. Biri Məhəmməd Əli Mirzə, o birisi Məhəmmədqulu Mirzə.

Məgər Çingiz xanın oğlu Oktay[və ya Oqtay] xanın atasının yerinə keçdiyini və ikinci oğlu Cağatay xanın kənarda qaldığını kitablarda oxumamısınız? Madam ki, bu işin sirrini bilmirlər, mən deyim ki, aydın olsun. Bu da vacib məsələdir.

*Bilmək lazımdır ki,* Qacar Qoyunlu(Qovanlu) və Aşağabaş adlanan tayfalarla Qacar Dəvəlu və Yuxarıbaş deyilən tayfalar bir-birinə kin bağlamışdılar və hər iki tərəfdən qan sel kimi

---

[1] Otuziki – bu ad Cavanşırin Qarabağdakı otuz iki qəbiləyə işarədir.
[2] Miladi təqvimilə 1799/1800
[3] Miladi təqvimilə 1798/99

axırdı. Şəhid Xaqan padşahlığı ələ alandan sonra baxdı ki, qövmün ürəyinə girmiş bu qədim və təzə kinlə Qacarlar nəslinin padşahlığı əsla möhkəm olmaz. Buna əlac axtardı və tapmadı. Çarəni bircə bu iki qolu bir-birinə peyvənd etməkdə və bu minvalla qanı yumaqda gördü. Bundan sonra öz qövmünə hökmlərini oxudu. Biri o idi ki, Fəthəli xan Dəvəlunun qızını öz sarayına gətirib öz qardaşı oğlu və vəliəhdi olan Fəthəli şaha ərə verdi. Fitnələr bir az yatdı. O vaxt məsləhət görüldü ki, bu arvadın oğluna səltənətin naibliyini vermək lazımdır, çünki Yuxarıbaş tayfası da onun padşahlığına faydaverəndir, qoy ürəkləri açılsın. Yaxşı fikir idi. Belə də etdi və Yuxarıbaş birdən onun xidmətinə gəldi. Tarixçi yalan yazanda və öz nəfsinə uyanda nə yaman olur! Heç belə tarixə etimad göstərmək olarmı?

İndi də öz işimizə qayıdaq. Sərdar, baş əmir və vəzir[1] bu məmləkətə gəldilər. Cəfərqulu xan üsyan qaldırdı. Səlmasda döyüşdülər və o yenildi. Şahzadə Təbrizə gəldi.

## Hekayət

Bilən adamlardan elə eşitmişəm ki, döyüş günü Naibüssəltənənin ayaqlarını, kiçikyaşlıların qaydası ilə, ata bağladılar və beş yüz nəfər igid süvari ilə Səlmasdan Urmiyaya tərəfə yürüdülər ki, əgər Qacar ordusu məğlubiyyətə uğrasa, onların xidmətində olan bəylərbəyi Əfşarın oturduğu yerə getsinlər. *Son.*

Bu şahzadənin dövründə məmləkət abadlaşdı. Dağılmış Təbriz yenidən tikilməyə başladı. Naibüssəltənə əzm ilə qətiyyət və hörmət ilə fərasət sahibi olan bir şahzadə olmuşdur. İranda orduda nizam-intizam yaradan ilk adam o olub. Ayrı-ayrı məmləkətlərdən görkəmli şəxsləri vəd, şirnikləndirmə, ümid və hədə-qorxu yolu ilə öz sarayına gətirdi. Onun şərəfinə bircə onu demək kifayətdir ki, hicrətin min iki yüzüncü ilindən ta min iki

[1] Müvafiq olaraq Süleyman xan Qacar Etizadüddövlə, Qacar sərdarı İbrahim xan və Böyük Mirzə adı ilə məşhur Mirzə İsa Fərahani nəzərdə tutulur.

yüz [qırx üçüncü] ilinədək[1] rus dövləti ilə vuruşdu. Sonda məğlub olsa da, bu onun üçün eyib sayılmaz, çünki Rusiya dövlətinin gücü və təzəlikcə Qacarlar nəslinin əlinə keçmiş və əksər məmləkətlərinin özbaşınalıqdan dəm vurduğu İran dövlətinin zəifliyi gizli deyil. Bircə rus hücumuna belə tab gətirə bilməyən böyük qonşu dövlətdən[2] fərqli olaraq bu döyüşlərin çoxunda Azərbaycan ordusu təkbaşına vuruşurdu.

## Osmanlılarla döyüş

Bu böyük adamın igidliyinə dəlalət edən başqa bir əlamətdar hadisə üz vermişdi. Belə ki, on min nəfər yorğun və əldən düşmüş əsgəri başına alıb Topraqqalada yaraqlı-yasaqlı yetmiş min nəfərlik Osmanlı ordusu ilə üz-üzə gəldi və onlar məğlubiyyətə uğradılar. İran qoşunu onları Ərzuruma qədər qovladı. Vəba olmasaydı, bütün Anadolunu ələ keçirəcəkdi. Bu döyüş hicrətin min iki yüz otuz üçüncü ilində[3] baş verdi. Həmin davada İran dilavərləri Ali-Osman dövlətinin seçilmiş qoşununu qılınclarından keçirtdilər. O mərəkədən canını qurtaran heç kəs adının vuruşanların dəftərinə yazılmasına layiq görülmədi:

O tar-mardan sağ çıxanın
Bədəni sağlam olsa da, özü xəstə kimi idi.
Yatanın beyninə mıx vurdular,
Oyağın gözünə ox saldılar.
Onun paltarının bəndi küləkdən yellənəndə
Ciyərinə mismarın qaxdığını güman etdi.
Sual verəndə, deyir: – Ay atlı, vurma!
Cavab verəndə, deyir: – Ay məlik, aman!

---

[1] Miladi təqvimilə 1804-1828
[2] Osmanlı dövləti nəzərdə tutulur.
[3] Miladi təqvimilə 1822

İnsaf xatirinə düzünü desək, Böyük Xaqan kimi ağıl, əzm və ürək sahibi bu dünyaya az gəlib və oğullarının da hamısı igid və dərrakəli adamlar olub. Misal üçün: Naibüsəltənənin başı osmanlılara və ruslara qarışdığı vaxtda Xorasan birdən üsyan qaldırdı, hər bölgədə bir başçı meydana çıxdı və heç kim bir fərman yerinə yetirmək istəmirdi. Gürgan tərəfdən Xarəzmşah Məhəmməd Rəhim xan böyük qoşunu ilə gəldi və darmadağın oldu. Atlısı da, atı da, qatırı da – hamısı tələf oldu və onların sümükləri Ürgəncin və Xəyuqun yol göstəricilərinə çevrildi. Yenə Xacə Qaşğari ağızlarından qan qoxusu gələn əlli min türk əggəri ilə Gürgan çölündə peyda oldu. Mənim babam Məlikara Məhəmmədqulu Mirzə o qoşuna qalib gəldi, Xacə də döyüş meydanında öldürüldü.

Digər tərəfdən Osmanlılar İraqi-Ərəbə hərəkət edərək qoşunu İranın sərhəddinə gətirdilər. Məhəmməd Əli Mirzə Kirmanşah və Ərdəlan alayları ilə irəliləyib o güclü qoşunu məğlubiyyətə uğratdı. O biri yandan Fəth xan Əfqan qırx min seçilmiş süvari ilə üzünü Xorasana tutdu. Şücaüssəltənə Həsən Əli Mirzə və sərdar Zülfüqar xan Damğani onun qarşısına çıxıb həmin orduya qalib gəldilər. Qəribədir ki, şahənşahın nəvəsi, Etizadüddövlə İbrahim xanın böyük oğlu Abbasqulu Mirzə Kirmanda üsyan qaldırdı və ordusunu Yəzdə çəkdi. Oradan məğlubiyyətlə ayrıldı. Ayağını Əlbürz dağı kimi möhkəm yerə basan və heç kəsdən qorxmayanlardan olsa da, ağıl ilə qılıncın qarşısında davam gətirə bilməyərək məmləkəti boşaltdı. Burada sözümü bitirirəm.

## Naibüssəltənə

Rus dövləti ilə sülh bağlanandan sonra Təbrizə gəlib dava vaxtı dağılmış binalarla məşğul oldu. Xorasan və İraq fitnələri şahənşahı Naibüssəltənəni sarayına çağırıb İran məmləkət-

lərindəki işləri nizama salmağı tapşırmağa vadar etdi. Vəliəhd min iki yüz qırx altıncı ildə[1] şahənşahın dərgahına üz tutdu.

## Hekayət

Cahangir Mirzə yazır ki, bu səfərə çıxanda Naibüssəltənın bircə dinarı da yox idi. Qaimməqam Mirzə Əbülqasım vəliəhdi yolda müşayiət edən ordunun ümumi xərcinin əlli min tümən olduğunu göstərir. Çarəsizlikdən Azərbaycan vilayətinin hakimlərini vəzifədən ayırıb onların öz məqamlarında qalmaları üçün bir məbləğ təyin etdilər. Pulu aldılar və ordunu hazır vəziyyətə gətirdilər. Bundan sonra Naibüssəltənə Həzrət Vilayətin yanına getdi. İlk olaraq Yəzd fitnəsini aradan götürməyə və Əbdürrza xanın qarşısını almağa məmur oldu. “Gözüm üstə” deyib qəbul etdi. Oradan Kirmana getdi. Şücaüssəltənənin səlahiyyətini əlindən aldı. Şahənşah İsfahana gəldi. Naibüssəltənə orada atasının pabusuna[2] gəldi. Şahənşah Xorasanın hakimlik sənədini verdi. O tərəfə irəliləyib Səbzvara yetişdi. Oranın hakimiyyətini öz oğlu Qəhrəman Mirzəyə və vəzir yerini Məhəmməd Rza xan Fərahaniyə tapşırıb Rzaqulu məsələsindən ötrü Xəbuşana yola düşdü. Rzaqulu xan Sultanmeydan qalasını boşaltdı və Naibüssəltənə müqəddəs Məşhədə gəldi.

İspəhbüd* atam orada məni Astrabad və Türkman alayları ilə çağırdı və Rövzeyi-Rəzəvidən (ə) icazə alıb Quçana getdi. Möhkəm Əmirabad qalasını mühasirəyə alandan sonra ispəh-büd* on min nəfər kinli əsgərlə yetişdi. Böyük hörmət gördü. Qəbul vaxtı keçmiş padşahdan başqa özünün bütün oğullarına üstün gəldi.

## Hekayət

İspəhbüd buyurdu və xüsusi hörmətlə Naibüssəltənənin adını çəkib dedi ki, əgər o sağ qalsa və padşah olsa, mənim gör-

[1] Miladi təqvimilə 1830/31
[2] Pabus – ayaq öpmə, qəbul.

düyüm xidməti bir ilə bərbad etməz. Bir gün biz bütün əmirzadələrlə bərabər vəliəhdin haramsarasında süfrə arxasında yığışmışdıq. Əyləşdiyimiz vaxt yaşda məndən bir il böyük olan Bəhram Mirzə[1] yanımdan keçib oturdu. Naibüssəltəni üzü qızarmış gördüm. Axıradək bir kəlmə belə söyləmədi, halbuki başqa günlərdə süfrə arxasında həmişə söhbət edərdi. Ondan bir neçə gün keçdi və o, Bəhram Mirzəni çağırdı. Biz həmişəki qayda üzrə sıraya düzülmüşdük və Naibüssəltənə bir neçə xüsusi xidmətçisi ilə irəli gəldi. Onda ilk dəfə ohəzrətin öz oğlunu taziyanə ilə başından və əllərindən döydüyünü gördüm. Nə olduğunu bilmədik. Ardınca öz yerinə getdi. Bundan sonra onu iki gün Naibüssəltənənin hüzurunda görmədik. Bir gün atlarımızı çaparkən qaimməqam dedi: "Heç Bəhram Mirzənin o taziyanələri sənə görə yediyini bilirsənmi?" Dedim: "Yox". Dedi: "Orada olmuş Biçən bəydən soruş". Soruşdum. Dedi ki, Naibüssəltənə dedi: "Sən niyə o gün Sahibi-ixtiyardan yuxarı yerdə oturdun?" Dedi: "Mən ondan bir yaş böyükəm və sənin ikinci oğlunam". Buyurdu: "Sənin yaşca böyük və mənim oğlum olmağının bu işə nə dəxli var? Yuxarı başa çıxmaq üçün bir baş lazımdır, bir də qılınc. Atamın böyük qardaşı var, adı da şahənşahlar nəslindəndir. Deməli, o, vəliəhd olmağa layiq idi. Bu cavan onun qorxusundan yata bilməyən otuz min türkman evinə hökmranlıq edir, bütün Mazandaranla Astrabad da onun əmrinə tabedir. Adlı-sanlı atası var". Bəhram Mirzə dedi: "Mən belə biabırçılığa razı olmaram". Qəzəblənib o taziyaları vurdu.

Maraqlıdır ki, bu Bəhram Mirzə Azərbaycana hakimlik edirdi. Ona bir işim düşmüşdü. Müraciət etdim. Demişdi ki, "Mən onun atasının açıqürək olduğu xətrinə öz atamdan beş taziyanə yedim. Qoy hərəsinə görə beş tümən versin, mən də onun işini yoluna qoyum". Ba da onun sadəlövlüyündən irəli gəlmişdi. *Son.*

Naibüssəltənə Quçana gedib oranı aldı. Rzaqulu xan bütün üsyançıların cəzasını verdi və heç asi qalmadı. Hicrətin min iki yüz

[1] Bəhram Mirzə – Abbas Mirzənin Müizzüddövlə ləqəbli ikinci oğlu.

qırx dördüncü ili[1] gələndə Böyük Xaqan Naibüssəltənəni xilafətin astanasına çağırdı. Həzrət padşahın yanına yetişib çox yaxşı münasibət gördü və Heratın işini birdəfəlik çözmək üçün Xorasana qayıtdı. Kalpuşa gəlib İspəhbüdü qəbul etdi. Naibüssəltnə buyurdu: "Evinə get, mən oraya qonaq gələcəyəm". İspəhbüd qayıtdı. Biz həmin vaxt Kəbudcamə bölgəsindəki radəkan adlı kənddə və dağda qonaq idik. Havası xoş və səfalı yerdir. Mənim on yaşım var idi və yaxşı yadımdadır ki, ispəhbüd* belə qonağa layiq olan hər şeyi hazır etməyiş tapşırmışdı. Naibüssəltənə bir dəstə hərbçi və məiyyəti ilə gəldi. Xatırlayıram ki, daxili evə girib biz uşaqları kənara çəkdi və mehribancasına bizimlə danışdı. Qardaşı oğlu olduğu anamı çağırıb ayağını ovxalamaq üçün kənarında qoydu. Bu böyük mərhəmət idi. Atam seçilmiş atları, dağ boyda dəvələri, qızılla işlənmiş pul kisələri və Kəşmir palazları ona peşkəş edib sarayın bütün əyanlarına da pay verdi. Dedi: "Bu ziyafətə otuz min tümən xərclədim".

Günbatana yaxın getdi, çünkiordugah yaxın yerdə idi. Sipəhbüdə* payızın əvvəlinədək hazır ordu ilə Herinin* qapısına yetişməyi əmr etdi.Məşhədə gələndən sonra bir neçə gün asudə qaldı və min iki yüz qırx doqquzuncu ilin cümadiül-axirin doqquzunda[2] [əcəl] fərmanı yetişdi. Allah ona rəhmət eləsin![3]

## Naibüssəltənənin Təbrizin daxilində və xaricində inşa və təmir etdiyi tikililər

1. Arazın sahilində Abbasabad qalası.
2. Dağılmış Ərdəbil qalasının təmiri.
3. Təbriz qalasının ikinci Şirhacı qalası (?).
4. Əcdadımız Məhəmməd Həsən xanın iranlıların qaydası ilə tikdirdiyi Xoy qalasının təmiri. Naibüsəltənə divarı və torpaq istehkamını həndəsə qanunlarına müvafiq əlavə etmişdi.

---

[1] Miladi təqvimilə 1833
[2] Miladi təqvimilə 24 oktyabr 1833
[3] Abbas Mirzə 47 yaşında Məşhəd şəhərində böyrək xəstəliyindən vəfat etmişdi. Onun məzarı İmam Rzanın (ə) hərəmindədir.

5. Xoyda dağıntıları indi də qalan (mən onu görmüşəm) mahud istehsalı müəssisəsi.
6. Arazın sahilində, Qaracadağda Kordəşt qalasının təmiri.
7. Qış fəslində Ərdəbil yolunda müsafirlər üçün çox faydalı olan Əqəbeyi-Sayın karvansarasının təmiri.
8. Təbriz darüssəltənəsinin sarayları.
9. Bu kitabda haqqında yazılmış Baği-şimal.
10. Şəhərin şimalında olmuş Baği-səfa. Mən onu dəfələrlə görmüşəm. Bütün dünyada onun kimi az yer tapılardı. Hələ on il bundan qabaq abad bir məkan idi. İndi ondan heç əsər-əlamət də qalmayıb.
11. Şəhərdən kənar, cənub istiqamətində barıt istehsalı müəssisəsi.

## Firidun Mirzə

Naibüssəltənə Xorasana məmur olduğu il bu şahzadəni Təbrizə hökmdarlıq etməyə qoydu, əmiri-nizam* Məhəmməd xanı isə ordu başçısı yerinə təyin etdi. Şahənşah da İsfahandan göstəriş göndərdi. Bu əmirzadə günahları bağışlanmış vəliəhdin beşinci oğlu idi. Sözünün qədrini bilən, zirək, özünü ağır aparan və hökm verməyi bacaran adam idi. Naibüssəltənə vəfat edənə qədər ki, ondan sonra qazi padşah Məhəmməd şah Xorasandan həzrət xilafətin yanına gələrək vəliəhdliyə yetişdi və Təbrizə gəldi, həmin yeri tutmuşdu. Həmin hadisə hicrətin min iki yüz qırx doqquzuncu ilində[1] baş verdi.

## Məhəmməd Mirzə

Vəliəhd adı ilə Təbrizə gəldi və hakim oldu. Böyük Xaqan Allahın rəhmətinə qovuşandan sonra[2] vəliəhd darülxilafətə get-

[1] Miladi təqvimilə 1833
[2] Böyük Xaqan Fətəli şah 66 yaşında vəfat etmişdi. Hökmdar olduğu 38 il ərzində min nəfərdən çox qadınla evlənmişdi və onlardan 260-a yaxın oğlan və qız uşağı dünyaya gəlmişdi. ("Nasixüt-təvarix").

di. İkinci dəfə Firidun Mirzəni hakimiyyətə gətirdi. Bu padşah Naibüssəltənənin böyük oğludur. Padşahlardan söz açdığımız yerdə həmin qazi şəhriyar haqqında deyiləcəkdir.

## Firidun Mirzə

Qəhrəman Mirzə padşahın fərmanı ilə Xorasandan darül-xilafətə gəlib Azərbaycanın hakimi yerinə yüksələnədək ikinci dəfə Təbrizə hökmranlıq etdi.

## Qəhrəman Mirzə

Naibüssəltənənin altıncı oğlu. Padşahla bir anadan olub. Hicrətin min iki yüz əllinci ilində[1] Təbrizə gəldi. O şahzadə gözəl və səxavətli bir cavan olmuşdu. Onun hakimiyyəti vaxtında Təbrizə gəldim, çünkü ispəhbüd* atam orada idi. Qəhrəman Mirzə bir padşah kimi hökmdarlıq edirdi. Məmləkətin malından istədiyi şeyi bağışlayardı və bir kəsə məvacib ya mənsəb verəndə padşahın imzasını alardı. Haqq-ədalətlə hökm sürərdi. Min iki yüz əlli yeddinci ildə[2] dünyadan köçdü. Ömrünün sonunda huşsuzluq və zəiflik mərəzinə düçar olmuşdu. Bu şahzadə Təbrizin gözəl və cavan oğlanlarından bir nizami dəstə yaradıb adını Qəhrəmaniyyə qoymuşdu. Həmin qoşunun başçısı vəzifəsinə Əbülfəth xan Cavanşirin oğlu Məhəmməd Əli xanı, yavəri yerinə isə kiçik qardaşı Məhəmmədqulu xanı təyin etmişdi.

## Bəhmən Mirzə

Padşahın böyük qardaşı, Bürucərdin və Həmədanın hakimi idi. Azərbaycanın hökmdarı yerinə təyin edilib Təbrizə gəldi[3]. Öz kiçik qardaşı və dünya padşahından fərqli olaraq həddindən

---

[1] Miladi təqvimilə 1833/34

[2] Miladi təqvimilə 1840/41

[3] Bəhmən Mirzə kitabsevər adam olmuşdu. Onun təşviqi ilə çoxlu kitab yazılmış və ya çap olunmuşdu. Özü “Təzkireyi-Məhəmməd şahi” əsərinin müəllifi olmuşdu.

ziyadə xəsis adam idi və bütün tacirlər kimi çox bəsirətli olmuşdu. Hökumət işindən yaxşı baş çıxarardı və rəiyyətlər ondan razı idilər. Təbrizdə bir çox pis adətə son qoymuşdu. Onun dövründə ucuzluq olub və bütün yerlərdə dincliklə əmin-amanlıq hökm sürürdü. Ancaq hicrətin min iki yüz altmış ... [yazılmayıb] ilində onun düşməni olan Hacı Mirzə Ağasi həzrət padşahın yanında onu pisləyərək üstünə böhtan atmışdı. Guya o, Kə'bəyə getmiş Asəfüddövlə Allahyar xanla gizli görüşlər keçirib tədbir görmüşdü ki, Həsən xan Salar Xorasanda üsyan qaldırsın və o, Azərbaycanda çaxnaşma salıb padşah olsun.

Allah bilir ki, o şahzadənin bu işdə heç bir günahı olmamışdı. Mən Təbrizdə idim. Məlumatlı adamlardan eşitdim ki, Asəfüddövlə bu sözü ona deyərək tamaha salmağa çalışmışdı, ancaq o belə demişdi: “Mən öz böyük qardaşıma xilaf çıxmaram və bu cür işlər görənlərdən deyiləm”.

Belə qorxu yaradan xəbərlər çatandan sonra dostları ona deməyə başladılar ki, “Xosrov xan Gürci Azərabadəganın məmurudur. O, sənin əl-qolunu bağlayıb darülxilafətə göndərəcək”. Xosrov xan vali yerini tutmaq üçün Sənəndəcə getmişdi. Hacı Mirzə Ağasi ona dedi: “Xəmsə yolu ilə getmək lazımdır. Bəlkə Bəhmən Mirzə qorxub qaçar”. Belə də getdi. Xan Zəncana gələn kimi şahzadə bir neçə süvari ilə Təbrizdən qaçıb bərbad yollarla darülxilafətə yetişdi. Padşah onu hörmətlə qarşıladı. Bir az dincəldi. Ancaq Hacı yenə onu qorxuya saldı və bir gün rus səfirliyinə gedib o dövlətə pənah apardı. Həmin hadisə hicrətin min iki yüz altmış ikinci ilində[1] baş vermişdi.

Rusiya imperatoru onu qəbul etdi. Hacı Azərbaycanın haqq-hesabını bəhanə gətirib vəziri-muxtarın naibi dəftərxanaya gələnədək bir neçə gün orada qaldı. Gilan yolu ilə Qarabağa getdilər. Orada məskən saldı. Dövlətdən ona illik on beş min İran tüməninə bərabər olmuş otuz min rus gümüş manatı təyin edilmişdi və hər il başqa məqsədlər üçün əlavə pul da alırdı. Qışı

[1] Miladi təqvimilə 1846

Şuşa qalasında, yayı isə yaxınlıqdakı kənddə keçirərdi. Orada qonaqlar üçün çox yaxşı evlər də tikilmişdi.

Bu şahzadənin yüz nəfərdən artıq uşağı və nəvəsi var. Oğullarından bir neçəsi hərbçi olublar. Rzaqulu Mirzə adlı birisi süvarilər ordusunda hamıdan çox irəliləyib. Onun anası mənim xalam idi. Qocalıq şahzadəni artıq haqlayıb və o, yetmiş beş yaşında ikən kənara çəkilib[1]. Rzaqulu xan və Sipəhr öz tarix kitablarında o kişini bir asi kimi göstəriblər, amma bu əsassız sözdür. Buradan bilinir ki, bizim tarixyazanalarımıza etibar etmək olmur. Elə yazıblar ki, padşahın xoşuna gəlsin. Bəhmən Mirzənin bir yerə pənah aparmaqdan başqa hansı yolu olmuşdu? İranın vəziri onun qanına susamışdı, padşah ona sonsuz iltifat göstərirdi. O yandan da Xorasanda ara qarışmışdı. Şübhəsiz ki, başına bir bəla gələcəkdi, yoxsa Bəhmən Mirzə özünü ağır aparan, hörmət və dövlət sahibi, rahatlıq tələb edən və övladsevər bir kişi idi. Mən onun bu işinə heç etiraz etmərəm. Təkcə o pisdir ki, otuz beş ildir Qarabağdadır, ancaq heç yasaq qoyulmasa da, nə həccə gedib, nə də İraqdakı mübarək şəhadət yerlərini ziyarət edib. Bizim dinimizdə əcayib bir işdir. Bu sözü mən müşahidəm əsasında yazmışam. Əslində, fərzləri nə səbəbə görə yerinə yetirməməsini Allah bilir.

## Hekayət

Azərbaycanda şahənşahın hakimiyyəti günlərində Təbrizin lotu-potuları bir bəhanə əldə tutub erməni məhəlləsinə hücum etdilər və xaçpərəstlərin evlərini qarət etməyə başladılar. Bir neçə ev soyğunçuluğa məruz qalan kimi vəziri-nizam* Mirzə Təqi xan, bəylərbəyi Məhəmməd xan, kədxudalar və çoxlu hərbçi ermənistan məhəlləsinə girib adamları min bir zəhmətlə oranın küçələrindən çıxartdılar. Böyük qovğa baş vermişdi. Vəziri-nizam səy göstərməsəydi və mülki nazir Nəsirülmülk yumşaq

[1] Bəhmən Mirzə 76 yaşında Şuşa şəhərində vəfat etmişdi.

davranmasaydı, işi İranın adının batırılmasına gətirib çıxaracaqdılar.

Mən o həngamədə sarayda idim və orada eşitdim ki, çoxlu araqarışdıran bir yerə toplaşıbdır. Həmin yerə getdim. Meydan, dəftərxana və divanxananın iç həyəti avam və avara adamlarla dolu idi. Şahəhşah üzünün rəngi qaçmış halda eyvanda oturmuşdu, adamlar isə hərəsi bir işə məşğul idi. Bir neçəsihovuzdan su alıb içirdi. Bəziləri qışqırıq salırdı. Bir dəstə adam isə kölgədə oturub fəryad çəkirdi ki, "Qoy bizə icazə versinlər ki, xaçpərəstləri parça-parça eləyək!" Padşah buyurdu: "Bu gün burada qalın. Mən xilaf çıxan bütün xaçpərəstləri sabah dar ağacından asaram". Harada idi onu eşidən o qulaq?! Sözün qısası, gün batana yaxın bu fitnə yatırdıldı və ermənilərin iyirmi qapı[1] evi tar-mar edildi. Sonra vəziri-nizamı* gördüm, paltarın ətəyi kəmərə bağlanmış halda, toppuz əlində, atın belində. Bizim sarayımız ermənistan məhəlləsi ilə yanaşı olub.

Bəhmən Mirzə işləri xarablayandan sonra padşah İranın vəliəhdi

**Nasirəddin Mirzə**ni

Azərabadəgana göndərdi. Böyük təmtəraqla Təbrizə gəldi. Adamtanıyan və xoşxasiyyət bir kişi olmuş Mirzə Fəzlüllah Əliabadini vəzir yerinə qoydu və ona Nəsirülmülk deyərək xitab edərdilər. O yaxınlarda Ərzurumdan dərgaha getmiş vəziri-nizam* Mirzə Təqi xan Təbrizə gəlib ordu üzrə vəzir oldu. Vəliəhd diqqətlə və dəqiqliklə hökmdarlıq edirdi. Mən Təbrizdə idim. O həzrət günortayadək ziyafət verdi. Gecə də nədimlərlə şairləri çağırdı. Axırda onu ağlamaq tutdu və Məhəmmədiyyə qəsrində bu dünyadan ayrıldı. Vəliəhd darülxilafətə yollandı və hicrətin min iki yüz altmış dördüncü ilində[2] Böyük Xaqanın oğlu

---

[1] Burada "qapı" sözü numerativ mənasında işlənibdir.
[2] Miladi təqvimilə 1848

**Məlik Qasım Mirzə**ni

Fərmanfərma ləqəbi ilə Azərbaycana hakim təyin etdi. Bu şahzadənin anası Əfşarlardan və Urmiya bəylərbəyləri ailəsindən olmuşdur. Ömrün əvvəlindən kiçik qardaşı Məlik Mansur Mirzə ilə Naibüssəltənənin yanında xidmət edərdi. Hündürboy, cüssəli və dilli-ağızlı bir cavan idi. Fransızca və ingiliscə mahnı oxumağı yaxşı öyrənmişdi. Bunu o zamankı iranlılardan heç kim bacarmazdı. Böyük qardaşının yanında da hörməti var idi. Naibüssəltənənin uşaqları ona Xanəmi deyərdilər və bu ləqəbi öz adına qalib gəldiyinə görə hamı onu belə çağırardı. Onun Marağanın Dizəcrudunda kəndləri var idi. Şəha gölünün sahilindəki Şişəvan adlı kənddə evlər, bağlar və hamamlar inşa etmişdi, hamısı hündür və rahat. Mən onların hamısını dəfələrlə görmüşəm. Bir qülləli geniş sarayı fərsənglərlə* yaşıllıq əhatə edirdi. Onun kimi köşk dünyada tapılmazdı. Həmin şahzadə Şişəvanın sahilindən beş fərsəng* aralı yerləşən Xəncəst gölünün adalarından birində başqa bir imarət tikdirmişdi. Buraya keçən çağlarda erkək və dişi arxarları gətirmişdilər və indi bu adada onların sayı beş mindən artıqdır. Mən iki kərrə həmin yerə getmişəm.

## Şəha adası haqqında

Bu adaya türklər Qoyun adası, yəni "cəzireye-qusfənd" deyərlər. Yeddi fərsənglik* dairə şəklində olan və bütövlükdə dağ sərvi ağacları ilə örtülmüş bir dağ parçasıdır. Mənim həmin adanı gördüyüm

## Birinci dəfə

Xanəminin dövrünə təsadüf edir. Mən gənc bir oğlan idim. İbrahim xan Etizadüddövlənin oğlu və mənim əmioğlum Abbasqulu Mirzə Təbrizdə idi. Onun ov həvəskarı olduğunu hamı bilirdi. Xanəmi adaya getmişdi. Biz də Fərmanfərmanın istədiyi bütün alətləri götürüb getdik. Şişəvana çatıb oradakı evdə qaldıq.

Yemək-zad – hər şey hazır olmuşdu. Payız mövsümü idi. Xanəminin əmri ilə gölün sahilində kiçik bir gəmi qayırmışdılar. Onu suya saldıq. Səhər gəmiyə mindik. Külək müvafiq olduğuna görə günortadan öncə tərsanəyə çatıb lövbər saldıq. Dənizçilər gəmidə çörəkdən, düyüdən, yağdan nə var idisə, hamısını sahilə daşıdılar. Bir neçə çadırımız var idi, fərraşlar qurdular. Cəmi on dörd nəfər idik: biz, dənizçilər və quşçu[1]. Ov itlərini də gətirmişdik. Bir az dincəldik və ayaqla ova çıxdıq. Dənizçilər də gəldilər ki, bəlkə adadakı vəhşi atları tuta bidlilər.

O gün işimiz baş tutmadı. Sürüylə gəzən qoyunları və dağ keçilərini ovlaya bilmədik. Bu dağdakı bütün daşlar iti olduğundan başmaqlarımız yırtıq-yırtıq olmuşdu. Axşam gəmiçilər gəldilər. Arxalarınca ipə bağlanmış arıq bir at gətirdilər. Üstünə yəhər qoyub mindilər. Bir balaca ram olan kimi gecə çadıra yaxın bir yerdə iplə bağladılar. Sonra yatdıq. Səhər at kəndiri qırıb yəhərlə bir yerdə qaçdı. Bizim də başmaqlarımız yox idi. Bizim adamlardan bir neçəsi gedib öküzü tüfənglə vurdular və dərisini soydular. O gün başmaq düzəltdilər. O öküzlər, erkəyi də, dişisi də, lap vəhşidirlər. Sürü ilə gəzirlər və heç cür ram olmurlar. Adam görən kimi üstünə cumurlar. Hətta buynuzları ilə ağır yaralaya bilərlər.

Səhərisi Fərabənd adlı yerə getdik. Bir fərsənglik* yoldur. Orada dar bir yol var və qoçlarla qoyunlar oradan keçməlidirlər. İki-üç nəfər dağa çıxıb hay-küy saldılar. O yazıqlar da sel kimi axışdılar, min başdan da artıq olardı. İtləri üstlərinə buraxdılar və tüfənglə vurduq. On beş baş ovladıq. Gəmini gətirdilər. Ovu anbara aparıb qoydular. Sonra arxasınca gələn başqa gəmiyə də yükləyib Təbrizə apardılar. O biri gün biz gəmiyə mindik. Hava münasib deyildi. Gecəni suyun üzərində başa vurduq və sahilə çatdıq.

Bu adada canlılardan həmin ovladığımız heyvanlar, quşlardan kəklik, qartal və sağsağan, həm də vəhşiləşmiş inəklər, atlar və uzunqulaqlar olur. Ondan başqa daha heç bir uçan və ya göv-

---

[1] Quşçu – quş ovuna rəhbərlik edən şəxs.

şəyən heyvan yoxdur. Su üç yerdədir. Biri Xanəminin əmri ilə qazılmış kəhrizdir. Onun quyularındakı su şirindir. Digəri daşların arasındakı çatlardan axan sudur. Daha bir bulaq gölün yanındadır. Adı çəkilən bu üç su qaynağından əlavə çox dadlı yağış suyu da daşların üstündə yığılır.

## İkinci dəfə

Hicrətin min iki yüz altmış ... [yazılmayıb] ilində, Həşəmətüddövlənin hakimlik dövründə baş vermişdir. Süleyman xan Əfşar Hacı Mirzə Baqir Müctəhidi, şeyxülislamı və oğlunu darülxilafətə yollamaq üçün həzrət xilafət tərəfindən Təbrizə ezam olunmuşdu. İş bitdi və getmək qərarına gəldi. Marağa yolu ilə Şişəvana getdik. Fərmanfərma [da bizimlə] idi. Gəmi ilə adaya çatdıq. Üç gün orada qalıb ləzzətli ov etdik. Xanəmi özü şikar həvəskarı olduğuna görə ov üçün lazım olanların hamısını, o cümlədən şahinləri, xüsusi öyrədilmiş itləri və mahir quşçunu özü ilə aparmışdı. Oradan geri qayıtdıq. Süleyman xan Reyə getdi, mən isə Təbrizə gəldim.

## Arzu adası

Həmin göldə daha iki ada vardır. Biri kiçik, adına Arzu deyərlər, adı çəkilən adaya yaxındır. Gözəl ağaclıqları və çəmənlikləri olan bu adanın şirin suyu yoxdur. Başqası

## Eşşək adası,

yəni “cəzireye-derazquş”. Bu ada Qoyun adasından iki dəfə böyük olar. Şirin suyu və gözəl çəmənlikləri var. Urmiya bölgəsinə aiddir. Qışda Urmiyadan qoyun sürülərini gətirəndə buralar qışlağa dönər. Bu iki adada kəklik çoxdur və bədənləri dağ kəkliklərindən iridir. Hələ Urmiya camaatı onların içindən erkəkləri seçib döyüş üçün hazırlayarlar. *Son.*

## Həşəmətüddövlə Həmzə Mirzə

Nəvvab Naibüssəltənənin iyirmi birinci oğludur. Sabiq padşahın taxta əyləşməsindən bəri sarayda idi. Qəzdə* və Heratda xüsusi dəstənin başçısı olmuş, Qəzvində və Xəmsədə hakimlik etmişdi. Xorasan fitnəsi zamanı sipah sərdarı və o məmləkətin valisi oldu, Həsən xan Salarla üz-üzə gəldi və zəfər çaldı. Xorasanı üsyançılardan təmizlədi. Salar Türkmanın Qaraoğlanına pənah apardı. Qazi padşah dünyadan köçəndən sonra Xorasan yenidən ayağa qalxdı. Salar Məşhəd şəhərinə gəldi. Həşəmətüddövlə öz ordusu ilə ərkdə oturub gözləyirdi. Yarməhəmməd xan Əfqan onun imdadına gəldi. Padşahın ordusu ilə topxanasını həmin şahzadənin rəhbərliyi ilə Heriyə* gətirdi. Dünya padşahı şahlıq taxtına əyləşdi. Naibüssəltənənin oğıu Sultan Murad Mirzə Xorasana başçı getdi. Şahzadə Heratdan paytaxta tərəf irəlilədi. Həzrət padşah ona böyük hörmət göstərdi. Xilafətin hökuməti ona “Həşəmətüddövlə” ləqəbini və əmirlik nişanını verdi. O, Azərbaycanın başçısı vəzifəsini tutmaq şərəfinə nail oldu və müstəqil şəkildə hakimlik etdi.

O çağlarda böyük Atabəy Mirzə Təqi xanın qardaşı Mirzə Həsən xan vəziri-nizam* vəzifəsinin sahibi olmuşdu və hər işə əli çatırdı. Qardaşının ayağı büdrəyəndə Mirzə Ağaxan Nuri vəzir oldu və böyük qardaşı Mirzə Fəzlüllahı vəziri-nizam yerinə göndərdi, Mirzə Təqi Qəvamüddövlənin oğlu Mirzə Məhəmməd Aştiyaniyə isə atasının ləqəbini verib Azərabadəganın maliyyə vəziri vəzifəsinə təyin etdilər.

Bir gün Həşəmətüddövlənin hüzurunda söhbət bilikdən düşdü. Mənim əmioğlum olmuş İbrahim xan Etizadüddövlənin oğlu Xosrov xan ona dedi: “Heyf ki, sənin kimi məlikzadə adam ədəb elmindən xəbərsizdir, amma sənin başqa qardaşların alimdirlər və sən onların söhbətlərini dəyərləndirə bilmirsən”. Buyurdu: “Mənə müəllim lazımdır, ancaq nədim kimi bəzi şeyləri öyrədən mədrəsə müəllimi səviyyəsində olmasın”. Xosrov xan dedi: “Mənim əmioğlularım arasında cavan bir alim var” və mənim adımı çəkdi. Buyurdu: “Lap yaxşı”. Mən öz evimdə idim

və heç nədən xəbərim olmamışdı. Bir məktub gətirdilər. Orada üç yüz tümənlə iyirmi xarvar[1] buğdadan yazılmışdı və məni nökər adı ilə aparmadılar (?). O vaxtdan mən çox hörmətli və tanınmış adam oldum və həmin böyük şahzadənin xidmətində qaldım. Birdən Azərbaycandan darülxilafətə xəbər çatdı ki, "İspəhbüd atan əbədi dünyanı seçdi". Nəslin böyüyü mən olduğuma görə çarəsiz qalıb Təbrizə getdim. Ondan sonra bir daha o böyük adamı görmədim. *Son.*

Həşəmətüddövlə həmin iki nəfərlə hökmranlıq edirdi və bu ad ona yaraşırdı, çünki vəziri-nizam İranın baş vəzirinin qardaşı idi, Qəvamüddövlə də qürurlu kişi olmuşdu və bütün mal-mülk onun əlində idi. Həşəmətüddövlə işi əyri getməyə başlayanda hicrətin min iki yüz ... [yazılmayıb] ilində dünya padşahı ilə Sultaniyyə çəmənində görüşə gəldi. Həşəmətüddövlə Təbrizin bütün əyanları və həmin iki vəzirlə bir yerdə o qülləyə (?) getdilər. Padşahın əmri ilə pərdə işin üstündən çəkildi və nəticədə vəziri-nizam* və Qəvamüddövlə ikisi də vəzifədən çıxarıldı. Həşəmətüddövlə isə zahirdə qüdrəti ilə səlahiyyətini itirməyib Azərbaycan hökumətinin başında qaldı.

Mən Qədir-xum bayramı günü yazılı əmrləri aparmaq üçün Təbrizə ezam olundum. Zəif bir atla bu müjdələri çatdırıb Xalxalın Ağkəndinə qayıtdım. Həzrət Həşəmətüddövləyə baş çəkdim. Gecə dedi: "Bu işin axırı nə olacaq?" Dedim: "Görünür ki, İranın baş vəzirinin qardaşını incitmisən. O baş məmur da ürəyinə sənə qarşı kin salıb. İşləri xarab etməyənədək əl çəkən deyil". O böyük bir müddət başını aşağı salıb fikirləşdi. Bacısı oğlu da orada idi, birdən dedi: "Bu boş söhbətdir. şahənşahın gözü həmişə Həşəmətüddövlənin üstündədir. Padşahın anası Məhd Ülyada onun tərəfini saxlayır". Həşəmətüddövlə buyurdu: "Sən bu işin dərinliklərinə varmamısan. Filankəs düz deyir. Daha çarə əldən getdi".

Gəldik. Altı ay keçmədi ki, baş vəzir padşahın rəyini dəyişdirməyə nail oldu. Həşəmətüddövləni çağırdılar və Qaimməqam

---

[1] Xarvar – çəki vahidi, təqribən 300 kq.

ləqəbli Nüsrətüddövlə Firuz Mirzə, yanında köməkçisi Mirzə Sadiq, Azərbaycana gəldilər.

## Nüsrətüddövlə

Naibüssəltənənin on altıncı oğludur. Çox cəld və ağıllıdır. Təbrizə gələndə hökmdardan Qaimməqam ləqəbini aldı. Baş vəzirin qardaşı oğlu, olduqca igid və işini bilən adam idi. Nüsrətüddövlənin bir işi olmamışdı, ancaq həzrət şahənşahdan əsinti ona çatandan sonra qürurlandı və əmisi ilə açıq-aşkar kobud rəftar etdi. Saraya getdi. Vəzir onu yıxa bilmədi, çünki şahənşahın ondan ürəyi gedirdi. Böyük təmtəraqla Azərbaycana gəldi. Mən də onunla idim. Mən Türkmançaya[1] çatanda Təbrizdən xəbər gəldi ki, Nasiriyyə dəstəsi üsyan qaldırıb öz alaybaşını qovdu və hal-hazırda hərbi qışlaqda toplaşıb. Qaimməqam sərtlik göstərərək yazdı ki, iki başqa dəstə bunları əhatə edib nişan alsın. Bu iş xalqın narazılığına səbəb oldu ki, hələ belə tənbehetməni görməmişdilər. Sədri-ə'zəm* məxfi surətdə Nüsrətüddövlə ilə görüşdü. Təbrizdə söz-söhbət oldu ki, Qaimməqam uşaqların ciyərini yeyir. Həkimlər belə deyirdilər. Çörək də azaldı. İş o yerə çatdı ki, adamlar ayağa qalxıb Qaimməqamı şəhərdən qovdular. Ondan sonra Mirzə Fəzlüllah hicrətin min iki yüz [yetmiş dördüncü] ilində[2] ikinci dəfə gəldi. Bir az keçdi və biçarə Nüsrətüddövləni Azərbaycandan yola saldı. Azərbaycan Rüknüddövlənin əlinə keçdi.

## Rüknüddövlə

Naibüssəltənənin doqquzunci oğlu idi. Ədəb-ərkanı, zəkası fəziləti və səxavəti ilə seçilən bir əmirzadə olub. Atasının dövründə də işin içində olmuşdu. Bu şahzadə hər sahədə bacarıq və

[1] Yəni Türkmənçaya. Azərbaycanın şimal hissəsinin Rusiya tərəfindən işğalını rəsmiləşdirən 1828-ci il müqaviləsinin imzaladığı yerdir. Marağa şəhərinə yaxındır.
[2] Miladi təqvimilə 1858

biliyə malik idi. Ərəb dilini, xüsusilə şeiriyyatı, dərindən öyrənmişdi. Hökmdarlığın və orduya başçılıq etməyin qaydalarını da yaxşı bilirdi. Ancaq badə içməyə çox meyilli idi. Ömrünün sonuna bir neçə il qalmış içkiyə elə alışmışdı ki, gecə də, gündüz də işi elə ondan ibarət olmuşdu. Bu ona heç yaraşan şey deyildi və ölümünə də səbəb oldu, çünki arağın acılığı qara ciyərinə çox ziyan vurmuşdu.

Rüknüddövlə hakimliklə ad qazanmışdı. Məmləkət işlərinə vəziri-nizam* və oğlu Mirzə Mustafaqulu baxardılar. Bu minvalla hicrətin min iki yüz [yetmiş beşinci][1]ilinədək Azərbaycanın hökuməti başında oturmuşdu. Şahənşah baş vəzirini vəzifədən ayırdı və vəziri-nizamı darülxilafətə apardılar. Müizzüddövlə Bəhram Mirzə, yanında Əziz xan Mükri, Azərbaycanın baş ordu əmiri yerinə gəldi.

## Müizzüddövlə

Naibüssəltənənin ikinci oğlu idi. Həşəmətli və ürəyi sadə əmirzadə olmuşdu. Atasının dövründə hərbçi və ordu əmiri olub, bəzən də hökumət işinə baxarmış. Qazi padşahın və dünya şahənşahının səltənəti çağında hökmranlıq edərmiş. Azərbaycana gələndən sonra bütün ordunun başçısı yerini aldı. Müizzüddövlə rahatlıqla hökmdar vəzifəsinin öhdəsindən gələrdi. Baş sərdar ki, ağıllı və dünyagörmüş adam idi, onunla ədəb qanunları çərçivəsində davranardı. Hicrətin min iki yüz yetmiş [yeddinci] ilində[2] şahənşah Azərbaycana gəlib gedəndən sonra baş sərdar həzrət xilafətin hüzuruna getdi. İran dövlətinin vəliəhdliyini böyük şahənşahzadə Müzəffərəddin Mirzəyə həvalə etdilər və həmin səkkizyaşlı şahənşahzadənin atabəyliyini ona tapşırdılar. Hacı İbrahim xan Şirazinin nəvəsi Mirzə Fəthəli xanı vəzir yerinə təyin edərək Azərbaycan məmləkətinə rəhbərlik etməyə yolladılar.

---

[1] Miladi təqvimilə 1859
[2] Miladi təqvimilə 1860/61

## Vəliəhd Müzəffərəddin Mirzə

Hicrətin min iki yüz yetmiş yeddinci ilində[1] Azərbaycanın hakimi olaraq Təbrizə gəldi. O həzrət azyaşlı olduğuna görə hökmdarın işini ordunun baş sərdarı Əziz xan görürdü və məmləkətin maliyyə məsələləri ilə də o məşğul olurdu. Hicrətin min iki yüz yetmiş səkkizinci ilində[2] həztət xilafətin adından ona vəliəhdliyi verdilər. Şahənşahla arvadı tərəfindən qohum olan Müşirüddövlə ləqəbli Yəhya xan fərmanı, xələt və vəliəhdlik nişanını Təbrizə gətirdi. Bayram etdilər və xələti geyindi. Sərdar vəliəhdin vəziri haqqında fərmanı gətirmişdi.

Məmləkətin işi elə bu minvalla gedirdi ki, vəzir vəzifəsini tutan sərkərdə Məhəmməd xan Qacar Dəvəlu hicrətin min iki yüz [səksən dördüncü] ilində[3] o xidmətdən azad edildi və Xorasanın hakimi yerinə yollandı. Onda sərdarı saraya çağırıb müdafiə vəziri etdilər. Bundan sonra Nüsrətüddövlə Firuz Mirzə işlər müdiri qismində Təbrizə gəldi. İl heç sona çatmamışdı ki, həzrət vəliəhdi darülxilafətə apardı, çünki sərdarın gözü Azərabadəganda qalmışdı və oraya öz tərəfindən bir canişin qoymaq istəyirdi ki, gizlicə məmləkətin işlərinə qarışa bilsin.

Nüsrətüddövlə bu səfərə öz hakimiyyətini möhkəmlətmək məqsədilə çıxmışdı. Gedib qayıtdı. Qaiməqam Mirzə Sadiq enib qalxdı, həvəsdən düşüb müdir yerinə keçdi və həzrət vəliəhdin məiyyətləri sırasında Təbrizə gəldi. O adamlar burada yenidən toplaşdılar. Kişinin qanı qara olmuşdu. Darülxilafətdə də yaxın dostları yox idi, ancaq şahənşahın özü ona xoş gözlə baxardı. Bu şəhərdə qaimməqam bir dəstə avam adamla sirdaş olmuşdu. Məhərrəmülharam ayında kiçik bir məsciddə şəhər alimlərinin iki dəstəsi arasında pis məqsədlə qalmaqal saldılar. Müridlər və araqızışdıranlar işi elə yerə gətirdilər ki, iblisin əməli ilə üç günahsız adam öldürüldü. Dünya padşahı hər iki tərəfin başçı-

---

[1] Miladi təqvimilə 1862/63
[2] Miladi təqvimilə 1863/64
[3] Miladi təqvimilə 1869/70

larını sarayına apardı.[1] Qaimməqam gözdən düşüb istefa verdi. Qəbul etdilər. Saraydan Müəyyidüddövlə Mirzə ixtiyar sahibliyinə gətirildi.

## Müəyyidüddövlə

Məhəmməd Əli Mirzənin ikinci oğludur. O şahzadə min iki yüz [iyirmi yeddinci] ildə[2] rəhmətə gedəndən sonra Müəyyidüddövlə böyük qardaşı Həşəmətüddövlə Hüseyn Mirzə ilə dil tapa bilməyib Naibüssəltənəyə üz tutdu. Burada o,ehtiramla qarşılandı və fəxri hədiyyələr aldı. Həşəmətüddövlə bir balaca həzrət Naibüssəltənənin qəzəblənməsinə bais olan kimi Böyük Xaqan onu tənbeh etmək qərarına gəldi. Bu səbəbdən Həmədanla Kirmanşanın hakimiyyət sənədini Təhmasib Mirzəyə verdi. Həşəmətüddövlə yuxudan oyanıb Böyük Xaqanın əmri ilə Təbrizə gəldi və hökmdar yerinə əyləşməyə nail oldu. Qazi padşah tac qoyana qədər şahzadə Azərabadəganda hörmət və izzət içində qaldı. Müəyyidüddövlə vəzifə alaraq Kaşan hakimi yerinə getdi. Orada bir müddət qalandan sonra guya Hacı Mirzə Ağasidən cana gələrək Dehxarqan bölgəsini özünə iqamətgah seçdi və Azərbaycana gəldi. Birazdan onu Marağanın Bənab qəsəbəsinə dəyişdirdi. Bəhmən Mirzə qarşısında kiçiklik etmək istəmədi və Azərbaycandan getməyə məcbur oldu. Padşah vəfat edənə qədər belə qaldı. Sonra şahənşah onun vəzifəsini böyüdərək Kirmanın, Farsın, Həmədanın, Xorasanın, Kirmanşahanın, Azərbaycanın, Sənə Ərdəlanın, Məlayirin[3] və Tuysərkanın hökmdarı etdi.

O, fəzilətli və dindar bir şahzadə olub. Heç vaxt özünü hörmətdən salmazdı. Min iki yüz iyirminci ildə[4] Qəzvində dünyaya

---

[1] Nadir Mirzənin bundan öncə rəvayət etdiyi Təbriz üləmalarının iki qismi arasındakı münaqişəyə işarədir.

[2] Miladi təqvimilə 1812

[3] Məlayir – Həmədanın cənubunda və Bürucərdin şimalında bir vilayətdir.

[4] Miladi təqvimilə 1805/6

gəlib min iki yüz doxsan altıncı ildə[1] darülxilafətdə öz vəsiyyətinə görə həzrət Əbdüləzim darvazasının önündə dəfn olunmuşdu. O şahzadənin vəfatı tarixini hal-hazırda xilafətin dərgahında Şəmsüşşüəra ləqəbi ilə məşhur olan əmim Sam Mirzə nəzmlə yazmışdı. Mən məzar daşında həkk olunmuş həmin tarixi burada göstərirəm ki, əmimdən bir yadigar qalsın.

**Şeir**

Məliksoylu və mələkköklü böyük şahzadə
O Müəyyid əminin taleyi Təhmasib mərtəbəsindədir.
Dövlətin şah sülaləsinin ən yaşlısı ki,
Kirmanşahan əyalətini xosrov ona tapşırdı.
Həm də Fətəli şahın birinci silsiləsindəndir.
Bağdad vilayətini ələ alıb və Şüştərə sədd çəkib.
Məhəmməd Əlinin atası olduğuna görə oğluna canla-ürəklə
Əli məhəbbətini və Mühəmməd sevgisini bəxş etmişdir.
Xosrov Qazinin dövründə onun əyaləti
Gah Oman sahilinə, gah da Məşhəd diyarına qədər uzanırdı.
Yetmiş neçə yaşında dünyadan köçəndə
Tanrı rəhmətinə qovuşaraq əbədi behiştə yollandı.
Rizvan qələmi ilə tarix barədə yazıb,
Yolun rəvan olsun, Müəyyid! Həmişə yaşa, Müəyyid! [2]

*Mən deyirəm.* Burada əmim bir məsələyə işarə edib. Şapur Şüştər şəhərinin yaxınlığında çayın üzərində bir sədd çəkmişdi ki, su o ərazidə yayılsın və camaat əkinçilik işlərində ondan bəhrələnsin. Həmin işin əhəmiyyətindən kitablarda dastanlar yazıblar. Zaman getdikcə o da viran oldu. Bu İsgəndər kimi əzmli və geniş ürəkli şahənşahzadə isə onu yenidən qurdu və bu işə çoxlu qızıl sərf etdi. İndi də yerində durur.

---

[1] Miladi təqvimilə 1879
[2] Son misranın farsca yazılışından Müəyyidüddövlənin vəfatı tarixi məlum olur.

Onun uşaqları olub və indi də vardır. Fəzilət ilə elm sahibi Əmirzadə Lütfəli xan Müəyyidüddövlə ailəsindən yaxşı bir yadigardır. O, hicrətin min iki yüz əlli altıncı ilində[1] paytaxtda anadan olub.

## Qayıdış

Şahənşahın əmri ilə Müəyyidüddövlə təcili surətdə Təbrizə gəldi, çünki bu şəhəri sarayda üsyançı kimi qələmə verib bədnam etmişdilər. O gələndə axşam çağı idi. Mən özüm əmirzadələrin sırasında dəftərxananın həyətində dayanmışdım. Gəldi və həzrət vəliəhdin oturduğu böyük divanxanaya girib bir az gəzdi, çıxdı və başqa divanxananın eyvanında əyləşdi. Şəhərdəki kədxudaların, katiblərin, bəylərbəyilərin və əyanların çoxusu orada hazır durmuşdular. Qoşun başçısı Mirzə Qəhrəman da orada idi. Onun adını çəkib kobud sözlərlə söydü və həzrət vəliəhdin fərraşbaşısına əmr verdi ki, başına qapazlar vursun. Sonra bir kəndir tələb etdi. Bir zəncir gətirdilər, əl-qolunu bağladılar və zindana apardılar. Hər kəs öz hesabını aldı.

## Hekayət

Eşitmişdim ki, həmin ordu başçısı bir-iki gün ondan öncə öz dostlarına demişdi: “Bu kişi özündən çox razıdır. Qorxuram ki, gəlib mənə oturmağa icazə verməsin və nüfuzuma ziyan yetirsin”.

## Hekayət

Müəyyidüddövlənin gəldiyi gün mən sarayda idim. Bir dəstə adam da yığışıb onun buyurmasını gözləyirdilər, zarafatlaşıb gülüşürdülər. Onlardan biri dedi ki, Molla Təhmasib təvazö göstərməlidir. O birisi dedi: “Yolda yazmışdı ki, mən şəhərə

[1] Miladi təqvimilə 1840/41

daxil olanda şeypur çalsınlar və meydanda onu qarşılamaq üçün düzülən qoşun təbil çalsın, ancaq padşahı və vəliəhdi salamladıqları qaydası ilə olmasın”. Başqa birisi dedi: “Onu indi üç gün qaimməqam kimi müşayiət etməliyik. Qarşılayıb yola salmaqdan atlarımızda daha nə ət qalıb, nə də nal”. Mən dostlarımdan bir neçəsini məzəmmət etdim, çünki bu cür sözlər ziyandan başqa bir şey gətirməz və yəqinliyə çıxarmaz. Gülüb məni də lağa saldılar. Bu işi görən qoşun başçısı utandığından min dinar qiymətində də olsa bir deşik axtardı ki, oraya girsin və mənə yalvardı ki, “Bizim bu sözlərimizi yerə basdır”. Mən də xoşluqla dedim: “Yox, axşam bütün bu lağlağını həzrət şahzadəyə deyəcəm. Görək sabahısı nə olur”.

Müəyyidüddövlə iki il tam hökm sahibi oldu. Birinci il sərt, ikinci il isə daha mehriban və insansevər bir hakim oldu. Üçüncü il heç kimin hakimiyyətdə dəyişikliyin baş verəcəyini gözləmədiyi halda Baş ordu sərdarı Əziz xan Mazandaran hakimi olmaqla yanaşı Azərbaycanı da ixtiyarına aldı. Hicrətin min iki yüz [səksən yeddinci] ilində[1] baş verdi.

## Əcibə

Rəbbimizin işində olan ibrətdən bir dastan söyləyirəm o barədə ki, Allah-təala bir kəsi irəli çəkmək istəyəndə bunu hansı yolla həyata keçirər. Müəyyidüddövlə Təbrizə gələndə vəliəhd hələ cavan oğlan idi. Saray xidmətçilərinə baxıb sərdarın etdiyi kimi həzrətin işinə qarışmamağa üstünlük verdi. Bir gün o, həzrət vəliəhdə yaxın olan xidmətçilərdən gətirib onların dili ilə həzrətə ərz etdi: “Allaha şükür ki, bu gün vəliəhd İrana vəzirsiz-məsləhətçisiz hökm etmək üçün ağıl ilə zəkaya malikdir. Mən padşahın və vəliəhdin qoca bir quluyam. Həzrətə məclis aparmağın, müharibə etməyin və başçı olmağın qayda-qanunlarını öyrətməkdən ötrü buraya göndəriblər. İndi vəliəhd işin ətəyindən yapışmalı və özünü tənbəlliyə verməməlidir. Mən belə görü-

[1] Miladi təqvimilə 1870/71

rəm ki, bu ildən özünə məxsus bütün işləri öz şərafətli nəfəsi ilə zinətləndirmək iqtidarındadır. Həzrətin ixtiyarında olan bütün haqq-hesabı düzgün apararaq gəlirlə çıxarı bərabər hala gətirəcək. Həzrət şahənşaha bu tamamilə kifayətdir. İndi isə xidmətçilərdən birini köməkçi yerinə buyurun, çünki bu da labüddür".

Saray əhli bu işə həvəslə məşğul oldular, çünki əvvəlki işçilərdən çox əziyyət çəkmişdilər. Məşvərət edib belə qərara gəldilər ki, "Bizə katib və mühasib lazımdır. Əgər biz onu dəftərxana katiblərindən seçsək, hiyləgərin və əliəyrinin biri çıxa bilər. İşə yiyələndən sonra o atlı olacaq, biz piyada". Bir təmiz adam var idi, atasının adı Hacı Mirzə Əbdülkərim olmuşdu.Bir vaxt vəliəhdin qohumu Şücaüssəltənənin mətbəxində katib və xidmətçi yerində işləyirdi. Bu kişinin adı Mirzə Rza idi və atasının vəzifəsini indi o yerinə yetirirdi. Mətbəxin mühasibat məsələsinə də baxırdı. Gözlərinin ikisinə də pərdə asılmışdı, yarıkor idi, başı ilə əlləri əsərdi. Vəliəhdin divanxanasından hər il əlli tümən ruzi alardı. Tərcih onun üzərinə düşdü ki, "yazığın biridir, nə desək, onu da eləyər". Sonra həzrət vəliəhdin hüzurunda onu tərifləhdilər. Mühasibat işini və məiyyətlərin məvacibini ona tapşırdılar. Heç bir-iki gün keçmədi ki, bu yaramaz vəliəhdin başını aldadıb ətrafındakıların hamısını ondan uzaqlaşdırdı. İstədiyini edirdi. Sarayın ən böyük adamlarını elə sıxışdırmışdı ki, heç kəs həzrət vəliəhdlə görüşməyə ya ona bir söz deməyə cürət etməzdi.Baş ordu əmiri Əziz xan ikinci dəfə Azərbaycana gələnədək hamını gözümçıxdıya salmışdı.

## Əziz xan

Sərdəşti-Savəcbulaq sakinlərindən olmuş Məhəmməd Sultan Mükrinin oğlu idi. Lap gənc yaşlarında böyük qardaşı Fərəc xanla Təbrizə gəldi. Qardaşının yanında bir xidmətçi kimi idi. Qardaşı dünyadan köçəndən sonra sarayın böyükləri ilə dost əlaqələrini qurdu. Gözəl xətti və yaltaq dili var idi. Vəzirlərin məclisinə yol tapmışdı. Hamı onunla söhbət etməkdən həzz

alırdı. Bunun sayəsində yavaş-yavaş tanındı. Qazi padşahın hakimiyyətinin əvvəlində ona Təbrizin altıncı alayında yavər mənsəbini verdilər. Herat hadisələrində iştirak etmişdi və bir dəfə şahənşahın əmri ilə Heri* qalasına gedib Yarməhəmməd xan və Kamran Əfqanla görüşmüşdü. Ondan sonra nüfuzu artdı, Təbrizin dördüncü alayını ona tapşırdılar və alaybaşı rütbəsini verdilər. Padşahın ömrünün sonunda dördüncü alayla Şirazda olmuşdu. Padşah Haqqın rəhmətinə gedəndən sonra şirazlılar Hüseyn xan Nizamüddövləyə qarşı qalxdılar və dava başlandı. Əziz xan orada yaxşı qulluq edib qovğaçıları yatırtdı.

## Hekayət

O, hekayə edərdi, mən də baxıb dinləyərdim ki, padşah məmləkətin taxtına əyləşəndən sonra vəziri-nizam* Mirzə Təqi xan böyük atabəy oldu. Bu xəbər Şiraza çatdı. Mən bu kişini yaxşı tanıdığımı və onun tündməzac olduğuna da bələd olduğumu düşünürdüm. Hər halda Təbrizdə olarkən mənimlə çox mehriban idi və sözümüz də düz gəlirdi. O, səfir qismində Ərzuruma yola düşəndən sonra mən darülxilafət sarayına getdim. Qəzvinin Həkim Mirzə Nəzərəlinin başçılığı altında həmin dördüncü alayı götürdüm. Ürəyimdə dedim: "Hər halda böyük atabəyin mənimlə arası saz idi. İndi o gedib. Necə deyərlər, gözdən uzaq, könüldən uzaq. Yəqin ki, böyük atabəy bu alayı mənim əlimdən alacaq və mən çarəsiz qalacam". Öz sirdaşlarıma dedim: "Nə yaxşı olardı, əgər bu hərbi dəstə mənim əlimdə qalsaydı".

Belə bir malxulyaya qapanmışdım və bircə an belə xəyallarımdan qurtula bilmirdim. Bir gün paytaxtdan üsküdar[1] gəldi. Əlində mənə ünvünlanmış və üstündə böyük atabəyin möhürü olan məktub gətirmişdi. Həm ümid, həm də qorxu ilə açdım. İçindən o böyüyün xətti ilə bir neçə kəlmə yazılmış balaca bir vərəq çıxdı: "Əziz, gəl ki, səni əzizləyim". Dönüb, üzümü o həzrətə tutub yola düşdüm. Yolda da dostlarıma deyirdim ki:

[1] Üsküdar – qasid.

“Axı bu nə ola bilər?” Gah deyirdim ki, rütbəm artıb, indi sərtip[1] olacağam, gah da fikirləşirdim ki, doğulduğum Sərdəşti mənə verəcək. Həmişə arzulayardım ki, nə vaxtsa oranı Budaq xan Mükrinin uşaqlarından təmizləyib mənə versinlər. Bu işin mümkün olub olmadığını bilməzdim.Axır paytaxta yetişdim, ancaq yenə bir şey anlamadım və darülxilafətdəki dostlarım da mənim kimi idilər.

Şəhərə iki fərsəng* qalanda böyük atabəyin əmri ilə məni qarşılamağa çıxmış çoxlu süvari göründü. Bəzəkli atların üstündə oturmuş həmin ən tanınmış hərbçilərin hamısının rütbəsi mənimkimdən yüksək idi. Bizi səmimi qarşılayıb salam verdilər. Mən onların arasında ən yaxın olanlara gizlicə işarə etdim ki: “Bu nə işdir? Bu boyda həngamə nədən ötrüdür?” Hamısının sözü bir oldu ki: “Heç özümüz də bilmirik. Bircə onu deyə bilərik ki, dünən atabəy buyurdu ki, sabah Əziz xan gəlir, onun qabağına çıxın”. Qoşun başçılarından bir neçəsi deyinsə də, başqa çarəsi yox idi. Onlar gəldilər və biz də gəldik. Hamımız bir cərgəyə düzülüb getdik, sarayın yanında atdan düşdük, həzrət atabəyin hüzuruna getdik və hərbi qaydada əllə salam verdik. Yolda üzləşdiyimiz çətinliklərdən soruşdu. Sonra dedi: “Şahənşahın hüzuruna get”. Getdim. Qəbul etdilər. Hörmət göstərib dedi: “Böyük atabəy sənin hər yerdə yaxşı xidmətlərindən bizə ərz edibdir. İndi bunun əvəzini çıxmağın vaxtıdır. Mən səni bütün İran ordusunun acudanbaşı vəzifəsinə təyin etdim. Sənəd ilə xələt hazırdır. Get və canla-başla qulluq et”. Xahiş edib yenidən həzrət atabəyin yanına getdim. Buyurdu: “Sənin mənzilin hazırdır. Get, yol yorğunluğunu al”. Getdim. Yerim onun öz sarayında idi.

Gecə gələn kimi məni çağırdı, ünvanıma gözəl sözlər söylədi və dedi: “Bu işdə möhkəm ol, Hacı Mirzə Ağasinin vaxtında Xoyda özbaşınalıq edənlərdən uzaq ol və heç kimdən qorxma”. Sonra mənzilimə gəldim. Səhər oranın eyvanında xonça açdılar, üzərinə cürbəcür şirnilərdən və şərbətlərdən qoydular və mən

[1] Sərtip – bir neçə alaydan ibarət olan hərbi birləşmənin başçısı.

həmin yerdə sədrə nələrin baş verdiyindən yazdım. Ordunun yuxarı və aşağı rütbəli nümayəndələri gəldilər. Bir saat keçəndən sonra dedilər: “Xələtlə sənədi qəbul et”. Saraydan bayıra çıxdım. Qızılla işlənmiş hərbi qaftan və naxışla bəzənmiş qılınc idi. Əynimə keçirtdim, öpdüm. Sonra gəldik və mən bağışlanmış paltarda eyvana çıxdım. Böyüklər məni təbrik etdilər. Ondan sonra həzrət şahənşahın yanına getdim. Təbrik etdi. Həzrət atabəyin yanına getdim. Xoş sözlərlə qarşıladı və “mübarək olsun” dedi. Beləliklə, düşüncələrimin səmərəsi heç yuxumda da görmədiyim bir iş oldu. *Son.*

Mirzə Təqi xanın qara günləri başlayıb vəzifəsi əlindən alınana qədər Əziz xan bütün İran əsgərlərinin acudanbaşısı oldu. Bir-iki gün keçmədi ki, dünya padşahı onu baş əmir etdi və onun şan-şöhrəti Nahid ilə Keyvandan[1] da yuxarı ucaldı. Həmin il şahənşah Sultaniyyə çəmənində idi. Mən də orada olmuşdum. On mindən artıq hərbçi var idi. Əziz xan ordunu həndəsi qanunla düzmüşdü və ordugah elə salınmışdı ki, iki darvazadan savayı oraya başqa tərəfdən bir yol yox idi. Qarovulçular baş əmirin hökm və göstərişi olmadan heç bir canlıya oraya girib-çıxmağa macal verməzdilər. Bu səylər İranın baş vəzirinin rəyinə xilaf idi və o böyük adam ürəyində kin saxlamışdı. Bir gün o, fürsət tapıb həmin kişiyə quyu qazdı.

Biz Sultaniyyədən Təbrizə gələndən sonra İran dövləti ilə Osmanlı dövləti arasında çaxnaşma düşdü. Sülh bağları qırılmağa yaxın idi. Baş əmir Xoy sərhəddinə ezam olundu. O, yuxarı rütbəlilərlə bir yerdə təmtəraqla Təbrizə gəlib Xoya yola düşdü. Hər iki tərəfin məmurları, eləcə də rus və ingilis canişinləri o gərginliyi azaldaraq kin-küdurəti aradan qaldırmağa müvəffəq oldular. Həşəmətüddövlə Həmzə Mirzəni saraya dəvət edən vaxt xilafət başçısından əmr gəldi ki, baş əmir Təbrizə gəlməlidir, Nüsrətüddövlə və qaimməqam Mirzə Sadiq da yetişməliydilər. Kişi çarəsiz qalıb əmrə tabe oldu. Baş vəzir isə fürsəti qənimət bilərək şahənşahın rəyini dəyişdirdi.

---

[1] Nahid və Keyvan – Zöhrə və Zühəl, Venera və Saturn planetləri.

Baş əmirin saraya gəlməyindən çox keçmədi ki, bu günahsız nəcib adamı yıxdı və fərman oxundu ki, Sərdəştə gedib vətəni sayılan yerdə vaxtını keçirsin. Sərdar həmin yerə gedib orada acılı günlər yaşadı. Müdafiə vəziri Mirzə Fəzlüllah ikinci dəfə Azərbaycana gəldi. Sərdarı Sərdəşt malının hesabatını vermək bəhanəsi ilə Təbrizə çağırdı. Onun daxili iztirab çəkməyinin səbəbi o idi ki, qardaşı məsələni ona anlatmışdı. Sən demə, o, xəbərçilərdən şahənşahın qəlbindəki sirri öyrənmişdi. Padşah xəlvətdə o kişinin xeyrinə danışrdı. Ürəyinə qorxu düşmüşdü ki, onu yenidən irəli çəkər.

Sərdar üç-dörd yaxın adamı ilə lap əldən düşmüş halda gəldi. Müdafiə vəziri xoşxasiyyət və dünyagörmüş bir ağsaqqal idi. O nəcabətli adamla pis davranmadı, bəlkə zahirdə bir az sərt rəftar etdi.

Bir gün müdafiə vəziri Nəcəfqulunun bağında olanda mən də oraya getdim. Baş əmiri inildəyən, vəziri isə pərişan halda gördüm. O, bir-birinin ardınca həkimləri çağırırdı, xəstə üçün balış gətirməyə adam göndərmişdi və göstəriş vermişdi: “Xəstəyə yaxşı baxın ki, müalicədə xətaya yol verməyəsiniz”. Mən müdafiə vəzirinin belə can yandırmağından heyrətə gəldim və onun içərideki pərdənin arxasında nələrin olduğundan xəbərsiz idim. O kişi yaxşılaşıb gedəndən sonra bir bilən adamdan eşitdim ki, müdafiə naziri sərdarın onun yanından sağ-salamat getdiyinə görə Tanrıya şükürlər edirdi. Dedi, soruşdum: “Bu həmdü səna nədən ötrüdür?” Gülüb dedi: “Mənim gor[bagor] qardaşım bu kişinin qatı düşmənidir və onun qanına susayıbdır. Məndən istəmişdi ki, Təbrizə çatan kimi Əziz xanı yanına çağırıb onun üstünə düş, əy, əz, haqq-nahaq ondan Sərdəştin malını tələb et və gecə-gündüz onu dinc oturmağa qoyma. Ola bilər ki, qeyrətinə toxunar və dözə boilməyib ya qəm çəkməkdən ölər, ya da zəhərdən-zaddan içib öz axırına çıxar. Mən də təşviş içində qalmışdım, çünki şahənşahın ona üstüörtülü hüsni-rəğbəti olduğunu dəqiq bilirdim. Hətta şahənşahın bir-iki dəfə məndən gizli ona məktub da yazdığını eşitmişdim. Mən başa düşürdüm ki, bir gün onu yanına çağırsa, bütün bizim işimiz məhv olar. Məcburi hal-

da o fərmanı mən ona zahirdə çatdırmalı idim, ancaq gizli söhbətdə onu öz adımdan arxayın etdim. Əgər o, bu naxoşluqdan ölsəydi, adım pisə çıxardı, şahənşah da mənə qarşı ürəyində kin saxlayacaqdı".

Bu sözləri mənə əmioğlum Hacı Xosrov xan rəvayət etmişdi. Çox keçmədi ki, baş vəzir xidmətdən uzaqlaşdırıldı və nəsilləri çökdü. Şahənşah sərdarın ölümü haqqında xəbəri eşitdi. Onun yerini keşikçibaşı Mirzə Məhəmməd xan Qacar Dəvəluya verdi, ləqəbini də "İspəhsalar" qoydu. Sərdar sağ idi. Saraya çağırdı. Getdi. Azərbaycanda hakim oldu. Müizzüddövlə Bəhram Mirzəni hökmdarlıq adı ilə gətirdi. Özü vüqarlı, abırlı və insanpərvər bir kişi olubdur. Əsilzadələrdən olmasa da, nəcabət sahibi idi. Onun öz işçisinə tutduğu vəzifəsinin adıilə müraciət etdiyini eşidən olmamışdı. Əmiraxuru da, naziri də, fərraşbaşını da öz adı ilə çağırardı. Heç kəs onun hüzurundan və məclisindən ürəyi sıxılı çıxmazdı.

O böyük adam həmişə mənə hörmətlə yanaşar, lütfkarlığını nümayiş etdirər və vacib işlər tapşırardı. Sipəhsalar[1] hökumət başına çıxana qədər belə oldu. Sonra çox keçmədi ki, üzü aşağı getdi və Xorasan valisi oldu. Sərdar saraya gedib müdafiə vəziri yerinə keçdi. Elə istəyirdi ki, Azərabadəgan da onun olsun və onu öz yerinə göndərsinlər. Qəbul olunmadı. Qaimməqam Mirzə Sadiq gəldi. Tezliklə işdən kənarlaşdırıldı. Müəyyidüddövlə gəldi. İki ildən sonra saraya çağırdılar. Sərdar ikinci dəfə Azərabadəgana hakim oldu.

## Sərdarın darülxilafətdə ikinci süqutu haqqında

Bu kişi böyük və görkəmli şəxsiyyət idi. Mənim üstümdə çox böyük haqqı olsa da və onun dostluğunu heç vaxt unutmasam da, gördüklərimi və eşitdiklərimi düz söyləməkdən başqa bir çarəm yoxdur. Sərdar dərgaha gəlib müdafiə vəziri vəzifəsinə yiyəylənsə də, şahənşahın Azərbaycana hakimliyin ona

[1] Yəni ispəhsalar

vermədiyini daim ürəyində saxlayırdı. Əmini-ləşgər də bu məsələ ilə bağlı onun qulağını doldururdu, çünki onun saraydakı və müdafiə vəziri dəftərxanasındakı işi o qədər də ürəkaçan deyildi. Oranın adamları adlı-sanlı kişilər idilər və onu özlərinə yaxın buraxmırdılar. Sərdarı bu mülkün malı ilə gəlirində aldadırdılar. Sərdar başında durduğu mülkün bir çox malını asanlıqla əlindən verdi. Başçı yerini qaimməqama tapşırdılar və həzrət vəliəhdlə bir yerdə gəldi. Sərdar gizlicə öz dostlarını bu tədbirə çağırdı və onun həşəməti haqqında çox söz deyildi. Sonra o məscid fitnəsi araya düşdü, alimlər müttəhim oldularvə qaimməqam istefa verdi[1]. Sərdar daha da hirslənmişdi. Padşahın Təbrizdə əmin-amanlıq yaratmağı ona verəcəyinə ümid edirdi. Belə söyləyirlər ki, deyirdi: "Dördnala Təbrizə gedərəm və o fitnəni yatırdaram". Birdən məsələni Müəyyidüddövləyə həvalə etdilər. Əmini-ləşgər Təbrizdə idi və bir gözü daim bu işin üstündə idi. O, öz tabeliyində olanları və yaxınlarını bir-birinin ardınca paytaxta göndərib sərdara vəziyyəti anladırdı və qızışdrırdı ki, boş-bikar oturmasın və mülk ilə hökmranlığı əldən verməsin.

Padşah işin mahiyyətindən agah idi və araqarışdıranları da yaxşı tanıyırdı. Müəyyidüddövləyə gizli şəkildə təlimatlar buyururdu. Şahzadə gəldi və şəhərə daxil olankimi əmini-ləşgəri həbs etdi və başqa tədbirlərə əl atdı. Sərdar təbrizlilərin hərəkətlərindən məyus olub Müəyyidüddövlədən intiqamını almaq arzusuna düşdü. Onun bu işlərindən birini mən görmüşəm. Ziyaüddövləyə narın xətlə bir məktub yazmışdı ki, şahsevən tayfalarının köməyi ilə yollarda şüluq salsın və Müəyyidüddövləyə tabe olmasınlar. Bəlkə onda utanıb kənara çəkildi.

Yenə də etibarlı adamlardan eşitmişəm ki, Səneyi-Ərdəlanın Uraman bölgəsində üsyan qaldırdılar və dövlət oraya əsgər dəstələrini göndərib böyük döyüşlər aparmalı oldu. Sonda üsyançıların başçısı Məhəmməd bəy Uramani öldürüldü və oradakı qala Mötəmədüddövlə Fərhad Mirzənin səyi ilə fəth edildi. Deyirlər, sərdar oranın camaatını Mötəmədüddövlənin əmrlərinə

---

[1] Mətnin bu hissəsi anlaşılmır.

tabe olmamağa təhrik edirmiş və sərdarın Məhəmməd bəyə yazdığı bir sənəd də ələ keçdi. Ona dedilər ki, "Padşah bunların hamısını bilirmiş və ona güzəştə getdi". Axırda sərdar Sultanabada gedib orada qalmağa əmr aldı.

Bir azdan padşahın ürəyi yumşaldı və onu yanına çağırdı. Saraya gəldi. Yaxşı qəbul etdilər. Daha bilmədim ki, bu zəmanənin nə hoqqası idi, ancaq ona Dəmavəndə getməyi əmr etdilər. Bir neçə ay orada qaldı. Padşah onu çağırdı və Mazandaranın hakimiyyətini ona tapşırdılar. O, hökumətin şərəfli libasını geyindiyi gün dəyişiklik baş verdi və həmişə ürəyində gəzdirdiyi Azərbaycan hakimi olmaq arzusuna çatdı. Müəyyidüddövlə getdi və o gəldi. Bu dəfə onda əvvəlki güc ilə igidlik qalmamışdı. Çürük qoza da dəyməzdi. Qocalıq da onu haqlamışdı. İranın vəliəhdi də düz yolu seçdi. Mirzə Rza sərdarı vacib işlərə yaxın buraxmazdı və sözünü ciddiyə almazdı. O, çox iztirab çəkdi və həmin il öz sarayında vəfat etdi. Cənazəsini Seyyid Həmzənin türbəsində dəfn etdilər və məzarının üstündə günbəz tikdilər. Allah ona rəhmət eləsin!

Qoca yaşında Allah ona bir uşaq bağışlamışdı. Adını Seyfəddin xan qoydular. İndi ağıllı bir cavan oğlandır. Padşah bu il Savəcbulaq Mükrinin hakimiyyətini ona verdi.

## Sahibdivanın başçılığı

Əziz xan sərdar gedəndən sonra əmiri-ləşgər Mirzə Qəhrəman hakim olmaq həvəsinə düşdü. Saraydan da yellər xəbər gətirirdi. İşlərini səhmana salaraq vəliəhdin də razılığını aldı. Vargücü ilə hökmranlıq edirdi. İki-üç ay keçdi və Təbrizdə vəba aşkar edildi. Adamlar ayrı-ayrı yerlərə səpələndilər. Vəliəhd Səhəndə getdi. Əmini-ləşgər Şadbadi-məşayix kəndinə[1] getdi. Orada hörmət və izzət içində oturmuşdu. Mən Sərabda idim. Bir süvari yetişdi. Adamları çağırdı. Həmin kəndə getdim. Təbrizin

---

[1] Təbrizlilər Elgölü yaxınlığında yerləşən bu kəndin adını "Pinəşalvar" qoymuşdular.

mal anbarını mənə həvalə etdi. Ürəyimiz heç də rahat deyildi. Mən bəylərbəyi Fəthəli xanın çadırlarında qalırdım. O da əmini-ləşgərə kin bağlamışdı.

## Hekayət

Bərk isti günlərin birində mən bəylərbəyi ilə bir yerdə əsəblərimizi qaydaya salmaq üçün bütün günü gəzib istirahət edirdik. Gördük ki, papağında teleqrafxananın nişanı olan bir fərraş ağacların arxasından gəlir. Bir xidmətçinin gəlməyini məndən əl işarəsi ilə istədi. Qısa söhbət edib getdi. Xidmətçi gəlib dedi: "Bu fərraş teleqrafxanadan gəlmişdi. Sənin iki qardaşın xəbər göndəriblər ki, bu gün anbarın peşkəşini təxirə salasan". Mən həmin gün min beş yüz tümən verməli idim. Tacirlərdən iki yüz tümən istəmişdim ki, borca qızıl alım. Bəylərbəyi başqa məsələdən ötrü nigaran idi. Belə də qalmışdı. Mən ona bir dastan söylədim. Fikirlərə qərq olduq ki, bu nə ola bilər. Sözsüz ki, darülxilafətdə nəsə baş verib. Çox çəkmədi ki, həmin fərraş gəlib üstü bağlı bir kağız uzatdı ki, "Bunu əmini-ləşgərə ver" və yavaşdan dedi: "Bu, onun vəzifədən çıxarılması haqqındadır". Mən bu yazını ona verməyə görə xəcalət çəkdim. Göndərdim. Məni yanına çağırdı. Teleqramı mənə verdi. Sahibdivan yazırdı ki, "O mülk dərgah tərəfindən mənə həvalə olunub. Arxayın ol ki, səni sərdar edəcəyəm". O kişi tələsirdi. Üç gün kənddə qalıb şəhərə getdi. Mən də Səraba yola düşdüm.

## Təbriz seli[1]

Bu dastandan iyirmi gün öncə şəhəri basmış böyük sel çoxlu dağıntılara bais olmuşdur. Günorta namazı vaxtı yağış yağma-

---

[1] Leysan yağışların axması və suyun qarşısını ala bilən sədlərin yoxluğu səbəbindən Azərbaycan həmişə sellər ölkəsi olmuşdur. Tarixi kitablarda, o cümlədən xarici səyyahlarrın (Birinci Şah Abbasın dövründə buraya gəlmiş Oletarius, ingilis Ralinson və başqaları) səfər qeydlərində Ərdəbildə, Təbrizdə və digər şəhərlərdə selin nəticəsində çoxlu can və mal tələfatından bəhs olunur.

dan birdən şərq tərəfdən göy gurultusu səsi gəldi. Yağışla dolu yağmağa başladı və sel axdı. Barinc kəndində qabağına çıxan hər şeyi – evləri, ağacları, bağları – süpürüb apararaq viran qoydu və şəhərə çatdı. Mehranrudun hər iki sahilinə yaxın binaları uçurtdu. Sahibüləmrin (ə) türbəsi ilə üzbəüz yerləşən misgərlər bazarını və meydanın cənub tərəfini dağıtdı. Dükanlar, evlər və hamamlar bərbad oldu. Bir qolu Rastəküçəyə[1] axıb binaları yıxdı, digər qolu isə Rastəbazara yol tapıb oraları da xarabalığa döndərdi.

Sel kəhrizlərə axışıb oranın suyunu bulandırdı və üstdən aşdı. Binalar dağıldı və xalqın malı zay oldu. Bu sel bazarın yarısınadək axdı. Bəzi evlər lillə doldu, hamamlar da zibilləndi. Çayın məcrası ilə Acıruda qədər hər yer xarabazara döndü. Deyirlər ki, on dörd min evə ziyan dəydi. Sel suyundan çox iyrənc qoxu gəlirdi.

Bu hadisə hicrətin min iki yüz səksən səkkizinci ilin cümadiül-əvvəl ayının on yeddisində[2] baş vermişdi. Ondan sonra sahibdivan Hacı Möhtəşəmin vəsatəti ilə şəhərin bütün sakinləri böyük maddi yardım aldı. Şahənşah da on min tümən əta buyurmuşdu. Mehranrud çayının iki sahili boyu Barinc kəndinin axırından tutmuş Acı körpüsünədək əhəng daşından bir sədd çəkdilər.

Bu işi tacirlərlə kədxudalar görürdülər. Hər biri düzgün, əməlisaleh və Allahıtanıyan adam olduğuna görə öz paylarına düşən yerdə elə bir möhkəm sədd qurdular ki, indiyə qədər olduğu kimi qalır. Amma o dinsizlər ki, nə vətən qeyrətini çəkərlər, nə Allahı tanıyarlar, o malı yedilər. Əhəng daşının yerinə torpağı, daşın əvəzinə qurumuş gili işlətdilər. Elə birinci il su axan kimi hamısı dağıldı.

---

[1] Rastəküçə – Təbrizin ortasında yerləşən məhəllələrdəndir. Mərkəzi Dikbaşı meydanıdır. Təbrizin əksər məscidləri məhz bu məhəllədə tikilmişdi. Onlardan bir neçəsi, o cümlədən Cümə məscidi, Məqbərə, Sadiqiyyə, Şəhidi (Xalaoğlu), Xalxali, Qızıllı, Müfid Ağa, Qəfurilər indi də mövcuddur.

[2] Miladi təqvimilə 24 iyul 1872

Həmin gözəl adamlardan biri mənim dostum və ustadımdır və mən bu kitabı onun buyuruğu ilə yazıram. Bu böyük şəxs Dərbi-sərd məhəlləsində və Hacı Mirzə Nəsir xanın digər məhəllələrində paylanmış qızılı yığıb son mis dirhəminə qədər işçilərə verdi və özü heç vaxt iş görülən yerin qapısını bağlamazdı. Mən ondan bu sirrin açıqlamasını istəyəndə belə demişdi: "Mən bu xalqı yaxşı tanıyıram. Onlar nəfslərini cilovlaya və tamahlarını boğa bilmirlər. Bu malın çoxusunu yeyəcəklər və tikilini yaxşı inşa etməyəcəklər. Onda adları pisə çıxacaq, mən də ortada qalacağam. O zaman kim mənim işi düz qurduğuma inanar? Mən kimə deyəcəyəm ki, bu yaramazlıqları edənlər filankəslə filankəsdir və mən onların tayı deyiləm. Odunun yaşı da, qurusu da bir yerdə yanar".

Hər şey elə o kişinin dediyi kimi oldu. O malın haqq-hesabını yoxlamaq üçün məclis təşkil etdilər. Pis-pis işlər üzə çıxdı, ancaq mənim dostumun adı heç çəkilmədi. *Son.*

## Hekayət

Mən o hesabları yoxlamaq üçün təşkil olunmuş bir neçə məclisdə iştirak etmişəm. Bu işdə daha böyük pay sahibi olan əyanlardan biri öz məhəlləsindən alınan malın hamısını yemişdi. Söz pulun qaytarılmasından düşəndə üzünü başqalara tutub dedi: "Heç utanmırsız ki, üç yüz min canın qorunması üçün yığılmış malı yemisiz? İndi onun yerini göstərin və səddin tikilməsində gördüyünüz işi də göstərin ki, mühəndis gəlib ölçsün və qalanını da özünüz qoyun".

## Sahibdivanın soy-kökü

Sahibdivan vəliəhdin hüzuruna gəlmək şərəfinə nail olmaqdan ötrü Səhəndə gedib Təbrizə yetişdi. Öncə bu böyük Xacənin nəslindən danışım, sonra isə xidmətdən kənar düşməsinə qədər gördüyü işlərdən deyim.

Sahibdivan Mirzə Fəthəli xan Hacı Mirzə Əli Əkbər Qəvamülmülk Şirazinin oğludur və o, İranın baş vəziri Hacı İbrahim xan Etimadüddövlənin kiçik oğludur.

**Hacı İbrahim xan Etimadüddövlə**

Şirazın kədxudalarından olmuş Hacı Haşimin oğludur. O, yüksək rütbəyə qədər yüksəlib Şirazın kələntəri oldu. Böyük şahənşah Nadir şah onun bir gözünü çıxartdırmışdı. Mirzə Məhəmməd adlı birisi kələntər oldu. Kərim xan padşahlığı ələ keçirib öldü[1] və Əli Murad [Əli Mərdan?] xan Zənd onun yerini tutdu və Şirazın əyanlarını İsfahana yolladı. Ardıncavarlanma növbəsi Cəfər xana çatdı. Şirazın Heydərixananın kədxudası olmuş Hacı İbrahim xana kələntər vəzifəsini verdi. Olduqca qəşəng olmuşdu.

Kələntər Hacı İbrahim xan Şəhid Xaqanın dərgahına getdi. Çox yaxşı qarşılandı. Lütfəli xan atasının yerinə keçəndən sonra o kişinin qoçaqlığı onu təşvişə saldı və onu aradan götürməyi özünə borc bildi. Bu işi Şəhid Xaqanın döyüşündən sonraya saxladı. Kələntər onun belə kin bağlamasından xəbər alıb işin heç də yaxşı olmadığını anladı. Bundan sonra böyük qardaşı Əbdürrəhim xanla sözləşdilər ki, əllərinə fürsət keçən kimi özləri hücuma keçsinlər. Əbdürrəhim xan Səmirəm[2] döyüşündə Lütfəli xanın qoşununu pərən-pərən saldı. Şəhid Xaqan qalib gəldi. Kişi Şiraza getdi. Kələntər şəhərin qapılarını bağlayıb Lütfəli xanın yolunu kəsdi. Şəhid Xaqan bir qasırğa kimi arxadan yetişdi. Hacı İbrahim xan şəhəri, "başıbağlıları" və xəzinəni şahənşaha tapşırdı. Belə gözəl xidməti ilə ulduzu ən uca yüksəkliklərə qalxdı və "Etimadüddövlə" ləqəbini aldı, Farsın hökmdarı və imtiyaz sahibi oldu. Qardaşları cah-calalda Keyvanı da ötdülər, şahəhşahlıq isə Böyük Xaqana keçdi. Etimadüddövlənin

[1] Kərim xan Zəndin ölüm tarixi (mart 1779) Fransanın Bəsrədəki konsulunun qeydlərindən məlum olmuşdu.
[2] İraqla Fars arasında yerləşən bir bölgədir.

nüfuzu daha da artdı. Baş vəzir vəzifəsinə qədər qalxdı. Əbdürrəhim xan İraqın və İsfahanın bəylərbəyi, Məhəmməd Həsən xan Kuhkiluyənin[1] valisi, Əsədüllah xan Bürucərdin hökmdarı oldular.

Etimadüddövlə İranda öz işində tam sərbəst idi, Böyük Xaqanın hüzurunda oturmaq icazəsini almışdı və onun iştirakı olmadan heç bir məsələ həll olunmazdı. Ancaq qəddar zəmanə öz işini gördü. Ona həsəd aparanlar yığışıb padşahın ona qarşı münasibətini dəyişdirməyə nail ola bildilər və bütün o cahcalalbir an içində uçdu-getdi. Nə malı, nə hörməti, nə uşağı, nə də qardaşı qalmadı. Yalnız Mirzə Əli Əkbər adlı südəmər oğlu anasının qucağında qalmışdı. Etimadüddövlənin heç bir günahı yox idi. Fəqət o, məmləkətin əksər işlərini oğlanlarına, qardaşlarına və başqa qohumlarına tapşırardı.Bu isə yüksək mənsəb sahibi üçün böyük xətadır. Çox belə məmur görmüşdük və eşitmişdik ki, işlərini bu cür qurardılar və axırda zəlil oldular. Bizim dövrümüzdə buna misal baş vəzir Mirzə Ağaxan Nuridir. O, ağıl və zəka ilə hərəkət edərdi, amma sonda yüzillik bina viran oldu. Və yaxud keçmiş zamanlarda Osman bin Əffan bütün islam məmləkətlərini Ümeyyə övladlarına verdi və nəticədə xilafətin dərgahına və beytülmala gətirilən dünya malı bada getdi, adamlar da yığışıb onu öldürdülər.

Padşahın fikri o kişini yıxmağa yönələndən sonra onun yaxınları olduğu bütün yerlərə gizli məktublar göndərildi ki, filan gün hamısını tutsunlar. Min iki yüz on beşinci ilin zihiccə ayının birində[2] xilafətin dərgahında Etimadüddövlə kor oldu. Qardaşı Əbdürrəhim xan da sarayda idi, onu da tutdular. Oğlu Əsədüllah xanı Bürucərddə,Məhəmməd Həsən xan Qoyunlunu (Qovanlu) və Məhəmməd Hüseyn xanı Kuhkiluyədə, Əli xan Qoyunlunu (Qovanlu), bəylərbəyi Mirzə Məhəmməd xanı və kələntər Ağa Məhəmməd Zamanı Şirazda Əbdürrəhim xanın oğlu Məhəmməd Həsən xanla bir yerdə həmin gün tutdular. İsfahanın kələn-

---

[1] Kuhkiluyə – Bəhbəhanda bir yer adıdır.

[2] Miladi təqvimilə 16 aprel 1801

təri Mirzə Əbdülvəhhab və Təbrizin kələntəri Hacı Mirzə Zaman şahənşahın əmri ilə Şiraza getdilər və illərin hesabatını verdilər, sonra da darülxilafətə gəldilər. Bu tayfadan bəziləri "dinməzlər vadisinə" yollandılar, bir başqaları isə kor və axta oldular. Qəzvində və Taliqanda yaşayırdılar, o dünyaya getdilər.

Şahənşahın qəzəbi bir az yatandan sonra sağ qalanlara rəhmi gəldi və Etimadüddövlədən bir ... [yazılmayıb] babam Hüsamüssəltənə Məhəmməd Təqi Mirzənin sarayına gətirdi, yavaş-yavaş baş xanım oldu. Gözlərindən məhrum olmuş Əsədüllah xan verdi (?). O, dilli-ağızlı bir həmsöhbət idi. Etimadüddövlənin axtalanmış o biri oğlunu Böyük Xaqan hərəmxanaya gətirdi. O da orada böyüdü, içağası[1] oldu. Mirzə Əli Əkbər Şirazda idi, on yaşına çatdı. Böyük Xaqanın hökmdarlığının sonunda Şirazın kələntəri oldu. Onun uşağını ki, həmin Sahibdivandır, Mirzə Əli Rza oğulluğa götürüb paytaxta apardı. Böyük Xaqan qızı onunla nişanladı.

Bu Mirzə Əli Rza igid və mömin kişi olmuşdu. Kə'bəyə gedib islam həccini yerinə yetirdi. Tehran şəhərində Şimiran qapısından axan bir kəhriz qazdırmışdı. Xaqan göyə qalxanda qızın on iki yaşı var idi. Sahibdivan da həmin yaşa çatmışdı. Hacı Mirzə Əli Rza böyük bir məclis açdıvə bu işi sona çatdırdı. Özünün bütün malını Sahibdivana verdi. Mən bu kişini hicrətin min iki yüz səksən birinci ilində[2] qazi padşahın dövlətinin ən birinci şəxsləri ilə görmüşdüm, çünki bizə qohum idi və evimizə gəlmişdi. Möhtəşəm və möhtərəm xacə idi.

## Hekayət

Hacı Mirzə Əli Rzanın dilindən rəvayət edirlər ki, Böyük Xaqan bu dünyadan köçəndən sonra məni o atası getmiş və həşəməti qalmamış qızı almaq məsələsi düşündürürdü. Bir gecə yuxuda Xaqanı gördüm. Adət üzrə torpağı öpdüm. Buyurdu:

---

[1] İçağası – eşikağasının müqabili.

[2] Miladi təqvimilə 1864/65

“Əli Rza! Niyə o izdivacı yerinə yetirmirsən?” Namaz qılıb dedim: “Əmrinə amadəyəm”. Səhər həmin işin hazırlığını görüb sona çatdırdım.

## Araşdırma

Bu ailə deyir: “Biz Hacı Qəvvamın nəslindənik. Xacə Hafiz onu mədh edərkən belə demişdi:

Fələyin yaşıl dənizi ilə aypara gəmisi
Bizim Hacı Qəvvamın neməti içində qərq olublar”

Lakin bu sözün əsası yoxdur. Həmin ailənin babası islam dinini qəbul etmiş İsfahan yəhudilərindən birisi olub və bu eyib deyil, çünki o xalqın əksər əcdadları başqa dinə xidmət edirlər.

## Sahibdivanın məsələsi

Sahibdivan Təbrizə gəldi. Mübahisəsiz, davasız iki il hökm sürdü və məmləkətdə hər şey öz qaydasında idi. Üçüncü il tamah Mirzə Rza Mazandaraniyə üstün gəldi ki, “Hökmdarlıq vəliəhdindir. O, hələ gəncdir. Mən onun atabəyiyəm. Sahibdivan israfçıdır”. Məmləkətin bütün işləri qarışdı. O, çox xudbin adam olmuşdu. Mirzə Rzanı heç adam yerinə qoymurdu. Hicrətin min iki yüz ... [yazılmayıb] ilində vəliəhdi yalan söyləməklə ovsunladı və özü ilə darülxilafətə apardı. Orada məmləkətdəki işlərdən danışdı. Şahənşah qəbul etmədi. Onda çarəsiz qalıb Azərbaycan hökumətinin taxılını aldı ki, o kişinin işinə rəxnə salsın. Burada taxılın məzənnəsi aşağı idi, ucuz idi. Vəliəhdin əli ilə xalqa çox zülm etdi. Üzlər ondan döndü.

Belə vəziyyət Sahibdivanın xeyrinə idi. Mirzə Rza hökumətdən “Sədiqüddövlə” ləqəbini alandan sonra ağlına başqa şeylər gəlməyə başladı. Bu dəfə onun məmləkətin işlərinə qarışması həddini aşdı və Sahibdivan hövsələdən çıxdı. Şahənşah Fərhəngistana [Firəngistana?] getdi-gəldi. Kişini Ənzəli tərsanə-

sində qəbul etdilər. Orada Mirzə Rzanın dəliliyini və işə qarma-qarışıq saldığını şahənşaha xatırlatdı. Əmr olundu ki, həzrət xilafətin yanına gəlsin. Getdi və qayıtmadı. Cənab Sahibinin əl-qolu açıldı. Həzrət vəliəhdin dayısı Ruhullah pişxidmətbaşı[1] idi. Böyük Xacənin təsdiqi ilə vəliəhdin dəftərxanasının başçısı vəzifəsini aldı. Onun da hövsələsi çatmadı, tezliklə lovğalanmağa başladı və yıxıldı. Mirzə Nizaməddin Qəffari Kaşani həzrət xilafətə fransız dili ilə həndəsəni öyrədirdi və həzrət vəliəhdə mənəvi yaxınlığı var idi. İşin başına o gəldi və uğur qazandı.

Vəliəhd şahənşahla görüşmək üçün darülxilafətə səfər etdi. Şahənşah Mirzə Nizamı vətəninə yolladı. Sahibdivan həzrətin məiyyətləri sırasında təmtəraqla Təbrizə gəldi. Vəliəhd Fəxtül-ətibbanı irəli çəkdi. O, qoca həkim idi və ora onun yeri deyildi. Tezliklə acizliyi bilindi. Cəld və səriştəli məmur olmuş münşi-başı Mirzə Əhmədin bəxt ulduzu parıldadı. Bir neçə günün içində vəliəhdin sarayında vəzir oldu.

## Münşibaşı Mirzə Əhməd

Onun Mirzə Mahmud xan adında böyük qardaşı indi orduda xidmət edir, ləqəbi də Müstöfviyi-nizamdır. Bu kişi də gözəl xətti olan katibdir. Qaimməqam Həşəmət Mirzə Sadiqin vaxtında Təbrizə gəldi, dəftərxana xidmətində katib işləyirdi. Bu kiçik qardaş da qaimməqam işdən gedənə qədər onunla bir yerdə olmuşdu. Müstövfi bu məmləkətdə bir vəzifə almaq üçün tez-tez xilafətin dərgahına gedirdi. Təbrizə gəldi. Mirzə Əhməd Sərdarın yanında yazı-pozu işlərinə məşğul olardı. Hicrətin min iki yüz ... [yazılmayıb] ilində Sərdar dərgaha gəldi. Əmini-ləşgər də getdi. Onda xərac, habelə mal və mülk müamiləsi işini bu kişiyə tapşırdı. O, zirəklik göstərib Mirzə Rza Sədiqüddövlə ilə saziş bağladı (çünki əsli mazandaranlı idi) və vəliəhdin sarayında münşi oldu. Bir neçə gün keçdi və Münşıbaşı ləqəbini aldı. Bu kişinin xasiyyəti xoş, ürəyi geniş idi. Yaltaq olduğuna

[1] Pişxidmətbaşı – eşikağası.

görə hamı ilə arası yaxşı idi. Sədiqüddövlə, Mirzə Nizaməddin və Fəxrülətibba işdən uzaqlaşandan sonra vəliəhd ona xüsusi iş tapşırmışdı. Ağıl ilə dühanın hesabına tezliklə hamıya qalib gəldi. Həmin çağda Qəzvində yaşayan, ancaq əsli mazandaranlı olan Mirzə Hüseyn xan (onun haqqında öz yerində deyiləcəkdir) baş vəzir yerindən ayrıldı, xarici işlər vəziri idi, həm də baş ordu əmiri və Azərbaycanın vəkili olmuşdu. O, Sahibdivana kin bağlamışdı və gizlicə Münşibaşının ürəyini aldı ki, onun işini batırsın. O, Xacənin vasitəsilə vəliəhdi də ovsunlaya bildi. Sahibdivan bunun əlindən təngə gəlmişdi. Dəfələrlə şahənşaha dil açmışdı ki, onu bu məmləkətin işindən kənarlaşdırsın, qəbul etmədi. Ordu başçısı çox qoçaq və ağıllı düşmən idi. O da öz növbəsində alimlərin başçısı ilə idarəetmə işlərinə qarışdığına görə yola getmirdi. O isə onun düşmənləri ilə yekdil idi. Bu adamlar Sahibdivandan fərqli olaraq vəliəhdə qarşı yumşaq mövqe tutmuşdular. Bu arada hələ böyük Xacəni öz tərəfinə çəkmək istəyən bir neçə fitnəkar da olmuşdu. Ordu başçısı vəliəhdi paytaxta çağırdı. O kişi işi hərtərəfli ölçüb-biçərək aqibətin yaxşı olacağına inandı. Dünya padşahı ikinci dəfə Firəngistana gedərkən yolunu Azərbaycandan saldı. Bu Xacə də orada böyük bir ziyafət verdi.

Mən işin içində idim, şəhərin hökmdarı idim. Padşah burada bir həftə qaldı. Bu kişi həmin ziyafətə iyirmi min tümən sərf etdi. Padşah getdi. Ordu başçısı vəliəhdə və düşmənlərinə nəzarət edirdi. Onlar yığışıb bu böyük adamı yıxmaqdan ötrü tədbirlər gördülər. Xacə ayıq-sayıq idi və bir çarə qılmağın yolları bağlanmışdı. Gizlicə həmin alimlə görüşdülər. Belə razılaşdılar ki, birlikdə şuluq salsınlar. Bu düz tədbir idi.

Sahibdivan Xiyaban darvazasındakı zibilliyə bir xeyli maya qoyub orada bir bina və kiçik bazar tikdirmişdi. Adını Qeysəriyyə qoydu və burada əllaflara, meyvə qaxı satanlara və qalayçılara yer ayırdı, Sahib meydanından və Həftkeçələndən buraya tərəzi daşıtdırdı və həmin Qeysəriyyə meydanında adamların alver etmələri üçün kömürün, təzə və quru meyvələrin, eləcə də taxılın birinci növbədə buraya gətirilməsinə əmr verdi. Bu, səfeh

fikir və yaramaz iş idi, çünki əllaf, meyvəsatan və baqqal həmişə gələn malı qabaqcadan qızıl pul ödəyib alardılar. Mükari[1] gələndə yükləyərdilər ki, camaat alacaq. Bütün malları öz anbarlarına və ya daxmalarına aparıb ürəkləri istədikləri kimi satardılar. Şəhərlilər bu işdən cana gəlmişdilər və narazı olmağa da haqları var idi, çünki nırx əllafın əlinə keçdiyinə görə adamlar zülmə məruz qalmışdılar. Düşmənlər gizlicə öz aralarında sövdələşdilər. Əvvəl bir neçə ağzıyavanı köy-məhəllələrə göndərdilər ki, açıq və gizli surətdə desinlər ki, Qeysəriyyədəki qapançılar yağ, təzə və quru meyvəni çəkəndə malın cinsindən və miqdarından asılı olaraq əlavə tərəzihaqqı da alırlar. Bu, bidətin yeni növüdür və ərzağın qiyməti bahalaşıb.

Belə hesablaşmaların Xacə ilə heç bir əlaqəsi olmamışdı. Tərəzi məsələsi gömrüyün, habelə ordu başçısının icarədarlarına aid idi və o, həmin kişiyə kin saxlamışdı. Bu dedi-qodu Sahibdivanın ürəyindən idi, ona görə də o, yanan odu uzaqdan ətəyi ilə alışdırmağa çalışırdı və bilmirdi ki, sonda özü bu quyuya düşəcək. O, dəfələrə divanxanada çıxış edib ümumi sözü vurğulayırdı. Meyvə qaxı satan və Əskunun sakinlərindən olan Mirağa adlı bir seyyid qovğasalanların başında durmuşdu. Ona xoş sözlər dedi ki, ürəklənsin.

Bir gün qovqasalanlarla Seyyid Həmzənin (Allah ondan razı olsun!) məzarı üstünə getdi. Hay-küy qaldırdılar. Mən həmin yerə gedib məsələni öz üzərimə götürdüm. Adamlar mənim sözümü qəbul etdilər. O camaat dağıldı. Gecə vaxtı sui-qəsdçilər toplandılar. Sözləşməni sənədləşdirmək üçün Mirzəağanı [Mirağanı?] və bir neçə avam adamı çağırdılar. O biri gün həmin məzarın üstünə çoxlu adam yığışdı. Mən özüm həmin adamların qıraqda qovğaçıları öyrədib öz sözləri üstündə durmağı məsləhət etdiklərini eşitdim və gördüm. Sahibdivan bunu Allahdan istəyirdi ki, ordu başçısının adı batırılsın. O gün divana gəldi. Alicənab Mirzə Hüseyn xan iddiaçıların sözünü təsdiqləmək və onla-

[1] Mükari – malı yük heyvanlarının vasitəsilə daşıyan və ya həmin heyvanları icarəyə verən şəxs.

rın işlərinə Sahibdivanın əli ilə əncam vermək üçün padşahın fərmanı ilə oturmuşdu. Bu zaman şahənşah Firəngistandan gəldi.

O özü müxalifətçilərə şərik idi. Əvvəl hökm çıxartdı ki, mən özüm şəhər hökumətinin tərəzilərini əmanətə zəbt edirəm və bidətə son qoyuram. Onda həzrət vəliəhd tərəfindən qapanla bağlı təkliflərin əks olunduğu bir kağız yazdılar. Birincini mənə verdilər, qalan nüsxələri isə çap edib hər yerə göndərmək üçün mətbəəyə verdilər. Mən Seyyid Həmzənin məzarı üstünə getdim. O nüsxəni göstərdim, qapan məsələsini danışdım, tərəzini zəbt etməkdən ötrü oradan bir nəfəri göndərdim və bu camaatı pərakəndə saldım. Yetmiş günə işlər düzəldi.

Təbrizin əhalisi mənə hüsni-rəğbət göstərdyinə görə o etirazçıların sözlərini veclərinə almadılar. Beləliklə onların oxu daşa dəydi. Şahənşah Hacı Tərxandan[1] Xəzər dənizi ilə paytaxta yetişdi və bu məsələ ilə maraqlandı. Fitnəkarların zərərli və yersiz sənədlərini və onların siyasətlərini rədd etdi və həmin Mirağanın əl-qolunu bağlayıb saraya gətirilməsini istədi, habelə Hüseyn xan Nizamüddövlənin oğlu Əlixan Müşirülvəzarəni bu məmləkətin xarici işlərindən ayırıb darülxilafətə gəlməyini tələb etdi. O, həmçinin Mirzə Yusif xan Müstəşarülvəzarəni ölkədən sürgün edib Azərbaycanda ordu başçısı olmuş İqbalüddövlə Əfşarı Urmiyaya, öz evinə yollamağa göstəriş verdi. Alimə[2] sürgün haqqında xəbərdarlıq məktubunu göndərdilər. Xacənin işləri düzəlmişdi. O, Müşirülvəzarəni darülxilafətə göndərdi, qalanlara görə isə şəfaət etdi.

Padşah yenidən Mirağa Əskuini tələb etdi. Xacə vaxt uzadırdı. Dəfələrlə demişdi: “Mirağa bir neçə aydır ki, müqəddəs yerlərə səfərə çıxıb, ya da vətəninə gedib. Qoy məni dərgahda bağışlasınlar”. Amma davakarlarla dələduzlar dinc oturmadılar. Ramazan ayı çatanda adamlar məscidlərdə toplandılar. Düşmənlər fürsət axtarırdılar. Arada söz gəzdirirdilər və cürbəcür avaralarla cındırpaltarlıları qızışırırdılar.

---

[1] Hacı Tərxan – Həştərxan şəhəri.
[2] Yəni Mirağaya

Bir gün mən öz evimdə yatırdımvə günorta vaxtı idi. Yaxınlıqdakı Seyyid Həmzə türbəsində səs-küy qalxmışdı. Məcbur olub o yerə getdim. Çoxlu avam adam yığışmışdı. Aralarında əsnafları və bazar darğasının şagirdlərini gördüm. Bu adamlar məni görən kimi əhatəyə aldılar. Onlara kimin zülm etdiyini soruşdum. Dedilər: "Sahibdivan Qeysəriyyəni tikdirib. Bütün gələn kömürü oraya aparırlar. Oradakı əllaflar onu yüksək qiymətə satırlar. Biz əli aşağı olanların kömür almağa gücümüz çatmır. Kömür hər yerdə satılmalıdır və satan da sərbəst olmalıdır. Qapan da oradadır. Sahib və Həftkeçəlan meydanları boş qalıb. O iki yerdə də qapan qoyulmalıdır".

Dedim: "Bu sözünüz düzdür. Mən vəliəhdin əmri ilə qapanı zəbt etmişəm. Bu işi öz öhdəmə alıram. İndi ... [yazılmayıb] bəyə göstəriş yazaram, çünki mən tərəzini ona tapşırmışam. Qoy o iki meydana da qapan gətirsin. Bundan başqa əllafbaşıya da bir sənəd göndərərəm ki, meyvə ilə kömürü əllafların ixtiyarına versin. Kimə istəsələr satsınlar".

İkisini də yazıb möhür vurdum. Bu əclaflarla qovğasalanlar şükr etdilər. O toplunu elə dağıtdım ki, birisi də qalmadı. Ondan sonra saraya getdim. Divanda oturan böyük Xacəni gördüm. Sanki huşunu itirmişdi. Yaxınlaşdım. Sözünə başladı ki, "Yenə bu nə həngamədir?" Yavaşca dedim: "Ürəyini sıxma. O dəstəni dağıtdım". Xacənin üzü güldü.

Bir neçə gün keçdi. Həzrət xilafət təzədən Mirağanın söhbətini ortaya saldı. Bəylərbəyi, vəkil və mən işin içində idik. Axırı dedik ki, o seyyid şəhəri tərk etməlidir. Gecə o alimin evinə getdik. Orada idi. Onunla məxfi surətdə görüşdük. Onun üstündə dayandıq ki, gecə çıxıb gertsin. O biri gün mən asudə evimdə oturmuşdum. Həmin gecə düşmən oyaq idi və xüsusilə darğa öz şagirdlərinə öyrətmişdi ki, camaata belə desinlər: "Keçən gecə Sahibdivan Mirağanı öz sarayına apardı". O birisi dedi: "Mən orada olmuşam. Onun əl-qolunu buxovlayıb palçığın içinə atıblar". Bir başqası dedi: "O quyunun ağzı dar idi. Əl-ayağını kəsib oraya atdılar". Bikar və avara adamlar dəstə-dəstə yığışıb bu işlərin söhbətini edirdilər. Darğanın şagirdləri üzlərini Seyyid

Həmzənin məzarına tutub qalmaqal saldılar. Bütün təbrizlilər – əsilzadədən tutmuş gədaya qədər – orada cəm oldular. Mirağanı tələb etdilər və müctəhid fətva verdi ki, o günahsız kişini öldürüblər. Avam adamlar bunların məqsədlərini nə bilsinlər? Bütün aləm oraya yığılmışdı. Sürxab kədxudasının fərraşlarının böyüyü qaça-qaça oraya gəldi ki, "Vaxt qənimətdir. Mən Sahibdivanın sarayında olmuşam. Mirağanı buxovlanmış gördüm. Qışqırırdı ki, bir saatdan sonra məni paytaxta aparmaq adı ilə çıxarıb oradaca öldürəcəklər". Qovğasalanlar yenidən qızışdılar. Sel kimi kişinin evinə tərəf axışdılar. Maneə də yox idi, çünki ramazan ayı idi. Adamlar yatırdılar və Xacənin evi boş idi. Bir anda həmlə edib evi daşa basdılar. Mən özümü oraya çatdıranda onlar artıq birunun[1] işini görüb üzü hərəmxanaya gəlməkdə idilər. Şəmsülüləmanı gördüm. O, məndən tez gəlmişdi. Daş onun düz ağzına dəymişdi, dişləri qırılmışdı və ağzı qan içində idi.

Özümü cəld evin əndərun[2] qapısına yetirdim. Qalabəyi Hacı Ağaxanı gördüm. Tapanca gülləsi ayağına dəymişdi. Halı pis idi. Cərrahla həkim onun yarasını sarıyırdılar. Mən ucadan türkcə dedim: "Sahibdivan aradan çıxıb. Birun onunki idi. Bu hərəmxana isə şahənşahındır. Böyük Xaqanın qızı və şahənşahın bibisi buradadır. Utanın və padşahın qarşısında cavab verəcəyinizi düşünün. Nə qədər ki, can bədənimdədir, qoymaram ki, hərəmxanaya keçəsiniz".

Adamlar bir az sakitləşdilər. Topxana rəisi Hacı Rəcəbəli xanı və sərtip[3] Məhəmmədağanı – ikisi də Xacənin düşmənlərindən idilər – orada gördüm. Topçuların və əsgərlərin hazır olmaları üçün şeypurun çalınmasına əmr vermişdilər. Qəzəbimdən tüklərim biz-biz durmuşdu, çünki bu yaramazları dəf etməyə gücüm yox idi. Mən həmin iki nəfərə üzümü tutdum ki, "Öz işinizi gördünüz. Bu şeypuru çalın ki, şəhər sakinlərinin burada baş verənlərdən xəbərləri olsun. Yoxsa topçu ilə əsgər daha nə

---

[1] Birun – evin kişilərə məxsus hissəsi.
[2] Əndərun – evin qadınlara məxsus hissəsi.
[3] Sərtip – bir neçə alaydan ibarət olan hərbi birləşmənin başçısı.

işə yarayar? Mən burada sözümü demişəm. Əgər bu qovğaçılar hərəmxanaya girsələr, həzrət şahənşaha ərz edəcəyəm ki, ordu rəhbərlərindən iki nəfər orada idilər, ancaq kömək etmədilər. Padşahın namusu əldən getdi”. Onlar ayılıb köməyə gəldilər. O adamlar hayasızlıq edib Xacəyə məxsus xeyli malı birundan apardılar. Bu həngamədə müctəhid Hacı Mirzə Cavad[1] özünü oraya çatdırdı. Öz bəlağətini nümayiş etdirdi. Qovğasalanları çölə çıxartdılar və ev boşaldı. Topçularla əsgərlərdən bir neçəsini hərəmxananı qorumağa qoyub özümüz bayıra çıxdıq.

## Bu çaxnaşmada Sahibdivanın hərəkətləri

Sahibdivan işin xarab olduğunu görəndə,əvvəl canına qorxu düşdü və onda heç bir şübhə qalmadı ki, onu görsələr, öldürəcəklər. Üzəngitutan onun üçün başqa qapıda bir at saxlamışdı. Baği-şimala getdi. Bu hadisədən sonra iki saat heç kəsin ondan bir xəbəri olmadı. Sonra orada olduğunu çatdırdılar. Vəliəhdin əmrilə mən və yüzbaşı Məhəmməd Baqir xan iyirmi nəfər süvarini götürüb getdik. Kişinin ağacın kölgəsində vüqarla oturduğunu gördük, qabağına da altıaçılan tapanca qoymuşdu. Məni görəndə üzü güldü. Dedim: “Saraya getməliyik” və sözarası işarə verdim ki, “qərar belədir”. Xacə dedi: “İki-üç nəfər nökər yanıma göndərin ki, buradan xilafət sarayına gedim”. Mindi. Yüksək sürətlə sürdük. Saraya getdi, həzrətin hüzuruna getdi, qayıtdı və divanda öz yerində əyləşdi. Katiblər başına yığışdılar, amma heç kəs o məsələ barədə bir söz demədi və o, ötən günlərdə olduğu kimi, hökm sürürdü. Belə səbrlə soyuqqanlığı düşmənlər üçün ölümdən də betər idi, bir çarə tapa bilmirdilər.

Bu əhvalatdan xəbər teleqraf vasitəsilə şahənşaha çatanda xilafətin mərkəzindən göstərişlər gəldi. Qəzəb və hiddətlə fitnəkarların cəzalanmasına və qarət olunmuş malın geri qaytarıl-

[1] Müctəhid Mirzə Cavad – Azərbaycanda ən böyük imamiyyə alimlərindən olmuşdu. Təhsili Hacı Seyyid Həsən Kuhkəməridən və Mühəqqiq İrəvanidən almışdı.

masına hökm buyurdular. Sahibdivan Sədrüddövlənin sarayın yanındakı evinə üç gün getdi-gəldi. Sonra Hacı Hüseyn İsfahaninin evinə keçdilər. Orada qərar tutdu. Təbrizin əyanları xahiş etməkdən ötrü sıraya düzüldülər. Ardınca növbə tam ehtişamla sərdarın evinə keçdi. Həmin ev əvvəldən onun qərargahı olmuş, hadisə də həmin evdə baş vermişdi və zahirdə cəldlik göstərmişdi. Şahənşah Xacəni dəstəkləmək üçün böyük səy göstərdi. Bir-iki gün keçmədi ki, padşanın yaxın adamlarından olan Nurməhəmməd xan Türkman məsələni araşdırmaq məqsədilə gəldi və ona sarayda yer verdilər. Bir neçə gündən sonra tarixçini saraya çağırdılar. Nurməhəmməd xanın olduğu yerə getdim. Mirzə Əhməd Münşibaşı orada idi. Evi boşaltdılar. Vəliəhdin möhürlədiyi bir bükülmüş kağızı mənə verib dedi: “Burada yazılanların hamısını yerinə yetirmək lazımdır”. Mən açdım. Bazar əhlindən on dörd nəfərin adı idi. Təbriz xalqı və xüsusilə o yaramaz işdə əli olanlar Nurməhəmməd xanın gəlişindən qorxuya düşmüşdülər. Mən bu on dörd nəfəri bir araya necə gətirməyin haqqında düşündüm. İndi bu alçaqlar ağla gəlib gözə görsənmirlər. Böyük Xacənin yanına getdim. Gizlicə bu sözü dedim. Dedi: “Mən nə etməli olduğunu sabah deyəcəyəm”.

Səhər çağı vəliəhd məni yanına çağırıb buyurdu: “Bütün bazar əsnafları hüzuruma gətirməlisən ki, məndən şəfqət sözlərini eşitsinlər”. Dedim: “Baş üstə”. Axşam bir fərraş gəlib məni saraya apardı. Münşibaşı hərəmxananın qapısı ağzında durmuşdu. Oraya apardılar. Sarayın dalanında dayanmış vəliəhdi gördüm, yanındakı hərəmağası əlində çıraq tutmuşdu. Ona buyurdu: “Çırağı söndür və get”. Münşibaşıdan başqa heç kim qalmadı. Buyurdu: “Səndən o on dörd nəfəri istəyirəm. Əgər onlardan biri qaçsa, səndən soruşacağam".

Mən həmin adamları bir neçə gün dəstə-dəstə gətirirdim. Mərhəmət sözlərini eşidirdilər. Vəliəhd hər dəstəyə buyurdu: “Eşitmışəm ki, Təbriz camaatı Sahibdivanın bu işindən həyəcan keçirir. Biz bilirik ki, Təbriz xalqı padşahpərəstdir, heç vaxt ona xilaf çıxmazlar. Bu yaramaz işi nalayiq adamlar görüblər. Siz ürəyinizi sıxmayın, Dolanacağınızı və sənətinizi düşünün”.

Bir neçə gün keçdi, mən bir dəstə ağsaqqalı yığdım və həmin fitnəkarları hüzura apardım. Onlar da həmin sözü eşitdilər. Onlar çıxanda qapılar bağlı idi. Bir-bir göstərirdim və fərraşlar onları tutub əllərini bağlayırdılar. Sonda darğa Məhəmməd Sadiq xanın yaxasından tutdum. O, başına belə işin gələcəyini ömründə güman etməzdi. Məm bu hərəkəti əmri yerinə yetirməkdən ötrü etdim. Yazığın qorxudan az qala canı çıxmışdı. Həzrətin yanına getdim. Fərraşbaşıya buyurdu ki, “Sarayın meydanında Sadiq xanın və o fitnəkarların ayaqlarını falaqqaya bağlayıb ağacla kötəkləyin və həbs edin”. Mənə buyurdu: “Sən orada ol ki, yaxşıca tənbeh etsinlər”. Getdim. Bir-bir kötəkləyirdilər. Fərraşbaşı Sadiq xandan çox acıqlı idi. Daha bərk vurmağı əmr etdi. Yazıq lap əldən düşmüşdü. Mən oradan Xacənin yanına getdim. Şikayətlənirdi ki, “Bu işin nə faydası var idi”. Bu sözlə xalqın günahı olmadığına işarə edirdi. Bu işi onlar özləri qurub həyata keçirtdilər. Bundan sonra fitnəkarları cərimələdim. Böyük Xacə həzrət xilafətə nə qədər gileylənsə ki, onu dərgaha aparmadılar, padşah bunu qəbul etmədi. Baş vermiş hadisələr zamanı qarət olunmuş mal vəkil tərəfindən on min tüməndən artıq məbləğdə qiymətləndirildi. Xacə onu heç bir yolla qəbul etmək istəmədi. Məcbur olaraq bəylərbəyin evində qoyduq.

## Hekayət

Xacə o əhvalatdan sonra çox iztirab çəkdi. Deyirdi ki, “Məndən aparılanların hamısını halal etdim. Bəlkə dəridən tikilmiş firəngi heybədən başqa ki, içində sənədlər olub, heç bir dəyəri yoxdur və onu oğurlayana da bir fayda verməz. Onu aparana, əgər geri gətirsə, min tümən mükafat verərəm”. Öz dostlarına bu sözü təkrar-təkrar söyləyərdi və xahiş edərdi ki, “zəhmətinizi əsirgəməyin”. Nə qədər axtarsaq da, o heybədən bir əsər tapılmadı. Axırda bir gün kimsə vəkilə dedi: “Sahibdivanın sarayına girənlərdən olan və o gün Xacənin həmin xəlvətxanasına daxil olub çiynində çoxlu şeylər apardığını gördüyüm birisi dünən qohumunun Acıruddakı evinə gəldi və

mən fikir verdim ki, abasının altında, qoltuğunda nəsə var idi". Vəkil bir neçə nökərini həmin yerə göndərdi. Ev yiyəsini tutub gətirdilər. Onu qorxutdu ki, "Dünən qohumunun gətirdiyini verməlisən. Verməsən, əbədi dustaq qalacaqsan". O biçarə ağlayıb and içdi ki, "Mən dünən evdə olmamışam. O yaramaz kağızla dolu heybəni gətirib bacısına verdi (mən də onun əriyəm) ki, gecə bu heybəni çaya atın. Allah bilir ki, bundan başqa heç nə olmayıb. Mən evə gələndə arvad bunu mənə dedi. Mən də onu danladım ki, niyə o heybəni evdə qoyub. Yorulub tam əldən düşmüşdüm. Bu məsələ elə də qaldı. Heybə indi evdədir".Vəkil adam göndərdi və gətirdilər. O düzdanışan kişini sərbəst buraxdı, ona nəsə əta etdi və heybəni götürüb Xacəyə verdi.Çox sevindi. Açıb yazıları gördü. Hamısı yerində idi. Vəkilin oğluna hədiyyə verdi və özü də rahatlandı, çünki yazılar orada idi, o isə qorxurdu ki, düşmənlərin əlinə düşüb. *Son.*

Xacənin bu işi belə bitəndən sonra onun ürəyi tam sakit oldu, hərçənd dərgaha yalvarmışdı, ancaq şahənşah qəbul etmədi. Ordu başçısı nə qədər o kişini birdəfəlik yıxmağa çalışsa da, padşah buna yol vermədi. Novruz yaxınlaşanda həzrət xilafətin göstərişi ilə vəliəhd Reyə tərəf getdi. Orada Sahibdivan şahənşahın hüzuruna gəlib Azərbaycandakı vəzifədən uzaqlaşmaq istədi və istefası qəbul olundu. Ordu başçısı bu məmləkətin işlərini boynuna aldı. Vəliəhd Təbrizə gəldi. Mirzə Əhməd münşibaşı işdən ayrıldı və tam sərbəst oldu. Şəhərin hakimiyyətini məndən alıb Şüaüddövlə Lütfüllah Mirzəyə verdilər. Bu hadisə mən Sahibdivanın gömrüyündəki dostlarımın yanında olarkən baş vermişdi. Bütün Azərbaycanın əmini-ləşgəri olmuş Mirzə Qəhrəman mənə lütfünü göstərdi. Buna yol verməməyə nə qədər çalışsa da, Şüaüddövlə dirənib bütün işləri xarab etdi. Mən hesabımı dəftərdə qeyd edib asudə oldum.

Bu Şüaüddövlə Lütfüllah Mirzə Naibüssəltənənin iyirmi üçüncü oğlu idi. Onun maması Böyük Xaqanın əmisi Əliqulu xanın qızı idi. Düzünü Allah bilər, bu oğul haqqında başqa qardaşları cürbəcür sözlər danışardılar. Sahibdivan vəliəhdi müşayiət edərkən həzrət xilafətin hüzuruna gedəndə Şüaüd-

dövləni Ərdəbildən gətirib Təbrizdə vəliəhdin naibi yerinə qoydu. Onun əli bütün Azərabadəgana çatırdı və heç bir müxalifət tanımırdı. Bundan öncə mənim getməyimi istəyəndə məni xəbərdar etdi, onu çağırdı və mehribanlıq göstərib belə dedi: "Siz mənim dostlarımsınız. Bir-birinizə də yar olun ki, mən darülxilafətə gedirəm və işin hər tərəfinə baxacağam. Əgər mənim arzuladığım iş baş tutsa – gələcəyəm, tutmasada da sizə bir ziyan dəyməyə qoymamağa gücüm çatar". Üzrxahlıq etdik. Mənim əlimi o qaraniyyətlinin əlinin üstünə qoyub getdi.

Mən saf ürəklə həmin nanəcibə xidmət etdim. O bu sözləri gizlicə Münşibaşıya demişdi və buradan yalanlar yazmışdı ki, "Xalq Sahibdivanın əlindən təngə gəlib və qorxu içindədir. Onun gətirilməsi xəta olar" və həmçinin başqa fitnəkarlıqlar edirdi. Mənim isə xəbərim yox idi. Əmini-ləşgər bütün idarə işlərin başına gətirildi. O, burada da fitnə-fəsad törətməyə başladı, bütün saray xidmətçiləri arasına nifaq saldı və nəticədə əmini-ləşgər təngə gəldi. O, çarəsiz qalıb istefa verdi və getdi. Münşibaşı ixtiyar sahibi oldu.

Bir gün Baği-şimalda Əmini-ləşgərin çadırında idik. O,[1] mənimlə kobud danışmağa başlayıb dedi: "Əgər indi o kişinin evinə göndərsələr, Sahibdivanın məktublaşmasından sizə qarşı yazılmış bir sandıq namə çıxar". Dedim: "Düz deyirsən. O gün biz səninlə hər ikimiz o böyük adamın dostları idik. Sən namərdlik göstərib əmanəti dünya malına satdın və yaxşılığa yamanlıq etdin. Mən isə xəyanət etmədim, indi də o Xacə ilə dostuq". Əmini-ləşgər və başqaları mənim bu sözlərimi təqdir ertdilər. Bu alçaq novruza qədər qaldı. Bir gün vəliəhdin hüzurunda Azərbaycan ordusunun başçısı olmuş Etimadüssəltənə Mustafaqulu xan Qaragözlü ilə söz güləşdirirdi. Ağ yalana and içdi. Həmin anda halı pisləşdi. Evinə apardılar. İki gün qalıb öldü. Məncə, onu o dünyada çox sorğu-suala tutacaqlar, çünki bədəməl adam olub.

[1] Yəni Münşibaşı

Onun öldüyü gün xoşbəxt vəliəhd şəhər hakimiyyətini və üstəlik anbarlara nəzarəti mənə tapşırdı. Mənə nə qədər əziyyət verilsə də, mən Allah-təalanın köməyi ilə intiqam hissimi boğdum. *Son.*

## Şeyx Məhəmməd Siyahpuşun[1] məzarı haqqında

Həşrinin "Təzkirə"sində deyilir ki, o, həzrət Əmirülmömininin yolunun davamçısı olmuş və Nurbəxşiyyə sülaləsindəndir. Bu tayfanın [qara] geyinməyinin səbəbi odur ki, həmin qövmün kamil insanlarına axırda qara işıq görünəcək və bu da Nurullahdır[2].

*Mən deyirəm.* Mən bu sözü Mühyiəddin Ərəbinin əsərlərindən birində görmüşəm ki, öz mükaşifələrində belə deyir: "Rəeytü Əliyyən *fin-nuril-əsvəd*" və ya "*fi nurin əsvəd*"[3] ("lam"sız).

Həşri yazır: – Deyirlər ki, Şah İsmayıl Şeyxdən soruşdu: "Niyə qara geyinirsiniz?" Dedi: "Məhərrəmdir. Seyyidüşşühədaya (ə) matəm saxladığımıza görə bizim tayfamız qara geyinib. Sultan Heydərin şəhadəti xəbəri çatandan sonra biz qaranı əynimizdən çıxartmırıq". Bu söz yaltaqlıqdan uzaq deyil.

## Lətifə

Bir kitabda oxumuşam ki, arzusuna çatmış Teymur bu qarageyinənlərdən birinə dedi: "Bu qara geyinmək nədir?" Dedi: "Mən öz nəfsimi öldürmüşəm. Onun yasını tutmaq üçün qara geyinmişəm". Əmir buyurdu: "Əgər öldürmüsənsə, daha onun yasını niyə tutursan?" Cavab gəlmədi. *Son.*

---

[1] Siyahpuş – qarageyinən.
[2] Yəni Allahın nurudur
[3] Əlini qara işıqda gördüm.

Bu şeyxin məzarı indi Vicuyə məhəlləsində dağılmış haldadır. Mənim həmin əziz əmioğlum zəhmət çəkib oraya getdi. Onun yazıb göndərdiyi müşahidələrini mən burada gətirirəm.

## Mürtəza Mirzənin dilindən Şeyx Məhəmmədin məzarı haqqında

Seyyid Məhəmməd Siyahpuşun türbəsi Vicuyə məhəlləsindədir. Oradan Seyyid Həmzənin türbəsinədək şəhərin qərbinə tərəf beş min addımlıq məsafə var. Kiçik meydandan (üç taqnəma[1] uzunluğuna və iki taqnəma eninə) ibarətdir. Bu meydançadan iki paya türbəyə daxil olur. Türbənin özü dairəvi məscid[2] şəklindədir və ortasında məzarın üstündə taxta sandıq yerləşir. Bu türbənin günbəzi içəridən malalanıb, üzərinə gəc çəkilib və nəqqaşlıq işi yerinə yetirilib. Günbəzin içəri tərəfdən çevrəsinin uzunluğu təqribən iyirmi beş zər'dir. Sandığın üstü [şeyxin] adına müvafiq olaraq qara kətanla örtülmüşdür. Türbənin Qiblə tərəfində, şəbistanın[3] divarında qəmir pəncərə qoyulubdur.Həmin pəncərənin arxasında da uzunluğu altı taqnəmadan, enliyi isə beş taqnəmadan ibarət meydança vardır və bu da türbənin bir hissəsidir. Bu meydanın içindən saf sulu çeşmə axır. Adıçəkilən dəmir pəncərənin sağ tərəfində, şəbistanın səkisinin üstündə divara uzunluğu yarım zər'* və eni bir zər'dən artıq olan iki daş parçası bərkidilmişdir. Daş davamsızdır və onun üzərində türbənin mövqufatı haqqında məlumat həkk olunmuşdur. Daşın bəzi yerləri tökülüb məhv olmuşdur. Oxunan iki sətir aşağıda verilir:

"Miskin bəndə, Allah-təalanın rəhmətinə möhtac olan əl-Hac Məhəmməd ət-Turxani tikdi və pak torpağın yarısını, hamamla karxananın da yarısını əməli-saleh yoxsullarla miskinlərə vəqf etdi".

---

[1] Taqnəma – divarın üzərində çəkilən tağa bənzər naxış.
[2] Səhvən zaviyənin yerinə məscid yazılıbdır (Q.Təbatəbai Məcd).
[3] Şəbistan (burada) – gecə vaxtı ibadətlə məşğul olmaq üçün nəzərdə tutulmuş hücrə.

Yazının qalan hissəsi də həmin qərarla mövqufatın və vəqfin şərtləri haqqındadır və ondan xaric deyil. Tarix yeri tökülüb və tapılmazdır.

Təkyənin səkisində divarda yerləşdirilmiş digər qara daş başqa bir qəbrin daşıdır. Bu daş çox bərkdir, uzunluğu yarım zər'* və eni yarım zər'dir. Daşın üzərində bu şərafətli ayə nəqş olunmuşdur: *"Xələqəl-insanə min səlsalin kəl-fəxxar"*[1] [və ardınca] "Yazıq ustad Hacı Məhəmməd Təbrizi əl-Fəxxar, 892-ci ildə[2]". Türbədəki məscidin bir tərəfində daşa sürahi kimi bərkidilmiş, kənarları bərk və haşiyəli, yarım zər'* boyda sınıq mərmər yerə düşmüşdür. Ərz olunmuşlardan başqa heç bir əsər-əlamət yoxdur.

## Seyyid Cəmaləddinin məzarı

İndi "Köhnə imamzadə" deyərlər. Əmioğlum öz müşahidələri haqqında belə yazır:

"Köhnə imamzadə" adı ilə tanınan imamzadə Seyyid Cəmaləddinin məzarı Vicuyə məhəlləsində, şəhərin qərbində, Seyyid Həmzədən üç min addımlığında yerləşir. Vicuyə məhəlləsində, şəhərin qərbində, bir şəxsin daxil olduğu yerin başlanğıcında uzunluğu otuz addım və eni altı addım olan məscid yerləşir və məscidin bayır tərəfində, yuxarıda, mərmər daşın üzərində aşağıdakı kəlmələr yazılıb:

"Bismillahir-rəhmanir-rəhim

Nurluların ən nurlusu imamzadə Seyyid Cəmaləddin adı ilə şöhrət qazanmış Musa bin Cəfərin məzarıdır. Onun soy-kökü imami-hümam[3] Museyi-Kazıma (ə) çatır. Hüseyn əl-Musəvi naxışladı. 1244-cü il[4]".

Məscidin axır hissəsində ayrı bir qapı qoyulub və oradan türbəyə daxil olurlar. Türbənin günbəzi və taxta sandığı var.

---

[1] İnsanı saxsı kimi quru palçıqdan yaratdı. Rəhman. 14

[2] Miladi təqvimilə 1487

[3] Hümam – hümmət sahibi.

[4] Miladi təqvimilə 1828/29

Türbənin mehrabında daş gülkarlığı üslubunda işlənmiş qara daş vardır. Ərz olunmuşlardan başqa heç bir yazı və memarlıq əlaməti yoxdur. *Son.*

Həşri yazıb:“Məşhur Musa bin Cəfər Səncəlan məhəlləsində göy günbəzlə (?). O həzrət dörd ya beş vasitə ilə musəvidir. O həzrətə imamzadə Cəmal deyərdilər. O səbəbdən ki, atasının üzü qəşəng və zərif olub. Bəziləri ona boyunduruq sahibi imamzadə Musa deyirlər, çünki əsirlikdə onun boynuna boyunduruq salmışdılar. Həmin türbəyə yaxın məscid və minarə olub. “Məscidü minari-Sahib” deyərdilər. Minarənin aşağısında quyu var idi. Seyyid Cəmal yeddi il orada məhbus olmuşdu. Məscidi-Sahibin zirzəmisi olub, bir çox övliyanın dəfn olunduğu yerdir. Orada arzu edilənlər yerinə yetirilərdi”.

## Əcibə

Sahibdivan Mirzə Fəthəli xan bu türbənin dağılmasını eşitdi və ona doğrusunu dedilər. Burada Hacı Əhməd adlı mötəbər tacir və tacirzadə olub. O indi darülxilafətdədir. Onun bibisi Naibüssəltənənin sarayında idi. Adlı-sanlı uşaqların anasıdır və atasının əmisi uşaqlarından bir qız Sahibdivanın sarayında idi. Böyük Xacənin uşaqlarının anası onu çağırdı. Ona qızıl pulla bir məbləğ saydılar və türbəni təmir etməyi sifariş verdi. Bu hacı sərvət sahibi idi. Qızılı aldı, xırda-para pul sərf edib dəlmədeşikləri tutdu, üstünü gəclə örtdü, qızılları da yedi. Çox keçmədi ki, bu tikili dağıldı. İndi də elə dağılmış vəziyyətdədir və şəhər sakinlərinin heç veclərinə də deyil.

## Köhnə imamzadə

Təbrizlilər “Üç ələmdar” da deyərlər. Həşri deyir: “Belə deyirlər ki, Abdullan bin Zeyd bin Həsənin qəbridir. Günbəzi “Əmir Mövla günbəzi” kimi məşhurdur. Lövhəsi qırmızı daşdandır. Məhv olmayıb. Orada [ərəbcə] bunlar yazılıb:

*“Bura Abdullah bin Zeyd bin imam Həsən bin Əli bin Əbi Talibin şərafətli rövzəsidir”*[1].

Bu günbəzdə iki başqa qəbir də var. Biri Əmir Mövlanın məzarıdır. Atası Təbrizin hakimi olub. Oğlunu orada dəfn edib. Atasının adı Vəhsudan bin Məhəmməd Rəvvadidir[2]. Başqa qəbir həmin Vəhsudanındır”.

*Mən deyirəm.* Bu Vəhsudan Deyləmin məşhur sərdarlarındandır və adı çox yerlərdə çəkilib. Hakimbiəmrillah Abbasinin dövründə Azərbaycanda hökmranlıq etmiş və Təbriz zəlzələlərdən dağıldıqdan sonra o şəhərin bərpa edilməsini münəccim Bu Tahirin ixtiyarına vermişdi. Həmin əmioğlumun öz müşahidələrindən qeydə alıb göndərdiklərindən burada gətirirəm:

## Əmioğlu Mürtəza Mirzənin yazdığı

Vicuyə məhəlləsində adını unutmuş olduğum digər bir köhnə imamzadə vardır. Bu imamzadənin uzun daxili meydançası var: eni altı addım və uzunluğu iyirmi beş addımdır. Onun qapısının üstündəki mərmər daşın üzərində [ərəbcə] aşağıdakı sözlər həkk və nəqş olunubdur:

*“Bu mübarək türbənin bərpası ali hacı xanım hökmdar və şahzadə (onun əzəməti davamlı olsun!), mərhum mərhəmət və əfv sahibi, hökmdar Naibüssəltənə ibn Fəthəli şah Qacarın (qəbri nurla dolsun!) qızının əmri əsasında tamamlanmışdır. 1280-ci il*[3]*”.*

Adı guya Seyyid Yəhya olan bu imamzadənin türbəsi Seyyid Cəmaləddinin türbəsindən daha böyük və genişdir və ona bitişən sütunlu məscidi də var. Bu məscidin qapısının üstündə qara daş yerləşdirilib və daşın üzərində qədim süls xətti ilə aşağıdakı kəramətli ifadəni həkk ediblər:

---

[1] Bu səhvdir. Əslində isə lövhədə yazılandan məlum olur ki, orada dəfn olunan Əli bin Mücahid bin Zeyd bin Əli bin Əli bin Əbi Talibdir (ə) (Q.Təbatəbai Məcd).

[2] Rəvvadilər VIII əsrdə Azərbaycana gəlmiş ərəb tayfasıdır.

[3] Miladi təqvimilə 1863/64

*"keçmişlərini əhatə edə bilməzlər"*[1]

Ərz olunmuşlardan başqa heç bir tikili görünmür.

## Cənab Seyyid Həmzə haqqında

Həşrinin yazdığı budur: "Həzrət Seyyid Həmzə Sürxabın civarında yer alır. Onun günbəzlə imarəti hündürlükdə günəşlə bərabərlik bəhsinə girib, məqbərəisə Ədn cənnəti ilə səfada və havanın gözəlliyində yarışır. O, ən ali soylu cənablardandır, on altı nəfər vasitəsilə İmam Museyi-Kazıma (ə) yetişir və məzarının üstündə onun nəslinin həzrət Rəsula (ə) çatdığı haqqında yazıblar. Sultan Qazan onlarla gözəl söhbətlər etməyə böyük meyil göstərərdi və getdiyi səfərlərin əksəriyyətinə onları özü ilə apardı. Yeddi yüz on dördüncü ildə[2] vəfat edib. Və o imarəti oğlu Mirzə Hüseyn tikdirmişdi.

Həmin yerdə həzrət əmirülmöminin Əli ibn Əbi Talibin (ə) şərafətli xətti ilə yazılmış Müshəf vardır. Burada adamların bir-birinə and içdirmələri çox olur. Nahaq yerə and içən elə həmin yerdə ölər ya həmin gün və ya həmin gecə ölər. Elə də olur ki, dava və düşmənçilik üstündə Seyyid Həmzəyə gedən təbrizlilər qorxudan and içmirlər. Ən düzünü Allah bilər.

İndi isə əmioğlunun müşahidələrindən.

## Mürtəza Mirzənin yazısının surəti

Seyyid Həmzənin mübarək türbəsi Sürxab məhəlləsindədir. Bu binanın çoxlu mövqufatları, o cümlədən hamamları və dükanları, olub və var. Bu türbənin təsviri aşağıda ərz olunduğu kimidir:

Həyət qapısının yuxarısında, tağın üstündə bir mərmər yerləşdirilmiş və o mərmərin üzərində bunlar həkk olunmuşdur:

---

[1] Taha. 110

[2] Miladi təqvimilə 1315/16

“Hüvəl-baqi. Əzəmətli əlahəzrət, aləmin pənah apardığı şahənşah Nasirəddin şah Qacarın (Allah onun mülkiyyəti ilə səltənətini saxlasın!) qüdrətli əmrinə əsasən cənab Həmzənin bu şərafətli meydanının mərmərlə işlənməsi Hacı Rüstəm bəy tərəfindən böyük səy və diqqətlə yerinə yetirilmişdir. 1289-cu il[1]”.

Mərmərin altında tağın qapısındakı mərmər daşın üzərində bu mübarək ayə həkk olunub:

*“Oraya sağ-salamat və əminliklə daxil olun!”*[2]

Bu qapının sol tərəfində aşağıdakı misra həkk olunub:

“Allahın adı bilik ilə bağışlanma məqamıdır”

Sağ üzündəki misra isə ortadan çatlayıb və onun yerində bir mərmər qoyublar.

Bu türbənin iç həyətinin uzunluği yetmiş beş addım, eni qırx üç addımdır. Həmin həyətin ətrafında ümumi sayı əlli beş olan alt və üst hücrələr tikiblər. Adam türbəyə daxil olduğu yolun başlanğıcında kiçik dəhlizsayağı məscid inşa ediblər və bura xadimlərin oturduqları məkandır. Bu dəhlizin qapısı hərəmin ortasına açılır. Qapının üstü mərmərdəndir və üzərində iki söz (?) həkk olunmuşdur:

***Bismillahir-rəhmanir-rəhim vəl-həmdülil-lahi fis-səməvati vəl-ərd və hüvəl-əzizül-həkim***

Qapının haşiyəsində, sağ tərəfdə bu doğru yol göstərən ayəni həkk ediblər:

*“Salam əleyküm! Xoş gəldiniz! Əbədi olaraq daxil olun!”*[3]

---

[1] Miladi təqvimilə 1862/63
[2] Hicr. 46
[3] Zümər. 39

Və daha bir ayə yazılıb:

*“Oraya sağ-salamat və əminliklə daxil olun!”*[1]

Həmin qapının sonunda, sağ yanda bu misranı həkk ediblər:

“O vilayətnişan şahın bəndəsi”

Sol tərəfdə isə bu misra var:

“Azərbaycanın vəziri Mirzə Məhəmməd İbrahim”

Hərəmə açılan bu qapıdan sağ tərəflə pillə-pillə gedərək türbənin özünə daxil olarlar. Cənab Seyyid Həmzənin məzarı bu türbədədir. Taxta sandıq və sandığın üstündə lövhələr və divarda çərçivənin içində Mirzə Mahmud xan Müstövfiyi-nizamın nəstəliq xətti ilə yazılmış çox böyük ziyarət lövhəsi asılmışdır. Əgər türbənin və binanın tarixi yazılmışdısa da, yerə düşüb yox olmuşdur. Bəndə böyük diqqətlə axtardım, tapmadım.

Türbə meydanının yuxarısında uzunluğu təqribən on zər’* və eni üç zər’* olan hovuz vardır, ətrafı daşdandır. Burada meydana bitişik geniş məscid mövcuddur. Onun bir yolu meydanın özündən, digəri isə çöldəndir. Hərəmin sol tərəfindəki divarı aradan götürərək onun arxasında mərhum baş sərdar Əziz xanın qəbri üçün məqbərə tikiblər. Oraya həm türbədən, həm də çöldən yol var. *Son.*

Əmioğlunun yazısında meydanın sonunda göstərilən həmin geniş məscid “Qızıllı məscid” adı ilə məşhurdur. Onun divarları qızıl və lacivərdlə bəzədilmiş və mən onu keçən illərdə görmüşəm. İndi də yerindədir. Bu binanı Cəfərqulu xan Dünbüli tikdirib.

İndi isə bu kitabda zəhmət payı olan əmioğlumdan danışmaq məqamınaçatdıq. Bu əmioğlu İsgəndər Mirzənin dördüncü oğludur və maması Böyük Xaqan Fəthəli şahın böyük oğlu mərhum

---

[1] Hicr. 46

Məhəmməd Əli Mirzənin qızıdır. Onun maması Şeyxəli xanın nəvəsi əmir-nizam Məhəmməd xan Zəngənənin bacısıdır, çox kübar, mömin və hörmətli xatundur, indi də iki uşağı ilə qalır. Kə'bəyə gedib islam həccini yerinə yetirdi. Hal-hazırda xoşluq və ehtiramla öz evində yaşayır. Mən bu kitabda bütün qardaşları yad edim, çünki hamısı qədimdən mənim yaxşı dostlarımdır. Bunu da onlara yadigar edim. Allah bilir ki, mən bu ailə haqqında düzünü demişəm.

## İsgəndər Mirzə

Naibüssəltənə Abbas Mirzənin altıncı oğludur. Bilikli, xasiyyəti və hərəkətləri xoş, tərbiyəli şahzadə olub, bəzi elmlərdən xəbəri var idi, atası və qardaşları yanında hörmət qazanmışdı. Asudəliyi çox xoşlayardı. Onun məclisində heç vaxt elm sə sənət adamları əskilməzdi. Atasının dövründə bu şəhərdə taun xəstəliyi yayıldı və adamlar ayrı-ayrı yerlərə səpələndilər. Naibüssəltənə hərəmin xadimləri ilə birlikdə üzünü qaçmağa qoydu, Təbrizin naibliyini isə bütövlükdə böyük oğullarına ərz etdi. Onlar da hamılıqla qorxudan başlarını itirmişdilər və yalnız əmirzadə igidlik nümunəsini göstərib yerində qalmışdı. Bu hadisə hicrətin min iki yüz qırx altıncı ilində[1] baş vermişdi.

Sözügedən fəlakət bu əzəmətli şəhərin yaddaşına yazılmış sayca dördüncü taun oldu. Birincisi min yüz əllinci ildə[2], qüdrətli şahənşah Nadirin qardaşı İbrahim xan Etizadüddövlənin oğlu İbrahimxanın sərdarlığı dövründə olmuşdu. İkincisi min yüz səksən birinci ildə[3], Şəhid Xaqanın hakimiyyəti dövründə oldu. Üçüncü dəfə min iki yüz on ikinci[4], yəni Böyük Xaqanın şahənşahlığının birinci ilində ümumi olmuş və bütün Azərabadəgana sirayət etmişdi. Dördüncüsü isə yuxarıda yazdığımdır. Beşinci dəfə

[1] Miladi təqvimilə 1830/31
[2] Miladi təqvimilə 1737/38
[3] Miladi təqvimilə 1767/68
[4] Miladi təqvimilə 1797/98

hicrətin min iki yüz əllinci ilində[1] oldu. O, ümumi olmadı, Ərdəbildə, Talışda və Mişkində oldu, Təbrizdə də özünü göstərdi. Tanrının mərhəməti ilə bu bəla tezliklə aradan qaldırıldı.

Bu xəstəlik aradan qalxandan sonra Naibüssəltənə oğlunu əzizləyib hörmət göstərdi. Böyük qardaşının vəliəhdliyi dövründə qazi padşah Xoyun və Səlmasın hökmdarı oldu. Ondan sonra saraya getmədi və Təbrizdəki evində hörmət içində rahat yaşayırdı. Şahənşahlığının ilk ilində bu padşah xilafətin paytaxtında və Qəzvində hökmranlıq etmək ixtiyarına sahib odu. Bu hakimiyyəti təsdiqləyən sənədin surətini burada gətirirəm:

## Fərmanın surəti

Qızıl su ilə çəkilmiş tuğradan sonra: "Xudavəndi-kərim aləmdəki iqlimlərin cilovunu bizim müqəddəs və humayun həzrətimiz,bilik, qabiliyyət, nəcabət və fəzilət sahibinə tapşırdı və kiçiklə böyüyün, taciklə türkün idarəetmə nizamını hər yeri əhatə edən ədalətə və tam zəmanətə təhvil verdi. Biz də əbədi sifətlərin mərkəzi və silinməz lütflərin məqamı olan zillüllahın ürəyindəki lövhün hədiyyəsinə şükr və kəramətinə həmd mərasimini qayda üzrə yerinə yetirdik ki, dünya üzünü zülm ilə zəlillik zəngindən və əziyyət ilə müsibət rəsmindən təmizləyək, bu aləmdəkiləri rahatlıq bulağına və əmin-amanlıq çayına gətirək, saleh əməllər ilə ehsan qapısını yaxın və uzaq amallar ilə məqsədlərin üzünə açaq, ümmətlərin tayfalarından hər birinə padşahın kəramət lütfündən və nemət iltifatından bir töhfə verək və İran sakinlərini əlindən gələni əsirgəməyən hakimlərin və xeyirxah icraçıların möhkəm ədaləti və hər yerə sirayət edən insafı ilə sevindirək ki, qanı qaralmış və qəlbi sınmış qalmasın.

Yuxarıda deyilənlərə əsasən məliklərə xas ümman boyda himmətə və hökmdarlara məxsus uğurlu səyə ehtiyac vardır ki, padşahanə lütfümüzü Qəzvin darüssəltənəsinin əhalisinə göstərək ki, həm yerli, həm qərib, həm alim, həm avam bizim günü-gündən artan ədalət ilə mərhəmətimizdən bəhrələnə bilsin və həm ağ, həm

---
[1] Miladi təqvimilə 1834/35

də qara günlərində ümid üzlərini şahənşahın mərhəmətinə çevirsinlər. Əziz əmi İsgəndər Mirzəyə məxsus ədalətsevərliyin dayanıqlığı, səxavətin genişliyi, bacarığın yüksəkliyi və sədaqətin möhkəmliyi şəhriyarım günəş kimi işıqlı rəyinə məlum olduğuna görə rəhmət ilə mərhəmətin başlanğıcında duran bu "piçi yıl"[1] ilinin sonlarında Qəzvin şəhəri ilə vilayətinin hökumətini onun yenilməz ixtiyarına həvalə etdik ki, rəiyyətlərin rahat gün-güzəranını, vilayətin nizam-intizamını və divanxanaya çatacaq vergilərin yığılmasını təmin etmə yolunda gözəl səylərini və güclü cəhdlərini əsirgəməyib özbaşınalıqla düşmənçiliyin yüyənini o bölgədən döndərsin. Qəzvin darüssəl-tənəsinin əhalisi adıçəkilən əziz əminin müstəqil hakimiyyətini olduğu kimi tanıyıb onun əmrləri ilə yasaqlarına boyun əyməyi öhdələrinə alsınlar.

*Min iki yüz altmış dördüncü ilin zihiccə ayında[2]yazıldı."*

Fərmanın başında, birinci sətrin sonu ilə üzbəüz şahənşah öz xətti ilə bunları yazmışdır: "Düzdür. İnşallah mübarəkdir". *Son.*

Böyük atabəyin süqutuna qədər şahzadə Qəzvində hökmranlıq etdi. Baş vəzir Mirzə Ağaxan Qəzvini başqasına verdi. Şahzadə Azərbaycana gəldi. Daha hökumət işinə qarışmazdı və Təbrizdə qalardı. Hicrətin min iki yüz yetmiş üçüncü ilinin zihiccətül-haramın iyirmi ikisində[3] o dünyadakı sarayda yer aldı. Allah ona rəhmət eləsin! Bu şahzadənin doğum günü min iki yüz iyirmi altıncı ilin rəcəbül-mürəccəbin beşinə[4] təsadüf edir. Ondan sonra bu anadan beş oğlu qaldı. *Birincisi:*

## Məhəmməd Tahir Mirzə

Fəzilətə, elmə və ədəbə sahib olmuş bir əmirzadədir. Əvvəl atasının səyi sayəsində təhsil kəmərini belinə bağlamışdı. Elmdə, ədəbiyyatda və ərəbcə nitq söyləməkdə hamıdan seçi-

---

[1] Piçi yıl – meymun ili, qədim türktəqvimindəon ikiillik dövrün doqquzuncu ili.
[2] Miladi təqvimilə 1848
[3] Miladi təqvimilə 13 avqust 1857
[4] Miladi təqvimilə 26 iyul 1811

lirdi. Ondan sonra Firəngistanın ən məşhur və gözəl dili olan fransız dilini də yaxşı öyrəndi[1]. Riyaziyyat elminə də kamil surətdə yiyələnib, bütün dillərlə də tanışlığı var. Şahənşahın hüzurunda hörməti böyükdür. Xilafət dərgahının böyükləri onunla bir məclidə oturub söhbət etməyə çox meyillidirlər. İndi paytaxtda əziz və nüfuzlu adamdır və bir an belə kitab mütaliə etməkdən ayrılmaz. O da böyük atası kimi sərbəst həyat sürməyə üstünlük verir. Bu şahzadəyə dəfələrlə şərəfli iş təklif etsələr də, tərkidünyalığı və təcrid olmağı seçmişdi. Hicrətin min iki yüz əllinci ilinin adına günü, şəvvalül-mükərrəmin iyirmi birində[2] bu dünyaya gəlmişdi. Bu əmirzadə Məkkəyə gedib islam həccini yerinə yetirmişdi, Seyyidüşşühədanın şəhadət yerinə və digər müqəddəs yerlərə baş çəkmək şərəfinə nail olmuşdu.

## Tamamlama

Bu fəzilətli şahzadə Təbrizdə yaşayanda biz onunla mehriban olmuşduq və gecə-gündüzlərin çoxunu bir yerdə keçirərdik. Sözümüz elmdən və ədəbiyyatdan olardı. Bir gün söhbət əsnasında mən bu nəcib adama xoş niyyətlə "həkim" deyərək xitab etdim. Bundan sonra nə qədər ki Təbrizdə qalmışdı, ona belə müraciət edərdilər. Bu söz ilhamverici idi. Həqiqətən də xitab yerinə düşmüşdü. *İkinci oğul:*

## Kamran Mirzə

Vüqarlı, yumşaq xasiyyətli və düzdanışandır. Ərəb və fransız dillərinə yiyələnib və həzrət vəliəhdin sarayında mənsəb və ruzi sahibidir. Min iki yüz əlli üçüncü ildə[3] anadan olub. *Üçüncü oğul:*

---

[1] Məhəmməd Tahir Mirzə Aleksandr Dümanın "Qraf Monte-Kristo" və "Üç muşketyor" romanlarını fars dilinə tərcümə etmişdi. Həmin əsərlər müvafiq olaraq 1891-ci və 1892-ci illərdə çapdan çıxmışdı.
[2] Miladi təqvimilə 19 fevral 1835
[3] Miladi təqvimilə 1837/38

## Əli Bəxşi Mirzə

Ağıllı-kamallı və göyçəksifət kişidir. Fransız dilini yaxşı bilir, xüsusilə o dildən fars dilinə tərcümə etməkdə ustaddır və onun kimi başqası yoxdur. İran vəliəhdinin yaxın sirdaşıdır və həmişə onun hüzurunda olur. Təvəllüdü hicrətin min iki yüz əlli dördüncü ilə[1] təsadüf edir. *Dördüncü oğul:*

## Mürtəza Mirzə

Bu həmin əmioğlumdur ki, bütün bu kitabı yazmaqda mənə kömək etmişdi. Cavan, comərd və düzdanışandır. Qonaqpərvər və şirin söhbətləri sevəndir. İndi öz sarayında oturub vaxtını rahat keçirir. Min iki yüz əlli yeddinci ilin rəcəb ayının iyirmi dördündə[2] doğulmuşdur. İndi qurban olduğum uca və müqəddəs həzrət vəliəhdin mübarək astanasında kitabdarbaşı və xüsusi xadimlərdən biridir və "bəndəgani" fəxri və şərəfli ləqəbə malikdir. *[Beşinci oğul]:*

## Hacı Yaqub Mirzə

Ayıq-sayıq, möhkəm iradəli və xoş görkəmli adamdır. Ömrünün əvvəlində müəllimsiz saatsazlığı öyrəndi və əkkaslıq[3] elminə sahib oldu. İndi həzrət vəliəhdin yanında əkkasbaşıdır. Min iki yüz əlli üçüncü ilin rəcəb ayının iyirmi yeddisində[4] dünyaya gəlib. *Son.*

Mən Müizzüddövlə Bəhram Mirzənin Təbriz hakimi olduğu zaman möhürlədiyi Seyyid Həmzənin türbəsi haqqında bütün xalq üçün yazılmış bir fərman görmüşəm. Böyük məharətlə yazıldığına görə onu burada gəirirəm. Şübhəsiz həmin yazını hazırlayan bu işin ustası Mirzə Mehdixan Bəyanülmülk Ənsaridir.

---

[1] Miladi təqvimilə 1838/39
[2] Miladi təqvimilə 10 sentyabr 1841
[3] Əkkaslıq – foto ilə şəkil çəkmə.
[4] Miladi təqvimilə 27 oktyabr 1837

## Müizzüddövlənin fərmanının surəti

Azərbaycan məmləkətinin bilikli alimlərinə, hörmətli fazillərinə, izzət ilə ehtiram sahibləri olan seyyidlərinə, əyanlar ilə əşraflarına, kədxudalarına və məmurlarına bu vacib xitabla müraciət edirik:

Düşünüb-daşınan insanların hər kəsinə və hər fərdinə məlumdur ki, yenilməz padşahımız, əziz və cəlalətli sahibimiz (Allah onun şənini artırsın və hakimiyyətini genişləndirsin!) dövlətin xalqlarına şəriəti vacib bilib və millətin nizamını dini hüdudların və mülki siyasətin icrası üzərində qurubdur. Belə ki, yaranışın əvvəlindən bu günədək taxt ilə tac sahiblərinin məzaclarındakı fitnəkarlıq, qanun bazarlarındakı kasadlıq, ədalətin müdafiəsiz, insafın isə təşviş içində qalmağı, fitnələrin oyanmağı və işlərin çətinə düşməyi, dünyanı nizama salmaq və bəndələrdə dinin əsaslarını möhkəmləndirmək kimi məsələlər ləyaqətli və təmkinli hökmdarlar tərəfindən "göylər və yer ədalətin üzərində durur" dəlilinə müvafiq şəkildə həll olunur. Odur ki, öz dövrünün sultanının başçılıq etdiyi dövlətin əbədi qalması üçün dua etmək hər bir mömin adamın dini fərzlərdən və təkliflərdən biridir və bu sözlər ilk növbədə öz zəfərlərinin bərəkəti ilə islamın çiçəklənməsinə xidmət etmiş və dünyanı rahat yaşamaq üçün əmin-amanlığın kölgəsinə gətirmiş bütün dövlətin siması olan qüdrət sahibi, əlahəzrət şahənşaha (canımız və aləmlər ona fəda olsun!) aiddir.

*Ya Rəbb, bu kölgəni islamın başından əsirgəmə!*

Belə böyük nemətə şükr edərək bütün xalq üçün öz din ilə dünyanın salamatlığı naminə çalışmaq lazım və vacibdir ki, Allahın bəndələrinə zərər yetirən nizamsızlığın və şərrin aradan qaldırılmasından ötrü aramsız səy ilə çəhd göstərib bu cür hökmlərin icrasında və həyata keçirilməsində israrlı və əzmli olsunlar. Hər zaman İranin digər məmləkətlərindən nizam-intizamlığı ilə seçilən və İlahi hökmləri ilə padşah əmrlərinə boyun əymə ilə itaət göstərməyi hamıdan çox özünə borc bilən bu məmləkət son bir neçə ildə nisbətən dinc yaşamaqdadır. Allahın

kölgəsi qüdrətli əlahəzrət (canımız ona fəda olsun!) fitri xeyirxahlığını və özünə xas olan mərhəmətini əsas tutaraq öz xosrovanə səyini çətinliklərin aradan qaldırılmasına yönəltmişdir və bu işin icrasını bizə tapşırmışdır. Biz də məhz İlahi rizaya və padşahın əmrinə əsaslanaraq xalqın asayişi üçün vacib olan amilləri tərbiyə etmək, rəyasət ilə siyasət qaydalarının payalarını möhkəmləndirmək və artırmağı təsəvvürə gətirmək belə mümkün olmayan himmətlə çalışmaq istiqamətində cidd-cəhd göstərməyimizi lazım bildik. Bununla belə, məqsədə çatmaq üçün lazım olan bir neçə addımın və məqamın izahatını bütün məmləkət əhalisinin qulağına çatdırırıq:

Birincisi, alçaq və şərafətli, arif və avam, əmr verən və əmr alan, sahib və nökər bilsinlər və agah olsunlar ki, biz ədliyyə və məhkəmə məqamlarında yad adamla doğma balamız arasında fərq qoymarıq. Hər cür ehtiyacı, ərizəsi, şikayəti və narazılığı olan hər bir kəs tərəddüd və ehtiyat etmədən hörmət ilə cəlalət sahibi, böyük əmirlərin əmiri, igid əsgərlərin başçısı olan o cənaba üz tutmalıdır ki, bizim ərzimizə çatdırsın və işi ədalət hökmünə müvafiq yöndə istiqamətlənsin. Haqqın öz yerini tapmaqdan və məzlumun zülmdən xilas olmaqdan başqa bir məqsədimiz yoxdur və vacib həddinə çatan məqamda cinayətkarı və müqəssiri siyasət edərkən cəzalandırdığımız vaxt heç bir güzəştə yol verməriк.

İkincisi, Allahın köməyi ilə bizim tərəfimizdən şər'i və ürfi mahiyyət daşıyan mübarək məkanlara bizdən əvvəlki dövrlərin rəhbərlərindən daha çox hörmət ilə ehtiram göstəriləcəkdir. Bu sırada uzun illər bu məmləkət əhlinin sığınacaq yeri olmuş və indi də həmin halda qalaraq öz əhəmiyyətini daha da artırmış cənab Seyyid Həmzənin (onun əcdadlarına təhiyyət və salam olsun!) mübarək türbəsi xüsusi yer tutur. Amma bu mübarək məqam o kəs üçün bəst və sığınacaq olacaq ki, şərafətli şəriətin dili ona izin vermək üçün danışmamış və kəramətli *"Sizin üçün qisas həyat deməkdir"*[1] ifadəsi onun müdafiəsində sadiq qalma-

[1] Bəqərə. 179

mışdır, çünki belə yaramaz şəxsin edam edərək yer üzündən silinməsi dinin yayılmasının mayası və müsəlmanlarin asayişinin mənbəyidir, Kə’bənin örtüyü ilə örtülmüş olsa da, qanunun və insafın hökmü ilə amanda olmaz. Biz beş lazım və vacib fərizəni yerinə yetirmək kimi bu məmləkətin keşiyində durmaq tapşırığını almışıq və insan libasını geymiş, ancaq əslində şeytan olan həmin kəslərin bəd əməllərinin yolunu kəsməkdə *“Onları harada tapsanız öldürün”*[1] ifadəsini əsas tutaraq heç vaxt güzəştə getmərik.

Bütün insanlar bu hökmün dəlillərini nəzərlərinə alaraq öz xoşbətlik ilə sağlamlıqlarını onun icrasında görməlidirlər, son dərəcə arxayın və ümidvar olaraq mələksifət şahənşahımızın (canımız ona fəda olsun!) xatirinə dua oxuyandan sonra qalxıb irəliləməlidirlər, aqillər cahillər qövmünüdüz yolla aparmalıdırlar, yumşaqlıq etməklə güzəştə getməməlidirlər, dünyada və axirətdə özlərinə əbəs yerə zərər yetirməyin baisi olmamaq üçün daim saleh əməlləri həyata keçirməyə  və pis işlərdən uzaq olmağa çağırmalıdırlar və bizim həmişə ədalətin keşiyində durduğumuzu bilməlidirlər. 1275-ci ilin rəcəbül-mürəccəb ayında[2] yazıldı.

İndi isə mənimlə tanışlığı olan bu katibdən söz demək istəyirəm.

## Mirzə Mehdi xan

Bu kişi Gərmrud bölgəsinin yerli sakinlərindən, İşlıq (?) kəndindəndir. Nəsillikcə katibliklə məşğul olublar. Nəzakətlidir, şairdir və gözəl söz söyləyəndir. Katiblik peşəsində tayı-bərabəri olmayıb. Əvvəl böyük əmir Məhəmməd xan Zəngənənin hüzuruna yol tapıb katib vəzifəsində xidmət etmişdi. Orada böyük atabəy Mirzə Təqi xan Fərahaniyə onun haqqında sözlər çatdı ki, bu kişi hər cəhətdən ondan savadlıdır. Kim bilirdi ki, bir gün

---

[1] Nisa. 89

[2] Miladi təqvimilə fevral/mart 1859

bütün İran onun əmrinə tabe olacaq?! Buna görə də atabəy ona heç bir iş buyurmazdı və bu kişi təngə gəlmişdi. Buna baxmayaraq dilini dinc saxlamazdı və daim onun ünvanına acı zarafatlar söyləyərdi. Kişiyə çatdı və kinini daha da artırdı.

Atabəyin işi bitənədək katibin güzəranı belə keçdi. Sərdar Əziz xan kişini götürüb yanında katib yerini verdi. Oda taledən zərbə aldıvə işsiz qaldı. Sonra sərdarın yatmış bəxti növbəti dəfə oyandı və o, katibi özü ilə Azərabadəgana apardı. “Bəyanülmülk” ləqəbini aldı. Onun məktublarını yazardı və şagirdlərinə yazdırardı. Bu katib ağıllı və sevilən adam olsa da, səhlənkarlığı var idi və ordu əmiri Mirzə Qəhrəman ona üstün gəlmək üçün tez-tez irad tutmağa başlamışdı ki, “filan hökmü yazmaqda xətaya yol verib və filan yazısı sərdarın ziyanınadır” və bu kimi şeylər. Çox vaxt da haqlı imiş, çünki Bəyanülmülk avaranın biri idi. Axırda sərdarda da ona etimad qalmadı. Katibin uşaqları araya girdilər.

Nəhayət Şəqaqi məmləkətinin hökumətini ona həvalə etdilər. Getdi. Ordu əmiri onu hörmətdən saldı. Hicrətin min iki yüz yetmiş doqquzuncu ilində[1] həmin Gərmrud bölgəsində o dünyaya köçdü. Allah ona rəhmət eləsin!

[1] Miladi təqvimilə 1843/44

# Təbrizin meyvələri və onların növləri haqqında fəsil

Sərin iqlim məkanlarına xas olan meyvələrin hamısı Təbrizdə bol və həddindən artıq olur, ancaq qiymətləri ucuz olmur. Üzüm ucuz olanda da onun min misqalı* (indinin bir məni*) beş yüz dinardan aşağı olmazdı, o da yaxşı çıxmazdı. Bu hesabla başqa meyvələrə də qiymət vermək olar. İndi isə meyvələri bir-bir sadalayaq.

## Üzüm

Bu şəhərdə bağların çoxunda meynələr əkilib və bu ağac bərəkətli və xeyirli olur, barı da gözəldir. Həmin ağacları çaylar boyu əkərlər ki, türkcə ona "qanə" [qanov?] deyərlər. Onun növlərinin adları belədir:

Birincisi, *kişmişi*dirki, bütün qalan növlərdən çoxdur. Qalanlar azdır və bir azdan tamamilə yox olacaqlar. Bu üzümün toxumu olmur, ağ, qırmızı və kafur rəngində olur. Həmin ağı işlədərlər, o ikisi isə az tapılandır. Hər bağda iki-üç dənə meynə əkərlər. Çoxlu novbar gətirər, Təbrizdə olduqca dadlıdır.

*Sahibi*: ağ, qırmızı və dadlı olur.

*Bəzmari* [dəzmari?]: şirin üzümdür, qabığı da qalın olur.

*Raziqi:* iki növ olur: uzunsov və yumru. Şirin üzümdür, toxumu da var.

*Gəlinbarmağı*: qalınqabıq və şirin üzümdür.

*Şanı*: qara və ağ olur. Yerli əhali onu sirkəyə qoyar, yaxşı qalar. Qışda yeyərlər.

*Çiqçiqə*: qara üzümdür, şanıya oxşayır. Bunu da sirkədə saxlayarlar.

*Ğətəsab:*uzunsov və qara olur. Yaxşı tamı var.

*Təbərzəd*: çox şirin üzümdür.

*Sürxəpust*: iridənəli və yumru üzümdür.

*Qəysi*: şirin və iridənəli üzümdür.

*Gəzəndani:* şirin və qalınqabıq olur.

*Mələki*: keyfiyyətsiz üzümdür.
*Dudə*: o da keyfiyyətsizdir.

## Gilas

Təbrizdə çox gözəldir. Qırmızı, ağ və sarı olur.

## Albalı

Yaxşı və çox olur. Ucuz idi.

## Ərik

Cürbəcür olur: *toxmi-məhəmmədi, sərməş, ağ ərik, təbərzəd, qəysi*. Bütün növləri yaxşıdır, bəlkə təbərzəd hamısından yeməlidir.

## Heyva

Çox yaxşı və ətirli olur. Burada iki cürdür: şirin (onun başı armudda olduğu kimi yuxarı çəkilmişdir); turş səfərcəl (yumrudur). Hər ikisi olduqca ləzizdir.

## Şaftalı

Cürbəcür yabanı və yeni yetişmiş növləri var: *qırmızı hulu, ağ hulu, ağ və qırmızı şəlil, qırmızı və ağ şaftalı*. Hamısı dadlı, sulu və ətirlidir.

## Alma

Cürbəcürdür. *Dəryani* yaşıl, ətirli, yumşaq və suludur. Daha çox Ərvənəqin dəryanisindən gətirərlər. Qışda yeyərlər. Onun ən yaxşı növləri:
*Bəmbəl*: qırmızı və xoştamlı olur.

*Sərabi:*rəngi gözəl olur. İyi və tamı da yaxşıdır.
*Aşiqi*: novbar olur. Rəngi, iyi və tamı xoşdur.
*Gilasi*: ağ və xoşətirli olur.
*Alapapaq*: gözəl növdür.
*Qızıl*: rəngi solğundur.
*Məzidəni*: yaxşı olur.
*Məclisi:* ağacı balaca olur. Qabın içində də əkərlər.
*Kəpəki*: şirəsiz və ətirli olur.
*Sibi-turş*: iki cürdür: ağ və qırmızı. Bu növün gülü də, yarpağı da, budağı da qırmızı olur. Burada ərğəvanın[1] yerindədir (?).
*Çaxçaxi:* ağ almadır. Tumu içəridə ayrıdır. Fırlatsan, özü bayıra çıxar.

## Alça

Onun növləri çoxdur. Göy halda yeyilən *göyçə* şirin və nazik[qabıq]olur.
*Təbərzəd* də göy halda şirin olar.
*Ağ alça* yetişəndə yaxşı olar.
*Qırmızı alça*: onun yetişmişi xoştamlı olur.
*Gül alçası*: onun ağacı çox qəşəngdir. Bu növün yarpağı da qırmızı olur.
*Payizi*: sarı və qırmızı olur. Payızda yetişir.
*Xüdru*: turş olur. Şorbada və xuruşda yaxşı olur.
*Qəysi alçası*: yetişəndə tamı olduqca xoşdur.
*Qara alı*: onun yetişmişini yeyərlər.
*Sarı alı*: növlərin ən yaxşısıdır.

## Armud

*Yəməni:* böyük və dadlı olur.
*Təbərzəd*: lətif və ətirlidir.

[1] Ərğəvan – qırmızı rəngli gül.

*Gülabiyi-zimistani*: ona “sük” deyərlər. Qışda çox olar. Dadı xoşdur və başqa yerdə olmur.

## Ağ tut

Təbrizdə, xüsusilə də Sürxab məhəlləsində çox olur. Dadlı, dənəsiz tutdur.

Bir növ var, ona “*xoyi*” deyərlər. Böyüklüyünə görə xurma kimidir, amma dadlı deyil.

*Şah tut:* olduqca ləzzətlidir və Təbrizdə çoxdur.

Yemişan qırmızı və sarı olur. Çoxdur. Əncirlə nar bu şəhərdə olmur, bəlkə evlərdə oldu. Narın kökünü talvarda əkərlər, qışda örtərlər, ancaq heç əmələ gəlməz. Yaxşı nar Savədən gələr. Qaracadağın Kürdəştindən də gətirərlər.

Yayda əkilən meyvələr bu məmləkətdə yaxşı olmaz. Bəzən qarpız çıxır, amma o da hər il olmur. Burada bir neçə növ yemiş olub. Heç birinin adını çəkməyə dəyməz. Gərmük yemişi dadlı olmasa da, qiyməti yüksəkdir. Buraya novbar xiyarı Ərvənəqdən gətirərlər, bir az da Şəndabad kəndindən gələr. Hər səhər yüz xarvardan[1] çox xiyar şəhərə gətirərlər. Xəlican kəndinin xiyarı da tapılır, ətirli və suludur. Vilankuhda da dünyada onun kimi az tapılan xiyar olur.

Bu şəhərə paxlanı bazara bir neçə gün gətirib yuxarı qiymətə satarlar. Badımcanı Lalə kəndindən gətirərlər. O qədər də yaxşı olmur. Burada küdubadımcan deyilən küdu olur. Badımcan kimi içi yumşaq və dadlı olur və başqa yerdə tapılmaz. Bütün göyərtini Hökmabad kəndindən gətirərlər, ancaq naziklikdə və keyfiyyətində Gərmsir göyərtisinə çatmaz, qiyməti də ucuz olmaz. Qışda burada çuğundur bişirərlər və şirinliyi orta səviyyədədir. Bu çağlarda kartof çoxdur. Onun çiyini və bişmişini məhəllələrdə satarlar. Paxlanı da bişirərlər və çox xoşları gələr, halbuki ürəkbulandıran bir şeydir.

---

[1] Xarvar – yerindən asılı olaraq 300, 400 və hətta 600 kiloqrama bərabər çəki ölçüsü.

## Təbrizin barsız ağacları

Təbrizdə gözəl qarağaclar olur. Yaxşı şam ağacları yetişməz. Şam cinsindən bir növ var, ona İraq qaraqovağı deyərlər. Burada çox məhsuldar olur və tez vaxtda möhkəmlənir. Sərv ağacı kimidir. Bir başqa növə kələmbər deyərlər. O da gözəl olur. Bu iki ağacın məğzi olmur. Məsaməli və süst olduqlarına görə dülgərlik işinə yaramaz. Ondan taxtalar, kəndlərdə qapı, şəhərdə qış kürsüsü və ölü tabutu düzəldərlər. Bağmeşədə bir az göyrüş ağacını da görmüşəm. Bu şəhərdə iydə ağacı çoxdur, meyvəsi də yaxşıdır. Onu kiçik çayların kənarında əkərlər. Söyüd ağacını bu şəhərdə çox əkərlər. Təbrizlilər bu ağacı xüsusilə su axan yerlərdə əkərlər və yaxşı boy atar.

Baği-şimalda bir neçə çox möhkəm palıd ağacını gördüm. Veydhər tərəfdə çox olur. Onun qozasını suda bişirərlər və adamlar onu duzla yeyərlər. Deyirlər ki, bel ağrısının dərmanıdır. Üfunətli, pis qoxulu və acı olur. Şərq küləyi Xəzər dənizindən bu şəhərə çox əsdiyinə görə bütün yarpaqlar başlarını qərbə tərəf bir az əyri çevirərlər. Bu şəhərdə çinar bitməz. Təbrizə gəldiyim il Baği-səfada bir neçə çinar ağacı var idi.Dedilər iyirmiillikdir, çox möhkəmdir. O yekəlikdə ikisi elə qazının evində idi. İndi yaxşı boy atıb möhkəm və qollu-budaqlı olublar. Üç ağac bəylərbəyin evində bir az qaldı, sonra yavaş-yavaş qurudu. Bu yerdə Təbrizin meyvələri və ağacları haqqında söz bitir.

# Qısa şəkildə təbrizlilərin adətləri və ədəb-ərkan qaydaları haqqında fəsil

Təbriz şəhəri sakinlərinin adətləri ilə ədəb-ərkan qaydaları haqqında yazmaq istədim və həqiqətdən yayınmaq fikrim yoxdur. Bu uzun illər ərzində gördüklərimdən yazacağam.

## Yerli sakinlərin əsli və kökü haqqında

Bu şəhər dəfələrlə zəlzələlər nəticəsində dağılıb və əsil yerlilərdən olanlardan heç kim qalmayıb. İndi bir ailəni çıxmaq şərtilə demək olar ki, babası buralı olan bir təbrizli tapmazsan. Bu adamlar ətraf məmləkətlərdən gəlib buranı özləri üçün vətən ediblər. Odur ki, təbrizlilər xasiyyətcə eyni deyillər və yaxşı baxanda görərsən ki, hərənin təbiəti ayrıdır. Xilqətlərində də növbənövdürlər. Yalnız Təbatəbailər[1] sülaləsi kimi bir atadan altı qolu olan bir ailə vardır ki, nəcabətləri ilə alicənablıqları aydın bilinir.

Təbrizlilər təbiətcə səxavətli və comərd olmazlar. Qəriblərə nəvaziş göstərməyi bilməzlər. Bu şəhərdə qəriblərə hörmət edilməz. Yüz il də qalsa, heç kəs ondan soruşmaz ki, sən kimsən? Haralısan? Yazıq köməksiz qalsa, birisi onu öz evinə aparmaz və qayğısına qalmaz. Bax belə kobud və tünd xasiyyətə malikdirlər. Azərabadəgandan kənarda olanların hamısına "İraqi" deyərlər. Hindistanlı olsa, düşmən gözü ilə baxarlar, paxıl, qorxaq və alçaq sözlərlə yad edərlər. Qəribə əl tutmağı ayıb sayarlar. Bu tayfa yoxsulları və fağırları ələ salıb məsxərəyə qoymağı çox xoşlayar. Bunların hamısı həmin məmləkətin Ərdəbil, Xoy, Urmiya, Marağa kimi digər bölgələrindən fərqlidir[2].

---

[1]"Təbatəba" sözü nəbəti dilində "böyüklərin böyüyü" və yaxud "cənabların cənabı" mənasında işlənib. Nəbəti dilində qədim zamanlarda Beynənnəhreyndə yaşamış aramidilli xalq danışırdı.

[2] Nadir Mirzənin digər cəmiətşünasların və tarixçilərin mövqeyi ilə üst-üstə düşməyən bu sözlərinin nəyə əsaslandığı məlum deyil.

Təbriz xalqı mərdimazarlığa və bəşəri qaydalardan xaric olan bəzi hərəkətlərə çox meyillidir. Keçmişlərdə öz adətləri olub ki, onlardan biri də qurd döyüşdürmək idi. O döyüşlərin keçirdiyi meydan indi də yerindədir, adı "qurt meydanı"dır. Erkək qurdları kiçik yaşlarında götürərdilər və onlara təlim keçərdilər. İldə bir neçə gün hər məhəllədə qurd döyüşləri olardı. Hər məhəllədən vəhşi qurdu gətirərdilər və iki tərəfdən silahlı adamlar dayanardılar. Ağzıbağlı canavarlar bir birinə həmlə edərdilər. Onlar bir-birlərini itələyib qabaqlarına qatardılar. Hər iki tərəfdən hay-küy qalxardı ki, bəs "mənim qurdum üstün gəldi". Başqa tərəf də öz qurdunu tərifləyərdi. Axırda iş sözdən davaya keçərdi. Bəzən ölənlərin və yaralananların sayı yüzə çatardı. Böyük padşah Şah Abbas bu vəhşiliyə son qoydu.

## Hekayət

Eşitmişəm ki, yüzyaşlı bir qocaya dedilər: "Filan məhəllənin qurdu sənin cavan oğlunun qarnını yırtıb!" Belə cavab verdi: "De görüm, bizim qurd üstün gəldi ya onlarınkı?" Dedilər: "Bizimki". Dedi: "Oğlanın ölümü boş şeydir".

## Deyişmə

Bu şəhərin bilikli və zarafatcıl adamlarının geniş yayılmış məşğuliyəti olub. Bu da belə olardı ki, müxəmməsdeyən adı ilə şöhrət qazanmış bir dəstə adam – yəni şairlər, müxəmməsdeyənlər və bədihədeyənlər – bahar fəslində dəfələrlə yığışardılar və bütün aləm də tamaşa etmək üçün onların başlarına toplaşardılar. Sonra bədihədeyənlər iki yerə bölünərdi. Hər dəstə öz dəfçalanlarla bir sıraya düzülərdi. Bir tərəfdən bədihədeyənlərdən kimsə bir qəhrəmanlıq ya həcv beyti oxuyardı. Dəfin səsi və hay-küy göylərə qalxardı. Qarşı tərəfdən bir başqası cavabında bir şeir deyərdi. Dəfçalanlar bir ahənglə dəflərinə vurardılar, tamaşaçıların bağırtısı və qışqırtısı fələyin qulağını batırardı.

## Hekayət

Eşitmişəm ki, iki məşhur bədihədeyən olub, Təbrizdə hörmətləri böyük idi. Bir gün deyişməyə yığışırlar. İki tərəfin fəsahət, bəlağət və zarafat sahibləri sakitləşəndən sonra dinləyicilər bədihədeyənlərin maraqlı yarışı intizarında olarkən, türkcə:

Mən indi abriz[1] olmuşam.
Məni yalarsan, qardaşım

ölünü də qəbirdən qaldıran [sözlər] və dəfçalanların çıxartdıqları səslər göylərə çatdı. Onlar fəsahətdə qalib gələcəklərini yəqin etmişdilər. Bu yandakılar sakitləşəndən sonra o biri tayfanın başçısı və bədihədeyəni vüqar və təmkinlə oxudu:

Sən indi abriz olmusan.
S---m, dolarsan, qardaşım

və afərin ilə sevinc sədaları bütün çölə yayıldı, çalğıçılar dəf döyməklə və ayaqlarını yerə vurmaqla səs-küyü asimana qaldırdılar. O bədihədeyəni böyük təmtəraqla evinə gətirdilər. Bir müddət bu iki bədihə Təbriz zaraftçılarının məclislərində dillər dastanı oldu. Bu hadisə onların zarafat ilə eyşlərinin bir nümunəsidir.

Onlarda kişilik o zaman bilinər ki, on beş yaşına çatanda qəmə[2] dedikləri Dağıstan xəncərini kəmərlərindən asarlar, kəmərbəndlərini bərk bağlayarlar, qabanın[3] son iki düyməsini bağlayarlar və İsfahan givəsini ya da Yəmən ayaqqabısını ayaqlarına geyərlər. Onlar baqqalın, əllafın və ya meyvə qaxı satanın şagirdləridirlər və səhər tezdən tərəvəz, üzüm, zoğal, meyvəqurusu, yağ, odun və süd dalınca gedərlər. Oraya çatanda üstün-

---

[1] Abriz – ayaqyolu.

[2] Qəmə – xəncərə oxşar, lakin ondan gödək, enli və əyriliyi olmayan silah növü.

[3] Qaba – kişi üst paltarı, qaftan.

lük qazanmaq üçün bir-biri ilə kobudcasına söz güləşdirər və ya xəncərlərini çəkərlər. Hər kəs bu işdə ad qazanmaq istəyir. Deyərlər ki, filankəs qoçaq oğlandır, əlaməti də o olur ki, qulağın dibinə bir neçə tük salar və külahının ucu iti olar. İşsiz-gücsüz və həyasız-abırsızlardan iki-üç nəfər onun başına yığışar, o da çarəsiz qalıb onlara yağlı və şirin xörəklər yedizdirməli, plovxanaya və qəhvəxanaya aparmalıdır. Bu biçarəyə bircə o qalır ki, oğurluq eləyib xalqın malını çırpışdırsın. Çox vaxt belə olur ki, tacir uşaqlarının bu cür cavandan xoşları gələr və onlar atalarının malından götürüb ona verərlər. O da özünü Rüstəm və Əfrasiyab sayar. Həmin tayfa bu şəhərdə ad-san və etimad qazanıbdır və belə hal bineyi-qədimdən mövcuddur. İndi isə bu xalqın ağıl səviyyəsini göstərmək üçün keçmişlərdən bir hekayət gətirirəm. Mən onu Həsən bəy Rumlunun kitabında[1] görmüşəm.

## Hekayət

Doqquz yüz səksən birinci ildə[2] cahan padşahı Təhmasib şahın hökmü ilə Təbriz əclafları siyasətə məruz qaldılar. Uzun müddət böyük şəhriyarın onlara getdiyi güzəştə öyrəşmiş Təbriz lotuları bu il dad-bidad fəryadını çıxartdılar və iş o yerə çatdı ki, Təbriz hökmdarı Allahqulu bəy Ustaclunun bir neçə xidmətçisini öldürdülər. O da şəhərdən qaçdı. Lotular tam sərbəst idilər, xalq onlardan asılı vəziyyətdə qalmışdı. Bu tayfa məhəllələrdə dörd yüz nəfərə yaxın idi və başçıları da bunlar idilər: Pəhləvan Yari Səncəran məhəlləsində; Nəşmi Vicuyədə; Şərəf Dərbisərddə; Şeyxi Kar Miyarmiyarda; Ağa Məhəmməd Dərbinovbərdə; Pəhləvan Əvəz Dərbi-meydanda; Aslan Dərbi-əlada; Mirzə Mələkani Kuçiki Şütürbanda; Əlay Həsənxan Şeşgəlanda.

Təbrizin əyanları ilə mollaları iki il dərgahdan ədalət tələbində oldular. Padşah səhlənkarlığa yol verdi, ta ki teşt damdan düşdü. Yusif bəy Ustaclu darüssəltənədə hakimiyyətə gəldi. O,

---

[1] “Əhsənüt-təvarix” nəzərdə tutulur.

[2] Miladi təqvimilə 1573/74

qoçaq və cəsarətli adam idi. Əclaflar bir daha nalayiq işlərə əl atmayacaqlarına and içdilər. Şəhərin kədxudaları zamin durdular. Dörd aydan sonra Pəhləvan Yari hakimin xidmətçilərindən ikisini öldürdü. O, padşaha ərz etdi. Xəlifə Ənsarın oğlu Söhrab bəy öz qoşunu ilə Yarinin üstünə göndərildi. İkisi də atlarına minib Sahibabad meydanına gəldilər. Kədxudalar şəhəri qapatdılar. Lotular gizləndilər. Kədxudalar cidd-cəhdlə axtarış keçirtdilər. Hamısını tutub dar ağacından asdılar. Dara çəkilənlərin adları bunlardır: Kökcə, Şərəf, Şeyxi Kar, Həsən Çəkməduz, Hacı Diraz, Şahəli Çərik, Mirzə Dədəoğlu, Şahnəzər Qala, Kor Hüseyn Səbzifüruş.

Yari, Pəhləvan Əvəz və Əlay Həsənxan böyük malların hesabına Söhrab bəyi ələ aldılar. O, onların öldürülməsini uzadırdı. Axırda Yusif bəy aşkar dəlillərlə onların yalanını üzə çıxartdı. Üçünü də dara çəkdilər.

O yazıqları asmağa hazırlaşarkən Pəhləvan Yari uzun illər yanında gəzdirdiyi qarmağı çıxardıb cəllada verdi ki, "Bunu mənim dar ağacıma bağla və məni ondan as ki, başqalardan seçilim". Ölüm ayağında belə böyük qeyrət ilə cəlalət göstərdi. Mən də bu çağda gördüklərimdən yazıram. Əcayib səslənsə də, ibrətamizdir.

Mən Təbrizə gəldiyim il orada Çəp Allahyar adlı birisi var imiş. Bu adı və nüfuzu o zaman tapdı ki, bir gecə bir neçə dostu ilə birlikdə erməni kilsəsinə girib oradakı qızıl-gümüşü, bahalı pərdələri və qəndilləri aparmışdı. İki-üç gündən sonra işin üstü açıldı. Əmir-nizam Məhəmməd xan onu tutub həbs etdi. O maldan qalmış olanları aldı. Padşahdan ölüm hökmü gəldi. Baş keşiş şəfaət etdi. Qanını bağışladı. Ondan sonra hər gün camaat namazına durardı, gecələr isə yoldaşları ilə öz işinə məşğul olardı.

Bu da hicrətin ... [yazılmayıb] ilinə qədər davam etdi. Günorta vaxtı iyirmi yeddi nəfərlə "Əli, Əli" deyə-deyə bazara gəlib igid və öz işini bilən darğa Hacı Rəcəbəlini boyasatan Kərimin

hücrəsində hayasızcasına öldürdü[1]. Bəhanəsi də o oldu ki, o, “təbrizlilər biqeyrətdirlər” demişdi. Həmin hadisə barədə məliküşşüəra Məhəmməd Əmin Xiyabani[2] şeirlər qoşmuşdu. Onlardan birisinin mətləyi belədir:

Gəl sənə bir ərz edim ol Cəfər dardaridən,
Ol pələngi-bişeyi-qeyrət Hacı Allahyardan.

Bu mücahidədə Təqi Kuzəgər, Dardari Cəfər və Hüseyn məşhur qazılardan sayılırdılar. O həmin Hüseyn idi ki, Məhəmməd Əmin onun mədhinə bunları söyləmişdi:

Mən Hüseynün görmüşəm davasını,
Hər dəlir olsun, çalar halvasını.

Bu kişi indi Təbrizdə çox sevilən şairlərdəndir. Böyük divanı vardır. Onu deməк kifayətdir ki, o divanı bu günədək on bir dəfə gözəl xətlə çap ediblər. İndi də aztapılan kitablardandır. Bu şairin nəzmi təbrizlilər üçün Fərruxinin, Firdovsinin və Ünsürinin şeirləri kimi dəyərlidir. Qışın gecələrində söhbətə oturub bu divanı oxuyarlar.

Uzun sözün qısası. Çəp Allahyar bu işi görəndən sonra təbrizlilərin iftixar başları qalxıb göyə dəydi. Nə qədər ki, o kişi Təbrizdə idi, hər gecə ona və dostlarına ziyafət verib tariflər yağdırardılar. Sonra xilafət dərgahından ona elə təzyiqlər oldu ki, daha Təbrizdə qala bilmədi. Mal ilə kömək etdilər. Kə’bəyə getdi. Ondan sonra Hacıyi-mütləq ləqəbini aldı, hər mənada böyük hörmət sahibi oldu. Camaat arasına yaraqlı-yasaqlı, yanında iki-üç nökəri ilə çıxardı. Şəhərin böyüklərini həmişə ziyafətə çağırardı. Parça istehsal edən iki-üç müəssisəsi və bir

---

[1] Hacı Allahyarın darğa Hacı Rəcəbəlini öldürüdüyü dalan hal-hazırda “Qanlı dalan” adı ilə məşhurdur.

[2] Təxəllüsü Dilsuz idi. Əsasən əhli-beytə həsr olunmuş mərsiyələr və mədhiyyələr yazıb.

neçə yazlıq əkin sahəsi var idi. Sultan ona cəza vermək üçün daim fürsət axtarardı.

Cəfər Dardari məst olub onun oğlunu öldürəndən sonra Hacı da onun oğlunu öldürdü. Hicrətin min iki yüz ... [yazılmayıb] ilində burada alimlər arasında qırğın düşdü, bir neçə nəfər qətlə yetirildi. Şahənşah hər iki tərəfi paytaxta apardı və Müəyyidüd-dövlə Təhmasib Mirzə [Azərbaycana] hakim oldu. Ələ fürsət düşdü. Hacını əmrə əsasən öz evində öldürdülər və ayağına kəndir bağlayıb bütün məhəllələri gəzdirdilər. İşin aqibəti belə oldu.

Ondan sonra bir neçə nəfər üskünü şərarət kəmərinə bağladı[1]. Əziz xan onların evlərinə od vurdu. Onda rəvasanlılar[2] işə qarışıb şər işlər görməyə başladılar. Hamısının kökünü kəsdilər.

Məsələ ondadır ki, təbrizlilər belə sərt hərəkərləri çox bəyənirlər. Tacirlərlə ağsaqallar bu lotu-potunun tərəfini saxlayırlar. Onlar bir xətakarlıq edəndə onları öz evlərinə və bağlarına aparıb hörmət edərlər. İş o yerə çatırdı ki, yeməkləri və pulu da onlara əsirgəmirdilər. İndilərdə də bir neçə oğru və binamus qalıb. Onların hay-küy salmaları və döyüşkən ruhları təbrizlilərin dilindən düşmür. Bir kəndin ətrafındakı çölə gedəndə bu pəhləvanlardan on nəfəri öz silahlı dəstələrinə qoşarlar.

## Təbrizlilərin sevimli yeməkləri

Abguştdur[3]. Payızda ət çox olanda qoyun ətindən götürərlər. Bu da belə olar ki, o əti parça-parça edib yağ və quyruqda yaxşıca qızardarlar və kuzələrə tökərlər. Qışda və yazda bir az ondan götürüb soğanla və quru kəvərlə bişirərlər. Ona şorba deyərlər və çox bəyənərlər. Bütün evlərdə olur.

Təbrizlilərin iki çox məşhur yeməkləri var: birini Hökmabadda yazda hazırlayarlar. Təzə xalis kəvərdən kükü bişirib

[1] Yəni şər işlərə əl atdı
[2] Rəvasan – keçmişdə kənd olub, indi isə Təbrizin bir hissəsidir.
[3] Abguşt – piti, bozbaş.

yeyərlər. Digəri odur ki, toru Acının sahilinə aparıb, qara və yararsız balıqları tutub, elə oradaca yağda qızardıb yeyərlər.

Mənim Təbrizə gəldiyim il ənbərbu düyüsündən yediklərini eşitmədim və görmədim. Böyük adamlardan birisi bizim qonşumuz idi. Həmişə şikayət edərdi ki, bu şahzadələr düyü bişirirlər və onun iyi bizim gözlərimizi yaşardır. Mişkinin yekə düyüsündən idi. O böyüklərin həftələrlə və aylarla yedikləri isə pendir, küftə, üzüm yarpağı və badımcan dolması idi. Onu da çox dadsız bişirərdilər. Arzuman adlandırdıqları küftələri var. Yaxşı bişirsələr, xoş olur.

Təbriz qadınları kəvər yeməyə ifratcasına meyillidirlər. Deyə bilərəm ki, kəvər bol olanda hərəsi çörəklə bir mən kəvər yeyər. Qışda çoxlu şalğam yeyərlər. Xam halda və ya abguşta tökərlər. Kələmin yarpağından dadsız dolma hazırlayarlar. İndilərdə şəhərin böyükləri hər çür taamlardan yeyərlər. Mişkin düyüsü olmur. İndi ənbərbudan da yaxşı və baha olan sədri yeyərlər.

## Bazar taamları

Təbriz bazarında çilovkabab bişirərlər. Bu əntiqə taamdır və təbrizlilər onu xoşlayırlar. Hamı bir-birini bazardakı çilovpəzxanaya qonaq aparar. Onu adət üzrə pəşmək və isgəncəbi ilə yeyərlər. Mən Təbrizə gəldiyim il çilov Mişkin düyüsündən idi. İndi sədri düyüsüdür. Yaxşı bişirərlər və altına kərə yağından qoyarlar. Üstdəki yarpaq kababları istiot və sumaqla yeyərlər. Bazarın digər yeməyi lüləkababdır. Bu da bütün İranda var. Bu kababı Təbrizdə yaxşı bişirərlər. Bir başqası: səhərlər və yayda yağlı qoyun qızartması bişirərlər. Ət sadə və bişmiş olduğuna görə yeməli olur. Bir başqası [kəllə]paçadır, çox dadsız bişirərlər. Digəri plovla xuruşdur, o da dadsız olur. Digəri yerli camaatın “cızvız” dedikləri həsrətülmülukdur. Qoyunun içalatından hazırlayarlar. Burada bütün İranda qəbul olunmuş qayda ilə kiçik kuzələrdə ət bişirərlər. İraqda ona “dizi”, burada isə “piti” deyərlər.

Təbrizdə olan, ancaq İranın və Azərbaycanın digər yerlərində olmayan adət-ənənələrinə gəlincə, mən onların hamısını olduğu kimi, şərtləri ilə birlikdə sadalayıram və bu da faydasız olmaz.

## On beş şaban

Bu gecə təbrizlilər bayram edərlər, dadlı yeməklər bişirərlər və atəşbazlıq vacib şərtdir. Bunu ilaxır çərşənbəsində olduğu kimi vacib sayarlar. Bütün şəhərlilər fişəngdən və digər atəşfəşanlıq avadanlığından alarlar. "Cinn kuzəsi" adlanan kiçik kuzələr olur. İçini barıtla doldurarlar. Gecənin bir hissəsi keçəndən sonra hər evdən fişənglər atarlar. Əgər hava buludlu və qaranlıqdırsa, görməli tamaşadır. Bu da bir fərzdir ki, həmin gecə nişanlının evində atəşbazlıq təşkil olunar və belə işlərdən qurxanaçılar[1] bol gəlir götürərlər.

## İlaxır çərşənbəsi

Novruza qədər daha birisi olmayacaq çərşənbə gecəsi gələn kimi təbrizlilər çərşənbə axşamı bayramını keçirərlər. Təzə və rəngbərəng paltar geyinərlər. Meyvə qurusu satanlar öz dükanlarını bəzəyərlər. Piştaxta İranda məlum olan hər cür quru meyvələrdən qoyarlar və onları üç növə bölərlər: əla, ortabab və aşağı. Bir mənin qiymətini də beş min dinaradək təyin edərlər. Bütün Təbriz camaatı həmin çərşənbə axşamı quru meyvəni yeməyi özlərinə borc bilirlər. Kimin nişanlısı varsa, bu gecə meyvə qurusu ilə təzə libasdan ona göndərməlidir. Həmin gün Təbriz bazarı adamlarla dolu olar. Cavanlar, uşaqlar, kişilər, qadınlar – hamı meyvə qurusu alar. Ucuzluq olanda hamı bu gecəni belə başa verər. Meyvə qurusu satanlar bu alverdən yaxşı faydalanarlar.

---

[1] Qurxanaçı – silah anbarının yiyəsi, silahsatan.

## Rəğaib[1]

Rəcəb ayının ilk cümə axşamısı gələndə leylətürrəğaib[2] olur. Yerli camaat baldan və ya doşabdan tər halva bişirib qəbiristana aparарlar və dostların evlərinə göndərərlər. Bu halvadan da hökmən nişanlının evinə göndərilməlidir. Həmin gecə baqqallar öz dükanlarını zinətləndirələr. Xarvarlarla bal, yağ və doşab satışa gedər və yaxşı mənfəət gətirər.

## Ramazan adəti

Şəhrüllah[3] daxil olanda məscidlərin qapıları açılar və hər birində bir pişnamaz və ya vaiz ortaya çıxar. İyirmi dördüncü günə qədər adamlar əllərinə təsbeh alıb məscidlərə gedərlər. Ondan sonra gələn ilə qədər heç olmaz. Mübarək ayda bazarların bir neçə yerində "tiyan" deyilən böyük və ağzıgen qazanlar qoyarlar və buğda unundan əriştə bişirərlər. "Əziz loxma" deyilən bu əriştəni çox xoşlayarlar. Həmin əriştədən[4] nişanlının evinə göndərmək vacibdir və hamı ondan alar. Səhər açılanda əriştəbişirənin dükanında müştərilərin verdikləri yaylıqları əriştə ilə doldurub asarlar. Bu ayda bir-iki dəfə əriştə gətirməmiş kişi özünün evlənmək haqqını yerinə yetirməmiş sayılar. Həmin əriştəni evə gətirəndə arvad gülə-gülə və sevinə-sevinə bir az su çiləyib üstünə sürtər ki, yumşalsın. Ondan sonra üzərinə doşabdan tökər, bir az döyülmüş zəncəfil səpər, əzilmiş qoz ləpəsi qatar, şirin xəmir hazırlayar. Sonra da onu böyük həvəslə və acgözlüklə yeyərlər və dünyada ən ləziz taam hesab edərlər. Böyük adamların evində qənd şirəsi, badam ləpəsi, hil və zəncəfillə hazırlayarlar. Müştərilər və ağzının dadını bilən qadınlar onu saxlayarlar ki, qışdan sonra yesinlər. Buna da kədbanuyi[5] adını qoyublar.

[1] Rəğaib – rəğibə (arzu, kam) sözünün cəm şəklidir.
[2] Leylətürrəğaib – rəğaib gecəsi.
[3] Şəhrüllah – Allahın ayı, ramazan ayı.
[4] Bu əriştə təbrizlilər arasında "rişteyi-xətai" adı ilə məşhurdur, farsca isə ona "reşteye-qətaif" deyərlər.
[5] Kədbanuyi – evdarlıq.

Ramazan keçən kimi əriştəbişirənlər dükanlarını bağlayarlar və o biri ilə qədər açmazlar. Camaat da onun həsrətində qalar ki, ramazan gələcək və əriştə yeyəcəyik. Şah Sultan Hüseyn Səfəvidən (o, ürəyi sadə adam olub) belə rəvayət edirlər ki, həmişə ramazanın gəlişini arzulayardı və deyərdi: – Kaş mübarək ay tez gələydi, onda zülubiya[1] yeyərdik.

## Məhərrəmdə əzadarlıq

Ziqədə ayı gələn kimi, qüruba yaxın saatda məhəllələrdə uşaqların "Şah Hüseyn! Va Hüseyn!" səsləri qulağa gəlməyə başlayır. Yavaş-yavaş ayın ortasına çatanda uşaqlar dəstə-dəstə hər məhəllədə yığışarlar. Birinin boynunda kiçik təbil, o birinin əlində şeypur "Şax Hüseyn! Vax Hüseyn!" deyə-deyə gedib-gələrlər. Zihiccənin təzə ayı çıxandan sonra cavanlar da sıraya düzülüb, əlini başqasının kəmərinə qoyub tez-tez "Şax Seyn! Vax Seyn!" deyərək məhəlləni dolanarlar. İki-üç gün keçəndən sonra təbilvuranlar və şeypurçalanlar əllərində xəncər və zopa tutub həmin iki kəlməni deyərlər və bütün şəhər belə olar.

Qurban bayramı axşamı və Qədir bayramı axşamı Ali-Məhəmmədin (əleyhiməssəlam) şərəfinə belə hərəkətlər daha da artar. Gecəyarısınadək məşəl, təbil və şeypurla bu işə məşğul olarlar. Zihiccə ayı başa çatandan sonra təziyə dövrü başlayar. Bu səslər yatar və daha eşidilməz. Ondan sonra şəhər məhəllələrinin bir neçə yerində məscidlərdə yığışarlar və məhəllə camaatı özləri ilə qənd, çay və başqa şeylər gətirər. Mərsiyəxan öz evində şam yeməyini yeyəndən sonra minbərə çıxıb mərsiyə deyər. Sonra çay içib dağılışarlar. Aşura günü hər məhəllədən ələmlə bir dəstə, sinəzənlər bazar-məscidlərə gedərlər.

Azərbaycanın digər şəhərlərinə xas olmayan başqa birisi odur ki, buranın böyükləri hər il on gün məclis qurarlar, mərsi-

---

[1] Zülubiya (və yaxud zəlubiya, zəlabiya və s.) – undan və ya nişastadan, şəkərdən və küncüd yağından hazırlanan halva növü.

yəxan iki-üç mərsiyə deyər, çay, qəhvə və qəlyan verərlər. Bəziləri həftədə bir gün belə edərlər. Bu, həzrət Seyyidüşşühədanın (ə) bu şəhərdə keçirilən əzadarlığıdır.

### Bu şəhərdə qonaqlıq və ziyafət

İki vaxtda olur və tacirlərlə maldarlarda dəb alıb. Birisi odur ki, mübarək ramazan ayında varlıları və tay-tuşları iftara dəvət edərlər və kimsəsizlərlə yoxsullara o çörəkdən bir tikə də çatmaz. Məcburiyyət qarşısında bu məclisin başında məşhur alimlərdən birini qoyarlar. Süfrə sahibi ortaya çoxlu çıraq, cürbəcür yeməklər, qiymətli qab-qacaq, gözəl avadanlıqla xalça çıxarar. Belə ziyafətlərin çoxu kasıb adamların malından düzələr. Yaxşı baxsaq görərik ki, qonaq qiyməti həddən artıq olan bir neçə tikəni yeyir və israfçılıqla xərclənən həmin mal başqasının kisəsindəndir, yoxsa bezsatanın o qədər gəliri haradandır ki, bu cür böyük qonaqlıq təşkil edə bilsin!

Digəri odur ki, tacirlər öz evlərinin "Hüseyniyyə" adlandırdıqları yerində hazırlayarlar. Orada hər il bir neçə yemək-içmək gecəsi təşkil olunar. Şəhərin alimlərinə, böyüklərinə və üst təbəqənin nümayəndələrinə dəvətnamə göndərərlər, imkan daxilindəki hər şeyi ortaya qoyarlar, amma yazıq möhtaca heç nə çatmaz. Bu, ad qazanmaqdan ötrüdür ki, bəs filan xacənin süfrəsində min dənə qab və iki min dənə büllur çıraq var idi. Bu da oldu qonaqlıq.

Bu şəhərdə digər şəhərlərdə böyüklərin açdıqları qonaqlıqlartək başqa ziyafət olmaz, bəlkə birisi o birisini oturub dərdləşməyə çağırar. Adamlar belə məclisə toplaşanda kürsü qoyular. Mərsiyəxan təziyədən müxtəsər bir neçə söz deyər. Sonra məclisin alimi və tanınmış adamları dua edərlər. Duada sahibin adını çəkərlər. Belə qonaqlıqlar heç vaxt gündüz verilməz, qışın gecələrində təşkil olunar.

## Bu mübarək böyük şəhərdə məskunlaşmış görkəmli ailələr haqqında

Təbrizin ən böyük nəsli Təbatəbai ailəsidir. Biz bu sülalənin şəcərəsini, görkəmli şəxsiyyətləri və kökləri haqqında məlumat verəcəyik.

### Əbdülvəhhabi seyyidləri adlandırılan bu soyun islam qazıları və şeyxləri

Bu nəsil şəhərin din başçıları olmuş və hal-hazırda da olan iki kökdən gəlir. Keçmiş çağlarda yaşayanlar barədə şəcərəni verdiyimiz yerdə deyilib. Təkrar etməyimə ehtiyac yoxdur.

Birinci sülalə islam qazıları və şeyxləridir. Mirzə Məhəmməd Təqidən gələn həmin tayfa Təbriz şəhərində olduqca əziz və hörmətlidir. Onun şəcərəsi budur: Qazı Mirzə Məhəmməd Təqi ibn Qazı Mirzə Məhəmməd ibn Qazı Mirzə Məhəmməd Əli ki, hicrətin [1222-ci[1]] ilində osmanlı fitnəsində şəhid oldu. Mirzə Məhəmməd Təqinin üç oğlu olub. *Birincisi*

### Qazı Hacı Mirzə Mehdi

ibn Qazı Mirzə Sədra ibn Mirzə Yusif Nəqibüləşraf ibn Mirzə Sədrəddin ibn Məcdəddin ibn Seyyid İsmayıl ibn Mir Əli Əkbər ibn Mir Əbdülvəhhab ki, fəzilət sahibi, dindar və sözükeçən adam olub. Böyük padşah hər yerdə ona böyük hörmət göstərərdi. Məmləkətin hökmdarı Naibüssəltənə onun rəyinə görə öz işini qurardı, bütün Təbriz sakinləri onu özlərinə böyük tutardılar. Onun rəyi dəqiq və keçərli idi. Mirzə Ərdəlani Təbrizin xəracını onun təsdiqi ilə qoyardı. Hicrətin ... [yazılmayıb] ilində həzrət vəliəhdin baş köməkçisi və mülk vəziri olmuş birinci qaimməqam Mirzə İsa Fərahani Təbriz şəhərini gözdən keçirmək və xəracını təyin etmək istəmişdi. Zülm yolu ilə getdi

[1] Miladi təqvimilə 1807/08

və səviyyəni yuxarı qaldırdı. Təbrizlilər ayağa qalxıb onu qovdular. Bu xəbər şahənşaha çatdı. Etibarlı şəxs kimi şöhrət qazanmış Mirzə Ərdəlanini göndərdi və bu iş Qazının təsdiqinə verildi. Bacı əndazəsinə saldılar. Qazısənədləri möhürlədi. İndi də Təbrizin xəracı həmin xəracdır, Allahın köməyi ilə öz yerində qalıb.

Bilən adamlardan eşitmişəm ki, duaları qəbul olunan bir kişi olub. Mənim Sərabda bir kəndim var, adı İsmayılabaddır. Oranın kədxudası Məlik adlı bir ağsaqqal idi. Kə'bəyə getmiş və dünyagörmüş adam idi. Demişdi ki, "Bu kənd Sərabın hakimi zülmündən birdəfəlik xarabalığa dönüb. Uzun illər mənimlə üç qardaşım gəlib bu xarabalarda məskən saldıq. Dörd il həmin üç evdə qaldıq. Bir gün Qazı həmin xarabalıqdan keçərmiş. Ayağa qalxdım. Süfrəyə arpa çörəyi ilə çay göyərtisindən qoyduq. Gülə-gülə və sevinə-sevinə yedi. Sonra əlini qaldırıb Allahdan (ə. və c.) bu kəndin abadlaşmasını istədi və getdi. İki gün keçmədi ki, bir dəstə adam gördüm. Yükləri uzunqulağın və inəyin üstündə, arvadları piyada və uşaqları çiynində yoldan keçirdilər. Sual verdik, dedilər: – Qaradağlıyıq, orada çox əziyyət çəkdik. Həştrudun ucuzluğu haqqında eşidib gedirik. Deyirlər, orada əkin yerləri çox, əkinçilər isə azdır. Dedim: – Yolunuzu qısa edin. Bura böyük kənddir, geniş tarlaları var. Torpaq üzərində çalışaq. Məmnuniyyətlə yüklərini yerə saldılar. Tarlaları onlara bağışladıq. Çox zirək idilər. O biri kənddə qalan üç qardaşım da gəldi. Aləmlərin Rəbbi bərəkət göndərdi. İndi görürsən ki, kənddə yüz iyirmi abad ev var, hamısı bizim nəslimizin və o qaradağlılarındır". Mən həmin olan əhvalatı burada gətirdim.

Bu kişi tam sadəliklə hörmət və ehtiram içində hicrətin min iki yüz qırx birinci ilin rəbiül-əvvəl ayının iyirmi beşində[1] öz pak əcdadlarına qovuşdu. O seyyidin cənazəsini Köhnə bazarın əvvəlindəki məscidin kənarında dəfn etdilər. İndi o yerə Məqbərə [məscidi] deyirlər və üstünü taxta şəbəkə ilə bəzəyiblər. Bilən adamdan eşitmişəm ki, o məqbərədən keçib Qazının ru-

[1] Miladi təqvimilə 6 noyabr 1825

huna bir Fatihə bəxş edən hər kəs həmin gün hansı işə əl atsa, arzusuna çatar. *İkinci oğul*

### Şeyxülislam Mirzə Əli Əsğər

olub. Bu kişi yüksək rütbə sahibi idi, islam həccini yerinə yetirmişdi və Ali Divandan Azərbaycanın şeyxülislamı ləqəbini almışdı. Möhkəm iradəsi var idi. Qonaqpərvərlik adətlərinə sadiq olmuşdu. Onun evinə düşən hər avara özünü öz evində olduğu kimi hiss edərdi. Naibüssəltənənin sarayı onun doğma yeri olmuşdu. Sətənət növbəsi bizim şahənşahımıza çatana qədər qazılıq idarəsində ümumi məsələlərə baxırdı. Özü bu məmləkətdə anadan olmuş Böyük Atabəy bəsarət sahibi idi. Təbriz məmləkətinin işlərini nəzərdən keçirdi. Böyük şeyxin xilafət divanından Təbrizin şeyxülislamı ləqəbini almış oğlu Mirzə Əbülqasımın qürur ilə calalını məmləkətin işlərini idarə etməyin şərtlərinə müvafiq görmədi. Dişlərini ağartmağı vacib bildi. Padşahın fərmanı ilə Süleyman xan Əfşar Əsədabadi Təbrizə gəldi. Padşahın hər yerdə hörmətlə qarşılanan birinci fərmanı şeyxülislama göndərildi.

Padşah ehtiramla dolu bir məktub yazıb cəlalətli şeyxi oğlu ilə öz sarayına bir neçə günlüyə dəvət etdi. Qoca Şeyxülislam məsələnin mahiyyətini sezdi. Onun rəyi oğlunun rəyi ilə üst-üstə düşdü. Getmək məsələsinə saymazlıqla yanaşaraq üsyankarlığa əl atdı. Belə işi açıq görməyə kimin cəsarəti çatardı? Məmləkətin ixtiyar sahibi padşahın əmisi Həşəmətüddövlə Həmzə Mirzə dərgahın başbilənləri ilə məsləhətləşdi. Bu fitnəni silah gücünə yatırtmaq qərarına gəldilər.

Bir gün müridlərdən bir tayfanın etdiyi özbaşınalığı aradan qaldırmaq bəhanəsi ilə şeyxülislamı padşahın sarayına çağırdı. Gəldi. Mirzə Əbülqasımı tapmadı və bildi ki, onu saxlamaq asan iş deyil. Həşəmətüddövlə ordan-burdan danışdı və axırda sözünü o yerə gətirdi ki, "Çoxdandır ki, Təbrizin şeyxülislamını görmürəm. Haradadır və nə işlə məşğuldur?" O kişi də sadəlövh olub, deyir: "Böyük kəhriz qazdırıb və hər səhər onun kənarında

vaxtını keçirir. Hava isti olanda mənim tərəfimdə olan böyük bağa gedir və bəlkə də gün batana qədər orada qalır. Sonra da evinə gəlir". Ondan sonra bir neçə atlını həmin bağa göndərir. Bir neçə dalaşkən adam olurlar. Tənbəllik edib qaçırlar. Şeyxülislamı Şahgölünə aparırlar[1].

Bu xəbər Həşəmətüddövləyə çatan kimi bir bəhanə ilə bayıra çıxır. Əsgərlər şeyxülislamı yaxalayırlar. Camaat bunu eşidir. Şeyxülislamın sultan sarayına yaxın yerdə olmuş qaynatası qışqırıq salır: "Hara aparırlar? Rəbbin qəzası yetişib!" Axşam o kişini oğlunun yanına gətirirlər. Atlılardan bir neçə nəfərlə darülxilafətə aparırlar. Nə qədər ki Atabəy sağ idi, məhbus kimi qaldılar. Böyük şeyxülislam istədiyi yerə gedib-gəlməkdə sərbəst idi, oğluna isə bunu yasaq etmişdilər. Sonra vətənə gəldilər. O su axdı, quyu da qurudu. Bax beləcə şeyxülislamın doxsan altı yaşında hicrətin min iki yüz yetmiş səkkizinci ilinin rəbiüləvvəlin iyirmi dördündə[2] vəfatına qədər orada qaldılar.

Böyük Atabəyə bu evyıxmağına görə heç cür haqq qazandırmaq olmur. Çünki o kişi[3] Rəsulun (ə) ailəsindən idi, qapısı da, süfrəsi də hər vaxt açıq olardı. Həmişə sarıköklü, gülablı və başqa növ halvanı bişirtdirib camaata yedirdərdi. Bütün il boyu İranın və Firəngin dava-dərmanından qızıl pula alıb bəzi adamlara havayı paylayardı. Bu söz gizli deyil ki, böyük və nəcabətli ailələri incitmək adama şərəf gətirməz. Mən uzun illər qonşumuz olan həmin böyük şeyxin yanına gedib-gəlirdim və bir il oğlu Şeyx Məhəmməd Hüseynə məktəbdə fiqhdən dərs demişdim. Şeyxülislamın bir neçə oğlu olub. *Birinci:*

## Mirzə Əbdülhəmid

Nəcəfdə yaşayıb, ... [yazılmayıb] ildə əcdadlarına qovuşub. *İkinci:*

---

[1] Əlyazmanın bu hissəsi səliqəsiz yazıldığına görə məna aydın deyil.
[2] Miladi təqvimilə 29 sentyabr 1861
[3] Yəni Mirzə Əli Əsğər

## Şeyx Məhəmməd Hüseyn

Allahı tanıyan fəzilətli seyyid olub. Nəcəfdə din elminə yiyələnəndən sonra Təbrizə gəldi. Böyük hörmət sahibi olub. Öz elmi hövzəsi var idi. Şadabad kəndindən aldığı kiçik gəlir hesabına yaşayırdı. Hicrətin [1294-cü] ilində[1] bu dünyadan köçdü. Allah ona rəhmət eləsin!*[Üçüncü:]*

## Şeyxülislam Mirzə Əbülqasım

İşgüzar və alnıaçıq kişi olub. Mədaxilin çoxunu xərcləyərdi. Bu cavan Təbrizdə şeyxülislamlıq edərək atasına üstün gəldi, hökumətlə də yola getmədi, öz evini də yıxdı. *[Dördüncü:]*

## Şeyxülislam Mirzə Mahmud

Bu böyük adam fəzilətdə öz tayfasını ötüb keçmişdi. İllər boyu mənimlə dostluq edib və günlərin çoxunu, xüsusilə adına günlərini öz ustadları ilə əsrarəngiz bağlarda keçirərdik. Bütün söhbətlər ərəb şeiri və ədəbiyyat ətrafında olardı. Ayıq-sayıq cavan olub, bilik və ağıl sahibi idi. Yaşda məndən bir az böyükdür. ... [yazılmayıb] ildə anadan olub. Ədəbiyyat fənnini Təbrizdə öyrənəndən sonra Əmirülmömininin (ə) məqbərəsi olduğu yerə köçüb böyüklərdən fiqh ilə üsuldan dərs aldı və Təbrizə gəldi. İndi atasının evində elmi hövzəsi var və Təbriz xalqının qazısı vəzifəsinə yiyələnib. *[Beşinci:]*

## Sədr Hacı Mirzə Cavad

Dilli-ağızlı bir cavan olub və mənimlə dost idi. Hökumətdən "Sədri-divanxanə" ləqəbini almışdı və uzun illər bu adla tanınırdı. Hicrətin ... [yazılmayıb] ilində dünyasını dəyişib. Allah ona rəhmət eləsin! *[Altıncı:]*

---

[1] Miladi təqvimilə 1877

## Şeyxülislam Mirzə Ətaüllah

Bu cavan oğlan böyük şeyxülislamın nəvəsi, mərhum şeyxülislam Mirzə Əbülqasımın əziz oğlu və Təbrizin şeyxülislamıdır. İndi də həzrət tərəfindən Azərbaycan seyyidlərinin rəyasətinə seçilib. Ağıllı və ürəyiaçıq bir cavandır. Xiyaban məhəlləsində hündür və səfalı evi vardır. Həmin evin həyətində hər yerdən gətirdiyi reyhan və qızılgül bitir. Ora behiştin bir guşəsi və dostlar bağıdır.

## Bu şəcərənin başqa qolu

Bu sülalə Böyük Xaqanın dövründə məşhur və böyük olmuşdu və bütün yüksək vəzifəli şəxslərin evində qəbul olunardı. Şəhər əhalisinin fikrincə bu nəsil ağacının başçısı Hacı Mirzə Yusif kəramət sahibi idi. Əfsuslar olsun ki, o böyük adamın bir oğlunun nadanlığı üzündən bütün ev yıxıldı. Həmin seyyidin nəslini Əbdülvəhhaba qədər təqdim edirəm:

## Müctəhid Hacı Mirzə Yusif

ibn Mirzə Əbdülfəttah ibn Mirzə Ətaüllah ibn Mirzə Şərəfcahan ibn Mir Məxdum ibn Cəlaləddin Sultan ibn Sədrəddin Məhəmməd bin Məcdəddin ibn Seyyid İsmayıl bin Mir Əli Əkbər ibn Mir Əbdülvəhhab. Bu fəzilət sahibi hicrətin ... [yazılmayıb] ilində İsfahana getdi. Fiqhdə ictihad mərtəbəsinə yüksələndən sonra Təbrizə gəldi və insanları düz yolla aparmağa məşğul oldu. Bir risalə də yazdı. O vaxtlarda bütün təbrizlilər onun arxasınca gedirdilər. Gecələri oyaq qalaraq ibadətlə məşğul olan adam idi. Xaqan onu yüksək vəzifəyə qoydu və Naibüssəltənənin hüzurunda onun xeyrinə danışardı. Sultan sarayında biçarələrin əlindən tutanı olmuşdu.

## Hekayət

Eşitmişəm ki, bir qardaşı da var idi, qəlb gümüş düzəldib müamilələrini həmin sikkələrlə edərdi. Hamı bildi. Həşəmət

Mirzə də bildi, ancaq onu yasaqlaya bilmədi. Onda həzrət Mirzə İsa Fərahani məsləhət gördü ki, Naibüssəltənə bir ovuc həmin dirhəmlərdən götürüb xalis gümüşün üstünə qoysun. Mirzə gələndə bu məsələdən danışıb dirhəmləri ona göstərsin və desin ki, adamlar ziyana düşürlər, qardaşına başa sal ki, əlini belə nalayiq işlərdən çəksin.

Bir gün Mirzə gəlir. Naibüssəltltənə ordan-burdan söz açır və axırda bu dastanın üstünə gəlib dirhəmləri ona göstərir. Mirzə də birdən deyir ki, "Bizim Məhəmməd Əli də alış-veriş zamanı belə gümüşdən istifadə edir". Naibüssəltənənin daha deməyə sözü qalmır.

Bu böyük adam Ustad-Şagird məbədində imamlıq edərdi və o barədə öz yerində yazılacaqdır. Mirzə min iki yüz qırx ikinci ildə[1] əbədi dünyaya köçdü. Onun cəsədini Hüseynin (ə) şəhadət yerinə apardılar. İndi isə Mirzə Ətaüllahın nəsəbindən ayrılmış bir qoldan söz açaq və o kişi seyyid nəslindəndir.

## Şeyxülislam Mirzə Əsədüllah

Onu fəzilət sahibi kimi qələmə verirlər və o, dörd il bu şəhərin hakimi və sərdarı olmuşdu. Bu rəvayəti mən ailənin ağsaqqalının dilindən yazıram. Səkkiz ay yarım Təbriz hökumətinin başında əyləşmiş və onun həməsri olmuş Mirzə Məhəmməd Rəfinin yazısında gördüm və bu rəvayət dəqiqdir. O, Allah adamı və ürəkli bir kişi idi. Bu nəcib adamın türbəsi Əlişah məscidinin tağının önündəki qəbiristandadır. Məzar həmin yerdə qazılıb və üstündəki mərmər daşın üzərində vəfatının ayı və günü göstərilmiş aşağıdakı beytlər həkk olunmuşdur:

Əsədüllahın  şan-şöhrətinin ucalığıdır ki,
Öz kürsüsünü əzəmətli ərşin altında salmışdır.
Xoşbəxtlik bağının gülü, nəsabət taleyinin Ayı,
Uca məclisin işığı, təzim gözünün nuru.
Fəzilət ilə hünərin göyü, şan ilə şövkətin Günəşi,

[1] Miladi təqvimilə 1826/27

Onun ağacının torpağı tacın üstünə atılan fərqdir[1].
Ya böyük Tanrı! Səkkizlə dördün[2] haqqına
Şadlıq qədəhini Kövsərin suyu ilə doldur.
İnci paylayan qələm tarix yazıb,
“Xoşdastan bülbül darün-nəimə[3] uçub”[4].

Bu, min yüz səksən üç edir[5]. Həmin qəbiristanın adı Lələbəydir.

## Təbrizin qazılar ailəsi

Adlı-sanlı üzvləri olan Təbrizin qazılar ailəsi Hacı Mirzə Mehdinin şəcərəsindən ayrılmış bir qoldur. O böyük şəxsin iki oğlu olub. Birincisi həm tanınmış, həm də dövlətli adam olmuş

## **Qazı Hacı Mirzə Əbdülcabbar**dır.

Mən o kişini çox görmüşəm və bizim bağımız onlara məxsus evin bayır tərəfi ilə həmsərhədd idi. O, uzun illər Azərbaycanın qazılığını yerinə yetirirdi və hicrətin min iki yüz ... [əlyazmada bu yer boş qalıb] ilində bu dünya ilə vidalaşdı. Ondan bir neçə oğul qaldı:

## Qazı Hacı Mirzə Möhsün

Atasının yerini tutur və xalqı yaxşı yola verir. Onun evi alimlərin və şairlərin sığındığı yerdir. Görkəmli şəxsiyyətdir. Onun digər qardaşları zahidlik və guşənişinlik yolunu seçiblər.

---

[1] Fərq – (burada) bəylə gəlinin başları üstünə atılan sikkələr.
[2] Səkkizlə dörd – on iki imam.
[3] Darün-nəim – cənnət.
[4] Mətndə fars dilində yazılmış bu beytdəki: “Pərid bolbole-xoşdastan be dare-nəim” hərflərin əbcəd hesabı ilə cəmi 1183-ə bərabərdir.
[5] Miladi təqvimilə 1769/70

## Hacı Mirzə Haşim Ağa

Bu böyük adam elm və fəzilət sahibi olsa da, əsasən əmirlərlə oturub-durardı. Ovçuluğun mahir ustası idi və bu işə xüsusi meyil göstərərdi. Ov quşlarını saxlayardı və tövləsində minik heyvanlarının yanında tazı itləri də az deyildi. Böyük adamlarla ünsiyyət yaratmışdı. Böyük Atabəy və şahənşahın digər yüksək rütbəli xidmətçiləri onun yanına gəlib padşah üçün ov səfərini təşkil edəndə aşpaz gözəl taamlar hazırlayardı və böyüklərin əksəriyyəti süfrə arxasına yığışardı. Hicrətin min iki yüz ... [əlyazmada bu yer boş qalıb] ilində Kə'bəyə getdi və orada Yaradanın rəhmətinə qovuşdu. Onun üç oğlu olub. Biri atasının sağlığında bu dünyadan köçmüşdü.

## Qazı Hacı Mirzə Mehdi

Qoçaq, nüfuzlu və nəcib bir kişidir. Dostları çoxdur. Şəhərdə hündür bir bina tikdirib. Vaxtını nədimlərlə və alimlərlə orada keçirir. Yaxşı yeyir-içir və gözəl geyinir. Təpələrin altında şərq tərəfdəki Şadbad kəndində hamamlı-hovuzlu evi və bağı vardır. Əvvəl atası orada imarət salmışdı. Bu nəcib insan bütün binaları söküb təzədən tikdi. Oraya böyük vəsait sərf etdi. Yaz gələn kimi ailə üzvləri və nökər-qulluqçuları ilə orada yerləşib təmmuz* ayında payız yetişəndə şəhərdəki evinə qayıdır. Hicrətin mininci ilinə üç yüz də gəldiyi keçən ildə islam həccinə yollandı. İndi tam hörmət və ehtiram içində Təbrizdə yaşayır.

## Mirzə Əbülhəsən

Nəcabətli və ürəyiaçıq cavan adamdır. Ortabab var-dövlətə malikdir. Özünə layiq hörmət sahibidir.

## Fəsil

Bu fəsildə əcayib şeylər var. Bilməliyik ki, müctəhid Hacı Mirzə Yusif bu dünyadan köçəndə onun Mir Əbdülfəttah adlı

oğlu var idi. Şəhər sakinlərinin Mirzəyə böyük hörməti olub. Onlar oğlunun başına dolandılar. Bir neçə günün içində ondan bir imamzadə düzəldib yalandan gözəl sözlər söylədilər. O cavan oğlan da özü üçün bir möhür hazırladı və üstündə "Müctəhid Əbdülfəttah ət-Təbatəbai"ni həkk etdi. Fars dilini bilməsə də həzrət xilafət atasının xatirinə onunla çox mehriban olurdu. Tez-tez də ona nəsihətlər verirdi. Amma çifayda. Bu oğlan çox məğrur və özündən razı bir cavan idi. Mən dəfələrlə Mirzə Əbülqasımın Naibüssəltənə tərəfindən atasına yazdığı sənədlərini görmüşəm ki, orada onu "savadsız Fəttah" adlandırırdı. Əgər mən onun günahlarının üstünə pərdə salmaq istəsəydim, nə etdiyimi O Eyibləriörtən Allah özü bilərdi. Amma mən yalan danışmamağı özüm üçün bir qaydaya saldığıma görə istər-istəməz burada bildiyimi deyirəm. Belə vəziyyət hicrətin min iki yüz qırx üçüncü ilində[1] şəhərdə düşmüş qovğanın onu müti hala gətirənə qədər davam etdi. Mən nə yazıramsa, Cahangir Mirzənin "Tarixi-Cahangiri"ndən götürürəm. O isə məlumatlı adam olub, qərəzli olmayıb və kor olandan sonra deyərdi, uşaqları da yazardılar.

O deyir: – Min iki yüz qırx üçüncü ildə Təbriz şəhərində iyirmi min ev olub. Qalabəyinin ordusunda səkkiz min nəfər tüfəngçi və sursatı ilə yüz iyirmi lüləyə yaxın top olmuşdur. Naibüssəltənə otuz il ərzində burada ərzaq ehtiyatı yığmışdı. Böyük Xaqanın hökmü ilə Təbriz şəhərində hakimiyyət Asəfüddövlə Allahyar xanın əlində idi və mazandaranlı xacə Hacı Əli Əsğər Naibüsəltənənin hərəm işinə baxırdı. Təbrizlilər Asəfüddövlə ilə yola getmirdilər. Hacı burada zirəkliyini göstərdi. Onun da nəyə əsaslandığı aydındır. Mir Əbdülfəttah işi əlinə keçirib hökm sürürdü. Təbrizlilərin onun atasına çox böyük hörmətləri var idi. O da hakimlər kimi geyinərdi. Mən onun ayağında qırmızı kətan şalvar görmüşdüm. Asəflə yola getmirdi və şəhərin ağsaqqalları da onunla dostluq etməzdilər. Mir, muxtari-mütləq oldu.

---

[1] Miladi təqvimilə 1827/28

Mərəndin başçıları Mərənd hakimi Nəzərəli xanın (Nəzərəli xan keçən il böyük xəyanət edib müqavimətsiz Gəncə qalasını təxliyyə etdiyinə görə ölüm tələsinə düşdü) qanını tökmək məqsədilə cavan əmirlə saziş bağlayıb imperatorun köməyi ilə onu aldatdılar. İş o yerə çatmışdı ki,onua belə bir məktub yazdılar: “Azərbaycan hökuməti sənin haqqındır, çünki sən islam xəlifəsisən”. Bu yolla onlar onu ovsunlaya bildilər. O vaxt beş hərbi dəstəsi ilə Naxçıvandakı ordugahda oturmuş general Eristovu da bu sirrdən xəbərdar etmişdilər. Birdən işin üstü açıldı. Hacı Əli Əsğər Naibüssəltənənin hərəm xanımı ilə məsləhətləşib belə qərara gəldilər ki, o cavanı saraya qonaq çağırıb orada ona əmanət adı ilə iyirmi min qızıl tümən versinlər ki, düşmənlərlə danışıq aparmaqdan vaz keçsin.

Bu, cahilanə bir tədbir idi. Mərəndlilər Əbdülfəttahdan rus sərdarına ünvanlanmış “Təbriz havayıdır”[1] məzmunlu məktubu ələ keçirtdilər. Sərdar da üç alay və on topla Şad dağının arxasından mərəndli süvarilərin bələdçiliyi ilə Təbrizə irəlilədi. O vaxt Asəf düşmənin Sufiyana gəlib çıxdığını bildi. Oradan da Acırudun sahilinə çatdı. Asəfüddövlə Gəcil darvazasına gəldi. Oradakı qaladan düşmənə tərəf üç top atdı. Rus sərdarı mərəndlilərin başçılarını tutub qayıtmaq istədi. Onda mərəndlilər bir nəfəri Mir Əbdülfəttahın yanına göndərdilər ki, “Biz belə danışmamışdıq”. Mir də əmmaməsini başına qoyub Təbriz məhəllələrinin alimləri ilə bir yerdə Gəcil qapısına gəldi. Topçuları aşağı saldılar və hamılıqla rus ordusunu qarşılamağa çıxdılar.

Eristov üzünü şəhərə tutdu. Asəf Xiyaban məhəlləsinin bir küncündə gizləndi. Şəhərin kədxudaları sərdarın qabağında baş əydilər. Yalnız vəkil Mirzə Əbdülvəhhab rəzil olmağı özünə sığışdırmadı və müctəhid Mirzə Əhməd düşmənlərin Təbrizə daxil olmasından qabaq ailəsini götürüb şəhəri tərk etdi.Sonra rusların baş əmiri Qeviç[2]Eristovun bu igidliyindən xəbər tutub otuz minlik ordu ilə Təbrizə gəldi. Eristovu “divanə” adlandırdı.

[1] Yəni, “xərc çəkməyib Təbrizi ala bilərsən”
[2] Yəni general Paskeviç

Naibüssəltənə Şəndabadın Ərvənəqində[1] bu əhvalatı eşitdi. Çarəsiz qalmışdı. İş işdən keçmişdi və Azərbaycan tamamilə əldən getmişdi. Hərb sülhə yer verməli idi.

O bilikli adamın sözlərindən daha heç nə gətirmirəm, çünki arxası nalayiq ifadələrlə doludur. İki dövlətin işi sülhə tərəf yönələndən sonra xaraba qoyulmuş İranın çoxlu malı və geniş ərazisi yadellilərə nəsib oldu. Mir Əbdülfəttah daha Təbrizdə qala bilməzdi. Tiflisə getdi. Orada ona aylıq maaş verirdilər. Ağlasığmaz xərc çəkib Kürün sahilində böyük bağ saldı. Hicrətin min iki yüz ... [yazılmayıb] ilində vətənə gəldi. Qacar padşahı hüsni-rəğbət göstərib onun cəlalətli ailəsini əfv etdi və onların nalayiq və düşmən hərəkətlərini üzlərinə vurmadı. Böyük ehtiram göstərdi, nağd puldan və maldan Azərbaycana bağışladı. *Bütün il boyu aldı. Şəhərin cənubunda ev, hamam, bağ və kəhriz tikdirdi. Daha da artıq hörmət qazandı. Hicrətin min iki yüz altmış doqquzuncu ilində[2] dünyasını dəyişdi. Ora böyük ərazidir. Onun qohumunu soruşdu. Bu işi görəndən sonra dedi: "İslam millətini qoruyuram". Ancaq Paskeviç onun mülkünü və malını əlindən aldı. O yazılardan bir-ikisini göstərib ağzımı yumuram*[3].

Cahangir Mirzənin yazısıdır. Sözün açığı, seyyid üçün böyük rəzillikdir. Yazır ki, sülh bağlanandan sonra Mir Əbdülfəttah sərdara belə bir peyğam göndərir: "Təbrizi təxliyyə etməyiniz məqsədəuyğun deyil. Təbrizlilər rus dövlətinin rəiyyətləri olmaqdan ötrü iki ilə dörd kürur[4] verərlər". Bunu öhdəsinə alır.

"Şöhrət ilə hörmət sahibi, qələbəçalan əsgərlərin sərdarı, Xəzər dənizi və Qara dəniz vilayətlərinin nizama gətirəni və əmr verəni, ali rütbəli, izzətli və xoşbəxt general-anşefin hökmü əsasında Hacı xan Məhəmməd Məhadmehini Təbrizinin mərhəmətli xələfi, əyanların seçilmişi Ağa Məhəmməd Kazıma Dərbisərd məhəlləsində və ona tabe və bağlı olan Küçəbağda ağsaqqal və kədxuda ləqəbini veririk ki, adıçəkilən məhəllənin rəiyyət-

[1] Naibüssəltənənin ordugahı Təbrizin Şəbüstər bölgəsində yerləşirdi.
[2] Miladi təqvimilə 1852/53
[3] Mətnin bu hissəsində anlaşılmazlıq müşahidə olunur.
[4] Kürur – 500 000.

lərinə başçı olaraq onlarla düz-dürüst yolla rəftar etsin və bunun-la imperator dövlətinin davamı üçün duaların oxunmasını qazansın. Qərara alındı ki, həmin məhəllənin və Küçəbağın rəiyyətləri o əziz və alimənsəb zatı özlərinin kədxudaları kimi tanımağı, onun sözlərinə müxalif olmamağıvə üstünə təcavüz etməməyi öhdələrinə götürsünlər.

*Min iki yüz qırx üçüncü ilin rəcəbül-mürəccəb ayının on birində*[1] *yazıldı".*

Burada düzbucaq şəkilli möhür vurulub və möhürdə aşağı-dakılar nəqş olunubdur: "Allahın səxavətindən bəhrələnən Əbdülfəttah bin Yusif əl-Həsəni əl-Hüseyni ət-Təbatəbai ət-Təbrizi". Haşiyədə rus sərdarı rus əlifbası ilə imza qoyub.

## İkinci nüsxə

"Qələbəçalan əsgərlərin sərdarı, Xəzər dənizi ilə Qara dəniz arasındakı vilayətlərin nizama gətirəni və əmr verəni, müxtəlif vəzifələrin daşıyıcısı general-anşefin əmri əsasında qərara alındı ki, Dehxarqan və Dizəcrud məhəllələrinin, Bəharlu elinin məmurları və təbəələri və Məməqan kəndinin kədxudaları bir yerdə və hamının iştirakı ilə Rusiya əsgərlərini onlar üçün zəruri olan sursatla həmin əsgərlərin başçısı general Bonqradyefin[2] verdiyi qəbzə və sənədlərə müvafiq olaraq təmin etsinlər və bütün yükün təkcə Dehxarqan rəiyyətlərinin boynuna düşməsinə yol verməsinlər. Lazım olan sursata görə qəbz verilməsinin və Dizəcrud, Dehxarqan və Məməqan məhəllələrinin və Bəharlu elinin təbəələrini qəbz verilmədən əziyyətə salmamasının vacibliyi əsgərlərin adıçəkilən sərkərdəsinə elan olunsun. Dehxarqanın təsərrüfat müdirii Ağa Mehdinin evinə qoyduğu qarovulu götürsün. Adı çəkilən şəxs təsərrüfat üzrə müdirdir və taxıl onun ixtiyarındadır. O, öz gəlirinə müvafiq olaraq vergini ödəyəcəkdir. Daha qarovula zərurət yoxdur.

---

[1] Miladi təqvimilə 28 yanvar 1828
[2] Pankratov?

*Min iki yüz qırx üçüncü ilin rəbiüs-sani ayının iyirmi iki-sində*[1] *yazıldı".*

Burada da həmin möhür qoyulub və rus sərdarı hamısına qol çəkib.

Bu yerdə sözümü kəsməyim yerinə düşər. Mən bu işi Allahın, Onun elçisinin və Əmirülmömininin (əleyhiməssəlam) xatirinə görmüşəm. Mən bildiyimi burada yazmışam. Böyük şahənşahın Xan Əmi adı ilə tanınan Məlik Qasım Mirzə adlı oğlundan eşitmişəm ki, Eristov Acıçayın kənarına gəldiyi gün Təbrizdə beşminlik ordu var idi və əgər onlar toplansaydılar, onda o məğrur sərkərdə geri dönəcəkdi və mərəndlilərin sözlərinə əhəmiyyət verməzdi. Şübhəziz ki, onda həmin qoşun Naxçıvan yolunda itkilər verəcəkdi və təbrizlilər hay-küy salsaydılar, o ordu da təslim olardı və sülh məsələsi asanlıqla öz həllini tapardı. *Son.*

## Dünya qaldıqca bu böyük ailə də yaşayacaq

Mən bu ailə haqqında məlumat verməyi özümə borc bilirəm və mənim sözlərim düppədüzdür.

## Hacı Mirzə Kazım

Mirzə Paşa ləqəbli Vəkil Mirzə Əbdülvəhhabın oğludur. Məlumdur ki, Mirzə Sədrəddin Məhəmmədə qədər bu nəslin mənsəbi vəkillik olmuşdur. Onlardan üç nəfər maliyyə vəkili, üç nəfər isə rəiyyət vəkili olub.

## Mirzə Paşa

Vəkilürrüaya* özünü ağır aparan və vüqarlı bir kişi olmuşdu. Mən o böyük adamı cavanlığımda görmüşəm. O vəkilin evi bizə yer verilmiş məhəllədə idi. Biz Təbrizdə və onun ətrafında gün-

[1] Miladi təqvimilə 12 noyabr 1827

dəlik və aylıq haqqımızı alırdıq. Həmin kişi bizim aylıq haqqımızı həmin yerə yazdırırdı. Bir dəfə bizim evimizə gəldi. Atam sipəhbüdə* baş çəkdi. Vəkilin Dehxarqanda və Təbrizdə çoxlu torpaq sahələri olub. İş elə gətirdi ki, əlindən getdi. Bir şeyə də işarə edim. Bu kişi olduqca qeyrətli və sadədil idi. Hökmdarların işləri düz gəlməyəndə onun evinə yığışıb məsləhətləşərdilər. O da bir vəkil kimi onlarla bir yerdə əyləşərdi. Sonda başı cəncələ düşdüyündən çox bədxərclik etdi.

Ona Təbriz hökumətindən çox ziyan dəymişdi və mən o ziyanın yerinə yaxşı bələdəm, çünki özüm də o şərbətdən içmişəm. Təbrizə və onun hökumətinə bağlı işlərdən kənarlaşandan sonra öz evində otururdu. Qapısı həmişə açıq olardı. Bu kişi səhər bayır evinə gedib axşamadək bir neçə dostu və nədimi ilə bərabər orada əyləşərdi. *Dərgaha az gedərdi, çünki oğlu indi havadarlarından yaxşılıqlar görür və onda bu fərasət haradandır ki, məhəllədə kədxudalıq etsin?*[1]

Bu hal hicrətin min iki yüz ... [yazılmayıb] ilinədək davam etdi. Sonra Mirzə Sadiq Nuri həzrəti-xilafət tərəfindən məmləkətin baçşısı yerinə təyin olundu və "qaimməqam" ləqəbini aldı. O, məğrur bir cavan idi, dünyagörüşü də dar olmuşdu. Şahənşahdan onun beyninə vəzirlik yeli əsib yetişdi. İranın sədarətini əlində saxlamış əmisi oğlu ondan qorxurdu və gizlicə məmləkətin hökmdarında ona qarşı fikir yaratmağa çalışırdı. Bir gün belə oldu ki, çörəyin qiyməti qalxdı. Qoca arvadlarla kasıb-küsublar dərgaha vardılar. Hökmdar dedi: "Bu işdə mənim barmağım yoxdur. Hökumətin taxılı qaimməqama təhvil verilibdir. Çarəsini də ondan istəyin".

Bu söz dəfələrlə təkrar olundu və sübh tezdən bir neçə üzüörtülü[2] bazara gəlib vay-şivən qoparmağa başladılar ki, "Qaimməqam taxılı anbarda saxlayır. Bu səbəbdən də çörək tapmaq olmur. Biz hamımız ərsiz qadınlarıq. Allah adına bizə kömək edin, yalın ayaqlarımızı örtün. Bəlkə kimsə bizə bir az buğdadan

---

[1] Bu cümlənin mənası aydın deyil.
[2] Yəni qadın

verə ki, biz də bu çarəsizlikdən çıxa bilək”. Fürsətaxtaranlar elə bu məqamı gözləyirdilər. Yığışıb qaimməqamın sarayı qabağında toplandılar. İnsafla desək, və mən öz gözümlə gördüyümü burada söyləyirəm, o kişinin bu işdə gənc və məğrur olmaqdan başqa bir günahı da yox idi. Onunla həmsüfrə olan, amma alim olmayanlardan bir dəstə onu aldadaraq dedilər ki, “Bu, filankəsin barmağından olan üzükdür. Bunu tax ki, məlikin üzüyüdür. Bu sözləri boşboğaz məzhəkəçilər filan racəyə öyrədiblər. Onları oxu. İndi darülxilafətin dəftərxanasından sənə bir peyğam gələcək”. Ondan sonra gecə gələn kimi yerdə bir neçə söz çəkdilər ki, “Burada oturmalı və filan kəlməni filan dəfə oxumalısan ki, Mirzə Məhəmməd Əxbari də bunu etmişdi və nəticədə rus sərdarı Sisianovun başını gətirdilər”[1].

Bu biçarə səfehin biri idi. Bütün adamlarla işini hədə-qorxu uzərində qurardı. Bu səbəbdən də alimlərlə və əyanlarla arası yox idi. Nüsrətüddövlə bayır evi boşalandan sonra bir neçə hərbçi ilə gəldi. Söz uzandı. Qaimməqam bəylərbəyin Novbər məhəlləsindəki bağına gəldi. Orada da qala bilmədi. Paytaxta getdi. Baş vəzir öz qardaşı müdafiə vəzirini[2] ikinci dəfə göndərdi. Padşahı ovsunlamaq üçün səltənətin möhtəşəmliyini və dövlətin namusunu işə salmaq lazım oldu. Təbriz kədxudalarından üç nə-

---

[1] Mirzə Məhəmməd Əxbari islamda ictihadı bidət sayırdı və o fikirdə idi ki, bütün dini işlərdə yalnız (təbii ki, Qur’ani-kərimdən sonra) peyğəmbərdən və imamlardan rəvayət olunanlar (yəni Əxbar) mötəbər mənbə sayıla bilər və bunlara heç nə artırıla bilməz. Buna görə həmin təriqətə “əxbari” təriqəti deyərdilər. Rus ordusunun İrana işğalçıllıq yürüşünün ən qızğın vaxtında o, Fətəli şahın hüzuruna gəlib demişdi ki, “Mən çilləyə oturacağam və bu çillənin (yəni qırx günün) sonunda “işpoxturun” (Sisianovun rus ordusunda vəzifəsi “inspektor”, yəni müfəttiş adlanırdı və azərbaycanlılar onu lağa qoyaraq adını “işpoxtur” qoymuşdular) başını hökmən Sizin dərgahınıza gətirəcəklər. Şərtim də odur ki, əgər mənim sözüm düz çıxsa, Siz əxbari təriqətini himayənizin altına alıb mənimlə müxalif olanlarla müxalifət edəsiniz”. İş elə gətirdi ki, 1806-cı ilin mart ayında və sözügedən çillənin axırında Sisianov təntənəli surətdə Bakı şəhərinə daxil olarkən Bakı xanı Hüseynqulu xan Qacarın əmisi oğlu İbrahim xan onun üstünə hücum edib başını bədənindən ayırmış və Fətəli şahın sarayına gətirmişdi.

[2] Yəni Mirzə Fəzlüllah Nurini

fəri tutub paytaxta yolladılar. O üç nəfər vəkil, qalabəyi və kələntər idi. Bu böyükləri Racil xiyabanında hərbçilərin sıraları arasından keçirtdilər. Vəkilin çiynində mahut cübbəsi var idi. O paltarı daşımaqdan təngə gələrək çıxarıb onu qoruyan əsgərin üstünə atdı.

Sözün qısası. Bunları saraya apardılar. Bir neçə ay orada qaldılar. Ondan sonra əzizlənib qayıtdılar. Vəkil daha xidmət etməyə həvəs göstərmədi, Seyyidüşşühədanın (ə) qəbrinə gedib orada qaldı və hicrətin min iki yüz ... [yazılmayıb] ilində göylərin sakinlərinə qovuşdu. Rus Təbrizə hakim olan ildə Təbriz camaatı çar-naçar Ağa Mir Fəttahın ətrafında yığışıb həmfikir oldular. O vaxt Naibüssəltənədə nə qorxu, nə də ümid yeri qalmamışdı. Bu vəkil ayaq üstə möhkəm durmuşdu və zəlil olmaq istəmirdi. Paskeviç Dehxarqana gəldi və Naibüssəltənə də buraya gəldi. Ortada sülh danışıqları gedirdi. Təbrizə vəlvələ düşdü. Bir az həyəcanlandı. Mir Fəttah gördü ki, şəhərin başçılarını bənd edir. Hacı Seyyid Hüseyn ... (mətnin bu yerində mənası aydın olmayan cümlələr bir-birini təqib edir). Belə qərara gəldilər ki, Vəkilürrüaya* Naibüssəltənənin yanına Dehxarqana getsin. Bu çətin məsələ idi, çünki darvazalar ələ keçmişdi və bəzənmiş ata şəhərdən çıxmağa qoymazdılar. Onda atı şəhərdən kənara zinətsiz yolladılar. Atın zinətlərini isə ayrı apardılar. Vəkil yavaş-yavaş Dehxarqana çatdı.

O biri gün Naibüssəltənə digər məmurları və şeyxülislamı Təbrizə gətirdi. Vəkili axtardılar, ancaq tapmadılar. Ağa Mir Fəttah sərdara məktub yazdı: “Mirzə Paşa şəhərdən qaçıb Naibüssəltənəyə qoşuldu. Onu yollamaq lazımdır ki, başqaları da həvəsə düşməsinlər”. Sərdar Naibüssəltənəyə [məktub] göndərdi ki, “Mirzə Paşa Təbrizdən qaçıb. Ağa Mir Fəttah onu tələb edir, yollamaq lazımdır”. Naibüssələnə cavabında dedi: “Mən sabah sərdarla görüşərəm və Mirzə Paşanı da özümlə gətirərəm”.

Vəkil özü rəvayət edir ki, o gün Naibüssələnə sərdarla görüşə getdi. Məni apardı. Paskeviçin olduğu bağa gələndə canıma qorxu düşdü. Özümü oraya çatdırdım və divara söykənib dayandım. Bir saatdan sonra sərdar tərcüməçiyə dedi ki, Naibüssəl-

tənədən soruşsun: “Mir Fəttahın dediyi Mirzə Paşa hanı?” Naibüssəltənə ədəblə məni göstərdi. Mən elə qorxmuşdum ki, az qala yerə yıxılacaqdım. Divara söykəndim. Sərdar mənim bu halımı gördü. Tərcüməçiyə dedi ki, soruşsun: “Mir Fəttah səni istəyirdi. Təbrizə gedirsən ya Naibüssəltənənin xidmətində qalmaq istəyirsən?” Kəkələyə-kəkələyə dedim: “Təbrizə getmərəm. Burada qalacağam. Naibüssəltənənin xidmətində təzədən həyata qayıtmışam və Allaha şükr edirəm”.

Sülh bağlanandan sonra bu xidmətlərə görə Vəkilin işi düzəldi. Naibüssəltənə cəbbəxananı, Təbriz şəhərini və Dehxarqanı ona tapşırdı. Hörməti xeyli artdı. Mən burada dediklərimi təsdiqləmək xatirinə Təbriz bəylərbəyi Hidayət xanın oğlu Fəthəli xanın yazdığı bir sözünü misal gətirirəm:

## Naibüssəltənənin məktubu

*“Ali hökm*: ali rütbəli Naibüssəltənənin (can ona fəda olsun!) əmrinə əsasən yüksək rütbəli izzət sahibi kədxuda Ağa Məhəmməd Əlinin mülkü olan Əmir Dizəc kəndi adıçəkilən alişanın əbədi tiyulu olduğuna görə Dehxarqandakı dövlət torpaqları ona qatılmamalıdır. Adıçəkilən alişan həmin kənddəki dövlət malını geri almalıdır. Buna görə ali rütbəli və yüksək mənsəb, izzət və səadət sahibi, adıçəkilən mahalın dövlət işlərinə cavabdeh olan Mirzə Əbdülvəhhaba izah olundu ki, uca və böyük qüdrət sahibinin verdiyi əmrinə əməl etsin və ondan imtina edib xilaf çıxmasın. O kənddən pişkəş şəklində çatanlar o alişana həvalə olunsun və Təbrizdə ali rütbəli Əxəvi Mirzə Fəzlüllahdan geri aldıqlarını heç bir halda həmin kəndə qatmasın. İzah olunmuşbu qərarı qəbul etsin və öhdəsinə alsın.

*Min iki yüz qırx üçüncü ilin ziqədə ayında*[1] *yazıldı”.*

Burada üstündə “Allahın bəndəsi Fəthəli bin Hidayətüllah” nəqş olunmuş dördbucaq şəklində möhür vurulub.

[1] Miladi təqvimilə 1828-ci il

## Vəkilürrüaya* Hacı Mirzə Kazım

Əgər mən bu şəxsin fəzilətləri ilə kəramətini sadalamağa başlasam, deyərlər ki, onun neməti ilə dostluğu xatirinə bunu edirəm. Amma Allah (ə. və c.) bilir ki, yalan danışmaq mənim işim deyil. Mən bu kitabı yazmaqla heç kəsdən heç nə ummuram. Beləliklə, bu nəcib insanda hansı lazım və lazımsız, yaxşı və pis xasiyyətlərin yer aldığından yazaq. Gözəl xilqətə, şirin söz söyləmək qabiliyyətinə və yumşaq xasiyyətə malikdir. Allaha itaət edən, ürəyi təmiz, asilikdən uzaq, fəziləti də göz qabağında. Elmlərin çoxundan bəhrələnmiş, məktub yazmaqda ustaddır. Vəkil Hüseynin (ə) şəhadət yerinə, paklara baş çəkməyə gedəndən sonra bu ailənin işi qarışıqlığa düşdü. Beş qardaşı qalmışdı, hamısı kiçik, naz içində böyümüş, ipə-sapa yatmayan. Rəqib də atasının işini ələ keçirmək üçün pusquda durub. Üzüörtülülər çox. Bu adamın özü çox cavan, ağlı başında, əziyyət çəkə-çəkə, qan-tər içində işə girişdi. Dədə-babalarının adını uca tutdu, cah-calalları unudulmadı, qardaşlarını qanadı altına aldı, dayə kimi onlara tərbiyə verdi, soyuq yelə üzlərinə əsməyə qoymadı, Allahın köməyi ilə və öz zəhməti hesabına hamısını böyütdü.

İndi adıçəkilən bu əzəmətli şəhərdə və xilafət dərgahında hörmət sahibi və təzimə layiq bir şəxsdir. Bazarın özündə bir evi var, qapısı həmişə açıqdır. Kişi sübh tezdən ta gecə düşənədək həmin yerdə oturar və əhalinin bütün təbəqələrindən olanlar, əsasən də yüksək rütbəlilər oraya gələrlər. Yaxşı oturarlar, yaxşı danışarlar, yaxşıda yeyər-içərlər. Hamı ilə alnı açıq, hörmət və ədəblə söhbət edər.

Düşünürəm ki, ora Təbriz camaatı üçün başqa birisi olmayan bir xanəgahdır. Bu sarayda üç qonaq otağı var. Biri yay üçün nəzərdə tutulub, şimala və cənuba açılır. Digər ikisi isə qış üçündür. Hər üçünün aşağı hissəsi saf mərmərdəndir, təmiz döşəməsi və adamın rahatlığı üçün lazım olanın hamısı orada mövcuddur. Qulluqçular və eşikağası xidmətinizdə dayanar. Burada sözümü bitirirəm. Kişi, əlhəmdülillah, sağdır, evi və yad

etdiklərimin hamısı yerindədir. Həzrəti-vəkalət Əbu Talibin böyük nəsli (ə) haqqında geniş şərhləri olan bir kitabın müəllifidir. Şəcərə elminə dair əsərlərin arasında indiyədək belə kamil kitab yazılmamışdı. Əfsuslar olsun ki, təmiz vərəqə köçürməyib. Mən həmişə o cənaba deyirəm ki,bu işi görmək lazımdır, ancaq mənim sözüm hələ də yerdə qalır.

Bu gözəl insanın təvəllüdü hicrətin min iki yüz qırx altıncı ilinə[1] təsadüf edir. İndi isə bir xatirə olan vəkalət sənədini gətirirəm. Böyük Xaqan Fəthəli şahın Cəfərqulu xanın vəkilürrüaya* adını alması ilə əlaqədar yazdığı bu sənəddə o zamanlar bu mənsəbin nədən ibarət olduğu bildirilir.

## Vəkalət sənədi

*Humayun fərman:*

Mərhum vəkil Mirzə Əbdülvəhhabın oğlu, Azərbaycan hakimiyyət dəftərxanasının əməkdaşı, həmişə hökmdarın ədalətli nəzəri altında olmuş Hacı Mirzə Kazım iradət ayağını xidmət sahəsinə qoyduğu andan vəsf olunmuş sədaqətlə və şöhrət tapmış iradətlə çalışmışdı və zavalsız dövlətin hörmətli və cəlalətli qulluqçusu, nizami və qeyri-nizami qoşunların əsgərlərinin baş sərdarı Əziz xanda onun düz işləməyindən və düzgün xidmət etməyindən razılığını bildirmişdi. Məhz buna görə və həmin ali rütbəlinin qabiliyyət ilə istedadını nəzərə alaraq "tonquz yılı" olan bu xoşbəxt ildə adıçəkilən cənabı ona fəxarət ilə başucalığı gətirəcək şərəfli Azərbaycan vəkilürrüayası* vəzifəsinə təyin etdik və belə mərhəmət göstərməklə ona olan etibarımızı daha da artırdıq ki, o da ürəyini yandıraraq xidmət etməklə və təcrübə ilə bacarığını işə salmaqla humayun hüzurda öz sədaqətini açıq və aydın nümayiş etdirsin.

Qərara alınsın ki, ruh çırağının nuru və fəth qapısının açarı, xilafət şəcərəsinin qolu və səltənət ağacının barı, tayı-bərabəri olmayan xoşbəxt oğul, zavalsız dövlətin vəliəhdi, Azərbaycan

---

[1] Miladi təqvimilə 1830/31

məmləkətinin ixtiyar sahibi **Müzəffərəddin Mirzə** bu humayun fərmana müvafiq olaraq adı yuxarıda çəkilən ali rütbəli şəxsi təyin olunmuş vəzifəyə yüksəldib işdə lazım olacaq ləvazimatı ona təhvil versin. Katiblər dövlətin mübarək dəftərxanasının dəftərlərində həmin əmri qeyd etməyi öhdələrinə alsınlar.
*1280-ci ilin məhərrəmül-haram ayı*[1].

## Mülk Allah-təalaya məxsusdur humayun hökm oxundu

Yüksək məqamlı alicah, hörmət ilə səadət sahibi, həqiqətlər ilə mərifətlər bilicisi, ixlas ilə iradətin pənah gətirdiyi yer, kəramətli alimlərin qaymağı, Azərbaycanın vəkili Mirzə Məhəmməd Rəfi və şahın inayəti sayəsində uca məqamlara qalxmış, rütbələri ali, məkanları yüksək olan vəkil Mirzə Əbdülvəhhab, Mirzə İbrahim, Mirzə Əbdülcəlil, habelə Təbriz darüssəltənəsinin bölgələri ilə məhəllələrinin digər məsul şəxsləri və kədxudaları *bilsinlər ki*, bu zamanlarda məmləkətləri idarə edənin nəzərinə çatmışdır ki, Cəfərqulu xan hökmdarın sonsuz ehsan ilə mərhəmətinə göz yumub xəbislik ilə nadanlıq yoluna və ixtilaf ilə itaətsizlik təriqətinə qədəm basmış və şəhriyarın əliyyə dövlətinə xidmət etmək caddəsindən dönmüşdür. Buna görə hazırkı ayın onu, şənbə günü yüksək rütbəli alicah, həşəmət və əzəmətlə həmrah olan, cəlalət ilə səadətin pənah apardığı yer, böyük əmirlərin əmiri, şövkət ilə möhtəşəmliyin nümunəsi, əzizimiz Süleyman xanın iyirmi min nəfər qələbəçalan əsgərlərin müşayiəti ilə o hüdudlarda nizam-intizam yaratmaq əzmi ilə və adıçəkilənin, eləcə də digər fəsadçıların fitnələrini yatırtmaq məqsədi ilə təyin olunub həmin məmləkətə yollanmağını buyurduq. İlahi inayətlə adıçəkilən ayın sonuncu günü, cümə axşamı dünyanı əhatə edən dənizin dalğalarına və cahanı işıqlandıran ulduzlara bənzər qoşunlar aləmi fəth etmiş bayraqları qal-

[1] Miladi təqvimilə iyun/iyul 1863

dıraraq dünyaya hökmranlıq edən dövlətin qərargahından köç-köç, dayanmadan öz yüyənlərini o vilayətə tərəf yönəldəcəklər.
*1212-ci ilin ziqədətül-haram ayı*[1]

## Tamamlama

Bu əsilzadə adamların həmişə din, dövlət və əmirülmöminin Əli bin Əbu Talibin (ə) yolunda gördükləri işləri çox olub və bütün hökmdarların dövrlərində sözləri qəbul olunardı, çünki hamı ilə düz və açıq tərzdə davranardılar və nəfsin özlərinə qalib gəlməyinə yol verməzdilər və bununla öz ləyaqətlərini uca tutardılar. İndi isə mənim əcdadım Böyük Xaqanın Mirzə Cəfərə verdiyi vəkillik sənədini gətirirəm.

## Vəkil Mirzə Cəfərin sənədi

*Mülk Allah-təalaya məxsusdur. Humayun fərman oxundu:*

Yüksək məqamlı alicah, izzət, seyyidlik və səadət sahibi, seyyidlərin və nəciblərin varisi Mirzə Məhəmməd Cəfər Təbrizinin insanlıq xüsusiyyətlərini, qabiliyyətini və istedadını, habelə padşahın adı çəkilənə çox xoş münasibətini əsas tutaraq hazırkı “qoy yıl[2]” xoşbəxt ilin əvvəlindən Təbriz darüssəltənəsində və tabeliyində olan məmləkətlərdə vəkilürrüaya* işini həmin şəxsə tapşırıb və həvalə edib vəkil və mühərrir Mirzə İbrahim Məhəmmədə nağd və mal şəklində verilmiş məvacibi qaydası ilə adı çəkilənə buyurduq ki, bütün il boyu alıb öz məişət işlərinə sərf edərək qəbul olunmuş adət üzrə xosrovanə lütflərdən yararlana bilsin.

Qərara alınır ki, Təbriz darüssəltənəsinin yüksək rütbəli alicahları, dövlət ilə gələcəklə həmrah olanları, bəylərbəyləri və alişanları, əməlisaleh məmurları, eləcə də bütün kədxudalar, hörmətli adamlar, əyanlar, rəiyyətlər və vətəndaşlar adıçəkilənin

---

[1] Miladi təqvimilə aprel/may 1798
[2] Qoy yıl – qoyun ili. Qədim on ikiillik türk təqviminin səkkizinci ili.

bilavasitə öz vəkilürrüaya* olduğunu tanıyaraq onun yazısı ilə möhürünə etibar etsinlər və hökumət tərəfindən ona verilmiş səlahiyyətlərinə qarışmamağı öhdələrinə alsınlar.
*1214-cü ilin cümadiül-əvvəl ayında yazıldı*[1]

Bu fərman məşhur katib Mirzə Məhəmməd Rəzi Təbrizi tərəfindən yazılmışdır. Padşahın taclı dördbucaq möhürü sənədin başında vurulub. Zümrüd parçada səclə yazılmış mətn nəqş olunub. Tacda nəsx xətti ilə "Əl-izzət lillahi-təala" yazılmışdır. Beytin mətni isə belədir:

"Şahlıq möhürünü öz əzəli qüdrəti ilə
Əlinə aldı zəmanənin şahı Fəthəli.
O hadisədən sonra bu şahənşah
"Mülk Allah-təalanındır" möhürünə sahib oldu"

və həmin möhürdə aşağıdakını nəqş ediblər:

"Şahlıq möhürü Nasirəddinin əlinə keçən kimi,
Onun ədalətli olmağı hamıya və hər yerdə məlum oldu"

Bu vəkilin anası da gözəl və nəcib ailədəndir və Qazı Mirzə Mehdinin nəvəsidir. Hörmətli, dindar və ürəyi həssas bir qadın idi. Nəcabət sahibi, şahzadə və mömin xanım olmuş anamla yaxın rəfiqə idilər. O əməlisaleh qadının böyüklüyüdür ki, həzrət vəkil də uzun illər özünü ləyaqətlə aparıb hörmət qazanmışdı. Mərhum vəkilin ikinci oğlu

**Hacı Mirzə Nəsir xan**dır

Onun xasiyyətindən bir az Təbriz kədxudalarına aid bölmədə deyilib. Həmin ananın üçüncü oğlu

---

[1] Miladi təqvimilə oktyabr 1799

**Mirzə Əbdülqəffar**

qəşəng, ağıllı, tez düşünən və cəld tərpənən bir cavan idi. Bir müddət dövlət mədrəsəsində həndəsə elmini və fransız dilini öyrənərək yüksək mərtəbələrə çatdı və nişan sahibi oldu. Ancaq Aləmlər Rəbbinin fərmanı başqa oldu və ömrünün çiçəklənən çağında əbədi dünyaya köçdü. Dördüncü oğul

**Mirzə Mahmud**

üzüaçıq, şən və xoştədbir bir cavandır. Vəliəhdin divanında katiblik edir. Xoşbəxt qardaşının himayəsi altında rahat ömür sürməkdədir və heç kəsdən umacağı bir şeyi yoxdur. Beşinci oğul

**Mirzə Əbdülkərim**

Dehxarqanda yaşayır. O yerlərdə olduqca böyük hörməti vardır. Dünya işlərində və dirhəm-dinar dövriyyəsi məsələlərində ustaddır. O bölgənin hakimləri ona ehtiramla yanaşarlar, əzizləyərlər. Qardaşı kimi həşəməti və təmtəraqı xoşlayandır.

Altıncı oğul[1]. Onun da Dehxarqanda evi var və adını oradan alır. Asudə cavandır. İndi orduda yüksək vəzifə tutur və başçılığı altında yüz nəfərlik ləşgər var.

**Rəiyyətlərin əmanəti olanlardan ikinci nəsil**

Bu ailə də seyyidlər nəslindəndir. Bu tayfadan bu vəzifəyə yüksələn ilk şəxs Hacı Mirzə Kazım bin maliyyə vəkili Mirzə İbrahim ibn maliyyə vəkili Mirzə Məhəmməd Əli ibn Mirzə Sədrəddin Məhəmməddir.

**Hacı Mirzə Kazım Əmin**

şəhərin dühalarından idi. Böyük ehtiram sahibi olub. Şahənşahın dərgahında da etibarlı adam sayılardı. Mən o həşəmət sahibini

---

[1] Onun adı əlyazmada göstərilməyib.

görmüşəm. Biz qaimməqamım evində yaşayanda bizim qonşumuz olmuşdu. Ortabab sərvət sahibi idi. Şəha bölgəsini bütövlükdə qızıl pula almışdı. Sadə və təkəbbürsüz adam olmuşdu. Hicrətin min iki yüz ...[yazılmayıb] ilində haqq dünyasına köçdü. Ondan altı oğul qalmışdı. Böyük oğlu

**Mirzə Abdullah Əmin** idi

Atasından sonra onun ləqəbini almışdı. Asudəliyi sevən, Allahdan qorxan və qıraqda gəzənlərdən idi. Bu dünyadan gedənədək vaxtının böyük hissəsini evdə keçirərdi.[İkinci oğul]

**Mirzə Rəfi xan**

divanxananın məsul işçisi idi. Möhtəşəm, möhtərəm və tərifə layiq bir kişi olmuşdu. Həmişə mülki işlərinə baxardı və divanxananın etibarlı adamlarından idi. Hicrətin min iki yüz ...[yazılmayıb] ilində o dünyaya köçdü. Onun ləyaqətli övladları qalmışdı. Birincisi

**Mirzə Şəfi xan**

Atasının vəzifəsini tutur. Bilikli və səbirli cavan adamdır. Şəhərin əziz, hörmətli və təqdirə layiq sakinlərindəndir. Böyük var-dövləti və göz oxşayan evi vardır. Digər oğul

**Hacı Mirzə Təqi xan**

Azərbaycan dəftərxanasının müşaviridir. Azərbaycandakı vəzirlər və vəzifələr işinə də o baxır. Böyük atabəy Mirzə Təqi xanın nəvəsinin oğludur. Çox ayıq-sayıq və zirək bir cavandır. Bir başqası

**Hacı Mirzə Yusif xan**

Səliqəli bir cavandır, həzrət vəliəhdin xidmətçilərindəndir. [Bir başqası]

## Hacı Mirzə Kazım xan

Qəşəng, xoşgörümlü bir cavandır. Mübarək topxanada yavər vəzifəsini tutur. Vəkilürrüaya* Hacı Mirzə Kazım Əminin üçüncü oğlu

## Hacı Mirzə Nəsir xan

Kədxudabaşıdır. Qeyrətli və səriştəli kişi olub. Novbər məhəlləsinin sakinləri ondan çəkinərdilər və heç kəsin onun sözü ilə hesablaşmamağa gücü çatmazdı. Onun qorxusundan qış gələndə heç kim məhəllədə bircə ovuc qarı yerdə qoymazdı. Hər kəs evinin qabağındakı qarın yığışdırılmasına və daşınmasına çəkilən xərci ödəyərdi. Hicrətin min iki yüz ... [yazılmayıb] ilində bu dünya ilə vidalaşdı. Dördüncü oğul

## Hacı Mirzə Əli

Divanxana vəkilidir. Hörməti, biliyi və xoş xasiyyəti var. Uca evlərin və səfalı bağın sahibidir. Sürxab məhəlləsinin kədxudası olub. Sonra [vəzifəsini] oğluna verdi. İndi də sağdır. Beşinci oğul

## Hacı Mirzə Fərəc **xan**dır

Kədxudadır və məişət məsələsində çox məharətlidir. Buna görə də böyük var-dövlət sahibidir. Mübarək topxanada alaybaşıdır. Altıncı oğul

## Mirzə Məsud xan

Azadlıqsevər cavan idi. Həzrət vəliəhdə xidmət edərdi. İndi dünyasını dəyişib. Yeddinci oğul

**Mirzə Əbdülhəmid**dir

Asudə və guşənişin bir cavandır. Şəha bölgəsində atasından qalmış torpaq sahəsi ilə qane olub azad ömür sürməkdədir.

Vəkil Hacı Mirzə Kazımın iki qardaşı var. Birisi maliyyə vəziri Hacı Mirzə Fəzlüllah, o birisi Hacı Mirzə Rzadır.

## Maliyyə vəkili Hacı Mirzə Fəzlüllah[1]

ibn maliyyə vəkili Mirzə İbrahim ibn vəkil Mirzə Məhəmməd Əli ibn Sədrəddin Məhəmməd bilik ilə mərifət sahibi və Naibüssəltənənin irəli çəkdiyi adam olub. Şəhər əsnafının başçısı idi. Onun əliaçıqlığı israfçılıq həddinə çatdığından süfrəsi heç vaxt yığılmazdı. O vaxtın qaydasına görə şəhərin bütün məmurları səhər vəkilin evində yığışardılar. Yemək verəndən sonra vəkil özü ata minib bəylərbəyin evinə gedərdi. Bu ləyaqətli adam hicrətin min iki yüz əlli ikinci ilədək[2] hökumətdə qaldı. Həmin il onun işçiləri maliyyə vəzirinin mühasiblərinə yazıb belə bir xərcin olduğunu göstərmişdilər ki, ondan sonra bir neçə il hesab geri qayıtmadı. Qırx min dinar yerdə qaldı. Vəkil Məhəmməd şah qazinin sarayına getdi. Bu söhbət səxavətli padşaha çatdı. Hacı Mirzə Ağasi bir neçə gün onu sıxışdırdı. Maliyyə vəkili padşaha ərizə təqdim etdi. Şahənşahın adından baş vəzirə fərman verildi ki, "Vəkil Mirzə Fəzlüllahı qırx min tümənə satmaq olmaz. Biz o malı ona bağışladıq, çünki onun evinin qapısı həmişə açıq, xərci də çox olub. Ona paytaxtdan Təbrizə qızları ilə oğullarını aparmaq üçün min tümən də verilməlidir". Verdilər və qalanın üstündən də xətt çəkdilər.

Allah o padşahın günahlarını bağışlasın ki, səxavətdə qaanı da üstələmişdi. Onun dövrü bərəkətli oldu. İran əhalisi şad və

[1] Qeyd edək ki, həmin şəxs bundan əvvəlki cümlədə vəkil deyil, vəzir kimi təqdim olunmuşdu.
[2] Miladi təqvimilə 1837/38

xürrəm yaşayırdı. İndi o kişinin oğulları qalıb, hamısı əməlisaleh və nəcib.

## Təbrizin məşhur Budunkər (?) seyyidləri

Bu şəhərdə əcdadlarının ləqəbi həmişə Naibüssədr olmuş bir seyyidlər sülaləsi vardır. İndi hamısı padşah sarayında tanınır və yüksək vəzifə sahibidirlər. O cəlalətli tayfanın böyükləri haqqında burada yazıram.

## Mirzə Rəfi Nizamülüləma

Cəlalət ilə fəzilət sahibi olan bir seyyiddir və bu nəslə layiqincə başçılıq edir. Padşah sarayında tanınan, Təbrizdə sözü keçən və hörmətli kişidir. Əvvəllər əcdadlarının adətinə müvafiq olaraq Naibüssədr ləqəbini daşıyırdı. Bir neçə ildir ki, Nizamülüləma ləqəbini alıb. Bu şəhərin bütün təbəqələri ilə bir ağsaqqal olaraq yaxşı ünsiyyət yaradıb.

## Mirzə Əsədüllah xan Vəkilülmülk

Nizamülüləmanın kiçik qardaşıdır. Çox ağıllı və bilikli kişidir. Hal-hazırda rus paytaxtı Peterburqda İran dövlətinin səlahiyyətli nümayəndəsidir.

## Mirzə Mahmud xan

Üçüncü qardaşdır. Tiflisdə müşavir olmuşdu. İndi Peterburqda qardaşının yanında katibdir. O da təcrübəli və ağıllı kişidir.

## Mirzə Fəzlüllah xan

Xoştədbir bir cavandır və katiblikdə əsl ustaddır. Gözəl xilqəti vardır. Hal-hazırda İranın böyük vəliəhdi həzrətinin dəftərxanasında katiblərin böyüyüdür və Münşibaşı ləqəbi ilə tanınır. Bundan əlavə şahənşah əlahəzrətindən Dəbirüssəltənə və Cənabi fəxri ləqəblərini almışdır.

## Mirzə Əbdürrəhim xan Saidülmülk

Nizamülüləmanın əmisi oğlu və sarayın ən görkəmli adamlarındandır. Böyük şəxsiyyət və səriştəli münşıdır. Uzun illər rus dövlətində səlahiyyətli nümayəndə olana qədər müşavir vəzifəsində çalışıb. O işdən təngə gəldiyinə görə oradan ayrılıb. İndi Təbrizdə müşavirdir və dost dövlətlərlə münasibətlər üzrə çalışmaqdadır. Çox hörmətli adamdır və ləqəbi Saidülmülkdür.

## Əsli Təbrizdən olan başqa bir ailə

Bu ailə indi də çox əziz və möhtərəmdir. Bir əslin iki qoludur. Həmin ağacın birinci barı Ali Divanın müstövfisi* və Azərbaycanın vəzifələr vəziri Mirzə Rəzidir.

## Ali Divanın müstövfisi*və vəzifələr vəziri Mirzə Rəzi

Nəcib insandır və Təbrizdə böyük hötməti var. Hüsn-xəttin gözəlliyi ona böyük babasından keçib və mən bu gün İranda ona bənzər başqa birisini tanımıram. Şeir bilməkdə və şeirşünaslıqda ən yüksək zirvələrə çatıb. Onun evində həmişə əyanların, şərəf, fəzilət və zəka sahiblərinin məclisləri keçir. İndi yaşlandığına görə divandakı xidmətdən ayrılıb və asudə vaxtda öz möhtəşəm evində oturur. Mən həmin böyük şəxsiyyətdən o nəsil haqqında danışmağı xahiş etdim və onun əcdadları barəsində soruşdum, çünki ondan yaxşı bunu bilən olmaz. Onun yazdığını mən eynilə burada gətirirəm. Etimada layiqdir.

## O tayı-bərabəri olmayan katibin öz əli ilə yazıb göndərdiyi şərhin surəti

Bu bəndənin dördüncü və beşinci babaları Mirzə Təqi və Mirzə Yusif olublar. Bəndəyə onların Azərbaycanın ən böyük və zəkalı əyanlardan və əşrəflərdən olduqlarından başqa heç nə məlum deyil. Mərhum Mirzə Yusifin oğlunun üçüncü babası Mirzə

Şəfi böyük miqdarda var-dövlət və şan-şöhrət qazana bilmişdi. Həmin mərhuma məxsus əmlakın bölünməsi haqqında o dövrün alimləri tərəfindən möhürlənmiş fərman hal-hazırda bəndənin əlindədir. İki yüzdən artıq parçaya bölünmüş əmlak kəndlərdən, imarətlərdən, evlərdən, hamamlardan, dükanlardan, kəhrizlərdən və s.-dən ibarətdir. Təbriz Rum dövlətinin məmurları ilə paşaların əlinə keçən zaman mərhum Mirzə Şəfi başqa ziyalılarla birlikdə dədə-baba yurdunu tərk edib hərəsi bir vilayətə və hər biri bir yana getdi. O mərhum da Xorasana gedərək oradakı mədrəsələrdən birində dərs deməyə başladı. Bu əhvalatdan bir az keçəndən sonra Nadir şah Hindistanı fəth edib o bölgələri də əlinə keçirir və Rum əsgərlərini Azərbaycandan qovmaq və o məmləkəti təmizləmək məqsədilə o tərəflərə yollanmaq qərarına gəlir. Müqəddəs Məşhədə çatan kimi ona ərz edirlər ki, Təbriz əhalisinin tanınmış nümayəndəsi Mirzə Şəfi burada elm tələblərinin təhsili ilə məşğuldur və həmçinin məlum oldu ki, o, Azərbaycanın ziyalılarından və öndəgedənlərindəndir. O mərhumu hüzura çağırırlar. Öz tərcümeyi-halını Nadir şaha ərz edir. Şahın lütfünə nail olur, xüsusi bir vəzifə alır və məiyyətlərin sırasında yer tutur. Azərbaycan məmləkətinin Rum əsgərlərindən təmizlənməsindən sonra Azərbaycanın vəzirliyini də mərhum Mirzəyə tapşırırlar.

Mən bu hekayəti bizim sülaləmizin əvvəlki nəsillərinin nümayəndələrindən, ağsaqqal qocalardan eşitmişəm və o mərhumun nəticəsi olan ali rütbəli cənab siqətülislam Hacı [Şəfi] də bunu dəfələrlə bəyan etmişdilər. Mərhum əmirüşşüəra lələbaşı Rzaqulu xan[1] (onun torpağı pak qalsın!) da mərhum Mirzə Rəziyə aid şərhində bu iki vəzifənin Nadir tərəfindən mərhum Mirzə Şəfiyə əta edildiyini yazır. Onun vəfatı tarixini dəqiq bilmirəm. Guya 1220-ci il[2] və ya ondan bir qədər az ya çoxdur.

---

[1] Lələbaşı Rzaqulu xanın çap olunmuş ən əhəmiyyətli əsərləri: ikicildlik “Məcməül-füsəha”, “Rizyazül-arifin”, Mirxondun yazdığı yeddiçildlik “Rövzətüs-səfa”sına artırdığı və təqribən 1854-cü ildə nəşr etdiyi oncildliyin son üç cildi. O, həmçinin “Çakər” təxəllüsü ilə şeir də yazardı.

[2] Miladi təqvimilə 1805/06

Təbrizin Sürxabdakı məqbərəsində dəfn olunub. Bu mərhumun hərəsi öz aləmində zirvəyə və üfüqə çatmış yeganə adam olmuş iki oğlu var idi. Biri ali rütbəli cənab siqətülislamın (Allah onun çanını sağ etsin!) babası Mirzə Rəfidir. Digəri bəndənin babası mərhum Mirzə Rəzidir. Mirzə Rəfinin (Allah onun məqamını ucaltsın!) həyatı haqqında, əlbəttə, onun şöhrətli övladlarından soruşmaq lazımdır. Mirzə Rəzinin tərcümeyi-halı icmal şəklində belədir:

## Mirzə Rəzi

Mərhum atasınnın vəfatından sonra hökmdarlara qulluq etmək yolunu seçmiş və Kərim xan Zənd dövlətində maliyyə işlərinə cavabdeh olmuşdu. Fəzilət ilə hünər sahibi və şanlı nəslin nümayəndəsi olması onun yüksək rütbəyə yetişməsinə yol açdı. O padşahın vəfatından sonra xoşbəxt şahənşahın sarayında hesabdar vəzifəsinə yüksəlməyə nail oldu. Ərəb, türk və cağatay dillərində yazılmış ən vacib risalələr, məktublar və fərmanlar onun öhdəsinə buraxılmışdı. Hökmdarlıq və tacdarlıq növbəsi günahları bağışlanmış xaqana (Allah onun qəbrini pak saxlasın!) çatanda o ədalətli və hünərpərvər padşahın sarayında böyük hörmət ilə etimad qazanaraq hökumətin məktublaşma idarəsinin məsul işçisi olmuşdu. Şahənşah sarayının kübar vəzirləri da onunla hesablaşardılar.

Humayun hüzurda bir tərəfdən bir lülə kağızın, digər tərəfdən isə bəzəkli xəncərin onun kəmərinə bağlanması hadisəsi məlum və məşhurdur. Mərhumun bu hadisənin şahidi olmuş müasirləri elə söyləyirlər ki, həmin xəncər mərhəmət olunduğu vaxt axşam çağı idi və günahları bağışlanmış xaqanın yanında seçilmiş saray əyanları hazır olmuşdular. Onların arasında qəlbi həsəd və paxıllıq oduna yanan birisi bir kəmərə kağızla xəncərin bağlanması halını məsxərəyə salmışdı. Lütf görmüş mərhum Mirzə hazır olanlara belə buyurdular: “Mən təəccüb edirəm. Bu otuz il ərzində savadı, biliyi və istedadı olmayan şəxslərin kəmərinə kağız lüləsinin bağlandığını gördüm və heç onlara

gülmədim, amma indi mən kəmərimə əməllərimlə biliyimin bir örnəyi kimi xəncər bağlamışam, mənə gülürlər".

O mərhumun əli ilə yazılmış risalələrlə şeirlər indi xalqın əlində mövcuddur və hər biri onun fəzilətlərlə saleh əməllər toplusu və şan ilə şöhrət nümunəsidir. Altmış beş yaşında paytaxtda vəfat edib Nəcəfi-əşrəfdə dəfn olunmuşdu. O mərhumun yeganə oğlu, bu bəndənin atası

**Mirzə Rza (onun torpağı pak qalsın!)**

olub. Günahları əfv olunmuş xaqanın fərmanlarına əsasən günahları bağışlanmış vəliəhdin sarayında nökərlik etməyə məmur olmuşdu. Yüksək vəzifələrə, o cümlədən Azərbaycanın ümumi vəkilliyi, münşibaşılıq və xüsusi mühasiblik kimi mənsəblərə yiyələnmişdi. Bu yüksək vəzifələrin hər biri haqqında vəliəhdin mübarək məktubu əlimizdədir. Rus işğalı dövründə rəislərdən, ziyalılardan və alimlərdən tutulub Ərk qalasında həbs olanlardan biri o mərhum olmuşdu. Sülh bağlanan zaman azadlığa buraxılmış, elə həmin vaxt xəstələnmiş və Xudavəndin rəhmətinə yüksəlmişdi. Qırx dörd yaşında idi. Vəfatı min iki yüz qırx üçüncü ildə[1] baş vermişdi. Vəsiyyətinə görə Nəcəfi-əşrəfin Vadiüssəlam qəbiristanlığında dəfn olunmuşdur.

Günahı bağışlanmış vəliəhd o mərhumun tiyulunu və ümumilikdə min tüməndən də artıq olan məvacibini bəndəyə təyin edib mərhəmətini bağışlayanda bəndənin on bir yaşım var idi. Günahları bağışlanmış şahənşah Məhəmməd şahın (Allah onun yolunu işıqlandırsın!) taxta çıxmasının ikinci ilində paytaxta getdim və humayun hüzura ilk dəfə gəlmək şərəfinə layiq olanda hökmdarın tamam-kamal mərhəmətinin ifadəsindən sonra humayun sarayda xüsusi vəzifə alıb paytaxt sakini oldum. Aramgahı cənnət olan şahənşahın taxta təzim etdiyi ilin payızında evdən mürəxxəs oldum. Əlahəzrət şahənşahın (canımız və aləmlərin canı ona qurban olsun!) taxta əyləşməsindən sonra humayun

[1] Miladi təqvimilə 1828

atlılar dəstəsinin tərkibində paytaxta gedib Həmədanda xidmət etməyə təyin olundum. İl yarıma yaxın vaxtımı o vilayətdə keçirəndən sonra bir müddət paytaxtda, bir müddət də Azərbaycanda əla şərəf sahibi həzrətinin, əbədi dövlət vəliəhdinin (onun hörməti və möhtəşəmliyi yenilməsin!) məiyyətləri arasında qalaraq hökumətin müxtəlif işlərinə məşğul olmuşam və indi də onun xidmətindəyəm. *Son.*

Katibin öz əcdadı haqqında yazdığı burada bitdi. İndi mən də gördüklərimdən və eşitdiklərimdən nə bilirəmsə, qısa sözlə yazım. Mən mərhum Mirzə Rəzinin dəst-xəttini çox görmüşəm. Onun nəstəliqlə yüksək səviyyədə yazdıqları çox dəyərlidir. Mən onun xətti ilə yazılmış sənədləri görmüşəm, olduqca gözəldir və başqalardan seçilir. Elə möhkəm yazmışdı ki, misli tapılmaz. Onun Böyük Xaqanın fərmanı ilə yazdığı [Zinətüttəvarix] adlı tarix kitabı var. Mən o böyük şəxsin dostcasına İsfahan barədə yazdığını oxumuşam ki, deyir: "Mirzə Əbdülvəhhab kəndlərə gedib, mən də təkbaşına tarixi yazıram. Bir neçə fəsli yazmışam və onu filankəsdən alıb görə bilərsən". Mən o yazıdan elə başa düşdüm ki, Mirzə Əbdülvəhhab bu işdə ona köməklik edərmiş. Bu hörmətli kişi və nəcabətli seyyid həmin Mirzə Əbdülvəhhab Mötəmədüddövlə İsfahanidir ki, hər cür nəfsani və cismani fəzilətlərə malik olub, nəstəliq və şikəstə xətləri ilə çox gözəl yazarmış. Onun şeirləri, qəzəlləri ariflərin sümüyünə düşərdi. Böyük Xaqanın yanında xidmət edərdi. Biz bu iki məmuru bir-birinə bərabər tuturuq və onlar uzun illər bərabər çalışıblar. O məmurun oğlu Mirzə Rza da atası kimi vəzifələr vəziri olmuşdu. Onun da gözəl xətti var idi və mən onun yazılarını görmüşəm. Gözəldir, atasının xətti kimi deyil.

Mən belə eşitmişəm ki, bu xacənin əcdadlarından biri vəzir rütbəsinə qədər yüksəlmişdi və hökumətdən aldığı ləqəbi Müstövfiyülməmalik* olmuşdu. Ola bilər ki, elə həmin Mirzə Şəfi idi. Mirzə Rəzi Naibüssəltənənin verdiyı fərmanı göndərdi. O münşi yeni şeylər bildirdiyinə görə mən onun yazdığı fərmanın surətini gətirirəm:

## Naibüssəltənənin yazdığı fərmanın surəti

*Ali hökm oxundu*:

Hökumətin sənəd tərtib edənləri "Nun! And olsun qələmə və yazdıqlarına!"[1] bizim göndərdiyimiz yazılarımızı "Səni aləmlərə ancaq bir rəhmət olaraq göndərdik"[2] qaydası ilə hazırlayaraq və bizim fəzilətlə dolu fərmanımızı "Allah sizə çox-çox qənimətlər vəd buyurmuşdur; siz onları alacaqsınız. Bunu isə sizə tezliklə verdi"[3] tuğrası ilə bəzəyərək həmişə kəraməti əsirgəməməyə, neməti paylamağa, xitab etməyə, savabı yaymağa, mühüm işləri görməyi təmin etməyə, adamların haqqını qorumağa yönəlmiş bizə xas olan niyyətləri və bizim üçün səciyyəvi olan səriştəni toplayıb hər müxtəsər sənəddə təfsilatı ilə dərin mənaları "Biz hər şeyi müfəssəl izah edtik"[4] tərzdə açıqladılar. Hər yüksək rütbə sahibi kəramətinə görə "Əməl dəftərləri sağ əllərinə verilənlər onu oxuyar. Onlara tük qədər zülm edilməz"[5]. "Rəbblərinə doğru yolda vasitə axtaranlar"[6] yolçuluğunda təcrübə qazananlar "Öncədən özlərinə ən gözəl nemət yazılmış kəslər"[7] səadətinə yetişərlər və insafın yerə endiyi yeri olan bizim həzrətimiz "Öndə olanlar. Onlar öndədirlər"[8] dərəcəsinə qalxar. Haqlarında "Beləl借ini ən yüksək dərəcələr gözləyir"[9] deyilənlər və xoşbəxtliyin nə olduğunu bilənlər bizim "Qəzadan razı olan bağışlanar" əmrimizə səs verərlər və "Əgər [Mənə] şükr etsəniz, sizə [olan nemətimi] artıracağam"[10] dəftərində "Onun səyləri itirilməyəcəkdir və biz onları yazırıq"[11] xəttini çəkərlər. Onlar

[1] Qələm.1
[2] Ənbiya.107
[3] Fəth.20
[4] İsra.12
[5] İsra.71
[6] İsra.57
[7] Ənbiya.101
[8] Vaqiə.10
[9] Taha.75
[10] İbrahim.7
[11] Ənbiya.94 (mətndə təhrif olunub)

kəramətlərlə fəzilətlərdən xəbər verən bizim inayətimizdən gələcək "Biz onları əmrimizlə doğru yola yönəldən rəhbərlər etdik və onlara xeyirli işlər görməyi vəhy etdik"[1] müjdəsini eşidərlər: "Biz şükr edəni belə mükafatlandırırıq"[2] "Yaxşı işlər görənlərə böyük bir mükafat"[3]. Hökumətin risalələr bölməsinindən sənəd almış yüksək rütbəli, şan-şöhrət ilə iradə sahibi, sədaqətli, cəlalətli və nəcabətli Mirzə Məhəmməd Rza ali dövlətin xidmətçisi vəzifəsinə yetişməyə nail olub qabiliyyətini göstərdi – "Allah istədiyini doğru yola yönəldər"[4]. Xeyir ilə şər yollarında və fayda ilə zərər cərəyanlarında gizli və aşkar tərzdə razılıq addımlarını ataraq "Hər kəs doğru yolda olsa, yalnız özü üçün doğru yolda olar"[5] şam kimi nur saçar və yuxarılara qalxar – "Onlar [o taxtlara] söykənib bir-biri ilə qarşı-qarşıya oturacaqlar"[6]. Buna görə "yılan yılı" olan bu mübarək ildə xeyriyyə dəlillə Azərbaycan məmləkətinin vəkilliyi kimi hörmətli vəzifəni bu sənədin sahibi olanın xidmətinə əlavə buyuraraq Təbrizin Milan kəndini bir mükafat şəklində adı çəkilən Mirzə Rəziyə verilməsi haqqında sənədə imza qoyduq ki, orada olan bütün maldan, gəlirdən, mədaxildən, mənfəətdən və var-dövlətdən qaydası üzrə faydalana bilsin. Azərbaycan vilayətinin ali rütbəli iradə sahibləri, böyük əmirlər, kəramətli xanlar və əyan ilə əşraflar adı çəkilən şəxsi tam səlahiyyətli vəkil kimi tanıyaraq böyüklü-kiçikli "Bizi çoxlardan üstün tutdu"[7] kəlamına müvafiq şəkildə əzizləyib hörmət etsinlər, çünki o, "Mən səni seçib üstün tutdum"[8] şərəfinə layiqdir. Hörmətli katiblər ilə dəftərdarlar həmin tiyulu ali hökmə və qayda-qanuna müvafiq olaraq və "Heç

---

[1] Ənbiya.73
[2] Qəmər.35
[3] İsra.9
[4] Həcc.16
[5] Nəml.92
[6] Vaqiə.16
[7] Nəml.15
[8] Əraf.144

kəs geri qaytara bilməz”[1] ilə “Heç kəs Onun hökmünü dəf edə bilməz”[2] kəlamlarına riayət edərək öz sənədlərində qeydiyyatdan keçirsinlər. “Eşitdikdən sonra onu dəyişənlər günah sahibi olarlar”[3].
*1224-cü ilin şəvvalüş-şərifin axırlarında yazıldı*[4]

## Bu şəcərə ağacının daha bir qolu

Hal-hazırda alimlik yolu ilə gedirlər və bu nəslin başçısının ləqəbi Sədrülüləma olub və indi də belədir. Bu ləqəblə sənədləri var. Bizim çağda bu ailənin böyüyü cənab Hacı Mirzə Şəfidir. Mən onun tərcümeyi-halını onun oğlu Hacı Mirzə Musadan istədim. Öz xətti ilə bir şərh yazıb və dörd tuğra ilə təsdiqləyib göndərdi. O tərcümeyi-halın surətini eyni ilə burada gətirirəm. Beləliklə,

## Hacı Mirzə Musanın yazdığı fərmanın surəti

Ağalıq mərtəbələrinin yuxarılarına qalxmış bu cənabın (canım ona fəda olsun!) doğum tarixi min iki yüz on səkkizinci ilin zihiccə ayının on altısı[5], cümə axşamı günü, günəşin batmasına iki saat yarım qalmışdır. Şairlərdən biri maddeyi-tarixini son misrada belə nəzərə yetirmişdir: “şekofteye-kole-cə’fəri”. Bu böyük hörmət sahibi ədəbi və digər elmi biliyini Təbrizdə təkmilləşdirəndən sonra 1242-ci ildə[6] müqəddəs yerlərin ziyarətinə gedərək orada da elm təhsili ilə məşğul olmuşdu və dərslərini şeyxlərin şeyxi, “Cəvahirül-kəlam”ın müəllifi Şeyx Məhəmməd Həsəndən və Şeyx Cəfərin (qəbri pak qalsın!) nəvəsi Şeyx Əlidən almışdı. Fiqh ilə üsulu o iki böyük şeyxin yanında öyrən-

[1] Yunis.107 (mətndə təhrif olunub)
[2] Rəd.41
[3] Bəqərə.181
[4] Miladi təqvimilə dekabr 1809
[5] Miladi təqvimilə 29 mart 1804
[6] Miladi təqvimilə 1826/27

mişdi. Ondan sonra ustadların ustadı cənab Seyyid Kazım (Allah onun məqamını yüksəltsin!) hədis və təfsir elmlərinin təhsili və təkmilləşdirməsini ona buyurmuşdu. Talib olandan sonra geri qayıtmaq üçün alimlər arasında bir qayda halına düşmüş icazəni də əldə etmişdi.

O hörmətli cənabın ədəbi, əxlaqı, elmi və fəziləti günün günorta çağındakı günəşə bənzəyirdi. Yeddi dəfə [İraqdakı] müqəddəs yerləri, iki dəfə imam Rzanın (ə) şəhadət yerini ziyarət etmişdi. Biri min iki yüz əlli doqquzda[1], digəri min iki yüz səksən ikidə[2]. Bir dəfə min iki yüz əllinci ildə[3], o biri dəfə isə min iki yüz doxsan altıda[4] Beytüllahül-haramı ziyarət etmək şərəfinə nail oldu. Həmin sonuncu ziyarətdə bu bəndə o cənabın xidmətində olmaq şərəfi ilə təltif edilmişdi.

O cənabın atası mərhum sədr Mirzə Məhəmməd Rəfi olub. O mərhumun atası sədr Mirzə Məhəmməd Cəfər öz nəcib atasının vəfatından sonra fərmanlar əsasında əvvəl Azərbaycanın vəkili, ardınca da sədr vəzifəsi ilə müşərrəf olmuşdu.

Məhəmməd Cəfərin (Allah ona rəhmət eləsin!) əziz və dəyərli oğlunun təvəllüd tarixi hicrətin naqis 1179-ci ilin səfərül-müzəffərin iyirmi səkkizi[5], cümə günü, təxminən axşam saat altının yarısıdır. İlahi hökmü ilə bu cənabın atası cənab siqətül-islam 1236-cı ildə[6] vəba xəstəliyindən vəfat etmişdi. O vaxtadək vəba xəstəliyi xalqa heç məlum deyildi. O mərhumun atası öz dövrünün təki və öz əsrinin yeganəsi Mirzə Rəfi olub. Kərim xanın vaxtında ali fərmana əsasən 1184-cü ildə Azərbaycanın vəkili vəzifəsini aldı və həmçinin günahları bağışlanmış xaqanın dövründə ümumi sədrlik mənsəbi sələfdən xələfə keçdi, necə ki, hal-hazırda onun özü humayun fərmanın əsasında sədrlik vəzifəsinin sahibidir. O mərhum 1172-ci ilin rəcəb ayının səkkizi,

---

[1] Miladi təqvimilə 1843/44
[2] Miladi təqvimilə !865/66
[3] Miladi təqvimilə 1834/35
[4] Miladi təqvimilə 1879/80
[5] Miladi təqvimilə 16 avqust 1765
[6] Miladi təqvimilə 1820/21

cümə axşamı[1] öz şərəfli atası mərhum Mirzə Şəfinin qulluğunda Beytüllahül-haramın ziyarətinə getmək şərəfinə nail oldu və *1273-cü ilin rəbiüs-sani ayının birinci günü*[2] qayıtdı[3]. O mərhumun qeydlərinə görə, o vaxt onun iyirmi bir yaşı var idi. Deməli, o mərhumun anadan olma tarixi 1151-ci ilə[4] təsadüf edir. 1174-cü ilin cümadiül-axir ayında[5] Təbrizdən yola düşüb müqəddəs yerləri[6] ziyarət edəndən sonra orada elm təhsili ilə məşğul olmuşdu. Bir müddət hörmətli ustad Ağa Məhəmməd Baqir Bəhbəhaninin yanında xidmət etmişdi.O mərhum "Fəvaidi-üsul" kitabının arxasında o mərhumun icazəsini almışdı. Həmin icazə indi də qalır. Bir müddət də Şeyx Yusif Bəhraninin şagirdi olmuşdu. Bəzi kitablarda o mərhumun yazdığı hədislərə düzəliş edib. O da hal-hazırda mövcuddur. Riyaziyyat elmində və başqa fənlərdə də mahir olub.

O mərhumun misli-bərabəri olmayan, olsa da ancaq İsfahanda olan kitabxanası var imiş. Kitablarını özünün oğlan uşaqlarına vəqf etmişdi. O mərhumun vəfatından sonra kürəkənlərdən bəziləri oğruluq yolu ilə bir çox kitab eldə edib ətraflarda yaydılar və bu kitabların çoxu yayılma yeri olan Marağada mövcuddur. Bəndənin özü hörmətli atasının xidmətində Marağaya qohumlara baş çəkməyə gedəndə cənab Ağanın əmisi uşaqları olan mərhum Həsən Ağanın övladlarının evində qalmışdım. Marağanın qazısı Mirzə Nəsir cənab Ağanın yanında belə söylədi: "Sizdə "Şərhi-ləm'ə" kitabı var. Fikrimcə, qiyməti iyirmi tümən olar". Sonra dedi: "Haşiyələrində mərhum Mirzə Rəfinin xətti ilə yazılar var. Təkcə bu haşiyələr iyirmi tümənə dəyər". Özü vəqf etdi, amma, bununla belə, vermədi. O mərhumun ki-

[1] Miladi təqvimilə 9 mart 1759
[2] Miladi təqvimilə 30 noyabr 1858
[3] Zənnimizcə, qayıdış tarixi *1173-cü* ilə təsadüf etməlidir, çünki əks halda zəvvarlar evə yalnız 101 ildən sonra qayıtmalı idilər.
[4] Miladi təqvimilə 1738/39
[5] Miladi təqvimilə yanvar 1761
[6] Burada söhbət Kərbəla ilə Nəcəfdən gedir.

tabları məşhurdur və əksəriyyətinin arxasında şərhlər yazıb möhür qoymuşdu.

O mərhumun həmşirəsinin əri Əhməd xan Dünbülinin, eləcə də o mərhumun həmşirə uşaqları olan Hüseynqulu xan, Cəfərqulu xan və digər xanların dövründə o mərhumun xahişi ilə iki qəhrəman əskəri imamın (əleyhimassəlam) mübarək türbələrinin təmirinə tapşırıq verildi, tağın altı düzəldildi, ancaq Əhməd xan vəfat edəndən sonra təmir yarımçıq qaldı. Hal-hazırda Əhməd xan Dünbüliyə, onun övladlarına və yaxınlarına məxsus iki sərdabə mövcuddur. Böyük cənub eyvanın kitabəsində həkk olunub ki, guya mərhum Mirzə Şəfi müstövfiyi-məmalik* olub. Hörmətli cənab Ağaidən eşitmişəm ki, Nadir şahın dövründə mərhum Mirzə Şəfi vəzir vəzifəsini tuturdu və vəzirlərin təyin olmasına dair fərmanları möhürləyirdi. Bu əhvalatın təfsilatı belədir:

Osmanlı Təbrizə hakim olandan sonra şəhərin əhalisinə kürdlərdən də betər qətli-amm edir. O mərhumu bir neçə nəfərlə birlikdə zirzəmidə gizlədib qapını gəc və kərpiclə örtürlər. Üç gündən sonra açıb bayıra çıxardırlar. Mirzə Şəfi Məşhəd ziyarətinə gedir. Yolda Nadir şaha rast gəlir və həmin qətllə qarət əhvalatını ona danışır. Nadir qələbənin yolunu babamdan soruşur. Babam ona məlumat verir. Həmin yolla daxil olub Osmanlı əsgərləri üzərində qələbə çalır. Müqəddəs Məşhədə qayıdandan sonra mərhum Mirzə Şəfini pak rövzədə görüb tanıyır. Ondan sonra həmin minvalla ali mərtəbələrə və ən yüksək mənsəblərə qalxır.

O mərhumun iki oğlu olub – Mirzə Rəfi və Mirzə Rəzi. Hər ikisi bilikləri, zəkaları, fəzilətləri və hünərləri ilə tanınıb məşhurlaşıblar. Mirzə Rəfinin səxavəti ilə kəraməti o dərəcədə idi ki, qonaq altı ay onun evində qalanda, heç kəs deməzdi ki, niyə bu qədər burada qalmısan? Kasıblar üçün bir neçə çörəkçi və başqa dükan saxlayırdı. Guya indi o dükanların yerində cənab Mirzə Rəfi Nizamülüləmanın tövləsi durur. Onun evində ədviyyatdan başqa heç bir şey Təbrizin bazarında almazlar vəyalnız öz əmlakın məhsulundan sərf edərlər. Birxalvarlıqdan onxalvarlığadək çörəkyeyəni olub.

## Mirzə Məhəmməd Rəfinin (Allah onun torpağını pak saxlasın!) möhtərəm babasının yazdığı sənədin surəti

Hicri min yüz yetmiş ikinci ilin rəcəbül-mürəccəb ayının səkkizi, cümə axşamı günü[1] möhtərəm atamın xidmətində Hicaza xeyirli səfərə getdim və əzəmətli cənabın (onun kölgəsi zavala uğramasın!) mərhəməti sayəsində Beytüllahül-haramı, Rəsulu və imamları (ona və onlara Aləmlərin Sahibi Allahın salamı olsun!) ziyarət etmək şərəfinə nail oldum. O vaxt əmirül-hacc[2] Çitçi adı ilə məşhur Abdullah paşa idi. Min yüz yetmiş üçüncü ilin rəbiüs-sani ayının on altısında[3] möhtərəm cənabın xidmətində sağ və salamat Təbrizə daxil olduq. O zaman bəndənin iyirmi bir yaşı var idi. Fətəli xan Əfşar Azərbaycana gəlib əyaləti işğal etmişdi. O əsnada Bağdad imamlarını (ə) ziyarət etmək və dini elmləri öyrənmək həvəsinə düşdü. 1174-cü ilin aylarından cümadiül-axir ayında Təbrizdən çıxıb Bağdada yola düşdü və İraq imamlarını (ə) ziyarət etmək şərəfinə nail oldu. Mələklər astanasında Ali-əbanın beşinci qoruyucusunun (ona min təhiyyət və səna olsun!) qonşuluğunda məskən saldı və həqiqət axtaranların ən fəzilətlisi, əsrin ən qabaqcıl alimlərin sırasında yer almış, əsli İsfahandan, yaşadığı yeri Bəhbəhan olmuş cənab Məhəmməd Baqirin (onun kölgəsi üstümüzdən çəkilməsin!) xidmətində fiqh və hədisləri öyrənmiş və böyük şeyxlərin şeyxi, o dövrdə dindarlıqda və elmi araşdırmalarda tayı-bərabəri olmamış cənab Şeyx Məhəmməd Yusif Bəhra-ninin[4] xidmətində özündən sonra bəzi təlim-tərbiyə kitablarını qoymuşdu.

### Yenə də

Min yüz yetmiş səkkizinci ilin məhərrəmül-haram ayının birinci günündə[5] təhsil üçün getdiyim uca Kərbəladan Təbriz

---

[1] Miladi təqvimilə 8 mart 1759

[2] Əmirül-hacc – hacıların başçısı, həcc ziyarətinə gedənlərə rəhbərlik edən şəxs.

[3] Miladi təqvimilə 6 dekabr 1759

[4] Bəhrani – Bəhreynə mənsub, Bəhreyndən olan.

[5] Miladi təqvimilə 1 iyul 1764

darüssəltənəsinə qayıtdım və o vaxt şöhrətli ata əzəmətli orduda Vəkilin bəndələri arasında olmuşdular. Bir neçə aydan sonra təşrif gətirdilər.

## Yenə də

Min yüz səksən üçüncü ilin rəbiüs-sani ayının birinci günündə[1] Nəcəfqulu xanı müşayiət edən cənabların sırasında elm şəhəri Şiraza yollandım və həmin ilin şaban ayının iyirmisində[2] qayıdıb Təbrizə gəldim. O vaxt şəhər böyüklərinin seçimi əsasında hökumət qüdvətüs-sadat, cənab şeyxülislam Əsədüllahın əlində idi.O, 1183-cü ilin məhərrəmül-haramın on altısında[3] vəfat etdi. Hakimiyyət müddəti səkkiz ay yarım çəkdi. 1183-cü ilin şəvvalül-mükərrəmin iyirmi biri, bazar ertəsi günü[4] Ağa Əhməd bəyin qulluqçuları Təbriz darüssəltənəsinə daxil olub bir həftə orada qaldılar və ardınca Ərvənəqin Şəbüstər kəndinə təşrif apardılar. Min yüz səksən üçüncü ilin məhərrəmül-haramın birində[5] cah-calalı böyük və rütbəsi yüksək olan Nəcəfqulu xanın qulluqçuları şəhərə daxil olub ardınca Xoya döndülər. Alicah və alişanın hakimiyyəti dövründə vəzir Mirzə Məhəmməd Təqi bir bəhanə ilə mürəxxəs olub Şiraza yola düşdü. Alicahın vəzifədən uzaqlaşdırılması üçün lazım olanı yerinə yetirdi və min yüz səksən səkkizinci ilin ramazanül-mübarəkin iyirmi beşində[6] Haqqı istəyənə ləbbeyk deyib qürur sarayından sevinc sarayına köçdü.

Bu vaxt şəhərin böyükləri Təbrizin hökumətini alicah Nəcəfqulu xanın qardaşı alıcah və yüksək rütbəli Şahbaz xan Dünbüliyə vəd etdilər. Lakin o, sətəlcəm olmuş, sonra buna ciyərlərdə mayenin yığılması da əlavə olunmuşdu və nəticədə

---

[1] Miladi təqvimilə 3 avqust 1769
[2] Miladi təqvimilə 19 dekabr 1769
[3] Miladi təqvimilə  23 may 1769
[4] Miladi təqvimilə 18 fevral 1770
[5] Miladi təqvimilə 7 may 1769
[6] Miladi təqvimilə 30 noyabr 1774

1187-ci ilin zihiccətül-haram ayının iyirmi birində[1] "Allahın carçısını qarşılayın"[2] hökmünə müvafiq olaraq qarşılandı və incə addımlarla axirət evinə köçdü. O mərhumun vəsiyyətinə əsasən, onun nəşini müqəddəs Nəcəf torpağına aparıb (orada uyuyanlara min-min salam ilə təhiyyət olsun!) dəfn etdilər.

Əzəmətli alicahın hakimiyyətdə beşinci il olduğu bu vaxta qədər o yüksək rütbəli seyyidlər həzrətləri şəhər xalqının və xüsusilə bəndənin bütün işlərində, həm xeyirdə, həm şərdə yanında olmuşdu. Bu məzmunda belə deyilib:

Bu xəstənin qətlini sənin qılıncın təqdir etmədi,
Yoxsa sənin rəhmsiz qəlbindən heç əsirgəmədi.

Beləliklə, bir tənhalıq və tanımsızlıq guşəsinə çəkildi.

Burada cənab Hacı Mirzə Musanın göndərdiyi yazının surəti sona çatır və mən bu fəsli həmin yazıya müvafiq gətirdim, heç bir şey artırmadım və bircə söz belə əskiltmədim. İndi isə onun və başqaların göndərdikləri padşahanə sənədlərin surətlərini təqdim edirəm.

## Vəkil Kərim xanın fərmanı

Qəza divanının vəkili və fəsahət ölkəsinin fərmanverəni haqqında bizim tərəfimizdən yazılmış və möhürlənmiş bu bütün dövlətə və dünyaya nur saçan sənəddə və cahana qəti qərar bildirən yarlıqda o əzəmətli nemətin hasil olunmasına görə şükrlər deyib və ən xoş münasibətə görə həmd ilə səna oxuyub elan edilir ki, həmin şəxs Allahın bəxş etdiyi bu dövlətin qarşısında gördüyü xidmətlərə görə yüksək vəzifə ilə mükafatlandırılır.

Bu sözün davamı olaraq o yüksək rütbəli alicah, ixlas ilə əqidə sahibi, ən vacib mənaları görməyi bacaran Mirzə Məhəmməd Rəfi Təbrizi xoşbəxt "ud yıl"ın başlanğıcından Azərbaycan

---

[1] Miladi təqvimilə 5 mart 1774

[2] Əhqaf. 31

ölkəsinin maliyyə vəkili kimi yüksək vəzifəyə təyin olunmaqla mükafatlandırılır və bununla əlaqədar adı çəkilən alicaha illik məvacib şəklində nağd pul ilə mal buyurduq ki, ilbəil Təbriz darüssəltənəsinin xəzinəsindən qəbzin əsasında alıb özünün məişət məqsədləri üçün sərf etsin.

[bu yerdə imza qoyulub]

Yüksək rütbəli alicah, hörmət ilə şövkətin pənah apardığı yer, nüfuz ilə iradə sahibi, böyük əmirlərin əmiri, kəramətli xanların ən öndəgələni bəylərbəyi Nəcəfqulu xan Qədimi və Təbriz darüssəltənəsinin digər əməlisaleh məmurları bu ali fərmanı yerinə yetirmək üçün adı çəkilən alicaha ilbəil Təbriz darüssəltənəsinin xəzinəsindən qəbzin əsasında məvacib şəklində nağd pul ilə mal verməyi özlərinə borc bilsinlə

Azərbaycan ölkəsinin alicahları, yüksək vəzifə sahibləri, böyük bəylərbəyləri, kəramətli hakimləri və digər öndəgələnləri, sərkərdələri, əşrəfləri, əyanları, kələntərləri, kədxudaları, rəiyyətləri, əkinçiləri və bütün sakinləri və vətəndaşları adı çəkilən alicahın həmin ölkənin maliyyə vəkili olduğunu tanısınlar. Ali dəftərxananın xeyriyyə işləri kitabında bu mübarək fərmanın əks olunması üçün lazımi qeydlər aparılsın.

*1184-cü ilin şəvval ayında*[1] *yazıldı*

Burada dördbucaq şəklində möhür vurulub. Üzərində “Ya mən hüvə rəcahü kərim” yazısı çəkilib və altında nağd pul ilə mal haqqında aşağıdakılar yazılıb: yüz əlli Təbriz tüməni məbləğində nağd pul və onun yarısı yetmiş beş tümən siyaq üsulu[2] ilə göstərilib. Müvafiq olaraq mal ilə yüz əlli xalvar taxıl yazılıb və onun yarısı yetmiş beş xalvar siyaq üsulu ilə göstərilib. Çox gözəl xətlə yazılıb və mən əminəm ki, bu xətt tayı-barabəri olmayan katib Mirzə Rəziyə məxsusdur.

---

[1] Miladi təqvimilə yanvar/fevral 1771

[2] Keçmişdə mühasibatda tətbiq olunmuş xüsusi hesablama işarələri.

## Böyük Xaqan Fəthəli şahın Mirzə Cəfərə yazıb şərəfləndirdikləri başqa bir sənəd

Yüksək rütbəli alicah, izzət ilə səadətin pənah gətirdiyi yer, ixlas ilə iradə sahibi, böyük və əzəmətli adamların xələfi, şahın diqqətinə hədəf olmuş, Azərbaycanın vəkili Mirzə Məhəmməd Cəfər *bilsin ki,*o vəzifəli şəxs padşahın ədalət astanasındakı xidmətçilərlə sufizadələrdən, eləcə də aləmi qoruyanın nəzərinə tuş gələnlərdən biri olduğuna görə biz onu şahanə inayət və mərhəmətlə şərəfləndirmək əmrini verərək bu xoşbəxt zəmanədə caməxanamızdan[1] bir dəst günəşvari xələti:

*iki haşiyəli örtük, zərli ətləs qaba,bir ədəd çarzər'i,*
*bir ədəd ağ beşkünc şal*[2]

nəcib nəslin nümayəndəsi, ali rütbəli və yüksək vəzifəli Mirzə Məhəmməd Rəfinin vasitəsilə o hörmət ilə kəramət sahibi alicaha göndərməyi buyurmuşuq. Günəşdən misal alan bu zərli xələti fəxrlə əyninə və çiyninə geyərək özünə olan hörmət ilə etibarı bilməli və şahın bu lütfkarlığını öz halına şamil edərək daim onun xidmətində olmağı öhdəsinə almalıdır.
*1223-cü ilin məhərrəmül-haram[ında*[3]*] yazıldı*

## Böyük Xaqanın Mirzə Rəfiyə vəkalət etdiyi başqa bir sənəd

Aləmin icadı və Bəni-Adəmin varlığı Ona bağlı olan qəza məmləkətləri hakiminin və “sən mülkünü istədiyin şəxsə verərsən”[4] diyarı əmrverəninin hokmü ilə insanları idarə etmə yüyəni və dərk etmə qəbzəsi bizim əlimizə verildiyi və səltənət, xilafət və cahana sahib olma taxtı biz humayun nəvvabın möhtərəm zatını bəzəyib ziynətləndiriyi gündən biz də bu əzəmətli ətaya görə şükr edib və bu böyük bəxşişə görə həmd oxuyub

---
[1] Caməxana – geyim anbarı.
[2] Burada siyaq hesablama üsulundan istifadə olunub.
[3] Miladi təqvimilə mart 1808
[4] Ali-İmran. 26

fələklərə qalxan hümməti qeyd etməyi lazım bilərək ali ədalət naminə bunları yazıb buyurduq ki, bütün aləmin üzərində yüksələn dövlətin mənafeyi üçün öz ixlas qəlblərinin pərdələrini paklaşdıran saf nökərlərlə sədaqətli qulluqçular göstərdikləri xidmətlərə görə layiqincə mükafatlandırılaraq yüksək vəzifələrə təyin olunmalıdırlar.

Səfa güzgüsü buna misal olaraq yüksək rütbəli alicah, izzət ilə səadətin pənah apardığı yer, fazillərlə kamalların seçilmişi, ixlas ilə iradə sahibi, böyük alimlərin qaymağı və kəramətli aqillərin öndəgələni Mirzə Məhəmməd Rəfi Təbrizini özündə əks etdirmiş və sultanlıq inayətinin cahanı isindirən günəşindən bir zərrə adı çəkilən hörmətli şəxsi işıqlandırmışdır. “Qoy yıl”[1] olan bu xoşbəxt ildə yaxşı xidmətə görə bütün Azərbaycan məmləkətinin vəkilliyini həmin şəxsə həvalə və vəkalət edirik ki, lazım və vacib qaydada özünün yaxşı xidmətçilik bacarığını və işgüzarlığını nümayiş etdirib bu əbədi dövlətin yolunda heç nəyini əsirgəməsin. Yeri cənnət olan xaqanın və aliməqam şahənşahın (Allah onun torpağını pak etsin!) dövründə göstərdiyi xidmətlərə görə aldığı məvacibin indi də həmin şəxsə verilməsini buyurduq ki, hər il əvvəlki qayda ilə Təbriz darüssəltənəsinin xəzinəsindən alıb öz ehtiyaclarına xərcləsin.

Qərara alınsın ki, yüksək rütbəli alicah, dövlət və irəliləyişlə həmrah olan, fəxr, cəlalət və hörmətsahibi, böyük əmirlərin əmiri Əhməd xan bəylərbəyi və darüsəltənə Təbrizin mötəbər və möhtərəm şəxsləri adət edilmiş qayda üzrə adı çəkilənin müstəqil vəkil olduğunu tanıyıb ona ehtiramla yanaşsınlar və illik məvacibinin verilməsinə müxalif olmasınlar. Ali rütbəli böyük hesabdarlar əbədiyyət dəftərində bu şərəfli fərmanı qeydiyyata almağı öhdələrinə götürməyi özlərinə borc bilsinlər.

*1214-cü ilin şabanül-müəzzəmində*[2] *yazıldı*

---

[1] Qoy yıl – qoyun ili. Qədim onikiillik türk təqviminin səkkizinci ili.
[2] Miladi təqvimilə yanvar 1800

## Böyük Xaqanın Mirzə Rəfinin vəfatından sonra Mirzə Cəfərə vəkalət etdiyi başqa bir sənəd

Şahın lütfü və mərhəməti ilə şərəfləndirilmiş tacdarlıq gözünün nuru və hökmdarlıq alnının qaşqası aliməqam Abbas Mirzə Naibüssəltənə *bilsin ki,* Azərbaycanın vəkili mərhum Mirzə Məhəmməd Rəfinin vəfat edərək fani saraydan əbədi aləmə köçməsi xəbəri müqəddəs sultanlıq ərzinə çatmışdır. Adı çəkilən mərhum bu yenilməz dövlətin qədim tərəfdarlarından olmuş, öz bacarığını və səriştəsini hökmdarın səadət yolunda əsirgəməmiş və həm özü, həm də övladları ilə qohumları heç vaxt xosrovanə nəzərdən qaçmamışdılar. Buna görə onun oğlu yüksək rütbəli alicah, izzət və şöhrətlə bərabər irəliləyən, səadət ilə iradət sahibi, böyük nəslin xələfi Məhəmməd Cəfərə şahanə lütf ilə mərhəməti şamil edərək Azərbaycan məmləkətinin vəkillik xidmətini ona vəkalət buyurduq. Adı çəkilən alicahın sufizadələrdən və bu əbədi dövlətin pərəstişkarlarından olduğunu nəzərə alaraq qərara gəldik ki, *o oğul*[1] ona hər cür lütfkarlıq göstərib o vilayətdə hökmdarın nuru ilə şərəfləndirsin.

Yüksək rütbəli alicah, izzət ilə alicənablığın pənah apardığı yer, şöhrət ilə ləyaqətin yoldaşı, ixlas ilə iradə sahibi, xaqanın qədim nökərlərindən olan divan katibi Mirzə Məhəmməd Rəzinin[2] o nəslin böyüyü və adı çəkilən mərhumun həqiqi varisi və gerçək qəyyumu olduğunu və həmin alicahın icazəsi olmadan kəndlərdə və mülklərdə adı çəkilən mərhumun ev avadanlığına, əşyalarına və kitablarına əl vurmağın ədalətə zidd olduğunu nəzərə alaraq həmin alicahın xəbəri və icazəsi olmadan onların istər kişi, istərsə də qadın cinsindən olan varislərinə və eləcə də vəkillərinə həmin mərhumun ev avadanlığına, əşyalarına və kitablarına əl vurmağı qadağan edirik və varislik iddiasında olan hər kəs adı çəkilən alicahın yanına getməlidir ki, o, mükəmməl

---

[1] Yəni Azərbaycanın hökmdarı Abbas Mirzə

[2] Mirzə Məhəmməd Rəzi Mirzə Rəfinin qardaşı və Mirzə Məhəmməd Cəfərin qardaşı idi.

bildiyi hesab qanununa və nəbəvi şəriətə müvafiq surətdə payların bölünməsi haqqında qərar çıxarsın. Əgər onların varislərindən ya vəkillərindən birinin mərhuma məxsus puldan bircə dinarın və ya maldan bircə dənənin və yaxud bircə cild kitabın əlinə keçirməsi haqqında xəbər müqəddəs hökmdarlıq ərzinə çatsa, həmin şəxslər tutulub padşahın siyasətinə məruz qalacaqlar.

Bu saat adı çəkilən yüksəkməqam alicahı, izzət ilə səadət sahibi *Mirzə Rəfini*[1] kəndləri, mülkləri və sair mal ilə əmlakı qeydiyyata alıb ona göndərmək üçün Təbriz darüssəltənəsinə yollayırıq. *O oğul*[2] alicah *Mirzə Məhəmməd Cəfərin*[3] ixtiyarında olan bütün əmlaka, kəndlərə və ev avadanlığına əl vurmağı qadağan etməlidir ki, adı çəkilən alicah onun mükəmməl bildiyi şəriət qaydalarına müvafiq surətdə qərar çıxarmağı və bizim şahanə lütfümüzü öz əhvalına şamil etməyi öhdəsinə alsın.

*1223-cü ilin məhərrəmül-haram[ında*[4]*] yazıldı*

Alimin oğlu Hacı Mirzə Musanın yazıb göndərdiyi sənədlər bitdi.

## Şahənşah Nadirin fərmanı

### *Bismillah, əuzübillahi-təala*

*Ali fərman oxundu:*

Təbrizin naibi və Azərbaycanın ixtiyar sahibi əziz alicah Lütfəli bəy *bilsin ki*, Azərbaycanın sakinləri çox iddialı və biçarədirlər və heç bir vəchlə qəbul olunmaz işlərə görə müraciət edirlər. Ali əmrin məzmununa müvafiq olaraq məlumat toplayıb qəbul olunmaz iddialara görə bir kəsin rüsum almağına yol verilməməli, qəbul olunanları isə həmin alicaha ərz edərək beş

---

[1] Səhvdir, Mirzə Məhəmməd Rəzi olmalıdır.
[2] Yəni Abbas Mirzə
[3] Səhvdir, Mirzə Məhəmməd Rəfi olmalıdır.
[4] Miladi təqvimilə mart 1808

yüz dinar məbləğində rüsum alınsın və o cümlədən yüz əlli dinarın nəcabətin və alicənablığın pənah apardığı yer, münşi Mirzə Məhəmməd Şəfiyə şəriksiz məxsus olduğu tanınsın və boş iddialarla müraciət edənlərin ərizələrinə görə heç kəsə rüsum ödənilməsinə yol verilməsin.
*1146-nın məhərrəmül-haramında yazıldı*

Burada dördbucaqlı möhür qoyulub və möhürün üzərində aşağıdakılar həkk olunub:

Əlidən başqa gənc adam olmaz, zülfiqardan başqa qılınc olmaz
Haqqın lütfü ilə əsrimin Nadiri, səkkiz ilə dördün[1] qulu

## O həzrətin digər fərmanı

*Əuzübillah, ali fərman oxundu:*

Seyyidliyin, vəzirliyin və kamilliyin pənah apardığı yer, seyyidlər nəslinin nümayəndəsi, Təbriz darüssəltənəsinin vəziri Mirzə Əbdürrəzzaq *bilsin ki,*nəcabət ilə səadətin pənah gətirdiyi yer, həmin darüssətənənin müstövfisi* Mirzə Məhəmməd Şəfinin saxtakarlıq işlətməsi haqqında xəbər müqəddəs ərzimizə çatmışdır. Adı çəkilənin malının zəbt olunmasını, özünün isə tutulub və həbs edilib ali dərgaha yollanmasını buyurduq. Əmrə əsasən adı çəkilən şəxs dünyanın pənah gətirdiyi saraya yollandı. Böyük və hörmətli müstövfilər* həqiqəti üzə çıxarmaq üçün onun sənədlərini müqəddəs ərzə yetirdilər. Məlum oldu ki, adı çəkliən divanın maliyyə işlərində heç bir saxtakarlığa və xəyanətə yol verməyib. Buna görə də adı çəkilənə şahanə diqqətimizi göstərib onu mürəxxəs buyurduq. Vəzirliyin pənah apardığı yer ondan zəbt olunmuş malları kəsrsiz, bir-bir özünə təslim edib qəbz almalı və nəzərimizə çatdırmalıdır. Əgər mallar satılıbsa, onu alan kəsə müraciət edib yenidən alınmalı və qərara əsasən

[1] Səkkiz ilə dörd – on iki imama (ə) işarədir.

təslim olunmalıdır. Bütün malların təslim olunmaması haqqında xəbər müqəddəs ərzə yetişsə, məsuliyyətə cəlb ediləcəkdir. Böyük müstövfilər* ali sənədin şərhini qeyd edib adı çəkliən nəcabət sahibinin zəbt olunmuş malların qaytarılmasını öhdələrinə alsınlar.
*1147-nin şaban ayında*[1] *yazıldı*

Burada üzərində həmin yazısı olan möhür vurulub. Sənədin arxa tərəfində katiblərin yeddi möhürü var. Ortada "Tarixi-cəhangüşa" və "Dürreyi-Nadirə"ni yazan məşhur Mirzə Mehdi xanın[2] möhürüdür və üzərində [ərəb dilində] "İşimi Allaha tapşırıram, Onun bəndəsi Məhəmməd Mehdi" nəqş olunub və onun rütbəsi vəzir rütbəsinə yaxın idi. Sağ tərəfdə dörd möhür, sol tərəfdə iki möhür vardır, hamısı dördbucaq şəklində və qeydlərin üstündə vurulub.

## Nadir şahın digər fərmanı

Şahənşalıq şəfqətinə və zillüllahlıq inayətinə əsaslanaraq nəcabətin, aliliyin və alimliyin pənah apardığı yer, böyük və nəcib nəslin nümayəndəsi, Azərbaycanın müstövfisi* Mirzə Məhəmməd Şəfiyə bu "qoy yıl" ilinin yeddiaylığın başlanğıcından yeddi yüz iyirmi nadiri məbləğində məvacib təyin edilsin:

Əsli: bu ilin başlanğıcından dörd min nadiri[3];

---

[1] Miladi təqvimilə yanvar 1735
[2] Mirzə Məhəmməd Mehdi xan Kövkəbi Astrabadi – II şah Təhmasibin və Nadir şah Əfşarın saraylarında münşi vəzifəsini icra etmiş, sonradan salnaməçi, vəzir və Xorasanın hakimi olmuşdur. Onun ən məşhur əsərləri: Nadir şahın həyatına həsr olunmuş "Tarixi-cahangüşayi-Nadiri" və "Dürreyi-Nadirə", eləcə də "Sənglax" və "İnşa" olmuşdur. (Sonuncu üçün bax: "İnşa". "Elm və Təhsil". Bakı-2016. Tərcümə edən: Hacı Rauf Şeyxzamanlı, redaktor: Paşa Əli oğlu).
[3] Nadiri – Nadir şahın "şahi"nin yerinə kəsdirdiyi və dəyəri 500 dinara və yaxud 0,05 tümənə bərabər olan gümüş sikkə. Çəkisi 2,5 misqal olmuşdu.

Əlavəsi: ilin yeddiaylığının başlanğıcından üç min iki yüz dinar.

Qərara aldıq ki, göstərilən məvacibi hər il alıb öz yaşayış ehtiyaclarına sərf etsin. Daha dörd nəfər katibə çatacaq məvacibin əsl və əlavə hissələrini təyin edib adlarının altında göstərdik:

Mirzə Rza: beş yüz nadiri.
Əsli: iki yüz qırx nadiri;
Əlavəsi: ilin yeddiaylığının əvvəlindən iki yüz altmış nadiri.

Mirzə Əbu Talıb: üç yüz nadiri.
Əsli: iki yüz qırx nadiri;
Əlavəsi: ilin yeddiaylığının əvvəlindən altmış nadiri.

Mirzə Rəbi: üç yüz nadiri.
Əsli: iki yüz qırx nadiri;
Əlavəsi: ilin yeddiaylığının əvvəlindən altmış nadiri.

Mirzə Məhəmməd: üç yüz nadiri.
Əsli: iki yüz qırx nadiri;
Əlavəsi: ilin yeddiaylığının əvvəlindən altmış nadiri.

Onların lazımi qaydada qulluqda durmalarına ümidvarıq. Xaqana yaxın olan alicah, məmləkətlərin müstövfisi* və böyük, hörmətli müstövfilər* bu mübarək əmrin şərhini əbədiyyat dəftərlərində qeyd etsinlər və onun şərtlərini dəyişdirməyə yol verməyəcəklərini öhdələrinə alsınlar.
*1154-cü ilin cümadiül-əvvəl ayında[1] yazıldı*

Haşiyədə aşağıdakılar yazılıb və həmin möhürlə möhürlənmişdir:

---

[1] Miladi təqvimilə iyul/avqust 1741

Dövlət ilə dinin möhürü əldən getmişdi ki,
Xuda Nadirin adını İrana qoydu.

Qərara alınsın ki, böyük və nəcib nəslin adı çəkilən nümayəndəsi özünə və adları göstərilən katiblərinə məxsus məvacibi qəbul olunmuş qayda üzrə hər il qəbz əsasında Təbriz darüssəltənəsinin məmurlarından alsınlar və həmin darüssəltənənin məmurları ilə maliyyə işçiləri hər il adları yuxarıda çəkilənlərin maaşı haqqında qəbzi özlərinin xərclərinə aid qeydlərə əlavə etsinlər.

## Digər fərman

*Əuzübillahi-təala, ali fərman oxundu:*

Azərbaycan məmləkətinin ixtiyar sahibi, Təbrizin naibi, əziz və hörmətli Lütfəli bəy *bilsin ki*, hüsni-nəcabətin, aliliyin və yüksəkliyin pənah apardığı yer, Təbrizin münşisi Mirzə Məhəmməd Şəfi öz səriştəsini nümayiş etdirməkdən ötrü ali dəftərxananın qarşısında zahir olub və biz onu bu vəzifəyə təyin edərək ona hər cür diqqət yetirməyin lazım olması haqqında qərara gəldik. Ona təyin olunmuş əlli Təbriz tüməni məbləğində və onun iki nəfər katibinə təyin olunmuş iyirmi Təbriz tüməni məbləğində məvacibdən savayı inşa etdiyi hər ərizəyə görə əlli Təbriz dinarı[1]ödənilməlidir. Həmin əlavələr haqqında məlumat onun nəzərinə çatdırılmalıdır.

*1146-cı ilin məhərrəmül-haram ayında[2] yazıldı*

Burada da həmin biçimdə və üzərində həmin yazısı olan möhür vurulmuş və dörd möhürün yanında Mirzə Mehdi xanın tuğrası ilə. Burada da deyilən biçimdə möhür var[3].

---

[1] O zaman 1 tümən 10000 dinara bərabər olmuşdu.
[2] Miladi təqvimilə iyun/iyul 1733
[3] Bu cümlələrin mənası aydın deyil.

## Nadir şahın digər fərmanı

### *Bismillahir-rəhmanir-rəhim*

*Əuzübillahi-təala, ali fərman oxundu:*

Madam ki, nəcabətin, yüksəkliyin və aliliyin pənah apardığı yer, Təbriz əyaləti dəftərxanasının münşisi Mirzə Məhəmməd Şəfinin düzlüyü ilə səliqəliyi və xidmət yolunda göstərdiyi sədaqət ilə sabitqədəmliyi müqəddəs xatirə güzgüsündə əks olunmuş və müqəddəs nəzərdə tam arxayınlıq dərəcəsində qəbul edilmişdir, sonsuz ali mərhəmətin kiçik bir qismini onun halı ilə amalına şamil edərək aşağıdakıları adı çəkilənin öhdəsinə buraxdıq: Təbriz darüssəltənəsinin və ətrafların divanındakı maliyyə hesabları, o cümlədən böyük bəylərbəylərin[1] tiyulları, zəfərçalan əsgərlərin illik maaşları, Azərbaycan vəzirlərinə təyin olunmuş maaşlarla soyurqallar, həmin darüssəltənədə və onun ətrafında mövcud olan vəqf mülklərindən, torpaqlarından və kəndlərindən alınan vergilər gerçəkdə olduğu kimi qeydə alınaraq Təbriz darüssəltənəsinin naibi və bütün Azərbaycanın ixtiyar sahibi əziz və hörmətli Lütfəli bəyin nəzərinə çatdırılıb adı çəkilən əziz və hörmətli alicahın təsdiqlədiyi məsrəflərə həvalə edilməlidir. Adı çəkilən alicahın möhür vurduğu xərc sənədləri bütün düzəlişlər və izahatlarla və adı çəkilən hörmətli alicahın hazırladığı nüsxə ilə bir yerdə ali müqəddəs nəzərə çatdırılmalı, hökumətin maliyyə işlərinə dair kağızlar bundan əvvəlkindən də ciddi yoxlanılıb müqəddəs dəftərxanaya təqdim olunmalı və səhlənkarlığa yol verilməməlidir. Azərbaycanın vilayətlərindən bütün vilayətlərin, o cümlədən Urmiyanın, Marağanın, Qaracadağın və s. məmurları divana aidiyyəti olan və olmayan ticarət sövdələşmələri haqqında hesabatları adı çəkilən hörmətli alicahın diqqətinə yetirməlidirlər ki, mədaxillərlə məxariclərdən xa-

---

[1] Keçmiş zamanlarda bəylərbəyi adı bəzi hallarda şəhər hakiminə, bəzən isə şəhər mühafizəsi rəisinə verilirdi.

tircəm olaraq qeydiyyat dəftərlərində heç kəsin əyri-üyrülüyə və ifrata varmağına yol verilməsin.

Adı çəkliən hörmətli alicah hökumətin maliyyə işlərindəki gəlirləri və çıxarları hesablamaqda qərara alınmış qaydada kömək göstərərək bircə dinarın və ya zərrənin belə ödəyicilərin və icarəçilərin əlində qalmağına yol verməməli, sözü gedən işin icrasında öz bacarığı ilə səriştəsini lazımi şəkildə göstərməli və divanın mədaxil ilə məxaric sənədlərini öz mötəbər möhürlə təsdiqləməlidir ki, inşallah-təala, müfəttişlər də bizim qərarımıza əməl etsinlər.

Hakim və vəzir alicah Əbdürrəzzaq xan, Marağanın məmurları, seyyidlik ilə nəciblik nəslinin nümayəndəsi, Urmiya məmuru Mirzə Əbdürrəzzaq, Azərbaycan vilayətlərinin hakimləri ilə hökumət işçiləri divana aidiyyəti olan və olmayan ticarət sövdələşmələrinin hesabları üzrə ödəmələri tamamlayaraq öz müamilələrinin nüsxələrini adı çəkilən hörmətli alicahın diqqətinə yetirməlidirlər. Həmin darüssəltənənin vəzarətində və dəftərxanasında çalışan müstövfilərlə* katiblər nəcabətin, yüksəkliyin və aliliyin pənah apardığı yer, Təbriz əyaləti dəftərxanasının adı çəkilən münşisinin vəkil olduğunu tanıyaraq ona etimad göstərməli həmin darüssəltənənin köhnə sənəd nüsxələrini adbaad və mahalbamahal imzalayıb möhürləyərək adı çəkilənə tapşırmalıdırlar ki, maliyyə işlərində heç bir artıq-əskikliyə yol verilməsin və onun təsdiqi olmamış və möhürü vurulmamış bircə dinar belə səhvən əskilməsin və artırılmasın. Dəftərlərdə edilən dəyişikliklər haqqında deyilən hər bir hərf qəbul qulağına çatdırılmalı və ona itaət etməkdən dönməyə yol verilməməlidir.

Adı yuxarıda çəkilən darüssəltənənin vəkilləri, kədxudaları, mülkədarları, ərbabları, rəiyyətləri və vergiyığanları, hökumətə vergi ödəyənlər və icarəçilər, habelə vəqflərdən vergi yığanlar qərara alınmış qaydada işlərini görsünlər, böyük və hörmətli müstövfilər* bu ali fərmanı öz dəftərlərində qeyd etməyi öhdələrinə alsınlar.

*1146-cı ilin məhərrəmül-haram ayında[1] yazıldı*

Burada da həmin möhür vurulmuş və yanında həzrətin katiblərinin yeddi möhürü vardır. Mirzə Mehdinin möhürü ortadadır, tuğranı isə katiblərə xas qayda ilə möhürlərin altında çəkiblər.

## Digər fərman

### *Bismillahir-rəhmanir-rəhim*

*Əuzübillahi-təala, ali fərman oxundu:*

Təbrizin naibi və Azərbaycanın ixtiyar sahibi hörmətli alicah Lütfəli bəy *bilsin ki*, nəcibliyin, yüksəkliyin və aliliyin pənah apardığı yer, Təbriz əyalətinin münşisi Mirzə Məhəmməd Şəfinin ali dərgah üçün hazırladığı Azərbaycan vilayətlərinin hökumət sənədləri nəzərimizə çatmışdır. Sabiq vəzir Mirzə Kazımdan sonra qalan sənədlərə ayrıca şərh yazıb ali dəftərxanaya təqdim edilməsini buyurduq. Təbriz darüssəltənəsinin divanındakı mülklərə, mal-davara və avadanlığa dair ali fərmanlar haqqında məlumat təqdim edilsin. Azərbaycan qoşununun altıaylıq məvacibi hesabını hazlrlayıb Qaracadağ, Həştrud, Gərmrud, Gavrud, Mərənd, Xoy, Çoris (?) və Səlmas bölgələrindəki zabitlərin maaşını təyin etsinlər ki, tam diqqətlə vaxtında və arxayınlıqla yerinə yetirsinlər və qoşunun məsrəfləri haqqında məlumatı ərzimizə çatdırsınlar. Qoşunun altıaylıq məvacibi kimi mühüm məsələni qərara alınmış qaydada icra etməyi öhdələrinə alsınlar.

*1146-cı ilin məhərrəmül-haram ayında[2] yazıldı*

Bu sənədin həmin nəsillə bağlılığı olmasa da, o ailədən göndərildiyi və mənim əcdadıma aidiyyəti olduğuna görə dərc edildi.

---

[1] Miladi təqvimilə iyun/iyul 1733
[2] Miladi təqvimilə iyun/iyul 1733

## Başqa fərmanın nüsxəsi

***Bismillahir-rəhmanir-rəhim***

*Ali hökm oxundu:*

Təbriz darüssəltənəsinin naibi və bütün Azərbaycanın ixtiyar sahibi ucaməqam hörmətli alicah Lütfəli bəyin xidmətində öz düzlüyünü, dürüstlüyünü və səliqəliliyini nümayiş etdirmiş şəxs, nəcibliyin, yüksəkliyin və kamilliyin pənah apardığı yer olan Mirzə Şəfini "siçqan yıl" olan bu mübarək ilin başlanğıcından həmin darüssəltənənin münşiləri sırasına təyin etdik ki, o, hər işində böyük səy göstərərək zəfərlə yoldaş olan qazilərin maliyyə hesablarının, yazıların və sursatla bağlı sənədlərin hazırlanmasına xüsusi diqqət yetirib yüksəkməqam mahir vəkillərin nəzərinə çatdırmalıdır. Bütün məsələlərdə yüksək səviyyədə xidmət göstərib heç bir halda səhlənkarlığa yol verməməlidir ki, inşallah-təala, belə xidmətin əvəzində mükafatlara layiq görülsün. Böyük və hörmətli müstövfilər* bu ali fərmanı öz dəftərlərində qeyd etməyi öhdələrinə alsınlar.

*1144-cü ilin ziqədətül-haram ayında[1] yazıldı*

Mən burada Allahın fəziləti sayəsində həmin əsilzadələr ailəsi haqqında sözümə xitam verirəmvə bu kitabı bitirmək üçün Həzrət Baridən (ə. və c.) kömək diləyirəm. Bu fars kəlmələrdə mən bu şöhrətli şəhərin xalqını yenidən canlandırıram, çünki uzun illər mənim taleyim həmin əzəmətli şəhərə bağlı olmuşdur. Əlimdə olan və əcdadların möhürü ilə zinətləndirilmiş sənədlərin hamısını sona çatdırıram. Onu da bilmək lazımdır ki, yuxarıda göstərilən fərmanlara həzrət Nadirin möhürü o şahənşahın şah Təhmasibin südəmər körpəsinin[2] adından hökmranlıq etdiyi

---

[1] Miladi təqvimilə aprel/may 1732

[2] Nadir əvvəl İkinci Şah Təhmasibi taxtdan salıb Xorasana göndərdi, onun körpə övladını isə 1733-cü ildə Üçüncü Şah Abbas adı ilə padşah elan etdi və özü onun adından ölkəyə hökmranlıq etdi. Lakin o, bununla kifayətlənməyib üç ildən sonra həmin uşağı da atasının yatdığı zindana saldı və özünü

vaxtda vurulmuşdur. Muğanın sərhəddində səltənət taxtına çıxan kimi İran hökmdarlarının qaydasına müvafiq olaraq ölkələrin üzərinə tacdarlıq möhürünü qoydu və mütləq şahənşah oldu. O sənədlərin də nüsxələrini aşağıda gətirirəm.

## Nadir padşahın Mirzə Məhəmməd Şəfinin məvacibinə yüz iyirmi tümən və iki min dörd nadirinin əlavə edilməsi haqqında yazdığı fərman

Möhürün yazısı:

Bismillah

Dövlət ilə dinin möhürü əldən getmişdi ki,
Xuda İrana Nadirin adını qoydu.

Şahənşahlığın sonsuz şəfqətinin və zillüllahlığın hədsiz inayətinin təbaşiri ilə Təbriz darüssəltənəsinin və Azərbaycanın müstövfisi*, nəcibliyin, yüksəkliyin və kamilliyin pənah apardığı yer olan Mirzə Məhəmməd Şəfini "piçi yıl" olan bu ilin altıaylığın başlanğıcından dördmin nadiriyə bərabər olan iki yüz Təbriz tümənini adı çəkilənə mərhəmət buyurduq ki, ilbəil Təbrizin və Azərbaycanın mədaxil hesabından alsın.

Əsli: bu ilin başlanğıcından səksən tümən və ya min altı yüz nadiri;

Əlavəsi: altı ayın başlanğıcından yüz iyirmi tümən və ya iki min dörd yüz nadiri.

Bu pulu özünün məişət ehtiyaclarını ödəmək üçün sərf etsin. Beş nəfər katibinin hərəsinə iki yüz qırx nadiriyə bərabər olan on iki Təbriz tüməni məbləğində maaş ödənilsin.

---

Suqovuşan adlı yerdə keçirdiyi qurultayda şah seçdirdi. Bir neçə ildən sonra Nadir şahın Hindistana hərbi yürüşü çox uzandığından və hətta onun ölümü haqqında şayiələr gəzdiyindən təşvişə düşən oğlu Rzaqulunun əmri ilə hər ikisi (Şah Təhmasiblə Şah Abbas) qətlə yetirildilər.

Köhnə katiblər – iyirmi dörd tümən və ya dörd yüz səksən nadiri.

Əsli: iyirmi iki tümən və ya dörd yüz qırx nadiri;

Əlavəsi: iki tümən və ya qırx nadiri.

Altıaylığın başlanğıcından maaş alan katiblərin hərəsinə on iki tümən. Cəmisi otuz altı tümən və ya yeddi yüz iyirmi nadiri.

O nəcabət sahibinə təyin olunmuş məvacibdən savayı maliyyə əməliyyatlarından ötrü məvacib təyin olunur və əməliyyatları qələmə almaq üçün Təbrizdə iki nəfər qoyulmalıdır ki, Təbrizin gəlir-çıxarına nəzarət edib o alicaha məlumat versinlər. Daha üç nəfəri özü ilə aparıb vəkillərin yanında saxlamalı, dörd nəfər katibi vəzir Mirzə Məhəmməd Kazımın yanında və üç nəfər katibi Azərbaycanın vilayətlərinə apararaq hər vilayətin gəlir-çıxarını, qalıqlarını və mənfəətini müəyyənləşdirmək məqsədilə Bəyverdi bəyin, Həsən Əli bəyin və Mirzə Kazımın yanında qoymalıdır. Əgər vilayətlərin əməliyyatlarında qalıq varsa, gəri almaq üçün vəkillərə ötürsünlər və əgər mənfəət əldə olunsa, qeydə alıb müqəddəs ali nəzərə təqdim etsinlər.

Təbriz darüssəltənəsinin vəkilləri ilə məmurları adı çəkilən nəcabət sahibinin və katiblərin məvacibini ayrıca qeyd edərək qəbz versinlər və bunu xər lər hissəsinə aid etsinlər. Adı çəkilən Mirzə Kazım özünün üç nəfər katibi ilə, eləcə də adı çəkilən müstövfi* ilə bərabər vəkillərin dörd nəfər katibi lazımi dəqiqləşdirmələr aparmalıdırlar ki, işin binası əyriliyin üzərində qurulmasın və vilayətlərdə məmurlarla rəiyyətlərin qonaqlıqlarında və ziyafətlərində yemək-içməyə xərclənməsin. Gecə-gündüz mühasibat işlərini gözdən keçirərək onun cikindən də, zikindən də xəbərdar olmalı və buyurduğumuz bütün suallarımıza cavab verməyi bacarmalıdırlar ki, sabah məsuliyyətə cəlb ediləndə vəkillər özlərini bilməməzliyə vurmasınlar, vəzirlə katiblər də başqa bəhanələrdən yapışmasınlar.

Divan mühasibatının əməkdaşları, işçiləri və məmurları, qərara alınmış qaydaya görə, vəkillərlə məmurlar onların vilayətlərinə daxil olan kimi öz vilayətlərinin cəmləri, xərcləri, qalıqları və mənfəətləri haqqında hesabatları hazırlayaraq mö-

hürlənmiş şəkildə təqdim etməlidirlər. Vəkillərin katibləri, habelə vəzirin katibləri o sənədlərin ötürülməsini nəzarət altında saxlayaraq qonaqpərvərlik adı altında bircə dinar ya dənəcik belə heç kəsə verməməlidirlər. Üzə çıxdığı halda məsuliyyətə cəlb olunacaqlar.
*1153-cü ilin cümadiül-əvvəl ayında yazıldı*[1]
(Bu tarix həmin fərmanın haşiyəsində yazılıb və üzərinə həmin möhür qoyulub).

Qərara alınır ki, Təbrizdə olarkən səhər tezdən katiblərlə bir yerdə günahları bağışlanmış hökmdarın (qəbri pak olsun!) tikdirdiyi padşah evlərindəki dəftərxanaya gedib axşama qədər orada işləsinlər və öz evlərində işləməsinlər. Çox ciddi iş görsünlər. Mühasibat işlərini yoxlamaq üçün getdikləri vilayətlərdə sübh tezdən o vilayətin dəftərxanasında toplaşsınlar və müəyyən olunmuş qaydada özlərinin hökumət xidmətlərini yerinə yetirməklə məşğul olsunlar.

## Başqa bir fərman

Fərmanın yuxarısında "Bismillah. Xeyrül-əsma" yazılıb. Möhürün tacı yerində "Bismillah" həkk olunub, möhürün vurulduğu tarix "1148"[2] yazılıb və həmçinin aşağıdakılar həkk edilib:

Dövlət ilə dinin möhürü əldən getmişdi ki,
Xuda İrana Nadirin adını qoydu.

Nəcibliyin və kamilliyin pənah apardığı yer, şahənşahın şəfqəti sayəsində Azərbaycanın müstövfisi* olan aliməqam Mirzə Məhəmməd Şəfi *bilsin ki,* İrəvanın sabiq vəziri və adı çəkilən vilayətin baş müstövfisi*, nəcibliyin, vəzirliyin və kamilliyin pənah apardığı yer Mirzə Məhəmməd Kazıma əvvəllər hər kəsə təyin olunmuş məvacib buyurduq ki, ən adlı-sanlı əyanlar olan

---
[1] Miladi təqvimilə iyul/avqust 1741
[2] Miladi təqvimilə 1735/36

Hüseynəli bəy Müqəddəm, Bəyverdi bəy və Azərbaycanın bütün vilayətlərindəki nəcabət və kamillik sahibləri ilə birlikdə rəiyyətlərin gəlirlərinə, məmləkətin abadlaşdırılmasına və maliyyə işlərinə məşğul olub özlərinin ən yaxşı xidmətkarlıq cəhətlərini nümayiş etdirsinlər.

Bu il hörmətli və adlı-sanlı oğul və ən əziz, aliməqam, və ən dürüst yolla gedən Rzaqulu Mirzənin dəftərxanasından olan öz hesablarını ödəyib ”piçi yıl” ilinin novruzunun başlanğıcından alış-verişi və bütün Azərbaycan vilayətinin mədaxilini müəyənləşdirəndən sonra adları yuxarıda çəkilən vəkillərlə və vəzirlə birlikdə bütün vilayəti gəzib həmin vəkillərə layiq olduğu tərzdə hər cür əməli və hərəsinin payına düşən xidməti borcunu divanın maliyyə xidmətinə təqdim etməyə məşğul olsunlar.

Qərara aldıq ki, o adı çəkilən xoşbəxtin oğlu öz hesabatını o nəcabət sahiblərinə çatdıraraq öz xidmətləri haqqında məlumatı onlara təqdim edəndən sonra onlardan birini həzrətə yaxın olan Mirzə Baqirlə və Azərbaycanın hər vilayətindən bir katiblə birlikdə saxlayıb hesabatlarını ərz etməkdən ötrü ali dərgaha çağıracağıq. Əgər bir tük qədər əyriliyə yol verilsə və ya bir şey qaranlıq qalsa və yaxud işin qanunsuz yolla yerinə yetirilməsi üzə çıxsa, onlar işdən çıxarılacaqlar. Əgər xidmətlərində xüsusi səy göstərsələr, şahənşahın çoxlu lütfləri ilə mükafatlandırılacaqlar. Ali divanın böyük və hörmətli müstövfiləri* itaət edilməsi vacib olan bu fərmanı öz dəftərlərində qeydiyyatdan keçirməyi öhdələrinə alsınlar.

*1152-ci ilin rəcəbül-mürəccəb ayında[1] yazıldı*

## İbrahim Mirzənin fərmanı

Möhürün mətni: “Səlam əla İbrahim”. Möhürün tarixi: 1161[2].

[1] Miladi təqvimilə oktyabr 1739
[2] Miladi təqvimilə 1748

Daim öz günəşəbənzər əqdəs[1] nəzərimizlə və mərhəmət yayan müqəddəs baxışımızla vəziyyəti gözdən keçirərkən xidmətkarlıq və ixlas meydanındakı üstünlük məhəlləsində öz həmkarlarından bu möhkəm dövlətin parıldayan günəşinin yüksəlişini və bu əbədi şövkətin işıqsaçan aftabının doğuşunu oğurlamış əqidəli qulamlardan və iradəli nökərlərdən hər birini ali mərtəbələr dərəcəsinə və layiqli xidmətlər yüksəkliyinə qaldırmaqla misli görünməmiş rütbələrlə mükafatlandırmağa qərar verdik.
Bu vəziyyət barədə sözləri özündə əks etdirən güzgü xaqana yaxın olan şəxs Mirzə Məhəmməd Şəfidir. Buna görə də şahlığın ucu-bucağı olmayan mərhəmətinin bir parçasını və zillüllahlığın sonu olmayan lütfünün bir zərrəsini onun halına şamil və malına daxil edərək bu xoşbəxt "loy yılı" ilinin dördaylığının başlanğıcından etibarən xaqana yaxın olan o adı çəkiləni bütün Azərbaycan məmləkətlərinin vəziri mərtəbəsinə yüksəldib yeddi yüz Təbriz tüməni məbləğini illik məvacib buyurduq ki, hər il divanın maliyyə xidmətindən alaraq öz məişət ehtiyaclarını ödəsin. O, maliyyə hesablarına, avadanlığın qeydiyyatına və icarə işlərinə hörmətlə yanaşaraq zabitlərin, məmurların və divan işçilərinin mühasibat işlərini yoxlayıb düzəliş etməyə məşğul olarkən xoş niyyətlə özünün paklıq, işgüzarlıq və xidmətkarlıq xasiyyətlərini müqəddəs dərgahın qarşısında nümayiş etdirməlidir və bunun üçün yanında üç nəfər katib də saxlamalıdır. Göstərilən tarixdən etibarən onlardan hər birinin illik məvacibi iyirmi Təbriz tüməni təyin olunur. Vəkillər, hakimlər, qoşunların mühasibləri, zabitlər, məmurlar, kələntərlər, kədxudalar və Azərbaycan vilayətlərinin bütün əhalisi adı yuxarıda çəkilən şəxsi həmin məmləkətin tam səlahiyyətli vəziri kimi tanıyaraq öz maliyyə hesabatlarını xaqana yaxın olan adı çəkilənə təqdim etməlidirlər.

Ali divanın böyük və hörmətli müstövfiləri* hazırkı şərəfli fərmanın şərhini əbədi dəftərlərində qeydiyyatdan keçirib ona hər hansı bir dəyişiklik etməyə yol verməməyi öhdələrinə alsınlar.

---

[1] Əqdəs – ən müqəddəs.

*1161-ci ilin zihiccətül-haram ayında yazıldı*[1]

## Şahrux Mirzənin fərmanı

Fərmanın başında "Bismillahi-təala hüvə" yazılıbdır. Möhürün tarixi 1163[2]. Möhürdə "Əl-mülkü lillah" həkk olunub.

Əgər məmləkətin Günəşi bir neçə gün görünməsə,
Şahruxun nuru dünyanı işıqlandırar

Böyük və nəcib nəslin nümayəndəsi, xaqana yaxın olan şəxs, bütün Azərbaycanın vəziri, hökmdarın sonsuz şəfəq işığına layiq görülmüş Mirzə Məhəmməd Şəfi *bilsin ki*, məsum imam həzrətlərinin (ə) vəsatətilə İlahi səadətin endiyi bu vatxda vərəsə yolu bizə keçmiş səltənət taxtına yenidən əyləşdik[3]. Xaqana yaxın olan o şəxsə öz şəfqətimizi daha da artırmaq niyyətilə "yunit yıl"[4] olan bu xoşbəxt ilin başlanğıcından xaqana yaxın olan həmin şəxsi bütün Azərbaycanın vəziri mənsəbində bərqərar edib bundan qabaq təyin olunmuş məvacibi ona buyurduq.

Xaqana yaxın olan o şəxs bu ali dövlətin və biz humayun hökmdarın xeyirxahı olduğuna görə onun payına şəfqət düşür. Tamam-kamal şəkildə və ümidvarlıqla özünə aid işləri irəli sürərək maliyyə, məhsul yığımı və kənd təsərrüfatına dair mühasibat məsələlərinə diqqətini yetirməli, ən yüksək səviyyədə çalışmalı və öz tələbləri ilə xahişlərini ali taxtın ayağına ərz etməyi özü üçün bir uğur saymalıdır.

---

[1] Miladi təqvimilə noyabr/dekabr 1748

[2] Miladi təqvimilə 1749/50

[3] Əfşarlar sülaləsindən olan Şahrux Mirzə (1734-1796), yəni Şahrux ibn Rzaqulu Mirzə ibn Nadir şah, Mirzə Seyyid Məhəmməd tərəfindən kor edilərək taxtdan salınmışdı. Lakin sonradan Yusif Əli adlı sərdarın köməyi ilə özünü II Süleyman şah adı ilə hökmdar elan etmiş Mirzə Seyyid Məhəmmədi öldürüb yenidən Məşhəddə taxta əyləşmişdi.

[4] Yunit yıl – at ili. Qədim on ikiillik türk təqviminin yeddinci ili.

Azərbaycanın vilayətlərində böyük əmirlərinin əmiri alicah sərdar, hakimlər və məmurlar xaqana yaxın olan həmin şəxsin bütün Azərbaycanın vəziri olduğunu tanımalı, maliyyə sənədlərində onun xətti ilə möhürünü tanımalı, ondan xəbərsiz maliyyə işlərinə məşğul olmamalı və öz hesabatlarını adı çəkilən şəxsə təqdim etməlidirlər. Ali divanın böyük və hörmətli müstövfiləri* hazırkı şərəfli fərmanın şərhini dəftərlərində qeydiyyatdan keçirib orada hər hansı bir dəyişiklik və əvəzetmə aparmağa yol verməməyi öhdələrinə alsınlar.

*1163-cü ilin cümadiül-əvvəl ayında[1] yazıldı*

## Şahrux Mirzənin başqa fərmanı

Möhürün dairəsindəki yazı: "Əl-mülk lillah". Möhürün özünün yazısı:

Əmirülmömininin iti Şahrux
Razılıqla möhür sahibi oldu.

Vilayətlərin nursaçan ürəkdə gizlənmiş işlərinin nizama gətirildiyi və müqəddəs xatirin sərhədlərinin qaydaya salındığı bu vaxtda ordunun və rəiyyətlərin işlərini qeydiyyatdan keçirməkdən ötrü uzun illər boyu dəftərxananın cəm və xərc əməliyyatlarını qabiliyyət tərəzisində çəkib nöqsanlarla eyiblərdən qurtulmağı bacaran şəxsi belə layiqli xidmətlərinə görə misli görünməmiş tərzdə mükafatlandırmağı buyurduq. Bu sözün məqsədi böyük və nəcib sülalənin nümayəndəsi, xaqana yaxın olan şəxs Mirzə Məhəmməd Şəfi Qədimidir. Məhz buna görə "yılan yıl" olan bu ilin doqquzaylığının başlanğıcından onu bütün Azərbaycan məmləkətlərinin vəziri rütbəsinə yüksəldərək məkanı cənnət olan sabiq xaqanın həmin xidmətlərə görə təyin etdiyi məvacibi bərqərar etməyi buyurduq ki, hər il öz məvacibini o məmləkətlərin mədaxilindən alıb özünün məişət ehti-

---

[1] Miladi təqvimilə aprel/may 1750

yaclarını ödəsin. Adı çəkilən şəxs öz xidməti borcunu düz və dürüst tərzdə yerinə yetirməli və özünün dövlətsevərlik və xidmətkarlıq cəhətlərini dünyanı bəzəyən rəyin qarşısında nümayiş etdirməlidir. Müvafiq vilayətin sərdarı, bəylərbəyiləri, qalabəyiləri, hakimləri və məmurları xaqana yaxın olan həmin şəxsin o məmləkətin qeydsiz-şərtsiz vəziri olduğunu tanımalı, onun sözünə və səlahiyyətlərinə təcavüz etməməli və o məmləkətin onun xətti ilə yazılmış və möhürü vurulmuş maliyyə sənədlərini qəbul etməyi öhdələrinə almalıdırlar.

*1162-ci ilin rəcəbül-mürəccəb ayında[1] yazıldı*

## Şahruxun başqa fərmanı

Möhürün dairəsindəki yazı: "Əl-mülk lillah". Möhürün tarixi: 1168[2]. Möhürün özünün yazısı:

Əhmәd padşahın lütfü ilə
Şahrux İranın şahlıq taxtına əyləşdi.

Əzəmətli nəciblər və şöhrətli kübarlar nəslinin nümayəndəsi, əqidə ilə paklıq sahibi, xaqana yaxın olan Mirzə Məhəmməd Şəfi Qədimi və Təbriz darüssəltənəsinin ali müqəddəs günəşinin şəfəqi ilə işıqlandırılan digər sədaqətli cənabları *bilsinlər ki,* o paklıq sahiblərinin ərizəsi uzun müddət hüzura yetişmir. O sədaqətli və təcrübəli xidmətçilərin hamısının hüquqları və xeyri bizim arzu etdiyimiz məsələdir. Ali müqəddəs dərgahın bəndələri öz istəkləri ilətələblərini, ehtiyaclarını, eləcə də gördükləri işlərin hesabatını hər vaxt əla taxtın ayağında duranların ərzinə çatdırmağı və uğurlu nəticəyə inanmağı öhdələrinə almalıdırlar.
*Cümadiüs-sani, 1169-cu il[3]*

[1] Miladi təqvimilə iyun/iyul 1749
[2] Miladi təqvimilə 1755/56
[3] Miladi təqvimilə mart 1756

## Şahruxun digər fərmanı

Möhürün dairəsindəki yazı: "Bismillah". Möhürün tarixi: 1162[1]. Möhürün özünün yazısı:

Şahrux cənab Mürtəzanın[2] lütfü ilə
Din aləmini və Səfəvi dövlətini nizama gətirdi[3].

Hökmdarın hədsiz lütfünə layiq görülmüş sədaqət sahibləri və alicahlar vəkil Məhəmməd Kazım xan Qaracadaği Qədimi və Azərbaycanın maliyyə vəziri Mirzə Məhəmməd Şəfi *bilsinlər ki,* onların ikisi də öz çoxillik xidmətləri ilə bu dövlətin etimadını qazanıblar və biz humayun nəvvab da onlara öz şəfqət ilə inayətimizi əsirgəmirik. Onların ərizəsini və təqdimatını nəzərə alaraq alicah Rüstəm xan Baharlunu əyalət başçısı rütbəsinə, əzəmətlilər nəslinin nümayəndəsi Mirzə Məhəmməd Şəfini Təbrizin vəkili rütbəsinə, Həsən Əli sultanı Sərabın hakimliyinə və Fəzləli sultanı Gərgər və Ələmdar mahalının hakimliyinə yüksəldərək hər birinə aid ayrı bir sənəd hazırlanıb göndərildi. O sənədlər yerbəyer edilməli və onlardan savayı müqəddəs məiyyətlərin arasında yer almış və Bistamdan mürəxxəs olub İraq sərdarı, əzəmətli əmirlərin əmiri alicah Musa xanın ordugahına yollanmış Azərbaycan sərkərdələri ilə xanlarının təqdimatı əsasında Azərbaycan vilayətlərində hər birinin adına xidməti sənədlər hazırlanıb göndərilməlidir. Biz humayun hökmdarın o vilayətin əksər hakimləri, məmurları, kələntərləri və divan işçiləri haqqında məlumatımız yoxdur. O alicahların ikisi də bu dövlətin qərəzsiz tərəfdarlarıdır, biz onlara etimad edirik və onların hər biri ona tapşırılan işi yaxşı bilənlərdəndir. Hər biri lazımi tədqiqat aparıb ona aid olan işdə özünün səliqəliliyini, dəqiqliyini və dövlətə olan sədaqətini nümayiş etdirərək o işin öhdəsindən gəlməyi bacarmalıdır. Əks halda, əgər birisi o işi yerinə yetirmək

---

[1] Miladi təqvimilə 1749
[2] Mürtəza – imam Əlinin (ə) ləqəbidir.
[3] Şahrux Mirzənin atası Rzaqulu Mirzə Nadir şah Əfşarın oğlu idi, anası Fatimə Sultan Bəyim isə Şah Sultan Hüseyn Səfəvinin qızı idi.

qabiliyyətinə malik deyil və ya onun öhdəsindən gələ bilmir və yaxud ayağını itaət yolundan kənara qoyub özbaşınalıq və yaramazlıq yolu ilə gedirsə, beləsinin hərəkətlərinə göz yumub saxtakarlığa əl atmağın hökmü ona şərik olmaqdır. Buna göz yumulmamalı, həqiqət tezliklə üzə çıxarılmalı, qələmə alınmalı və bu barədə ərz edilməlidir. İnşallah, bu yaxınlarda həmin məsələyə dair fərman çıxacaqdır.

*1162-ci ilin zihiccətül-haram ayında*[1] *yazıldı*

Haşiyədə aşağıdakılar yazılıb və həmin möhür vurulub:

Xidməti tapşırıqların yerinə yetirilməsi üçün köməyə zərurət yarandığı halda tez vaxtda hərəkət edib İraqa və Azərbaycana yola düşməyimizi qərara aldıq. Xidməti tapşırıqların yerinə yetirməkdən vaz keçməməyi öhdəyə almaq lazımdır.

---

[1] Miladi təqvimilə noyabr/dekabr 1749

## Keçən çağlarda məşhurlaşmış başqa bir nəsil

Bu gün əcdadları kimi bir vəzifə başında deyillər. Xilafət dərgahında hörmətləri var, ancaq başqa işləri yoxdur. Adamlar o nəslə əcdadların vəzifəsinə görə "Kələntərilər" deyirlər. Hal-hazırda o ailədən iki nəfər həzrətin qulluqçularıdır. İki qardaşdırlar və böyükləri

**Mirzə İshaq xan**dır

ki, xarici işlər vəzirliyində çalışır. Əvvəl bu vəzirlik tərəfindən Hacı Tərxan[1] sarayında iranlıların məsləhətçisi olub, çünki orada tacirlərlə bazirganlar var. Hər il təmmuz* ayının[2] ortalarında bütün dünyada bazargah adı ilə məşhur olan məkkar[3] bazarında qırx gün ərzində hər yandan öz mallarını gətirib başqa mallarla sövda edərlər. Sonra onun dəyəri artdı və Mosku[4] şəhərində məsləhətçi oldu. İndi Təbrizdədir, fransız dilini yaxşı bilir və o dildə danışır. Kiçik qardaş

**Mirzə Musa xan**

Yaxşı katibdir və həzrət vəliəhdin xüsusi münşisidir.

---

[1] Hacı Tərxan – Həştərxan şəhəri.
[2] Təmmuz – suryani təqvimin 10-cu ayı (iyun-iyul aylarına təsadüf edir).
[3] Məkkar – məkrli, hiyləgər, bic. Məkkar bazarı (burada) – ildə bir dəfə eyni məkanda bir neçə günlük müddətə təşkil olunan bazar.
[4] Mosku – Moskva şəhəri.

Mən bu ailənin halı, tutduqları vəzifələri və cəlaləti haqqında şərhi Mirzə İshaqın göndərdiyi yazıdan köçürürəm. Onun yazdıqlarının hamısı düzdür. Padşahların öz gözümlə gördüyüm və köçürtdüyüm fərmanları ən sadiq şahidlərdir. Həmin yazı budur:

**Mirzə İshaq xanın yazısı**

Təbrizin Kələntərlilər tayfasının soy-kökü. Bizim əslimiz Qumdandır və biz böyük şeyx Səduqun (ə.r.) övladlarıyıq. O Məhəmməd bin Əli bin Əli bin Hüseyn bin Musa bin Babuyəl-Qumi Ən-Nəzil Biridir. Onlar nəsildən nəslə alimlər və şeyxlər olublar. Onlardan biri əsrin padşahı yanında nədimlik edərdi və sonda padşahın israrı ilə o padşahın vəziri vəzifəsini qəbul etdi. Ondan sonra onun övladları hökmdarların nökərləri dairəsinə daxil oldular. Şah Təhmasib Səfəvinin dövründə Mirzə Hüseyn onun divanında yüksək vəzifəli şəxslərdən olmuşdur. Onun oğlu Mirzə Əli Əşrəf Şah Süleyman Səfəvinin zamanında Azərbaycan üzrə vəzirlikdə çalışmış, İraqdan Azərbaycana gəlmiş və Təbrizdə vəfat etmişdi. Onun dörd oğlu qaldı: Mirzə Nəsir, Böyük Mirzə Zaman, Mirzə Əbülhəsən, Mirzə Əbülfəth. Atalarının ölümündən sonra Mirzə Nəsirlə Böyük Mirzə Zaman İsfahana gedərək müstövfi* vəzifəsini tutmuşdular.

Dövlət Nadir şahın əlinə keçəndən sonra Mirzə Nəsir müstövfiyül-məmalik* oldu. Mirzə Zaman da müstövfi* idi, Nadir şahın hökmü ilə Azərbaycanın müfəttişliyi ona tapşırıldı və bu işi tamamlayandan sonra Azərbaycanın kələntəri vəzifəsinə yüksəldi. Nadir şahın ölümündən sonra Mirzə Nəsir də İbrahim şahın yanında Azərbaycana gələrək Azərbaycanın vəziri yerini aldı, oğlu Mirzə Qulaməli isə Azərbaycanın vəkili oldu, kələntər vəzifəsi də böyük Mirzə Zamanın əlində qaldı. Mirzə Nəsir Təbrizdə öləndən sonra vəkil oğlu Qulaməli böyük hörmət ilə sərvət sahibi oldu. Cavan yaşında Azərbaycanın hakimi onu zəhərlədi. Ondan bir qızı qalmışdı, Mirzə Məhəmməd Əli Təbriziyə verdilər. Vəkil Mirzə Qulaməlinin arvadı kübar bir qadın idi. Başqaları vəkillik mənsəbini böyük oğlunun olmaması səbəbi ilə

əllərinə keçirmək istəyirdilər. Onda o xanım özü Şiraza gedib vəkil yerini kürəkəni Mirzə Məhəmməd Əli üçün aldı. O vaxtdan həmin vəzifə bizim ailəmizin əlindən çıxdı. Mirzə Məhəmməd vəkil oldu, ardınca oğlu vəkil Mirzə Əbdülvəhhab, ardınca vəkil Mirzə Cəfər, ardınca Mirzə Paşa adı ilə məşhur oğlu Mirzə Əbdülvəhhab vəkil oldu və hal-hazırda onun oğlu Mirzə Kazım vəkildir.

Kələntər vəzifəsi Nadir şahın fərmanı əsasında Böyük Mirzə Zamandan sonra onun səkkizyaşlı oğlu Mirzə Əbu Məhəmmədə verildi. O, uşaq olduğuna görə vəzir Mirzə Əbülfəthin oğlu Mirzə Mehdi bir müddət onun adından kələntərlik işlərini idarə edirdi. Mirzə Əbu Məhəmməd böyüyəndən sonra özü kələntər oldu. Bu Mirzə Əbu Məhəmməd səksən altı il yaşadı, ləqəbi də Şəhriyarülmülki[1] idi. O dərəcədə mötəbər bir şəxs olmuşdu ki, Azərbaycanın hakimlərini onun rəyi ilə təyin və vəzifədən azad edərdilər və maliyyə zəmanətini ondan istərdilər. Vilayətdə hamı onun sözünə itaət edərdi, düz yolla gedənlərdən idi, Allah ona rəhmət eləsin!

Bu Mirzə Əbu Məhəmməd Şəhriyarülmülkün dörd oğlu olub. Hacı Mirzə Zamanla Hacı Mirzə Fərəcüllah bir anadandırlar və onların anaları Gürcüstan hakimi Luvarsabın nəslindəndir. Müstövfi* Mirzə Əsədüllahla (onun oğulları Hacı Mirzə Əhməd və Mirzə İbrahim olublar, onların da övladları hal-hazırda ticarətlə məşğuldurlar) müstövfi* Hacı Mirzə Abdullah (onun oğlu Mirzə Əbdürrəhim mizanağasıdır) da bir anadan olublar. Şəhriyarülmülkün ölümündən sonra günahları bağışlanmış şəhid şah, məbrur Ağa Məhəmməd şah kələntər vəzifəsini onun böyük oğlu Mirzə Zaman xana, niyabətini isə Hacı Mirzə Fərəcüllaha verdi. Hacı Mirzə Zaman xan vilayətin mötəbər şəxslərindən və hörmət ilə sərvət sahiblərindən olandan sonra hakimlərə itaət etməzdi. Günahları bağışlanmış xaqan onu Tehrana çağırıb Təbrizin hakimliyini vəd etmiş və qarabağlı İbrahim Xəlil xanın

[1] Həmin ləqəb əlyazmada "Şəhriyarülmülki", "Şəhriyarülmülk" və "Şəhriyarülmüluk" şəklində göstərilmişdir.

o vaxt dövlətə boyun əyməyən qızı Bəyim Ağanı yola gətirməyi tapşırmışdı. Hacı Mirzə Zaman xan hazırlıq görüb və xeyli məsrəf çəkib Qarabağa getmiş və bu batini fəsadları aradan götürərək Bəyim Ağanı [şah ilə] nişanlanmaqla şərəfləndirmişdi, ardınca da şahın hərəmini İbrahim Xəlil xanın qardaşı və iki oğlu ilə, eləcə də bir dəstə Qarabağ ağaları ilə Tehrana aparmışdı.

O vaxtlarda Təbrizin hakimi Əhməd xan Müqəddəm idi. O, Hacı Mirzə Zaman xan Təbrizdən keçərkən bildi ki, o[1], Tehrana daxil olandan sonra onun[2] hökumət işləri alt-üst olacaqdır. Onda o, ölçüyəgəlməz bir məbləği sədri-ə'zəm* Mirzə Şəfiyə və bir-iki başqa adama göndərərək onlardan onun[3] vilayətdə şaha qeyd-siz-şərtsiz tabe olmağından və Azərbaycanın əsaslarına bağlılığından ərz etmələrini istəmiş və nəticədə günahları bağışlanmış xaqanı onu[4] Təbrizə göndərmək fikrindən daşındıra bilmişdi. Amma qədrbilən padşah onun[5] dəyərli xidmətini və fitri istedadını nəzərində tutub əvəzini vermək əzmində olmuşdular. Buna görə o[6], mərhum Asəfüddövlənin atası Mirzə Məhəmməd xan Şərifüddövləni çağırıb buyurdu ki, "Biz Hacı Mirzə Zaman xana Təbrizin hökumətini vəd etmişdik və ondan vacib işlər görməyi istəmişdik. O, öz xidmətini yerinə yetirdi, lakin biz indi onun Təbrizə getməyini dövlətimiz üçün məsləhətli görmürük. Hər halda onu vətənimizin vilayətlərindən birinə hakim təyin edin getsin".

Şərifüddövlə şahın hüzurunda vasitəçi və himayədar olduğuna görə, onu çoxlu sual-cavabdan sonra Ərəbistana[7] hakim təyin etdilər və ləqəbini "Valiyül-vilatil-izam" qoydular. O, on iki il həmin vilayətə tam müstəqil şəkildə hakimlik etdi. Şüştər limanı onun vaxtında bağlandı. O mərhum Ərəbistana gedərkən

[1] Yəni Hacı Mirzə Zaman xan
[2] Yəni Əhməd xan Müqəddəmin
[3] Yəni Əhməd xan Müqəddəmin
[4] Yəni Hacı Mirzə Zaman xanı
[5] Yəni Hacı Mirzə Zaman xanın
[6] Yəni Ağa Məhəmməd şah
[7] Yəni əhalisi əsasən ərəblərdən ibarət olan Xuzistan vilayətinə

bir fərman verdi və özünə məxsus Azərbaycan kələntəri vəzifəsinin naibliyini qardaşı Hacı Mirzə Fərəcüllaha ötürdü. Başqa bir fərmanla o, bəylərbəyi Əhməd xana öz tayfasına, qohumlarına və əmlakına hökmranlıq etməyi yasaqlayaraq işləri haqqında hesabatı Tehrana Şəriküddövlənin vasitəsilə ərz etməyi tapşırdı. Odur ki, Əhməd xan demişdi: "Mən Mavərannəhrə[1] hakim deyiləm". O, bu tayfanın məskunlaşdığı yerin çayın o tərəfində, şəhərin Sürxab məhəlləsində olduğundan belə bir ifadə işlətmişdi.

O mərhum Ərəbistanda yaşadığına görə mərhum Hacı Mirzə Fərəcüllah onun adından kələntərlik işlərinə baxırdı. O mərhumun ölümündən sonra şöhrətli Naibüssəltənənin şəxsən verdiyi əmrin əsasında kələntər yerini Hacı Mirzə Fərəcüllaha mərhəmət etdilər. O mərhumun ölümündən sonra Hacı Mirzə Zaman xanın böyük oğlu Hacı Mirzə Səidə mərhəmət olundu. Onun ölümündən sonra şöhrətli Məhəmməd şahın fərmanı ilə mərhum kələntər Hacı Mirzə Fərəcüllahın oğlu Mirzə Məhəmməd Rzaya mərhəmət edildi. Mirzə Ağaxanın baş vəzir olduğu dönəmdə Mirzə Fəzlüllah Azərbaycanın vəziri oldu və mərhum kələntərin Mirzə Sadıq Qaimməqamla xoş münasibətlərindən istifadə edərək ədavət saldı. Bir neçə nəfər məmur və kədxuda ilə yoldaş olub onları Tehrana gətirdi və kələntərlik fərmanını Bağmeşənin kədxudası Hacı Mirzə Əliqulunun oğlu Bağmeşənin kədxudası Hacı Mirzə Mehdinin adına yazdırıb Mirzə Ağaxanın yanına apardı. Mirzə Ağaxan fikir verməyib başqa fərmanların arasında buna da möhürünü qoydu.

Bəndə[2] o vaxt Tehranda idim. Bundan xəbər alan kimi bir ərizə yazdımvə həmin dönəmdə baş vəzirlərdən aldığım və indi də malik olduğum şəhadətnaməni ərizənin arasına qoyub cəlalətli cənab xarici işlər vəziri vasitəsilə sədri-əzəmə* verdim. O mərhum hali olan kimi adam göndərib sözügedən fərmanı geri

---

[1] Mavərannəhr – vaxtilə bu adda Mərkəzi Asiyada bir dövlət olmuşdur. Mənası "çayın arxasında olan, çayın o tayı"dır.

[2] Yəni bu sözlərin müəllifi Mirzə İshaq xan

gətirdilər. Möhürünü pozdu və bütün camaatın qarşısında dedi ki, "Mənim sələflərimlə o tayfanın sələfləri yüz ildir ki, dost-aşnadırlar. Onların iki yüzillik vəzifələrini əllərindən alıb Təbrizin filan kədxudasına verməyə ömrümdə razı olmaram".

Mirzə Fəzlüllah dəfələrlə vəzirə məktub yazıb müraciət etdi. Qəbul etmədi. İş o yerə çatdı ki, fərmanı yenidən yazmağı əmr edti. O kişi nalayiq və ağılsız hərəkət edib əndərunda[1] mərhum Mirzə Ağaxanın cibindən möhür kisəsini çıxarıb fərmanı möhürlədi. Həmin vaxt sədri-ə'zəm* demişdi ki, "Xudaya, sən özün şahid ol, mən bu fərmana möhür vurmuram, çünki sabah bir başqası mənim ailəmin də varəsəlik vəzifəsini əlimdən alar". Fəzlüllaha da demişdi ki, "Yaxşı iş görmürsən. Sən özün bilərsən, bir də Allah bilər". Bu işi isbat etmək üçün xarici işlər vəzirinin xətti ilə yazılmış həmin məktub indi də mövcuddur. Beləliklə, iki yüzillik vərəsəlik vəzifə bu minvalla bizim ailəmizin əlindən çıxdı və biz hələlik sakitcə səbr edirik. Onun əsas səbəbini ən uca və şərafətli hökmdar yaxşı bilirlər.

Əgər sağ qalsaq, yenidən tikərik
Ayrılıqdan sökülmüş paltarımızı.
Yox, qalmasaq, üzrümüzü qəbul et.
Nə çox arzu torpağa gömüldü.

Mərhum kələntər Mirzə Rzanın övladları bu bəndə ilə Mirzə Musa xandır. Bəndəyə gəlincə, xarici işlər idarəsində kargüzaram. Mirzə Musa xan isə müqəddəs və uca həzrət vəliəhdin (canım ona qurban olsun!) astanında hüzur münşisi vəzifəsini yerinə yetirir. Buyuruq gələn kimi əldəki məlumat ərz olundu. İshaq Əs-Səduqi.

Mirzə İshaq xanın öz xətti ilə yazıb göndərdiyi şərh burada sona çatdı.

## Tənbeh

[1] Əndərun – evin qadınlara məxsus hissəsi.

Öz vərəsəsinin tələbində belə sükunət ilə səbrin mənə çatan şərhsiz-izahsız səbəbi hal-hazırda xilafət dərgahının birinci şəxsi müstövfiyül-məmalik* Mirzə Yusifin kələntərlə dost olmağı, çarəsizlikdən onun tərəfini saxlamağıvə bu qədim nəslin istəyinin yerinə yetirməməyidir. İndi o ailədə olan fərmanları gətirirəm:

### Vəkil Kərim xanın Mirzə Əbu Məhəmməd Şəhriyarülmülukun kələntərliyi haqqında yazdığı fərmanın surəti

*Ali fərman oxundu:*

Kələntərlik işi rəiyyətin rizasından asılı olduğuna görə və bu vaxt alicənab şeyxülislam və başqaları və ən əzizləri, eləcə də əyanlar, kədxudalar, rəiyyətlər, bütün sakinlər və Təbriz darüssəltənəsinin camaatı dəftərxanada qeydə alınmış əlahiddə bir ərizədə sədaqət ilə iradə sahibi, əzəmətli nəciblər sülaləsinin nümayəndəsi, sabiq kələntər alicah Mirzə Əbu Məhəmməd Şəhriyarülmülkinin xoş rəftarından razılıqları və sözügedən xidmətin əvvəldə olduğu kimi adı çəkilən alicaha tapşırılması xahişi ilə müraciət ediblər. Bu səbəbdən ali inayət günəşinin bir zərrəsi adı çəkilən alicahın amanı ilə amalına işıq salmış və xoşbəxt “piçi yıl” ilinin onaylığının başlanğıcından yüksəkməqam alicah, hörmət ilə cəlalət sahibi, sədaqət ilə əqidə örnəyi, bu əbədi dövlətin aşiqi, əzəmətli əmirlərin əmiri bəylərbəyi Nəcəfqulu xana ixtiyarında olan Təbriz darüssəltənəsinin və tabeliyindəki digər bölgələrlə mahalların kələntərlik xidmətini adı çəkilən alicaha tapşırıb [bundan öncə] sabiq kələntər, aliməqam və alişan Mirzə Təqiyə təyin olunmuş nağd pul və mal şəklində məvacibin verilməsini buyurduq ki, ilbəil vilayətlərin xəzinəsindən alıb lazım və vacib qaydada öz məişət ehtiyaclarını ödəməyə sərf etsin. O, öz işgürzalığının və bacarığının hesabına rəiyyətlərin işlərini qeydiyyata almalı, onları bir yerə toplamalı, adı çəkliən darüssəltənənin əsnafının vəziyyətini nizama salmalı,

məhəllələrin kədxudalarla babalarını[1] təyin edib işdən azad etməli, cəmiyyətin ən alçaq nümayədələrini, gəda-güdaları qınayıb ədəbləndirməli, habelə divanın digər xidmətlərini yerinə yetirməyə çoxlu səy göstərməli,mübarək fərman olmadan bircə dinar pulu və bircə zərrə malı belə rəiyyətlərin arasında bölüşdürməməli, adı çəkilən darüssəltənədən ixrac olunanları vergi qaydalaranın haqq-hesabına müvafiq şəkildə bölüşdürəndə diqqət yetirməlidir ki, heç kəsdən artıq bir şey alınmasın və ümumiyyətlə bütün rəiyyətlərlə ən yaxşı tərzdə və ən düz yolla davranmalı, öz xidmətinə dair onların təşəkkürləri ilə şikayətlərini nəzərə almalı və öz xidmətinin uğurları haqqında məlumatı aləmi bəzəyən rəyin qarşısında açıqlamalıdır.

Yüksəkməqam alicah, hörmətli və əzəmətli əmirlərin əmiri, səmimi və əbədi dost, adı çəkilən darüssəltənənin bəylərbəyi Nəcəfqulu xan yuxarıda göstərilən işlərin yerinə yetirilməsi üçün lazım olanları sözü gedən alicaha həvalə edib onun həmin işləri müstəqil şəkildə görməyə qadir olduğunu tanımalıdır. Adı çəkilən darüssəltənənin bütün rəiyyətləri, əkinçiləri, sakinləri və vətəndaşları həmin alicahın hər cür sözünə itaət etməyi və səlahiyyəti qarşısında boyun əyməyi öhdələrinə almalıdırlar.

*1177-ci ilin zihiccə ayında[2] yazıldı*

Fərmanın altında möhür vurulub və Kərim xanın möhürünün mətni belədir: "Mən hüvə bimən rəcahü kərim". Dördbucaq şəkilli möhürün mətnini yazan məşhur həkkak[3] Ağa Tahirdir. Fərmanın arxasında qeydiyyat nişanəsi ilə möhür var və aşağıdakılar yazılıb:

Birinci: Kərim xanın vəziri Mirzə Cəfərin möhürü. Dördbucaq şəkilli möhürdür, mətni "Əbdühü Məhəmməd Cəfər Əl-Hüseyni"dir və "Mülahizə olundu" qeydi var.

---

[1] Baba – (burada) böyük, ağsaqqal.
[2] Miladi təqvimilə iyun 1764
[3] Həkkak – həkk edən, oymaçı.

İkinci: müstövfi* Mirzə Rəsulun möhürü. Dördbucaq şəkilli möhürdür, üzərində nəsx xətti ilə "Mühəmmədün Rəsulullah" yazılıb və "Qələmə alındı" qeydi var.

Üçüncü: Mirzə Məhəmməd adlı birisinin möhürü. Onun da möhürü dördbucaq şəkillidir, üzərində nəstəliq xətti ilə "Əbdühü Məhəmməd Əl-Hüseyni" yazılıb və "Nəzərə çatdı" qeydi var.

Dördüncü: Mirzə İsmayıl adlı birisinin möhürü. Onun möhürü badam şəkillidir, üzərində nəstəliq xətti ilə "Əl-mütəvəkkil əlallah, əbdühü Fəzlüllah" yazılıb və "Yazıldı" qeydi var.

Beşinci: Müstövfi* Mirzə Zamanın möhürü. Onun da möhürü kiçik dördbucaq şəklindədir, üzərində nəstəliq xətti ilə "Məhəmməd Zaman" yazılıb və "Düzdür" qeydi var.

## Vəkil Kərim xanın digər fərmanı

*Ali fərman oxundu:*

Kələntərlik işləri rəiyyətin razılığına bağlıdır və bu vaxtlarda darüssəltənənin rəiyyətləri, əyanları və bütün əhalisi əqidə ilə sədaqət sahibi, əzəmətli nəciblər nəslinin nümayəndəsi, özlərinin sabiq kələntərləri alicah Mirzə Əbu Məhəmmədin işindən və xoş rəftarından razılıqlarını açıqlayıb və adı çəkilən alicahın özü də ədalət rəmzi olan astana ərz etməklə şərəflənidirilməsinə tam ümidvar olduğunu və qayda-qanunlara riayət etmə vəzifəsini özü üçün fərz olduğunu bildiribdir. Bu səbəbdən ali inayət günəşinin bir zərrəsi adı çəkilən alicahın amanı ilə amalına işıq salmış və keçən "yunit yıl"[1] ilinin üçaylığının başlanğıcından[2] Təbriz darüssəltənəsinin və tabeliyindəki digər bölgələrlə mahalların çox nüfuzlu kələntərlik xidmətini adı çəkilən əziz alicaha mərhəmət edib həmin xidmətin bundan öncə yerinə yetirilməsi əvəzinə aldığı pul ilə malın əziz alicaha verilməsinin uzadılıb bərqərar edilməsini buyurmuş olduq. Biz sözü gedən

[1] Yunit yıl – at ili, qədim türk təqvimində on ikiillik dövrün doqquzuncu ili.
[2] Piçi yıl – meymun ili, qədim türk təqvimində on ikiillik dövrün doqquzuncu ili.

şəxsə inayət ilə səxavət göstərərək ona qələbəlik paltarından bir xələt bağışlayıb böyük fəxr və əzizləmə ilə adı çəkilən darüssəltənəyə yolladıq ki, lazım və vacib qaydada özünün yaxşı xidmətçilik bacarığını və işgüzarlığını həmin xidmətə yönəldib və lazım olan işləri görübhər məsələdə ən yaxşı tərzdə və ən düz qaydada o vilayətin bütün rəiyyətlərini, əkinçilərini, sakinlərini və vətəndaşlarını yola versin və özünün dövlətə olan sədaqətini və işgüzarlığını bundan əvvəlkindən də artıq göstərib müqəddəs zatın xeyir-duasını alsın. Təbriz darüssəltənəsinin və tabeliyindəki digər mahalların bəylərbəyi yüksəkməqam alicah, hörmət ilə cəlalət sahibi, sədaqət ilə əqidə örnəyi, bu əbədi dövlətin aşiqi, əzəmətli əmirlərin əmiri Nəcəfqulu xan adı çəkilən əziz alicahın daürüssəltənə Təbrizin və tabeliyindəki digər bölgələrlə mahalların tam səlahiyyətli kələntəri alicah Mirzə Qafurun yerini tutduğunu bilsin, sözü gedən iş üçün lazım olanları adı yuxarıda çəkilmiş əziz alicaha həvalə etsin və bilavasitə onun həmin xidməti müstəqil şəkildə görməyə qadir olduğunu tanıyaraq onun məvacibini bundan qabaq inayət buyurduğumuz qaydada pul ilə mal şəklində vilayətin xəzinsəindən ödəsin və onun tərəfindən gələn hər cür müraciəti nəzərə alsın. Təbriz darüssəltənəsinin və tabeliyində olan mahalların əziz əlahəzrətləri, əyanları, kədxudaları, məmurları, bütün rəiyyətləri, sakinləri və vətəndaşları qərar verdiyimiz qaydada həmin alicahın özlərinin tək və müstəqil kələntəri olduğunu tanıyaraq ona hörmət ilə ehtiram göstərməyin vacibliyini və onun sözü ilə səlahiyyətinə xilaf çıxmağın caiz olmadığını öhdələrinə almalıdırlar.

*1187-ci ilin rəbiüs-sani ayında[1] yazıldı*

## Vəkilin digər fərmanı

*Ali fərman oxundu:*

Yüksək rütbəli alicah, hörmətin,səadətin və hakimiyyətin pənah apardığı yer, əzəmət ilə cəlalət sahibi, böyük əmirlərin əmiri,

[1] Miladi təqvimilə iyun-iyul 1773

bəylərbəyi Nəcəfqulu xan Dünbüli və Təbriz darüssəltənəsinin məmurları *bilsinlər ki*, əyanların qaymağı kələntər Mirzə Əbu Məhəmməd Şəhriyarülmülki Allahın qoruduğu bu dövlətdə özünəməxsus sədaqəti, zəhmətkeşliyi və işgüzarlığı ilə seçilir. Bu səbəbə görə buyurduq ki, adı çəkilən əziz ona məxsus olan Fəratın Veydəhr mahalının Bayram və Aqça kəndindən[1] öz yaşayış ehtiyaclarını ödəmək üçün bir köməkçi vasitə kimi istifadə etməkdən ötrü orada abadlıq və əkinçilik işləri görübvə “taxaquy yıl”[2] olan bu ildə və bundan sonrakı vaxtlarda ondan alınan gəliriözü üçün xərcləyə bilər. Divanın möhtərəm müstövfiləri* bu ali fərmanın lazımi dəftərlərdə qeyd edilməsini öhdəyə alsınlar.

*Hicrətin min yüz yetmiş doqquzuncu ilin rəbiül-əvvəl ayında*[3] *yazıldı*

**Məbrur şəhriyar Ağa Məhəmməd şah Qacarın fərmanı**

*Ali hökm oxundu:*

Hökmdarın sədaqət ilə iradə sahibi, yüksəkməkan alicah Mirzə Fərəcüllah Təbriziyə göstərilən şəfqət ilə inayətin artması əlaməti olaraq bu xoşbəxt “tonquz yıl”[4] ilindən əzəmətli nəslin nümayəndəsi, Təbriz darüssəltənəsinin kələntəri yüksəkməkan alicah Mirzə Məhəmməd Zamanın kələntərlik xidmətinin naibliyini adı çəkilən alicaha tapşırıb illik məvacib şəklində nağd pul ilə mal buyurduq ki, hər il alıb öz xərclərinə sərf etsin və öz vəzifəsini yerinə yetirmək üçün lazım olan işlər görsün.

[bu yerdə imza qoyulub]

Qərara alınsın ki, yüksək rütbəli alicah, dövlət ilə səadətin pənah apardığı yer, əzəmət ilə cəlalət sahibi, böyük əmirlərin əmiri, bəylərbəyi Hüseynqulu xan Dünbüli sözügedən vəzifənin adı yuxarıda çəkilmiş alicaha məxsus olduğunu tanıyaraq təyin edilmiş məvacibin ona verilməsini öhdələrinə götürsünlər.

---

[1] Hal-hazırda Əskü adı ilə məşhurdur.
[2] Taxaquy yıl – qədim türk on ikiillik təqvimində onuncu il.
[3] Miladi təqvimilə avqust-sentyabr 1765
[4] Tonquz yıl – qədim türk on ikiillik təqvimində on ikinci il.

*Hicrətin 1205-ci ilinin zihiccətül-haram ayında[1] yazıldı*

Fərmanın altında möhür qoyulub. Şəhid şah Ağa Məhəmməd xanın möhürü dördbucaq şəklindədir. Mətni belədir: "Üfəvvid əmri ilallah. Əbdühü Mühəmməd". Fərmanın arxasında qeydiyyat nişanəsi ilə möhür var və aşağıdakılar yazılıb:

Birinci: sədri-ə'zəm* Mirzə Şəfi[2]. O mərhumun möhürü dördbucaq şəklindədir, üzərində "La ilahə illallahil-məlikil-həqqil-mübin. Əbdühü Mühəmməd Şəfi" yazılıb və "Mülahizə olundu" qeydi var.

İkinci: Mirzə Zəki adlı birisinin möhürüdür. Onun möhürü badam biçimindədir, üzərində "Əbdühü Mühəmməd Zəki" yazılıb və "Nəzərə çatdı" qeydi var.

Üçüncü: Mirzə Nəsirin möhürüdür. Onun da möhürü badam şəklindədir, üzərində "Əbdühü ər-Raci Mühəmməd Nəsir əl-Bayidi" yazılıb və "Dəftərxanada qeydiyyatdan keçib" qeydi var.

Dördüncü: mərhum sədri-ə'zəm* Mirzə Ağaxanın atası Mirzə Əsədüllah xanın möhürüdür. Üzərində "Əbdürraci Əsədüllah" yazılıb və "Qələmə alındı" qeydi var.

Beşinci: mərhum müstövfiyül-məmalik* Mirzə Həsənin atası və hal-hazırda sağ olan hörmətli, kəramətli və əzəmətli müstövfiyül-məmalik* Mirzə Yusif cənablarının babası mərhum Mirzə Kazımın möhürüdür. O mərhumun möhürü dördbucaq şəklindədir, üzərində "Sirat əla Həqq. Nəmsəküh Mühəmməd Kazım" yazılıb və "Qələmə alındı" qeydi var.

Beşinci[3]: mərhum münşiyül-məmalik Mirzə Qulu Nəvainin möhürüdür. O mərhumun da möhürü badam şəkillidir, üzərində "Əbdürraci Rzaqulu" yazılıb və "Yazıldı" qeydi var.

## Məbrur həzrət Naibüssəltənənin fərmanı

*Ali hökm oxundu:*

---

[1] Miladi təqvimilə iyul 1791

[2] Qeyd etmək lazımdır ki, Mirzə Məhəmməd Şəfi Ağa Məhəmməd şahın deyil, Fəthəli şahın vaxtında baş vəzir (sədri-əzəm) olmuşdur.

[3] Əlyazmada belədir, ancaq məntiqlə "altıncı" olmalıdır.

Təbriz darüssəltənəsinin kələntər vəzifəsinin nəsildən nəslə və budaqdan kökə qədər keçərək və dədə-babadan yetişərək yüksəkməqam alicah, şöhrət ilə izzətin yoldaşı, sədaqət ilə iradə sahibi, əyanlarla böyüklərin qaymağı Mirzə Fərəcüllah Təbriziyə məxsusdur. Adı çəkilənin işgüzarlıq və xidmətkarlıq sahəsində böyük istedadla qabiliyyətə malik olduğunu nəzərə alaraq və ona ali mərhəmət göstərmək xatirinə bu “piçi yıl”[1] ilində və bundan sonrakı vaxtlarda Təbriz darüssəltənəsinin və onun tabeliyində olanların mötəbər kələntər vəzifəsini adı çəkilən alicaha tapşırmağı buyurduq ki, öz səriştəsindən lazımi qaydada istifadə edərək sözügedən xidməti yerinə yetirməyə başlayıb ona bağlı olan digər xidmətləri də başa çatdırsın, rəiyyətlərə qayğı göstərmək, bələdiyyələrlə bölüklər kədxudalarının işini nizama salmaq, vergiləri, ixracatı və rüsumları bölüşdürüb ortaya qoymaq işini böyük diqqətlə icra etsin və aşağıdakı həcmdə: [burada oxunması mümkün olmayan məbləğ göstərilibdir] məvacibini hər il vilayətin xəzinəsindən alıb öz yaşayışı və güzəranı üçün xərcləsin.

Yüksəkməqam alicah, böyüklüklə nəcibliyin kökünə varan, sarsılmazlıqla igidliyin nümunəsi, sədaqətlə iradənin sahibi, əzəmətli əmirlərin əmiri, Təbriz darüssəltənəsinin bəylərbəyi Fəthəli xan, dəftərxananın eşikağasıbaşısı, bölgələrin hörmətli məmurları və bölüklərlə bələdiyyələrin kədxudaları adı çəkilən alicahın həmin darüssəltənənin tək və müstəqil kələntəri olduğunu tanıyaraq sözügedən məsələ üçün lazım olanları onun ixtiyarına versinlər, onun sözünə, səlahiyyətinə və gördüyü savab işlərinə xilaf çıxmasınlar və qarışmasınlar, habelə onu tərifləməyi və ona ehtiramla yanaşmağı özlərinə lazım bilsinlər. Əlahəzrətə yaxın olan əzəmətli kədxudalar və hörmətli katiblər alicahlarının əla fərmanı qeydiyyatdan keçirməyin öhdələrinə götürmələri qərara alınsın.

---

[1] Piçi yıl – meymun ili, qədim türktəqvimindəon ikiillik dövrün doqquzuncu ili.

*Hicrətin min iki yüz iyirmi doqquzuncu ilin şəbanül-müəzzəm ayında*[1] *yazıldı*

Mübarək fərmanın üstündə möhür qoyulub və mübarək möhürün mətni "Dürri-dəryayi-Xosrovi Əbbas"dır. Fərmanın arxasını da müstövfilər* aşağıdakı surətdə möhürləyib imzalayıblar:

Birinci: qaimməqam Mirzə Əbülqasımın qardaşı mərhum vəzir Hacı Mirzə Musa xanın (ə.r.) möhürü. O mərhumun möhürü böyük dördbucaq şəklindədir vəüzərində "Üfəvvid əmri ilallah. Əbdühü Musa Əl-Hüseyni"dir və "Mülahizə olundu" qeydi var.

İkinci: müstövfiyül-məmalik* Mirzə Həsənin möhürü. Üzərində "La ilahə illallahil-məlikil-həqqil-mübin. Əbdühü Məhəmməd Həsən" yazılıb və "Qeydə alınıb" qeydi var.

Üçüncü: mərhum Mirzə Məhəmməd Qəvamüddövlənin atası və Azərbaycanın müstövfisi* və mühasibi Ağa Mirzə İbrahimin babası mərhum Mirzə Təqi Qəvamüddövlənin möhürü. Onun da yazısı "Üfəvvid əmri ilallah. Əbdühü Ər-Raci Mühəmməd Təqi"dir, möhür dördbucaq şəklindədir və "Dəftərxanada qeydiyyatdan keçib" qeydi var.

Dördüncü: mərhum Mirzə Rəbinin oğlu Təbrizin müstövfisi* mərhum Hacı Mirzə Şəfinin möhürü. Onun da möhürü dördbucaq şəklindədir, üzərində "Əl-mütəvəkkil əlallah. Əbdühü Mühəmməd Şəfi" yazılıb və "Qələmə alındı" qeydi var.

Beşinci: mərhum Müinülmülk Mirzə Əbülqasımın atası mərhum Mirzə İsmayıl Təfrişinin möhürü. Onun möhürü kiçik dördbucaq şəklindədir, üzərində "İsmayıl Əl-Hüseyni" yazılıb və "Yazıldı" qeydi var.

## Günahları bağışlanmış həzrət Naibüssəltənənin digər fərmanı

*Ali hökm oxundu:*

[1] Miladi təqvimilə iyul-avqust 1814

Hərbçilərlə mülki şəxslər arasında düşən mübahisənin Təbriz darüssəltənəsinin divanında öz həllini tapması üçün bizim zatımıza xas olan ədalət və insaf hökmü ilə həmin divanın məclisinin çağırılmasını buyurduq və ədalətli qərar qəbul etdik ki, divan tərəfindən vəkil, mülki şəxslər tərəfindən bir etibarlı şəxs və hərbçilər tərəfindən bir zamin təyin olunsun və bu məhkəmədə şəriət qanunu əsasında qəti qərara gəlsinlər və mülki şəxslər hərbçilərə qarşı, eləcə də hərbçilər mülki şəxslərə qarşı haqsızlıq etməsinlər. Mətinliyi ilə düzgünlüyü əlahəzrətə açıq-aşkar məlum olan izzət ilə sədaqət sahibi, ən şöhrətlilərin və layiqlilərin qaymağı, alicah Mirzə Fərəcüllah Qədimini mülki şəxslər tərəfindən təyin edib insaf sahibləri olan divan üzvlərinin sırasına saldıq ki, tərtib edilmiş qanuna və qəbul olunmuş qaydaya müvafiq şəkildə fəaliyyət göstərsin.

Yüksəkməqam alicah, şöhrət ilə şücaət sahibi, əsilzadəlik ilə igidliyin nümunəsi, sədaqət ilə iradənin sığındığı yer, əzəmətli əmirlərin əmiri, divan başçısı, eləcə də divanxananın bütün üzvləri adı çəkilən alicahı mülki şəxslərin vəkili kimi qəbul etməli, habelə sözügedən məsələyə və yuxarıda deyilən xidmətə məşğul olmaq üçün təyin edilmiş bu şəxsin haqqını tanımalıdırlar. Hər bir hərbçi və bütün mülki şəxslər adı çəkilən şəxsin divan üzvləri sırasında olduğunu bilməli, onun iştirakı, məsləhəti və məşvərəsi olmadan heç bir işə əl atmamalı və ona tam hörmət ilə ehtiram göstərməyi öhdələrinə almalıdırlar.

*Hicrətin min iki yüz iyirmi doqquzuncu ilinin rəcəbül-mürəccəb ayında[1] yazıldı*

## Sabiq şahənşah Məhəmməd şah Qazinin fərmanı

*Humayun hökm oxundu:*

Cənnətməkan sultanların (Allah onların dəlillərinə nur saçsın!) fərmanlarını əsas tutaraq beşiyi behişt olan məbrur vəliəhdin (Allah onun libasını nurdan etsin!) fərmanı ilə Təbriz

[1] Miladi təqvimilə iyun-iyul 1814

darüssəltənəsinin və ona tabe olan bölgələrin kələntərlik vəzifəsi ata-babadan keçərək Təbriz kələntəri mərhum Hacı Mirzə Fərəcüllahın oğlu yüksəkməqam alicah, izzət ilə səadətin yoldaşı, şöhrət ilə şücaətin sahibi, səliqəlik ilə iradənin nümunəsi Mirzə Rzaya verilir. Adı çəkilən alicahın yüksək dərəcədə xidmətkarlıq, canfəşanlıq, istedad, qabiliyyət və bacarıq nümayiş etdirdiyini nəzərə alaraq və humayun şəhriyarın ona göstərdiyi hörmətlə mərhəmətə əsaslanaraq hazırkı "qoy yıl"[1] xoşbəxt ildə Təbriz darüssəltənəsinin və ona tabe olan bölgələrin kələntərlik haqqını həmin alicaha tapşırdıq ki,lazım və vacib qaydada özünün yaxşı xidmətçilik bacarığını və işgüzarlığını həmin xidmətə yönəldib nursaçanın hüzurunda ortaya qoysun, əvvəllər olduğu kimi üç yüz Təbriz tüməni məbləğindəki məvacibini Təbriz darüssəltənəsinin xəzinəsindən alsın, öz ehtiyaclarına sərf etsin və var-gücünü bu sözügedən işin icrasına istiqamətləndirsin. Qərara alınsın ki, Azərbaycan məmləkətinin naibüləyaləti, ad-san sahibi, xoşbəxt və arzusuna çatmış Firidun Mirzə adı çəkilən alicahın yuxarıda göstərilmiş darüssəltənənin tam səlahiyyətli kələntəri olduğunu tanıyaraq ona hər cür hörmət ilə ehtiram göstərməli və sözünə xilaf çıxmamalıdırlar. Yüksəkməqam alicahlar, xaqana yaxın olan əzəmətli müstövfilər* humayun fərmanı qeydiyyatdan keçirərək ona dəyişiklik etməməyi öhdələrinə alsınlar.

*Hicrətin min iki yüz əlli birinci ilinin zihiccətül-haram ayında*[2] *yazıldı*

## Cəmşidəbənzər şahənşah, müsəlmanların pənah apardığı yer, Allahın kölgəsi, müqəddəs həzrət Nasirəddin şah Qacarın (Allah onun mülkünü, dövlətini və hörmətini saxlasın!) fərmanı

*Humayun hökm oxundu:*

---

[1] Qoy yıl – qoyun ili. Qədim on ikiillik türk təqviminin səkkizinci ili.
[2] Miladi təqvimilə mart-aprel 1836

Təbriz darüssəltənəsinin sabiq kələntəri, həzrət xaqana yaxın olan alicah Mirzə Rza əbədi dövlətin qədim xidmətçilərindən, sədaqətli nökərlərindən və Azərbaycanın nəcabət sahiblərindəndir və gənc yaşından bu günədək ki, artıq ahıllıq və qocalıq çağına çatmışdır, xidmətkarlıq və qulluq etməkdə cidd-cəhd ilə səy göstərib və heç bir halda itaət ilə bəndəlik adətlərindən vaz keçməyib və binası ərşdərəcəli müqəddəs ali məkanlarla qonşuluqda olduğu bu qoca və şikəst vaxtında da dövlət üçün dua oxumağı özünün əvvəlki xidmətlərə əlavə etmək istəyir və cəlalət sahibi, zavalsız dövlətin fədakar qulluqçusu, baş sərdar cənab Əziz xanın vasitəsilə humayun ayağın altındakı torpaqdan xahiş və rica edir ki, onun tiyul ilə məvacibi şöhrət ilə izzətin yoldaşı, xaqana yaxın alicah, xarici işlər vəzirliyinin naibi Mirzə İshaq xana və əyanlar nəslinin nümayəndəsi, ruh mişkatının çırağı, fəth qapısının açarı, xilafət şəcərəsinin budağı, səltənət ağacının meyvəsi, zavalsız dövlətin vəliəhdinin nəzdində tayı-bərabəri olmayan hörmətli münşi [vəzifəsini tutan] alicah Mirzə Musa xana ki, hər ikisi onun oğlu və ailənin qabiliyyətli və istedadlı üzvləridir, hökumətin verdiyi məvaciblərinə insafcasına əlavə olunsun. Bu səbəbə görə vacib sayıb və xeyir xatirinə “tonguz yıl”[1] olan bu ildənonun üç yüz tümən məbləğində məvacibindən adları yuxarıda çəkilən alicahlara insaf naminə mərhəmət və inayət buyurduq ki, hər il alicah kələntər Mirzə Rzaya Fəsqüdis(?) kəndindəki məxsus tiyulundan əvvəllər olduğu kimi haqlarını alıb öz məişət xərclərinə sərf etsinlər.

[mətnin bu yerində imzalar qoyulub]

Xaqana yaxın alicah, xarici işlər vəzirliyinin naibi Mirzə İshaq xan – üç yüz tümən və kələntər Mirzə Rzanın məvacibindən yüz əlli tümən.

Uca nəvvab vəliəhdin münşisi alicah Mirzə Musa xan – iki yüz otuz tümən və kələntər alicah Mirzə Rzanın məvacibindən yüz əlli tümən.

Xidmət etməyə başlamalarına ümidvarıq.

---

[1] Tonquz yıl – qədim türk on ikiillik təqvimində on ikinci il.

Ruh mişkatının çırağı, fəth qapısının açarı, xilafət şəcərəsinin budağı, səltənət ağacının meyvəsi, zavalsız dövlətin vəliəhdi, Azərbaycan məmləkətinin ixtiyar sahibi Müzəffərəddin Mirzənin mübarək fərmana müvafiq olaraq göstərilən məbləği Fəsqüdis tiyulundan adları çəkilən alicahlara hər il verilməsi qərara alınsın. Yüksəkməqam alicahlar, şöhrət ilə şücaət nümunələri, xalis əqidə sahibləri, mübarək dəftərxananın xaqana yaxın olan əzəmətli müstövfiləri* və xoşbəxt katibləri bu humayun fərmanın şərhini əbədi dəftərlərdə qeyd etməyi öhdələrinə alsınlar.

*Hicrətin min iki yüz səksəninci ilinin cümadiyul-ula ayında*[1] *yazıldı*

Mübarək fərmanın başı ilə haşiyələri bəzədilmişdir və mübarək möhürün mətni belədir:

Şahlıq möhürü Nasirəddinin əlinə keçən kimi,
Onun ədalətli olmağı hamıya və hər yerdə məlum oldu.

Mübarək möhürün tacı var və üstündə "Əl-mülk lillahitəala" yazısı həkk olunub.

[1] Miladi təqvimilə oktyabr-noyabr 1863

# Günahları bağışlanmış mərhum(?) və məbrur(?) müəllifin özü şahzadə Nadir Mirzə haqqında bir neçə söz

*Hüvəl-əliyyü.* Mən şahənşahın bəndəsi cümə günü, orucluq ayının son günündə, dünyanı işıqlandıran Günəş doğandan bir saat sonra Astrabad[1] şəhərində, şəhid xaqan Məhəmməd şahın tikdirdiyi padşah sarayında anadan olmuşam. Atamla anamın ilk oğluyam. Böyük Xaqan Fətəli şahın padşahlığı dövründə atam ispəhbüd*, Məlikara ləqəbli babam Məhəmmədqulu Mirzə isə Mazandaranın, Astrabadın, Dəşti-Türkmanın və Xəzər dənizinin sahilində yerləşən bütün məntəqənin hakimi olub.

## Mən bəndənin soy-kökü

İndi öz adlı-sanlı soy-kököm haqqında məlumat verirəm. Məhərrəm ayının birinci günü və bizim seçilmiş peyğəmbərimiz Mühəmməd bin Abdullahın (əleyhissəlam) hicrətinin qəməri min üç yüz ikinci ilin başlanğıcı olan bu günə qədər [ki, həm də şəmsi hicri ilə] min iki yüz altmış üçüncü, Məsihin miladından min səkkiz yüz səksən dördüncü və Bəni-İsrailin Misirdən çıxmasından musəvi altı min altı yüz qırx dördüncü, Yəzdigərdi və forsi min iki yüz əlli üçüncü ilin sonu və cəlali[2] tarixin səkkiz yüz altıncı və tarixçilərin sözünə görə Əbülbəşərin Yerə enməsinin yeddi min dörd yüz yetmiş altıncı və ya firəng alimlərin sözünə görəyeddi min üç yüz doxsan ikinci və yaxud ulduzşünasların sözünə görə yeddi min iki yüz iyirmi doqquzuncu və tarixçilərin fikrincə tufandan sonra beş min iki yüz otuz altıncı və ya Avropa filosoflarının sözünə görə beş min yüz əllinci və yaxud ulduzşünasların sözünə görə dörd min doqquz yüz səksən

[1] Mazandaranda yerləşən Astrabad (və ya Estrabad) şəhərinin indiki adı Gürgandır.

[2] Cəlali təqvim – Sultan Cəlalüddövlə Məlik şah Səlcuqinin adı ilə bağlı olan təqvim.

yeddinci [ilə bərabərdir] bu dünyadakı həyatımda gördüklərimdən və başıma gələnlərdən danışacağam.

Mənim Bədiüzzəman adlı atama babam Böyük Xaqanın divanında Dəşti-Türkmanın ixtiyar sahibi və Astrabadın bəylərbəyi vəzifəsi verilmişdi. İspəhbüdün Şahzənan adlı anası Şahrux şah bin Rzaqulu Mirzə ibn İranın məşhur və qəhhar padşahı Nadir şahın qızıdır və onun maması[1] Fatimə şəhid padşah Sultan Hüseyn Səfəvi Musəvinin qızıdır. Mən bu qoldan Rəsulullaha (s) bağlı olmağımla öyünürəm və bu mənim üçün böyük fəxrdir. İndi isə qohumlarımı sadalamağa başlayıram:

Sipəhbüd* atamın Məlikara ləqəbli atasının adı Məhəmmədqulu Mirzədir və o, xaqanın ikinci oğludur. Anam Cahan Sultan Böyük Xaqanın oğlu Hüsamüssəltənə Məhəmməd Təqinin qızıdır. Mən ispəhbüd* atamın və babamın tarixi barədə əvvəlki fəsildə ayrıca yazmışam. Burada isə çox qısaca öz tariximi açıqlayıram. Yeddi yaşıma çatanda Qacarlar tayfasının adətinə görə mənim və məndən kiçik olan qardaşım üçün sünnət toyu qurmaqdan ötrü atam şəhəri bəzəmək əmrini verdi. Yadımdadır ki, Darüləmmarə meydanında dülgərlər taxtalardan müxtəlif bəzəklər düzətmişdilər və hər bölgədən Astrabada gələn sehrbazlarla hoqqabazlar çıxış edirdilər. Ustadlar hələ öz işlərinə məşğul idilər ki, şahənşah İsfahanda canını tapşırdı. Bu xəbər çatdı və aləm qarışdı. İspəhbüd lazımi işlərini görmək üçün atasının yanına Sariyə getdi. Böyük Xaqanın darülxilafətdəki şahənşah xəzinəsinin və imarətinin başçısı və keşikçisi olmuş oğlu Zillüssultan ləqəbli Əli xan ürəyi sadə bir adam idi. Onu aldatdılar. Atasının vəsiyyətini dinləməyib tacı başına qoydu və bir dəstə ağılsız və düşüncəsiz adam onun başına dolandılar ki, əgər İran taxtı vəliəhdin olmasa, şahənşahın başqa uşaqları da var, hərəsi öz məmləkətində yarımpadşahdır, heç qoyarlar ki, özlərindən kiçik qardaş padşahlıq etsin?

O, tacı başına qoyub öz adına dirhəmlə dinar kəsdirəndən sonra xəzinəni açdı. Hər yana fərmanlarla çoxlu mal göndərdi

[1] Yəni anası

ki, orduya qızıl paylasınlar, geyindirsinlər və saraya gətirsinlər. Bu iş ağıllı işlərdən deyildi, çünki şahənşahın vəliəhdinin vədlərini yaxşı tanıdılar. Onun böyük qardaşları cah-calallı və qılıncoynadan adamlar olublar. Onu sayan kim idi? Bu dastanı şahənşahlığın tarixinə dair fəsildə şərh edəcəyəm.

Böyük padşah keçinəndən sonra bütün işlər bir-birinə dəydi və mənimlə qardaşımın sünnət məsələsi yaddan çıxdı. İspəhbüd Saridən atası ilə bir yerdə Reyə tərəf getdi, çünki Məhəmməd şah Qazi Azərabadəgandan gəlmişdi və qırxgünlük padşahı taxta əyləşdirdilər. Orada da işlər baş verdi və ispəhbüdü* Böyük Xaqanın uşaqlarından daha doqquz nəfərlə Ərdəbilin Ruindejində saxladılar. Babam Məlikara mənim sünnətimə əmr verəndə mənim artıq doqquz yaşım var idi. Qardaşım Astrabadda bu dünyadan köçdü. Yadımdadır ki, babam qardaşlarından və qohumlarından bir neçə nəfərlə sünnət adətinə xilaf olaraq səssiz-səmirsiz və təmtəraqsız evimizə gəldilər və o işi yerinə yetirdilər. Mən qardaşım və bacımla qalırdım. Tehranda Molla Qulamrza adlı müəllimim olub. Mənə yazını və fars dilini öyrədirdi.

Bax belə hicrətin min iki yüz ... [yazılmayıb] ilinə qədər davam etdi. Mamam ispəhbüdlə* görüşməkdən ötrü şahənşahdan icazə istədi və biz atam ispəhbüdün əmilərimlə o zamanlar qaldıqları Təbrizə getdik və o əmilər bunlar idilər:

[Birinci:] Əli xan Zillüssultan. Naibüssəltənənin doğma qardaşı, Tehranın hakimi və şahənşahın naibi. Atasından sonra padşah olmaq istədi və başına tac qoydu. Saray adamları qırx gün ona şah dedilər. Əlinə mal-mülk çatan kimi tutub Marağaya, oradan da Ərdəbilə apardılar.

İkinci: Həsən Əli Mirzə Şücaüssəltənə. Farsın başçısı Hüseynəli Mirzənin doğma qardaşı idi. Şahənşah dünyadan gedəndən sonra həmin başçı özünü Şirazda şah elan etdi. Onun kiçik qardaşı ordu başçısı idi. Oraya hərbi hissələri çəkdilər. Paytaxtdan oraya Padşah Qazinin qardaşı Nüsrətüddövlə Firuz Mirzənin başçılığı altında qoşun göndərdilər. Cavan və yeniyetmə şahzadə Mötəmədüddövlə Mənuçöhr xan Gürci onun işlər müdiri idi.

İngilis ser Henri Linzi[1] topxana rəisi idi. Getdilər və Şiraza beş mərhələ qalmış Şücaüssəltənə ilə üz-üzə gəldilər. O, məğlub olub qardaşının yanında dustaqxanaya düşdü. İkisini də gözətçilərin müşayiətilə Tehrana yolladılar. Tehranın yaxınlığında padşahın razılığı olmadan Şücaüssəltənə hər iki gözdən məhrum oldu və Ərdəbilə göndərilənədək Sürxmuşda qaldı.

Üçüncü: atasının dövründə Bürucərdin, Luristanın və Ərəbistanın[2] hakimi olmuş mənim babam Hüsamüssəltənə Məhəmməd Təqi Mirzə.

Dördüncü: Rüknüddövlə Əli Nəqi Mirzə. Şahənşahın dövründə Qəzvinin hakimi olub. Bir vaxt Xocəstəüssultan ləqəbini almış və Xorasan valisi olmuşdur.

Beşinci: keşikçibaşı İmamverdi Mirzə. Rüknüddövlənin kiçik qardaşı.

Altıncı: Fəthəli şahın on səkkizinci oğlu İsmayıl Mirzə.

Yeddinci: Məlayirin və Tuysərkanın hakimi olmuş Şeyxəli Mirzə.

Səkkizinci: Nəhavənddə hökumət başçısı olmuş Mahmud Mirzə.

Doqquzuncu: Məhəmməd Əli Mirzə Dövlətşahın oğlu Həşəmətüddövlə Məhəmməd Hüseyn Mirzə. Qərmsinin[3] hakimi olmuşdu.

Onuncu: Astrabadın və Dəşti-Qıpçağın hakimi və Türküstanın sərhədd rəisi olmuş ispəhbüd* atam Sahibixtiyar Bədiüzzəman Mirzə.

Zillüssultan, Rüknüddövlə və Keşikçibaşı Ərdəbil qalasında gizlicə lağım atıb bir gecə Rusiya sərhəddinə tərəf qaçdılar.[1] Bu

---

[1] Ser Henri Lindzi şotland əsilli ingilis zabitlərindən olmuşdur. O, ser Con Malkomla birlikdə İrana gəlib Fəthəli şahın, Məhəmməd şahın və Nasirəddin şahın dövründə İran ordusunda 40 ilə yaxın xidmət etmişdi. Topçuların təlimçisi vəzifəsindən başlayaraq topxana rəisi, baş komandan məqamına qədər yüksəlmiş və general rütbəsini almışdı. 1815-ci ildə Təbrizdə vəfat etmiş və erməni qəbiristanlığında basdırılmışdır.

[2] Yəni əsasən ərəblərin məskunlaşdığı Xuzistan vilayətinin

[3] Qərmsin – indiki Kirmanşah.

yeddi nəfəri isə Təbrizə apardılar. Mən anamla və qardaşlarımla atamı görmək üçün Təbrizə gələndə onlar orada dustaq kimi idilər. Bu hadisə min iki yüz əllinci ildə[2] baş vermişdi. Mənim o vaxt on beş yaşım var idi və şər'i həddi-büluğa çatmışdım. O zamanlar Azərbaycanın hakimi günahları bağışlanmış padşahın doğma qardaşı Qəhrəman Mirzə olmuşdu. Bizim Təbrizə gəlişimizdən üç gün keçəndən sonra məni və kiçik qardaşımı Təbrizin məktəbinə aparıb adı Molla Təqi olan və nə parsini, nə də tazini[3] bilməyən müəllimə tapşırdılar. O, türkdilli bir mərsiyəxan idi. Mən ona "Şərhi-Ünmuzəc"i göstərdim – anlamadı. Şikəstə xətti ilə yazılmış tərəssülüm[4] var idi. Qabağına qoydum – oxuya bilmədi.

O gün və daha beş gün keçdi. İspəhbüd atam mənimlə qardaşım üçün başqa məktəb tapdı. O Molla Təqi babamın əbcəd öyrənən kiçik yaşlı uşaqların müəllimi oldu. Gərmrudun yerli adamlarından Əbdüləli adlı ədəbli və mərifətli bir kişini gətirdilər. O, bu gün də sağdır. Qocalıq onu haqlamışdı. O, ədəb dərsi keçirdi, fars dilini yaxşı bilirdi, nəhvü sərfi[5] də bilirdi, amma o dərəcədə yox ki, ona bu elmin bilicisi desinlər. Təhqiqsiz-tədqiqsiz Zəməxşərinin "Şərhi-Ünmuzəc"indən və Zəncaninin "Tərif"indən[6] başladı. Mən bu kitabı (?) Tehranda oxumuşdum və tutuquşu kimi sözlərin tələffüzünü öyrəndim, ancaq mənasını yox. Ustadım dörd aya bu iki kitabı bisməllədən sona kimi mənə öyrətdi. Bu şərafətli elmin incəliklərinə varmasam da, ardınca məşhur Şeyx Bəhaəddin Amulinin (qəbri nurla dolsun!) "Səmədiyyə"sinə və Cəlaləddin Süyutinin adını "Rövzətül-bəhiyyə fi

---

[1] Rus dövləti İran hökuməti ilə münbasibəti pozmamaqdan ötrü onlara üz gös-tərmədi. Onlar məcbur olub İstanbula getdilər, lakin orada da yaxşı qarşılanmadılar. Sonra Misirə, Məkkəyə, Mədinəyə və Şama köçdülər və axırda Bağdadda sığınacaq tapdılar.

[2] Miladi təqvimilə 1834/35

[3] Parsi və tazi – fars və ərəb dilləri.

[4] Tərəssül – məktub yazmağı öyrənənlər üçün bir vəsait kimi istifadə olunan və müxtəlif namə nümunələrini ehtiva edən kitab.

[5] Nəhvü sərf (və ya sərfü nəhv) – qrammatika.

[6] Çox ehtimal ki, söhbət "Təsrif" əsərindən gedir.

şərhi-əlfiyyə” qoyduğu “Şərhi-əlfiyyə”sinə keçdik. Mən bu kitabı bir neçə aya “Feillər” fəslinə qədər keçdim. Bu yerə çatanda ustad dedi: “Feil fəslini bu kitabdan öyrənmək bizə xeyir verməz”. Bu fəsil çətin və mürəkkəb olduğuna görə elm talibləri[1] bu sözdən bəhanə kimi istifadə edib “feil” və“sözün quruluşu” fəsillərini Əbdürrəhman Caminin “Şərhi-kafiyə”nin əsasında keçdik və iş başa çatdı. Mən böyük maraq göstərib əsl zövq alırdım.

Bu şəhərdə Müctəhid adı ilə tanınan Mirzə Əhməddən və onun iki hörmətli oğlu: imam-cümə Mirzə Lütfəlidən və Mirzə Cəfərdən (Allah onlardan razı olsun!) başqa ədəbiyyatdan başı çıxan yox idi. Bir də bu şəhərin yerli sakinlərindən ədib Molla Mehrəli adlı qoca, qəddi bükülmüş kişi olmuşdu. İspəhbüd məndəki bu istedadı görəndə həmin böyüklərlə əlaqə yaratmağı buyurdu. Cümə günləri qoca ədibi dəvət edərdi və min gümüş dinarla yumşaq və yağlı yeməklər hazırlanmışdı. Mən nahar qurtarandan günbatanadək orada qalıb böyük fərəh hissi ilə həmin ağsaqqala lüğətdən, sözün və cümlənin quruluşundan suallar verərdim. Məsələ onda idi ki, həmin dövrdə ədəbiyyat kitabları tapılmazdı, tapılanda da çox baha olurdu, çünki çap sənəti hələ İranda lazımi səviyyədə deyildi. Bu işə məşğul olan bir-iki karxana var idi və həmin mətbəələrdə Qu’rani-kərim, habelə “Zadül-miad” və müxtəsər “Əxbar” kitabları buraxardılar. Mən “Qamus”un və “Səhih”lərin adını eşitmişdim. Vərəqləri əzilib yırtılmış bir cild “Kənzül-lüğət” əlimizə keçdi. Əgər bir gün məndə qalırdısa, bir ay nüsxənin sahibi onu özü ilə apardı. Bununla belə, məndə ədəbiyyat öyrənmək həvəsim o qədər böyük idi ki, Mirzə Əhməd ya onun uşaqları bizim məhəllədən atın üstündə keçəndə yüyəndən tutub bir şeirdən ya başqa bir məsələdən soruşmağa çalışardım.

İmam-cümə (Allah ona rəhmət eləsin!) mənim bu zehnimi və zövqümü bəyənmişdi. Bir gün ispəhbüd* atama buyurdu: – Bu cavan oğlan çox bacarıqlıdır. Heyfdir və heç rəva olmaz ki,

[1] Yəni Nadir Mirzə ilə qardaşı

onun təlimini qaydaya salmayaq. Ona bir ədəbiyyat ustadı lazımdır ki, həm tərbiyəsinə məşğul olsun, həm də dil və ədəbiyyatın qanunlarını öyrətsin. İspəhbüd ərz etdi: – Tələbələrdən kimi məsləhət görsəniz, muzdunu təyin edin və yanıma göndərin. O hörmət sahibi adı Mahmud olan bir cavan təsuclunu nişan verdi. Çağırdılar, gəldi. Onun üçün hər ya beş tümən məbləğində maaş təyin etdi. O zamanlarda belə muzdu müəllimə heç kəs verməzdi. Cənab ustadım Molla Mahmud (Allah ona rəhmət eləsin!) gəlib müəllim yerini tutdu. Həqiqətən, nə o çağda, nə də bu çağda onun kimi ədəbli, ağıllı və bilikli, zehni saf və yaddaşı möhkəm adam olmayıb və indi də yoxdur. Qardaşımla mən cidd-cəhdlə ədəbiyyatı öyrənmək kəmərini bağladıq. Gecə ilə gündüz bizim üçün bir oldu. Ustadım qədim zamanların ustadları kimi mənə dərsdə məsəlləri imla edərdi. Bir gün xərcxana vəkili – o vaxtlarda ona nazir deyərdilər, qəzvinli idi və öz peşəsinə bağlı adam olmuşdu – bir qoyunu ustadın hüzuruna gətirib yerə atdı və qayçı ilə yununu qırxdı. Ustadım dedi: – Ərəb bu alətə "cəlüm" deyər, fəthəli "cim" və "lam"la. Onun təsniyəsi[1] də "cəlüman" olar və onu başqa tərzdə demək olmur, çünki iki hissədən ibarətdir. Və yenə buyurdu: – Yəzid ibn Məzid Şeybani bir saqqallı kişini görüb dedi: "Sən saqqalını boyamaq üçün xınaya çəkilən xərcin həddindən artıq olduğundan əziyyət çəkmirsənmi?" Kişi dedi: "Bəli, ay əmir, elə sən buyurduğundur və bu səbəbə görə belə demişəm:

Onlara cümə günləri yağ üçün bir dirhəm.
Başqası xına üçün tələsir.
Əgər Yəzid bin Məziddən bir bəxşiş olmasa,
Qayçı uclarının bir səsi qalar".[2]

Yenə buyurdu: "Ərəb deyir "cəzərtül-ləfcətə vəl-kəbşə", yəni "qoçla qoyunun tükünü kəsdim" və deyir "hələqtüt-tisə vəl-

[1] Təsniyə – ərəb dilində olan xüsusi ikili cəm şəkli.
[2] Bu şeir mətndə ərəb dilindədir.

mə’zə“, yəni “təkənin və keçinin tükünü qırxdım”. Burada “cəz” dediyi kimi orada “hələq” deyirlər”. Yenə buyurdu: “Burada “cim” və nöqtəli “za” olur, amma ərəb deyir “hizzərə’sə filan”, yəni ”başını kəsdi” nöqtəsiz “ha” və nöqtəli “za” ilə.[1]

Bax ustadımızın və müəllimizin biz iki qardaşa keçdiyi təlimin qaydası belə idi. Mənim zövqümlə qardaşımın zövqü eyni deyildi. Məni kitab yığmaqdan və elm öyrənməkdən başqa bir şey maraqlandırmırdı. Tezliklə məlumatım və yadda qalanlarım artdı. Ustad buyurdu ki, ərəb şeirlərini öyrənim və cahiliyyə dövrünün məsəllərini öz yazılarımda dərc edim. Mən də Xudavəndin ruzi etdiyi biliyin hamısına yiyələndim. Bir müddət keçdi getdi və hicrətin min iki yüz altmışıncı ilində[2] saqqalım çıxdı, cavanlığın ən çiçəklənən çağına yetişdim və cavanların arzu etdikləri şeylərə meyil etdim. Cavanlıq və həyatdan zövq almaq istəyi də mala olan ehtiyacı labüd edər ki, yaşıdlarınla və yoldaşlarınla bir yerdə vaxt keçirməyə xərcləyəsən. O zamanlar ispəhbüdün gəlir gətirən bir işi olmayıb ya da olub, ancaq mənim dərslərim haqqında buyurdu ki, “Mən bundan sonra uşaqlarımı əlindən tutub aparmağa borclu deyiləm və əzizləyib yaşayış ehtiyaclarını ödəməkdən və xalqın arasına çıxmağa layiq paltar almaqdan başqa heç nəyə əlim çatmır. Sarayda bir xidmətçi işin qulpundan yapış, ya da özünə bir peşə ya sənət seç ki, ildə heç olmazsa iki yüz qızıl tümən qazanıb bu pulla cavanlıq eləyə biləsən”. Mən də o gündən hökumət xidmətində çalışmaqdan ötrü kəmərimi bərk bağladım.

O vaxt Azərbaycanın başçısı Həşəmətüddövlə Həmzə Mirzə olmuşdu. Mən o ilədək heç bir hökumət işində çalışmamışdım. Yalnız hicrətin min iki yüz altmış üçüncü ilində[3] sipəhbüd* atamın əmisi Məlik Qasım Mirzənin birillik hökmranlığı dövründə o şahzadə bütün tarlaları və əkin yerləri onun özünə məxsus olan Çəlik Miyandüab bölgəsinə mənim getməyimə göstəriş

[1] Burada “cim”,  “za”, “ha” və “lam” ərəb əlifbasındakı hərflərin adlarıdır.
[2] Miladi təqvimilə 1844
[3] Miladi təqvimilə 1847

vermişdi. Orada onun Mirzə Fəthəli adlı bir işçisi var idi, o sahələrin hasilatı haqqında rəqəmləri göndərməmişdi və bunu mən təqdim etməli idim. Getdim və o işi çox yaxşı yerinə yetirdim. O işçi mənə iyirmi tümən zəhmətharqı verdi ki, ona türkcə "qulluq" deyərlər, katiblər isə "xidmətanə" yazarlar. Bu mənim hökumət xidmətində qazandığım ilk pulum oldu. O süfrənin şirinliyi indi də mənim damağımdadır.

O böyük əmi Azərbaycanın hakimliyindən uzaqlaşandan sonra hakimiyyət Həşəmətüddövləyə keçdi. Mən anamla həmşirənin xidmətində həzrət əmirülmömininin və oğlu Seyyidüşşühəda Hüseynin (ə).və digər imamların astanını ziyarət etmək üçün İraqi-Ərəbə getdim. Bihəmdillah və hüsni-tovfiqihi yeddi igid imamın astanını bəndəlik dodağı ilə öpəndən sonra paytaxt Tehrana vardıq. O vaxt İranın sədri-ə'zəmi* Mirzə Təqi xan Fərahani olmuşdu. Onun ləqəbi "dayə" sözünün türkcə qarşılığı olan "Atabəyi" idi. Altı ay orada qaldıq. Yeni ispəhbüdün* təyinatı və məvacibi haqqında fərman gələndən sonra – şahənşah dövlətinin əvvəli idi – Azərbaycana qayıtdıq. Bu hadisə 1264-cü ildə[1] baş vermişdi.Həmin il həyat yoldaşım ki, əmiqızım idi, Təbrizdə fərman aldı[2] və mən tək qaldım. O zamanlar bikarçılıqdan heyvan döyüşdürmək adəti çox yayılmışdı. Böyük atabəyin əlinə bəhanə düşdü. Süleyman xan Əfşara tapşırıq verdi ki, müctəhid Hacı Mirzə Baqiri və şeyxülislam Hacı Mirzə Əli Əsğər Təbatəbaini oğlu Mirzə Əbülqasımla Tehrana göndərsin, çünki bütün şəhərlərə yayılmışdı və hökumət fərmanına kobudcasına xələl gətirilmişdi. Süleyman xan əmirin fərmanını və məktubunu göstərdi. Qorxularından yerində qərar tapa bilmədilər, üzrxahlıq etdilər və ondan sonra ayıq oldular.

---

[1] Miladi təqvimilə 1847/48

[2] Yəni dünyasını dəyişdi

## Həzrət vəliəhdin Azərabadəganda hökmranlığına dair qeydlər

Mən əvvəl bu həzrətin humayun soy-kökü haqqında məlumat verim, ardınca da əlimi məqsəd qoyduğum məsələyə uzadaram. Bu padşahzadə hicrətin min iki yüz altmış doqquzuncu ilinin cümadiül-axir ayının on dördündə[1], cümə günü İran məmləkətini öz vücudu ilə zinətləndirdi. Atası aləmin padşahı Nasirəddin, anası Böyük Xaqanın oğlu Şüaüssəltənə Fəthüllah Mirzənin qızı hicrətin min iki yüz iyirmi altıncı ilinin rəcəb ayının doqquzunda[2] dünyaya gəlmişdir. Bu şahzadə xanımın maması Etizadüddövlə İbrahim Xan Rəbibin qızı və Böyük Xaqanın əmisi qızıdır. Bu padşahzadə min iki yüz yetmiş yeddinci ildə[3] Təbrizdə Azərbaycan məmləkətinin hakimi vəzifəsinə gəldi və ordunun baş sərdarı Əziz xan dayəliyə təyin olundu.

Hicrətin min iki yüz yetmiş səkkizinci ilin ziqədətül-haram ayı[4] yetişəndə bu padşahzadə irsi və hüquqi yolla İran dövlətinin vəliəhdi oldu, çünki onun böyük qardaşının anası xanım-xatun və Qacar xanədanından olmamışdı. Şəhid Xaqanın bu padşahlığın əsasında qoyduğu qanuna görə Qacar padşahı canişininin anası da bu nəsildən olmalıdır. Beləliklə, vəliəhdlik bu şahzadənin haqqı oldu. Hal-hazırda Müşirüddövlə ləqəbi ilə tanınan və ədliyyə divanının vəziri olan Yəhya xan ibn Mirzə Nəbi xan humayun fərmanla, nişanla və həmayillə Təbrizə gəldi. Burada bütün məmləkət alimlərinin və əyanlarının iştirakı ilə böyük bayram keçirtdilər. Şahzadə təşrif buyurdu və izdihamın qarşısında fərmanı oxudular. Baş sərdara vəzirliyi və həzrət sarayının rəisliyini verdilər. Misilsiz dəbir və xarici işlər vəziri Mirzə Səidxan Mötəminülmülkün yazdığı o fərmanı axırda gətirirəm.

---

[1] Miladi təqvimilə 24 mart 1853
[2] Miladi təqvimilə 30 iyul 1811
[3] Miladi təqvimilə 1860/61
[4] Miladi təqvimilə may 1862

Nüfuzu böyük olan sərdar məmləkətin işlərinə məşğul oldu. Xalqın rifahı artdı, çoxlu mülklər tikildi. Atabəyi xoşkirdar sərdarın hökmranlığı min iki yüz [əlyazmada bu yer boş qalıb] ilədək davam etdi. Şahənşah Naibüssəltənənin dayısı, Əmirgunə xanın oğlu Mirzə Məhəmməd xan Qacar Dəvəlunu (o, keşikçibaşı rütbəsindən İranın ordu əmiri və o yüksək mərtəbədən sədri-ə'zəm* vəzifəsinə qədər tərəqqi etmişdi) ancaq padşahların özlərinin bildiyi səbəbə görə o xidmətdən uzaqlaşdırıb Xorasanın, bütün şərqi məmləkətlərin və Sicistanın[1] başçısı yerinə təyin olunması haqqında fərman verdi. Sərdar həzrətin göstərişi ilə dərgaha vardı, burada həm müdafiə vəziri, həm də ordu sərdarı yerinə təyinat aldı və həmin işi Azərabadəgandakı hakimliyi ilə birləşdirməyə duaçı oldu. Sən nə danışırsan?! Axı Azərabadəgan böyük və mühüm yerdir. O, paytaxtda hərbi vəzir və bütün İran əsgərlərinin başçısı olmaq iddiasında idi və üstəlik Azərbaycanı və həzrət vəliəhdin atabəyiliyini də əlindən buraxmaq istəmirdi. Əmini-ləşgər Mirzə Qəhrəman da onun bu sərhəddə kədxudası olsun.

Bu yerin camaatı kübar, güclü və əsilli-nəcabətlidir. Təbrizdə iki böyük dövlətin, Rumun və Rusun, üstündə bayrağı olan səfirliyi vardır. Qacar dövlətinin ulduzu çıxandan bəri Azərabadəgan məmləkətini vəliəhdə həvalə edərdilər, yanında da döyüşkən adamlar, adlı-sanlı əmirlər və səriştəli məmurlar olardı. Şahənşah və dövlət xadimləri heç qoyardılarmı ki, belə mühüm yerin hakimiyyəti və otuz minlik məşhur ordunun və yüzbaşılarla minbaşılar üzərində rəhbərlik bir cavan oğlana həvalə olunsun? Beləliklə padşah Naibüssəltənənin oğlu olan öz əmisi Nüsrətüddövlə Firuz Mirzəni vəliəhdə dayə və bütün məmləkətə hakim seçdi. Gəldi və işləri yoluna qoydu. Əmini-ləşgər burada idi, il hələ tamamlanmamışdı və xərac onun əlində idi. O, sərdardan incimişdi, adamları altdan qızışdırırdı və yaxın adamların dili ilə həzrət vəliəhdin qulağına salmışdı ki, "Əgər Nüsrətüd-

---

[1] Sicistan – Sistan vilayəti.

dövlə bu məmləkətdə möhkəmlənsə, səni heç saymaz, çünki əmidir".

Vəliəhd hələ cavan idi. Bu hiylələrlə bicliklər onu ovsunladı. Şahzadəyə qarşı dikbaşlıq edirdi. O isə bic və ayıq idi. Bilirdi ki, bu işin sonu yaxşı olmaz və əlacsız qalıb həzrət xilafətdən novruzda vəliəhdlə bir yerdə dərgaha gəlməyə icazə istədi. İcazə verdilər. Getdi və vəliəhdi özü ilə apardı. Orada ürəyində olanı açdı və qayıtmaq üçün şərtlər qoydu. Onun xahişləri baha başa gəldi, amma o qaldı. Şahənşahın hələ əmisi baş vəzir olduğu vaxtda seçib Azərabadəgana göndərdiyi Mirzə Sadiq Qaimməqam Nuri bir köməkçi və Nüsrətüddövlə hakim kimi vəliəhdi müşayiət edib gəldilər.

*Həmin vaxtlarda sərdarı günah işlətməkdə təqsirləndirdilər. Şahənşahın ona olan münasibətini başqa səmtə yönəltdilər. O, İraqa getdi. Məhbus qaldılar. Müstövfiyülməmalik* Mirzə Yusifin qaimməqamdan xoşu gəlməzdi. O kişinin də beyni qarışmışdı, çünki dəfələrlə ziyan görmüşdü. Şahənşah onu bu məmləkətə namizəd etdiyi gün gözəl oxudu və buyurdu ki, "Sənin əlini Azərabadəganın işlərinə uzatdıq və heç kəsin bu məmləkətin düyününü açıb-bağlamaq haqqı yoxdur və sənin bu işə qayıtmağını biz istəmişik".*[1]

Qaimməqam buraya çatan kimi, heç atdan düşüb əl-üzünü yumamış, Tehranın üsküdarı gəldi ki, "Müstövfiyülməmalikə* bütün İranın kədxudalığını verdilər və o, indi baş vəzirin yerindədir". Kişi ruhdan düşdü, qanı qaraldı. Məhərrəmül-haram ayı yetişdi. Vicuyə məhəlləsində bir məscid var. Şəhər üləmalarından iki dəstə kökləri kəsilmiş müridləri çaşdırıb imamlıq etmək və nohə oxumaqdan ötrü o məbəddə üz-üzə gəldi. Qaimməqam cidd-cəhdlə şeyxiləri dəstəkləyirdi. Bu yaxşı işlərdən olmadı, çünki o biri tərəf daha güclü idi. Əgər o, bitərəf qalsaydı, məhəllə məscidindəki məsələyə o qədər də əhəmiyyət verilməzdi.

---

[1] Əlyazma mətninin bu hissəsində anlaşılmayan və aralarında əlaqəsi olmayan cümlələr bir-birini təqib edir.

Bu söz arada gəzirdi. Bir gün şeyxilərin başçılarından biri at üstündə oradan keçərkən qəsdən mollaya dedi: “Burada filankəs imamlıq etməli və filankəs nohə oxumalıdır”. Orada hər iki tərəfdən hazır olanlar evlərə və guşələrə dağıldılar və sonra çıxıb bir-birilə savaşa girdilər. Şeyxilərdən iki nəfəri öldürdülər və şəhərdə çaxnaşma yarandı. Hər iki rəhbər öz silahlı tərəfdarları ilə məscidə və digər yerlərə getdilər. Bu işlər səltənət qanunlarına uyğun deyildi. Qaimməqam ittiham qarşısında aciz qaldı. Çarəsizlikdən darülxilafətə yazıb vəzifədən kənarlaşdırılmasını istədi. Qəbul edildi. Müəyyidüddövlə Təhmasib Mirzə fərman əsasında böyük səlahiyyət və hörmətlə namizəd oldu. Əminiləşgər burada idi. Bu alovu uzaqdan-yaxından alışdırmağa çalışırdı, çünki bu işlər onunki ilə düz gəlirdi. Paytaxta bir-birinin ardınca məktublar göndərib vəziyyəti qızışdırırdı.

O biri yandan da padşah sarayından tüfəngdar Hacı Mütəllib xan gəldi. Hər iki başçını dərgaha çağırırdılar. Şeyxilərin başçısı Mirzə Hüseyn tez Tehrana yola düşdü. Müctəhid Hacı Mirzə Baqir də onun dalınca getdi. O gün şəhər bazarını bağladılar və təbrizlilər onun evinin qapısından Vilahkuha qədər (iki mildən artıq olar) küçələrə və məhəllələrə tökülüşdülər. Kişi oturdu və səhər öz yaxınlarına və çavuşlarına dedi: “Rzanın (ə) şəhadət yerinə gedəcəyəm”. O, Vilankuhdakı Qüllə adlanan və içində təpə olan bir yerə çatanda günorta namazı vaxtı idi. İmamlıq etdi.Bir dünya qədər adam onunla birlikdə günorta camaat namazına durdular və hay-küylə yerinə yetirdilər.

O, həqiqətən də böyük adam olub, sözü hər yerdə keçən və bəyənilən, hörmətin həddi-hüdudu olmayan adam. Onun bu işlərdə əli olmamışdı, bəlkə onun ətrafındakı yaramazlar onun adından istifadə etmişdilər. Bu hadisə hicrətin min ... [yazılmayıb] ilində baş vermişdir.

## Müəyyidüddövlənin başçılığı

Müəyyidüddövlənin mümkün qədər tez Təbrizə gəlməyinə əmr verildi. O da dərə-təpədən keçib Təbrizə çatan kimi həzrət

vəliəhdin yanına getdi. Sonra divanxananın eyvanında əyləşdi. Camaat onu salamlamağa gəldi. Əmini-ləşgər də kənardan göründü və namaz qılmağa başladı. Müəyyidüddövlə səsini ucaldıb onun eyiblərini sadaladı və dustaqxana keşikçilərinə buyurdu ki, boynuna zəncir keçirib dərgahda bağlasınlar. Bu iş həzrət vəliəhdin xidmətçilərinin və Azərbaycan xalqının ürəyincə deyildi. Əmini-ləşgər üzünü saray adamlarına və başqalara tutub qışqırdı: "Bu şahzadə bacarıqsızdır. Ona əhəmiyyət verməyin. Sərdar heç vaxt bu məmləkəti və onun işlərini nəzarətdən kənar qoymaz və dinc oturmaz. Çox da uzaq deyil,bir-iki ay keçsin və buranın bütün işləri pozulacaq. Onda sərdar gəlib yolunu azmış adamlara qulaqburması verəcək, bu məmləkəti mənə tapşıracaq və dərgaha gedəcək". Nadan adamlar və xüsusilə həzrətə yaxın olanlar ki,onun adını istehza ilə çəkərdilər, bu sözə aldandılar. İşi belə görəndə çox qorxuya düşdülər, yerlərində quruyub qaldılar və quyruqlarını aşağı saldılar. Beş gün keçmədi ki, Təbriz bəylərbəyini – o da bu fəsadda ittiham olunmuşdu – hökumətdən çıxartdılar və bu vəzifəni Bəhmən Mirzə Bəhaüddövlənin oğlu Sasan Mirzəyə verdilər və atasından qalmış həmin ləqəblə ona xitab etdilər. Bir ay ötdü və Təbriz şihnəsi[1] Hacı Rəcəbəlinin qatili, məşhur quldur Hacı Allahyar[2] fərman əsasında öldürüldü. Dustaqxana keşikçiləri kəndiri onun ayağına bağlayıb nəşini bazara dartıb apardılar və orada Həftkeçəlanın zibilliyinə atdılar. Adamlar oyanıb onu görəndə dəhşətə gəldilər. İş yuxarılara çıxdı və Azərabadəgan məmləkətinə hakimlər yollandılar. Həmin il Təbrizin taxıl anbarını Müvərrixə (?) verdilər.

Sərdar darülxilafətdə başı əzilmiş ilan kimi güclə nəfəs alırdı. O, gizlicə öz dostlarını çağırıb onları Müəyyidüddövləyə qarşı təhrik edirdi. Ancaq heç bir təsiri olmadı. Deyirdilər ki, onun xətti ilə yazılmış bir kağız ələ keçdi. Orada Uramana (?) yazırdı

[1] Şihnə – müxtəlif şəhərlərdə qalabəyi, keşikçibaşı və ya polis rəisi vəzifəsini icra edən şəxs.
[2] Təbrizlilərin fikrincə, Hacı Allahyar quldur yox, bir kələkbaz olmuşdu və Gamışavan (Höccəti) xiyabanının girəcəyində yerləşən Hacı Allahyar məscidi ondan qalan yadigardır.

ki, “Ərsənə Ərdəlan bölgəsi var və kürdlər üsyan qaldırmaq niyyətindədirlər”. Şahənşah onu Dəmavəndə göndərdi. Müəyyidüddövlə iki il bu məmləkətdə hökm sürdü. İkinci il Təbriz şəhərinin və ona tabe olan ərazilərin hökumətini də ona verdilər. Üçüncü il gələndən sonra iki ay keçmişdi ki, şahənşah sərdarı sarayına çağırıb Mazandaranın hakimiyyətini ona həvalə etdi. Onun kədxudası öz katibi ilə qabaqcadan o məmləkətə yollanıb Müəyyidüddövləyə teleqrafla şahənşah tərəfindən müjdə verdilər ki, “iddiaçı getdi” və muştuluq adı ilə min qızıl dinar aldılar. O biri gün sərdar Mazandaran hakimliyini üzərinə almaqdan ötrü dərgaha gəldi. Heç kəs bunu güman etməzdi. Şahənşahın xətti ilə fərman gətirdilər ki, Azərbaycan ona verilsin. Hamı heyrət içində idi. Bu məsələni axşam bitirdilər.

## Sərdarın Azərabadəgana ikinci gəlişi

Baş sərdar Əziz xan şahənşah tərəfindən şərəfləndirildi. Ziyaüddövlə qabaqcadan Məhəmməd Rəhim Mirzəni Şüdəbəndlə (?) göndərdi. Gəlib dərgahda yerləşdi və məmləkətin işinə girişdi. Arxasınca da sərdar yetişdi. Əmini-ləşgər xilafət sarayında qaldı ki, onun yadına düşməsin, çünki Azərabadəganın xəracı onun qələmi altında olan illərdə onun ayağına böyük məbləğdə borc yazılmışdı. Divan məmurları borcun ödənilməsini tələb edərək üstünə möhkəm düşmüşdülər və iş o məqama çatmışdı ki, şahənşah malı nahaq yerə tələf etdiyinə görə onun öldürülməsinə əmr vermişdi. Sərdar çarəsiz qalaraq o məbləği üzərinə götürdü, Marağadakı mülklərini girov qoydu və o malı qaytardı.Bu dəfə belə qərara gəldilər ki, xərac işini bir daha ona verməsinlər. O, haraya baş vurdusa, xeyri olmadı və əlacsız qalıb həzrətin xilafət dərgahındakı yaxın adamlarının vasitəsilə qızıl-gümüşün hesabına bir fərman düzəltdirib gəldi. Sərdar əvvəl bir əsgəri çağırdı. O, qorxağın və yaltağın biri idi. Altmış min tümənlik çek yazıb bununla Baş sərdarı aldatdı ki, qocalıq onu haqlayıb, ağır günlər görüb. Bundan sonra irəli çıxdı və sərdarın üstünə qışıqırdı ki, “Vəliəhdin üzərində dayəlik əvvəl-

lərdəki  kimi sənin olmalıdır. O həzrətin xidmətçiləri bizi tanıyırlar. Biz onların maaşlarını və mükafatlarını əvvəllər olmuş kimi ödəməliyik”. Vəliəhd böyümüşdü və Mirzə Rza Mazandarani uğurla yüksəlmişdi (?). Sərdar Ziyaüddövlənin dili ilə o həzrətə pəyam göndərdi ki, saraydakı işlər əvvəlki kimi olmalıdır, filankəslə filankəsi uzaqlaşdırmalısan və onların yerinə filankəslə filankəs gəlməlidir. Vəliəhd qəzəblənib sərt danışdı və heç tərəddüd etmədən dedi ki, sərdar əvvəlki kimi muxtari-mütləq olmalı, məmləkətin və həzrətin işlərində onun heç bir şəriki olmamalıdır. Qasidi üzüsulu geri qaytardı. Sərdarın susmaqdan başqa yolu qalmadı, “hüdnətün əla dəxənin”[1]ə razı oldu və min iki yüz [əlyazmada bu yer boş qalıb] ilinin şəvval ayında əbədi dünyaya köçdü. Əmini-ləşgər hakimiyyət tamahına düşdü. Onunla bərabər bir dəstə adam da həzrət xilafətə üz tutdu. Arzularına çatmaq üçün onlar hətta öz mallarını da sərf etdilər. Saray fırıldaqçıları ona muştuluq verdilər ki, “Tezliklə dərgahdan sənin Azərabadəgana başçı təyin olunmağın haqqında fərman gəlməlidir”. O, ağıllı və zəkalı adam olsa da və bunun xam xəyal və arzu olması açıq-aydın bilinsə də, var-yoxunu bu işə qurban verdi. İntəhası, onun tədbiri uğurla nəticələnmədi. Sahibdivan Mirzə Fəthəli xan Azərbaycanın işini idarə etmək üçün seçildi.

## Müvərrixin[2] hekayəsi

Vəba Təbrizdə adamları kütləvi surətdə qırdığı vaxtda mən Sərabda olmuşdum. Vəliəhd Səhənd dağında idi. Əmini-ləşgər Təbrizin cənub-şərqində bir fərsənglik* məsafədə yerləşən Şadabadi-məşayix kəndinə getmişdi. Bəylərbəyi Hacı Fəthəli xan da orada idi. O və mən hər ikimiz o kişi ilə bir yerdə oturub-dururduq və bu işin axırı nə olacağından çox nigaran idik. Mən, zənimcə, çox gözəl yer olan Sərabın İsmayılabad kəndində qalır-

---

[1] Yəni nadürüstlük və əliəyrilik üzərində dayanan sülh

[2] Müvərrixin kim olduğu aydın deyil.

dım. Qasid gəlib Əmini-ləşgərdən bir məktub gətirdi ki, "Tez gəlmək lazımdır ki, keçənlərdə olduğu kimi ərzaq anbarı sənə verilsin". Getdim və Bəylərbəyin evində qaldım. O biri gün mənim yanıma gəlib saraydan onun beyninə əsdiyi yelin təsiri ilə məndən min beş yüz qızıl tümən istədi ki, "Hər il bunu peşkəş adı ilə verəcəyik". Orada Fəthabadın yaxınlığında bir kənd olub və o yerin tacirləri mənim dostlarım idi. Onlardan borca qızıl istədim. İki-üç günlük möhlət verdilər ki, Təbrizin bazarı şuluq idi. Borcu qaytarma günü gəldi. Mən evdə yatmışdım. Səhər çox həyəcanlı və nigaran idim. Birdən o kəndin bağlarındakı ağacların arxasından başında teleqraf işçilərinin nişanı olan bir nəfəri gördüm. Mənim xidmətçilərimdən biri onun əl işarəsini görüb çölə çıxdı. Bir az danışdılar. O getdi, xidmətçim gəldi. Dedi: "Qardaşın Xəlil Mirzənin göndərdiyi bu işçi teleqrafxanadan xəbər gətirib ki, bu gün təxirə salsın, qızıl verməyi sabaha saxlasın, çünki paytaxtda vəziyyət dəyişib".

# Keçmiş zamanlardan bu günə qədər Təbrizə hökmranlıq etmiş padşahlarla başçılar haqqında

Mən bu fəsli çox qısa yazıram və bunu qeyd edirəm ki, sonra deməsinlər ki, mənim bu məsələdən xəbərim olmayıb.

Bu sözün faydası çoxdur. Azərabadəgan hicrətin iyrimi ikinci ilində[1] fəth olunmuşdu. O da belə olmuşdu ki, on altıncı və on yeddici illərdə[2] islam qoşunları xəlifənin rəhbərliyi altında üzünü Azərabadəgana tutdular və döyüşdülər. Nəticədə iyirmi ikinci ildəbu məmləkət başdan-başa fəth olundu və hər yerə görkəmli ərəb sərdarlarından birini hakim qoydular və islam yayıldı. Bu məmləkətdə pars padşahlığına son qoyuldu. Qədim kitablarda yazırlar ki, Azərabadəganın beş böyük padşahı olmuşdur. Birinci padşahın adı Atropat idi, Ruhullahın miladından üç yüz qırx il əvvəl olub.İkinci Ti Mark adlı, milada yüz altmış iki il qalmış. Üçüncü İkinci Mitridat, [miladdan] səksən doqquz il əvvəl olub. Dördüncü Daryuş ki, miladdan otuz altı il əvvəl. Beşinci Əradad, otuz bir il əvvəl.

Ondan sonra Azərabadəgana Əşkanilər hakim oldular. İki yüz əlli ildən artıq o sülalənin oldu. Qədimlərdə bu tayfanı Part padşahları və Ərsasid adlandırıblar. Bu padşahlar həmin müddət ərzində sözügedən məmləkətdə hökmranlıq ediblər. Sonra Ərdəşir Ərdəvan Əşkanini öldürüb o nəslin hakimliyinə son qoydu və Azərbaycanı öz padşahlığına qatdı. Bu hadisə miladın iki yüz iyirmi altıncı ilində baş berdi. Əlinə fürsət düşən kimi Böyük Xosrov o məmləkəti Ərdəşir Sasanidən aldı və miladın iki yüz əlli üçüncü ilində "Davrij" şəhərinin əsasını qoydu. Uzun illər Davrijin və bütün Azərabadəganın Böyük Ərməniyyə ilə bir padşahı olub. Axırda islam buraya gəldi.

---

[1] Miladi təqvimilə 643

[2] Miladi təqvimilə 637/38

Bəni-Abbasın bu məmləkətdə güclü hakimiyyəti olmuşdur, hakimlər darülxilafətdən Babüləbvaba[1] qədər gedib çatmışdılar. Xürrəmi Babək üsyan qaldırdı, sonra Afşin onu yatırtdı və bu dastanı bütün kitablarda yazıblar. O çağda xilafət zəifləmişdi. Məsud bin Məlik şah Səlcuqi

## **Atabəy Eldəgiz**i

Azərabadəgana göndərdi. Atabəy Türki vəzirin qızılla alınmış bəndəsi olmuşdu. Bu bəndə yüksəlib ləyaqət sahibi oldu. Sultan Məsud onu irəli çəkib ordu əmiri etdi. Onun əmri ilə təpədən dırnağa qədər silahlanmış ordunu Azərbaycana gətirdi və tez zamanda qalib gəldi. Ardınca Şiravanla Muğanı da qılınc hesabına ələ keçirtdi. O məşhurun paytaxtı Təbriz olmuşdu. İyirmi il hakimi-mütləq oldu. Beş yüz altmış səkkizinci ildə[2] o dünyaya köçdü. Onun oğlu Cahan Pəhləvan ləqəbli

## Atabəy Məhəmməd

atasının yerini tutdu. Bu atabəy atası kimi hörmət sahibi idi. Səlcuqilər sülaləsinin sonuncusu Toğrul ibn Arslan kiçik olduğuna görə o, ömrünün axırına qədər onun adından hökm sürürdü və Toğrulun padşahlığına xələl gətirməmişdi. Beş yüz səksən birinci ildə dünyasını dəyişdi. Dövrün hökmdarları ondan qorxardılar, çünki şücaətli və ağıllı adam olmuşdu. Onun hakimliyi on üç il sürdü, ardınca qardaşının vaxtında Azərabadəganın başçısı olmuş

## Qızıl Arslan bin Eldəgiz

məmləkəti zəbt etdi və Toğrulun sarayında əmirülümərа vəzifəsini tutdu. Bir müddət keçdi və Nasir Abbasi özünü padşah elan etmək fikrini onun beyninə yürütdü. Bir azdan öldürüldü. Belə

[1] Babüləbvab – Azərbaycanın şimalında yerləşən və Rusiya tərəfindən işğal olunmuş Dərbənd şəhəri.
[2] Miladi təqvimilə 1173

deyirlər ki, onu yaxın adamları öldürmüşdülər, sonra isə İsmayılın fədailəri onları öldürdülər. Bu Atabəy beş il hakim olub.[1] Atabəy bu dünyadan gedəndən sonra

## Əbu Bəkr bin Məhəmməd Eldəgiz

onun yerinə başçı oldu. Bu atabəy özünə tay tanımayan dilavər və qorxmaz mübariz olmuşdu. İyirmi il tam müstəqil surətdə hökm sürdü. Bu atabəyin qardaşı Qutluq İnanc İraqı əlində saxlamışdı. Bir il ərzində dörd dəfə Azərbaycana hücum etmiş və qardaşına məğlub olmuşdu. Onda Xarəzmə getdi, Xarəzmşah Əlaəddin Təkəşə kələk gələrək nəhəng bir qoşun yığıb yetişdi. Atabəy Reyin Xarında baş vermiş döyüşə məst gəlmişdi. Elə məstlikdən də gürzü öz atının başına vurdu və atdan düşdü. Qutluq İnanc oraya çatıb başını kəsdi. Bəziləri Qutluq İnancın da Atabəylərdən olduğunu deyirlər. Bu düz deyil, çünki İnanc Azərbaycana hökmranlıq etməyib. Axırda Xarəzmşahın əmirlərindən biri onu öldürdü. Atabəy Əbu Bəkrdən sonra

## Atabəy Özbək ibn Məhəmməd

on beş il Azərabadəgana başçılıq etdi. Altı yüz iyirmi ikinci ildə[2] Sultan Cəlaləddin Xarəzmşah bu məmləkətə həmlə etdi. Özbək onunla döyüşmək iqtidarında deyildi. Qalaların qalası Əlincəq[3] qalasına sığındı. Sultan Təbrizi ələ keçirtdi və Atabəyin banusunu aldı. Bu xəbər Özbəkə çatanda ah çəkib bu dünyadan köçdü və Azərabadəgan Atabəylərinin nəsli Özbəklə sona çatdı. Onların hakimiyyət müddəti yetmiş üç il oldu. Atabəylərdən sonra Azərabadəgana başçılıq edəni tanımırıq. Monqolların padşahlığınadək hər guşədə bir ordu rərbəri ya kədxuda özbaşınalıq edərdi.

---

[1] Qızıl Arslan hakimiyyətə gələndən sonta Təbriz Azərbaycanın paytaxtı oldu.
[2] Miladi təqvimilə 1235/36
[3] Əlincəq – Əlincə.

## Elxani ləqəbi ilə Təbrizdə hökm sürmüş monqollar haqqında

Çingiz xanın hakimiyyəti haqqında qeydlər burada fayda verməz. Hər hansı kitaba baxsaq, istər kiçik olsun, istər böyük, o dastan yazılıb və o padşahın fəaliyyəti barəsində bütün dünyaya deyilib. Bizim məqsədimiz Təbrizin tarixidir. Tuluy xan bin Çingiz xanın oğlu Məngu Qaan öz qardaşı Hulakunu İranın şahənşahı yerinə seçib fərman verdi ki, monqollardan bir tayfa arvad-uşaqla bir yerdə İrana köçsün. Bu ordu yüz iyirmi min süvaridən ibarət idi. Qaan Ceyhunun sahilindən Sudan ölkəsinədək bütün ərazini Hulakuya tapşırdı. Bu qaniçənlər ordusu altı yüz əlli üçüncü ildə[1] Ceyhundan[2] yola düşdü.

## Hulaku xan

Bu padşah əvvəl üzünü Xorasana tutdu. Məmləkətin hakimi Məlik Əş-Şəmsəddin Kərət elxanın dərgahına vardı. Gözəl sözlər söylədi. İsmaili mülhidlərinin kökünü kəsdi. Ardınca Bağdada getdi, qələbə çaldı, qılıncla ələ keçirtdi, Möstəsim Abbasıni öldürdü və altı yüz əlli dördüncü ya beşinci ildə[3] Abbasilər dövlətinə son qoydu. Darüssəlamı da qılıncdan keçirtdi və saysız-hesabsız adamları öldürdü. Şama gedib gələndən sonra Təbrizi özünün paytaxtı etdi. Şəmsəddin Cüveyniyə vəzirliyi tapşırdı. Filosof alim Xacə Nəsirəddin Tusi Elxanın hökmü ilə Marağa şəhərinin yaxınlığındakı təpədə ulduzları müşahidə edərdi[4]. Mən o yeri görmüşəm. Üç-dörd

---

[1] Miladi təqvimilə 1255

[2] Ceyhun – Əmudərya çayı.

[3] Miladi təqvimilə 1257 ya 58

[4] Bəzi tarixçilərin yazdıqlarına görə, Marağa rəsədxanasının tikintisi 1259-cu ildə başlanmış və təqribən 15 ildən sonra tamamlanmışdı. Rəsədxananın əsas memarı Fəxrəddin Əhməd bin Osman Əmin Marağayi olmuşdu. Bu bina 1304-cü ilə qədər yerində qalmış, lakin zəlzələ nəticəsində dağılmışdı. Onun qalıqlarını indi də görmək olar.

kərpic ya daş binanın qalığından başqa bir şey gözümə dəymədi. Doqquz il iki ay hökmranlıq edəndən sonra ölüm onu haqladı. Hicrətin altı yüz altmış üçüncü ilinin rəbiüləvvəl ayının on doqquzunda[1] Marağada o biri dünyaya köçdü. Həmin yerdə məqbərə tikdilər. Bu gün onun əlamətləri görünür. Onun oğlu Abaqa atasının yerinə keçdi.

## Abaqa xan

Bu padşah İranı abadlaşdırdı. Babüləbvabdan Omanın sahilinədək və Ceyhundan Şamadək padşahlıq edib. Təbrizdə böyük imarətlər tikdirməyi əmr etdiyini yazırlar. İndi onlardan heç nə qalmayıb və hansı yerdə olduqları da bilinmir. Altı yüz səksəninci ildə[2] on yeddiillik hakimiyyətdən sonra dünyadan köçdü. Əvvəl onun vəziri Şəmsəddin olub, sonra Məcdəddin Yəzdi. Qardaşı Birinci Təkudar[3] padşahlıq taxtına qədəm qoydu.

## Sultan Əhməd

O, müsəlman dinini qəbul etdi. Çox dindar adam olmuşdu və adını Əhməd qoymuşdu. Bütpərəst olmuş monqol başçıları onun müsəlmanlığına ikrah hissi ilə yanaşırdılar. Altı yüz səksən üçüncü ildə[4] onu nahaq yerə öldürdülər. Ərğun ibn Abaqa padşah oldu.

Bu barədə heyrətamiz bir dastan var. İş belə gətirdi ki, Elxan Ərğunu Mazandaranda həbs etdi, özü isə təcili surətdə Azərabadəgana yollandı, çünki aralarında fitnə olduğu bir xatunun axtarışında idi. Öz yaxınlarından birinə tapşırdı ki, “Gecə gələn kimi Ərğunu aradan götürərsən”. Özü ordusu ilə Əhərə gəldi. Başqa bir əmir[5] öz adamları ilə həmin gecə yollarını o tərəfdən saldılar.

---

[1] Miladi təqvimilə 9 yanvar 1265

[2] Miladi təqvimilə 1282

[3] Təkudar xan islam dinini qəbul edəndən sonra özü üçün Əhməd adını seçmişdi.

[4] Miladi təqvimilə 1284

[5] Ərğunun ailəsinə bağlı olmuş Əmir Buğa.

Onlar Ərğunun əl-qolunu açdılar və Sultan Əhmədi Muğana qədər təqib edib orada öldürdülər. Sultan Əhməd Şəmsəddini irəli çəkib yenidən vəzir yerini ona verdi və tapşırdı ki, Məcd Yəzdini parça-parça etsinlər.

## Ərğun xan

Bu padşah Şəmsəddini öldürdü və vəzir yerinə yəhudi Sə'düddövləni gətirdi. Ərğun yeddiillik hakimiyyətdən sonra altı yüz doxsanıncı ildə[1] dünyadan köçdü. Qardaşı Geyxatun elxan oldu.

## Geyxatun

Bu padşah Ərğunun vaxtında Rumun hakimi olmuşdu. Ərğun vəfat edəndən sonra Təbrizə gəlib taxta əyləşdi. Bir azdan Rumda itaətsizlər baş qaldırdılar. Oraya gedib üsyançıları qəhr etdi. Onun ürəyi saf və əli bahar buludu kimi idi. Bununla belə, bir eybi var idi ki, xalqın arvadlarına qarşı namussuzluq etməyi özünə rəva bilirdi və bu, padşahlar üçün böyük nöqsandır. Üç il keçəndən sonra monqol sərdarları onu öldürüb Torağay bin Hulakunun oğlu Baydunu padşah seçdilər. Bu hadisə altı yüz doxsan dördüncü ildə[2] baş verdi. Bu padşah kağıza dinar möhürünü vurub müamilələrdə işlədilməsini istəmişdi, necə ki, Çində olub və indi Rus dövlətində var. Buna çin dilində "çav" və rusca "əskinas" deyərlər[3]. Bu iş keçmədi.

## Baydu xan

Həmədanda elxan oldu. Qazan bin Ərğun ona qarşı çıxdı, Xorasandan qoşun çəkdi. Ordunun başçısı məşhur Əmir Novruz olmuşdu. Baydu döyüşdə yenildi. Novruz Naxçıvanadək gəldi.

---

[1] Miladi təqvimilə 1291

[2] Miladi təqvimilə 1295

[3] Təbrizdə bu əskinasa əvvəl "çavi-mübarək", ləğv olandan sonra isə "çavi-namübarək" deyərdilər.

Orada onu ələ keçirib öldürdü. Onun hakimiyyəti səkkiz ay çəkdi[1].

## Mahmud Qazan

Elxanın Novruzla sözləşməsi var idi ki, düşməni məhv edən kimi islam dininə keçsin. Sözünə sadiq qaldı. Həmin gün monqollardan yüz min adam müsəlmanlığı qəbul etdi. İki yüz min olduğunu da deyənlər var. Bu vaqiə Cəbəl bölgəsinin Firuzkuhunda və ya Larında baş vermişdi. Bir azdan böhtançıların səyləri nəticəsində Əmir Novruza olan münasibəti dəyişdi. Onda o "öz dövrünün Rüstəmi" Herata gedib onun üzərində haqqı böyük olmuş Fəxrəddin Kərətə sığındı. O, əcdadlarının adını batırdı və o "Cahan Pəhləvanı" öldürdü. Bu padşah ədalətiilə seçilərdi və xeyratlar verməyi bəyənərdi. Təbrizdə Şənbi-Qazanı o tikdirmişdi və həmin imarəti padşahların sarayına çevirmişdi. Olduqca böyük mədrəsə və xanəgah ucaltmışdı. Kəndləri qızıla alıb vəqflər təsis edirdi[2]. Mən Təbrizə gəldiyim il onun əlamətlərini gördüm. Divarları hələ qalırdı və bu tikili dairədə bir fərsəngə* yaxın idi. O binadan yerə tökülmüş kərpiclər bir şah məni[3] ağırlığında və daş kimi bərk olmuşdu. İndi o imarətdən bir torpaq təpəciyi yadigar qalır, çünki təbrizlilər oraya daş-kəsək yığıblar. Ondan olan-qalan isə daşınıb rəiyyətlərin binalarına sərf edildi. Mən tayı-bərabəri olmayan

---

[1] Baydu xan özü xaçpərəst olsa da, islam dininə qarşı deyildi və hətta müsəlmanların könlünü almaq üçün oğlunu onlarla namaz qılmağa göndərmişdi.

[2] Qazan xanın Şənbi-Qazanda tikdirdikləri aşağıdakılar olub: Cümə məscidi; dərvişlər xanəgahı; şafei məzhəbi tələbələri üçün mədrəsə; hənəfi məzhəbi tələbələri üçün mədrəsə; darüşşəfa (xəstəxana); xalqa mənzil paylamaqla məşğul olan mütəvəllinin* evi; kitabxana; rəsədxana; hikmət alimlərinin iqamətgahı və dərs dedikləri yer; hovuzxana və su anbarı; bağ-bostan; qanun evi; beytüs-sadat (seyyidləri qəbul etmək və yerləşdirmək üçün mehmanxana); hamamxana. Hər il yüz min qızıl tümən Şənbi-Qazan mövqufatına sərf etmək məqsədilə Rəşidəddin Fəzlüllahın öhdəsinə verilirdi.

[3] Bir şah məni təqribən altı kiloqrama bərabərdir.

dəbir Fəzlüllah Şirazinin[1] o imarət barədə dediklərini burada yazdım ki, belə bir padşahanə iş batıb yaddaşdan getməsin.

## Dəbir deyir

ki, elxan yeddi il hökm sürəndən sonra hicrətin yeddi yüz üçüncü ilində[2] dünya ilə vidalaşdı. Qardaşı Olcaytu padşah taxtına çıxdı.

## Sultan Məhəmməd Xudabəndə

və ya Xərbəndə[3], islam dinini və imamiyyə məzhəbini qəbul etmişdi. Xorasanın valisi olmuşdu, Təbrizə gəldi və elxan oldu. Qunğuraləkdə böyük şəhər saldı, adını Sultaniyyə qoydu və oranı paytaxt etdi. Ədalətli və səxavətli padşah olmuşdu. Dinarın və dirhəmin üzərində on iki imamın adı var idi. Sultaniyyədə özünü dəfn etmək üçün əzəmətli günbəz tikdirmişdi. İndi o günbəz yerindədir, ancaq dağılmış vəziyyətdədir. On üç ildən sonra yeddi yüz on altıncı ildə[4] o biri dünyaya köçdü. Oğlu Bu Səid Bahadır xan onun yerinə keçdi.

## Sultan Əbu Səid

Mazandaranda oturmuşdu. Əmir Çupan əmirülüməra ... [yazılmayıb] göndərdi. Qəzə* və Gürcüstana gedəndə onun ətrafdakıları çaxnaşma saldılar. Çupan Sultaniyyəyə qaçdı. Sərdarlar sultana məktub yazdılar ki, “Çupanı bizə ver, ondan sonra itaət edək”. Sultan kiçik bir ordu ilə döyüşə çıxdı və hücum çəkib düşmənlərini darmadağın etdi. Katiblər o Bahadır xana aid fərmanlar yazmışdılar. Ondan sonra Çupanla oğlu Dəməşq Xacə yox oldular. On doqquzillik padşahlıqdan sonra yeddi yüz otuz

[1] “Tarixi-vəssaf” əsərinin müəllifi Mirzə Fəzlüllah.
[2] Miladi təqvimilə 1304
[3] Xudabəndə – Tanrının qulu; xərbəndə – eşşək saxlayan.
[4] Miladi təqvimilə 1316

altıncı ildə[1] o dünyaya köçdü. Hökmdarın oğlu olmadığına görə Tulu tayfasından olan Arpa Kaan onun yerinə əyləşdi.

## Arpa xan

Nəcabətli padşah idi. Dərbənddə olmuş Özbək padşaha döyüşdə qalib gəldi. Əlişah Diyarbəkirdə üsyan qaldırdı. Ucana gəlib orada vuruşdu. Arpa xan tutulub öldürüldü. Beş aylıq hakimiyyətdən sonra Hulaku xanın nəslindən olan Musa xan şahlıq taxtına çıxdı.

## Musa xan

Bu padşahı taxta Əlişah gətirdi və məmləkətin işlərini idarə etdi. Şeyx Həsən Elkani Hulaku xanın nəslindən olmuş Məhəmməd xan adlı birisini şah elan etdi. Qaradərədə Musa xanla vuruşdu. Əlişah qətlə yetirildi, Musa xan da ələ keçdi. Məhəmməd xanla monqolların hakimiyyəti sona çatdı.

## Çupanilərin hakimiyyəti

Bu tayfanın birincisi

## Şeyx Həsən bin Teymurtaş bin Çupan

idi. Xeyli zəhmət çəkib ağlın və qılıncın hesabına Azərbaycanı və İraqın bəzi məntəqələrini ələ keçirtdi. Azərbaycanda, İraqi-Əcəmdə, Diyarbəkirdə və Rumun bir hissəsində döyüşdü. Paytaxtı Təbriz olub. Bu padşahlıq zülm ilə ədavət dövrü idi. Onun xanımının bir əmirlə gizli sövdələşəməsi olmuşdu. Şeyxin bu sirri açmağından qorxaraq gecə yarısı kənizlərinin köməyi ilə onu qətlə yetirmişdi. Əcəb o idi ki, bir gün öncə Şeyx Həsən bir alimdən soruşmuşdu ki, “Əgər birisini qəflətən öldürsələr və

[1] Miladi təqvimilə 1335

kəlmeyi-şəhadətini söyləməyə macal tapmasa, onun o dünyadakı halı necə olacaq?”[1] Bu əhvalat yeddi yüz qırx dördüncü ilin rəcəb ayında[2] baş vermişdi. Ondan sonra qardaşı

**Məlik Əşrəf**

hakim oldu. Xalqın malına və canına olmazın zülmünü gətirdi. Mühyiəddin Bərdəi saraya gedib Dəşt[i-Qıpçaq] padşahı Canibəy xana onun özbaşınalığından şikayət etdi. Xan özbək ordusu ilə Azərabadəgana gəldi. Əşrəf Xoya qaçdı. Tutuldu. Xanın hökmü ilə başını kəsdilər. Belə yazırlar ki, Əşrəfin malından dörd yüz baş qatır və min baş dəvə pul ilə daş-qaş xana nəsib oldu. Deyirlər ki, Canibəy xan yeddi yüz min süvari gətirmişdi. Həştrudun üzərindən iki dəfə keçmişdilər. İlk dəfə məhsul hələ yetişməmişdi. O biri dəfə sünbüllərin bağlanan vaxtı idi və heç kimə qoymadı ki, bircəciyini qırsın. Bu hadisə hicrətin yeddi yüz əlli səkkizinci ilində[3] baş verdi. Əşrəfin öldürülməsi ilə Çupanilərin başçılığına da son qoyuldu.

## Elkanilərin[4] hakimiyyəti

Şeyx Həsən bin Əmir Hüseyn bin Ağbuğa bin Əmir Elkan bu tayfadan birinci padşah olmuşdur. O, Geyxatunun vaxtında görkəmli sərkərdə olmuşdu və döyüşdə qətlə yetirilmişdi. Əmir Həsən Xorasanda Ərğun xanın qızını aldı və hörmətli adam oldu. Şeyx Həsən Əbu Səidin hakimiyyəti dövründə Rumda hökmranlıq etmişdi. Arpa xandan sonra Əlişahla və Musa xanla vuruşub qalib gəldi və Azərbaycanın hakimi oldu. Sultan Əbu

---

[1] Həmin alim Mövlana Fəxrəddin Carbərdi cavabında demişdi ki, əməllər niyyətlərlədir və əgər niyyəti müsəlman niyyəti olmuşdusa, müsəlman kimi də ölmüş olar.

[2] Miladi təqvimilə noyabr/dekabr 1343

[3] Miladi təqvimilə 1356

[4] Ali-Cəlayir (Cəlayirilər) adı ilə də məşhur olan bu sülalə Hulaku xanın İrandakı canişinləri Elxanilərlə qarışdırılmamalıdır.

Səidin onun kəbinli arvadı [Çupanın] qızı Bağdad xatunu[1] zorla almağının əvəzini çıxaraq Sultanın banusu, Dəməşq Xacənin qızı Dilşad xatunu ilə evləndi. On yeddi il hökmdar oldu. Onun dövründə Kufə dağıdıldı və bu şəhərin sakinləri pərən-pərən oldular. Onun ardınca

## Sultan Üveys

Təbrizə gəlib atasının yerinə keçdi. Əməlisaleh və ədalətli padşah olub. Özbək sərkərdə Əxi Cuqla saysız-hesabsız döyüşlərdən sonra hicrətin yeddi yüz altmış beşinci ilində[2] bütün Azərabadəgan, Arran, Muğan, Ərmən və Mosul sultanın əlinə keçdi. Şirvan vilayəti bac və xərac verməyə boyun oldu. On doqquz il hökm sürdü. Yeddi yüz yetmiş altıncı ildə[3] yükünü o biri dünyaya daşıdı.

Belə yazırlar ki, yeddi yüzdən sonra yetmiş birinci ildə[4] bu şəhriyarın vaxtında Təbrizdə vəba üç yüz min adamı apardı. Bununla belə, əhalinin çoxluğundan şəhərdə kiminsə ölümü gözə dəymədi. Dəclə də onun dövründə coşmuşdu. Bağdadda qırx min nəfər batdı. Onun ölümündən sonra ölkənin və ordunun böyükləri oğlu

## Sultan Hüseyni

padşah elan etdilər və qalalarda möhkəm oturmuş türkmanlarla vuruşub o yerlərə sahibləndilər. Ardınca o şərtlə sülh bağladılar ki, türkmanların başçıları Bayram bəylə Qara Məhəmməd sultanın mətbəxinə min baş qoyun göndərsinlər. Şah Şüca bin Məhəmməd Müzəffər öz qoşununu Təbrizə gətirənə qədər sultan şəhərdə qalırdı. Sultan Hüseyn yenildi. Şah Şüca dörd ay Təbrizdə oturdu. Qardaşı Şah Yəhya Parsda üsyan qaldırdı. Şah Şi-

[1] Təbrizdəki Dəməşqiyyə imarəti Bağdad xatunun tikdirdiyi binadır.
[2] Miladi təqvimilə 1363/64
[3] Miladi təqvimilə 1374/75
[4] Miladi təqvimilə 1369/70

raza getdi. Sultan Bağdaddan Təbrizə gəldi və yeddi yüz səksən dördüncü ildə[1] Sultan Əhməd onu öldürdü.

## Sultan Əhməd

Bu padşah qaniçən olub. Qardaşı Sultan Hüseyni amansızcasına öldürdü. Onda başqa qardaşları Şeyx və Pir Əli bu cür günah işlərə qarşı qiyam qaldırdılar. Sultan davaya girişdi, sonra türkmanlardan kömək istədi. Gəldilər və zəfər çaldı. Hər iki qardaşını öldürdü. Bayəzid adlı daha bir qardaşı var idi. Əmir Adil Ağa onunla bəzən dinc yolla, bəzən qılıncla, gah sülhlə, gah hərblə münasibət qururdu. Axırda Sultan Bayəzidi tutub Bağdada göndərdi.

Böyük padşah Teymur Gürgani İrana qoşun yeridənə qədər vəziyyət belə idi. Sultan Əhməd döyüşmək iqtidarına deyildi. Ruma, Osmanlı padşahı İldırım Bayəzidə pənah apardı. Əmir Teymur İldırımı darmadğın edəndən sonra Sultan Əhməd Misrə getdi. Teymur onu və Qara Yusifi Misir sultanından tələb etdi. O, hər ikisini tutub göndərmək istəyən məqamda Əmir Teymur öldü. İkisi də azad oldu. Sultan Əhməd Bağdada gəldi və Azərbaycana girmək üçün qoşun yığdı və ələ keçirtdi. Qara Yusiflə bağladığı əhdi pozdu. Əmir Qara Yusif səkkiz yüz on üçüncü ildə[2] nəhəng ordu ilə gəldi. Sultan ağır döyüş verdi, axırda məğlub oldu. Bir neçə gün Təbrizdə gizləndi, sonra tutulub öldürüldü. Bu padşahla Elkanilərin hakimiyyəti sona çatdı.

## Təbrizdə Teymurilərin hakimiyyəti haqqında

Dünyanın fatehi Teymur İranı işğal edəndən sonra öz oğlu

## Miranşahı

Hulaku xanın paytaxtında padşahlığa gətirdi və İranın bütün hakimlərinə bu əmrə tabe olmaq haqqında fərman verdi. Özü isə

[1] Miladi təqvimilə 1382/83
[2] Miladi təqvimilə 1410/11

Səmərqəndə getdi. Miranşah şir ürəkli və fil bədənli və bütün fəzilətlərə malik bir padşah olmuşdu. Hicrətin ... [yazılmayıb] ilində dağ qoçunu ovlayarkən onun buynuzundan tutub yəhər qaşına bağlamaq istəyəndə qoç şıllaq atdı, at büdrədi və şahzadənin başına bir xəta gəldi. Yıxılarkən başı daşa dəydi və huşunu itirdi. Həkimlər çarə qılandan sonra özünə gəldi. Uzun müddət inləyə-inləyə yataqda qaldı. Sağalandan sonra beynində pozulma əmələ gəldi. Həkimlər beyni gücləndirmək üçün şərab içməyi məsləhət gördülər. Miranşah ömründə içməzdi. İçdi və hər yerdən muğları, zındıqları və şamanları gətirdilər. Şahzadə çaxıra aludə oldu, xalqın adət etdiyi kimi. Heç kəs ondan qorxmazdı. Məmləkətin işi alt-üst oldu və bir-birinə qarışdı.

Əmir Qəzdə* və Dəştdə, çox uzaqda idi. Hər yerdə üsyanın əlamətləri görünməyə başlamışdı. Xoşbəxt əmir Səmərqənddə oğlunun halını eşidib İrandakı hərcmərclikdən xəbər tutdu. Oraya böyük ordu apardı. Miranşah onu qarşılamaq üçün Sultaniyyəyə gəldi. Atası onunla soyuq davrandı. Nədimlərlə mütrüblər ondan uzaq durdular. Onların içindən ud və nay çalmaqda, mahnı oxumaqda ustad olan üç nəfəri dar ağacından asdı. Təbrizə gələn kimi Hulakunun taxtını Əmirzadə Ömərə verdi (Miranşahın bu oğlu çox igid olmuşdu və hər cür fəzilət onda var idi), Fars ilə Kirmanı Miranşahın digər oğlu Əbu Bəkrə həvalə etdi, İranın digər məmləkətlərini də hərb əhlinə tapşırdı. O, əmr etdi ki, hamı Əmirzadə Ömərin fərmanına və hökmünə itaət göstərməlidir, çünki padşah odur. Tələb edən kimi qoşun yığıb onun sarayına gəlsinlər.

Teymur bu dünyadan gedəndən sonra Ömərin öz atası və qardaşı ilə nifaqları düşdü. Əmirzadə Əbu Bəkr baş əmirləri ilə ordunu Azərabadəgana yeritdi, qardaşı ilə savaşdı. Əmirzadə Ömər yenildi, Əbu Bəkr Təbrizə hakim oldu.

Belə yazırlar ki, Əmirzadə Ömər qardaşı Bu Bəkri çağırdı. O, fərmana tabe oldu. Təbrizə çatan kimi, Ömər qardaşını həbs etdi. Bu Bəkr dustaqxanadan qaçıb Xorasana getdi və oradan Azərbaycana üz tutdu. Qardaşını əzdi. O, Farsa getdi. Ömər

Şeyxin uşaqları onun köməyinə gəldilər. Dərcəzində[1] daha bir döyüş baş verdi. Ömər məğlub olub Xorasana getdi ...(?) Ömər orada üsyan qaldırdı. Tacdar əmisi ilə vuruşdu. Darmadağın oldu. Səmərqəndə, qardaşı Xəlil sultanın yanına getmək istədi. Yolda onu tutdular. Onu oxla yaraladılar. Şahrux əmr verdi ki, onu Herata aparıb müalicəsini etsinlər. Oraya apardılar. Səkkiz yüz doqquzuncu ildə[2] Fəxrrazi məqbərəsində dəfn olundu.

## Əbu Bəkr

Qardaşı ilə məsələni həll edəndən sonra ordusunu iğtişaş baş vermiş İraqa apardı. Şirvanşah Şeyx İbrahim meydanı boş görüb Təbrizə gəldi və oranı ələ keçirtdi. Birdən Sultan Əhməd Bağdaddan özünü oraya çatdırdı. Şirvanşahın onunla döyüşməyə gücü çatmırdı. Şirvana getdi. Mirzə Əbu Bəkr bu əhvalatı eşidib Təbrizə tərəf dönür. Əhməd Bağdada qaçır. Əmirzadə Əbu Bəkr hakimi-mütləq olur. Vaxt keçir və Qara Yusif üstün gələrək onu yıxır.

## Qaraqoyunlu hökmdarları haqqında

Bu tayfadan dörd nəfər Təbrizdə hökmranlıq etmişdi. Birincisi, böyük əmir

## Qara Yusif

ibn Qara Məhəmməd bin Bayram Xacə Türkman olmuşdur. Sultan Üveys Elkaninin ölümündən sonra İbn Bayram Mosulu, Səncarı və Ərminiyyəni[3] əlində saxlamışdı. Qara Məhəmməd Sultan Əhmədin dərgahında adlı-sanlı əyanlardan olmuşdu. Sultan öz qızını ona vermişdi və o, Qaraqoyunlu türkmanlarının

---

[1] Dərcəzin – Simnanda bir kənddir.
[2] Miladi təqvimilə 1406/7. Əlyazmada səhvən “yeddi yüz doqquz” yazılmışdır.
[3] Bu söz əlyazmada məhz belə yazılmışdır.

ordusuna başçılıq edirdi. Onun oğlu Qara Yusif  Əmir Teymurun əmrinə tabe olmadı və döyüşmək iqtidarında deyildi. Əvvəl Rum padşahı İldırım Bayəzidə pənah apardı. Teymur Rumu alandan sonra Misrə qaçdı. Əmirin ölümündən sonra beş yüz yaraqlı və qorxmaz süvari ilə üzünü Azərbaycana tutdu. Misirin hüdudlarından Fərat çayının sahilinədək yüz səksən yerdə onun yolunu o məmləkətlərin kutvalları[1] və əyanları kəsdilər. Hamı ilə vuruşdu və qələbə onun tərəfində oldu. Diyarbəkiri qarət edib Xəlata vardı.

Xəlatın hakimi Məlik Şəmsəddin ona yardım etdi və türkmanlar hər yandan onun başına toplandılar. Böyük qüvvə yığmışdı. Əmirzadə Əbu Bəkr onu dəf etməyi vacib bildi. Nəhəng ordu gətirdi. Amansız döyüşlər üç gün davam etdi. Üçüncü gün əmirzadə məğlub oldu. Əmir Qara Yusif Təbrizə gəldi və oranın abadlaşdırılması üzərində çalışdı. Bu hadisə hicrətin səkkiz yüz doqquzuncu ilində[2] baş vermişdi. Həmin il Əmirzadə Əbu Bəkr Qara Yusiflə başqa bir savaşa girdi. O döyüşdə Miranşah həlak oldu.

Səkkiz yüz on üçüncü ildə[3] Sultan Əhməd Əmir Qara Yusiflə döyüşdü və yenilərək bir neçə oğlu ilə bir yerdə əsir düşdü. Türkman əmirinin əmri ilə öldürüldü. Qara Yusif  bütün İraqi-Ərəbə və Azərabadəgana yiyələndi. Şirvanşahı tutdu[4]. O, malını qoyub Şirvana getdi. Səkkiz yüz on beşinci ildə[5] Qara Yusif Gürcüstanı tutdu, Küstəndil padşahı darmadağın etdi və bütün qohumlarını öldürdü.

Səkkiz yüz iyirmi üçüncü ildə[6] İraqi-Əcəmə vardı. Qəzvini, Tarəmi, Sultaniyyəni və Savəni azad etdi. Həmin il böyük padşah Şahrux ibn Teymur iki yüz min mahir süvari ilə Qara Yusif-

---

[1] Kutval – qalabəyi.
[2] Miladi təqvimilə 1406/7
[3] Miladi təqvimilə 1410/11
[4] Şirvanşah Sultan İbrahim 1200 İraq tüməni fidyə verib azad oldu.
[5] Miladi təqvimilə 1412/13. Əlyazmada səhvən “üç yüz on beşinci” yazılmışdır.
[6] Miladi təqvimilə 1420

lə vuruşmaqdan ötrü özünü Sultaniyyəyə çatdırdı. Rəqibin igidliyinə və şücaətinə yaxşı bələd olan padşah belə böyük ordu ilə döyüşməkdən çəkinirdi. Qara Yusif Ucanda idi. Zahirdə səbəbi bilinmədən keçindi. Ordusu elə çaşmışdı ki, cəsədi xeymədə qaldı. Qiymətli daşı oğurlamaq üçün qulağını kəsmişdilər. O da on il padşah oldu. Ondan sonra oğlu

**Əmir İsgəndər**

Təbrizdə padşahlığı əlinə aldı və türk padşah Şahrux Bahadırla dəfələrlə döyüşdü. Kürdüstan hakimi İzzəddin Kürdü və Şəmsəddin Əxlatini öldürdü. Bu həmin Şəmsəddin idi ki, Qara Yusif onun dəstəyi ilə yüksəlmişdi. Səkkiz yüz otuzuncu ildə[1] Sultan Əhməd onu yıxıb öldürdü. Şirvanla Muğanı elə qarət etmişdi ki, orada uzun illər bir ocaq belə yanmazdı. Səkkiz yüz qırxıncı ildə[2] Qubad adlı oğlu onu öldürdü. Sonra

**Əmir Cahanşah**

Şahruxun köməyi ilə Təbrizdə padşahlığa gəldi. Farsı, İraqı və Kirmanı öz məmləkətinə qatdı və qüdrətli, böyük və məşhur hökmdar oldu. Səkkiz yüz altmış ikinci ildə[3] Təbəristanla Cürcanı fəth edib üzünü Xorasanın paytaxtına çevirəndə eşitdi ki, oğlu Həsən Əli Təbrizdə üsyan qaldırıb. Bundan sonra Teymurilərlə hərb atəşinin üstünə sülh suyunu töküb Təbrizə gəldi, üsyançılara layiqincə cavab verdi və əmin-amanlıq içində yaşadı. Səkkiz yüz yetmişinci ildə[4] Ağqoyunlu Türkman Həsən bəyi[5] yıxmaq üçün kəmər bağladı. Bu Həsən bəy çox güclü düşmən idi. Ona yaxınlaşanda üzrxahlıq etdi. Cahanşah məğrurcasına qəbul etmədi. İsti günlər idi və padşah öz çadırında oturmuşdu. Birdən Həsənbəy min nəfər yaraqlı-yasaqlı süvari ilə gəlib Ca-

[1] Miladi təqvimilə 1426/27
[2] Miladi təqvimilə 1436/37
[3] Miladi təqvimilə 1457/58
[4] Miladi təqvimilə 1465/66
[5] Yəni Uzun Həsəni

hanşahı çağırdılar. Geyinmək üçün silah götürüb bir dizliyi hələ bağlamamış o şirovlayanlardan biri gəlib onun və bir oğlunun başını kəsdi. Cəsədini Təbrizə apardılar və Müzəffəriyyədə torpağa tapşırdılar. Tünd xasiyyətli və günah işlərə meyilli bir padşah olmuşdu. Ondan sonra oğlu

### Hüseynəli şah

Təbrizdə hakim oldu. Atasının qanının qisasını almaq üçün yüz min silahlı süvarini muzdla tutdu. Türküstan padşahı Əbu Səid Teymurini təhrik etdi. Azərbaycana gəldi. Ancaq heç faydası olmadı, çünki Qaraqoyunluların padşahlıq vaxtı keçmişdi. Türk padşahı asanlıqla öldürüldü və məmləkətin var-dövləti Həsənbəyin əlinə keçdi.

## Ağqoyunlu Türkman hökmdarları

Bu xoşbəxt tayfa Əhli-beytin tərəfdarı olmuşdur. Birinci padşah Əbunnəsr

### Həsən padşah

ibn Əmir Əli bin Osman bin Qutluq bəy bin Hacı bəy Türkman Ağqoyunludur. Azərbaycan, Arran, Muğan, İraqeyn, Fars və Kirman məmləkətləri onun əlinin altında idi. Tədbirli və ədalətli padşah olmuşdu. Bacısını Sultan Cüneydə, qızını isə Sultan Heydər Səfəviyə verdi. Bununla da onun hörməti artdı. Səkkiz yüz səksən ikinci ildə[1] gözlərini bu dünyaya əbədi yumanadək böyük təmtəraqla hökmdarlıq etdi. Bu nəsil ... [anlaşılmır] Ondan sonra oğlu

### Sultan Xəlil

Təbrizə hakim oldu. Dühasızın biri idi və gördüyü işləri də düz deyildi. Türkman sərdarları Diyarbəkirin valisi olmuş qardaşı

[1] Miladi təqvimilə 1477

Yaquba tərəf baxmağa başladılar. Nəticədə iki qardaş arasındakı məsələ qılınc gücünə həll olundu. Diyarbəkirdə vuruşdular. Döyüşdə Sultan Xəlil öldürüldü.

## Sultan Yaqub

təntənəli surətdə Təbrizə daxil olub məmləkət taxtına əyləşdi. Sultan Xəlilin padşahlığı altı ay çəkdi. Yaqub əvvəldən öz ədalətini və dindarlığını nümayiş etdirdi. Xeyirxah əməlləri ilə məmləkəti abadlaşdırdı[1]. Sonra dəyişib Ali-Əli ilə düşmən oldu. Şirvanşahın ordusunu köməyə çağırıb Sultan Heydər Səfəvini şəhadətə yetirdilər. Onun oğulları İsmayılı və İbrahimi tutub Farsda zindana atdılar. On üçillik hökmranlıqdan sonra səkkiz yüz doxsan altıncı ildə[2] dünyasını dəyişdi. Ondan sonra oğlu

## Baysunqur

atasının yerinə padşah oldu. Bir dəstə alçaq adam Məsih bin Həsən bəyin padşah olmağını istədi. Baysunqur Qarabağda onunla vuruşdu. Məsihlə yoldaşları öldürüldülər. Baysunqur Təbrizə gəldi. Həsən bəyin başqa oğlu Uğuryu[3] Məhəmməd Məsihə kömək etmək üçün ordu topladı. Amansız döyüş baş verdi. Uğuryu əzildi və tutulub öldürüldü. Bu vaxt Rüstəm bin Maqsud bin Həsən bəy həbsdən azadlığa çıxdı. ... (?) Lakin Sultan Yaqubun əmirləri tərəfindən məğlub oldu. O, Şirvanşahın kürəkəni olduğuna görə Şirvana getdi. Şirvanşah ona ordu verdi. Baysunqur üzünü Təbrizə qoydu. Rüstəm bəyin fikri belə oldu ki, Sultan Heydərin oğullarını azadlığa buraxıb Sultan Əli Mirzəni Baysunqurla döyüşməyə göndərsin. Baysunqur davaya girişməyib Şirvana qaçdı. O biri dəfə yaraqlı-yasaqlı ordu yığıb Azərabadəgana tərəf gəldi. Sultan Əli Mirzə və Rüstəm onunla

---

[1] Sultan Yaqub 1483-cü ildə Təbrizin Sahibabad bağında Həşt Behişt qəsrini bina etmişdi.
[2] Miladi təqvimilə 1490
[3] Yəni Uğurlu

vuruşdular. Baysunqur döyüşdə qətlə yetirildi. O, bir il səkkiz ay padşah oldu.

**Rüstəm Mirzə**

davasız padşah olan kimi Sərabın yaxınlığında səkkiz yüz doxsan səkkizinci ildə[1] aliməqam seyyid Sultan Əli Mirzəni namərdcəsinə öldürdü. Uğuryu Məhəmmədin oğlu

**Əhməd padşah**ın

əmri ilə doqquz yüz üçüncü ildə[2] ondan qisas aldılar. Bu padşah Yaqubun ölümündən sonra Qarabağdan Ruma getdi. Rum padşahı onu yaxşı qarşıladı, qızını ona verdi və indi də Ali-Osman sultanlarının verdikləri paşa ləqəbinə layiq gördü. Bir az ara verəndən sonra türkmanlardan və rumlulardan bir qoşun yığıb Azərbaycana gəldi. Rüstəm müharibə etdi. Rüstəmin əmirləri xain çıxıb onu tutdular və Əhməd padşaha təhvil verdilər. Onu, deyildiyi kimi, öldürdü.

Padşah Təbrizdə məskən salandan sonra böyük sərdarlar Ayibə sultan və Qasım bəy Türkman qiyam qaldırdılar və Əhməd padşahla döyüşə girdilər. Müharibədə padşah öldürüldü. O, altı ay əmir oldu. Ondan sonra

**Əmir Məhəmməd**

ibn Yusif bin Həsən padşah (o, əmirlərin arasında olan bu fitnə zamanı Yəzdə getmişdi və onun fərmanı İraqda qüvvəyə minmişdi) gəldi. Ayibə sultan döyüş meydanında öldürüldü. Mirzə Məhəmməd Təbrizdə taxtda əyləşdi. Doqquz yüz dördün-

---

[1] Miladi təqvimilə 1492

[2] Miladi təqvimilə 1497

cü ildə[1] Sultan Muradla döyüşdə öldürüldü. O, on bir ay[2] hökm sürdü. Ondan sonra

## Mirzə Əlvənd

ibn Yusif Diyarbəkirdən Təbrizə üz qoydu. O, Əhməd padşahdan sonra o məmləkətə getmişdi. Mirzə Məhəmməd dava etmək iqtidarında deyildi, Sultaniyyəyə getdi. Əlvənd məmləkəti aldı və Sultan Muradla sülh qapısını döydü. Bu çağda Musanın nəslindən olan qüdrətli padşahın günəşi çıxdı[3]. Əlvəndlə vuruşdu[4]. Həmin döyüşdə onlardan iyirmi min nəfəri öldürdülər. Əlvənd Ərzincana getdi. Orada böyük fitnələr törətdi. Sonda Diyarbəkirdə dünyasını dəyişdi. Sonra Farsın, İraqın və Xuzistanın hakimi

## Sultan Murad

yetmiş min nizətutan atlı ilə padşahla döyüşmək üçün kəmər bağladı. Məğlub olub Farsa getdi. Padşah onu təqib etməkdə idi. Orada qərar tapmayıb Xuzistana getdi. Orada da qalmadı, Bağdada vardı. Qorxu onun canından çıxmadı. Əlaəddin padşaha sığınmaq üçün Mərğəşə[5] üz tutdu. Orada da qalmayıb Ruma, Osmanlı Sultan Səlimin sarayına getdi. Sultan onu çox əzizlədi. Hicrətin doqquz yüzüncü ilində[6] İran sərdarı Turmış[7] sultanla Usufənin yaxınlığında döyüşüb öldürüldü.

---

[1] Miladi təqvimilə 1499
[2] Əlyazmada səhvən "on bir il" yazılmışdır.
[3] Birinci Şah İsmayıl Səfəvinin Gilandan Azərbaycana etdiyi yürüşə işarədir.
[4] Şah İsmayıl Səfəvi ilə Əlvənd Mirzənin döyüşü Naxçıvanın Şərurunda baş vermişdi.
[5] Mərğəş – Şamda şəhər olub.
[6] Miladi təqvimilə 1514/15
[7] Əlyazmada səhvən "Qurmış" yazılmışdır.

## Türkman padşahlarından sonra bizim günümüzədək Təbrizə hakim olanlar haqqında

Sultan Muraddan sonra Azərbaycanın və Təbrizin hakimiyyətinə padşahlıq yox, hökmranlıq deyərdilər. Ulu nəsildən olan Səfəvi padşahlarının Təbrizdə həmişə “bəylərbəyi” ləqəbli əmirləri olmuşdur. Əgər onların hamısının adlarını çəksək, kitab çox uzanar, faydası da olmaz. Ona görə burada yalnız ən məşhur olanların və iz buraxanların şərhini veririk.

*Bilmək lazımdır ki,* Səfəvi hökmdarlarının dövründə Azərabadəgan, xüsusilə Təbriz, fitnələrlə çətinliklər yeri olmuşdu, çünki böyük islam padşahları olmuş Ali-Osmanın din başçıları əsassız olaraq İran şahənşahlarının üstünə gəlirdilər və onlara Anadolu və Kiçik Asiya ilə həmsərhədd olan məmləkətin rəhbərləri kimi münasibət göstərməliydilər. Bu çaxnaşmada min minlərlə müsəlmanın qanı axıdıldı və hər iki şahənşahlığın məmləkətlərinin abadlığına zərər yetirildi və islamın inkişafı üçün heç bir xeyri olmadı.

Bu düşmənçilik ondan qaynaqlanırdı ki, Osmanlı şahənşah sünni məzhəbindən, İran şahənşahı isə şiə olmuşdu. Qüdrətli padşah Şah İsmayıl Bahadır xan Təbrizə buyuran kimi öz əcdadlarının dinini ortaya qoydu. Dələduzlar cəfəng şeylər söylədilər. Minbərə çıxıb xalqı başlarına yığaraq həm nüfuz sahibi olmaq, həm də dirhəmlə dinar qazanmaq gününü axtaran din başçıları fürsət tapdılar. Hər iki tərəfdən fitnə-fəsad törədildi. O padşahlığın din başçıları yuxarılara qalxıb başqalarının səhvlərindən danışmağa başladılar və dünyanın sünni olan hissəsinin hər yerində yazdılar və fətva verdilər ki, “şiənin qanı ilə malı haladır”. Onlar bilmədilər ki, belə iş bizim peyğəmbərimizin dininə ziyan və xələl gətirir. Cəhalətin içində batıb bilmədilər ki, bu din təzə deyil. Məgər kitablarda yazılmayıbmı ki, Ali-Buyə[1] bu etiqadda olub və Abbasi xəlifələrin əksəriyyəti açıq-aşkar şiə

[1] IX-X əsrlərdə Cənubi İranda və İraqda hakimiyyətdə olmuş iranəsilli sülalədir.

idi. Seyyid Mürtəza Züssəmaneynin, qardaşı Rəzinin, şeyximiz Müfidin və Şeyxüttaifə Tusinin (Allah onlardan razı olsun!) həlqələri[1] var idi və onlar orada bu məzhəbi öyrədirdilər.Bəziləri adamları çaşdırırdılar ki, iranlılar Rəsulun möhtərəm səhabələrinə və zövcəsinə şər atırlar. Belə əsassız və zərərli işlər ümumi hala çevrilmişdi. Şahənşah harada buna razılıq vermişdi? Düşmən də üzünü göstərdi. İstər-istəməz hər iki tərəfdən kobud sözlər deyildi. Misir xəlifələri də bu ayinin davamçıları idilər və uzun illər məmləkəti əllərində saxlamışdılar. Kiminsə onlara irad tutduğunu eşitmədik. Monqol padşahları Mahmud Qazan, Ulqaytu Sultan və Sultan Əbu Səid də bu məzhəbin yolu ilə gedirdilər.

Təəssüf ki, Osmanlı padşahların qonşuların əməllərindən xəbərləri olmamışdı. Firəng məmləkətlərini havayı əldən verdilər və öz həmməzhəblərinin üstünə düşdülər. Mən onu dəqiq bilirəm ki, bu saat Rus və Avstriya millətləri Osmanlı şahənşahlardan yaman yanıqlıdırlar, çünki rus ordusunu dəfələrlə darmadağın və Nəmsənin[2] paytaxtı Vyana şəhərini tarac etmişdilər. Biz nə bilək, bəlkə də həmin qazılarla şeyxlər bu çıxışlarına görə firənglərdən rüşvət almışdılar ki, daha da çox danışsınlar. Bu da əlamətdar haldır ki, son Rus-Rum davasında Qəstəntiniyyə[3] şəhərinin əksər şeyxləri rus dövlətindən gizli şəkildə məvacib alırdılar və həmçinin ordu sərdarlarının və əmirlərinin çoxusu boş yerə qızıl alıb müharibəyə səhlənkarlıqla yanaşırdılar və nəticədə düşmən qalib gəlmişdi.

Mənim bu sözlərim heç də boş və əsassız deyil, sənədlərdə görmüşəm. Sultanın hər tərəfə ordu başçılarına göndərdiyi teleqramlar bunu isbat edir. Rumlular hələ də qəflət yuxusunda onların böyük məmləkətlərinin bu gün başqaların əlində olduğunu görürlər. Gizli deyil ki, o tərəflərin ən abad yerləri Ali-Osmanın əlində olmuşdu: Qrım,[4] Tatar, Yunan, Misir, Tunis,

---

[1] Həlqə – (burada) elm və təlim dairəsi.
[2] Nəmsə – Avstriya.
[3] Qəstəntiniyyə – İstanbul şəhəri.
[4] Qrım – Krım.

Qara dəniz və onun bütün sahilləri, Ağ dəniz[1] və onun Qıbrıs[2] kimi adaları. Türküstan və Əfqan torpağı kimi digər yerlər də islam xəlifələrinə məxsus idi, ancaq bu gün avropalıların əli altındadır. İranlıların qanı tökülməsəydi, bu uğursuzluqlar da baş verməzdi.

Məgər bu köhnə kin hələ də yerində qalırmı ki, son iki-üç ildə kürdlərdən Übeydüllah adlı bir cahil şeyx[3] Urmiyanın sərhəddində Zərəqdə və Salusda özünü irşad təriqətinin tərəfdarı kimi qələmə verib ətrafında bir dəstə qovğatələb toplaya bilmişdi. Bir az güc yığan kimi pərdəni üzündən çəkib iranlıları mülhid və kafir adlandırdı. Xalqa Rəsulun xəlifəsi olmaq istədiyini bəyan etdi. Bir oğlunu Mükri vilayətinə göndərdi, özü isə Urmiya şəhərində əyləşdi və Əbdülqadir[4] otuz min atlı və piyada ilə Savəcbulaqdan Miyandüaba gəlib namərdcəsinə minlərcə müsəlman qadını və kişini qətlə yetirdi və o geniş əraziyə od salıb malını apardı. Osmanlı dövləti uzaqdan tamaşa edirdi. Şahənşah o dövlətin başbilənlərinin belə səhlənkarlığını görüb bir neçə silahlı dəstəyə o nadanı kənarlaşdırmaq əmrini verdi.

Biz iranlıların xasiyyəti və dünyagörüşü elədir ki, işə çox ağır yanaşarıq, yerimizdən tez tərpənmərik və heç vaxt qabağa keçmərik. Bu elə padşahlarımızın hərəkətlərindən də bilinir. Düşmən güclü olsa da, qorxuya düşmərik, çünki qələbəni verən Allahdır. Bununla belə Ali-Osman iranlılarla dava etməkdən xeyir görməmişdilər və heç bir dinin rəva bilmədiyi işlərə əl atmışdılar. Şeyxlər fətva verdilər və sultanlar şiələrin küfrü haqqında Türküstana və Mavəraənnəhrə məktublar yazdılar. Bunun təsiri indinin özündə də göz qabağındadır. Türküstandakı şəhərlərin bazarlarında min minlərcə müsəlman qadın və kişi qul kimi satılır və bu xalqın nahaq qanı axıdılır.

---

[1] Ağ dəniz – Aralıq dənizi.

[2] Qıbrıs – Kipr.

[3] Şeyx Übeydüllahın üsyanı haqqında kitabın sonrakı fəsillərindən birində bəhs olunur.

[4] Übeydüllahın oğlu.

Bu kitabda hər şeydən öz yerində məlumat veriləcək. İndi isə sözümüzün üstünə gələk: Təbrizin tarixi. Mən o fikirdəyəm və bəllidir ki, bu gözəl şəhər yadellilərin caynağından qurtulub İranda əmin-amanlıq yaratdı. Bu şəhərin tayı-bərabəri olmayan hakimləri barədə qısa və mənalı danışaq.

## Osmanlıların Təbrizə ilk hücumu

Təbrizlilərə ilk zərbə Ali-Osmanın padşahı Sultan Səlimin İrana hücumundan gəldi. Belə ki, şirürəkli padşah Şah İsmayıl Bahadır xan Azərbaycan məmləkətlərini zəbt buyurandan sonra sultan bir elçi göndərdi. Məktubda yazılmışdı ki, "Bu tərəfə bağlı olan bəzi məmləkətlərdən ordunu çəkib Ali-Osman dövlətinin hökumətinə təhvil ver. Əks halda döyüş yerini de"[1]. Cahan padşahı da qəzəblənib kobud cavab verdi. Sultan iki yüz minlik ordunu və böyük topxananı yığıb İran padşahı ilə vuruşmaq üçün yola düşdü. Padşah Həmədanda idi. Bu xəbəri eşidəndə sultanın cürət edib bu addımı ata bildiyinə inanmadı. Rum padşahı müharibə elan edəndən sonra ətrafındakı iyirmi min süvari ilə tələm-tələsik üzünü Azərabadəgana qoydu. İran qoşunlarının hamısı o məqamda öz vətənlərində idilər. Təbrizə yetişəndən sonra bir gün dincəlib o böyük ordunun qarşısını almaqdan ötrü özünü Çaldıran[2] məntəqəsinə yetirdi və kiçik yorğun dəstə ilə döyüşə çıxdı.

Dəhşətli bir gün oldu. İran süvariləri igidlik göstərdilər. Padşahın özü döyüşə elə atıldı ki, Rüstəmin və İsfəndiyarın adı yaddan çıxdı. Osmanlı ordusunda ən qorxulu və şücaətdə özünə rəqib tanımayan bir əsgər döyüş meydanına çıxıb Şahı adı ilə vuruşmağa çağırdı[3]. Cahan şahı o kişinin üstünə gəlib qılıncla elə zərbə endirdi ki, onun bədəni kəmərinə qədər iki yerə bölün-

---

[1] Sultan Səlim Çaldıran döyüşü ərəfəsində Şah İsmayıla söyüş və təhqirlə dolu ən azı dörd məktub ünvanlamışdır.
[2] Çaldıran çölü Xoy şəhərinin şimal-qərbində və Təbrizdən 120 km aralıdır. Sahəsi təqribən 750 $km^2$ə bərabərdir.
[3] Onun adı Əli bəy Məğluç oğlu idi.

dü. Ardınca üç yüz nəfər mahir atlı ilə o qoşunun topxanasına həmlə etdi. Oraya çatıb qılıncını topların bağlandıqları zəncirə vurdu. O vaxtlar adət belə idi. Zəncir qırıldı və yol açıldı. Süvarilər yetişdilər. Şahın köməyi ilə topların arxasında duran üç yüz nəfər osmanlı topçunun başını bədənindən ayırdılar.

Osmanlı sultanı bir təpədə dayanmışdı. Həmin yüksəklik dövrəsinə toplarla və döyüşçülərlə əhatə olunmuşdu. Vəziyyəti belə görəndə əmr verdi ki, on iki min yeni çəri piyadası birdən tüfəngdən atəş açsınlar. İran döyüşçülərinin əksəriyyəti şəhadətə yetişdi, şah əlacsız qalıb geri döndü. "Tarixi-cəhanara"da[1] görmüşəm ki, qorxunun nə olduğunu bilməyən şah döyüşə ov qırğısı ilə çıxdı. Bu çox qəribə və ehtiyatsız hərəkət idi.

Bu qələbədən sonra sultan Təbrizə gəldi. Çox yeri xaraba qoydu. İran padşahının çevikliyini və kişiliyini bilərək tezliklə onun üzərinə gələcəyini anlayırdı. Orada qalmadı, Qəstəntiniyyəyə getdi və Azərbaycan düşmənlərdən təmizləndi.

## O biri dəfə

Hicrətin doqquz yüz qırxıncı ilində[2] Birinci Şah Təhmasib özbək qoşunlarının hücumunu dəf etmək üçün Xorasana getdi. Ən hörmətli Osmanlı padşahlarından biri olmuş [Qanuni] Sultan Süleyman Anadolu şeyxülislamının təhriki ilə İrana ordu çəkdi. Sədri-ə'zəm* İbrahim paşa səksən minlik ordu ilə Təbrizin həndəvərinə yetişdi. Şah Heratda idi, eşitdi. Özünü ləşgəri ilə bir həmləyə Reyin Kəbud Günbədinə çatdırdı. Sərdar şaha xəbər çatdırdı. Sultan Süleyman ləşgərlərini yığıb vəzirlə birləşdi. Qızılbaşlar ordusu təcili surətdə gəldilər və davaya hazırlaşmaq üçün ayrı-ayrı yerlərə keçdilər. Şahın yanındakılarının sayı yeddi min nəfər nizamsız atlıdan artıq olmazdı. Şah Qəzvinə gəldi. Hüseyn xan Şamlu, Əlqas Mirzə və Bəhram Mirzə Osmanlı sipahının qarşısına özlərinin kiçik sipahı ilə çıxdılar.

[1] Bu əsər Molla Əbu Bəkr Tehraniyə mənsubdur.
[2] Miladi təqvimilə 1533/34

Rəzmənin sahilində qəhrəmancasına vuruşdular. Məğlub olub Şah Təhmasibə qoşuldular. Sultan İraqı almaq və alicənab soylu şahənşahın işini bitirmək əzmi ilə Sultaniyyəyə yetişdi. Orada Allahın fərmanı ilə qeyb ordusu peyda oldu. Şərq küləyi sərdara, sultana və orduya elə qulaqburması verdi ki, başları ayaqlarından xəbərsiz Təbrizə yönəldilər. Yolu qar kəsmişdi. Şəhri-Zurdan Mosula keçərək İraqi-Ərəbə getdilər. Burada şair çox gözəl və yerində deyib və həmin şeir budur:

Sultaniyyənin o üzündəki çəmənə tərəf getdim,
Qüslsüz-kəfənsiz üç min ölü gördüm.
Dedim: – Bütün bu osmanlıları kim öldürüb?
Miyanədən səhər yeli qalxıb dedi: – Mən.

Burada söz həmin Miyanə məntəqəsindən gedir ki, külək o tərəfdən əsib beş min nəfərdən artıq osmanlını öldürdü. Şah Təhmasib Əllamə Sultan Zülqədəri Təbrizə göndərib özü də onun arxasınca gəldi. Osmanlı hökmdarı Vana pənah apardı[1].

## Üçüncü dəfə

Hicrətin doqquz yüz [səksən] dördüncü ilində[2] Sultan Həmzə Mirzənin cəhaləti və səhlənkarlığı nəticəsində Osmanlı sərdarı Osman paşa Təbrizə gəldi. Nə qədər ona başa salmağa çalışdılar ki, "Bu saat Osmanlı ordusu gəlir", faydası olmadı. Bir onda oyandı ki, iş işdən keçmişdi. Ordunun hazır olmağına əmr verdi. İtaətsizlik göstərdilər. Təbrizlilər küçəbəndlik etdilər[3]. Ancaq camaatın hökumət ordusuna qarşı vuruşmağa gücü haradandır? Çar-naçar məğlub və qarət oldular. Təbrizin əyanları Osman pa-

[1] Sultan Süleyman Qanuni dörd dəfə İrana işğalçı yürüşlər təşkil etmişdi, bir dəfə hətta Süleymaniyyə şəhərinə qədər irəliləmişdi, lakin heç bir nəticə hasil edə bilməmişdi. Sonda 1555-ci ildə Səfəvilərlə Osmanlılar arasında Amasiya sülh müqaviləsi bağlandı.
[2] Miladi təqvimilə 1576/77
[3] Yəni barrikadalar qurdular

şanın ətrafında yığıldılar. Sərdar aman verdi. Osman paşa Təbriz camaatının igidliyini görəndən sonra rəhimsizliyi bir kənara qoydu. Təbrizlilər gizlicə Osmanlı döyüşçülərini qırırdılar, bəziləri isə ailəsini və malını götürüb köçdülər.

Sərdar Çərəndabda çox möhkəm qala tikdirdi. İran ordusu Sürxab dağının başında idi və dünya veclərinə deyildi. Qalanın inşası bitəndən sonra axta Cəfər paşanı kutval[1] qoydu. O da təbrizlilər tərəfindən öldürülüb cəsədləri zibilliyə və ya çirkab quyularına atılmış osmanlıların qisasını almaq üçün qətliam hökmünü verdi. Bir gün o böyük ordu bu şəhərin sakinlərini qılıncdan keçirtdi və Təbrizin başından tüstü qalxdı. Əllərinə keçənləri aparırdılar və qarşılarına çıxanları öldürürdülər. Sonra bəzilərin şəfaəti ilə aman verdilər. Özlərini qılıncdan qurtara bilənlər ayrı-ayrı yerlərə səpələndilər. Osmanlılar basdırıla bilən malı axtararaq evlərin bünövrəsini qazdılar. Bu şəhər viran oldu.

Zülm həddini aşanda intiqamın vaxtı gələr. Qızılbaşlar dağdan Nəhənd dərəsinə endilər. Fəhusəminc kəndindən olan qorçıbaşı irəli keçdi. Osmanlı sərdarı öz qəhrəmanlığı ilə məşhurlaşmış Çağaloğlunu bir dəstə böyük paşalarla birlikdə İran ordusuna qarşı döyüşə göndərdi. Qorçıbaşının qoşunundan olan dəmirzirehli süvarilər şirlər kimi qəflətən peyda olub bir həmləyə iki min osmanlı atlısını yerə yıxdılar. Çağaloğlunun bir də hücuma keçməyə taqəti qalmadı. Adıçəkilən qalanın içinə qaçdılar. Osmanlılar yardım göndərdilər. Qorçıbaşı qərara gəlməli idi. İnadkarlığı kənara qoyub həmin dərəyə qayıtdı. Səhər öldürülənlərin başlarını padşahın ordugahına apardı və mükafatını aldı. Qızılbaşların bu qorxmazlığını görən osmanlılar öz işlərinin hesabını bildilər.

Dörd gün keçdi və Sultan Həmzə Mirzə iki min süvarisi ilə döyüşə yollandı. Osmanlı sərdar Diyarbəkir bəylərbəyi Murad paşanı Anadolu ləşgəri ilə onun qarşısına göndərdi. Əvvəl Osmanlı qoşunu qələbə çaldı. Sultan Həmzə Mirzə cavanlıq qüruru və özünəməxsus şücaəti ilə meydana atıldı. Əmirlər nə qədər

---

[1] Kutval – qalabəyi.

mane olsalar da, qəbul etmədi. Amansız döyüş başladı və gecəyədək davam etdi. Osmanlı sərdarları döyüş meydanına məşəllər gətirib möhkəm dayanmışdılar. Sultan Həmzə Mirzə Şahrux xanı Səcavənd dəstəsi və Qaracadağ ləşgəri ilə sol cinahdan ayırdı ki, osmanlının sağ cinahına hücum etsin. Osmanlıların sağ cinahı çayın arxasında yerləşmişdi. Qızılbaş ləşgəri hücuma keçdi. Sol cinaha çatan kimi birdən Osmanlı qoşununun arxasında peyda oldular. Təbil və kərna səslərinin arxadan gəldiyini eşidən osmanlılar pərişan oldular. Qızılbaşlar atın cilovunu boşaldıb irəliyə sıçradılar. Osmanlıların mərkəzində nizam pozuldu. Osmanlı paşalar işi qaydaya sala bilməyib darmadağın oldular. İran atlıları Çərəndab qalasının kənarınadək çapdılar və orada sərdarın ordugahındakı çadırdan bir neçə nəfəri tutdular. Bu mərəkədə Mehtər paşa, Murad paşa və Yusif Ağa ələ keçdilər.

O biri gün başları və əsirləri padşah Sultan Məhəmmədin[1] hüzuruna apardılar. Sərdar ordudan qırx min nəfəri qalanın keşiyində qoydu ki, hərbə girişməyib yalnız qalanın [tikintisinin] tamamlanmasına yardımçı olsunlar. Bir neçə gün qızılbaşlar hücum etdilər, ancaq osmanlılardan heç kəs döyüşə girişmədi. Onda bir dəstə igid İran atlısı osmanlıların ordugahına basqın edib çadırın içindən beş nəfəri əsir götürdülər və dünyaya nəzarət edənin hüzuruna apardılar. Onlardan döyüşməkdən yayınmalarının səbəbini soruşdular. Bir faydalı cavab vermədilər. Gecə osmanlıların ordugahında çoxlu alov gördülər. Dünya görmüş adamlar bunun köçün əlaməti olduğunu dedilər. Bir təbrizli o yandan gəlib dedi: “Sərdar ölüb, Çağaloğlu sərdar olub və qayıtmağa əmr verib. Cəfər paşa qalabəyi yerində qalacaq”. İran ordusu Təsuca qədər irəlilədi. İş düzəlmədi. Onda gəlib qalanı mühasirəyə aldılar. Ələ ala bilmədilər. Həmzə Mirzə öldürüldü, ordu səpələndi və Təbriz osmanlıların əlində qaldı. Belə yazırlar ki, hökmdarın əmri ilə bir həftə ərzində öldürülənlərin cəsədlərini Təbrizin məhəllələrindən bayıra çıxa-

---

[1] Sultan Məhəmməd Xudabəndə 1577-ci ildə taxta əyləşdi və 11 ildən sonra oğlu Birinci Şah Abbasın xeyrinə hakimiyyətdən uzaqlaşdı.

rıb torpağa tapşırdılar və şəhərdə bircə salamat ev belə qalmamışdı.

Böyük Şah Abbas hicrətin min on ikinci ilinin rəbiüssaninin yeddisində[1] qəsb olunmuş Azərbaycanı qaytarmaq əzmilə İsfahandan Azərbaycan istiqamətində hərəkətə keçdi. Sərdarların padşahın məqsədindən xəbərləri olmamışdı. Ortaya Mazandaran səfəri söhbəti atılmışdı. Qəzvində əmirlər bildilər. Bir həmləyə İranın şirşəkilli bayrağı Fəhusəfinc [Fəhusəminc?] kəndində peyda oldu. Təbrizlilər qızılbaş nişanını görən kimi osmanlıları qırmağa başladılar. Onlar qalada sığındılar. Padşah şəhərin xarabalığa dönməsini görüncə çox məyus oldu.

O vaxt Əli paşa Aribəy qalasını mühasirəyə almağa getmişdi. Eşitdi, padşahla müharibə etməyi çox asan iş sandı, çünki osmanlılar iranlıların döyüşmək əzmini bu iyirmi ildə tamam unutmuşdular. Böyük qürurla gəldi. Şəhərin iki fərsəngliyinə* çatanda padşah Şənbi-Qazandan qalxdı. O biri gün Ərdəbil hakimi Zülfüqar xan beş min qaniçən atlısı ilə şahın çağırışına səs verib Təbrizə gəldi. Şah da onun köməyinə yetişdi. Döyüşməyə başladılar. Əli paşa məğlub oldu və aybəniz oğlu ilə birlikdə əsir düşdü.[2] Döyüş meydanında qəhrəmanlıq göstərmiş Mahmud paşanın canı bir nizə zərbəsindən sonra bədənindən ayrıldı. Həmin gün Əmirgunə xan Qacar Osmanlı ordusunun qəlbini yardı, onların böyük bayraqlarını yerindən qopartdı və “Ərcümənd xan” ləqəbini aldı. O biri gün Çərəndab qalası fəth edildi və dağıdıldı. Padşah bütün Azərbaycanı, İrəvanı[3] və Gürcüstanı xilas etdi.

Həmin dövrdə İran ordusu Osmanlı qoşunlarını darmadağın edib böyük fəthlər həyata keçirmişdi. Onda baş vəzir Çağaloğlu

---

[1] Miladi təqvimilə 13 sentyabr 1603

[2] Əli paşanı Şah Abbasın hüzuruna gətirəndə padşah onun igidliyinə hörmət əlaməti olaraq Əli paşanın Təbrizdəki mal-dövlətini özünə təhvil verməyi və oğlunu döyüş meydanında tapıb atasının yanına gətirməyi əmr edir. Şahın belə alicənablığını görən Əli paşa onun xidmətinə keçir və şiə məzhəbini seçir. Onun Məşhəddə ölümündən sonra Şah Abbas ona məxsus olan var-dövləti Osmanlı hökumətinin vasitəsilə övladlarına çatdırmağa göstəriş vermişdi.

[3] İrəvan qalası 1604-cü ilin mayın 28-də fəth edildi.

böyük ordu ilə üzünü Azərbaycana tərəf tutdu. Padşah Mərənd dərəsində, Sufiyan kəndinin bir fərsəngliyində* idi.

Qarovulçular xəbər gətirdilər ki, “Yüz minlik Osmanlı ordusunu gördük. Döyüş sursatı da çoxdur”. Şahənşah dağın başına çıxıb o ordunu dəyərləndirdi. Qarovulçuların dedikləri həqiqətə yaxın idi[1]. Sərdar bilikli adam olmuşdu və İran padşahının şücaətindən qorxurdu. Təbrizə sarı ehtiyatla irəliləyərək Sufiyana çatdı. Şirürəkli şah döyüşmək qərarına gəldi. Farsın bəylərbəyi Allahverdi xana orduya rəhbərlik etməyi tapşırdı. Kirmanın hakimi Gənc Əli xan və Zülfüqar xan çarxçı Rumlu sipahqolun[2] başçıları oldular. Əmirgunə xan Qacara sağ cinah həvalə olundu. Məşhur sərdarlar hərəkətə keçdilər. Allahverdi xan Sufiyanın yaxınlığında yerləşdi. Dünyanın padşahı davaya nəzarət etmək üçün bir dəstə əjdəhaya bənzər atlı ilə qalaya qalxdı.

Məlumatlı adamlardan eşitmişəm ki, o gün padşahın özü başdan ayağa qədər dəmirlə poladın içində idi. Əmirgunə xan Qacar sərdar Allahverdi xana dedi: ”Ay sipəhsalar! Bu gün padşah yaraqlanıb və yaxın gəlib. Aydındır ki, əgər bir zəiflik görsə, özü həmlə edəcək. Əgər ona bir xəsarət yetsə, biz onun arvadlarına nə deyərik?” Sərdar dedi: “Allah qoysa, siz əmirlər qoymazsınız ki, padşah yerindən tərpənsin və saçına toz belə qonsun”.[3]

Həmin gün hicrətin min on dördüncü ilinin səfər ayının iyirmi dördü, çərşənbə axşamı idi.[4]

---

[1] Şah Abbas qızılbaşları ruhlandırmaq üçün şəxsən özü ordunun başında durdu. O, eyni vaxtda düşmən döyüşçülərinin diqqətini yayındırmaq və işğalçı ordunu zəiflətmək məqsədilə oğruların və quldurların köməyindən də istifadə etdi. Belə ki, padşah məşhur yolkəsən Bayram Təkələdən osmanlılara basqın etməyi, onların silah-sursatını əllərindən almağı istəmişdi.

[2] Sipahqol – sipahın (ordunun) qəlb, mərkəz hissəsi.

[3] Bu döyüşdə Şah Abbas osmanlı ordusunun üzərində qəti qələbə çaldı. Çağaloğlu İrandan qaçıb əvvəl Vana, oradan Diyarbəkirə və nəhayət Ərzuruma getdi. Çox keçmədi ki, həmin şəhərdə intihar etdi. Bax: “Səfərnameyi-Antonio de Quvea”– “Antonio de Quveanın (ispan səyyahı) səfərnaməsi” – s. 337.

[4] Miladi təqvimilə 11 iyul 1605

## Hüvəllahü-təala

### Ya əlahəzrət!

Canını qurban verən bəndənin Təbriz darüssəltənəsindən darülxilafətə getdiyi yolda Mükri torpağında düzgörən gözü ilə gördüyü və həqiqəteşidən qulağı ilə eşitdiyi bu təəssüf doğuran hadisələri müxtəsər şəkildə qeydə alaraq cəsarət toplayıb müqəddəs şəhriyar həzrətlərinin (canım ona fəda olsun!) ədalətli hüzuruna təqdim buyurmağının səbəbi odur ki, əlahəzrət padşahın (canımız ona fəda olsun!) hökmdarlara xas olan pak niyyəti və padşahlara məxsus olan gözəl məqsədi ilə ali hümməti həmişə məmləkətin tərəqqisi ilə mədəniləşməsinə və bütün rəiyyətlərin asayişi ilə azadlığına yönəldilməsi şübhəsiz məlumdur. Lakin sultanların alicənab hüzurunda və xaqanların xilafətdəstgah qarşısında qərəzlilik üçün yer olmayan həqiqət ilə sədaqət mətləbləri əksər hallarda çətinliklərlə və maneələrlə üz-üzə gələrlər. Buna görə canını qurban verən bəndə imkan dairəsində düzlüyü əlinə alaraq sidqi-ürəklə söz söyləməyi özünün xidmətkarlıq və xeyirxahlıq borcu bilib bu müxtəsər sərgüzəştlərin məmləkət işinin nizama salınması üçün faydalı olacağı ümidi ilə müqəddəs şəhriyar həzrətlərinin (canımız ona fəda olsun!) pak rəyinə təqdim etmişdir.

## Şeyx Übeydüllahın meydana çıxması və tarixə “kürdlərin qiyamı” adı ilə düşmüş 1297-ci il üsyanı

Həmzəağa Osmanlı torpağından qacıb qayıdandan sonra özünün İran dövlətinə tabe olan elinə qovuşdu. Görünür ki, iki il məhbus həyatı və qürbət mülayimsizliyiərzində aldığı zərbələr onun zehninə və insaniyyətinə müəyyən təsir göstərmişdi və o, özünün vəhşilik xəyallarından əl çəkib dövlətə xidmət etməyi və bu yolla güzəran keçirməyi qərara aldı. Lakin Savəcbulağın hakimiyyəti şahzadə Keşikçibaşıya həvalə ediləndən sonra onun halı yenidən dəyişdi. Səbəbi də o oldu ki, həmişə təkəbbürlə qüruru başından aşan şahzadə bir neçə gün ləyaqətlə davranaraq xalqı razı sala bildi, ancaq onun belə ağıllı rəftarı o qədər də uzun çəkmədi və o, qısa müddətdən sonra köhnə vərdişlərini yada saldı, yəni bütün bədbəxtliklərin və qanunsuzluqların mənbəyi olan rüşvətxorluğa və şəxsi mənafeyi hər şeydən üstün tutmağa yenidən əl atdı.

Hər birisi keçənilki taxıldan gəlir əldə edəndən sonra özünü qüdrət sahibi saymağa başlamış Mükri ağalarının halı onu tamahkar düşüncələrə sürüklədi. O, əvvəl Feyzüllah bəyi ittiham edərək əl-qolunu zəncirlədi və cərimə adı ilə ondan min beş yüz tümən aldı. Bu həmin Feyzüllah bəy idi ki, dəfələrlə təqsirləndirilərək belə bəlalara düçar olmuşdu. Düzdür, var-dövlət bir şəxsin min cür bəlasına səbəb olur, necə ki Sahibdivanın dövründə onu günahlandırıb başına vəhşiyanə işgəncələr gətirdilər və dörd min tümənə yaxın pulunu əlindən aldılar.

Ondan sonra bir dəfə Qadirağanın oğlu Minəağanı ki, Mükrinin yolkəsənlərindən və cinayətkarlarından olmuşdu, həbs etdi. Hərçənd onun təqsiri onu siyasət etməyi tələb edirdi ki, bütün aləm rahat nəfəs ala bilsin, min heyif ki, beş yüz tümənlik şirinlik onun gözünü elə bağladı ki, xalqın rahatlığı yaddan çıxdı və onu canavarı qoyunların arasına salan kimi azadlığa buraxdı. Bu vaxt Həmzəağa və Qadirağa şahzadənin xidmətçiləri olaraq

vilayətin daxili işlərində və vergilərin yığılmasında yaxından iştirak edirdilər. Şahzadə Qadirağanı işlər müdiri qoyub vergi məsələsini onun öhdəsinə buraxmaq istəyirdi. Lakin bu məsələ ağaların rəyi ilə üst-üstə düşmədiyinə görə həmin iş həmişə bəyzadə ilə ağaların etirazına bais olurdu. O biri tərəfdən Qadirağa da vergi yığma işində bəzi məqamların onun üçün sərfəli olmadığını görüb özü geri çəkildi. Buna görə şahzadə işlərini Məhəmməd bəy vəkilürrüaya ilə görməyə üstünlük verdi. Qadirağa özünə etibar edilmədiyini görərək incidi və şahzadədən bir neçə günlük rüxsət istəyib öz kəndinə getdi. Onun ardınca Həmzəağa da icazə istədi, lakin şahzadə ona rüxsət vermədi və hətta dedi ki, əgər Qadirağa müəyyən olunmuş tarixdə qayıtmasa, onun barəsində lazımi tənbeh tədbiri görəcək. Həmzəağa şahzadənin sözünə qulaq asmayıb kəndinə icazəsiz getdi. Şahzadə mübarək ramazan ayında özünün Təbriz hökumətinə müraciətində onu bir düşmən və üsyançı kimi qələmə vermişdi. Bu əsnada Məlik Qasım Mirzənin oğlu İmamqulu Mirzə bəzi incəliklərə aydınlıq gətirməkdən ötrü şahzadə ilə görüşmək üçün özünə məxsus mülkdən Savəcbulağa gəldi. Onun bu hərəkəti sayəsində şahzadə Həmzəağaya iltifat göstərərək xələt verdi və əvvəlki tənbehini geri götürdü. Bu əhvalatdan sonra bir neçə gün ötdü və şahzadə Qadirağanın hökumətə vergi ödəməyi təxirə salmış qohumlarından birini həbs etdi. Həmzəağa şahzadənin nəzərinə çatdırdı ki, bu şəxs Qadirağanın yaxın adamlarındandır və, əlbəttə, öz vergisini ödəmək işində ona etibar etmək olar. Bunun nəticəsində Həmzəağa işdən uzaqlaşdırıldı. O biri gün bu səbəbdən Həmzəağanın dostlarından olan Əzizağa Fəttahı tutdular.

Bu arada guya Təbriz hökumətindən şahzadəyə Həmzəağanın da tutulması hökmü gəldi. Belə məlum olur ki, Təbriz hökuməti Həmzəağada köhnə tərsliyin yenidən baş qaldırdığını düşünmüşdü. Onun həbs edilməsi üstündə israrlı idilər, halbuki Həmzəağa ilə şahzadə arasında heç bir ixtilaf mövcud deyildi. Bir gün qürub çağı Həmzəağa özünün vergi işlərini həll etmək və Əzizağa Fəttahın məsələsini tamamlamaq niyyəti ilə hökumət

binasına gedir. İran dövlətinin təzkirəsini yazan Mirzə Əbülqasım orada olduğuna görə indi biz onun söylədiklərini artıq-əskiksiz təqdim edirik:

Şahzadənin aşağı otağında bəndə mühərrir, hər işə müdaxilə edən və əksər fəsadların baiskarı olan Mirzə Təqi ilə oturmuşdum. Birdən Həmzəağanın öz qardaşıoğullarından biri, bir nəfər çubuqçu və bir başqa nökərlə otağa daxil olduğunu gördüm. Onunla Mirzə Təqi arasında vergi barədə söhbət başlandı. Mirzə Təqi Həmzəağanın vergi məbləğini min tümən hesablamışdı. Həmzəağa cavabında dedi ki, “Əsas vergi həmişə dörd yüz tümən olub”. Mirzə Təqi dedi: “Əgər belədirsə, onda niyə keçən il Hacı Mahmud xanın hökumətinə min tümən vermişdiniz?” Həmzəağa yenə cavab verdi ki, “Dörd yüz tümən vergi, iki yüz tümən də peşkəş vermişdim. Əgər siz də istəsəniz, sizə də o qədər peşkəş veriləcəkdir, halbuki mən neçə müddət şəhərdə qalıb hökumət işlərinə məşğul idim və səkkiz yüz tümənə yaxın xərcim çıxmışdır”. Mirzə Təqi dedi: “Sən hökumətə nə xidmət göstərmisənki? De. Sizin ki, əlinizin altında min ev var və hər evdən iki tümən alırsınız, o iki min tümənin yarısını şahzadəyə versəniz nə olar?” Mirzə Təqinin sözünü belə əda ilə deməyi Həmzəağada canın sıxılmasına və ürəyin darıxmasına səbəb oldu. Bundan sonra Mirzə Təqi qalxıb dedi: “Gedim, məsələni şahzadəyə ərz edim”. Ardınca Mirzə Təqi gedib qayıtdı və otaqda əyləşdi. Çox keçmədi ki, şahzadənin fərraşbaşısının əlində zənciri olan bir nəfər fərraşla bərabər otağa daxil olduğunu gördük. Fərraşbaşı üzünü Həmzəağaya tutub dedi: “Şahzadə bu zənciri sizin üçün göndərib. Ziyarət etməlisən”. Bu sözü eşidən Həmzəağanın halı dəyişdi və o, türk dilində dedi: “Mən bunu qəbul etməm”, yəni “mən inra qəbul nemikonəm”. Sonra xəncəri çəkib yerdən durdu və fərraşbaşının üstünə getdi. Mirzə Təqi öz canı üçün qorxub üstdəki otaqda hökmünün nəticəsini gözləyən şahzadənin yanına qaçdı.

Təzkirəyazan Əmin deyir: “Mən də özümü otağın qaranlıq yerinə verdimvə divara yapışıb heyran ilə xof içində hadisələrə tamaşa edirdim”. Həmzəağa cəld çırağı söndürdü və qardaşıoğlu

ilə bir yerdə pəncərədən bayıra tullandılar. Bu qaranlıqda həyətdən bir neçə dəfə tüfəng gülləsinin səsi gəldi. Həmzəağanın qardaşıoğlu ilə çubuqçusu gülləyə tuş gəlib yıxıldılar. Həmzəağa şahzadənin nökərlərindən birini xəncərin zərbəsi ilə yerə saldı, digər nökərlər qaçdılar. Bu tədbirin qabaqcadan hazırlandığından və həyətin əhatəyə alındığından xəbəri olmayan Həmzəağa qapıya tərəf dönüb tez çölə atıldı. Qarovulçu tüfəngin süngüsü ilə onun qabağını alaraq çıxmağa mane oldu. Onda Həmzəağa bir əli ilə süngünü tutdu və o biri əlindəki xəncərlə əsgərə zərbə vurub qətlə yetirdi. Qapıdan çıxmamışdan qabaq Mir Fəttahı çağırdı. Lakin məlum əmrə görə şahzadənin nökərləri onu yaralı halda başqa yerə aparmışdılar. Həmzəağa Mir Fəttahdan cavabın gəlmədiyini görüb üzünü qapıya tərəf tutdu, qapıda duran əsgəri tüfəngin qundağı ilə başından vurub yerə yıxdı və iki nəfər nökəri ilə birlikdə qapını sındırıb bayıra çıxdı”.

Yenə təzkirəyazan Əmin deyir: “Həmzəağanın çölə çıxdığı və atışmanın baş verdiyi vaxtda şahzadənin nökərlərindən birini gördüm ki, əlində “martini” tüfəngini tutub şahzadəni qorumaq üçün tam pərişan halda otağın başında durmuşdu. Otağa daxil olarkən təşvişə düşmüş şahzadəni əlində qoşalülə tüfəng gördüm. Ərz etdim ki, “Həmzəağanı tutmaqdan bir şey çıxmadı”. Cavab verdi: “Fərraşbaşının (o, həmin vaxt bayırda durmuşdu) üzü qara olsun. Məni xatircəm etmişdi ki, Həmzəağanı tutmaq üçün hərcəhətli hazırlıq görülüb”. Günahı fərraşbaşının boynuna yıxdı.

Bu mükalimə vaxtı Əhməd bəy, çiynində “martini” tüfəngi, məclisə daxil olub sözünə başlayır: “Sənə qurban olum, mən sizə haçan dedim ki, Həmzəağanı bu cür, heç bir tədbir görmədən, gecənin bu vaxtında tut? Əvvəldən ağalardan bir neçəsinə xəbər vermək lazım idi ki, gündüz, müvafiq qüvvə ilə onu saxlasınlar”. Bu danışıqdan məlum oldu ki, bundan qabaq şahzadə ilə Əhməd bəy arasında Həmzəağanın tutulması məsələsi müzakirə olunmuş və qərar verilmişdi. Beləliklə, şahzadə bu işdə xeyli səhvə və xətaya yol vermişdi. Birincisi bu idi ki, Həmzə-

ağanın mərifət sahibi olduğunu və tərsliyini bilərək onun Feyzüllah bəyin yerində fərz etmiş, tutulmasını asan bir iş saymış, tədarüksüz-ehtiyatsız zəncir göndərmiş, ona zənciri boynuna keçirmək əmrini vermiş və son nəticədə belə zülm, tamah və düşüncə naqisliyi işlərin xarab olmasına gətirib çıxarmışdı.

Bütün adamlar o fikirdə idilər ki, şahzadənin Həmzəağanı məhz gecə yaxalamaqda məqsədi bəlkə onu asan və gizli yolla tutub və elə həmin gecə ondan bir şey alıb buraxmaq olmuşdu ki, məsələ yayılmasın. Amma əksəriyyət onun üstündə durur ki, bu gün yerli-yerində və vaxtlı-vaxtında olan iş sabah əksinə yersiz və vaxtsız olacaq və bir yerdə mənfəətin əldə edilməsi ilə nəticələnən hərəkət başqa məqamda zərər ilə xəsarətin almasına bais olar və bir şəxs barəsində görə bildiyini başqası barədə etməyin özü səhv və xətadır. Uzun sözün qısası, ağıllı və təcrübəli adam vaxt, yer və şəxs amilini nəzərə alaraq mülahizə edəndən sonra öz işini ona müvafiq görər.

Beləliklə, Həmzəağa bayıra çıxıb küçədə öz adamlarından bir neçəsini öz atı ilə gördü, lakin  müşahidə zamanı nə küçədə, nə də evin ətrafında tüfəngçilərdən və qarovulçulardan heç kim onun gözünə dəymədi. Onda o, şahzadəni və o biriləini öldürməyib evdən çıxdığına görə peşman oldu. Bundan sonra mənzilə gedib öz adamlarını başına yığdı və şəhərin ətrafında dolaşıb səhər açılanadək hərb təbilini çalmaq qərarına gəldi. Gecə hadisəsi və şahzadənin istədiyini hasil etməməsi şəhərin bütün sakinlərinə məlum oldu. Sonra şahzadə üləmalardan birinin vasitəsilə Əzizağanı buraxdı və Həmzəağanın adamlarının nəşlərini ona təslim etdi. Həmzəağa da o nəşləri götürüb öz mülkünə qayıtdı.

Bu vaxt şahzadə çaşqınlıq və təşviş hisslərinin altına düşür. O, yəqin öyrənir ki, Həmzəağa tələdən qaçmış canavar kimi bundan sonra hər cür təxribatla fitnəyə əl atacaq və geri çəkilən deyil, imkan daxilində bütün tayfalarla qəbilələri yığıb o hadisəni get-gedə daha da şişirdəcək və ümumi itaətsizliyə təhrik edəcəkdir. O, təcili surətdə vəziyyəti Azərbaycan hökumətinə açıqlayıb oradan Həmzəağanın tutulması və şərinin qarşısı alınması üçün hərbi yardım tələb edir. Azərbaycan hökuməti

Məhəmməd Hüseyn xan Çələbiyanlunu səksən nəfər atlısı ilə Savəcbulağa yollayır və Qadirağaya, Feyzüllah bəyə və başqalara mübarək məktublar göndərir ki, onlar da birləşib bir ordu yaradaraq şahzadəyə itaətkarlıqlarını göstərmək xatirinə Həmzəağanı tutsunlar. Lakin bu istək ilə hərəkət Həmzəağanın yaşadığı yerin əsasən meşələrlə örtülmüş dağlardan ibarət olduğuna görə böyük çətinliklərlə üzləşmişdi. Ancaq hər necə olursa olsun, sərdarlar Savəcbulağa daxil oldular. Lakin, bütün yerli sakinlər şahidlik etdikləri kimi, Çələbiyanlunun süvariləri yolda oğruluqdan və hər cür yaramazlıqlardan çəkinmədilər. Həmzəağa öz yaşadığı yerdə oturub müqavimət tədarükünü görməkdə idi. O, ümidini ona bağlamışdı ki, Piran tayfası ilə (onların başçısı Məməndağa osmanlılarla həmsərhədd olan torpaqda məskunlaşmışdı) və başçısı öz qardaşıoğlu Səvarağanın olduğu başqa bir tayfa ilə ittifaqa girib savaşa başlayacaq. Amma Həmzəağanın qayıdışından sonra tayfa başçılığının bir qisminin əldən getdiyini görən qardaşı Kaküllahağa işin əvvəlindən belə birləşmədən uzaq durdu. Onun məqsədi o idi ki, Həmzəağa zəiflik ucbatından İran ordusunun qarşısında tab gətirə bilməyib qaçıb gedər və bütün rəhbərlik yenidən onun əlinə keçər.

Məhbus olduğu günlərdə böyük təcrübə qazanmış və həyatın acılığını çox dadmış Həmzəağa indi özünə dəstək verənin axtarışında idi. Buna görə o, üzünü Übeydüllaha (ona lənət olsun!) çevirib onunla əlaqə qurmağa çalışdı. Şeyx də ona cavab verib Həmzəağa ilə sözləşməyə razı olmuşdur.

İndi isə Şeyx Übeydüllah haqqında şərhi yazı sapına keçirək[1]. Bu şəxs bütün əlaqələrini kəsib ibadət səccadəsinə əyləşmiş, fəqir libasına geyinmiş və Allahından başqa hər şeyi və hamını unutmuş, Allahı ilə əhd-peyman bağlayıb and içmişdi ki,

---

[1] Şeyx Übeydüllah Şeyx Tahanın oğludur. İkisi də nəqşbəndi dərvişlərinin mürşidlərindən olaraq kürdlərin arasında böyük nüfuz qazana bilmişdilər. Məhəmməd şah Qacar kürdləri öz tərəfinə cəlb etmək üçün Mərgur mahalında beş kəndi tiyul adı ilə şeyx Tahaya bağışlamışdı və hər il ona müxtəlif töhfələr göndərərdi. Məqsədi Osmanlıların hücumlarından müdafiə olarkən kürdlərin döyüşçü qüvvəsindən istifadə etmək idi.

məzhəbin öncüllüyünü və xalqa rəhbərliyi öz üzərinə götürəcək və cənnətin qapılarını onların üzünə açacaqdır. Osmanlı ilə sərhəddə yerləşən Nəhri ya Novçə kəndində məskən salmışdı. Bu şeyx İranla Osmanlının arasındakı sərhəddin üzərindən gedib-gələn, məişətləri ömrü boyu kəsib-doğramaqdan başqa bir şey olmayan, sözün həqiqi mənasında hər cür dindən, qanundan və təriqətdən xəbərsiz, yol kəsməkdən və qarət etməkdən savayı bir yol tanımayanköçəri tayfalarının başçısı idi və onların üzərində tam hakimiyyətiəlində saxlamışdı. Hətta demək olar ki, onların canlarının və başlarının sahibi idi. Belələri Mükri vilayətində çoxdur və bəzi kəndlərdə xəlifə də olur. O, öz şəxsi mənafeyini güdərək həmişə kin və məzhəb ayrılığı odunu alovlandırar. Onlar şeyxi (rəhmətən lil-aləmin) çağırarlar və onların əqidələrində olmayanları lənətləyib kafir adını qoyarlar. Bu dəstələr istər Osmanlı torpağında, istərsə də İran torpağında ardı-arası kəsilmədən şeyxi ziyarət edərlər. Əlbəttə şərhə ehtiyac yoxdur ki, onların qəlbləri batil və boş-boş etiqadlarla dolmuşdu və onlar öz vəhşilik ainlərində sabitqədəm olduqlarını hər gün isbat etməkdə idilər. Onlar öz ruhani rəhbərlərinə böyük ehtiramla yanaşar, ondan ilham alar və onu vəhy sahibi sanardılar. Onlar onu həmçinin əmr sahibi sayıb ona itaət etməyi özləri üçün vacib bilərdilər.

Şeyx Übeydüllahın İran torpağında, Mərgurda bir neçə kəndi var və bəziləri Osmanlı torpağındadır. Osmanlı torpağındakı bütün kəndlərin varidatı tütündən gəlir. Rus-Osmanlı müharibəsi dövründə Şeyx Übeydüllah oğlu Siddiqlə və bəzi başqa məşayixlə Bayəziddə vuruşaraq fəthlər əldə etmiş və bununla Osmanlı dövlətinin etinasını qazanmışdır. Bundan sonra Vanın qaimməqamına vəd etmişdilər ki, əlli min kürd yığıb Rusiyaya qarşı döyüşəcəklər. Osmanlı dövləti onları öz paytaxtına çağırdı, lakin onların hərəsi danışıq aparmaq üçün bir nəfəri İslambula göndərdi. Şeyx Übeydüllah da öz tərəfindən Rəşid bəy adlı

birisini yolladı. Elçilər Babi-Aliyə[1] yetişdilər, orada çoxlu əsassız vədlər verdilər, fəxri nişanlar aldılar və geri qayıtdılar.

Şeyx Übeydüllah Vanda olarkən qaimməqam ona demişdi ki, “Sizin Vanda qalmağınız lazımdır ki, rusun üstünə hücuma keçəndə onların qarşısında dayanıb Vanın işğal edilməsini qoymayasınız”. Lakin Şeyx Übeydüllah öz halına yaxşı bələd idi. O, müharibə vaxtı düşmənlə üz-üzə dayanıb döyüşən kişilərdən deyildi və özünün həlak olmağından və ya pis vəziyyətə düşməyindən qorxaraq qaimməqamın sözünə qulaq asmayıb öz yerinə qayıtdı. Ondan sonra Qafqaza gedib ruslarla vuruşmaq üçün Osmanlı dövlətindən izin istəmişdi, lakin Babi-Ali icazə vermədi. Axırda osmanlıya və rusa məlum oldu ki, şeyxin tabeçiliyində olan tayfa müharibə vaxtı əvvəl soyub-talamaq niyyəti ilə dəstə-dəstə başıpozuqlarla ittifaqa girib döyüş meydanına yollandılar, lakin Osmanlı qoşunları məğlubiyyətə uğramağa başlayan kimi Osmanlı ordusunu tarac edənlərin içində birinci elə onlar oldular. Onlar “martini” tüfənglərindən ibarət bahalı silahları fərarilərin əllərindən yığıb İran sərhəddində aşağı qiymətə satdılar.

Müharibə zamanı Osmanlı sərhəddindəki Başqala tərəfdə onun başçılığı altındakı kürdlər əlliyə yaxın erməni kəndini talamış, Alaşükür[2] mahalını çöl-biyabana döndərmiş və həzrət İsanın elçilərindən olmuş həzrət Barmosolminin (Barsolomi?) Osmanlı sərhəddində yerləşən, ermənilərin ziyarətgahı olan, içində bahalı və nəfis əşyalar saxlanılan məqbərəsinin binasını dağıdıb qarət etmişdilər və bu cür qarətlərə görə heç kəs cəzalandırılmamışdı. Bəzi nəsari kəndlərini də zorla zəbt edərək kilsələri məscidə çevirmişdi. Şeyx Übeydüllah Osmanlı-rus müharibəsi bitəndən sonra da qarətləri, taracları davam etdirmiş, böyük var-dövlət toplamış, ad-san və şan-şöhrət qazanmış və çox-çox uzaqlara aparan xəyallara dalmışdı.

---

[1] Babi-ali – ali qapı. Sədarətin, daxili və xarici işlər nazirliklərinin, eləcə də dövlət şurasının yerləşdiyi iqamətgah. Məcazi mənada Osmanlı hökumətinə də deyərdilər.

[2] Həmədandakı Əlişükür mahalıdır.

Digər tərəfdən Şeyx Übeydüllah uzun illər İran dövləti tərəfindən incidildiyinə görə intiqam almaq arzusu ilə yaşayırdı. Şücaüddövlə Yusif xan onun Mərgurdakı kəndlərindən bir neçəsinə od vuraraq əhalidən qırx beş nəfəri, qadını və kişini, qətlə yetirmişdi. Bu hadisə iki il ərzində iki dövlət arasında danışıqların aparılmasına səbəb olmuşdu. Ona əlavə olaraq bu il hakim İqbalüddövlə həmişə anbaan şeyxin vəziyyətinə nəzarət etməyin əvəzinə tədbir görüb ehtiyatla davranaraq vaxtından tez bu işə son qoymağın çarəsini tapmaq xəyalına düşdü və bilmirəm, öz mənafeyi xatirinə və ya bir başqa gizli səbəbə görə, xeyri düşünmədən şeyxin hakimiyyətini daha da artırdı və onun Osmanlı təbəəsi olduğunu nəzərə almayıb Uşnuyə, Dəştbil, Sümay, Mürur mahallarını və iki dövlətin sərhəddində yerləşən bəzi başqa torpaqları tiyul adı ilə ona təhvil verdi, necə ki Savəcbulaq əyalətinin böyük hissəsi olan və Məhəmmədağa tərəfindən qorunan Lahican qalasını İqbalüddövlənin xahişi ilə Savəcbulaqdan ayırıb ona həvalə etdilər və beləliklə bu da şeyxin hakimiyyəti altına keçdi.

İqbalüddövlənin şeyxin yolkəsənliyinə və soyğunçuluğuna bu cür arxayınçılıqla yanaşması və onun hərəkətlərinin özünə xas olan səriştəliyi və uzaqgörənliyi ilə ziddiyyət təşkil etməsi bizim üçün anlaşılmazdır və bunun ayrı bir səbəbi var. Lakin bundan sonra yazılan təfsilatları nəzərdən keçirərkən məlum olur ki, bu hərəkət silahı düşmənə verməyə və ya ilanı bağrına basmağa bənzəyir. Şeyx Übeydüllahın beynində hakimiyyətpərəstlik havası və şəriksiz təsəllüt xəyalı son dərəcəyə çatanda bu xüsusda Həmzəağaya bir neçə məktub yazıb onu görüşə dəvət etmişdi. Lakin Həmzəağa ona etinasızlıq göstərib cavab verməmişdi. Bu dəfə isə tərəflər əlaqə yaradıb müttəfiq olmaq qərarına gəldilər. Əlavə olataq şeyxin müridləri uzun illər boyu Mükri torpağından onun ziyarətinə gələrək Savəcbulağın hökumətindən şikayətlənərdilər və ondan bu işə bir çarə tapmağı və ədaləti bərpa etməyi istəyərdilər. Həmçinin Uşnuyə sakinləri olmuş və şahzadə Əhməd Mirzənin hökumətindən cana gəlmiş Abdullah xan və qardaşı İbrahimxan İqbalüddövlənin yeznəsi

Hacı Rəhim xanla birlikdə şeyxlə daim məktublaşardılar və onu aldadaraq fitnəkarlığa təhrik edərdilər. Bu halda şeyx öz xəlifələrindən biri olan Şeyx Kamalın vasitəsilə Həmzəağaya bir kağız göndərərək onu özünün gizli məqsədlərindən agah edir və yanına çağırıb əlində bir alətə çevirir. Digər tərəfdən ən kiçik oğlu Şeyx Əbdülqadiri kəndləri təftiş etmək bəhanəsi ilə təbliğat aparmaq və göstərişlərini yetirmək üçün yüz əlli nəfərlə Mərgura və Tərgivərə göndərir.

Həmzəağa bir neçə ümidləndirici şərtlərə şirniklənib şeyxin xidmətinə yollandı. Həmzəağanın Nəhriyə pənah aparmağı xəbəri və şeyxin Savəcbulaqla bağlı fəsadçılıq xəyalları tez bir zamanda yayılır. Məlum olur ki, Həmzə qoşun yığır. Bəzən deyirdilər ki, Həmzə şeyxin vasitəsilə iş görürdü və onun dinc oturmağı mümkün deyildi. Bəzən isə deyirdilər ki, şeyx öz qoşununu Savəcbulağa yeridir və yürüş edəcəkdir. Hər gün səhih əxbarlar yayılırdı, şeyxin müridləri ilə xəlifələri özlərinə sərf edən yalançı xəbərləri hər yerdə yaymaqda idilər. Nəticədə Mükri xalqı belə bir yəqin xəbər əldə etdi ki, Şeyx Übeydüllaha göydən vəhy nazil olub və o, hədsiz-hesabsız ordu ilə Savəcbulağa gələrək Mükri torpağını və öz həmməzhəblərini iranlıların çoxillik zülmündən qurtaracaqdır. Özü də bu, İqbalüddövlənin yazdığı kağızın vasitəsilədir, ancaq səhvə yol verilib. (?)
Bu xəbərlər bütün xalqı pərişan etmiş, xüsusən də Savəcbulağın hakimi şahzadəni təşvişə salmışdı. Mükrinin ağaları ilə bəyzadələrindən bəziləri Həmzəağanı tutmaq üçün şahzadənin qulluğunda durmuşdular, bir başqaları isə süvarilərdən və tüfəngçilərdən ibarət bir dəstə ilə və bir də öz bacarıqları ilə şəhərdə qalıb şahzadəyə xidmət etməkdə sabitqədəm idilər. Şahzadə ağaların bu icma ilə ittifaqını və onların boyun əyib itaət etmələrini qənimət sayaraq həmin məsələyə çarə qılmağın yolu axtarmış və tədbir ilə sərəncamın ipini dünyanın əlinə vermişdi. O, Təbriz hökuməti ilə sual-cavab oyununa girişib onlardan yardım istəmişdi, halbuki Təbrizin heç bir hərbi gücünün qalmadığını bilirdi.

## Qadirağa

Mükri ağalarının ən mötəbərlərindəndir. Sonrakı hadisələrin dəlalət etdiyi və bütün camaatın təsdiqlədiyi kimi, zahirdə şahzadə ilə, gizlidə isə nifaq yolunu tutub Həmzəağa ilə əlbir olmuşdu. O, məxfi məktublaşmaya girişib onları anbaan üsyana təhrik edir, Savəcbulağa gəlməyə həvəsləndirirdi. Bu çağda Həmzəağanın tələbi əsasında qardaşı Kaküllah öz əhlindən olan səkkiz yüz nəfərlik ordusu ilə, Piran əhalisinin başçısı Məmənd-ağa üç yüz nəfərlə və Zudi(Zərdəvi?) əhalisinin başçısı qardaşı-oğlu Səvarağa üç yüz nəfər tüfəngçi ilə ki, hamısı bir yerdə min dörd yüz nəfər tüfəngçi ilə süvaridən ibarət idilər, Uşnuyədə şeyxin ordusuna qoşuldular. Lakin Məmiş[1] elinin başçısı, bu sərhəddə hər kəsdən güclü və ordusu hamıdan yaxşı hazırlıq vəziyyətində olan Məhəmmədağa inadcıllıq və müxaliflik yolu-nu seçərək Həmzəağanın xahişinə etinasızlıq göstərmiş, dövlətə itaət etməyi riyakarlıqla asilikdən üstün tutmuşdu.

Savəcbulaqda şuluqluq ilə itaətsizlik saatbasaat artırdı və doğru xəbərlər yalanın içində itib batmışdı. Düz yol tapılmırdı və heç kimin düşmənin hərbi hazırlığından və qüvvəsindən xəbəri yox idi. Qərəzli və avam camaat şeyxin hazırlıq dərə-cəsini və gücünü lap şişirdib bəyan edirdi ki, onun əlində on iki mindən artıq ”martini” tüfəngi var. O günlərdə hərbi qüvvənin “martini” tüfənglərinin sayına bağlı olduğuna görə şeyxin qə-rargahında onların miqdarını artıq göstərirdilər və həmçinin ağalardan hər birinin gücünü qoşunun böyüklüyünə ya kiçik-liyinə görə deyil, “martini” tüfənglərinin az ya çox olduğuna görə dəyərləndirirdilər.

Şeyxin adamlarının əksəriyyəti məzhəb təəssübkeşliyi dəni-zində batmış alçaqlarla əclaflar olmuşdu. Onlar şeyxin ordu-sunun sayını [sözdə] altmış və ya əlli min olduğunu deyirdilər və belə bir şayiə yayırdılar ki, şeyx Rəbbin hökmü ilə əlində əsa

[1] Məmiş “Məhəmməd”in kiçiltmiş və təhrif olunmuş şəklidir. Bu tayfa əsasən Uşnuyə mahalında yaşayırdı.

ordunun başında durub və məqsədi Allahın köməyi ilə Osmanlı torpağını almaqdır. Ona müqavimət göstərməyə kimin gücü çatar? Hər kim ona qarşı qılınc çəksə ya ox atsa, kafirlərdəndir və əbədi əzaba məhkumdur.

Bizim fikrimizcə, belə mənasız sözləri yazmağın heç bir faydası yoxdur, lakin ədəbi və bəsirəti olan hər kəs bu növ mövhum nağıllarla əfsanələrin və əsassız, batil xəyalların avam adamlar arasında və xüsusilə insaniyyət aləmindən xəbərsiz kürdlər arasında nə cür fitnə-fəsad törətdiyini və sonda hansı fəlakətlərlə nəticələndiyini yaxşı başa düşür. Bu vəziyyətdə şeyxin hərbi gücünü və imkanını mükəmməl surətdə nəzərdən keçirib və dəyərləndirib düz məlumatı Mükridəki şahzadəyə çatdırmaq İqbalüddövlə kimi güclü və qüdrətli şəxsə yaraşardı. Ancaq o, bunun əvəzinə sakit oturub şahzadədə qorxu hissinin gün-gündən artmasına səbəb oldu.

Əgər şahzadənin özünün azacıq bacarığı və səriştəsi olsaydı, onun üçün heç də çətin olmazdı ki, ayıq-sayıq casusların və ya şeyxin qonşusu və Həmzəağanın qan düşməni olan Qarapapaq[1] camaatının vasitəsilə şeyxin niyyətini və tədarük işlərini yaxından müşahidə etsin və hər gün onların fəaliyyəti haqqında məlumat alsın. Bunların hamısı mümkün idi, lakin onun heç ağlına gəlmirdi. Otağında oturub özünü boş-boş xəyallar içinə ataraq malxulya dənizində qərq olmuşdu. Uşnuyə tərəfdən gələn müsafirləri, qatırçıları və qasidləri tutub şahzadənin hüzuruna aparardılar və onlardan şeyxin ordusu barəsində xəbər almağa çalışardılar. Ömürlərində heç beş yüz süvarini bir yerdə görməmiş qasidlə qatırçı indi min nəfərin bir yerdə toplandığını görəndə bu, onların gözünə iyirmi min nəfər gəlmişdi və bir az da üstünə qoyub iyirmi min nəfərdən danışardılar. Özü də bu adamlar o qəbildən idilər ki, yüzədək güclə sayardılar, onu da ancaq noxudla. Qırxın yerinə iki yüz ya da on dörd deyərdilər. Burada xatirimə gələn kiçik bir əhvalatı yazmağı münasib bildim.

---

[1] Qarapapaq tayfası İran-rus müharibəsi zamanı İrana gəlib Sulduz mahalında məskunlaşmışdı.

Rus ordusu Gürcüstanı işğal edəndə bir nəfər çaparaq Gürcüstandan Azərbaycana gəlib xəbər gətirir. Azərbaycanın hakimi ondan rus ordusunun sayını soruşur. O da cavabında deyir ki, “Nədən soruşursan, göydəki ulduzları saya bilərsən, amma rus ordusunu saya bilməzsən”. Təkrar soruşurlar, cavab verir ki, “Eşşəyin quyruğundakı tüklərin hesabı var, ancaq rus ordusun sayı-hesabı yoxdur”. Üçüncü dəfə soruşanda gürcü deyir ki, “Səhradakı qum dənələrini saymaq olur, rus qoşununu saymaq olmur”. Hakim lap əsəbi halda soruşur: “Axır de görək, rus ordusu nə qədərdir?!” Gürcü bir az fikirləşib cavab verir ki, “Hətta yeddi iyirmidən də çoxdur!” Bizə xəbər gətirənlər də elə o gürcünün tayıdırlar.

Urmiyada yaşayan amerikalı müsyö Rehali avropalı elçilərindən sayılardı. O da bəzi şayiələr uydurub yaymışdı. Adamlara belə xəbərlər verərdi ki, qorxudan hərəsi bir yana qaçsın. Bundan qabaq demişdik, indi bir də deyirik ki, şahzadə ağaların birliyi ilə ittifaqını qənimət sayaraq onlardan İran qaydalarına uyğun olaraq itaət və iltizam kağızlarını alıb möhürləməli və onların piyada ilə süvarisini şəhərə yığmalı, əməllərinin məsuliyyətsiz və işlərinin xarab olduğunu müvafiq təsirli tərzdə onlara başa salmalıdır. Mükri torpağının bütün imkanları onun əlində idi və həmçinin şəhərin mövqeyi belə idi ki, orada istehkamlar düzəltmək, sursat ilə azuqəni toplamaq, möhkəm səngərlər qazmaq və tələb olunan qədər tədarük görmək mümkün idi, habelə digər lazımi hazırlıq işləri görməyə sərəncam verənin böyük sərkərdə və alim olmağına ehtiyac yox idi.

Bu sözləri təsdiqləmək üçün Mükri totpağının imkanlarını və qüvvəsini təfsilatı ilə açıqlayaq. Bu qüvvə üç gün ərzində toplana bilər. Qadirağanın çox oğulları və min nəfər tüfəngçisi var, Feyzüllah bəy də bir çox oğulun atasıdır və əlinin altında min iki yüz tüfəngçi var, Məhəmmədağa Məmişin səkkiz yüz nəfər, Gülabiağanın dörd yüz nəfər, Osmanağanın və Kürən Xızırağanın min nəfər, Xanbaba xanın altı yüz nəfər, qalan bəyzadə ilə ağaların da iki-üç min nəfəri vardır ki, ümumən yeddi min nəfər süvari ilə tüfəngçiyə çatar. Buna alavə,

bəxtiyari, çarduli[1], qarapapaq və çələbiyanlu süvariləri də şahzadənin xidmətində hazır idilər. Bu, şeyxin qoşunundakı süvarilərlə tüfəngçilərin qarşısını ala biləcək bir ordu idi və şeyx ilə Həmzəağanın qoşunu bu ordunun müqabilində çox kiçik və gücsüz olmuşdu və bu halda məğlub olardı. Həmzə və şeyx şahzadənin ordusunun özününkündən böyük və güclü olduğunu bilirdilər. Belə bir vəziyyətdə onlar iki min dörd yüz nəfərlə Uşnuyədə oturub hadisələri izləməklə və hiyləbazlıqla məşğul olurdular ki, bəlkə şahzadə dedi-qodudan və şayiələrdən qorxub Savəcbulaqdan qaçar, onlar da qəsəbəni zəhmətsiz və maneəsiz zəbt edərlər.

Əgər şahzadə onlara müqavimət göstərməkdə israrlı olsaydı, onlar onun qabağına çıxmağa cəsarət etməzdilər və bu qədər fitnəkarlığa da yol verilməzdi. Lakin şahzadə sanki iflic vəziyyətinə düşüb itaətində olan o boyda qüvvəni heç hesaba da almırdı və Təbrizdən köməyinə gələcək qüvvəni gözləyərək ümidsizliyə qapanmışdı. Onun bütün fikri-zikri canını xilas etməyə yönəlmişdi. Bu çağda Savəcbulaqda olan iranlı və xarici tacirlər gördülər ki, bu fitnə gün-gündən genişlənir və əhalinin qətlinə gətirib çıxaracaqdır. Çarə tapmayıb tələsik halda qaçdılar. Bizim bu vaxtlarda ağaların əksəriyyəti ilə dost münasibətimiz olub, onlarla tez-tez görüşürdük. Şeyxin gücü və hazırlığı haqqında yayılmış şayiələr onları itaətə meyilləndirmişdi. Bunu dəlillərlə təkzib etdik və şeyxin xəyallarının mövhum və batil olduğunu sübuta yetirdik. Dərvişin oturacağının üstündəki dəri ilə sultanın taxtı, eləcə də yoxsulun çeçədən tikilmiş külahı ilə padşahın tacı arasındakı fərqi onlara izah etdik. Dedim ki, “Hökmdar olmaq üçün başqa əsas lazımdır. Bir neçə min başıpozuq süvari və oğru-moğru ilə padşahlıq bayrağını qaldırmaq olmaz.Tutalım, şeyx iki-üç vilayəti əlinə keçirdi. Bəs ölkədə yüz

[1] Çardulı tayfasından min ailəni Ağa Məhəmməd xan Qacar özü ilə Fars məntəqəsindən gətirmişdi. Hal-hazırda da çardulılar Miyandüab və Sayınqala ətrafında pərakəndə şəkildə yaşayırlar.

minlərlə başqa dayaqlar qalır ki, onların heç birinin yanından keçə bilməyəcək”.

Ağaların əksəriyyəti, xüsusilə də Feyzüllah bəy, cavabında dedi: “Biz kəsən qılıncla yandıran odun arasındakı girə düşmüşük. Birincisi, ortada fikir ayrılığı var. İkincisi, biz bir aydır ki, sərgərdan olub ümidimizi hər şeydən kəsmişik. Azərbaycan hökumətindən kimsə dadımıza çatmır, şahzadə də ki,nə bizə düşmənin qabağını almağıəmr edir, nə də evlərimizə qayıtmağa icazə verir”.

Vəziyyət elə bu yerdə idi ki, Məmişin başçısı Məhəmmədağa və qarapapaqların başçısı Böyükxan Savəcbulağa gəlib şahzadəyə dedilər: “Düşmənin üstünə gedib onun yürüşünün qarşısını almaq vaxtıdır”.

Həmin gün şahzadə qəsəbənin bütün alimləri ilə ağsaqqallarını yığıb düşməni geri otuzdurmaq xüsusunda məşvərət keçirtdi. Məhəmmədağa dedi: “Mən uzun illər İran dövlətinin xidmətindəyəm və mənə hər cür iltifat ilə hörmət göstərilib. Dövlətə xidmət etmək mənim borcumdur. Amma biz düşmənin irəliləməsinin qabağını almaqdan ötrü gəlmişik”. Qarapapaq Böyükxan da məsələni şərh etdi. Məhəmmədağa dedi: “Biz başa düşməliyik ki, bəyzadələrlə ağalar bu işdə şəxsən bizimlə birləşəcəklər və ya süvarilərlə tüfəngçilər bizə yoldaş olacaqlar və yaxud onlar bizimlə bir olacaqlar ya da bizə kömək göstərəcəklər. Biz şeyxin qoşunu ilə birləşməyə qoymamaq üçün Məngur və Zərzan elinin və Piranın yolunu kəsməyə hazırıq”.

Bəyzadələrlə ağalar da dedilər ki, “Biz də İran dövlətinə itaət edirik və onun qulluğunda hazırıq”. Alimlər də dedilər ki, “Biz də bu dövlətin duaçısıyıq, onun xeyrini istəyirik və Şeyx Übeydüllahın gəlməyinə razı deyilik”. Lakin ağalarla bəyzadələr kömək verməkdə tərəddüd edirdilər və rəyləri bir yerdə qərar tutmurdu. Şahzadə tərəfindən də heç bir sərtlik və məcbur etməyə meyil müşahidə olunmurdu. Qadirağa dedi ki, “Biz öz əhalimizdən kömək alırıq və mən özüm də ittifaqa gedirəm”. Ortaya faydasız və mənasız sözlər atıldı. Xanbaba xan axırda dedi ki, “Biz şəhər əhalisinə arxayın deyilik, çünki şəhər əhlinin

əksəriyyəti şeyxin müridləridir və bizə xəyanət edəcəklər. Buna görə biz öz ordumuzu şəhərlilərin evlərində yerləşdirə bilmərik”. Şəhər hacılarından birisi ona xilaf çıxaraq dedi ki, “Biz rəiyyətlər bir gücə malik deyilik və dava-dalaş bizim kimi kasıb şəhərlilərin yox, ağaların əlindəki döyüşçülərin işidir”. Onda yalançı Qadirağa dedi ki, “Şəhər əhalisi bizə xəyanət edəcək”. Lakin belə göründü ki, Feyzüllah bəy döyüşməyə meyillidir. Axırda kömək etmək məsələsində vaxtı uzatmağa əl atdılar. Məhəmmədağa ilə Böyükxan şahzadənin ağzına su alıb oturduğunu və ağalarınbir fikrə gələ bilmədiklərini görəndə ikiqat məyus olub düşmənə tərəf yola düşdülər. Bununla əlaqədar şahzadədən onlara xələt də verildi. Onlar Sulduza çatanda ordunun Məngurdan, Pirandan və Zudidən keçib şeyxə qoşulduğunu öyrəndilər. İki gün düşmənlə üz-üzə dayanıb arxalarınca qəsəbədən kömək gələcəyini gözlədilər.

O biri tərəfdən şahzadə Məhəmmədağaya bəxşişlərlə hədiyyələr yollayaraq onu birliyə dəvət etdi. Lakin Məhəmmədağa onun bəxşişlərini qaytarıb dəvətini qəbul etmədi. Amma sonda heç bir yerdən ona köməyin gəlmədiyini görəndə və öz imkanlarının şeyxzadənin qüvvəsi yanında heçə bərabər olduğunu mülahizə edəndə və həmçinin şeyxzadənin yolunda durmuş Qarapapaq əhlinin qorxulu və təhlükəli vəziyyətdə olduğunu anlayanda çarəsiz qalıb şeyxə itaət etdi.

Məhəmmədağanın və Böyükxanın təslim olması xəbəri Savəcbulağa çatan kimi, dedilər ki, iş bitdi və bəyzadələrdən bəziləri, xüsusilə vəkilürrüaya* Həmid bəy bu vaxt şahzadəni qaçmağa sövq etdilər. Həmçinin acudanbaşı Sadiqxan Qadirağa ilə birləşib iki tərəfdən şahzadəni fərariliyə məcbur etdilər ki, canını həlak olmaqdan qurtarıb nicat tapsın. Şahzadə şəhər əhalisini belə məyus halda görüb getməyə hazırlaşırdı. Şahzadənin qaçmaq əzmi şəhərdə yayıldı və bütün şəhər təşvişə düşdü. Küçələrlə keçidlər camaatla dolmuşdu, hamı əlində tüfəng gəzirdi və hərc-mərcliklə nizamsızlıq get-gedə artmaqda idi.

Belə vəziyyətdə şahzadə çələbiyanlu, müqəddəm, çahardulı və bəxtiyari süvarilərinin müşayiətilə şəvvalın iyirmi ikisində

şəhərdən hərəkət etdi. Şahzadə yola düşəndə qəsəbəyə xaricdən Səlimxan Çardulı gəldi və şahzadəyə bir peyğam gətirdi ki, "Mənim düşmənin gücündən məlumatım var. Biz onların qarşısında dayanıb onları geri otuzdura bilərik. Sizin hərəkətiniz düz olmaz". Lakin olduqca çaşqın və pərişan hala düşən şahzadə Səlim xanın müraciətini qəbul etmədi. Ağalar da onu hər tərəfdən getməyə həvəsləndirirdilər ki, bəlkə bu minvalla şeyxzadə ilə döyüşməkdən çəkinə bildilər. Şahzadə Miyandüaba tərəf istiqamət aldı və ağalarla bəyzadələrin çoxusu onu müşayiət etdilər.

Biz bu vaxt şeyxin ordusunun qəsəbəyə daxil olarkən özünü nə cür aparacağından əmin olmadığımızdan ehtiyat yolunu seçərək ağalarla bir yerdə şəhərdən çıxıb qorxu içində Gülabiağanın evinə pənah apardıq. Yolda ağaların tüfəngçilərinin dəstə-dəstə şəhərdən qayıdıb öz evlərinə getdiyini gördük.

Bu gediş-gəlişin əvvəlində Gülabiağa naxoş halda öz evində yatırdı və hadisələrə müdaxilə etmirdi. Ağalarla bəyzadələr şahzadəni sağ-salamat Miyandüaba çatdırandan sonra evlərinə qayıtdılar. Şeyx Əbdülqadir ilə Həmzəağa öz mənafelərini güdərək şahzadəni hiylə ilə qaçmağa təhrik etdiər və bu yolda heç bir maneə görmədilər. Şahzadənin yürüşündən iki gün sonra qəsəbəyə daxil olduıar. Şəvval ayının iyirmi dördü Həmzə şəhərdən məlumat almaq üçün özünü şəhərə çatdırdı. Bu xəbərin lap ürəklərindən olan şəhərlilər bayraqlarla, təbillərlə və zurnalarla Həmzəağanın qarşısına çıxdılar. Bir az keçəndən sonra başları ayaqdan xəbərsiz, şeyxzadəni qarşılamağa tələsdilər. Həmzəağa alimlərə baxıb Hacı Seyyid Bayəzidə müraciət edərək deyir ki, "Qurumsaq! Bu nə yaramazlıqdır? Siz nəinki at üstündə, hətta piyada belə bir neçə fərsəng* gedib şeyxi qarşılamalısınız". Xülasə, şeyxzadə bu basabasda özünün başıpozuq döyüşçüləri, eləcə də Zərzayın, Məmişin, Mənqurun, Zudinin və Piranın tüfəngçiləri və süvariləri ilə ki, ümumi sayı dörd minə yaxın idi, şəhərə daxil olub çayın başında, şəhərin kənarında ordugah saldı.

Bu vaxt pərdə arxasında olanların hamısı üzə çıxdı. Qoşuna və "martini" tüfənglərinə dair rəqəmlərin şişirdilməsi məlum oldu. Birincisi, şeyxzadəyə məxsus ordu onun öz mülkü Mərgur

ilə Tərgur rəiyyətlərindən çıxmış kiçik dəstə lüt və ac-yalavac tüfəngçilərdən, bir qədəri şeyxin tiyulu olan Zərzay və Uşnuyə əhalisindən, qalanları isə Savəcbulaq əyalətinin ayrı-ayrı sakinlərindən gəlib birləşən adamlardan ibarət olmuşdu. Orduda ümumilikdə üç yüz on dörd nəfərin "martini" tüfəngi var idi. Məlum oldu ki, şeyxzadə başqaların qanadları ilə uçur.

Deyildiyi kimi, şeyxzadənin çadırı bircə dənə bəzəksiz yaşıl əsgər xeyməsindən ibarət idi ki, onu da Məhəmmədağa Məmiş vermişdi. "Hökmdarın" bütün avadanlığını iki ədəd parça-parça olmuş keçə və dörd dənə təbil təşkil edirdi. Bir-iki nəfər cırıqtuman, vəhşisifət və üzütüklü nökər gəlib-gedib çubuqla qəhvə gətirirdilər. Bir neçə köhnə cındır parçadan ibarət olan ağruğunu[1] palansız yabılar daşıyırdı. Şeyxzadənin özü iyirmi üç yaşlı bir cavan oğlan idi. Kök, məğrur və özündən çox razı və hərəkətlərindən göründüyü kimi, ağılsız, bəlkə də dəli. Bu qoşunun başçıları ilə rəisləri aşağıdakılar idi: baş sipəhsalar Həmzəağa, sərkərdələr Məhəmmədağa Məmiş, Məməndağa Piran, Zudinin başçısı Səvarağa, Zərzandan Abdullah xanla İbrahim xan. Əslində bütün işləri idarə edən Həmzəağa idi, şeyxzadə isə onun sağ əli olmuşdu. Ağalardan bəziləri Gülabiağaya baş çəkməyə getdilər. Ona şeyxzadənin qabiliyyətsizliyindən və bacarıqsızlığından danışanda, Gülabiağa onların şeyxzadənin istedadsızlığını bilə-bilə ona bu işə qarışmağa mane olmadıqlarından gileyləndi. Gülabiağa həmçinin onları işin aqibətini düşünmədən məsələni bu yerə çatdırdıqlarına və Həmzə Pəhləvanı gücləndirib qüdrətləndirdiklərinə görə qınadı. Gülabiağa, ağır xəstələndiyinə baxmayaraq, ağaları birliyə çağırıb Həmzəağanın əleyhinə yönləndirməyə başladı. Bu məqsədlə Xanbaba xana kağız yazıb yanına çağırdı. Lakin Xanbaba xan yazdı ki, "Mənim gəlməyim mümkün deyil, artrıq gecdir, çünki şeyxzadədən kağız yetişib ki, necə olur olsun, günorta şəhərdə olmalıyam. Ancaq birlik haqqında yazdıqlarınızı mülahizədən keçirəcəyəm".

---

[1] Ağruq – yük, şey-şüy.

Həmin gün Şeyx Übeydüllahın yazdığı məktub oğlunun vasitəsilə Gülabiağaya çatdı. Kağızın məzmunu bu idi: hal-əhval tutmaqadan sonra yazılmışdı ki, "Siz Dehbəkirin[1] ağsaqqalı və sözükeçən adamısınız. Mən sizin xətrinizi çox istəyirəm. Belə bir vaxtda sizin mənimlə görüşməyinizin böyük əhəmiyyəti var ki, sizinlə müsəlmançılıqda bəzi islahatların aparılması haqqında söhbət edək". Gülabiağa kağızı cırıb dedi: "Bu uşaqbaz haradan gəlib bizim başımıza bəla oldu!" və cavabını yazmadı.

Bu arada Xanbaba xan şəhərə gəlir. Şəhərin hakimliyini ona tapşırırlar, bir dəst ləbbadə bağışlayırlar və əyninə fəxrli paltar geydirirlər. Bəzi ağalar şeyxzadənin xidmətində hazır olarkən başqalara məktub yazıb onları da şəhərə çağırdılar. Şeyxzadə gələndən sonra əksər vaxtlarını çöllərdə və dağ yerlərdə vəhşi heyvan kimi keçirən, yoldan ötənləri soyan, ətrafdakı keçidlərə və şah yollarına səpələnib təcavüz əlini yaxın və uzaq kəndlərə uzadan Məngur və Piran elləri imkan olan kimi şəhər evlərində oğurluq edib ümumi iğtişaşlara və rüsvayçılığa bais oldular. Heç kəs bir mahaldan o biri mahala getməyə cürət etməzdi və şəhərdə öz malının və canının ixtiyar sahibi qalmadı. Şəhərdəki qarışıqlıq o dərəcəyə çatmışdı ki, qəhətlə bahaçılıq özünü göstərməyə başladı. Adamlar dükan-bazarlarını bağlayıb evdə oturmuşdular. Əvvəl şeyxin gəlişini böyük nemət, islamın tərəqqisi və xoşbəxtlik bilən şəhər əhli xəyallarının qırılmasını və puç olmasını öz gözləri ilə gördülər. Nə bir hakim, nə ədalət, nə də mizan-tərəzi. Heç kəs gördüyü işə görə məsuliyyət daşımırdı. Nə böyük var idi, nə sərkərdə. Süvarilərdən bəziləri əvvəlki illərdə düşmənçilik etdikləri, lakin ələ keçirmək üçün fürsət tapmadıqları bəzi kəndlərdə indi ağaların təhriki ilə soyğunçuluq və talançılıqla məşğul oldular.

Adama elə gəlir ki, Mükri torpağında etdikləri belə dağıdıcı hərəkətlər düşmən torpağında baş verməli idi, lakin insafla de-

[1] Bu tayfanın nümayəndələri Diyarbəkirdən Mehabadın ətrafına köçmüşdülər, şafei məzhəbindəndirlər və Dehbəkir adı da "Diyarbəkir"in təhrif olunmuş şəklidir.

sək, bu işdə haqqları var idi, çünki şeyxzadənin bu ordusunun öz torpağında olduğu vaxtda nə bir gümüş dinarı, nə də bir mərci dənəlik azuqəsi var idi. Əlbəttə, onlar tək hava ilə dolana bilməzdilər və mala sahib olanlardan bir hissəsini almalıydılar. Aləm hamının aləmidir, yəni mal Allahın malıdır. Hamı qarətin dadını biləndən sonra heç kəsin xeyrini-zərərini düşünməzlər. Qonşunun malı ya düşmənin malı – hamısı birdir.Bunlarda nə dərrakə var, nə insaf.

Şeyxzadənin məktubu ağaların əlinə çatan kimi, arxasınca ordunun amansız yaramazlıqları və soyğunçuluq hərəkətləri xəbəri gəldi, ancaq çifayda? İş işdən keçmişdi. Onlar aldanaraq düşmənə məmkəkətə girməyə qoydular və bütün şəhəri onun ixtiyarına verdiər. Bundan sonra bəzilərinin qardaşı ya oğlu, bəziləri isə şəxsən özləri bir dəstə ilə şeyxzadəyə qoşuldular. İşin sonunu gözləməkdə idilər. Həmzəağa ilə əlbir olan Qadirağa yaxına gəlməyib qapının arxasından Kürd Həmzəağanın hərəkət tərzinə tamaşa edirdi ki, görəsən, işi onun istəyinə müvafiq görür, ya yox. Gördü ki, bu yolkəsənlər ordusunu nizama salmağa nə şeyxzadənin gücü çatar, nə də Həmzəağanın. Hər tərəfdən şeyxzadənin xeyməsinə şikayətin üstünə şikayət gəlirdi. Belə vəziyyəti görən şeyxzadə altı gün şəhərin kənarında "otraq" etdi[1]. Belə məlum oldu ki, əvvəl şeyxzadənin fikri Əfşarı və Səqqəzi zəbt etmək imiş, ancaq bu iş baş tutmadı. Miyandüabın o tərəfindəki kürd kəndəlindən şeyxzadəyə məktub yazmışdılar ki, "Əgər tezliklə kürd tayfasından bizə kömək gəlməsə, ətrafımızdakı əcəmilər[2] saqqalımızı dartıb çıxaracaqlar".

Bu xəbəri alandan sonra şeyxzadə əlaltılarından Miri bəy adlı birisini iki yüz nəfərlə döyüş əzmilə Mərhəmətabada aparır. Marağa hakimi Əli xan bundan xəbər alıb özünün Miyandüabdakı süvarilərini yığıb düşmənin üstünə gəlir. Səlim xanla Məhəmməd Həsən xan düşmənə zərbə endirib bir neçə nəfəri qətlə yetirilər, şeyxin dayısının da başını kəsirlər. Bu əsnada Sa-

---

[1] Yəni düşərgə salıb oturdu
[2] Azərbaycanda bəzən əhli-sünnə əhli-şiəyə "əcəmi" deyərdilər.

vəcbulaq tərəfdən dənizə bənzər ordunun gəldiyini müşahidə edirlər. Bu qədər süvari ilə, bu boyda qantökən qoşunla döyüşməyə gücləri çatmadığını görürlər. Üzü arxaya çevirib qaçmağa məcbur olurlar. Bu vaxt Miyandüab qalasında bir neçə nəfər topçu və bir ədəd top olmuşdu, ancaq barıtları çox az idi. Bir neçə top atdılar, amma kara gəlmədi və ordu Miyandüabı dörd tərəfdən əhatəyə aldı.

Həmin vaxt dayıoğlunun nəşini görən şeyxzadə[1] Miyandüabdakıları öldürməyə əmr verir. Kirmanlılardan və türklərdən olan Miyandüab əhalisi küçələrin başında toplanıb düşmənin qarşısını alır. Üç saata yaxın dayanıb düşmən ordusuna şəhərə daxil olmağa qoymurlar. Bu vaxt vəliəhdin tövlə naibi Baba xanın qardaşı Cəlilağa ki, o ana qədər Miyandüabın əhalisi ilə müttəfiq və düşmənə müqavimət göstərməkdə əlbir olmuşdu, Miyandüabın bazarını qarət edib düşmənin tərəfinə keçir və miyandüablılarla vuruşmağa başlayır. Top və güllə azlığından əziyyət çəkən əhalidə yavaş-yavaş zəifləmə müşahidə olunur və düşmən güc verib şəhərə girir. Bu hadisə şəvval ayının iyirmi altısı, cümə günü, gecə saat üçdə baş vermişdi.

Rəhmsiz və insafsız kürdlər əlində xəncər, yumruğunda nizə, ovucunda qılınc, məhəllələrə düşüb istisnasız qabaqlarına çıxan hər kəsi – arvadı və uşağı, qocanı və cavanı, alimi və avamı, kasıbı və seyyidi, hər yerdə, hər tində, hər evdə, bağda və məsciddə parça-parça doğradılar və hər yandan qan selini axıtdılar. Şeyxzadə ilə Həmzəağa küçələrdə döyüşçü atlılarını qan tökməyə təhrik edirdilər.

Eşitdiyimə görə, Məhəmmədağa Məmiş Təbrizin böyük yolunu tutub nizəsini qoydu, süvarilərinə adamları öldürməyi qadağan etdi və əhaliyə qaçmağa yol verdi. Bu qətl ilə qantökmə səhərədək davam etdi və adamların çoxusu gecənin qaranlığını qənimət bilib hərəsi bir yana qaçdı. Gecənin qaranlığı pərdəsini üzərlərinə salanlar müxaliflərin qılıncından qurtula bildilər. Günün aydınlığından faydalanan yağılar onları yenidən ölüm-

---

[1] Bundan əvvəl öldürülənin şeyxin dayısı olduğu bildirilmişdi.

saçan qılıncın zərbəsinə düçar etdilər. Çapıb talamaqda böyük məharət sahibi olan Məngurun və Piranın süvariləri çəkisi yüngül və qiyməti baha olan əşyaları, bir neçə nəfər oğlan və qız əsirini və mal-qaranı aparıb yaşadıqları dağlıq yerlərində qoydular.

Miyandüabdakı qətl ilə qarət xəbəri başqa kəndlərə çatan kimi oradan dəstə-dəstə soyğunçular hər cür ev avadanlığı, azuqəsi, mal-davarı və xüsusilə taxılı bol olan Miyandüabı talamaq kəmərini bağlayaraq orada on gün ərzində quldurluq etməkdən əl çəkmədilər. Ondan sonra bütün şəhərə od vurub bir ovuc külə döndərdilər. Mənim araşdırmalarıma görə səkkiz yüz nəfər müsəlman, iyirmi doqquz nəfər erməni və əlli nəfər yəhudi kürdlərin odsaçan qılıncının qurbanı oldular və öldürülənlərin cəsədləri hamısı küçələrdə, yolun ortasında qalıb üfunət verirdi və itlərə yem olmuşdu.

Bundan sonra şeyxzadənin qoşunu dəstə-dəstə üzü Marağanın kəndlərinə tərəf gedərək quldur əllərini oraya uzatdılar və Miyandüabın o tərəfində yerləşən çox zəngin Məlikkəndin əhalisini qətlə yetirdilər və əsir götürdülər, qalanları isə qaçdılar. Mükrinin ən məşhur və alçaq oğrularından və quldurlarından olmuş Əziz Fəttah və Qadirağanın oğlu Minəağa hələ şeyxzadə Savəcbulağa gəlməmişdən qabaq həm Mükri torpağındakı, həm də Miyandüabın ətrafındakı kəndləri talamaqla məşğul idilər və bu dəfə daha geniş əraziyə, uzaq yerlərə əllərini uzadıb qarət etdikləri şeyləri dəvələrlə gətirirdilər.

O biri yandan iranlıların da tör-töküntüləri həmin iğtişaşlar zamanı fürsəti qənimət bilib və əyinlərinə kürd libasını geyib hər yerdə talançılığa məşğul oldular. O cümlədən Məlik Qasım Mirzənin oğlu Rzaqulu Mirzə bu arada sərriştədar[1] Mirzə Abdullahın kəndlərini qarət edib yandırmış, bəzi başqa kəndləri da dağıtmış, ancaq sonda acudanbaşının əlinə keçmişdi.

Digər tərəfdən bu dəhşətli xəbər Miyandüabda, Marağada, Bənabda və bölgənin digər kəndlərində yayıldı və yerli əhali can

[1] Sərriştədar – (burada) vergi məmuru.

ilə malı qorumağı hər şeydən üstün bilərək öz yurdlarını düşmənə təslim edib qaçmağa başladı. İki gündən sonra Həmzəağa şeyxzadəyə xəbər çatdırır ki, İqbalüddövlə bir neçə dəstə əsgərlə və bir neçə topla Sulduza gələrək Savəcbulağa girmək istəyir. Bu xəbəri alan kimi təcili surətdə Savəcbulağa qayıdıb Miyandüabda əlinə keçirdiyi topu hərəkətə gətirməyə çalışır, aciz olduğunu görüb o topu yolda tullayır və İqbalüddövlə haqqındakı xəbəri dəqiqləşdirmək üçün Məhəmmədağa Məmişi Sulduza göndərir ki, o sözün yalan-doğru olduğunu müəyyənləşdirsin. Məhəmmədağaya həmçinin tapşırır ki, xəbəri dəqiqləşdirəndən sonra qayıdan yolda şeyxzadənin hələ əvvəldən zəbt etdiyi, oradakı topları ələ keçirdiyi və bir dəstə əsgəri əsir götürdüyü Lahican qalasına gedib o qalanı dağıtsın və yenidən orduya qoşulsun.

Bundan sonra Məhəmmədağa bu tapşırığı yerinə yetirmək üçün yola düşür, ancaq adamların çoxu bilirdi ki, Məhəmmədağa şeyxzadə ilə ittifaqa öz xoşu ilə girməyib, bəlkə də məcbur olub və deyirdilər ki, İqbalüddövlə Sulduza gəlsə, onunla birləşər və şeyxzadənin ordugahına qayıtmaz. Amma əfsus ki, İqbalüddövlənin gəlişi yalan çıxdı, lakin bu yalan xəbər də faydasız olmadı, çünki kürdləri qorxuya salıb Bənaba yürüşdən çəkindirdi. Bundan sonra Təbrizdən qoşun yetişdi, Məhəmmədağa da orda-burda veyllənərək gözləyirdi ki, bəlkə Urmiya tərəfdən ordu gələr və o, onlara qoşular. İşin sonunda hər şeydən əli üzüldüyü halda şeyxzadənin ordusuna qayıtmağa məcbur oldu.

Miyandüabdakı qətl hadisəsindən sonra Gülabiağanın mülkü Ətamişdə olduq. Bu kəndin ağaları ilə yolüstü söhbət etdik və həmçinin hər tərəfdən ağaların aldıqları məktublardan belə məlum oldu ki, ağaların və bəyzadələrin əksəriyyəti şeyxzadəni ürəkləndirib şəhərə gətirdiklərinə görə peşmandır. Deyirdilər ki, bu nə işdir, bu qətl, bu qarət, bu talan hansı qaydaya sığışır? Çünki şeyx vədələr verirdi ki, onun əsas məqsədi müsəlmanların işini yoluna qoymaq, xalqı İran dövləti ilə ədavət mərəzindən qurtarıb əmin-amanlığı və asayişi bərqərar etməkdir. Şeyxin və Həmzəağanın başçılığı altındakı qoşunun hərəkətindən və

rəftarından bir islah ya xeyir görən olmadı, bəlkə hər an həmin vədə əks nəticə alındı. Həm Mükri torpağı, həm də Əcəm torpağı qarətçilərin və talançıların əli ilə xarabazarlığa çevrilib bərbad hala düşdü. Nə qədər düşündülər ki, bu hərəkətlərdən məqsəd nədir və onlar nədən ötrüdür, məlum olmadı. Bu işdən bir fayda görünmədi, soyğunçuluqdan və yol kəsməkdən savayı.

Bəzi ağalar bu cür nalayiq hərəkətlərin pis nəticələrə gətirib çıxaracağını bildilər. Belə qarətçilər dünyanı fitnə-fəsadla doldurandan sonra İran ordusu əlindən məhv olacaqlar. Rəis Həmzəağa, şeyx və bu fitnə odunun alovlanmasına səbəb olmuş onların qohum-əqrəbası (hamısı dağ yerində çadırlarda yaşayan tayfalardır) qaçıb Mündəfiə dağlarına pənah aparacaqlar ki, əgər təqibə məruz qalsalar, Osmanlı torpağına təcavüz edib canlarını qurtarsınlar. Şeyxzadə də bir neçə süvarisi və həmçinin avara və dələduz əlaltıları ilə özünü bir təhər atasının yanına çatdıracaq. O vaxt ağalarla bəyzadələr yaşayışlarının və məişətlərinin mayasını təşkil edən mülklərindən əl çəkə bilməyib İran ordusu tərəfindən qırılıb məhv olacaqlar. Onların başlarına gələcək o müsibətli gün açıq-aşkar gözləri önünə gəldi və yas içində bildilər ki, işlətdikləri günaha görə yanıb külə dönəcəklər. Həmişə İran dövlətinin tərəfdarı olan və şeyxdən çəkinən o bir neçə nəfər də İran dövlətinin hiddətindən və qəzəbindən nicat tapa bilməyəcəklər, çünki belə deyirlər ki, İran dövlətində işi tədqiq etməzlər və qanuna da tabe olmazlar. Günahkarın da, günahsızın da hökmü birdir.

Beləliklə, işin əvvəlində böyük qüvvənin və ağıllı tədbirin hesabına bu iğtişaşın qabağını ala bilmiş o yalançı Qadirağa onun xəyallarını puça döndərmiş və niyyətlərindən uzaqlaşdırmış belə vəhşi hərəkətləri görəndən sonra daha şeyxzadənin və Həmzəağanın yanına getmədi, onların dəvət məktublarına cavab yazmadı və təhdidlərindən çəkindi. Hamı gözləyirdi ki, onun itaətsizliyi yiyəsi olduğu kəndlərin şeyxzadənin ordusu tərəfindən talan və tarac edilərək yandırılması ilə nəticələnəcəkdir. Lakin onunla gizlicə ittifaq bağlamış və aralarında məktublaşma qapısı daim açıq olmuş Həmzəağa onun kəndlərinə əl

uzatmağa qoymadı. Onun əvəzinə yağının oğlu onu səkkiz yüz tüfəngçidən ibarət ləşgərinə rəis təyin edib ordusuna qoşdu. Bütün camaat elə bilirdi ki, Qadirağa hər iki tərəfi əlində tutub işin axırını mülahizə edir.

Bəli, orduda başçılıq və kənd üzərində hakimiyyət Qadirağanın əlindən çıxandan sonra o, yüz nəfər süvarisi və nökəri ilə Əfşar torpağına yaxın yerləşən Cavanmərd kəndinə gedib orada qaldı ki, lazım olan vaxtda İran ordusuna qoşula bilsin.

İndi isə gəldik Gülabiağanın üstünə ki, Kiriyan kəndinin ağsaqqallarındandır, tövbəkar və mömin adamdır, sufidir və hər işində Həmzəağaya zidd gedib və həmişə ona "Həmzə Pəhləvan" ya da "Divanə" deyib. Şeyx Übeydüllah bir dəliyə oxşayır ki, sadəlövhlüyün uşaq yüyənini Həmzəağa kimi fırıldağın əlinə veribdir. Burada əvvəlcə onun vəziyyətini və məqsədlərini bilmək lazımdır. Şeyxzadənin gördüyü iş uşaqbazdıqdır. Şeyxzadə ilə Həmzəağa kafirdirlər. Necə olur ki, Kitabı olan və namaz qılan müsəlmanın malını halal bilsinlər və qəriblərə bədbəxtlik diləsinlər? Onun kəndinin sakini olan və bütün Mükridə elm və şəriət qaydalarının bilicisi sayılan Molla Abdullah da ona müvafiq qazilərə qarşı hökm sürür. Onun peyğamı tez-tez şeyxin ordusuna gələrdi. Gülabiağanın adına məktub yetişdi ki, "Bu söz-söhbəti kəssin, vaxt məsələsini düşünsün və qoşununu şeyxzadənin ordugahına göndərsin, bəlkə elə özü də gəlsin".

Şeyxzadə ilə Həmzə hər gün onun ünvanına təhdidedici sözlər söyləyirdilər və təqsir onun boynuna atılırdı. Xasiyyətinin dəyişkənliyi ilə seçilən Gülabiağa bəhanə gətirib getməkdən boyun qaçırırdı və deyirdi: "İşimiz sona çatar, mənim kəndlərimi talayıb özümü öldürəcəklər. Mənim gedib o namərdlərə itaət göstərməyimdən yaxşıdır". Həmişə yanında olan qardaşı İbrahimağa ilə Aqariş(?) və bütün ailə üzvləri qorxu ilə vahimə içində idilər ki, onun itaətsizliyi axırda bütün ailənin soyulub qətlə yetirilməsinə gətirib çıxaracaqdır. Xalqın israrla təkid etməyindən sonra məcburiyyət qarşısında qardaşıoğlunu, qardaşlarından birini və bir neçə tüfəngçini şeyxzadənin ordugahına yollayıb özü də bu məsələyə dair məktublar göndərdi, qohum-

larına, xüsusilə Məhəmmədağa Məmişə, kağız yazıb onları şeyxin və Həmzəağanın əleyhinə birləşməyə çağırdı və fəqih Mustafanı Mira(?) ilə də oraya yola saldı. Nəticədə Süleyman xan Çarduli bu cəhdlərdən xəbər tutdu. Onun fikri belə oldu ki, onlarla birləşib Həmzəağanı ordugahın içində öldürsün və yaxınlarını da qətlə yetirsin. Onda şeyxzadə də qaçmağa məcbur olacaq və dünyanı dinc qoyacaq. Lakin astagəl və ağırtərpənən adam olan və çox vaxtını namaz qılmağa məşğul olan Gülabiağanın bu cür niyyətlərlə məqsədlərə qoşulması ağlabatan deyildi, çünki böyük təhlükə qarşısında adama böyük məharət, bacarıq, səriştə və bilik lazım olar.

Miyandüab hadisələrindən sonra ordu Savəcbulağın önündə düşərgə salmışdı. Bundan bir az əvvəl Şeyx Übeydüllah mərhum sərdarın qızını oğlu şeyx Əbdülqadir üçün istəmişdi, lakin cavabında sərdar qızının vəkalətinin həzrət vəliəhdlə olduğunu eşitdi. Bu dəfə şeyx Əbdülqadir fürsəti qənimət bilib evlənmək üçün layiq olan bahalı ləl-cavahiratı hər yerdə axtarırdı ki, məqamı çatanda bu işə əncam versin. Əsgərlər qarət etdikləri şeyləri evlərinə aparıb qayıtdılar, Şeyxin kiçik və böyük ağalara ünvanlanmış ağır məzmunlu və hədə-qorxu ilə dolu göstərişləri hamıya çatdırıldı ki, var-gücləri ilə ordu sıralarına gəlsinlər, çünki təcili surətdə Bənat ilə Marağanı işğal etməyi məqsəd qoymuşdu. Belə eşitmişdilər ki, Etimadüddövlənin[1] başçılığı altında dörd silahlı dəstə Təbrizdən Bənata doğru irəliləyir. Kasıb və fəqirin birisi olan və həmişə Gülabiağanın yanında dolaşan Aqarişə hakim Xanbaba xan tərəfindən aşağıdakı məzmunda məktub gəldi: “Hörmətli qardaşım, bu məktubu Həsən bəy Kəlihəyə, Xəlil bəyə və Məhəmməd Səlim bəyə [verin]. Əgər əvvəl siz, sonra onlar piyadalar, süvarilər, sursat, çadır və digər tədarüklə sabah günortayadək həzrət şeyxin ordusuna qoşulsanız, böyük bəlanı öz başınızdan uzaqlaşdırmış olarsınız. Əks halda mən malınızın, canınızın və rəiyyətlərinizin üstünə gələcək böyük bəlaya əlac tapa bilməyəcəyəm. Üzr ki, atım yoxdur, anam ölüb,

[1] Yəni Mustafaqulu xan Qaragözlü Həmədani

yas içindəyəm (çünki bunlardan birinin anası ölmüşdü) qəbul olunmur. Sizə yazdığım elə bu idi. Qalanı Sizin ixtiyarınıza”.

Yazıq Aqarişin heç gücü də yox idi. Canının qorxusundan onlara cavab göndərib özü də süvaridən-piyadadan nəyi var idi, hamısını yığıb orduya qoşuldu.

Şeyxzadənin yürüşü barəsindəki dedi-qodular böyük şəhərlərin və uzaq yerlərin başının üstünü kəsdirmişdi. Canlarından da keçməyə hazır olan quldurlar mal iyini duyub dəstə-dəstə ordugaha gəlirdilər və Miyandüabın qarətindən sonra pay almaqdan məhrum olduqlarına görə indi “hazıram!” deyib yola çıxırdılar. İş o yerə çatmışdı ki, bütün Mükri torpağında bircə nəfər də yerində qalmadı və şeyxzadənin ordusu hələ hərəkət etməmiş hər tərəfdən minlərcə adam qabağa düşüb Azərbaycana hücuma keçmişdi və bacardıqları qədər yıxıb talamaqdan və soyub öldürməkdən doymurdular. Savəcbulağın bütün kəndlərini və qəsəbələrini Təbrizin həndəvərinədək tutub dağıtmışdılar. Bir kəndə beş-altı nəfər süvari girəndə heç kim onlara tüfəng atmazdı və qaçmağa macal tapmayanlar aman diləyərdilər, ayaqlarına düşərdilər ki, bəlkə canlarını qurtara bildilər. Xof ilə qorxu gücü onların əllərindən bir dəfəlik almışdı və onların belə hala düşmələri kürdləri daha da cəsarətləndirirdi.

Əgər fərz etsək ki, kürdlər əcəmlər yerində olsaydıar, onda onların halı bundan da betər olardı və o gün uzaq olmazdı ki, yüz nəfər kürd bir nəfər əcəmi görəndə dəhşətə düşüb siçan deşiyinə yüz tümən verərdilər. Kürd tayfasının xalqın içində öz igidliyi ilə məşhurlaşması yanlışdır. Vəhşi tayfaların heç birində həqiqi igidlik olmur, çünki igidliklə dilavərlik qeyrətin və təəssübkeşliyin bir növüdür və adamın dinpərəstliyi, vətənpərvərliyi və ad-sanı ona hətta öz canından da yaxın olan məqamda özünü büruzə verər. Lakin kürd tayfası belə şeyləri nəzərə almaz və onlar təəssübkeş də deyillər, çünki dini şüurları zəifdir və məqsədləri yalnız soyğunçuluqdan və onları hər cür fitnəyə və qantökməyə sürükləyən şeyxlərinə kor-koranə itaət etməkdən ibarətdir. Onların bu qorxmazlığı vəhşi heyvanlarda olandandır.

İstər kürdlər olsun, istər başqa azğınlaşmış tayfalar, bir dəfə kötək yeyəndən sonra yüzü bir nəfərdən qorxub qaçar.

İndi isə şeyxzadənin fəaliyyətindən bir-iki söz deyək. Bundan qabaq demişdik ki, şeyxzadə bir cansız surət və hərəkətsiz bədəndir və əgər bəzən onun ağzından səs çıxırsa, həmin səs onun cismindən çıxan və onun istəyinə müvafiq iş görən Həmzəağanın səsi və hökmüdür. Onu da demişdik ki, öz evindən çıxanda əlində bir dinarı da olmamışdı və silahlandırıb özü ilə apardığı o ac və lüt dağlılar da Həmzəağanın başçılığı altında idilər. Onlar oğurluq, qarət və məmləkəri dağıtmaq üçün gəlmişdilər, yoxsa nə Miyandüab hadisəsindən qabaq, nə də indi ordunun sayı on minə çatmazdı. Onun bircə ovuc sursatı və azuqəsi olmamışdı və o barədə heç düşünmürdü, bir saatdan sonra hər şeyi yerdə qoyub gedəcək adam kimi.

Bu on min nəfər oğurluq və qarət yolu ilə əldə etdikləri üzümü, kişmişi və qovunu çörək əvəzinə yeyir, atları dağ otu ilə və rəiyyətlərdən zor və zülmlə aldıqları arpa ilə yemləyir və yoldan keçən karvanları soyurdular. Ümidlərini də ona bağlamışdılar ki, sonra talan etdikləri İrandan çıxıb gedəcəklər və əgər qarətləri yada düşsə, bir həsir qalar, bir də Məmmədnəsir. Miskin, səfil və əliaşağı əsgərləri dağ ətəyində və çöl-biyabanda, yaşayış üçün yararsız və təhlükəli yerdə, azuqəsiz, susuz, çörəksiz qoyub bəxtin onlara yar olmağına bel bağlamışdılar, çünki nə Tehran, nə də Təbriz tərəfdən bir qoşun ya silahlı qüvvə gəlib çıxmadı, halbuki onlar öz işlərində həddindən artıq səhlənkarlığa və səhvə yol verirdilər.

Şeyx Abdullahın bu istilaçılıqdan hansı mənfəət aldığını və hansı məqsəd güddüyünü nə qədər aydınlaşdırmağa çalışsaq da, heç nə anlaya bilmədik. Əgər xeyri bölgənin azadlığı olmuşdusa, bu qədər qan tökməzdi və hər yeri dağıtmazdı, çünki bunların hamısı bölgənin qanunlarına sığışmır. Əgər fikri öz məzhəbdaşlarının yaşayışını yaxşılaşdırmaq idisə, oğlunu Həmzəağa kimi niyyəti və məqsədi şeyxin nəzəri və dünyagörüşü ilə çox vaxt ziddiyyət təşkil etdiyi birisinin yanına göndərməzdi. Belə olan halda biz şeyxi başıboş, dəli, əsəbi, qarətçi və savadsız bir

adam kimi tanıyırıq və baş verənləri Həmzəağanın intiqamı kimi dəyərləndiririk. Həmzəağa özü dəfələrlə özünün günahkarlıqda ittiham edilən adam olduğunu bəyan etmişdi və dar ayaqda qaçıb əmirin qəzəbindən xilas olmuşdu. O, canının qorxusuna düşüb və bədəninin həlak olmasından çəkinib azadlığını əldən verdi, böyüklüyünü və rəis yerini itirdi, həyatın qədrini və ləzzətini bilmədi. O hadisələr onu insanlıqdan çıxarıb heyvan halına gətirdi və ürəyi daş kimi bərk oldu. Ürəyindəki arzu hər cür hiylə və tədbirlə iranlılardan intiqam almaq, qanı sel kimi axıtmaq, öldürülənlərdən təpə düzəltmək, şəhəri dağıtmaq və uzun müddət Mükri hakimlərinin aldıqları rüşvəti faizi ilə məxluqdan qopartmaq imiş.

Deyildiyi kimi, uzun müddət zənciri boynuna keçirib həyatın acılığını çəkirdi. Lakin özü deyirdi ki, “Şahzadə öz mənfəəti xətrinə məni müsibətə düçar etmək və ömrümü qısaltmaq istəyirdi. Bu halda var gücümlə vuruşmalı və bütün həyatımı bu işə qoymalıyam”. Ağalara da deyirdi ki, “Sizi də öz günümüzə salarıq və günahkar edərik, indi istəyirsiz müharibə edin, istəmirsiz etməyin”.

Həmzəağanın şeyxin ordusunda Savəcbulaq əməliyyatından öncəki fikri belə olmuşdu. Həmin vaxt Savəcbulaqda qəhətlik yarandı. Həmzəağa sahibinin qorxudan qaçdığı qəsəbə anbarını xaricdən və daxildən zəbt etməyə əmr verdi. Ziqədətül-haram ayının doqquzunda şeyxzadənin ordusu Miyandüabı dağıtmaq hərəkətinə keçdi. Şexzadə Savəcbulağın bütün əhalisindən, hətta alimlərlə hacılardan ordu sıralarına gəlməyi tələb etdi. Bunlar da hamısı məcburi halda orduya daxil oldular, yalnız naxoşlanmış imamcümə demişdi ki: “Gedin, döyüşün, vurun, dağıdın, günahı mənim boynuma”. Ordu toplaşıb üzü Bənaba tərəf irəlilədi.

Bu vaxt Zudi elinin başçısı, Həmzəağanın qardaşı Səvarağa və Qumqalalı Həsənağa Ətəmişə daxil olub şeyxzadədən Cavanruda gedərək Qadirağanı hər vasitə ilə orduya gəlməyə məcbur etmək tapşırığını aldılar. Orada nahar yeyərkən söhbət edəndə Gülabiağa təəccüb və heyrətlə demişdi: “Heç belə vaxtda ümumi birlikdən uzaq olub evində oturarlarmı?” Bu məsələ ətrafında

mübahisə düşdü və Səvarağanın təkliflərinə cavab olaraq Gülabiağa demişdi ki: “Həmzəağa ilə şeyxzadənin hərəkətləri uşaqbazlıqdır və Mükrinin mənafeyinə ziddir. Siz çoxunuz sadiq və sadəlövh adamlarsınız, niyə arvad-uşağınızı şəhərə gətirmədiniz? Onda adamlar sizə arxayın olardılar. Siz ki köçəri tayfalarsınız və məlumdur ki, dar ayaqda qaçıb uca dağlarda gizlənərsiniz, qalanları isə düşmənin əlində qoyacaqsınız. Qadirağanın üzü qara olsun. Əgər fikri düz olsaydı, işlər bu yerə çatmazdı. İndi yəqin peşmandır, ancaq faydası yoxdur”.

Həmin söhbətdən sonra Səvarağa ilə Həsənağa Ətəmişdən çıxıb getdilər. Qadirağa bir az ondan qabaq Əfşar torpağından keçib Gərrusa, Həsən Əli xanın yanına getdiyinə görə onlar məcbur olub o biri yolla ordugaha gəldilər. Bu vaxt məlum oldu ki, Qadirağanın adamı onun bütün ağalara ünvanlanmış teleqraf cavabını Təbrizdən Müstövfiyülməmalikdən* gətirib. Tənə ilə dolu teleqramın məzmunu belə idi: “Sizin ittifaq ilə birliyiniz harada qaldı ki, düşmənə öz torpağınıza yol verdiniz? Əgər siz bir adam kimi düşmən qarşısında dayansaydınız, kömək də sizə gəlib yetişərdi”.

Osmanağa Kürək bu vaxtadək özünün çöldəki mövqeyindən hərəkət etməmişdi. Bu dəfə məcbur olub öz qoşununun yarısını yığdı və şeyxin ordusuna qoşuldu. Biz bu vaxt Ətəmişdən şəhərə qayıtdıq və bir neçə gün orada qaldıq. Ziqədətül-haramın on dördündə şeyxin ordusu Miyandüabdan çıxıb Mülkkəndinə getdi. Bu dəfə qarət etmə istəyi həddindən artıq camaatı yerindən qaldırdı. Süvarilərin sayı doqquz min, tüfəngçilərin miqdarı səkkiz minə yaxın olmuşdu. Qarət etməkdən ötrü toplaşan silahsızların sayı isə on mindən az olmazdı. Amma bu orduda tam nizamsızlıq hökm sürürdü. Nə böyük tanıyan var idi, nə hökmdar. Güc sahibi hökmranlıq edirdi və bu baha başa gələn ordunun azuqə məsələsini düşünən olmamışdı. Yalnız şeyxzadə və onun ətrafındakıları üçün çörəyi Savəcbulaqdan, ağalarla bəyzadələr üçün isə onların öz kəndlərindən gətirirdilər. Orduda bəziləri viran etdikləri kəndlərdə qalan taxıldan istifadə edirdilər və on minə yaxın adam Azərbaycanın ətraf məntəqələrinə səpələnib

soyğunçuluqla məşğul olurdu. Onlar hətta Təbrizin yaxınlığındakı Səhənd yaylağına, Qaraçəmənə, Tehran yoluna və Ərdəbil tərəfə təcavüz edirdilər və ən çox oğurlanan çöldəki minik və yük heyvanları idi.

Şeyxzadə ordunun belə təhlükəli vəziyyətdə olduğunu, aclıqdan və ərzağın çatışmamazlığından hansı günə düşdüyünü görəndə qəflət yuxusundan ayıldı və kəndlərdə olan-qalan azuqəni yığıb Savəcbulağa gətirməyi və Feyzüllah bəyin oğlu Naibülhökumətin vasitəsilə şeyxin xüsusi müridi olan Seyyid Salehə təhvil verməyi əmr etdi. Bu minvalla bir neçə gün ərzində yeddi yüz yük taxıl anbarlara dolduruldu.

Şeyxzadə Mülkkəndidə ordugah salan zaman Gülabiağa evində tək-tənha oturmağı mənasız bilib öz məqsədlərinə nail olmaq və dehbəkriləri birləşdirməkdən ötrü evindən çıxıb ordugaha gəldi. Həmin vaxt öz qohum-əqrəbası ilə dalaşdı. Onların şeyxə beyət etməyin əleyhinə olduqlarını gördü. Sonra hakim Xanbaba xanı qabağına salıb ona şeyxin qaydasız hərəkətlərini göstərdi və çox sərt davrandı ki, bəlkə bu birliyin ipini qırıb və kənara çəkilib hərb ittifaqından uzaqlaşdı. Dəstə şeyxzadənin çadırına daxil olanda gördülər ki, Xanbaba xan öz əhdinə xilaf çıxaraq zəifliyini nümayış etdirib şeyxzadəyə itaətini, hörmətini və sədaqətini göstərir. Canı boğaza yığılmış Gülabiağa kobudcasına bəyan edir ki, “Bu cür vəhşi hərəkətlər, qətl və qarət həm dinimizə və ayinlərimizə ziddir, həm də ölkə idarəçiliyi qanunlarından uzaqdır”.

Şeyxzadə Gülabiağanın gəlişindən sonra özünə sadiq qalan ağalardan birinin vasitəsilə dehbəkrililərin pis niyyətli olduqlarını anlayıb Gülabiağaya cavab verir ki, “Mən din-məzhəb qanunlarına səndən yaxşı bələdəm və idarəçilik qətl ilə qarəti tələb edir”. Gülabiağa öz fikrini bildirərək deyir: “Mən dava etmirəm. Əgər siz öz istəyinizlə bu məmləkətin sahibi olsanız, mən vətəni tərk edib başqa yerə gedərəm”. Beləliklə, o, qəhr edib çölə çıxdı. Bu arada Şeyx Übeydüllahdan oğlu şeyx Əbdülqadirə Miyandüabdakı qətlə dair hədə-qorxu və kədərlə dolu bir kağız gəlir ki,

belə rəftar, qətl və qarət onun məqsədlərinə və davranış qaydalarına ziddir.

## Digər tərəfdən

Həmzəağaya xəbər çatdırırlar ki, "Dehbəkrililər sənin canına qəsd edəcəklər". Gülabiağa qaradaşıoğlunu, öz oğlunu və tüfəngçilərini götürüb evinə tərəf yola düşür, lakin günbatandan sonra yoldan dönüb, ailəsini, evini və həyatını düşmən əlində qoyub Bənaba gedir və İran ordusuna qoşulur. İran ordusu o vaxt düşmən qarşısında dayanmaq üçün Bənabda səngər qazmışdı. Gülabiağanın bu cür İran ordusuna gəlməyi onun üçün çox qorxulu idi, çünki şeyxzadənin qələbəsi təqdirdə həm canı, həm mülkü, həm də malı təhlükə altına düşəcəkdi.

İran ordusuna şeyxzadənin ordusundakı daxili çəkişmələr və birliyin olmaması xəbəri çatmışdı və onları düşmənlə döyüşməyə ruhlandırmışdı. Xəbərin məzmunu belə idi: "Müxalifətçilərin çoxluğundan narahat olmağa dəyməz. Düşmən sayca üstün olsa da, cüzi miqdarda olanlardan savayı heç kim müharibəyə getməz". İran ordusu lazım olan yerlərdə qəflətən səngərlər qazmışdı. Gülabiağanın gəlişi İran ordusu üçün gözlənilməz bir sovqat oldu. Məlum oldu ki, şeyxzadənin qoşun çəkməsi və əsassız xəyallarının belə acıq nəticələrə gətirib çıxarması Gülabiağanın könlünü kövrəltmişdi. Əgər başqa ağalar da Gülabiağa kimi hərəkət edib işin lap əvvəlində ağıl və dərrakə sahiblərinin qərəzsiz sözlərini eşitsəydilər, min cür günahın və təxribatın qarşısı alınardı və iş bu yerə gəlib çatmazdı.

Şeyxzadə ilə Həmzəağa Gülabiağanın İran ordusuna getməyindən xəbər aldıqda çox hirslənib qəzəblənərək dehbəkrililərin qohum-əqrəbasını xəyanətdə günahlandırdılar və onlara qarşı sərt mövqe tutdular. Hətta Gülabiağanın kəndlərinə od salmaq istədilər, lakin Məhəmmədağa Məmişin və digər dehbəkrillilərin özlərinə müttəfiq olduqlarını nəzərə alaraq bu fikirlərindən döndülər. Bu arada məngurilərdən bir nəfərlə Feyzüllah bəyin adamlarından bir nəfər arasında qarət edilmiş malın üstündə

dava düşdü. Get-gedə iş o yerə çatdı ki, bir tərəfdən Həmzəağanın oğlanları məngurilərlə birlikdə və digər tərəfdən Feyzüllah bəyin oğlanları öz adamları ilə qarşı-qarşıya durdular və hər kəs özünə tabe olanları bir yana çəkdi. Lakin şeyxzadə ortaya düşüb bu ixtilafı aradan götürərək səhvi düzəldə bildi.

Şeyxzadə və onun təbəələri ilə dehbəkrilər və bəzi bəyzadələr arasında soyuqluq və ziddiyyət o dərəcəyə çatdı ki, ikiüzlülük yarandı. Həmin günün gecəsi dehbəkrililər, Məhəmmədağa Məmiş və bəzi bəyzadələr öz arzularının batil olduğunu və xəyanəti görüb yerindən durdular, bir-birini çağırdılar, min nəfərə yaxın piyada ilə süvarini topladılar, çadırlarını yığdılar və İran ordusuna qoşulmaq üçün yola düşdülər. Bir saat yol gedəndən sonra yenidən götür-qoy edib öz hərəkətlərindən peşman oldular və dayandılar, çünki şeyxzadənin ordusuna qoşulmağı daha düzgün saydılar.

Dedilər ki, biz nəyə arxayın olaraq İran ordusuna qoşuluruq? Ola bilər ki, biz kəşfiyyat aparmadan cəhd etsək, bizi elə o məqamda tutub hamımızı öldürərlər. Əgər bizim sözümüzə inanmasalar və bizi qəbul etməsələr, sabah şeyxzadə ilə Həmzəağa bundan məlumat alıb bizdən intiqam alarlar, kəndlərimizi soyub yandırarlar, arvad-uşağımızı əsir götürərlər, özümüzü də öldürmək istəyərlər. Beləliklə, biz Əli aşından da olacağıq, Vəli aşından da. Məsləhət odur ki, biz öz yerimizə qayıdıb çadırlarımızı bərpa edək və qıraqda oturub bu işin aqibətini gözləyək.

Şeyxzadə görür ki, orduda nizamsızlıq hökm sürür, əksəriyyət qarət etmək arzusu ilə yaşayır, aralarında birlik yoxdur, o biri yandan da xəbər gəlir ki, altı nəfər məngurlu və beş nəfər səvarlı Marağanın o tərəfindəki kəndi qarət edib qayıdan yolda Marağanın yanında Marağanın əsgərləri ilə süvarilərinə rast gəldilər, dörd nəfər xilas ola bildi, yerdə qalanların hamısı isə öldürüldülər. Bu halda şeyxzadə Bənaba hərəkət etmək əmrini verir, Bənabın yarım fərsəngindəki* Kəhrizəbazarı ordugah salmaq üçün seçir və oradan kiçik təpələrlə Bənabın ətrafından keçib şəhərin üzərinə yürüş etməyi qərara alır.

Bənaba yaxınlaşan kimi qoşuna əmr verir ki, Bənabın altındakı təpələrdən enib cərgələrə düzülərək cəm halda yürüşə başlasınlar və bayrağı Seyyid Kamala verib onu qoşunun önünə göndərir, özü isə adamları uca səslə döyüşə və yürüşə təşviq edir. On-on beş dəqiqə içində cürbəcür yollarla ordusunun canına vuruşmaq əzmini salır. Lakin döyüşmək istəməyənlər öz adamları ilə dağlara və təpələrin arasındakı dərələrə səpələnib bu işdən boyun qaçırtdılar. İrəliləməyi heç xəyallarına da gətirmədilər və hərdən bir tüfəngini boşatsalar da, heç nişan almayıb havaya atırdılar.

Şeyxzadə özünü pərt etmək istəməyərək məcbur olub öz süvariləri ilə, eləcə də Həmzəağa ilə, Məngur, Zərza, Zudi və Piran süvariləri ilə, Əziz Fəttahla və Qadirağanın mərkəz dəstəsi ilə ki, hamısı bir yerdə dörd yüz-beş yüz süvari və üç yüz nəfər piyada idilər, aşağı düşdü və təpələrin altındakı qüllənin və Bənab bağlarının divarlarının arxasında düzülüb döyüşə başladı. Əksəriyyəti "martini" olan tüfənglərdən fasiləsiz atəş açdılar. Güllələr iranlıların çadırlarına dolu kimi yağıb onları deşik-deşik etmişdi və səngərlərin arxasındakı çoxlu mal-davarı yerə yıxmışdı. Lakin İran ordusunun səngərlərdə gizlənən və arası kəsilmədən top atan döyüşçüləri, habelə öz çadırlarındakı çalalarda nicat tapan sərkərdələr, bir neçə nəfər xidmətçi ilə nökərdən başqa, tələf olmadılar. Şeyxzadənin ordusu çox uzaq yerlərdə, dərə-təpələrdə gizləndiyinə görə və şeyxzadənin özü bürcün divarı arxasına pənah gətirdiyi üçün onlara da bir o qədər zərər dəymədi.

Kürd süvariləri şəhərdən xaric və səngərdən uzaq olan məhəlləyə girib oranı qarət etdilər və eyni zamanda yolun üstündə olan bəzi başqa yerləri də imkan daxilində dağıtdılar. Bəzi kürd süvariləri və piyadaları Küçəbağda və şəhərdən kənar olan məhəllələrdə dəstə şəklində mühafizə məqsədilə gəzən Ağa Əli Qazının adamları və Bənabın əhalisi tərəfindən qətlə yetirildilər. Bir neçə dəfə şeyxzadənin hökmü ilə qarapişənglilər əllərində qılınc toplara sahib olmaq üçün səngərdəki topların üstünə hücuma keçdilər. Amma bəxtiyari süvariləri rəisləri Məhəmməd Hüseyn xanın əmri ilə başqa süvarilərlə birləşib səngərlərdən

çıxdılar, onların qarşısını aldılar, on-on beş nəfərini öldürdülər, qalanlarını isə geriyə qaçmağa məcbur etdilər.

İki gün, iki gecə bu döyüşün alovu səngimədi, hər iki tərəfdən saysız-hesabsız güllələr atıldı, lakin onların “martini” tüfəngindən atdığı güllələrə bunlar top atəşi ilə cavab verdilər, çünki bunların tüfəngdən atdıqları güllələr onlara çatmırdı. Bu həngamədə öz ordusunun böyük hissəsinin geri oturduğunu və ayrı-ayrı yerlərə səpələndiyini, azuqənin yoxluğunu və müharibənin nəticəsinin onun üçün acınacaqlı olacağınıgörən şeyxzadə çıxış yolu kimi arxaya çəkilib ordugahını İran ordusundan uzaq mövqedə salmaq qərarına gəldi ki, ən azı çox qorxduğu güllələrdən və toplardan özünü qoruya bilsin.

Şeyxzadə bürcün içində çay içməyə məşğul olarkən bir top mərmisi düz bürcə dəyib bütün binanı lərzəyə gətirdi. Şeyxzadə vahiməyə düşüb qaçdı və Kəhrizkəndinədək atın cilovunu çəkmədi. Gecəni orada başa vurub sabahısı Mülkkəndinə qayıtdı. Marağa Bənab qədər istehkamlara, əsgərlərə və müdafiə avadanlığına malik olmasa da, şeyxzadə o tərəfə yollanmadı, halbuki oranı zəbt eləmək asan iş idi. Sonradan məlum oldu ki, şeyxzadə iki ordu ilə şəhərin arasında qalaraq böyük təhlükə ilə üzləşməkdən qorxmuşdu. Digər tərəfdən də o, ümidini bir neçə gündən sonra qayıdıb Bənabı almağa və ardınca Marağanı tutmağa bağlamışdı.

Aparılan araşdırmalar göstərir ki, kürdlərdən üç yüz nəfərə qədər Bənabın məhəllələrində səngərlərin qarşısında öldürülmüşdü. Bənabı işğal etmək cəhdinin uğursuzluqla sonuclanmağının səbəblərindən biri də dehbəkrililərin və əksər tayfaların döyüşə müdaxilə etməmələri və bitərəf qalmaları olmuşdu, yoxsa on beş min nəfərin birgə əməliyyatı Bənabı ələ keçirmək üçün kifayət idi, çünki Bənabdakı ordu əhli üç dəstə sərbazdan və bir neçə süvari dəstəsindən artıq deyildi. Bu vaxt Bənabın əhalisi və Əcəbşirin altındakı kəndlər yığışıb istehkamlar qurdular və müqavimət göstərə bildilər. Beş yüz nəfər kürd süvarisi oradan məyus halda qayıdıb başqa kürd kəndlərini qarət etdilər.

Bu əsnada Həmzəağanın qardaşı Kaküllah öz mənsublarından bir neçəsi ilə bu işin aqibətini götür-qoy edib və bu iğtişaşın nəticəsinin çox pis olacağı qənaətinə gəlib bəzi xoşagəlməz mətləblər üstündə qardaşı Həmzəağa ilə dalaşdı və soyğunçuluqla əldə etdiyi saya gəlməyən qənimətləri yığıb tabeliyində olan Məngur süvariləri ilə öz mülkünə tərəf o fikirlə yollandı ki, əgər İran sərhəddindən təcavüzə məruz qalsa, Osmanlı torpağına rədd olsun. Osmanlı sərhəddinə çatanda Osmanlı sərhədçi əsgərləri hər yandan yolunu kəsərək ciddi maneələr törətdilər. Məcburiyyət qarşısında yenidən öz mülkünə döndü, ancaq bundan qabaq qarət etdikləri ilə kifayətlənməyərək səksən nəfər süvarisini qənimət almaq məqsədilə Bənaba tərəf göndərdi, çünki o günahkar qoşun Bənabı qənimətsiz tərk etmişdi. Lakin Bənabın işğal olunmadığını və şeyxzadənin başçılıq etdiyi ordusunun bəhrəsiz qaldığını görüb əliboş öz yerlərinə qayıtıdlar. Şeyxzadə də bir-iki gün ara verib Çəlikə gəldi və oradan azuqənin çatışmamazlığı və orduda yaranmış aclıq səbəbindən bütün qarapişənglilləri tərxis etməyə məcbur oldu.

Biz şəhərdə olarkən Məngur yolundan keçmək istəyən qarapişənglilərin şəhərin küçələrində veyllənib aclıqdan əllərinə keçənlərlə – qovun qabığı, kələm, çuğundur və buna bənzər şeylərlə dolandıqlarını gördük.

Davada şeyxzadə ilə Həmzəağa ürəklərində xain və özlərinə az qala düşmən kimi tanıdıqları və orduda qalmaqlarının faydasız, bəlkə fitnə-fəsada bais olduqlarını bildikləri Qarapapağın və Məmişin süvarilərini tərxis edib həmin çağda Urmiyaya hücuma keçmiş böyük şeyxin ordusuna qoşulmağı tapşırdılar. Onlar həmçinin böyük şeyxə məktub yazaraq məsələni təfərrüatı ilə izah etdilər və bunların əvəzinə sədaqətli, müti və canla-başla xidmət edəcək başqa süvariləri göndərməyi istədilər.

Məhəmmədağa Məmiş öz süvariləri və qarapapaqlılarla şeyxzadənin ordusundan ayrılıb böyük şeyxin yanına getməyin əvəzinə hərəsi öz yerinə yollanıb hadisələrin gedişatını izləməyə məşğul oldular.

Kəndləri Mükrinin sərhəddində yerləşən Süleyman xan bu iğtişaşlar başlayanda bütün kəndlərini boşaldıb yaxşı qorunan və etibarlı yerdə “sığınaq”[1] etdi və özünün rəşadətli süvariləri ilə düşmən qarşısında möhkəm dayandı və hətta arabir onların üstünə hücuma da keçib müəyyən hissəsini öldürdü. Bir dəfə qarapişənglilərdən böyük dəstə Marağanın yaxınlığındakı kəndlərə oğurluq məqsədilə gələndə Süleyman xan bir neçəsini öldürüb başlarını kəsmişdi, qalanlarını isə pərən-pərən salmışdı. Süleyman xan yeganə adam idi ki, şeyxzadənin qoşunu qarşısında dayanaraq igidliyini və cəsarətini göstərmiş, hər tərəfdən şeyxzadənin ordusuna zərbələr endirmiş və bir addım belə geri çəkilməmişdi və bu yolla öz rəşadətini, kişiliyini və xidmətkarlığını həm dövlətə, həm də başqalara nümayiş etdirmişdi.

Şeyxzadə Bənabdan qayıdarkən Çəlikdə olan vaxt ordudan beş yüz nəfər ən qorxmaz süvarini seçib Süleyman xanın üstünə göndərdi ki, onu və onun adamlarını qovub öldürsün və Bənabın ordusu ilə birləşməyə qoymasın. Lakin bu süvarilər bir saat yol gedəndən sonra vəziyyəti nəzərdən keçirib fikirləşdilər ki, birdən Süleyman xana bir yandan kömək yetişər. Onlar həm də əksər ağaların bitərəf qalıb özlərini mümkün qədər təhlükədən qorumağa çalışdıqlarını gördülər. Bunlar da xata-balaya düşmək istəməyib ordugaha qayıtdılar. Şeyxzadə vəziyyətin bu cür olduğunu müşahidə edib və onların hüsn-rəğbətini qazanmaqda özünü aciz görüb atasından təlimat alanadək Savəcbulağa qayıtmaq qərarına gəldi. Bu halda Zərzanın, Məngurun, Zudinin və Piranın başçıları kimi şeyxzadə ilə yekdil olan bir neçə nəfərdən başqa bütün ağalarla bəyzadələr məzuniyyət istədilər ki, gedib iki-üç gündən sonra tam qüvvə və hazırlıqla yenidən ona qoşulsunlar.

Məzuniyyət vaxtı bundan əvvəl şeyx tərəfindən Savəcbulağın hakimi yerinə təyin olunmuş Xanbaba xan iki gündən sonra öz kəndindən yürüyüb İran ordusuna qoşuldu. Başqa ağalar da şəhərə getməyib iranlıların yaxınlaşmasını gözləyirdilər ki,

[1] Bu söz mətndə məhz belə yazılmışdır.

Xanbaba xan kimi onlara qoşulsunlar. Ziqədə ayının iyirmi yeddisində ingilis konsulu Urmiyadan Savəcbulağa gələrək böyük şeyxin məktubunu şeyxzadəyə təslim etdi. Şeyxzadə də Həmzəağaya, Əziz Fəttaha və Qadirağanın oğlu Minəağaya yüz əlli nəfər süvarini verib yola saldı ki, onu Mükri torpağından keçirib qayıtsınlar. Onlar da konsulu Bənabın dörd fərsəngliyinədək* müşayiət edəndən sonra onu yola saldılar, özləri isə iki gün orada qalıb dolaşdılar və axırda şəhərə qayıtdılar. İngilis konsulunun dediyinə görə, o, Bənaba daxil olub hakimiyyət sahibləri və sərkərdələrlə görüşdü, onları düşmənin üstünə getməyə çağırdı və qarşı tərəfin hərbi hazırlığı barədə onlara xəbər verdi.

Ziqədənin iyirmi səkkizi ictimai təminat vəziri cənab Həsən Əli xan[1] bir dəstə Gərrus əsgəri və fərarilik edən gündən gəlib Gərrusda vəzirin yanında oturmuş Qadirağa ilə Marağanın həndəvərinə gəldilər. Onun əməllərindən xəbərləri olan və oğlu Minəağanı da bir günahkar kimi tanıyan Marağa əhalisi onu qəbul etməyib şəhərə girməyinə mane oldular. Qadirağa Marağanın yaxınlığındakı kəndlərdən birində gecələməyə məcbur oldu. Cənab Həsən Əli xan Marağaya daxil olur, şəhərlilər onu çox yaxşı qarşılayırlar. O, sabahkı gün öz qoşunu ilə yenidən Qadirağaya yoldaş olub Bənaba yetişir.

Amma İran ordusu bu məqamda vaxtı əldən verdi. Bir neçə gün intizarda qalıbzihiccə ayının birində Çəlikə tərəf hərəkət etdilər. İran ordusu Çəlikə çatan kimi dərhal altı min piyadası və iki min beş yüz süvarisi ilə şeyxzadənin qoşununu təqib etməyə başladı. Şeyxzadə də bu zaman süvariləri ilə piyadalarını Savəcbulağın ətrafında yerləşdirib özü şəhərin içində çaşqın vəziyyətdə qalmışdı. İranlılar çox asan və rahat bu məsələni həll edə bilərdilər, lakin bunun əvəzinə bir neçə gün orada bikar qaldılar, halbuki Gülabiağa Etimadüssəltənəyə şeyxzadənin ordusunun

---

[1] Söhbət əmiri-nizam Həsən Əli xan Gərrusidən gedir. O, həmin vaxt gərrusilərdən və şahsevənlərdən ibarət qoşunla Etimadüssəltənənin köməyinə gəlmişdi.

gücündən məlumat verərək ondan şəhəri mühasirəyə alıb şeyxzadə ilə Həmzəağanı tutmaq ya öldürmək üçün min nəfər süvari istəmişdi. Ancaq onun xahişinə məhəl qoyulmadı, Gülabinin və İsmayılağanın qohumlarından iki nəfər Çəlikə gələrək darüssəltənəyə vəziyyəti izhar etdilər və ordunun şeyxzadənin arxasınca getməyi məsləhət gördülər.

Bu vaxt beş yüz nəfər davakar şahsevən süvarisi Fərzi xanın və Nəcəfəli xan Yurtçının başçılığı altında Təbrizdən gəlib, heç Çəlikdəki ordu ilə bir cəbhədə olduğunu Etimadüssəltənəyə bildirməyib ayrı yolla Mükri torpağına daxil oldular, Bərfəvanı, Qusqulanı və Qızılçanı başdan-ayağa soyub yandırdılar və oranın əhalisindən bir çox arvadı və kişini qətlə yetirdilər. Bundan sonra onlar əllərinə keçirdikləri qənimətlə və öldürülənlərin başları ilə Etimadüssəltənənin ordusuna qoşuldular. Etimadüssəltənə əvvəl onların rəislərini belə özbaşınalığa görə danlayıb qarət yolu ilə əllərinə keçirdiklərini onlardan almağa hökm verdi, lakin şahsevən süvariləri Etimadüssəltənəyə cavablarında dedilər ki, onlar bu qətl ilə qarət əmrini Təbrizdəki hökumətdən alıblar və əgər Etimadüssəltənə razı deyilsə, onlar heç orduda qalmazlar. Bu söhbətdən sonra Etimadüssəltənə onların qarət etdiklərini özlərində saxladı. Şahsevənlər şeyxin oğlu və Həmzəağanın üstünə getmək istədilər, ancaq Etimadüssəltənə icazə vermədi.

Belə bir halda şeyxzadə dörd yüz nəfərlə bir neçə gün şəhərdə qalıb ağalarla bəyzadələrdən heç kəsin şəhərə gəlməyəcəyini, bəlkə bəzilərinin gedib İran ordusuna qoşulduğunu anlayır. O, özünün İran ordusuna müqavimət göstərmək iqtidarında olmadığını görüb və ağaların belə hərəkətlərindən bərk qəzəblənib şəhərdən çıxır, orduya qoşulmuş dehbəkrililərə məxsus bir neçə kəndə od vurub yenidən şəhərə qayıdır. Lakin Həmzəağa ilə zərzalılar hərəkətə keçib şəhərdən qaçmaq üçün hazırlıq görürlər və şəhər əhalisinə də çıxıb getməyi nəsihət edirlər. Onlar gedəndən sonra yerdə qalan bir neçə Məngur süvarisi küçə-bazarda qarətçiliyə məşğul olur və İran tacirlərinin o vaxtadək əl vurulmamış hücrələrinə hücum edirlər. Ancaq şəhər sakinləri müda-

fiəyə qalxırlar və bu vaxt güclü atışma baş verir və hətta hər iki tərəfdən öldürülənlər də olur. On iki dükan dağıdılır və içəridəkilər qarət olunur. Şeyxzadə İran ordusu ulə üz-üzə gəlmək qorxusundan Lahican yolunu seçir ki, oradan Uşnuyəyə və Mərgura keçə bilsin.

Yazıçı bəndənin fikrincə, Miyandüab hadisəsi sakinlərin qətlinə, qan axıdılmasına, malların oğurlanmasına və qarət edilməsinə, oğulların məhvinə bais oldu. Bəlkə biz birinci kəs olduq ki, bu vəhşilikləri törətmiş bəşərəbənzərlərin heyvanlığını və dəliliyini görüb dedik: bu ayrı bir tarixdir, ruhanilərə itaət etmək və iqtidarın onların əlində olmağı həqiqətən də həmişə zərər gətirmişdi, lakin əgər birisi məntiqlə mülahizə etsə, adıçəkilən Miyandüab hadisəsi "dinsizin əlindən imansız gələr" məsələsidir. O mənada ki, bu əməliyyat Mükri ağalarının arasında birliyin olmaması və ixtilafların yaranması ilə nəticələnmişdi. Əvvəl Qadirağanın onlardan zəhləsi getdi və o, başqaları müharibəyə vadar etdi. Şeyx ağılsızın və dəlinin birisidir və onun gördüyü mənasız və məqsədsiz iş xalqın gözündə Mükrinin əhalisi üçün təhlükəlidir və onların mənafeyinə ziddir.

Miyandüabdakı qətl ilə qarət əməlləri şeyxzadənin ordusunda təfriqənin əmələ gəlməsinə səbəb və başqa yerlərə yürüşün təxirə salınmasına bais oldu. Əgər Miyandüabdakı qətl təfriqəyə səbəb olmasaydı, və ordu itkisiz, tam heyət və qüvvə ilə Bənaba, Mərağaya və hərbi qüvvəsi olmayan digər yerlərə hücuma keçsəydi, o yerlərdə təslim olmaqdan başqa bir çarə tapılmazdı, müqavimət göstərdikləri təqdirdə isə bu əməliyyatlar qanın arası kəsilmədən tökülməsinə gətirib çıxaracaqdı və bəsirət sahibləri ilə siyasətşünasların vətən namusuna zidd kimi dəyərləndikləri işlər baş verəcəkdi.

Onu da deyək ki, birləşib bu ittifaqı yaratmaq üçün heç də qətl və qarətlə məşğul olmağa ehtiyac yox idi. Ancaq bütün işlər Həmzəağanın tədbiri və sərəncamı ilə həyata keçirildiyinə və əsgərlərin idarə eilməsi də onun ixtiyarında olduğuna görə məhz o, belə məqsədi qarşısına qoymuşdu, çünki başa düşürdü ki, bu boyda böyük, lakin ac-susuz, azuqəsiz-cibxərcisiz ordunu irəli

apara bilməz, amma qətl ilə qarətdən sonra onların ağızlarını “şirin edəcək”. O, əvvəl müharibəyə başlamağın şərti kimi bütün ordunun onun başına yığılmasını istəmişdi, lakin ordunun böyüklüyü İran tərəfinin xeyrinə oldu. Biz şeyxzadənin Bənabdan qayıdandan sonra şəhərə gələcəyini öyrənib şəhərdən çıxdıq, çünki İran ordusunun irəliləməsini bilirdik. Bu halda şeyxzadə ilə Həmzəağa öz zəifliyini anlayanda və ağaların arasındakı təfriqəni görəndə üzü qaçmağa qoydular. Qaçarkən onların yolkəsən təbəələri şəhərin əhalisinə mümkün qədər çox zərər ilə xəsarət yetirdilər. İran ordusu şəhərə top atəşini aça bilərdi və bu halda biz lazımi hazırlıq görüb Məcid xanın Miyandüaba yaxın yerləşən kəndlərinə gəldik və İran ordusunun Tikantəpəyə daxil olması və ordunun böyük sərdarı Həmzə Mirzənin[1] (xalq istər ordunun nizama salınması işində, istər də kürd məsələsində ümidini ona bağlamışdı) vəfatı xəbərini orada eşitdik. Oradan Çəliklə Savəcbulağın arasında yerləşən dağılmış şəhərin məhsulu bol olan əlli kənddən ibarət mahalına gəldik. Bu kəndlərin hamısını sakinsiz və böyük qismini yarıyanmış vəziyyətdə gördük. Həmin yerlər İran ordusu əsgərləri ilə süvariləri tərəfindən tarac və qarət olunmuşdu.

Biz Ləcə daxil olanda Naibülhökumət adı ilə Savəcbulağa getmiş Rəhim xan orada idi, Məcid xanın oğlu Xanbaba xan da onunla bir yerdə şəhərə ezam olunmuşdu. Öz canlarının dərdindən xof ilə qorxu içində qalmış Hacı Seyyid Bayəzid, qazı və şeyxülislam da itaətlərini bildirməkdən ötrü ordugaha gələrək xidmət etməyə boyun olub min cidd-cəhdlə canlarını qurtardılar və şəhərə qayıtdılar. Orada onlar görüşdülər. Söhbətin sonunda Hacı Seyyid Bayəzid dedi ki, “Mən “martini” tüfəngini qəbilələrin və tayfaların əlində görüb öz-özümə belə dedim: “Qara günlərim gəlib çatdı. Bu gözə görünməyən silah bəlkə də fitnə-fəsad silahıdır və o tayfanın əlində olarkən heç vaxt dövlətə xeyir gətirməz”. Həmin məsələdən Tehrana, dövlət məmurlarına və millət əyanlarına yüz dəfə xəbər verdim, ancaq bir cavab eşit-

[1] Abbas Mirzə Naibüssəltənənin iyirmi birinci oğludur.

mədim. Bir dəfə Təbrizdən bir məmur həmin silahları yığıb aparmaqdan ötrü Mükriyə gəldi, lakin rüşvət həmin məmuru geri qaytardı”.

Ləc kəndi başqa iyirmi kiçik kəndlə, istər Məcid xana məxsus olsun, istər başqalara, rus rəiyyətinin əlindədir və o vaxtadək kürd ordusunun çapıb-çalmağına məruz qalmamışdı. Bu kəndin mühafizəsi tələbi ilə həm İran ordusunun yürüşündən qabaq Təbrizə, həm də Etimadüssəltənəyə Bənaba ərizə yazılmışdı və ora İran ordusunun basqınından qorunmalı idi, amma əmrə zidd olaraq Gərrus əsgərləri lap əvvəldən Ləci qarət etdilər. Bu vaxt kəndin dörd hissəsi abad və məskunlaşmış qalırdı: yanında İran ordusu yerləşdirilmiş Qaraqışlaq[1], Qadirağaya məxsus yeddi yüz həyətlik Əndərqaş, sakinlərinin əksəriyyəti erməni olmuş Darlək[2], Qumqala. Bunlar da təhlükə altında və qarət olmağa yaxın idilər.

Etimadüssəltənə ordunu Çəlikdən qaldırıb Gülabiağanın mülkü olan Qaraqışlaqda öz müzəffər qoşunu üçün düşərgə saldı və itaət göstərmiş ağaların xahişinə əsasən orada əmr verdi ki, boş və məskunlaşmamış kəndlərin keşiyində duran zabitlərlə əsgərlər həmin kəndləri nizamsız ordunun çapıb talamağından, habelə Ciğatunun[3] o tayından qarət etmək məqsədilə dəstə-dəstə gələnlərin soyğunçuluğundan qorusunlar. Lakin əsgərlər bir-iki gün mühafizə edəndən sonra qarətçilərlə gizlicə birləşib özləri quldurluqla məşğul olmağa başladılar. Həm itaətdə olan ağaların kəndləri, həm də dağıdılmış şəhər onların basqınlarına məruz qaldılar və bu əməllərə görə onları danlayan da olmadı. Qarapapaqlılar şeyxzadənin şəhərdən Uşnuyəyə qaçmağını eşidən kimi onun yolüstü qətl ilə qarət etmək üçün onların kəndlərinə soxulacağından və bütün mülklərin dağıdılıb xarab olacağından qorxub təcili surətdə Etimadüssəltənənin yanına gələrək ondan

---

[1] İranın Mərhəmətabad dehistanında bir kənddir.
[2] İranın Mehrabad şəhristanında bir kənddir.
[3] Ciğatu – Azərbaycanda və Kürdistanda uzunluğu 240 km olan bir çaydır.

imdad dilədilər ki, şexzadəyə müqavimət göstərib onları bu fəlakətdən qurtarsın.

Etimadüssəltənə onlara yeddi yüz nəfər şahsevəni qoşub əmr verir ki, gedib Uşnuyədə şeyxzadə ilə vuruşsunlar. İşin gedişatı göstərdi ki, bu döyüşdə qarapapaqlıların bir hissəsi qətlə yetirildi, Uşnuyə ələ keçirildi, şeyxzadə darmadağın oldu və Uşnuyə tamamilə qarət ilə talana məruz qaldı.

Biz bir gün Darləkə, ikinci gün isə rus tacirbaşının qardaşı ilə bir yerdə oradan bir fərsəng* və yarım saat aralı olan ordugaha yetişdik. Bütün çöl-səhra əsgərlərlə, süvarilərlə, piyadalarla və Ciğatunun o tayından sakinlərdən boşalmış kəndlərə mal və pul oğurlamaq məqsədilə gələnlərlə dolu idi. Ondan sonra biz ordugaha daxil olduq. Saysız-hesabsız çadırlar gördük. Əvvəl Savəcbulaq hökumətinin başında duran Hacı Sədrüddövlənin çadırına getdik. Onun oturub xəyallara qərq olduğunu gördük. Əvvəl öz mənafelərimizdən danışdıq. Ardınca qayda-qanundan, Etimadüssəltənənin şeyxzadə ilə Həmzəağanı tutmaqda və kürdləri etdikləri quldurluğa görə cəzalandırmaqda yol verdiyi xətalarla səhvlərdən söhbət açıb onun bütün hərəkətlərinin ordunun tədbirlərinə xilaf və mənafelərinə zidd olduğunu göstərdik və dedik ki, belə səhv və xatalı hərəkətlər böyük günahların və fitnə-fəsadların aradan götürülməməsinə səbəb oldu.

Sədrüddövləyə dedim ki, mən İran dövlətinin xeyrini arzulayanlardanam və İran torpağına bu qədər zərər yetirmiş və bu qədər nahaq qan axıtmış o vəhşi kürdlərin və dağdan düşmüş tərbiyəsiz tayfaların törətdikləri cinayətlərə müvafiq tənbeh və cəza olmalarını istəyirəm. Amma bunu yerinə yetirmək üçün başqa iş və düşüncə tərzi lazım idi və Etimadüssəltənə ordusunda nizam-intizam yaradaraq belə bir qayda qoymalı idi ki, heç kəs onun əmri olmadan bir kürdü özbaşına cəzalandıra bilməsin. Onlar elə özləri vahimələnib öz kəndlərini boşaldaraq qaçacaqlar. Ağaları isə arxayınlaşdırıb öz kəndlərində yerləşdirmək lazımdır. Bu halda onları öz piyada əsgərləri ilə süvarilərini İran ordusuna qoşmağa məcbur etmək olar. O vaxt onları ayıraraq Həmzəağanı, şexzadəni, Minəni, Əziz Fəttahı və digər fitnə-fəsad törədən-

ləri tutub öldürməyə göndərmişdi. Onlara həmçinin Mükri əhlindən olan Məngurun, Zudinin, Zərzanın və Piranın bütün üsyançı tayfalarına məxsus yerləri dağıdıb məhv etməyi tapşırmış və şeyxin İran ərazisindəki kəndlərin hamısını ələ keçirib bütün ağalarla bəyzadələrə əmr vermişdi ki, Marağanın kəndlərindən apardıqları avadanlığı, mal-davarı və başqa əşyaları geri qaytarsınlar. Bu minvalla yəqin ki, qarət olunmuş şeylərin yarısını əldə etmək mümkündür.

Bu məsələdən sonra dövlətin ümumi işini nizama salmaq üçün ağalarla bəyzadələri Təbrizə çağırıb və ya Savəcbulağın özündə yığıb ədliyyə məclisində onların həm müharibə vaxtı, həm də müharibədən əvvəlki hərəkətlərini istintaqdan keçirərək əsas günahkarların cəzasını kənara qoyub onların mülklərini zəbt etmək və hər kəsi günahına görə cəzalandırmaq və ölkədən sürgün etmək. Dövlətə xeyirxah münasibət bəsləməkdə sabitqədəm olub dövlətin mənafeyini nəzərdə tutan, müharibəyə qoşulmayan, bəlkə əksinə bunu pisləyən bir neçə nəfərə isə müvafiq lütf ilə kərəm göstərib mükafat buyurmaq. Bu yolla həm dövlətin mənafeyi qorunar, həm bu münafiqləri cəzalandırmaq üçün dövlətin çəkdiyi zəhmət azalar, həm düşmən özünə layiq dərs alar, həm ədalət ilə intiqam İran qaydasına müvafiq yerini tapar, həm də fəqirlərlə miskinlərə bir şey çatar ki, əliboş qalmasınlar. Həmin vaxt Tehrandan ordu gəlib dayanmadan Urmiyaya yollanar və orada da nizam-intizam yaradıb yağıları siyasət edərlər.

Lakin Etimadüssəltənənin əsgərlərinin qəlbi nahaq intiqam hissi ilə dolu olduğuna görə onlar yaxşını pisdən ayırmadan, dövlətin mənafeyini düşünmədən səhv yolu tutub yalnız bütün kürdləri yer üzündən silib kəndlərə od vurmağı istəyirdilər. Ordunun siyasət elmindən heç xəbəri yoxdur. Onun aləmində ən yaxşı şeylər dava etməkdir, intiqam almaqdır, adam öldürməkdir, soyğunçuluqdur. Buna görə Mükrinin bütün əhalisi, ağadan tutmuş rəiyyətə qədər, kəndləri boşaldıb dağın başına pənah apardılar, ən böyük günahkarlar da gedib dağlarda gizləndilər. İndi onları ələ keçirmək çox müşkül işə çevrilib və böyük zəhmətlə məsrəf tələb edir, çünki onlar köçəri tayfalardır və müha-

ribənin qaydalarından xəbərləri var. Hərə bir dərədə gizlənib. Onları oradan çıxarmaq olduqca çətindir.

Hal-hazırda da belə bir əmr verməyin əvəzinə ki, sakinlərdən boş, ancaq mal-davarla dolu olan kəndləri qarətçilərin və odsalanların əlindən qorusunlar və ya əsgərlər üçün anbarlara yığsınlar və ya onları şəhərlərdən birinə aparıb sataraq [pulu] dövlətə təhvil versinlər (çünki düşmənin malı dövlətin malıdır) və yaxud qarət olunmuş kəndlərə daşıyaraq soyulub talanmış əhali arasında bölüşdürsünlər ya da qarət olunmuş kəndlərin əhalisini həmin kəndlərə gətirsinlər ki, bu biçarələr qışı orada keçirsinlər – bunların əvəzinə onlar bu kəndlərə od salıb yandırırlar, ağaların (həm düşmən, həm dövlət tərəfdarlarının) imarətlərini dağıdıb belə bir işin dövlətə xeyir gətirəcəyini düşünürlər, qarət edilmiş yazıqların hamısını bəzi yerlərə təyinat almış əliağır süvarilərin, vəzifəli bəyzadələrin, boynuyoğun və yekəqarın zabitlərin ixtiyarına verirlər və hətta bir fəqirin əlində oğurlanası bir şey görən kimi o saat əlindən alıb yerdə qalanı əsgərlərlə qarətçilərin intiqam odunda yandırırlar. Belə işlərin mənbəyi ya Etimadüssəltənin özü, ya onun orduda belə hərəkətlərə qadağa qoymaması, ya da onda ordunu nizama salmaq üçün gücü və bacarığı olmamasıdır.

Hər halda, pis-yaxşı, bütün məsuliyyət onun üzərindədir və ehtimal var ki, belə tədbirsizliklə nizamsızlıq daha böyük gərginliyə gətirib çıxaracaq, hətta Mükri əhalisinin içindəki ağalarla bəyzadələr və alimlərlə avamlar İran ordusu sərkərdələrinin fikirləşmədən və günahkarla günahsıza fərq qoymadan hamısını bir ucdan basıb-əzməyə, yaxıb-yandırmağa, tutub-öldürməyə, soyub-döyməyə məruz qoyduqlarını görəndə əlacsız qalıb canlarını xilas etməyə bir çarə axtarmağa başlayırlar və sonda İranla Osmanlı sərhəddində oturan məşayixlərə pənah aparırlar. Həmin məşayixlər o vaxtadək dövlətin əleyhinə bir hərəkət etməsələr də və hətta şeyxzadə onlardan kömək diləyib birləşməyə dəvət edəndə “Biz dərviş babayıq, duaçıyıq və belə işlərlə işimiz yoxdur” cavabını versələr də, iranlıların məqsədi fitnə-fəsadın mayası olan bu soyğunçuluğa, cinayətkarlığa və biabırçılığa son

qoymağın olmadığını, bəlkə də bütün mükrililəri qılıncdan keçirmək istədiklərini görüb bu məsələnin məzhəb və millət davası olduğunu düşünərək sərhəddə yaşayan kürdləri keçən qışdakı kimi dövlətə qarşı birləşməyə məcburən təhrik etməklə hər cür təxribata və düşmənçiliyə bais olurlar.

Osmanlılara gəldikdə isə, onların məqsədi bunun əleyhinədir və belə cinayətləri tənbeh etməyə meyil göstərmirlər. Həmin fitnənin mümkün qədər gec yatırdılması o dövlətin mənafeyinə uyğundur, bunları əngəlləmək iqtidarında deyillər. Bütün anlaşılmazlıqlar və müşküllər tədbirsiz sərkərdələrin səhvlərlə xətalarının nəticəsində saatdan saata artmaqdadır.

Bizim sözümüzü tam diqqətlə dinləyən Hacı Sədrüddövlə təsəvvürlərimizi tədqiq edib dediklərimizlə razılaşdı, Etimadüssəltənənin və digər sərkərdələrin hərəkət tərzini təkzib edib qınadı və dedi: – Elə mən özüm də onu düşünürdüm ki, bu il bizim ordumuz nizamsız və pərakəndə halda hərəsi bir yanda qarətçilik tamahına düşübsə, üç yüzcə nəfər süvari üstümüzə hücuma keçsə, onlara kim müqavimət göstərəcək? Böyük padşahımızın fikri odur ki, bütöv bir tayfanı qətlə yetirib məmləkətin bir hissəsini xarabazara döndərsin. Bəlkə bununla yağıları cəzalandırmaq istəyirmiş? Ondan sonra dedi: – Bizə Savəcbulağın hökumətini həvalə etdilər, ancaq hansı Savəcbulağın? Əhalisiz divarlardan başqa heç nəyi olmayan şəhərinmi? Biz kimin üzərində hakimlik edək? Yenə dedi:– Dünən bəzi sərkərdələr ordunun od saldığı və tüstüsünün göylərə qalxdığı bir neçə kəndi mənə göstərib soruşdular ki, “Bu çıraqlar nədən ötrüdür? Sanki sizin hökumətinizin bayram atəşfəşanlığıdır”. Lakin onların yerinə mən xəcalət çəkdim. Mən bu məsələyə dair Sizin rəyinizə müvafiq sipəhsalara bir məktub yazmışam. Yaxşı olardı ki, Siz də mümkün qədər tez Təbrizə qayıdıb öz təsəvvürlərinizlə mülahizələrinizi ona ərz edəsiniz ki, bəlkə buna bir çarə qılındı.

O, həmçinin vəd verdi ki, bu barədə sipəhsalara yazdığı məktubu mənim vasitəmlə göndərəcək və mənə dedi: – Etimadüssəltənənin yanına gedin və mənə dediklərinizi ona bir də söyləyin. Ardınca münşibaşını mənə qoşub Etimadüssəltənənin

yanına yolladı və ona peyğam verdi ki, "Filankəslər işin əvvəlindən indiyə qədər baş vermiş bütün hadisələrdən xəbərdardırlar, olanı da, olmayanı da artıq-əskiksiz Sizə çatdırıb faydalı məlumatı Sizə verəcəklər". Bundan sonra biz Etimadüssəltənənin çadırına gedib onu orada görmədik və həmin vaxt nahar başında əyləşmiş cənab ictimai təminat vəzirinin çadırına daxil olduq. Onları daha bir neçə nəfərlə süfrə başında oturduqlarını gördük. Etimadüssəltənə çox qəribə halda, sanki eyş-işrət məclisində, heç nədən xəbəri olmayan adamlar kimi oturmuşdu, qeyri-rəsmi libasda, bəlkə hətta şalvarsız-corabsız idi və sərdarlardan birisi ilə mazaqlaşırdı. Bu nahar Böyük Napoleonun döyüş meydanındakı naharına heç oxşamırdı.

Nə isə, biz əvvəl əlimizdə olan və daim qorxu ilə təhlükə içində yaşayan kəndlərdən söz açdıq. Etimadüssəltənə bizi arxayın etdi ki, bəzi kəndlərdə əsgərləri yerləşdirib və oraları hər cəhətdən qoruyacaq. Lakin biz cavabında dedik ki, "həmin mühafiz əsgərlər başqaları ilə birləşib özləri qarətçiliklə məşğuldurlar" və əsgərlərin iştirakı ilə od vurulan kəndlərin adlarını sadaladıq. Bu sözə çox sərt cavab eşitdik ki, "Sizə nə var?!" O biri tərəfdən də cənab ictimai təminat vəzirindən cavab gəldi ki, "kəndləri elə bu cür frans-prus müharibəsində də yandırıb dağıdırdılar". Buna görə biz İran dövlətinin xeyrinə deyəcəyimiz bəzi sözləri söyləməyi münasib bilmədik. Ancaq bunu da deyək ki, Etimadüssəltənə bizə belə dedi: "Qəti hökmlər irəli sürmüşəm və hətta Məcid xanın kəndlərində qərarlaşmış Əbülqasıma yazmışam ki, əgər ondan bir kürdə qarşı kobudluq üzə çıxsa, işi pis olacaq". Bu sözdən məlum oldu ki, ordunun mənafeyinə zidd olan bu hərəkətlər Etimadüssəltənənin də istəyinə zidd imiş, lakin o, orduda nizam-intizam yaratmaq üçün bir tədbir görmürdü və onların qarşısını almağa da gücü çatmırdı. Sərkərdəlik dərəcəsinin onun gücünün dərəcəsindən yüksək olmağı üzə çıxdı.

Bizim anladığımız qədər, Etimadüssəltənə ilə cənab ictimai təminat vəziri həmfikir olaraq bir yolla irəliləyirlər və biri o birisinin əlindən çəkən deyildi və ordudakı nizamsızlıq da bunun nəticəsi idi. Etimadüssəltənə buyurmuşdu ki, ermənilərin kəndi

olan Darləkdə bir neçə əsgərlə oturan zabitə yazsınlar ki, gözü əhalisi erməni olan kəndin üstündə olsun və onlara hücum etməsin.

Sonra biz Etimadüssəltənənin yanından çıxdıq. Lakin Etimadüssəltənənin yaxınlarından biri bir tuğra hökmün əvəzinə bizim adamımızın çiynindəki "martini" tüfəngini rüsum qismində alıb nə tüfəngimizi qaytardı, nə də hökmü verdi. Biz çadırdan çıxarkən Tacirbaşının əlində olan Ləc kəndinin od tutub yandığını müşahidə etdik, yavaş-yavaş kəndə yaxınlaşıb gördük ki, kənddəki evlər və ağaların imarətləri od içindədir, anbarlar qarət olunub və bütün kənd bir ovuc külə dönüb. Bu barədə yenidən Etimadüssəltənəyə bir məktub yazıldı və bircə saat öncə verilmiş vədənin və söylənilmiş arxayınlıq sözlərinin nəticəsi onun nəzərinə çatdırıldı.

Etimadüssəltənənin ordusunda hökm sürən özbaşınalığın dəlili budur: biz cənab ictimai təminat vəzirinin çadırında və Etimadüssəltənənin hüzurunda olarkən qarapapaq xanlarından bir nəfər tövşüyə-tövşüyə çadıra girib ucadan danışmağa başladı ki: "Bu nə insafsızlıqdır?! Bu nə hörmətsizlikdir?! Biz kürd deyilik ki, gələn əsgərlər bizi qarət etsinlər. Bizim süvarilərimiz Uşnuyədə şahsevənlərlə çiyin-çiyinə düşmənə qarşı dayanmışdı və əhalimizdən qırx nəfər orada başını qoymuşdu, bu yandan da bizim kəndlərimizi talayırlar. Az qalmışdı ki, arvadlarımızı əsir götürsünlər. Budur, bizi soyurlar. Etimadüssəltənə əmr vermişdi ki, qarət yolu ilə alınmış qənimətləri yiyələrinə qaytarsınlar, ancaq boşalmış kasanı bir də doldurmaq olmaz".

Bu arada Qadirağanın günahkarların və fitnə-fəsad törədənlərin böyüyü, qantökmənin, üsyanın və şərin baiskarı olan oğlu Minəağa iki min döyüşçüsü ilə Əndərqaş qalasında oturub vuruşmaq üçün tədarük görməkdə idi. Qadirağa özünə məxsus böyük kəndi top-tüfəng atəşindən, qantökmədən və soyğunçuluqdan qorumaq, habelə özünün düşməni olan oğlunu öldürmək arzusu ilə Məhəmməd Sadiq xanı acudanbaşı təyin edib yanına saldı və zihiccə ayının doqquzu üzü kəndinə tərəf yollandı ki, bəlkə oğlunu arxayınlaşdırıb bu işdən çəkindirsin və ordugaha

gətirsin. Lakin kəndin kənarında olarkən təzə xəbər eşidib yenidən ordugahına qayıdır. Həmin vaxt Əndərqaş qalasını ordu tərəfindən top atəşinə tutmağı lazım bilirlər, ancaq kələkbaz Qadirağa öz bicliyini işə salıb tədbir görür və oğlunu bir neçə süvarisi ilə qaçmağa məcbur edir və beləliklə öz kəndini top atəşindən qurtarır.

Məcid xanın oğlu Xanbaba xan Etimadüssəltənə tərəfindən ordunun Tehran yolu üstündə yerləşən və ona məxsus olan kəndləri qorumağı haqqında yazdığı məktubla və bir neçə süvari ilə Tehran ordugahına gedib öz itaətini izhar edir və geri qayıdır. Qayıdan başı özünün azuqə və sursat tədarükü görülən kəndlərindən birində onun adamları ilə Terhran ordusunun döyüşçüləri  arasında dava düşür və o özü bir neçə nəfərlə bir yerdə əsgərlər tərəfindən öldürülür.

Biz ordudakı vəziyyəti belə görəndə ordunun gəlişinə bağladığımız arzuların puç olduğunu anladıq. O biri tərəfdən eşitdik ki, şahzadə Həmzə Mirzənin ölümündən sonra Hacı Hüsamüddövləyə tapşırılmış İran ordusu bu orduya qoşulmaq üçün Əfşar yolu ilə gəlir və yol üstündə olan bütün kəndləri yaxıb-yandıraraq olan-qalanı qarət edir və əlinə keçən hər kəsi qətlə yetirir. Feyzüllah bəyin də İran ordusunun gəldiyi yolda çoxlu kəndləri olduğuna görə o, ordunun məqsədinin soyub-öldürməkdən başqa bir şeyin olmadığını başa düşüb öz oğullarından ikisini və on min tüməni zamin qoyub ordunun onun kəndlərinə basqın etməməyini istəyir. Lakin onun təklifi qəbul olunmur, bütün kəndlərini qarət edirlər və hətta Feyzüllah bəyin bir çox süvarisi müqavimət göstərdikləri məqamda öldürülür. İran ordusu yol üstündəki bütün kəndləri, o cümlədən xaricinin əlində olan Məcid xanın on beş hissədən ibarət kəndini də çapıb yandırır. Bunu görən yerli əhali öz yurdlarını boşaldaraq arvad-uşağını əlindən tutub yaşamaq üçün yararsız yerlərə qaçır, ordunun əlinə keçənlərin hamısı isə tərəddüd etmədən qətlə yetirilir. Belə vəziyyətdə orada qalmağın həyat üçün təhlükəli olduğunu bilib Bənaba tərəf getmək üçün hazırlıq gördük və yola düşdük.

Biz Bənaba yetişəndə zihiccənin on dördü idi. İki gündən sonra cənab böyük sipəhsalar təşrif buyurub ordugaha getmək istədiyini izhar etdilər. Hacı Qazının evində mənzil saldılar. Onlara verilən ərizələrdən və onlar tərəfindən bəndəyə çatan cavabdan məlum oldu ki, ordudakı nizamsızlıq və bütün qanunsuz hərəkətlər onların istəyinə zidd imiş. Başa düşdüyümüz o oldu ki, ordunun əleyhinə işləyən bu cür əməllər sipəhsaların orduda olmağını və müvafiq tədbirlər görməyini tələb edirdi. Onların gəlişi hamının sevinməyinə səbəb oldu və xalq ümidləndi ki, onların ordugaha təşrif buyurmaları sərkərdələrin buraxdıqları səhvlərin, xətaların və yaramazlıqların düzəlməsi, orduda ümumi nizam-intizamın bərqərar olunması və qoşunun doğru yolla irəliləməsi ilə nəticələnəcəkdir.

Bənaba çatanda hər yerdən və hər tərəfdən Ağa Əlinin tərifinə deyilən sözdən başqa heç nə eşitmədik. Hamı onu xilaskar ləqəbi ilə çağırırdı. O olmasaydı, Bənab əldən gedəcəkdi, çünki hələ Azərbaycandan yardım gəlməmişdən qabaq və ondan sonra Qazı şəhəri təhlükədə görüb bir cəsur vətənpərvər döyüşçü kimi şəhərin hər tərəfində səngər qazdırdı və bütün camaatı birləşdirib başına yığdı, onları düşməndən müdafiəyə və şəhəri qorumağa təşviq etdi. Müharibə vaxtı bir həftə ərzində yorulmağın nə olduğunu bilmədən oğlu Məhəmmədağa ilə bərabər bütün şəhər əhlini diqqəti altında saxlayar, tez-tez səngərlərə baş çəkər, ehtiyacı olan hər kəsə güllə ilə barıt ayırar və heç bir köməklə qayğını, istər pul, istər çörək, istərsə də başqa şey sarıdan əsirgəməzdi.

Belə adamlar İranda nadir hallarda tapılar. Mən onun ziyarətinə getdim. Bu görkəmli şəxsi oraya təşrif gətirmiş bəzi alimlərlə və qardaşı marağalı müctəhid Hacı Mirzə Cəlillə [bir məclisdə oturduğunu gördüm]. Vüqarlı zahiri görünüşü, uca boyu, təmkinli və ağır hərəkətləri, ağıllı və məntiqli sözləri ilə fikirləri o kişinin haqqında deyilənləri təsdiqləyirdi. Onun müharibənin mahiyyəti və xususiyyətləri haqqında söylədikləri rəyi olduğu kimi burada yazı sapına keçirməyi lazım bildim, çünki

bu böyük şəxsiyyətin bənzərsiz bəyanatlarının ümumi mənafe və bütün insanların etibar ilə etimadı üçün faydası vardır.

Qazı Savəcbulağın hakimi olan şahzadə haqqında belə dedi: – Şahzadə Savəcbulaqdan qaçıb buraya gələndə onunla görüşdük. Mən ona bu məsələyə dair iradlarımı bildirdim. Şahzadə cavabında dedi: "Təbriz hökuməti sazişin müddəalarını hazırlamış, mən də Həmzəağaya xələt aparmışdım və Təbrizə kağızın üstünə kağız yazaraq mənə Həmzəağanı tutmağı tapşırımağı israr edirdim. Mənim təqsirim nədir?" O vaxt Mirzə Əhməd Münşibaşının yazdığı bir neçə tuğra kağızı da mənə göstərdi. Hamısının məzmunu onun dediyi sözlərin doğruluğuna dəlalət edirdi.

Təbriz hökuməti və Münşibaşı[1] haqqında belə dedilər: – Çəlik kürdləri İmamqulu Mirzənin kəndini talayandan sonra İmamquluya məktub yazmışdım ki, kürdlərin saldığı bu düşmənçiliyin və iğtişaşın qarşısını qabaqcadan almaq, labüd tədbirlər görmək və vacib çıxış yolları tapmaq üçün bunu fikirləşib icra etmək lazımdır. Şahzadə mənim məktubumu Azərbaycanın işlər müdiri münşibaşı Mirzə Əhmədə yollamışdı. Mən fikirləşdim ki, Münşibaşıya başqa məktub yazıb məsələni açıqlayım, ancaq qorxdum ki, məktubum vəliəhdin mübarək nəzərinə çatmaz və mənim vəziyyəti şərh etməyim əbəs olar. Bu halda bilavasitə həzrət vəliəhdin hüzuruna getmək istədim, amma onu da münasib bilmədim. Axırda mətləbi cənab müctəhidə (Allah onun canını sağ eləsin!) yazıb göndərdim, çünki onun vasitəsi ilə mübarək nəzərə çatacağına və özünün də düz məlumatı verəcəyinə əmin idim.

Mənim Münşibaşıya yazdığım məktuba cavab olaraq Münşibaşı bunu yazmışdı: "Baş verənlərə çox da məhəl qoymağa dəyməz. Bunlar iki-üç nəfər oğru və quldurdurlar, hərdən bir gəlib soyğunçuluq edərlər, sonra da çıxıb gedərlər". Məktubun haşiyəsində İmamqulu Mirzə də mənə yazmışdı ki, "Siz nə

---

[1] Mirzə Əhməd vəliəhd Müzəffərəddin Mirzənin münşisi olmuşdu. O, Miyandüab sakinlərinin qətliamının və Bənabın mühasirəsinin sonunadək vəliəhdə heç bir məlumat verməmişdi və bunu belə əsaslandırmışdı ki, əgər vəliəhd bu xəbəri eşitsə, qanı qarala bilər. Qoy əvvəl işləri yoluna qoyaq, sonra...

cəsarətsiz və qorxaq adamsınız ki, belə xırda şeylərə görə pərişan olub təşvişə düşürsünüz. Əgər bir dəstə oğru ilə yolkəsən gəlib qarət ediblərsə, bu barədə o qədər danışmağa dəyməz. Məgər xaqanın yaxınlarından olan Qadirağa və Məhəmməd Sadiq xan acudanbaşı orada deyillər ki, siz belə iztirab çəkirsiniz?"

Yeri gəlmişkən onu da deyim ki, Miyandüabdakı qətl ilə qarətdən sonra cənab Münşibaşıya yazmışdım ki, "Bunlar iki-üç nəfər oğru deyillər. Çoxusu kürd yağılarından və Şeyx Übeydüllahın tör-töküntülərindəndir. Bu işin qabağını almaq lazımdır, ancaq siz özünüzü bilməməzliyə vurursunuz. Düzdür, mən qorxağam, amma təcrübəm də var. Bilirəm ki, bu iş hələ çox böyüyəcəkdir. Kömək göndərib tədbir görmək gərəkdir". Münşibaşı cavabında yazmışdı ki, "Hörmətli cənab, heç danışmağa dəyməz. Lənətə gəlmiş Şeyx Übeydüllah belə şeylər barədə düşünmür. O, özü yazıb məni arxayın etmişdi". Marağa müctəhidinin qardaşı həmin məclisdə iştirakedirdi. O dedi: "Qardaşım Müyandüabdakı hadisədən sonra Münşibaşıya məktub yazıb bu barədə rəyini bildirmişdi. O da bu cür cavab eşitdi. Axırda ona kobud şəkildə yazdı ki, "Dünya dağılıb. Sən hələ də yazırsan ki, danışmağa dəyməz". Münşibaşı öz bildiyini edib qoşun göndərməyi o qədər təxirə saldı ki, kürdlər bütün kəndləri talayıb oraları xarabazarlığa döndərdilər.

Seyfülüləma dedi: – Şeyxzadənin ordusu Miyandüabdan Bənaba tərəf hərəkət edərkən Məhəmmədağa Məmiş şeyxzadəyə dedi ki, "Əvvəl Qazıya elçi göndərmək lazımdır. Ola bilsin ki, Bənabı qan tökmədən ələ keçirdik". Sonra mənim yanıma bir elçi göndərdilər. Həmin elçi İsmayılağa Qarapapaq idi. Məsələni açıqlayandan sonra mən cavabında dedim: "Şeyx Übeydüllah bir molla adamdır, mən də bir molla adamam. Uzun müddət dövlətin önündə dayanmış Molla Əli Zəncanidən əskik deyiləm. Mən də öz təbəələrimlə bir mollanın müqabilində dayana bilərəm. Müharibə etməmiş ona dinc oturmağa qoyan deyiləm". Bəzi başqa mülayim cavablarımı da onlara dedim. Bu hadisədən biriki gün keçdi, Həzrətə yaxın olanlardan Hacı Sədrüddövlə və ordu başçılarından biri Ağaxan Bənaba gəldilər. O vaxt Məhəm-

mədağanın nümayəndəsi yenidən gəlib mətləbi irəli sürdü. Mən bu dəfə cavab verdim ki, "İndiyədək mən tək olmuşdum. Hal-hazırda dövlət vəzifəsi sahibi buradadır. Sual-cavabınızı onunla edin. İş ondan keçəndən sonra mən Marağa üləmalarını yığıb və bu məsələyə dair məşvərət aparıb cavabımı verəcəm. Bu danışıqlara də bir neçə gün tələb olunur".

Vaxtı uzatmaqda məqsədim o idi ki, bəlkə bir neçə gün belə keçsin və Təbrizdən kömək gəlsin. Məhəmmədağa Məmişdən nümayəndə gəldi. Gizli kağız gətirmişdi. Məzmunu o idi ki, "Döyüşdə bizim bayrağımızın rəngi yaşıl olacaq. Əgər bizim və Qarapapağın qoşunu ordunun arxasında olsa, onda biz bu yandan, siz də o yandan şeyxi əhatə edə bilərik, ancaq əgər şexzadə ilə Həmzəağa bizi xain bilib və bizdən çəkinib bizi ordunun önündə yerləşdirsələr, bizim o ordu ilə müharibə etməyə gücümüz yoxdur". Bəli, gələn adam ardınca Hacı Sədrüddövlə ilə də sual-cavab edib və məsələyə müvafiq bir söz eşitməyib geri qayıtdı.

### Etimadüssəltənənin Bənabda gördüyü işlər haqqında

Qazı Etimadüssəltənədən və Bənabdakı orduda nizamsızlıqdan danışarkən dedi: "Etimadüssəltənə orduda qayda-qanun yaratmaqda, ən azı onların Bənab əhlinə uzanan əllərini qısa etməkdə tam aciz idi və nəticədə Bənabın bağları dağıdıldı, rəiyyətləri isə həddindən artıq əzab-əziyyət gördülər. Etimadüssəltənə nə ordunu nizama sala bildi, nə də onları cəzalandıra bildi. Müharibə günlərində Şəkur bəy adlı bir guganlı mənə məktub yazmışdı ki, "Təbrizdən silah-sursat gətirirlər. Etimadüsəltənə süvariləri göndərməlidir, çünki onların mühafizəsi on süvaridən artıq deyil və o tərəflərdə çoxlu kürdlər görüblər. Qorxuram ki, silah-sursatı apararlar".

Mən Etimadüssəltənənin yanına gedib həmin məktubu ona göstərdim. Dedilər: "Yalandır. Gör nə danışır! Heç olmasa iyirmi süvari müşayiət edir". O vaxt əmr verdi, Rəhim xanın və Məhəmməd Sadiq xan acudanbaşının süvariləri gedib o silah-

sursatı gətirdilər. Süvarilər Baba xan Ağanın mülki olan və rəiyyətlərin hamısı şiə olan Qarazikr adlı kəndi taladılar və dövlətli adamlardan biri Hacı Əli Əsgəri tutub işgəncə verdilər ki, pulunu versin. Hacı Əli Əsgər çıxılmaz vəziyyətdə qalıb bütün var-dövlətini onlara verdi. Bundan sonra həmin hadisə barədə ondan şahid ifadəsini alıb mənim yanıma gətirdilər. Deyirlər ki, şiənin şiəyə etdiyi zülmü heç Bəlbas[1] da etməzdi. Mən Hacını Etimadüssəltənənin yanına aparıb məsələni ona danışdım. Etimadüssəltənə Hacıdan alınanları qaytarmaq hökmünü verməyi öhdəsinə götürdü. Lakin bir az keçdi, vədəsi yaddan çıxdı və hökm icra olunmadı. Bir dəstə əsgər də Əzrəvaqkəndini qarət etdi, ancaq onları heç qınayan olmadı. Bənaba bitişik Qaraçubuq kəndi kürdlərin hücumu qarşısında müqavimət göstərə bildi və o qədər də zərər görmədi, amma Banab əsgərlərindən rahatlıq tapa bilməyib Etimadüssəltənəyə şikayət etdilər. Etimadüssəltənə cavabında belə demişdi: “Fərz edin ki, Bəlbas sizi talayıb”.

## Qeyd

Kəndin sakinləri bu sözləri mənim yanımda deyəndə ürəyim çox sıxıldı. Bundan sonra dedilər[2]: “Şeyxzadənin ordusu Bənabın kənarındakı məhəlləni tutdu və o tərəfdən hücuma keçərək İran ordusunu əhatəyə almaq istədi. Bu hadisələr şəhər əhlinin dəhşətə gəlməyinə səbəb oldu. Hər yana qaçmağa başladılar. Mən bundan xəbər alan kimi xalqı yığıb vuruşmağa təşviq etdim. Biz kürdləri uzaqlaşdırdıq. Müharibə vaxtı Etimadüssəltənə mənə yazmışdı ki, “Əgər bu gecə əsgərlər üçün çörək tədarükünü görməsəniz, ehtimal ki, hərəsi bir yana qaçacaq”. Mən cidd-cəhdlə kifayət qədər çörəyi tədarük edib göndərdim”.

Qazı dəfələrlə demişdi ki, şeyxzadənin ordusu arxaya çəkiləndə mən İran ordusundakı bu nizamsızlığı gördüm. Belə heyrətamiz işlərə tab gətirə bilmədim. Ata minib Marağaya getmək

[1] Bəlbas – Fəthəli şahın dövründə çoxlu vəhşiliklər törətmiş bir tayfadır.
[2] Yəni Qazı dedi

istədim. Bənabın əhalisi yığışıb məndən Bənabdan bir yerə getməməyimi xahiş edib yalvardılar. Bu gözlənilməz hərəkətin səbəbini məndən soruşdular. Cavablarında dedim ki, "Əlhəmdülillah, bizi qorudu, təhlükə buradan getdi. İndi də biz gedib Marağa əhlinin dadına çatmalıyıq". Ancaq həqiqəti bəyan edə bilmədim. Bənablılar dedilər ki, Allah eləməsin, birdən yolda başınıza bir bəla gələr və biz sərdarsız qalarıq. Axırda gedib mənim niyyətimdən Etimadüssəltənəyə xəbər verdilər. Etimadüssəltənənin yanına gedəndə öz hərəkətimin səbəbini dedim: "Sizin əsgərləriniz pozğunçuluq və qanunsuzluqla məşğuldurlar və Sizin tərəfinizdən onlara heç bir yasaq və maneçilik müşahidə olunmur. Belə halda qorxuram ki, Bənabın əhalisi bu biabırçılıqdan təngə gəlib iğtişaş salsınlar. O vaxt məsuliyyət mənim boynuma düşəcək və elə bilərlər ki, bunları mən təhrik etmişəm. Onda dövlət ilə millətin qarşısındakı bütün xidmətlərim hədər gedəcək. Buna görə bir neçə günlük kənara çəkilmək istəyirəm".

Etimadüssəltənə mənim getməyimə mane olub söz verdi ki, bundan sonra orduda nizam-intizam yaradacaq və Bənabdan köçən kimi mənə bunları yazdı: "Sizinlə bir yerdə xidmət edib zəhmət çəkənləri adbaad yazıb mənə göndər ki, mən dövlətdən onlar üçün bir mükafat ala bilim". Mən cavabında yazdım ki, "Şəhəri qoruyan mən deyildim, mən öz vətənpərvərliyimi göstərmişəm. Qoruyanlar və zəhmət çəkənlər topçular olub, onların xidmətinin əvəzi verilməlidir. Lakin yoldaşlarıma bir növ cəza o ola bilər ki, əsgərlərin nizam-intizama riyayət edib bircə adama belə zəhmət verməməyi buyurasınız".

Gülabiağa haqqında dedilər ki, həqiqətən də Gülabiağanın orduya gəlməyinin xeyri ilə faydası çox oldu. Qardaşı və qardaşı oğlu da düşmən qarşısında dayanaraq qaydası ilə vuruşdular, böyük xəsarətlər aldılar.

İqbalüddövlənin səhvlərindən öz yerində yazsaq da, burada təkrar zikr etməyi lazım bildik. Urmiya əhalisinin ümumi fikri elədir ki, əgər diqqətlə mülahizə etsələr, bu fitnə ilə qantökmənin səbəbkarı İqbalüddövlənin olmasını görərlər. Şaban

ayında Məhəmmədağa Məmiş Urmiyaya daxil olaraq İqbalüddövləyə öz itaətini və əmrə hazır olduğunu izhar edir. Deyir ki, "Sizin xatirinizə Şeyx Übeydüllahın əleyhinə çıxış etməyə hazıram". Bundan sonra Uşnunun və başqa yerlərin hakimiyyətini ona verilməsini istəyir.Həmin vaxt Əlixan Şəkkak üsyan qaldırmışdı və onu yatırtmaq lazım idi. İqbalüddövlənin göstərişi ilə Məhəmmədağa dörd yüz nəfər məmişli süvari ilə Urmiyaya gəlir. Bir az keçir və birdən Məhəmmədağa Məmiş Şeyx Übeydüllahla Abdullah xan Zərzanın Urmiyaya gəlib İqbalüddövlə ilə görüşdüyünü müşahidə edir. Həmin görüşün nəticəsində Uşnu, Sumay, Dəşti-bel və Mərgur bölüyü icazə yolu ilə onların əlinə keçdi.

Məhəmmədağa bunu müşahidə edəndən sonra ümidsizliyə qapanır, yoldaşının başqaları ilə qucaqlaşdığını görüb ürəyi yana-yana öz süvari dəstəsini də götürür və Urmiyadan Məmiş elinin məskəni olan Lahicana qayıdır. İş elə bu vəziyyətdə qalır. Sonra şeyx oğlunu Həmzəağa ilə bərabər Savəcbulağa göndərir, özü də İqbalüddövlədən aldığı iqtidar rəmzi ilə ona qarşı çıxır və Urmiya üzərinə hücuma keçir.

Ziqədətülharam ayının on yeddisində şeyxin xəlifələrindən Məhəmməd Səid adlı birisi Bəradust tərəfdən dörd min süvari və tüfəngçisi ilə Urmiyanın üzərinə yürüş edir, şəhərin üç fərsəngliyindəki* İsmayıl qalasında dayanır və orada səngər düzəldir. Urmiya hakimi İqbalüddövlə düşmənin yürüşündən xəbər alan kimi Xosrov xanla və silah-sursat başçısı Məhəmməd Rza Ağa ilə iki alay əsgər və iki lülə top götürüb üzünü kürdlərə çevirir və Bədrbu qalasında öz cəngavərlərini səflərə düzür. Kürdlərin süvariləri əvvəlcə Kulan kəndinə hücum çəkirlər. Əhalisinin hamısı nəsarilərdən ibarət olan bu kəndi bağışlamaq əmrini cənab ingilis konsulunun xahişindən sonra şeyxdən aldıqlarına baxmayaraq oranı çapıb talayırlar, altmış nəfərini qətlə yetirirlər. Həmin vaxt bir çoxu həmin mahalda yerləşən altı başqa nəsari kəndini və şiələrin yaşadığı iki kəndi soyub dağıdır və sayı bilinməyən əhalini öldürür.

Miyandüabdakı qətl ilə qarəti göz önünə gətirən həmin kəndlərin əhalisini vahimə basır və onlar üzü qaçmağa qoyub şəhərə axışırlar. O vaxt İqbalüddövlə kürdlərin qabağına çıxır və hər iki tərəfdən hərb şöləsi alışır. Günbatana yaxın iki ordu döyüşməkdən əl çəkir. İqbalüddövlənin özü ilə gətirdiyi toplar qayıdan yolda dərin çayda batır. Nə qədər çalışsalar da, çıxara bilmirlər. İqbalüddövlə özü qalaya gedib topların çıxarılmasını Məhəmməd Rza xanın öhdəsinə buraxır. Adıçəkilən də altmış nəfər əsgəri Qulu Sultan adlı birisi ilə topların üstündə qoyub özü İqbalüddövlənin ardınca yoluna davam edir. Kürdlər bundan xəbər alan kimi fürsəti qənimət bilib qaladan çıxırlar, həmin altmış nəfərin üstünə hücum edirlər və yazıq əsgərlərlə Sultanı qılıncdan keçirirlər, iki topa da yiyələnirlər. Əgər əsgərlər canlarını döyüş meydanında qoyan vaxt İsmayılağa qalasının əhli onların dadına gəlsəydi heç kəs öldürülməzdi, bəlkə kürdlər heç qalib də gəlməzdilər. Lakin İqbalüddövlə hasarı əldən vermədi. Kürdlər ondan sonra hasarı əhatəyə alıb içəridəkiləri çətin vəziyyətə saldılar. İsmayılağa qalasından nə qədər top-tüfəng atıb kürdləri öldürsələr də, onların həyasızlığı get-gedə artırdı.

Qaladakıların işi tamamilə bitmiş olacaqdı ki, Teymur Paşa xanın[1] əmisi oğlu sərkərdə Şeyxəli xan bu hadisədən xəbər alıb altı yüz nəfər Xoy əsgəri ilə onların köməyinə yetişdi. Qala əhli onların gəlişindən təzədən canlanaraq darvazanı açdılar və düşmən sipahı üzərinə cumub bir neçə nəfəri öldürdülər, qalanları geri oturtdular və yenidən özlərini qalaya çatdırdılar.

Şeyx Übeydüllah Məhəmməd Səidlə İqbalüddövlənin döyüşündən xəbərdar olan kimi ziqədənin on dördündə özünə məxsus Mərgurdakı kəndlər tərəfdən Hərki, Zərza və Dəşti-bel tayfalarından və qəbilələrindən olan üç yüz nəfər süvari və piyada ilə Urmiya çayının başına yürüş etdi. Sir dağında, cənub tərəfdən şəhərdən yarım fərsəng* aralı yerləşən Sen-serkis kəndində özü üçün "oturaq"[2] çadırını qurdu. Sir amerikan missionerlərinin

---

[1] Teymur Paşa xan Makunun sərdarı olmuşdu.
[2] Bu söz mətndə məhz belə yazılıb.

yaylağıdır və onlar həmin dağın ətəyində özləri üçün hündür imarət və qala tikiblər. Şeyxin gəlişindən xəbər alan xəlifə Məhəmməd Səid İsmayılağa qalasından çölə çıxıb şeyxin ordusuna qoşuldu. Hər ikisinin hərbi qüvvəsi yeddi min nəfərə yaxın olsa da, silahı əsasən çomaqdan, əl topundan, sınıq nizədən, tiyəsi əyilmiş qılıncdan və qundağı qırılmış tüfəngdən ibarət idi[1].

Şəhər əhalisi canlarının qorxusundan pərişan oldular, fəryadları göyə qalxdı. Bir-iki gündən sonra hamısı dükan-bazarını bağlayıb şəhərin ətrafında səngər qurmağa məşğul oldular və döyüş üçün silahlanmağa başladılar.

Şeyx Übeydüllah xidmətində olan xəlifələri və ağaları ilə məşvərət keçirib Urmiya şəhərinin şeyxülislamına və müctəhidinə[2] hədələyici məktub yazdı. Məzmunu o idi ki, əgər qantökməni, xalqın əzab-əziyyətə düşməsini, qətl ilə qarəti istəmirsinizsə, mənə təslim olub dinc oturun. Mən xalqa qayğı göstərib qayda-qanunla hərəkət edəcəyəm. Şəhərdə nizam-intizam olacaq, qoymaram ki, kimsə düşmən əlini buraya uzatsın və bir kəsə zərər ilə ziyan dəysin. Bu məktub gələndən sonra şəhər üləmaları bir yerdə məclis qurub məşvərət etdilər. İqbalüddövlə şəhərdə olmadığına görə düşmən qarşısına çıxacaq və onları müdafiə edəcək əsgər-süvariləri də yox idi. Onlar vaxt uzatmağı məsləhət gördülər ki, bəlkə bir yandan kömək gəldi. Bundan sonra şeyxə aşağıdakı məzmunda cavab məktubu yazdılar: “Cənab şeyx! Siz hakimiyyəti və torpağı almaq iddiasındasınız. Hökmdarlar gücsüz və müti rəiyyətlərlə deyil, məliklərlə ünsiyyət yaradarlar. Bizdən böyük olanlar Sizə baş əyəndən sonra biz nə deyə bilərik. Silah-sursat verməyə də etirazımız yoxdur[3]”.

Şeyx onların sözlərinə etina etmədi, lakin onların şəhəri təslim etmək üçün istədikləri ikigünlük möhlətlə razılaşdı. Bu yandan də [onlar] qısa məktub yazıb İqbalüddövləni xəbərdar etdilər. Onlar (?) isə şeyxin havadarı olduğuna görə bir az təlaşa

---

[1] Şeyx Übeydüllah şəhəri tez bir vaxtda ələ keçirmək üçün oraya gələn suyun yolunu kəsməyi əmr etmişdi.

[2] Şeyxülislam Mir Cəmaləddin Ağa və müctəhid Mirzə Həsən Ağa.

[3] Şeyx Übeydüllah öz məktubunda onlardan silah verməyi də tələb etmişdi.

düşüb şəhərin rəiyyətlərini təslim olmağa vadar etməyə çalışdılar. Faydası olmadı. Bu əsnada Urmiya sakini, katoliklərin xəlifəsi cənab Kloril nəsaridən olan öz millətini və təbəəsini qorumaq düşüncəsi ilə Ali Osmanlı dövləti konsulunun vəkili Xacə Davuda vaiz müsyö Solomonu qoşub şeyxin yanına göndərdi ki, gedib şeyxdən onların bağışlanmasını istəsin. Qorxurdu ki, bu qanlı döyüşdə onlar da hadisələrin içində qalıb kürdlərin zərbəsindən sağlam çıxa bəlməsinlər.

Bu iki nəfər elçi qismində şeyxin xidmətinə yollanırlar. Görüş zamanı xahişlərini şeyxə izhar edib pis vəziyyətə düşürlər. Cavabında şeyx əvvəl soruşur: – Siz kimsiniz? Müsyö Solomon deyir: – Bu şəxs mənim yoldaşımdır və Osmanlı şəhbəndərinin[1] vəkilidir, iqamətgahı Urmiyadadır. Şeyx deyir: – Mənim niyyətim İranı, Turanı və Osmanlı torpağını öz hakimiyyətimin altına gətirməkdir. Daha konsula və vəziri-muxtara ehtiyac qalmaz. Birinci İranı işğal edib nizama salacağam, zülm ilə ədavəti aradan götürəcəyəm, ardınca da Osmanlı torpağıma yiyələnib qayda-qanun yaradacağam, oranın əhalisinin asayişini bərpa edəcəyəm və azadlıq ağacını əkəcəyəm. Bundan sonra xidmətində duran bir neçə nəfəri göstərib sözünə qayıtdı: – Bunları görürsünüz? Hər biri böyük elin sərdarı və başçısı olmuşdu. Son bir neçə ildə Osmanlı dövləti tərəfindən sıxışdırılıb çox əziyyət çəkiblər. O dərəcədə əzilib zəlil olmuşdular ki, ümidsizliyə qapanıb öz taleyindən küsmüşdülər. Mən bunların qisasını almalıyam.

Şeyxin hüzurunda olan bütün üləmalarla xəlifələr bu sözləri təsdiqlədilər. Onda elçilərə ikinci dəfə dedi: – Əgər Urmiya şəhərini döyüşsüz mənə təslim etməsələr, yəqin bilsinlər ki, oranı da Miyandüabın gününə salıb daşı daş üstündə qoymayacağam. Ancaq hər halda xaçpərəstlərə himayəmi və xoş münasibətimi əsirgəmərəm.

Bu iki nəfər elçi şeyxin yanında olarkən ona göndərilmiş məktubdan məlumat alan İqbalüddövlə ziqədənin iyirmi

[1] Şəhbəndər – Qacarlar dövründə Osmanlı dövlətinin İrandakı konsulu.

səkkizində şəhərə qayıdıb öz silahlı dəstələrini hasar boyu bölüşdürdü, şəhərdəki topları qüllələrə çəkdirdi və şəhər əhalisi ilə birlikdə şəhər ətrafında istehkamları və səngərləri qurmağa məşğul oldu. Şəhərdəki süvariləri isə məhəllələrdə yerləşdirdi ki, mühafizəyə hazırlaşsınlar. Vaxt udmaq üçün katolik Həkim Sahibin[1] vasitəsilə onun münşisini şeyxin yanına yollayıb bir daha üçgünlük möhlət istədi. Şeyx şəhərin təslim olması xüsusunda qəti və birmənalı cavab alsa da, katolik elçilərin qarşısında belə cavab verir: "Mən onların fikrini anladım. Vaxtı uzadırlar və kömək gəlməyin intizarındadırlar. Onların niyyətləri aydındır," (ələ keçirilmiş çaparın apardığı məktublardan Təbriz hökumətinin niyyəti, Teymur Paşa xanın onların köməyinə gəlməsi və İran dövlətinə dair digər məsələlər ona məlum olmuşdu) "lakin onların xəyalları boş və batildir, çünki şəhərin dadına nə qədər əsgər və qoşun gəlsə, mən onların hamısını məğlub edib pərən-pərən salacağam. Hər halda sabah günortaya qədər möhlət verirəm. Əgər o vaxtadək şəhəri təslim etməsələr, döyüşə başlayacağam. Od yağdırıb heç kəsə mənim qəzəbimdən qurtulmaq üçün ümid yeri qoymayacağam".

Bundan sonra səfirlər – həm İqbalüddövlənin, həm də cənab Klodikin elçiləri – qayıdıb baş verənləri İqbalüddövləyə təfsilatı ilə danışırlar. Adıcəkilən də tədbir görüb hifz və müdafiə üçün lazım olanları yerinə yetirdi və düşmən qarşısına çıxmağa hazır oldu. O biri gün ki, ziqədənin iyirmi doqquzu idi, Şeyx Übeydüllah böyük oğlu Şeyx Sədiqin və xəlifəsi Məhəmməd Səidin hərəsinə beş min nəfər verib şəhəri zəbt etməyi tapşırır. Onlar birləşib Əsgərxan darvazasından şəhərə hücuma keçirlər. Hərb atəşi alovlanır. Şəhəri mühasirəyə alırlar. Döyüşlər üç gün davam edir. Lakin qüllələrdəki əsgərlərlə şəhər sakinləri şiddətli ox, tüfəng və top atışı ilə onlara darvazadan qazdıqları səngərlərə yaxınlaşmağa macal vermirlər. Üç yüz nəfəri öldürüləndən sonra onlar arxaya çəkilib ... [yazılmayıb] adlı kiçik darvazanın

[1] Həkim Sahib Urmiyadakı katolik missionerlərindən idi.

yanında dayanırlar. Bu döyüşdə səngərlərin arxasında yer alan dövlət ordusu bir neçə nəfərdən artıq itki vermədi.

İngiltərənin Təbrizdəki konsulu bu vaxt Urmiyada səfərdə idi. O, öz təklifi ilə şeyxin yanına gedir[1]. Birincisi, əhalidən ötrü bir neçə günlük möhlət istəyir ki, bəlkə bu qantökmə ilə qətli dayandırsın. İkincisi, şəhərin ətrafında təhlükəli vəziyyətə düşmüş bir dəstə xaçpərəstə görə şeyxə deyir ki, bu xaçpərəstlərin nə malı, nə canı heç bir halda şeyxin ordusunun zərbəsinə məruz qalmamalıdır. O, həmçinin sülhün bərqərar olması və ədavətin aradan götürülməsi haqqında bəzi sözlər söyləyir. Bundan sonra şeyxin Siman adlı sağ əli şəhərə dəvət olunur ki, şeyxin peyğamını İqbalüddövləyə açıqlasın və şəhərdəki xaçpərəstləri çıxarıb başqa yerə köçürtsün. Lakin [şəhərin ətrafındakı] bağlara yaxınlaşan kimi, səngərlərdən birindən ona bir tüfəng gülləsi atılır. Bu halı görən konsul xof, qorxu və ümidsizlik içində cilovunu çəkib Simanla bir yerdə şeyxə tərəf qaçır. Bu hadisədən xəbər tutan şeyx bir neçə süvarisini ona qoşub Sulduzdan Savəcbulağa yola salır və oğlu Şeyx Əbdülqadirə bu barədə bir məktub da yazır ki, onu süvarilərlə Təbrizə göndərsin.

Konsula güllə atmaq əhvalatı İqbalüddövləyə məlum olan kimi, o, konsulun Savəcbulağa getməiyindən xəbərsiz, müsyö Solomona bir peyğam göndərir ki, “Belə bir vaxtda konsulun Urmiya şəhərində qalmağı məsləhət deyil. Şəhər əhalisi o fikirdədir ki, şeyx məhz ingilis konsulunun təhriki ilə şəhərə hücum edib. Bu halda adıçəkilən konsulun şəhərdən hərəkət etməiyi məsləhət deyil. Məbada bir bədbəxt hadisə üz verər, bu da iki dövlət arasında söz-söhbətə səbəb olar və məsuliyyət mənim boynuma düşər”.

İqbalüddövlə oğulları ilə qüllənin başına çıxıb top atmaq əmrini verir. Top gülləsi şeyxin oğlunun mənzil saldığı balaxanaya[2] düşüb oranı darmadağın edir. Məhəmməd Sədiq dəhşətə

---

[1] Əlbəttə, bundan qabaq ingilis konsulu Hacı Sadiq Külahduzun mənzilində keçirilmiş məşvərət yığıncağında İqbalüddövləyə şəhəri təslim etməyi məsləhət görür, lakin İqbalüddövlə bu təklifi rədd edir.

[2] Balaxana – (burada) evin üst mərtəbəsi.

gələrək tez ata minir və üzünü başqalara tutub qışqırır ki, “Bura yaşamaq yeri deyil!” və aradan çıxmaq istəyir. Bu anda digər topçu daha bir güllə atır. Bu səfər güllə Sədiqin atına dəyir və atın dizi ilə Sədiqin ayağını yaralayır. Bunu görən kürdlər top gülləsi qorxusundan xilas olma yolunu qaçmaqda görürlər. Həmin gecə kürdlərdən dörd yüz nəfərə yaxın piyada gəldilər.

Oğlunun yaralanmasından və ordunun əzilməsindən xəbər alan Şeyx Übeydüllahın qəhr odu göyə qalxır və o, ətrafdakı kəndləri dağıtmaq əmrini verir. Bir neçə gün ərzində şeyx səngərlərə gecə basqınları düzəldib atəş açır, ancaq İran ordusuna heç bir xəsarət yetirə bilmir. Sonrakı gün arxaya çəkilərək öz süvarilərinə gedib kəndləri vəhşicəsinə tar-mar etməyi və ələ keçənlərin hamısını qətlə yetirməyi tapşırır. Bu zalım mərdimazarlar üzlərini çevirdikləri hər yeri xarabalığa döndərirdilər. Şəhər tərəfdən gələn on beş nəfər yazıq və fəqir müsafiri tutub şeyxin yanına aparırlar. Şeyx onları buraxmaq istədiyi halda kürdlər israrla onların öldürülməsini istəyirlər, öz ölülərini şeyxin nəzərinə çatdırırlar və axırda onları parça-parça edirlər.

Bu vaxt Urmiyada yaşayış çətinləşir, qəhət və aclıq baş alıb gedir, çörək can qiymətinə olur. Şeyx öz qoşununu qərb tərəfdən şəhərin cənub tərəfinə gətirib şəhərın bayırındakı İqbalüddövlənin mülkü olan Dilgüşa bağı ilə Nəzər bağında səngər düzəldir və yürüş əmrini verir. Nəzər bağı Ərkin qarşısında yerləşirdi. Kürdlər Nəzər bağındakı imarətin üstünə çıxıb oradan Ərki atəşə tuturlar. İqbalüddövlənin hökmü ilə Ərk qülləsinin başındakı topçu səngərdə və qüllədə olan əsgərlərlə Nəzər bağını top gülləsinin hədəfinə çevirirlər. Bir yığın kürd öldürülür, bəziləri isə bağın divarından tullanıb çölə tərəf qaçaraq özlərini Dilgüşa bağına çatdırırlar. İqbalüddövlə kürdlərin ona məxsus olan Dilgüşa bağına gəlişindən xəbər alan kimi topçuya Dilgüşanı top gülləsi ilə dağıtmaq əmrini verir. O bilmirdi ki, altı girvənkəlik güllə Dilgüşanın qalın divarlarını dağıtmaz. Topçu “Bu top Dilgüşanı xərab etməz!” qışqırsa da, sərdar onun sözünə baxmayıb, top atmağı əmr etdi. Topçu iyirmi top [atdı]. Hər atılan top bağın divarında düşmən istiqamətində bir deşik açırdı. Onlar da

tüfənglərini həmin deşiklərdən çıxardıb şəhərliləri güllə atəşinə tuturdular.

Günortadan başlayaraq bu həngamə daha da artdı. Kürdlər bu günü və bu gecəni özləri üçün fürsət bilib şəhərlilərin başına tarixdə görünməmiş müsibət gətirdilər. Topxana başçısı Əmir bəy adlı topçu bir neçə başqası ilə o gün top atmaqdan tamamilə əldən düşmüşdü. İqbalüddövlə çarəsizlikdən darvazanı bağlayıb Dilgüşanı xilas etmək fikrindən dönmüşdü. O biri gün mühasirədə qalanlar Dilgüşa tərəfə baxanda kürdlərdən heç əsər-əlamət də görmədilər. Sevinə-sevinə darvazanı açaraq bağa qaçdılar. İqbalüddövlə də yüz nəfər əsgəri bağa göndərdi. Şəhər sakinləri ilə əsgərlər şeyxin yenidən gəlməyindən qorxaraq bağın divarını səngərə çevirdilər, şəhərə tərəf olan divarı isə bel və külüngün zərbələri ilə yıxdılar. Bağda çoxlu ölü tapıldı. Məlum oldu ki, bağda olarkən kürdlərin çoxu top və tüfəng gülləsinə tuş gəlmişdi.

Beləliklə, heç bir yolla şəhərə qalib gələ bilməyən şeyx Übeydüllah çar-naçar qapıdan dönməli oldu və oturaq yeri üçün Sir dağını seçdi. Bu günlərdə yavər Məhəmməd bəyin başçılığı ilə beş yüz yük silah Təbrizdən Urmiyaya gəldi. Şəhər sakinləri elə cürətlənmişdilər ki, böyükdən kiçiyə qədər hamısı bütün günü İqbalüddövlədən qapını açıb kürdlərə hücum etməyi yalvarırdılar. İqbalüddövlə şəhərin içində hasar möhkəmlətməklə, şeyx isə bayırda xalqa azar verməklə məşğul idilər. On beş günlük cidd-cəhdin nəticəsində şeyx kürdlərin öldürülməsindən başqa bir qazanc əldə edə bilmədi. Qasid gəlib Teymur Paşa xanın altı dəstə əsgər, iki min yaxşı silahlanmış süvari və altı lülə topla şəhərin altı fərsəngliyində* olması xəbərini gətirdi. Teymur Paşa gəlməkdə o qədər də tələsmirdi və xalqın onunla İqbalüddövlə arasındakı nifaq və ədavətdən qaynaqlanan fikrinə görə o, gəlişini ona görə gecikdirirdi ki, Urmiya kürdlərin əlinə keçsin, İqbalüddövlə də öldürülsün. Lakin cənab böyük Sipəhsalar tərəfindən bu məsələyə dair Teymur Paşa xana göndərdiyi teleqraf ona ayaq yeri qoymadı. O, qoşununu qaldırıb, gec də olsa, Urmiyaya yollandı.

Onun gəlişindən xəbər tutan şeyx birincisi yaralı Sədiqi beş yüz nəfərlə onun qabağına göndərdi, özü də bütün ordusu ilə yola düşdü. İki ordu bir-birinə girdi və arada kürdlər Teymur Paşa xanın ordusundan otuz dəvə silah apara bildilər, lakin Teymur Paşa xan arxadan yetişib onlardan böyük miqdarını qırıb yerə sərdi, bir çoxunu isə əsir götürdü. Qalanlar qaçaraq dağa pənah apardılar. Teymurilər daha düşməni təqib etməyib şəhərə tərəf getdilər. Qələbə xəbəri çatan kimi qadınlar və kişilər onları qarşılamağa tələsdilər və teymurilərin sipahı Urmiyanın şimal darvazasının bayır tərəfində çadır qurdu.

Şeyx Übeydüllah məğlub olandan sonra dağdan İsmayılağa qalasına yollandı. Üç yüz həyətlik Əsgərabad kəndi səngər və istehkam qurmuşdu. Şeyxin məğlubiyyətindən xəbər alandan sonra onun qabağını kəsdilər. Şeyx o kəndə hücuma keçdi. Əhali dirənərək müqavimət göstərdi və kürd qoşunundan otuz nəfəri qətlə yetirdi. Lakin güllə ilə barıtları tükənəndən sonra artıq şeyxin ordusunun qarşısında dayanmaq onların güclərindən xaric idi. Şeyx hirs və qəhrlə oranı zəbt edib bütün əhalini qılıncdan keçirtdi.

Teymur Paşa xan öz ordusu ilə kəndin yaxınlığında idi, lakin etinasızlıq və laqeydlik göstərib onların köməyinə gəlmədi. Belə vaxtda bu cür soyuq yanaşmanın səbəbi indiyədək aydın olmadı. Teymur Paşa xan şəhərin kənarında, Çaharbaş adlı dağın ətəyində oturaq salmışdı. Şeyx qəflətən Çaharbaşa həmlə etdi. Orada olan katolik vaizi özünü Teymur Paşa xana çatdırdı. Bu arada döyüş şəhərin bir fərsəngliyində* yerləşən Əbus kəndinə çatdı. Kürdlər yenə qırıldılar, onlardan iyirmi nəfər yerdə qaldı. İran tərəfindən də bir neçə nəfər öldürüldü. Şeyx geri çəkildi və yenə də yaxınlıqdakı kəndlərə basqın etdi. Şeyxin və Teymur Paşa xanın orduları arasında məsafə qırx beş dəqiqədən artıq olmasa da, Teymur Paşa xan birdəfəlik onların ordusunu dağıdıb bu fitnəni kökündən qopartmaq üçün yürüş etməyə bir cəhd göstərmədi.

Zihiccənin səkkizində Şeyx Übeydüllah Teymur Paşa xanın ordusundan uzaqlaşaraq Bəradust tərəfə köçdü. Teymur ona

hücum etmədi, halbuki həmin iş həm onun qüdrəti, həm də ordusunun gücü baxımından imkansız deyildi. Məlum olduğu kimi, şeyxin ordusu Bəradust tərəfdə dağılışdı. Tək qalan şeyx qüssədən və ürək sıxıntısından xəstəliyə düçar olub ələ keçmək qorxusundan oradan öz mülkü Nəhriyə və Mərgura getdi.

Onun gedişindən sonra Teymur Paşa xanın ordusu hər cür qanunsuzluğa və cinayətkarlığa əl atdı. Şeyxin ordusu əlindən qurtulan əhali bu səfər Teymur Paşa xanın ordusunun rəhmsizliyinə, insafsızlığına və ağılsızlığına məruz qaldı. Heç bir dinə etina etməyən Teymur Paşa xan şiəyə, erməniyə, sünniyə, müsəlmana, atəşpərəstə, bütpərəstə və yəhudiyə – hamıya bir gözlə baxardı və onun ordusundakılar heç kəsi soymaqdan çəkinməzdilər. Əhalinin arvadlarını tutub gecələr saxlayırdılar və axırda lüt-üryan buraxmışdılar. Əgər şəhərdə nəsə alırdılar, pulunu verməzdilər. Əgər qəhvəxanaya gedərdilər, orada da hesabı ödəməzdilər, hələ bir şey də özləri ilə aparırdılar. İşləri-gücləri oğurluqla quldurluq olmuşdur. Əhalinin dad-fəryadı göylərə qalxmışdı. Onlar üzlərini İqbalüddövləyə tutub şikayət edərək deyirdilər: “Köhnə kəfən oğrusuna rəhmət! Şeyx bizə qarşı dini ədavət bəsləsə də, başımıza bu qədər müsibət ilə şərəfsizlik gətirmədi. Səbəbi nədir?!” İqbalüddövlə dedi: “Mənim qardaşım Şücaüddövlənin ölümündən sonra Teymur Paşa xan bu günün intizarını çəkirdi. İntiqam almaqdan ötrü əlindən gələn hər cür fitnə ilə müsibəti Urmiya əhalisinin başına gətirir, çünki vaxtı ilə qardaşım onu və onun tayfasını tənbeh edib düz yola gətirmək tapşırığı ilə dövlət tərəfindən bu bölgəyə göndərilmişdi. O, qonaqdır və köməyimizə gəlib.İndi mən bu məsələyə qarışa bilmərəm”.

Urmiyanın zülmə məruz qalmış sakinlərinin şikayətləri ilə fəryadları həddini aşanda və taqətləri tab gətirə bilməyəndə, onlar az qala üsyan qaldırmağa hazır olanda Teymur Paşa xanın Urmiyadan uzaqlaşmağını məsləhət bildilər. O, şeyxin oğluna məxsus Mərgura tərəf irəliləyib oranı da qarət etdi və həddi-hü-

dudu bilinməyən yəğma[1] karvanını vilayətə göndərdi. Süvarilərindən bir neçəsi ətrafları gəzib yanlarından keçəni soyurdular. O vaxt yollar hər tərəfdən bağlanmışdı və heç kəs nə şəhərə gəlməyə, nə də şəhərdən çıxmağa cürət etməzdi. Qəhətlik baş alıb gedirdi.

Bəli, vətəni xilas etməyə gəlmiş Teymur Paşa xanın ordusunun törətdiyi fitnə ilə dağıntı şeyxin qoşununun cinayətlərindən on mərtəbə yuxarı idi. Urmiya bölgəsində yaşayanların hamısı, istər şəhərin içində, istərsə də ətrafında, soyuldu, avadanlıqları məhv edildi, özləri isə İran ordusunun tapdağı altına düşməmək üçün vətənlərini qoyub İranla Osmanlı sərhəddi üstündə biyabanlarda ac-yalavac sərgərdan oldular. Bu əsnada Şeyx Hidayət adlı birisi kürdlərdən altmış nəfəri Urmiya şəhərinə gətirdi və hamısı şeyxülislamın hüzurunda şiə oldular. Şeyxin tərəfdaşları İbrahim xanla Abdullah xan Zərza ailələrini götürüb İranla Osmanlı sərhəddində məskən saldılar. Osmanlı əyalətindən Rəvanduzun qaimməqamına şeyxin və onun əlaltılarının Osmanlı torpağına keçməyinə mane olmaq əmri gəldi. Osmanlı kürdlərindən olan Nemətağa şeyxdən ayrılıb Osmanlı torpağına keçmək istəmişdi. Keşikçilər onu orada tutub başını kəsdilər, malını da zəbt etdilər.

[1] Yəğma – qarətçilik yolu ilə əldə edilmiş qənimət.

# İzahlar

Darülxilafə – xilafət evi, xilafətin paytaxtı.
Darüssəltənə – səltənət evi, İran şahının vəliəhdinin oturduğu şəhər.
Əmiri-kəbir – baş əmir.
Əmiri-nizam – ordu rəhbəri.
Fərsəng (fərsəx, şər'i fərsəng, şər'i fərsəx) – təqribən 6 kilometrə bərabər olan uzunluq ölçüsü.
Gəz – təqribən 104 sm-ə bərabər uzunluq vahidi.
Heri – müasir Əfqanıstanda yerləşən Herat şəhəri.
İspəhbüd (və ya sipəhbüd) – ordu başçısı.
Qazi – hakim, məhkəmə işinə rəhbərlik edən şəxs.
Qazı – qəza edən, din yolunda müharibəyə gedən şəxs.
Qəz – müasir Əfqanıstanda yerləşən Qəznə şəhəri.
Mən (Təbriz məni) – təqribən 3 kq-a bərabər olan çəki vahidi.
Misqal – təqribən 4,64 qr-a bərabər çəki vahidi.
Müstövfi – maliyyə işləri ilə məşğul olan əməkdaş.
Müstövfiyül-məmalik (müstövfiyi-məmalik) – məmləkətlərin müstövfisi, müxtəlif yerlərdə dövlətin baş vergi yığanı və ya maliyyə işləri üzrə müavin.
Mütəvəlli – vəqfi idarə edən şəxs.
Sədri-ə'zəm – baş vəzir.
Sipəhbüd – bax: İspəhbüd.
Təmmuz – suryani təqvimin 10-cu ayı (iyun-iyul aylarına təsadüf edir).
Tənasüx – ruhun guya insandan insana, insandan heyvana və əks istiqamətdə keçməsi barədə bir uydurma inanc.
Vəkilürrüaya – rəiyyətlərin vəkili.
Vəziri-nizam – o zamankı Azərbaycan ordusunda tədarük, maliyyə, nəqliyyat və təsərrüfat idarəsinin rəisi.
Zər' (Təbriz zər'i) – təqribən 105 sm-ə bərabər uzunluq ölçüsü, qollac.

*Qədim türk təqvimində on ikiillik dövrün illəri:*

Siçqan yıl – Siçan ili.
Ud yıl – Öküz ili.
Pars (Bars) yıl – Pələng ili.
Tuşqan (Tavışqan) yıl – Dovşan ili.
Luy yıl – Əjdaha ili.
Yılan yıl – İlan ili.
Yunut yıl – At ili.
Qoy yıl – Qoyun ili.
Piçi yıl – Meymun ili.
Taxaquy yıl – Toyuq ili.
İt yıl – İt ili.
Tonquz yıl – Donuz ili.

# Adlar göstəricisi


**A**
Abaqa xan  175, 181-184, 448
Abbas Mirzə Naibüssəltənə 49-51, 85, 88, 150, 156, 216, 233, 244, 255, 257, 260, 255, 256, 318, 389, 390, 515
Abbasabad 197
Abbasabad qalası 266
Abbasqulu xan Qacar 259
Abbasqulu Mirzə Qacar 263, 272
Abdullah bin Tahir 21
Abdullah xan Zərza 100, 283, 492, 530
Abdullah Seyrəfi 150, 179, 180, 205
Abdullah Zeyd bin Həsən 313, 314
Acıçay 357
Adil ağa 455
Afşin 19, 22, 24-41, 445
Ağa Fəthəli xan 99
Ağa Məhəmməd Baqir Bəhbəhani 381, 383
Ağa Məhəmməd Cəfər 101
Ağa Məhəmməd xan (şah) Qacar 64, 86, 239, 240, 411, 412, 419, 488
Ağa Məhəmməd Zaman 296
Ağa Mir Fəttah 155, 166, 246-250, 360, 361, 471
Ağa Mirzə Hidayətüllah 5
Ağa Mirzə İbrahim 422
Ağa Rza bəy kədxudabaşı 93
Ağa Yusif 241
Ağqoyunlular 257
Alçaq məscid 151
Allahqulu xan qorçubaşı 229
Allahverdi xan 60, 473
Allahyar xan Asəfüddövlə 269, 353
Araz (çay) 22, 42, 65, 230, 241, 242, 267
Arpa xan 452, 453
Arran 454, 460
Astrabad 427-430
Aşağabaş 260
Atabəy (Xacə Şəmsəddinin oğlu) 188
Atabəy Eldəgiz 445
Atabəy Əbu Bəkr 446
Atabəy Məhəmməd Cahan Pəhləvan 445
Atabəy Özbək 446
Atabəy Yusifşah 187
Atropat 444
Azin 31, 33, 34, 37, 38

**B**
Babək Xürrəmi 19-41, 445
Bağdad 8, 17, 128, 131, 175, 182-186, 190, 270, 281, 383, 431, 447, 454, 455
Bağdad xatun 454
Baği-şimal 81, 82, 257, 267, 305, 309, 331
Bağmeşə 90, 91, 167, 215, 413
Barinc 87, 283
Başqala 482
Bayram bəy 454
Bayram xacə 457
Baysunqur Ağqoyunlu 461, 462

Beyrəq 87
Bədiüzzəman Mirzə 4, 428
Bəhaəddin Məhəmməd Amuli 431
Bəhmən Mirzə Bəhaüddövlə 440
Bəhmən Mirzə Qacar 54, 74, 268-271, 280
Bəhram Mirzə Müizzüddövlə 265, 278, 289, 322
Bəhram Mirzə Səfəvi 468
Bəkkə 127, 130
Bərzənd 22, 24-26
Bəsrə 295
Bəşir Türk 37
Bəyim Ağa 411
Bəyverdi bəy 400, 402
Bəzz qalası 22, 26-29, 31, 33-39
Bilankuh 88, 207
Bistam 51, 71, 407
Bitlis 219
Bisütun 62
Böyük atabəy 75, 76, 98, 167, 275, 280, 320, 325, 346, 347, 352, 385
Böyük xan 489
Böyük Xosrov 17, 444
Bu Tahir münəccim 7, 14, 314
Buğa 25, 27-30
Buxara Xuda 31, 33-35, 37
Bürucərd 268, 280, 296, 430

**C**

Cahan Sultan 4, 428
Cahan şah Qaraqoyunlu 467
Cahangir Mirzə Qacar 50, 53-56, 264, 355
Calinus 209
Canibəy xan Özbək 453
Canməhəmməd xan Dəvəlu 241
Cavidan bin Səhl 19, 30
Cəfər Abbasi 13
Cəfər Xəyyat 33, 34, 37
Cəfər paşa 470, 471
Cəfərağa dəftərağası 224
Cəfəri 191, 193, 194
Cəfərqulu xan Dünbüli 154, 156, 227, 232, 238-245, 247, 317
Cəfərqulu xan Qacar Dəvəlu 259, 261, 363, 364
Cəlaləddin Sultan 349
Cəlaləddin Süyuti 431
Cəlil bin Hişam 28, 37
Cəlilağa 495
Cəmşid (padşah) 7, 10, 12
Cəmşid bəy Dünbüli 221, 223, 226, 237
Ciğatu 516, 517
Cövhəri 191, 193
Cürcan 4

**Ç**

Çaldıran 109-113, 222, 225, 228, 467
Çəlik 434, 510- 513, 515, 516, 525
Çərəndab 59, 99, 172, 174, 179, 188, 207, 470
Çərəndab qalası 471, 472
Çingiz xan Moğol 181, 186, 206, 260, 447

**D**

Darüssəlam 17, 20, 21, 23, 39, 74, 179, 447

Daryuş (Təbriz hakimi) 444
Daşkəsən 133, 134
Deynur 21
Dədə Əli 146
Dəməşq Xacə 451, 454
Dilşad xatun 454
Dizəc 69, 87, 241, 361
Dizəcrud 272, 356

**E**
Elgölü 255, 291
Eristov 166, 354, 357
Eşşək adası 274
Etizadüddövlə İbrahim xan 244, 260, 261, 263, 272, 275, 318, 436
Eyvəq 159

**Ə**
Əbdülməcid Dərviş 120
Əbdülqadir 466
Əbdürrəhman Cami 432
Əbu(i) Mənsur Məhəmməd bin Əhməd 13
Əbu Səid Məhəmməd bin Yusif 20, 22, 24
Əbu Səid Teymuri 460
Əbu Təmam Tai 21
Əbülfərəc İsfahani 163
Əbülfəth xan Cavanşir 97, 268
Əflatun 209
Əhər 188, 448
Əhməd bəy 220, 384, 478
Əhməd bin Cəlil 28, 33, 37
Əhməd bin Nəsr 227
Əhməd bin Bəhlul 220
Əhməd Əfəndi 95
Əhməd xan bəylərbəyi 388
Əhməd xan Dünbüli 229-233, 382
Əhməd xan Müqəddəm 239, 260, 412
Əhməd Mirzə Müinüddövlə 53
Əhməd padşah 406, 462, 463
Əhməd paşa 61, 111
Əlaəddin Əta Məlik Cüveyni 182
Əlaəddin (xəttat) 153, 156
Əli Behcət 94, 95
Əli ibn Əbi Talib (ə) 314, 315, 365
Əli bin Əbu Bəkr bin Süleyman 228
Əli bin Hakimbiəmrillah 314
Əli bin Məhəmməd bin Xalid 31
Əli bin Sədəqə 19
Əli bin Tahir 21
Əli bin Züreyq 20
Əli Xan (Marağa hakimi) 494
Əli Xan Dünbüli 253
Əli xan Qoyunlu (Qovanlu) 296
Əli xan Zillüssultan 428, 429
Əli paşa 224, 225, 472
Əli Təbrizi 205
Əli Bəxşi Mirzə 322
Əliqulu xan Qacar Dəvəlu 259, 308
Əlimurad xan Zənd 295
Əlinaq 186
Əlincəq (qala) 446
Əlinəqi Mirzə Rüknüddövlə 430
Əlqas Mirzə Səfəvi 468
Əlqaləndis 79
Əlmütəvəkkiləlallah 13, 14
Əmir bəy Ənvar 191, 192
Əmir Buğa 448

Əmir Çupan 451
Əmir Əli Ağqoyunlu 460
Əmir Hüseyn bin Ağbuğa 453
Əmir xan Kürd 221
Əmir xan Türkman 205
Əmir İsgəndər Qaraqoyunlu 459
Əmir Məhəmməd bin Yusif bin Həsən padşah 462
Əmir Nizaməddin Əskui 128, 131
Əmir Sədrəddin Məhəmməd
Əmir Şeyx Həsən 149, 150
Əmir Teymur Gürgani 109, 455
Əmir Vəhsudan bin Məhəmməd 314
Əmir Zeynəddin 61, 68, 69
Əmirgunə xan Qacar Dəvəlu 437, 472, 473
Əmirzadə Əbu Bəkr 456, 457, 458
Əmirzadə Hacı Hüseyn Mirzə 50
Əmirzadə Ömər 456
Əndərab 45
Əndərqaş 516, 522, 523
Ənvar 191, 192
Ənzab 42, 235
Əradad 444
Ərciyəş
Ərdəbil 22-26, 53-55, 157, 192, 239, 240, 266, 267, 292, 309, 319, 332, 429, 430, 472, 505
Ərdəhan 220
Ərdəlan 86, 115, 263, 280, 290, 344, 345, 441
Ərdəşir Aşkani 444
Ərdəşir Samani 444
Ərəstu 10, 209
Ərğun xan 182-189, 449, 453
Ərmənistan 271
Ərməniyyə 18, 19, 39, 40
Ərşəq 22, 24, 26
Ərvənəq 42, 235, 246, 253, 328, 330, 355, 384
Ərzincan 229, 463
Ərzurum 74, 75, 153, 222, 262, 271, 285, 473
Əsəd bin Rəbiə 107
Əsədüllah xan 296, 297
Əsku 301
Əssar 191
Əşəs bin Qeys 17
Ətamiş (Ətəmiş) 497, 503, 504
Əyyub xan Dünbüli 229
Əziz Fəttah 508, 512, 517
Əziz xan sərdar 145, 216, 251, 278, 279, 293, 284-288, 291, 317, 326, 338, 363, 425, 436, 441

**F**

Feyzüllah bəy 475, 480, 489, 490, 505-507, 523
Fəxrəddin müstövfi 188
Fərəc xan Mükri 284
Fərhad Mirzə Mötəmədüddövlə 115, 116, 290
Fərruxi Sistani 16, 337
Fəsihi 191, 199
Fəthəli bəy Dünbüli 245, 246, 253
Fəthəli xan bəylərbəyi 292, 361, 421
Fəthəli xan Dəvəlu 261
Fəthəli xan Əfşar Urumi 230, 239

Fəthəli şah Qacar 239
Fəzl bin Kavus 28-30
Fəzl bin Səhl 230
Fəzləli 115
Fəzləli sultan 407
Fındıqiyyə 134-136
Firdovsi Tusi 337
Firidun Mirzə Qacar 267, 268, 424
Firuz Mirzə Qacar 89, 277, 279, 429, 437
Füsuni 191, 199

**G**

Gavmişiyan (Gavmişan) 68
Gavrud 397
Gənc Əli xan 473
Gərmrud 75, 235, 325, 326, 397, 431
Gərrus 504, 512, 516
Güştasp 108
Gilan 53, 153, 269, 463
Gülabiağa 487, 491-493, 497, 499, 500, 503, 505, 506, 512, 516, 529

**H**

Hacı Ağaxan qalabəyi 97, 304
Hacı Allahyar 337, 340
Hacı Əbdülmütəllib xan 439
Hacı Əli Əsgər 528
Hacı Əli Əsğər 163, 353, 354
Hacı Fəthəli xan bəylərbəyi 251
Hacı Həsən Əli xan 157
Hacı Hüseyn İsfahani 306
Hacı İbrahim xan Şirazi 278, 295
Hacı Mahmud xan 477
Hacı Məhəmməd Baqir 72
Hacı Mir Məhəmməd Hüseyn 81
Hacı Mirzə Ağası 55, 73, 88, 150, 269, 280, 286, 370
Hacı Mirzə Ağası İrəvani 64
Hacı Mirzə Baqir 72, 81, 166
Hacı Mirzə Baqir Müctəhid 167, 274, 435, 439
Hacı Mirzə Cavad Sədr 348
Hacı Mirzə Cavad Müctəhid 168, 305
Hacı Mirzə Cəfər 79, 103, 169
Hacı Mirzə Əbdürrəhim 168, 255
Hacı Mirzə Əli 69, 91, 369
Hacı Mirzə Əli Əkbər Qəvamülmülk 295
Hacı Mirzə Əli Əsğər Təbatəbai 435
Hacı Mirzə Əli Rza 297
Hacı Mirzə Əliqulu 89, 413
Hacı Mirzə Fərəcüllah 411-413, 419, 421, 423
Hacı Mirzə Haşimağa 79, 352
Hacı Mirzə Həsən Müctəhid 161, 168, 532
Hacı Mirzə Kazım 370
Hacı Mirzə Kazım Əmin 369
Hacı Mirzə Kazım vəkilürrüaya 102, 103, 362, 363, 367, 411
Hacı Mirzə Lütfəli 78, 160
Hacı Mirzə Mehdi Bağmeşəli 413
Hacı Mirzə Mehdi Qazı 351, 352, 366
Hacı Mirzə Məhəmməd Əli 150, 237

Hacı Mirzə Möhsün 351
Hacı Mirzə Musa 79, 93, 161,
Hacı Mirzə Nəsir xan 102, 104, 294, 366
Hacı Mirzə Nəsir xan kədxudabaşı 369
Hacı Mirzə Nəsir xan Təbatəbai 69
Hacı Mirzə Sadiq 50, 56
Hacı Mirzə Şəfi 165, 379
Hacı Mirzə Yusif 50, 72
Hacı Mirzə Yusif xan vəkil 368
Hacı Mirzə Yusif müctəhid 230, 349, 352
Hacı Mirzə Yusif Təbatəbai 161
Hacı Mirzə Zaman 297, 411-413
Hacı Molla Əli 160
Hacı Rəcəbəli 304
Hacı Rəcəbəl xan 336, 337
Hacı Rüstəm bəy 316
Hacı Sadiq 68
Hacı Sadiq Külahduz 535
Hacı Saleh 81
Hacı Seyyid Bayəzid 491, 515
Hacı Seyyid Hüseyn Təbrizi 45, 80, 82, 360
Hacı Seyyid Saleh 505
Hacı Sədrüddövlə 517, 520, 526, 527
Hafiz Məhəmməd İsfahani 112
Halvaçı oğlu 112
Harun ər-Rəşid 13
Henri Lindzi 430
Herat 64, 115, 266, 275, 285, 450, 457, 468, 541
Heri 54, 65, 192 193, 266, 275, 285, 541
Heydəri 191, 194
Heysəm Qənəvi 24, 25
Həbibüllah xan 97, 99
Həkim Əbülfəth 205
Hakkari 223
Həqiri 191, 194
Həlcəb ibn Cədis 108
Həlvan Qüzai 107
Həmdüllah müstövfi 13, 137
Həmədan 16, 51, 53, 184, 206, 268, 280, 376, 449, 467, 482,
Həmid bəy 490
Həmzə xəlifə 109
Həmzə Mirzə (Abbas Mirzənin oğlu)
Həmzə Mirzə Qacar 143, 275, 287, 346, 434, 515, 523
Həmzəağa 475-480, 483-486, 488, 491, 492, 494, 495-500, 502-504, 506-508, 510, 512-515, 517, 525, 527, 530
Həsən bəy bin Mahmud 205
Həsən bəy Rumlu 459-461,
Həsən bin Səhl 28
Həsən xan Sipahani 109
Həsən xan Qacar Dəvəlu 56
Həsən xan Salar 269, 275
Həsənağa 503, 504
Həsən Əli (Cahanşahın oğlu) 459
Həsən Əli bəy 400
Həsən Əli xan 504, 512
Həsən Əli Mirzə Şücaüssəltənə 90, 263, 429
Həsən Əli sultan 407
Həşəmətüddövlə Məhəmməd Hüseyn Mirzə 430
Həştadsər 20, 27-29, 38
Həştrud 235, 345, 397, 453

Həvdər (qala) 244
Hidayət xan 361
Hilal ibn Falic 105
Hillə 131
Hökmabad 58, 59, 67, 68, 101, 303
Hulaku xan Moğol 149, 181, 182, 184, 447, 452, 453, 455, 456
Hüsaməddin Sahib 188
Hüsamüssəltənə Sultan Murad Mirzə 76, 275,
Hüseyn (Sultanəli bəyin oğlu) 222
Hüseyn xan Nizamüddövlə 285, 302
Hüseyn xan Şamlu 468
Hüseynəli bəy Müqəddəm 402
Hüseynəli şah Qaraqoyunlu 460
Hüseynqulu xan Dünbüli 119, 151, 157, 232, 240, 246, 247, 259, 382, 419
Hüseynqulu xan Qacar 359

**X**
Xacə Abdullah Seyrəfi 150, 179, 180
Xacə Hafiz Şirazi 179
Xacə Cəlaləddin 208, 211
Xacə Davud 533
Xacə Əhməd Əfəndi Ağşəhri 95
Xacə Əlaəddin Əta Məlik 179, 183-185, 189
Xacə Əlaəddin Hindu 209
Xacə Əli bəy 57
Xacə Əmir bəy 191
Xacə Qaşğari 263
Xacə Məhəmməd Bəhaəddin 180-182
Xacə Məhəmməd ibn Həsən xan Sipahani 109
Xacə Mübarəkşah Zərrinqələm 179
Xacə Nəsirəddin Tusi 173
Xacə Niyazi Əfəndi 95
Xacə Rəşidəddin Fəzlüllah 206, 208, 450
Xacə Sə'dəddin 211
Xacə Salman Savci 179
Xacə Şəmsəddin Məhəmməd Kəcəci 180, 183-185, 188,
Xacə Yaqut 180
Xacə Ziyaəddin Yəhya Təbrizi 174
Xalıqverdi 219
Xanbaba xan 487, 489, 492, 493, 500, 505, 511, 512, 515, 523
Xanməhəmməd xan 69
Xari 191, 194
Xəlican 330
Xəlil bəy Kəlihə 500
Xəlil Mirzə 443
Xəlil sultan 457, 460, 461
Xəncəst 42, 46, 133, 134, 144, 172
Xətib Təbrizi 204
Xiyaban (məhəllə) 57, 80, 87, 215, 233, 300, 349, 354
Xızırağa Kürən 487
Xosrov xan 269, 275, 530
Xosrov Mirzə 51, 52, 54, 63, 73
Xoy 53, 54, 56, 157, 160, 219, 220, 225, 227-233, 238, 240-242, 244, 245, 251, 256, 267,

286, 287, 317, 330, 332, 384, 397, 453, 467, 531
Xudadad xan 216, 230, 231, 237-239, 245, 246, 254

**İ**

İbrahim bin Leys bin Fəzl 19
İbrahim xan Etizadüddövlə 244, 260, 261, 263, 272, 275, 318, 436
İbrahim paşa 112, 468
İbrahim Xəlil xan Cavanşir 230, 240, 411, 412
İqbal Aştiyani 5
İqbalüddövlə Əfşar 302, 483, 484, 486, 497, 529-537, 539
İldırım Bayəzid 455, 458
İmam Əli (ə) 17, 193
İmam Həsən (ə)
Hüseyn ibn Əli (ə) 62, 72, 90, 169, 254, 350, 362
İmam Museyi-Kazım (ə) 312, 315
İmam Rza (ə) 266
İmaməli Sultan 157
İmamqulu xan 402
İmamqulu Mirzə 476, 525
İmamverdi Mirzə 430
İrəvan 62, 65, 96, 111, 222, 225, 226, 229, 241, 401, 472
İsa bəy Dünbüli 218, 219
İsa Məsih (ə) 117, 427, 482
İsgəndər Mirzə 317, 318, 320
İshaq ibn İbrahim 30
İsmayıl (qala) 530
İsmayıl bəy 220
Ismayıl xan 93
İsmayıl Mirzə Qacar 430
İsmayılabad 345, 442
İsmayılağa (qala) 531, 532, 538
İsmayılağa Qarapapaq 526
İsmayılağa Məmiş 513
İsmət 23, 24
İstanbul 95, 109, 110, 431, 465
İstefanus (qala) 41
İştihard 162
İştihardi 222, 223
İzzəddin kürd 459

**K**

Kaküllahağa 480, 485, 510
Kamran Əfqan 285
Kamran Mirzə Qacar 321
Kazima 191, 199
Keykavus 161
Keyqubad 12, 162
Kəlat 186
Kəlbəli xan bin Əhməd xan 245
Kəlbəli xan Dünbüli 231, 233
Kəmaləddin Meysəm Bəhrani 189
Kəndrud 49
Kərim boyasatan 336
Kərim xan (Bağmeşə) 90
Kərim xan (Xiyaban) 88, 100
Kərim xan Zənd 295, 374, 380, 385, 415-417
Kor Hüseyn Səbzifüruş 336
Köhnə İmamzadə 312-314
Küçəbağ 69, 104, 355, 356, 508
Kürdkəndi 238

**Q**

Qacar Dəvəlu 260
Qacar Qoyunlu (Qovanlu) 260

Qadirağa 475, 476, 480, 485, 487, 489, 490, 494, 496, 498, 499, 503, 504, 512, 516, 522, 523, 526
Qara Məhəmməd 454, 457
Qara Osman 48
Qara Yusif Qaraqoyunlu 120, 455-459
Qaraağac 100
Qarabağ 101, 240, 242, 269, 270, 411, 412, 461, 462
Qaracadağ 20, 22, 46, 55, 157, 229, 240, 267, 330, 397, 471
Qaraçəmən 505
Qaradağ 42
Qaradərə 452
Qaraqışlaq 516
Qaraoğlan Türkman 275
Qarapapaq 486, 489, 490
Qaratəpə 244
Qarazikr 528
Qasım bəy Türkman 462
Qazan xan Moğol 43, 982, 141, 143, 207, 450
Qazı Beyzavi 173, 174
Qazı bəy 223
Qazı paşa 109
Qeysəriyyə 300, 301, 303
Qətran Təbrizi 14, 16, 191, 199, 203
Qılıc bəy (Əhməd bin Bəhlulun oğlu) 220, 221
Qılıc bəy (Sultanəli bəyin oğlu) 222, 223, 225
Qızıl Arslan bin Eldəgiz 445, 446
Qızılcameydan 252
Qızıllı məscid 293, 317
Qoçu bəy 223
Qoyun adası 272, 274
Qriboyedov 51
Qubad (Əmir İsgəndərin oğlu) 459
Quti xatun 186, 187

**L**

Lahican 197, 483, 497, 514, 530
Lalə 69
Lama Anirsit 85
Leylabad 70, 99
Lövlöviyyə 134, 137
Luvarsab Gürci 411
Lütfəli bəy Bigdeli 191, 390, 394, 395, 397, 398
Lütfəli xan Dünbüli 252
Lütfəli xan Qacar 295
Lütfəli xan Zənd 311

**M**

Mahmud xan Dünbüli 218, 223, 241, 244, 245, 299, 317, 371, 477
Mahmud paşa 226, 472
Maku 226, 244, 531
Mansur bəy Mahmudi 222
Marağa 26, 27, 30, 135, 157, 230, 259, 272, 274, 277, 280, 332, 381, 390, 396, 429, 441, 447, 448, 494, 496, 500, 507, 509, 511, 512, 518, 524, 526-529
Maralan 58, 88
Mazandaran 52, 265, 283, 291, 427, 441, 448, 451, 472,
Mehdixan 97

Mehdiqulu xan Qacar Dəvəlu 259
Mehranrud 43, 44, 87, 225, 235, 255, 293
Mehtər paşa 471
Məcdəddin Əsir 182, 183
Məcdülmülk Yəzdi 182
Məcid xan 515, 516, 521, 523
Məğribi 191, 201
Məhadmehin 71, 94, 97, 159, 215, 355
Məhd Ülya 55, 276
Məhəmməd bəy Uramani 290
Məhəmməd bəy vəkilürrüaya 476
Məhəmməd bəy (yavər) 246, 248, 537
Məhəmməd bin Bəvvab 126
Məhəmməd bin Büeys 23
Məhəmməd bin Hümeyd Tusi 19-21, 28
Məhəmməd bin Yaqub 227
Məhəmməd bin Yusif bin Əbdürrəhman 20, 22, 24
Məhəmməd Əli xan 93
Məhəmməd Əli xan Cavanşir 268
Məhəmməd Əli Mirzə 60, 63, 80, 318, 430
Məhəmməd Əmin Xiyabani 337
Məhəmməd Həsən xan Qacar Dəvəlu 239, 241, 259, 266
Məhəmməd Həsən xan Qoyunlu (Qovanlu) 296
Məhəmməd Hüseyn bəy Məlum 201
Məhəmməd Hüseyn xan Bəxtiyari 296
Məhəmməd Hüseyn xan Çələbiyanlu 480, 508
Məhəmməd xan (bəylərbəyi) 270
Məhəmməd xan (kədxuda) 99
Məhəmməd xan Qacar Dəvəlu 241
Məhəmməd xan İrəvani 241
Məhəmməd xan Zəngənə 45, 61, 63, 75
Məhəmməd Kərim Mirzə 53
Məhəmməd Müzəffər 454
Məhəmməd paşa 226, 227, 229
Məhəmməd Rəhim Mirzə Ziyaüddövlə 51, 154, 156-158, 242, 441
Məhəmməd Rza Ağa 530
Məhəmməd Rza Mirzə 8, 378, 413, 531
Məhəmməd Sadiq xan (acudanbaşı) 522, 526. 527
Məhəmməd Sadiq xan bin Hüseynqulu xan Dünbüli 243, 246
Məhəmməd Səid 530, 531, 534
Məhəmməd Sultan Mükri 284
Məhəmməd Tahir Mirzə 320, 321
Məhəmməd Təqi xan Cavanşir 97
Məhəmməd Təqi Mirzə Hüsamüssəltənə 97, 428
Məhəmmədağa Məmiş 487, 492, 495, 497, 500, 506, 507, 510, 526, 527, 530
Məhəmmədiyyə 56, 82, 256, 271
Məhəmmədqulu xan Cavanşir 268

Məhəmmədqulu xan Qacar 144
Məhəmmədqulu Mirzə (Fəthəli şahın oğlu) 260
Məhəmmədqulu Mirzə Məlikara 263, 427, 428
Məhəmmədyar bəy 50
Məkkeyi-müəzzəmə 105, 106, 127, 132, 139, 321,
Məqbərətüş-şüəra 190
Maqsud bəy bin Məhəmməd 220, 461
Məqsudiyyə 134, 137
Məlhəmi 191, 202
Məlik əş-Şəmsəddin Kərət 447
Məlik Əşrəf 453
Məlik Fəxrəddin 450
Məlik İmaməddin Qəzvini 187
Məlikkəndi 496
Məlik Qasım Mirzə 272, 357, 434, 476, 496
Məlik Nofəl bin Səhabil 214
Məlik şah Səlcuqi 427, 445
Məlik Şəmsəddin (Xəlat hakimi) 458
Məlikara 4, 263, 427-429
Məməqan 356
Məməndağa 480, 492
Məmun Abbasi 19-22
Məngu Qaan Moğol 447
Məngur 490, 491, 493, 496, 508, 510, 511, 513, 518, 548, 552
Mənuçöhr xan Gürci Mötə-mədüddövlə 429
Mərcaniyyə 134, 137
Mərənd 218, 225, 229, 235, 241, 354, 397, 473
Mərgur 480, 481, 483, 491, 514, 530, 531, 539
Mərhəmətabad 414, 516
Məruf 191, 201
Məsih bin Həsən bəy 461
Məsihi 191, 200
Məsud 188
Məsud bin Məlik şah Səlcuqi 445
Minəağa 475, 496, 512, 522
Mir Cəmaləddin Ağa 532
Mir Əbdülqəffar 103, 109
Mir Əli Əkbər 103, 344, 349
Mir Hüseyni Herəvi 200
Mir Məxdum 349
Mir Seyyid Şərif 174
Mirağa 301-304
Miranşah 455, 456, 458
Miri bəy 494
Mirzə Abbas (vəzir) 64
Mirzə Abbas (kədxuda) 100
Mirzə Abdullah Əmin 368
Mirzə Abdullah xan 100
Mirzə Abdullah Təsuci 119
Mirzə Ağaxan Nuri 167, 275, 296, 320, 413, 414, 420
Mirzə Cəfər (Kərim xanın vəziri) 233, 416
Mirzə Cəfər (Mirzə Əhmədin oğlu) 432
Mirzə Cəfər (vəkil) 365, 387, 389, 410,
Mirzə Dədəoğlu 336
Mirzə Əbdülcabbar 351
Mirzə Əbdüləli 101
Mirzə Əbdülfəttah 349
Mirzə Əbdülkərim 367
Mirzə Əbdülqəffar 367

Mirzə Əbdülvəhhab (kələntər) 297
Mirzə Əbdülvəhhab (vəkil) 354, 357, 361, 363, 364,
Mirzə Əbdülvəhhab
Mişkin 22, 137, 157, 319, 339, 502
Mirzə Əbdülvəhhab Mötə-mədüddövlə 376
Mirzə Əbdürrəhim xan 372
Mirzə Əbu Bəkr Teymuri 457
Mirzə Əbu Məhəmməd Şəhri-yarülmülk (Şəhriyarülmülki, Şəhriyarülmüluk) 411, 415, 417, 418
Mirzə Əbu Talıb  92, 162, 393
Mirzə Əbülfəth 410, 411
Mirzə Əbülhəsən 352, 410
Mirzə Əbülqasım (ev yiyəsi) 80
Mirzə Əbülqasım (şeyxülislamın oğlu) 167, 435
Mirzə Əbülqasım (təzkirəçi) 477
Mirzə Əbülqasım Hüseyni Fərahani 53, 55
Mirzə Əbülqasım qaimməqam 264, 422
Mirzə Əbülqasım Müinülmülk 422
Mirzə Əbülqasım şeyxülislam 348, 349
Mirzə Əhməd xan 73
Mirzə Əhməd xan Saidülmülk 80
Mirzə Əhməd müctəhid 78, 79, 165, 168, 354, 432
Mirzə Əhməd münşibaşı 299, 308, 525
Mirzə Əhməd Ərdəlani 86
Mirzə Əhməd Təbrizi 72
Mirzə Əhmədağa 168
Mirzə Əli (kəhriz sahibi) 59, 69
Mirzə Əli Əkbər (Hacı Mirzə İbrahim xanın oğlu) 296, 297
Mirzə Əli Əkbər mütərcim 154, 159
Mirzə Əli Əsğər şeyxülislam 167, 346, 347, 435
Mirzə Əli Əşrəf 410
Mirzə Əli münəccimbaşı 101
Mirzə Əli Rza 297
Mirzə Əlvənd bin Yusif 463
Mirzə Ərdəlani 344, 345
Mirzə Əsədüllah 191
Mirzə Əsədüllah xan vəkilür-rüaya 371, 420
Mirzə Əsədüllah müstövfi 411
Mirzə Əsədüllah şeyxülislam 350
Mirzə Ətaüllah 349, 350
Mirzə Fərəcüllah Təbrizi 419, 421, 423
Mirzə Fəthəli xan Sahibdivan 145, 159, 295, 313, 442
Mirzə Fəthəli xan Şirazi 88, 278
Mirzə Fəzlüllah (vəzir) 271, 275, 277, 288, 413
Mirzə Fəzlüllah Əliabadi 271
Mirzə Fəzlüllah xan 371
Mirzə Fəzlüllah Şirazi 137, 207, 451
Mirzə Haşimağa qazı 79, 352
Mirzə Həsən xan (əmiri-kəbirin qardaşı) 74
Mirzə Həsən xan vəziri-nizam 68, 275

Mirzə Həsən müstövfiyülməmalik 420, 422
Mirzə Həsən Zünuzi Fani 240
Mirzə Hüseyn 255
Mirzə Hüseyn (şeyxiyyə) 439
Mirzə Hüseyn xan 300, 301
Mirzə Hüseyn Məməqani 164
Mirzə İsa Ələvi Fərahani 244
Mirzə İsa Hüseyni Fərahani 190, 260, 261, 344, 350
Mirzə İshaq xan 409, 410, 413, 414, 425
Mirzə İsmayıl Məməqani 165
Mirzə İsmayıl Təfrişi 417, 422
Mirzə Kazım Təbatəbai 102
Mirzə Qəhrəman 144, 145, 282, 308, 326, 437
Mirzə Quləməli 410
Mirzə Qulu Nəvai 420
Mirzə Lütfəli xan 94
Mirzə Mahmud xan 299, 317, 371
Mirzə Mahmud (şeyxülislam) 348
Mirzə Mehdi xan (gərmrudlu) 325
Mirzə Mehdi xan Astrabadi 392, 394, 397
Mirzə Mehdi qazı 344
Mirzə Mehdi müctəhid 161
Mirzə Mehdixan Bəyanülmülk 322
Mirzə Məhəmməd Aştiyani 275
Mirzə Məhəmməd Cəfər sədr 380
Mirzə Məhəmməd Cəfər vəkil 365, 387, 389, 390
Mirzə Məhəmməd Əxbari 359
Mirzə Məhəmməd Əli qazı 344
Mirzə Məhəmməd Əli Təbrizi 196, 410
Mirzə Məhəmməd Əli vəkil 367, 370
Mirzə Məhəmməd xan bəylərbəyi 296
Mirzə Məhəmməd xan Qacar Dəvəlu 289, 437
Mirzə Məhəmməd xan Qacar Qayaqlu 241
Mirzə Məhəmməd xan Şəriküd-dövlə 412
Mirzə Məhəmməd İbrahim 317
Mirzə Məhəmməd Kazım 400
Mirzə Məhəmməd qazı 344
Mirzə Məhəmməd Rəfi 233, 350, 364, 380, 383, 387, 388, 390
Mirzə Məhəmməd Rəzi 386, 389, 390
Mirzə Məhəmməd Rza 378
Mirzə Məhəmməd Rza kələntər 413
Mirzə Məhəmməd Rza nəsəqçibaşı 8
Mirzə Məhəmməd Şəfi 391, 395, 397, 399, 401, 403-405, 407, 420
Mirzə Məhəmməd Təbrizi 233
Mirzə Məhəmməd Təqi qazı 344
Mirzə Məhəmməd Təqi vəzir 384
Mirzə Məhəmməd Zəki 420
Mirzə Məsud xan 369
Mirzə Musa xan (münşi) 379, 385, 390, 409, 414, 425

Mirzə Musa xan (vəzir) 422
Mirzə Nəbi 191, 195
Mirzə Nəbi xan Mazandarani 436
Mirzə Nəsir qazı 381
Mirzə Nəsir müstövfiyülməmalik 410, 420
Mirzə Nəsrüllah Ərdəbili 55
Mirzə Nəzərəli 285
Mirzə Nizaməddin 299, 300
Mirzə paşa 103, 357, 360, 361, 410
Mirzə Rəfi 371, 380, 389
Mirzə Rəfi xan Mötəmin 368
Mirzə Rəsul 416
Mirzə Rəzi müstövfi 372-374, 376, 378, 382, 386,
Mirzə Rza (Hacı Mirzə Kazımın qardaşı) 370, 375
Mirzə Rza (sərdar) 291
Mirzə Rza (kələntər) 414, 424, 425
Mirzə Rza Mazandarani 298, 442
Mirzə Rza Sədiqüddövlə 298, 299
Mirzə Sadiq (Sadiqiyyə mədrəsəsi) 162
Mirzə Sadiq qaimməqam 277, 279, 287, 289, 299, 413, 438
Mirzə Sədrəddin qazı 344
Mirzə Sədrəddin Məhəmməd 103, 357, 467
Mirzə Səid 50
Mirzə Şəfi 373, 376, 381, 382, 398
Mirzə Şəfi sədri-əzəm 412, 420
Mirzə Şərəfcahan 349
Mirzə Təqi (Nadir Mirzənin qonşusu) 72
Mirzə Təqi xan Fərahani (əmiri-kəbir) 73, 254, 435
Mirzə Təqi xan əmiri-kəbir
Mirzə Təqi xan vəziri-nizam 270, 271, 285
Mirzə Təqi Qəvvamüddövlə 275, 422
Mirzə Təqi Məməqani 165
Mirzə Yəhya 101
Mirzə Yusif xan müstəşarülvəzərə 302
Mirzə Yusif müstövfiyülməmalik 414, 420
Mirzə Yusif Nəqibüləşraf 103, 344
Mirzə Yusif Sipahani 143, 145
Mirzə Zaman 410, 411
Mirzə Zaman müstövfi 417
Mitridat 444
Miyandüab 434, 466, 488, 491, 494-497, 500-504, 514, 515, 526, 531, 533
Molla Abdullah 499
Molla Əbdülbaqi 191, 193
Molla Əlaəddin 205
Molla Həşri 92
Molla Qulamrza 429
Molla Mahmud 433
Molla Mehrəli 432
Molla Məhəmməd Əssar 198
Molla Məhəmməd Həsən pişnamaz 151
Molla Məhəmməd Məməqani 163, 164
Molla Möhsün Feyz 161
Molla Nəqi 85

Molla Təqi 431
Molla Yusif Dehxarqani 169, 170
Mosul 19, 227, 454, 457, 469
Mötəsimbillah 22, 23, 30-32, 37, 39, 130
Mütəzz 162
Mövlana Qütbəddin Şirazi 174
Mövlana Lisani Şirazi 175, 176, 194, 195
Mövlana Mübarək 180
Mövlana Şəmsəddin Müzəffər 174
Mövlana Şükrüllah Muğani 109
Muğan 22, 26, 399, 445, 449, 454, 459, 460
Muğancıq 244
Murad paşa 470, 471
Musa xan 407, 452, 453
Mustafa əfəndi 111
Mustafa xan Qacar Dəvəlu 259
Mustafaqulu xan Qaragözlü 309, 500
Mustafaqulu Mirzə 52
Müəyyidüddövlə 280-283, 289-291, 439-441
Müḥəmməd peyğəmbər (s) 4
Mühyiəddin Bərdəi 453
Müizzüddövlə Bəhram Mirzə 157, 158, 265, 278, 289, 322, 323
Mükri 291, 266, 274, 475, 481, 483-487, 491, 493, 496, 498, 499, 501, 503, 504, 511-514, 516, 518-520
Müqimi 191, 201
Mürtəza Mirzə 120, 140, 147, 311, 314, 315, 322
Mürtəzaqulu xan Dünbüli 229, 233
Mürtəzaqulu xan Qacar Dəvəlu 259
Müstəsim Abbasi 182
Müşkənbər 143
Mütəvəkkil (bax: Əlmütəvəkkiləlallah)
Müzəffərəddin Mirzə 378, 379, 364, 425, 525
Müzəffəriyyə 134, 137, 460

**N**

Nadir şah Əfşar 4, 133, 135, 227, 295, 373, 382, 392, 395, 399, 404, 407, 410, 411
Naxçıvan 111, 220, 221, 225, 228, 354, 357, 449, 463
Nasir Abbasi 445
Nasir bin Xosrov Ələvi 139, 140
Nasir Xosrov Qubadyani 16, 139
Nasirəddin Mirzə Qacar 271
Nasirəddin şah Qacar 11, 12, 316, 424, 430
Nemətabad 87
Nemətağa 540
Nəcəfqulu xan (Fəzləli ağanın oğlu) 119
Nəcəfqulu xan Dünbüli 103, 216, 230, 233, 234, 236, 237, 245-247, 249-251, 253, 254, 384, 386, 416, 418
Nətənz 192
Nəzər bəy 222
Nəzərəli xan 354
Nikola(y) 51, 64
Nisari 191, 202

Novbər 58, 59, 93, 117, 215, 251, 359, 369
Nurməhəmməd xan Türkman 306
Nüsrətüddövlə 90
Nüsrətüddövlə Firuz Mirzə 277, 279, 287, 359, 429, 437, 438

**O**
Osmanağa Kürək 504
Osman bin Əffan 17, 296
Osman bin Qutluq bəy Ağqoyunlu 460
Osman paşa 222, 469, 470
Ovacıq 225, 28

**Ö**
Ömər bin Xəttab 17
Övhədəddin Ənvəri 99

**P**
Paskeviç 246, 247, 249, 354, 355, 360,
Petrov 96
Pir Budaq (Təbriz hakimi) 144, 226
Pir Yəhya Sufi 179
Pirqulu xan Qacar 244
Püli-səngin 49, 91

**R**
Rağib 191, 195
Rəhim xan 263, 484, 515, 527
Rəşid bəy 481
Rəşidiyyə 95, 134, 136, 137, 206
Rudəki 8, 16
Rudəlrud 32, 33, 39
Rüknüddövlə 277, 278, 430
Rüstəm xan 253, 407
Rüstəm Mirzə Ağqoyunlu 462
Rzaqulu xan Hidayət 264, 265, 270, 373
Rzaqulu xan Qacar 259
Rzaqulu Mirzə 270, 496
Rzaqulu Mirzə Əfşar 402, 404, 407,

**S**
Sadiq xan Şəqqaqi 237-239
Sahib Bəhaəddin Məhəmməd Cüveyni 180, 182
Sahibabad meydanı 153, 155, 336, 461
Saib Təbrizi 191, 196, 197
Salman bəy Dünbüli 223-225
Salman xan Dünbüli 229, 233
Sam bin Təhmasib Səfəvi 196
Sam Mirzə 281
Savə 179, 330, 458
Savəcbulaq 184, 291, 466, 475, 476, 480, 483-485, 488-490, 492, 496, 497, 500, 501, 503-505, 511, 512, 515, 517, 518, 520, 525, 530, 535
Sen-serkis 531
Seyfülüləma 526
Seyyid Cəmaləddin 312, 314
Seyyid Heydər 179
Seyyid Həmzə 91, 92, 141, 190, 291, 301-303, 311, 312, 315, 317, 322, 324
Seyyid Həsən bəy 109, 305
Seyyid İsmayıl Dibac 103
Seyyid Kamal 508
Seyyid Kazım 380

Seyyid Mürtəza Züssəmaneyn 465
Seyyid Rəzi 465
Səbəlan 45
Səburi 191, 197
Sə'dəddin 184, 211
Sə'di bin Əhzəm 20
Sə'di Şirazi 189, 203
Sə'düddövlə Yəhud 449
Səhənd 42, 43, 224, 357, 294, 442, 505
Səhlabad 256
Səidabad 252
Səlahəddin Əyyubi 228
Səlimxan Çarduli 491
Səlmas 53, 97, 157, 223, 225, 229, 244, 247, 261, 319, 397
Səncəran 101, 335
Sərab 45, 157, 159, 166, 186, 188, 192, 235, 237-239, 291, 292, 329, 345, 407, 442, 462
Səvarağa 480, 485, 492, 503, 504
Sinan paşa 222
Sisianiov 359
Söhrab bəy 336
Sulduz 486, 490, 497, 535
Sultan Bayəzid Osmani 221, 455
Sultan Cəlaləddin Xarəzmşah 446
Sultan Cüneyd Səfəvi 460
Sultan Əbu Səid Bahadır xan 451, 453, 460, 465
Sultan Əhməd bin Üveys 455, 457, 458
Sultan Əhməd Təkudar 184-187, 448, 449
Sultan Əli Mirzə 461, 462
Sultan Heydər Səfəvi 310, 460, 461
Sultan Həmid 90
Sultan Həmzə Mirzə 205, 470, 471
Sultan Xəlil Ağqoyunlu 460, 461
Sultan Məhəmməd Xarəzmşah 180
Sultan Məhəmməd Xudabəndə 221, 222, 451, 471
Sultan Məsud Səlcuqi 445
Sultan Murad (Dördüncü) 229
Sultan Murad Ağqoyunlu 463, 464
Sultan Murad xan 111
Sultan Səlim Osmani 109, 113, 463, 467
Sultan Süleyman xan Qanuni 111, 112, 176, 220, 468, 469
Sultan Üveys 454, 457
Sultan Yaqub Ağqoyunlu 257, 461
Sultanabad 291
Sultanəli bəy Dünbüli 221
Sultaniyyə 276, 287, 451, 458, 459, 463, 469
Sükmənabad 219-223, 225, 229
Süleyman xan Çarduli 500, 511
Süleyman xan Etizadüddövlə Qacar 244, 261
Süleyman xan Əfşar Əsədabadi 160, 167, 274, 346, 435
Süleymaniyyə 134, 137, 469
Sürxab 42, 45, 48-50, 80, 91, 93, 109, 144, 176, 190, 207,

215, 230, 304, 315, 330, 369, 374, 413, 470

**Ş**

Şah Abbas (Birinci) 144, 196, 201, 205, 223, 292, 333, 471-473
Şah Abbas (İkinci) 197
Şah Abbas (Üçüncü) 398, 399
Şah İsmayıl (Birinci) 110, 112, 113, 310, 463, 464, 467
Şah İsmayıl (İkinci) 205, 221
Şah Nemətüllah 195
Şah Sultan Hüseyn Səfəvi 4, 342, 407, 428, 454, 455
Şah Süleyman Səfəvi 62, 197, 410
Şah Şüca bin Məhəmməd Müzəffər 454
Şah Təhmasib (Birinci) 111, 152, 156, 176, 191, 195, 215, 219-222, 410, 468, 469
Şah Təhmasib (İkinci) 392, 398, 399
Şah Yəhya 454
Şahbaz xan Dünbüli 229, 231, 233, 241, 245, 384
Şahgölü 255, 256, 347
Şahqulu 223
Şahqulu 111
Şahrux Bahadır 459
Şahrux xan 471
Şahrux ibn Teymur 457-459
Şahrux Mirzə Gürgani 4, 192, 201, 404-407, 428
Şahverdi Dünbüli 223
Şahzənan 4, 428
Şami-Qazan – bax: Şənbi-Qazan
Şapur 108, 281
Şeşgəlan 49, 60, 80, 91, 335
Şeyx Abdullah 502
Şeyx Bəhlul Dünbüli 219
Şeyx Əbdülqadir 484, 491, 500, 505, 535
Şeyx Əhməd bin Əhsai 164, 219
Şeyxəli xan Zəngənə 62, 63, 430, 531
Şeyxəli Mirzə 430
Şeyx Həsən (Böyük) 452, 453
Şeyx Həsən (Kiçik) 149, 150
Şeyx İbrahim Dünbüli 219
Şeyx İbrahim Şirvanşah 457
Şeyx Qiyasəddin Məhəmməd Təbrizi 191
Şeyx Mahmud Şəbüstəri 191, 200
Şeyx Məhəmməd Həsən 379
Şeyx Məhəmməd Hüseyn 347, 348
Şeyx Məhəmməd Siyahpuş 310, 311
Şeyx Məhəmməd Yusif Bəhrani 383
Şeyx Müfid 465
Şeyx Sədiq 534
Şeyx Sədrəddin Ərdəbili 192
Şeyx Sədrəddin Məhəmməd Qəzvini 173
Şeyx Səduq 410
Şeyx Übeydüllah 96, 466, 475, 480-484, 493, 499, 500, 505, 526, 530-532, 536-538
Şəbüstər 247, 355, 384
Şəha (ada) 272
Şəha (bölgə) 368, 370
Şəha (göl) 42, 46, 272,

Şəkur bəy 527
Şəms (Şəmsəddin) Təbrizi 191, 196
Şəmsəddin Əxlati 458-459
Şəmsəddin Məhəmməd Cüveyni 447-449
Şəmsüşşüəra 281
Şəmsülüləma 68, 169, 304
Şənbi-Qazan 137-141, 207, 450, 472
Şərəf (pəhləvan) 335, 336
Şərəf xan 219, 228, 229
Şərif Təbrizi 175, 176, 191, 194, 195
Şərur 221, 222, 228, 463
Şeymət bin Hulaku 149
Şəndabad 330, 355
Şirvan 27, 230, 242, 245, 454, 457-459, 461
Şirvanşah 457, 458, 461
Şövqi 191, 196
Şuşa 54, 230, 270
Şüaüddövlə 308
Şüaüssəltənə 436
Şücaüddövlə 483, 539
Şüştər 281, 412
Şütürban 60, 92, 163, 215, 335

**T**

Tacəddin Əlişah Ceylani 189, 190, 207
Tacizadə Cəfər Çələbi 112
Taclı xanım 110-112
Talış 22, 53, 319
Tarəm 458
Tehran 5, 50, 64, 95, 162, 167, 297, 411-413, 429-431, 435, 438, 439, 505, 515, 518, 523
Teymur Paşa xan 531, 534, 537-540
Teymurtaş bin Çupan 452
Təbəristan 459
Təbərrük (qala) 115
Təhmasib Mirzə Müəyyidüd-dövlə 280, 338, 439
Təqi Kuzəgər 337
Təlhə bin Tahir 21
Tərxan 30
Təsuc 471
Toğrul Səlcuqi 445
Topraqqala 262
Tuqi 191, 197
Tuluy xan
Tunis 447
Turmış sultan 463
Tuysərkan 50, 51, 55, 280, 430

**U**

Ucan 235, 264, 265, 452, 459
Uğurlu (Uğuryu) Məhəmməd 461
Urmiya 52, 53, 65, 66, 97, 103, 132, 157, 170, 223, 225, 230, 239-241, 261, 272, 274, 302, 332, 395, 396, 466, 487, 497, 510, 512, 518, 529-540
Uzun Həsən Ağqoyunlu 48, 153, 257, 459

**Ü**

Übeydüllah xan Özbək 191
Üczi 191, 197
Üçkilsə 96
Ünsüri 337
Ürgənc 263
Üzri 191, 198

**V**
Veydəhr 235, 419
Vəli bəy 220
Vicuyə 61, 67, 100, 217, 311, 312, 314, 335, 438
Vilankuh (bax: Bilankuh)
Vircrud 235
Vüqui 191, 202

**Y**
Yanıq 70, 71, 77, 81, 82, 143
Yarməhəmməd xan Əfqan 275, 285
Yeni Çeşmə 60
Yeni Hisar 110
Yəhya (Xacə Şəmsəddinin oğlu) 188
Yəhya xan bin Mirzə Nəbi xan 436
Yuxarubaş 260
Yusif Ağa 471
Yusif bəy 335, 336
Yusif şah bin Həsən şah 109, 124

**Z**
Zal paşa 226, 229
Zeynəl bəy 226
Zəfər bin Əla Sə'di 31
Zərzay 491, 492
Zübeydə xatun 13, 17, 47, 48
Zülfüqar xan Damğani 263
Zülfüqar xan Qaramanlu 472, 473

# Mündəricat


Nadir Mirzənin nadir əsəri ........ 3
[Müqəddimə] ........ 7
Təbriz ........ 13
Babəkin Afşin tərəfindən tutulması ilə nəticələnmiş xürrəmi fitnəsi haqqında dastan ........ 19
[Təbrizin coğrafiyası] ........ 42
Təbrizin kəhrizlər şəbəkəsi haqqında ........ 47
Sakinlərin sayı haqqında ........ 83
Məhəllə adları və məhəllələr haqqında ........ 87
Rəsulullahın (s) əcdadları haqqında ........ 105
Təbrizin uzunluq və en dairələri haqqında ........ 115
Qədim və yeni binalar haqqında ........ 119
Təbriz üləmalarının iki qismi haqqında ........ 164
Təbrizin qədim və yeni məqbərələri və qəbiristanlıqları haqqında ........ 172
Təbrizin şairləri və həkimləri ........ 191
Təbrizin həkimləri və ədibləri ........ 204
Rəb'i-Rəşidi haqqında ........ 206
Təbriz qalası haqqında ........ 215
Dünbüli tayfasının əvvəli və axırı haqqında ........ 218
Şahgölü haqqında ........ 255
Baği-şimal haqqında ........ 257
Qacar şahənşahları dövründə hicrətin hazırkı min üç yüz birinci ilinə qədər Təbrizdə olmuş hakimlər və ordu əmirləri haqqında ........ 259
Təbrizin meyvələri və onların növləri haqqında fəsil ........ 327
Qısa şəkildə təbrizlilərin adətləri və ədəb-ərkan qaydaları haqqında fəsil ........ 332
Bu mübarək böyük şəhərdə məskunlaşmış görkəmli ailələr haqqında ........ 344
Keçən çağlarda məşhurlaşmış başqa bir nəsil ........ 409
Günahları bağışlanmış mərhum (?) və məbrur (?) müəllifin özü şahzadə Nadir Mirzə haqqında bir neçə söz ........ 427

Həzrət vəliəhdin Azərabadəganda hökmranlığına dair qeydlər ........................................................................436
Keçmiş zamanlardan bu günə qədər Təbrizə hökmranlıq etmiş padşahlarla başçılar haqqında.............................444
Türkman padşahlarından sonra bizim günümüzədək Təbrizə hakim olanlar haqqında...........................................464
Hüvəllahü-təala ........................................................................474
Şeyx Übeydüllahın meydana çıxması və tarixə “kürdlərin qiyamı” adı ilə düşmüş 1297-ci il üsyanı ..............475
İzahlar ........................................................................541
Adlar göstəricisi ........................................................................543

ŞAHZADƏ NADİR MİRZƏ QACAR

# TƏBRİZ DARÜSSƏLTƏNƏSİNİN TARİXİ, COĞRAFİYASI VƏ GÖRKƏMLİ ŞƏXSLƏRİ

Bakı – "Elm" – 2019

Nəşriyyatın direktoru **Hafiz Abıyev**

Kompüter tərtibçisi **Ramil Əzizov**

---

Formatı 60x84 $^{1}/_{16}$. Həcmi 35,5 ç.v. Tirajı 500 nüsxə
Sifariş №2. Qiyməti müqavilə əsasında

"Elm" RNPM-nin mətbəəsində çap edilmişdir
*(İstiqlaliyyət, 28)*